

# NOBEL MÜKAFATI LAUREATLARI

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında"**
2007-ci il 24 avqust tarixli
sərəncamı ilə nəşr olunur.

# ALBER KAMÜ

## SEÇİLMİŞ ƏSƏRLƏRİ

Şərq-Qərb
1986-cı ildən
East-West
since 1986
BAKI
2013

**Alber Kamü. Seçilmiş əsərləri.**
Bakı, "**Şərq-Qərb**" Nəşriyyat Evi, 2013, 496 səh.

**ISBN 978-9952-32-120-3**

Fransız dilindən tərcümə edən
və ön sözün müəllifi:

**CAVANŞİR YUSİFLİ**

Redaktor:

**SALAM SARVAN**

Korrektorlar:

**AQŞİN MƏSİMOV**
**YEGANƏ MEHDİYEVA**
**ELSEVƏR MURADOV**

Mətn: Bakı Slavyan Universitetinin
nəşriyyatı
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013
www.eastwest.az
www.fb.com/eastwest.az

# ALBER KAMÜ - ATILMIŞ İNSANIN PƏNAHI

## Həyatı

Alber Kamü o zaman Fransanın müstəmləkəsi olan Əlcəzairin şimal-şərq rayonunda, indi Annaba adlanan Bone liman şəhərinə yaxın Mondovi kəndində doğulub. O, hərbi veteran və şərab zavodunda yükdaşıyan fəhlə Lüsyən Avqust Kamünün və evdar qadın olmaqla yanaşı, günün yarısını fabrikdə çalışan Mari Katerinin ikinci oğlu idi. Buna baxmayaraq, Kamü özü hesab edirdi ki, onun atası mənşəcə elzaslı olub və bioqraf Herbert Lottman özünün bioqrafik toplusunda göstərirdi ki, *Camus* soyadı mənşəcə bordoludur və birinci *Camus* XIX əsrin əvvəllərində Fransadan Əlcəzairə gələn ilk emiqrantların dəstəsində olub. Adıçəkilən bioqrafik toplu nəşr edilən kimi *"The New-York Times Book Review"*nin İngiltərə üzrə icmalçısı Con Starrok yazırdı: "Herbert Lottmanın qələmində Kamünün həyatı həm Fransada, həm də İngiltərədə yazılacaq ən mükəmməl kitab sayılmalıdır, bu, sənətkar əməyinə və taleyinə məhəbbətdən doğan gözəl bir nümunədir". Kitab Londonda nəşr ediləndə Kristofer Hitkens "*New Statesman"* dərgisində İngiltərə oxucuları ilə fikrini bölüşürdü: "Lottman gözəl və mükəmməl bir kitab ərsəyə gətirib... Detallar və diqqət misilsizdir... Hazırda biz, ən azı, azadlıq və ələlxüsus, konkret olmağın əhəmiyyəti haqqında açıq səsə malikik..."

Kamünün hələ bir yaşı tamam olmamış, I Dünya müharibəsi başlayan kimi atası hərbi xidmətə çağırılır və 1914-cü ildə oktyabrın 11-də ilk Marna döyüşündə aldığı yaradan dünyasını dəyişir. Uşaq ikən Kamünün atası

barədə öyrəndiyi yeganə şey o olur ki, bir dəfə kütlə qarşısında icra edilən edam səhnəsində iştirakı zamanı möhkəm təsirlənir və ölüm yatağına düşür. Müəllifin "Yabançı" romanında toxunduğu və "Gilyotin haqqında düşüncələr" adlı essesində bir daha xatırlatdığı bu hadisə Kamüyə dərindən təsir etmiş və ömrü boyu edam cəzasına qarşı olması ilə nəticələnmişdi.

Atası öldükdən sonra anası və böyük qardaşı Əlcəzairə köçüb, burada dayısı və nənəsi ilə birgə Belkur adlı fəhlə rayonunda yaşamalı olurlar. Kamünün savadsız anası Katerin bir qulağı kar və danışığında qüsur olan qadın idi. Silah-sursat zavodunda çalışırdı və ailəyə kömək məqsədi ilə boş vaxtlarında evlərə gedib təmizlik işləri görürdü. Sonradan yazdığı, ancaq tamamlaya bilmədiyi "İlk insan" romanında Kamü həyatının bu məşəqqətli dövrünü xatırlayır, kasıblıq və səfalət illərinin dərdini danışırdı.

"*Ecole Communlae*"də ibtidai sinfə gedən Kamünün buradakı çoxsaylı müəllimlərindən yalnız biri günlərin birində onun dərin zəkaya malik olduğunu hamıya car çəkir. Məktəbdəki mühit onun üçün yeni səhifə açır, atası müharibə veteranı olduğundan Kamü dövlət himayəsində idi, tələbə kimi özünü yaxşı göstərdiyindən "*Grand Lycee*"də təhsilini davam etdirmək üçün təqaüdə layiq görülür. Kasbah rayonunun yaxınlığında yerləşən məktəb ona islam icmasını tanıdır və beləliklə, çox erkən yaşlarından sonrakı yazılarında boyaboy görünən "artıq adam" (yabançı) ideyasını anlamağa yardımçı olur. Orta məktəb illərində Kamü qızğın mütaliə edir, Jid, Prust, Verlen və Berqsonu əvvəldən sonadək oxuyur, latın və ingilis dillərini öyrənirdi.

Müəyyən müddətdən sonra bakalavr təhsil pilləsini bitirən Kamü *"Sud"* aylıq ədəbi jurnalı üçün yazır və jurnalist fəaliyyətini davam etdirirdi. 1933–37-ci illər karyerasında ən qızğın çağlar sayılır: bu dövrdə kollecə gedir, işləyir, birinci arvadı (Simone Hie) ilə evlənir, az müddət sonra ondan ayrılır, qısa müddət ərzində kommunist par-

tiyasına üzv olur və ... teatr və ədəbi fəaliyyətini davam etdirir. Bu müddətdə çoxsaylı iş yerləri dəyişərək daha çox gündəlik ofis işləri ilə məşğul olur – meteoroloji məlumatları toplayır və qeydə alırdı – məhz elə bu dövrdə məşhur Sizif işgəncəsi haqqında konsepsiyası formalaşırdı. Onun bu dövrkü həyatı da əsl işgəncə idi

1933-cü ildə Kamü ali məktəb diplomunu əldə etmək üçün fəlsəfə ixtisası üzrə Əlcəzair Universitetinə daxil olur, 1936-cı ildə bir qrup gənc intellektualla sol təmayüllü siyasi mövzulara üstünlük verən "*Theatre du Travail*" peşəkar cəmiyyətinin həmtəsisçisi olur. Bu cəmiyyətdə Kamü həm aktyor, həm də rejissor kimi fəaliyyət göstərir və bu dövrdə İspaniyadakı fəhlələrin üsyanından bəhs edən ilk dram əsərini yazır. Bu il Kamü eyni zamanda elmi işini tamamlayır, Plotinin və neoplotinizmin müqəddəs Avqustinin düşüncəsinə təsiri haqqında dissertasiya yazır.

Sonrakı üç il ərzində Kamü yazıçı, teatr tənqidçisi və jurnalist kimi qızğın fəaliyyətini davam etdirir. Elə bu dövrdə kommunist partiyasından ayrılır və ilk iki ədəbi işini ortaya qoyur. 1942-ci ildə çap edilən "Yabançı" romanı ona böyük şöhrət gətirir.

1956-cı ildə Kamü "Çöküş" romanını nəşr etdirir, təəssüf ki, bu, onun son əsəri olur; bəzi yüksək zövqlü tənqidçilərin rəyinə görə, roman müəllifin ən gözəl və ən dahiyanə əsəridir.

1957-ci ilin payızında Kamü Nobel mükafatının ona verilməsi xəbərindən sözün yaxşı mənasında sarsılır. Bir tərəfdən, mükafat açıq-aşkar böyük qələbə sayılmalı idi. Digər tərəfdən, hesab edirdi ki, dostu və gənc novellaçı Andre Malro bu ödülə ondan daha çox layiq idi.

1960-cı ilin 4 yanvar tarixində Kamü dostu, naşir Mişel Qayyimarın idarə etdiyi avtomobil qəzasında faciəvi şəkildə həlak olur.

## Filosof, yoxsa yazıçı?

Jan Pol Sartrın dəyərləndirməsinə görə, Kamü nasirdən çox, Volter və Didro ənənəsində fəlsəfi esselər ustası idi. Kamünün özünün fikrinə görə, ədəbi əsərləri xalis nəsr deyildi, bunlar daha çox fəlsəfi və psixoloji məqamları əhatələyən nağıllar və hekayətlərdir. Yəni o, Balzak, Tolstoy və Prust tipli klassik yazıçı deyildi. Kamü yeni tipli yazıçı idi – fəlsəfi yüklü, fəlsəfədən çox insanlara həyatın görünməyən qatlarını sərrast və yeni stilistika ilə anladan, həyata və varlığa dair yeni ideyalar kəşf edib, bunları ədəbi mətnlərin şəffaf dili ilə dünyaya çatdıran avanqard üslublu büsbütün yeni yazıçı... Burada bir məqamı anlamaq mənasında bəri başdan şərtləşmək lazımdır: Kamüyə filosof-yazıçı, yaxud yazıçı-filosof demək, əslində, onun bir yaradıcı kimi missiyasını anlamamağa bərabərdir. O, fəlsəfə və sosiologiya mütəxəssisi olduğuna görə bədii mətnlərində xalis fəlsəfi yönümlü ideyalarla çıxış etmirdi, o, sadəcə, yeni tipli yazıçı idi və yeni kateqoriya onun bədii mətnlərinin bütün strukturunda – dil, üslub, kompozisiya və ən əsası, yeni təhkiyə nümunəsində özünü göstərirdi. Kamü ideya yazıçısı idi, romanlarının hər birinin adı həm də məhz onun ədəbi kəşfi olan metaforalar idi; klassik nəsr ənənələrini yeni metaforalarla zənginləşdirən və inkar edən Kamü həm də bütün "izm"lərdən yuxarıda dururdu, ekzistensializmi ədəbi rakursdan populyarlaşdırdığına görə bu fəlsəfi cərəyanda ilişib qalmırdı, roman poetikasına yeniliklər gətirdiyinə görə "yeni roman" yaradıcılarından böyüklüyü və miqyası etibarilə yerdən göyə qədər fərqlənirdi.

Onun fikrincə, bir cəhəti də nəzərə almaq diqqətəlayiqdir ki, ədəbi karyerasında heç zaman özünü mütəfəkkir saymamış və filosof adına iddia etməmişdir. Bunun əvəzində özündən, sadəcə, yazıçı kimi bəhs edib.

Volter və Deni Didronun yeni şəraitdə davamçısı olan Kamü hər şeydən öncə azadlığın müdafiəçisi idi.

***

Kamü formalaşma, dünyanı bir yazıçı kimi anlama və şərhetmə mənbəyi kimi daha çox Dostoyevskiyə borclu idi. XX əsrin 60-cı illərinə qədər Dostoyevski gələcəyin bir çox böyük yazıçılarının dilini açmışdı. Dostoyevski həm də, məsələn, Alber Kamünün ekzistensializmin digər qanadlarına münasibətinin cilalanmasına kömək etmişdi. Onun vaxtilə dilimizə çevirdiyimiz "Alman dostuma məktublar" əsərində "alman dost"un məhz həm də Haydeger olması diqqətli oxucu üçün bir elə müəmma təşkil etmir. Kamü Sartrın "ekzistensializm humanizmdir" tezisini bu yazısında bir daha təsdiqləyir və ilk müddəasında deyirdi ki, ekzistensializm, əslində, insan həyatını təsdiqləyir. Sartr qeyd edirdi: "Dostoyevski bir vaxtlar yazmışdı: "Əgər Allah yoxsa, deməli, hər şey etmək olar". Bu, ekzistensializmin də çıxış nöqtəsidir. Doğrudan da, Allah yoxsa, hər şey etmək olar, ona görə də insan ATILMIŞDIR, nə öz içində, nə də özündən kənarda heç bir dayağı yoxdur. Hər şeydən əvvəl, onun bəraəti yoxdur. Əgər, doğrudan da, varlıq mahiyyətdən qabaqdadırsa, insan təbiətinə istinad etməklə heç nəyi anlamaq olmaz".

İdeyanın, ədəbi qığılcımın Dostoyevskidən alınması ədəbi zövq, seçim məsələsi deyil, fikrimizcə, bu həm də dünyanı anlamaq cəhdinin yaratdığı qəribə və qanunauyğun bir səsləşmədir. İnsanın daxilindəki bütün hissləri oyadan müharibə həm də onu pessimizmə yuvarladan dərin ümidsizlik yaradır. Bütün daxili oyanmış, nifrətin, əzabın ən son həddini görən insanın Allaha tapınması kimi, onu danması da son dərəcə təbiidir. "Yabançı" romanında keşiş həbsxanaya gəlir, Mersodan soruşur ki, bu divarlara hörülən daşların üzərində nurlu bir sima gördünmü? (Dostoyevski ənənəsi...!) Və nəhayət: "İnsanın ədaləti heç nədir, Allahın ədaləti hər şeydir". "...Onun fikrincə, insanların ədaləti heç nə, Tanrının ədaləti hər şeydir. Məni mühakimə edən birinci adam olduğunu anladım. Sualımı üzümdən oxudu, cavab verdi ki, yox, əksinə, səni günahlardan

təmizləyirəm. Ona dedim ki, axı günahın nə demək olduğunu belə bilmirəm. Mənə, sadəcə, öyrədiblər ki, bütün hallarda günahkaram. Günahkar olduğum üçün cəzamı çəkirəm, məndən kiminsə nəsə soruşmağa haqqı yoxdur. Bu anda yenidən ayağa qalxdım, düşündüm ki, bu hücrə o qədər dardır ki, hirslənib var-gəl edə bilməzsən. Ancaq oturub-dura bilərsən.

Gözlərimi yerə dikdim. Mənə doğru bir addım atdı və dayandı, elə bil, irəli getməyə cürət eləmirdi. Barmaqlıqların arasından görünən göy üzünə baxırdı. "Səhv edirsiniz, övladım, – dedi, – sizdən soruşmalı çox şey var, olsun ki, bunu sizdən soruşsunlar".

– Nəyi soruşacaqlar?

– Baxıb görməyi.

– Kimi?

Keşiş yan-yörəsinə diqqətlə baxdı və çox yorğun səslə mənim sualıma cavab verdi: "Bütün bu daşlar dərddən yoğrulub, bunu dəqiq bilirəm. Heç olmayıb ki, onlara baxdıqda ürəyimi qüssə sıxmasın. Ancaq ürəyimin dərinliyindən gələn səs deyir ki, sizin aranızda ən bədbəxt insan günlərin bir günü bu dərdli divarın qəlbindən ilahi simanın və nurun boylandığını görəcək. Sizə bu çöhrəni görəcəyinizi söylədim".

Bir az canlandım. Dedim ki, gözlərimi bu daşlara dikdiyim vaxtdan gör neçə ay keçib. Bu daşları, bu divarı elə öyrəndim ki, dünyada heç nəyi, heç kəsi belə yaxından tanımaq şansım olmadı. Ola bilər ki, lap uzun zamanlardan bəri orada bir nurlu çöhrə axtarmışdım. Ancaq bu çöhrədə günəşin rəngi və ehtirasların alovu vardı: Marinin çöhrəsi. Onu nahaq zəhmət çəkib axtarmışdım və istənilən halda bu daşlardan süzülən qanlı xatirələrin içində heç nə görə bilmədim". Bu mətndə belə bir cümlə diqqəti çəkir: "... bu hücrə o qədər dardır ki, hirslənib var-gəl edə bilməzsən". Kamünün digər əsərində – "Çöküş" romanında da insanın kiçildilməsi naminə çox dar, ensiz və alçaq hücrələrə tıxanması haqqında epizodlar mövcuddur. Ekzistensializm böhran fəlsəfəsi və dünyagörüşü

olduğu üçün hər bir nəsnədə "sərhəd situasiyası" axtarırdı və bu yöndə əldə etdiklərini varlıq və mahiyyətə, onların qarşılıqlı münasibətlərinə şamil edirdi; məsələn, "Çöküş" romanında oxuyuruq: "...Siz heç tüpürcək təcridxanası haqqında nəsə eşidibsinizmi? Hansısa xalq bu yaxınlarda yer üzündə ən böyük və ən qədim xalq olduğunu sübut etmək üçün bunu kəşf edib. Məhbusun boyaboy dayandığı bu daş qutunun içində hərəkət eləmək mümkünsüzdür. Onu sement içinə pərçimləyən zindan qapı çənəsinə dirənir. Deməк, görünən yalnız məhbusun üzüdür, hər bir gözətçi oradan keçəndə lomba ilə onun üzünə tüpürür; qutuya pərçim edilmiş məhbus üzünü silə bilmir, ancaq gözünü yumur. Bax budur insan ağlının kəşf elədiyi nəsnə. Belə bir kiçik şedevr üçün onun, yəqin ki, Allahın köməyinə ehtiyacı olmayıb.

Nə demək istəyirəm? Allahdan gələn yeganə xeyir o ola bilərdi ki, o, günahsızlığa zəmanət verəydi və mən dinə yekə bir paltaryuyan qazan kimi baxardım – əslində, haçansa, ancaq çox qısa müddətdə, səhv eləmirəmsə, cəmi üç il elə belə də olub – və o zaman adına din deyilmirdi. O vaxtdan sabun kifayət etmir, üz-gözümüz hisin içindədir və əlac kimi bir-birimizin burnunun üstündəki ləkəni silməklə məşğuluq. Bütün dilənçilərin, bütün cəzalandırılmış şəxslərin üzünə tüpürüb daş qutuya quylayaq! Görək kim daha çox tüpürəcək, görək birinci kimin üzünə tüpürəcəyik, vəssalam. İndi, əziz dost, sənə çox böyük bir sirr açacağam. Qiyamət gününü gözləməyin. O, hər gün baş verir".

Jan Pol Sartr fransız tələbələrinə oxuduğu mühazirələrin birində Dostoyevskini ekzistensializmin sələfi adlandırmışdı. Fransız mütəfəkkirinin fikrincə, rus yazıçısı öz yaradıcılığında bu fəlsəfi istiqamətin ilkin müddəalarını formulə etmişdi. Doğrudan da, F.M.Dostoyevski həm ateist, həm də dini təmayüllü ekzistensializmə çox ciddi təsir göstərib. A.Kamünün fəlsəfi əsərlərində Dostoyevskinin romanlarından sitatlara tez-tez rast gəlinir, bundan başqa, fransız filosofu bütün həyatı boyunca Dostoyevski ilə

özünəxas yaradıcılıq dialoqu aparmışdı. Kamünün yaradıcılığı həm də bu baxımdan – keçmişin və gələcəyin ədəbi mətnləri ilə dialoq apardığına görə maraqlıdır. A.Kamü yazırdı ki, rus yazıçısının əsərlərini ilk dəfə 20 yaşında oxuyanda dərindən təsirlənmişdi.

Dostoyevskini nəinki fransız, eyni zamanda alman ekzistensialistləri də maraqla mütaliə edirdilər. M.Haydegerin, K.Yaspersin və M.Bunnerin fəlsəfi əsərlərində Dostoyevskinin mətnlərindən çoxlu sitata rast gəlirik. Dostoyevskinin əsərlərinin rus dini ekzistensialistlərindən N.A.Berdyayev və L.Şestovun yaradıcılığına böyük təsirini danmaq olmaz. N.A.Berdyayev "Özünüdərk" adlı avtobioqrafiyasında yazır ki, Dostoyevskinin "şagirdi" olub, yazıçının yaradıcılığı, az qala, onun yaradıcılıq yolunu müəyyənləşdirib. "Dostoyevski mənim mənəvi həyatımda müəyyənləşdirici rol oynayıb, – N.A.Berdyayev yazırdı. – Hələ uşaq ikən peyvəndimi Dostoyevskidən almışdım. O, bütün yazıçı və mütəfəkkirlər arasında qəlbimi daha çox titrətmişdi".

Ekzistensializm, məlumdur ki, böhran fəlsəfəsi kimi formalaşıb. Təsadüfi deyil ki, onun məhsuldar yaradıcılığı məhz insan sivilizasiyası tarixinin böhranlı məqamlarına təsadüf edir. Dəhşətli kataklizmlər, qanlı müharibələr, insan həyatına nifrət məhz XX əsrdə meydana gəlmiş, bu da intellektual elitanı bu hadisəni mənalandırmağa məcbur etmişdi. Avropada burjua münasibətləri formalaşdıqca insanın insandan yadlaşması prosesi də güclənirdi. Cəmiyyət bir-birindən təcrid olunan insanlardan təşkil edilir və ekzistensialist fəlsəfənin ən böyük xidməti onda idi ki, bu sosial anomaliya adıçəkilən təmayülün nümayəndələri tərəfindən öyrənilməyə başlandı. Qərbdə meydana gələn insan tipi təkcə müharibələrin şikəst elədiyi insan deyildi, o həm də tək idi, cəmiyyət işçi qüvvələrin bazarında sakitcə alış-verişini eləməyə qadir tənha insan idi. K.Popperin ifadəsi ilə desək, təkcə Qərbin kəşf etdiyi "insan cəmiyyəti" yox, başqa tipli sosium da mövcud idi. Dostoyevskinin də aid olduğu ənənəvi cəmiyyətdə başqa bir

antropoloji model də mövcud idi, burada insan şəxslərarası münasibətlərin məcmusuna çevrilir. Şəxsiyyət nəhəng bir bütövün tərkib hissəsi idi ki, ondan qopmaq mümkün deyildi. İnsanın insandan ayrılıb qopması problemi, tənhalıq problemi, şəxslərarası yadlaşma, fərdin öz "mən"indən ayrılması müasir "açıq cəmiyyətin" payına düşən qismətdir. Dostoyevskinin yaradıcılığının bir sıra aspektlərində bu problemə tez-tez rast gəlinir, ancaq ekzistensialistlərdən fərqli olaraq rus yazıçısı üçün insanın bu kimi tənhalığı sosial patologiyadır. Ekzistensialistlərin əksəriyyəti, xüsusən onların ateist qanadı belə bir anomaliyanı müşahidə etsə də, kədərli qismətin aradan qaldırılması üçün heç bir konstruktiv düstur təklif etmirlər. Dostoyevskinin yaradıcılıq irsinin aktuallığı ondadır ki, o, hələ XIX əsrdə oxucunu insanın gözlərini açıb ətrafda heç kəsi görməyən ağılsız eqoizmi ilə bağlı xəbərdar etmişdi. Dostoyevskinin "Gizlindən məktublar" əsəri də bu baxımdan maraqlıdır. Qərb cəmiyyəti bir çox cəhətdən bu əsərin baş qəhrəmanına bənzəyən fərdlərdən təşkil edilib, onlar üçün cəmiyyət, həmrəylik və s. anlayışlar mövcud deyildir. "Qərbin soyuq müharibədə qələbəsi ilə eyni anda bəyan edilən böyük fərdiyyətçilik inqilabı və bunun dalınca meydana gələn "amerikan əsri", – A.S.Panarin yazır, – özünü yeni ideoloji kredoda ifadə etdi: insan üçün öhdəlik yaradan cəmiyyət yoxdur, cəmiyyət öz müqəddəratını özü müəyyənləşdirən, bir-biri ilə heç bir bağı olmayan fərdlərin sadə çoxluğundan ibarətdir". Dostoyevski də öz yaradıcılığında daha çox ateist ekzistensialist fəlsəfənin nümayəndələri üçün səciyyəvi olan fəlakətli fərdi yanaşmaya qarşı çıxır. J.P.Sartr, məsələn, deyir ki, digər şəxslər həmişə bizim "mən"imizin inkarıdır, azadlığımızın yolunda maneədir. Fransız filosofu özünün "Mövcudluq və heçlik" əsərində şah cümləsini bəyan edir: "Bu qeydlərdən hasil olan ikinci nəticə odur ki, nifrət bütün yerdə qalanlara eyni zamanda nifrətdir. Buna mən simvolik olaraq, konkret şəkildə digər şəxsin ölümünə nail olmaqla çatıram. Nifrət elədiyim başqa şəxs

faktik olaraq bir çox digərlərini əhatə edir. Mənim ləğvetmə layihəmdə ümumən başqa şəxsin aradan qaldırılması layihəsi, yəni mənim qeyri-substansional azadlığım əsasdır. Nifrətlə belə bir anlayış aşılanır ki, mənim yadlaşmış mövcudluq ölçüm real əsarətdir, hansı ki mənə digər şəxslər vasitəsilə keçir. Məhz belə bir əsarətin ləğv edilməsi nəzərdə tutulur".

***

"Taun" roman-metaforası yazıçının fəlsəfi baxışlarını açan əsas əsərlərdən biridir. Onun istənilən romanını oxuduqda dilin və təhkiyə strukturunun sərrast olması ilə yanaşı, bir əsas məsələ diqqəti çəkir – romanın yazılmasında məqsəd nədir? Bioqrafiyasından məlumdur ki, Kamü ölüm hökmünə, bunun kütlə qarşısında tamaşa kimi icra edilməsinə mənfi münasibət bəsləyib və o yerlərdə iştirakçı olmağa nifrət edirdi. "Taun" müharibədən sonra – 1947-ci ildə qələmə alınıb. Bu dövrdə müharibə fəlakətləri, müharibənin insan taleyini yerlə yeksan etməsi yazıçını dərindən düşündürürdü. Romanın əvvəlində ilk abzasları diqqətlə oxusaq, Oran şəhərinin ruhsuz bir yaylanın ortasındakı tənhalığının, hər bir nöqtəsi ilə həyatın burada can verdiyinin şahidi olarıq. Yəni ayrıca götürülən bu şəhər (ixtiyari şəhər) artıq bir az sonra baş verəcək hadisələrə hamilə idi. Dünyanın sonu yaxınlaşır...

Taun, hər şeydən öncə, Kamünün digər əsərlərində olduğu kimi, dustaq həyatını sivmollaşdırır. Epiqrafda Daniel Defodan verilən misal da bunu təsdiqləyir: "***...Hər hansı məhbus həyatını nəyləsə müqayisə etmək ona bənzəyir ki, real mövcud olan bir əşyanı real mövcud olmayan başqa bir əşya ilə müqayisə edəsən***". Sonra elə ilk cümlələrdən hər şeyin – həm qəhrəmanların, həm də nəsnələrin "sərhəd situasiyası" ekranda vizuallaşır: "...Bizim bu əhvalatla bağlı qəribə hadisələr 194..-ci ildə Oran şəhərində baş verib. Ümumi mülahizə beləydi ki, həmin hadisələr o adi şəhərin təbiəti ilə heç cür uyuşmur, onun gün-

dəlik həyat ritmi ilə ziddiyyət təşkil edirdi və əsl həqiqətdə Oran şəhəri ilk baxışdan Əlcəzair tərəflərdə kiçik bir fransız prefekturası olmaqdan başqa bir şey deyildi.

Bu şəhər, sözün kəsəsini söyləsək, çirkin idi və yalnız müəyyən vaxt keçdikdən sonra onu ətrafındakı yüzlərcə ticarət mərkəzindən ayıran ciddi fərqləri sezə bilərdin; məsələn, belə bir şəhər təsəvvür elə görüm necədir: quşsuz, göyərçinsiz, ağacsız bir yurd-yuva... Orada nə bir yarpaq xışıltısı, nə bir quş civiltisi eşidilir. Fəsil dəyişməsini yalnız göyün üzündən oxumaq olar".

Hadisələr belə bir məkanda cərəyan edir. Taun bürümüş şəhərin xronikasını doktor Riö aparır, ancaq bu fakt əsərin sonunda açılır və onun şəxsən keçirdiyi hisslər haradasa, kollektivin tarixi kimi göstərilir. Oran şəhərinin sakinləri kiçikdən böyüyə qədər ölümcül dərəcədə təhlükəli tale qarşısındadırlar – şəhərdən çıxış qadağan edilib. Burada hamı potensial qurbandır: infeksiya fərq qoymadan hamının – oğrunun, caninin, uşaq və qocanın canına daraşır. Təhkiyə strukturu elədir ki, hamı seçilən, yaxud qurulan çevrənin içindədir, burada söhbət şəxsiyyətin mühitlə toqquşmasından, haqlı və ya haqsız adamların qanlı mübarizəsindən yox, ucdantutma hamının taunla üz-üzə gəlməsindən (ölümə məhkumluğundan) gedir. Bu mənada taun – metaforadır, kəsilə-kəsilə, doğrana-doğrana gedən mətn isə bu metaforanın açımıdır. Ədəbiyyatşünaslıqda "məzmunlu forma" ifadəsi var, bu mənada vahid əhvalat ayrı-ayrı seqmentləri etibarilə reduksiyaya uğradıqca "məzmunlu forma" hesabına bir daha bərpa edilir və buna görə də metafora hadisələrin dərinliyini göstərə bilir. Roman həcmcə kiçik (maksimum dərəcədə kiçik!) olduğundan lay-lay yığılan mətləb mətn məkanında hər bir zərrəsi ilə ifadə olunur, bu da ekspressivliyi artırır, dilin ifadə imkanlarını maksimum səfərbərliyə alır. Əsərdə hadisələrin başvermə tarixi 194... kimi göstərilir; metaforanın ilkin açımı odur ki, taun da müharibə kimi insanları qəfildən yaxalayır. Kamünün sözlərinə görə, "Taun" romanının üzdə olan məzmunu (zahiri süjet strukturu)

Avropa Müqavimət hərəkatının nasizm əleyhinə mübarizəsidir. Müəllif "Taun" üzərində işləyərkən gündəliyində aşağıdakı qeydləri aparmışdı: "...Taunun köməyi ilə dünyanın hamımızın qarşılaşdığı boğucu atmosferini vermək istəyirəm. Eyni zamanda bu şərhi bütövlükdə mövcudluğa şamil etmək istəyirəm". Süjet və təhkiyə strategiyasının əsasında insanın şərlə mübarizə mifi dayanır.

Kamünün fikrincə, Fransanı bürüyən təhlükə ümumən dünyadakı bütün şərin çalxalanıb oyanmasına, üzə çıxmasına şərait yaratdı. Mətndə mifoloji strukturun izlənməsi yazıçıya kiçik hadisə qırıntısının müasir həyatda minlərlə analogiyasını yaratmaq imkanı verdi. Oran bütün dünyadan təcrid edilib. Belə bir atomlaşma, içinə yığılma məlum metaforanın ikinci qatıdır – Kamünün metafora səciyyəli mətnləri arasında aşkar-gizli əlaqələr də buradan irəli gəlir – onun bütün nəsr əsərlərində eyni, yaxud bir-birinə yaxın mif modeli oynayır. "Yabançı" da Mersona təsadüfən adam öldürdüyünə görə deyil, bu cəmiyyət tipi üçün vacib olan mərasim dekorasiyasından imtina etdiyinə görə edam cəzası kəsirlər. Bu anlamda "Taun" "Yabançı"nın birbaşa olmasa da, şərti-metaforik davamıdır: azad olmaq istədiyinə görə insan "ədalət mühakiməsi" adına qətlə yetirilirsə, buna görə bütöv bir şəhər bəlaya düçar olmalıdır.

Bədii mətndə təhkiyənin gedişi epidemiyanın axarı ilə müvazidir; nasir bu kontekstdə işini mahir usta kimi qüsursuz yerinə yetirib – nə bir addım irəli, nə bir addım geridə deyildir. Ədəbiyyatşünaslıqda işlənən "təhkiyə kütləsinin" dağılması və paylanması prinsipi qum saatının işləmə qaydasını xatırladır.

Bədii mətndə təhkiyənin gedişi, yuxarıda qeyd edildiyi kimi, epidemiyanın yayılma tezliyinə uyğundur: Oran şəhərinin küçələrində siçovulların peyda olması, rəhbərlik və sakinlərin gerçəkliyi danması, baş verənlərlə heç zaman olmamış kimi davranılması... Romanın sonunda xəstələrin biri soruşur: "Axı taunun mahiyyəti nədir?" Taun – artıq həyatın özüdür, məsələnin məğzi elə bundadır.

Bütün bu deyilənlərdən belə bir nəticə hasil olur ki, "Taun" ekzistensializmin estetika və poetikasını açıqlayan çoxplanlı əsərdir.

Ekzistensializmdə fəlsəfi qavrayış obyekti fərdiyyətçiliyin mövcudluğu, şəxsiyyətin həyatını təşkil edən məna, bilik və digər dəyərlərdir. Kamünün düşüncəsində həyat maddi dünyanın fraqmenti deyil, mənəvi-subyektiv aləmdir. Ekzistensializmin əsas məhək daşı ictimai və fərdi mövcudluğun çarpazlaşmasıdır, insan varlığının bu iki qütbünün radikal xarakterinin təsdiqidir. Bu əkslik və təzad insan varlığının antiteza və paradokslar, habelə metafora formasında həlli üsulu ilə şərtlənir.

Ekzistensial problemlər insanın dünyada tuş gəldiyi ağrılarla əlaqədar problemlərdir. Bunlar hər gün yaranır və insanı silkələyir. Bu problemlərin spektri geniş deyil, bu, hər şeydən qabaq həyatdır, ölüm həyata qarşıdır. Ancaq bu təkcə qarşıdurma münasibəti deyil, onların arasında əməkdaşlıq, daxili nüfuzetmə var. Kamünün dünyagörüşündə həyat (fransızca – *la vie*) azad olmaq imkanıdır. Yazıçının bədii təfəkküründə həyat və azadlıq sinonimlərdir. Həyatın azadlıq kimi qavranılması haradasa, həyat ideyası olan həqiqətlə çulğaşır. Həyatın həqiqət qismində konseptual mənası reallıq deyil, insanın funksiyasıdır. Kamünün fikrincə, insanın həyatında həqiqətin peyda olması insan ipostasıdır, bu da hər şeydən öncə, ağıl və səmimi danışmaq istəyi ilə bağlıdır. "Həyat azadlıqdır" və "həyat həqiqətdir" konseptləri Kamü üçün son dərəcə vacibdir.

Lüğəti mənada ölüm insan varlığının ayrılmaz hissəsi olmaqla, həyatı başa vurmasıdır. Yazıçının bədii təfəkküründə ölüm qaçılmazdır, əvvəlcədən aydın bir şeydir. Həm də ölümün qaçılmazlıq ifadə edən mənası onun önündə müdafiəsizliyi və əbədi narahatlığı da ifadə edir. Kamünün romanlarında "ölüm hökmü" (*peine de mort*) oxucuda ədalətin təntənəsi hissini deyil, qətl təəssüratı yaradır.

## Bədii əsərləri – poetikası

Alber Kamünün 1942-ci ildə yazdığı “Yabançı” romanı son dərəcə soyuq, ağrısız cümlələrlə başlayır, burada dərhal iki qat nəzərə çarpır: birincisi – elə bil, baş verən hadisəyə laqeyd adamın danışığını eşidirik, ikincisi – elə bil ki, baş verən hadisənin təsirindən hətta səsini itirmiş insanın iniltisi eşidilir. Mətn belə başlayır: “Bu gün anam ölüb. Bəlkə, dünən olub bu, xəbərim yoxdur. Qocalar evindən teleqram gəlmişdi: “Anan vəfat etdi. Dəfn sabahdır. Dərin hüznlə başsağlığı veririk”. Bilmək olmaz, bəlkə, deyirəm, dünən ölüb. Qocalar evi Əlcəzairdən səksən kilometr aralıda, Marenqoda yerləşir. Saat ikidə yola düşən avtobusa minərəm, hələ hava qaralmamış orada ola bilərəm. Gecəni tabutun başında keçirib, səhəri gün axşam qayıda bilərəm. Şefdən ikigünlük məzuniyyət istədim, o, sadəcə, etiraz edə bilmədi, çünki səbəbi ölümdür. Ancaq aydın idi ki, icazəni candərdi verirdi. Bu sözləri də əlavə etməyi unutmadım: “Günah məndə deyil ki…” Heç nə demədi. Düşündüm ki, belə deməyəydim gərək. Ümumiyyətlə, nəyə görə üzr istəməliydim ki?! Əksinə, o, mənə üzrxahlıq etməliydi. Lakin sonra, qayıdanbaş məni yas içində görəndə, yəqin ki, başsağlığı verəcəkdi. Amma indi kim deyə bilər ki, anam ölüb. Yalnız dəfndən sonra hər şey aydınlaşacaq, necə deyərlər, yəqinlik libası geyinəcək”. Kamünün birinci və ən mükəmməl romanı birinci şəxsin – heç bir hərəkəti ilə gözə dəyməyən çox adi insan olan Mersonun dilindən “sıxılmış bir dildə” nəql edilir. Belə bir təhkiyə mövqeyi dünya nəsrində orijinal hadisədir, adıçəkilən qəhrəman dağınıq və izaholunmaz şəkildə qətl törədir, bir ərəbi öldürür, tutulub mühakimə olunur və edam cəzasına məhkum edilir. Romanın neytral təhkiyə üslubu tənqidçi Rolan Bartın “yazının sıfır dərəcəsi” adlandırdığı üsluba xas olmaqla hadisələrin təsvirində və şərhində mükəmməl vasitəyə çevrilir.

“Taun” romanı maraqlı təhkiyə mövqeyinə malikdir – təhkiyənin sürəti ən aşağı tempdən ən dəhşətli və qarşı-

sıalınmaz becidliyə qədər damcı-damcı böyüyür və əsərin heç bir yerində bu ritm pozulmur. Bunun sayəsində Kamünün nəsrə gətirdiyi bu metafora – taun çox mürəkkəb və elastik olmaqla həm faşizmi, bütün Avropada ona qarşı duran müqavimət hərəkatını, həm bütün həyatı – insanı, onun dərdini, tənhalığını, məsuliyyət və rəhm hissini, habelə iradəsini əhatə edir. Əsərin sonunda taun, nəhayət, geri çəkilir və təhkiyəçi düşünür ki, taun öyrədir: "İnsanda nifrət ediləsi şeydən qürur duyulası şeylər daha çoxdur". Ancaq o, bunu da anlayır ki, taun mikrobu heç zaman birdəfəlik yoxa çıxmır, həmişə şərait gözləyir...

"Çöküş" (1956) romanı hər şeydən qabaq təhkiyə və kompozisiya strukturu ilə orijinal və böyük maraq doğuran bir əsərdir. Bu roman əvvəllər Parisdə vəkil işləmiş, hazırda özünü tövbə hakimi adlandıran Jan Batist Klamansın adı əsərdə çəkilməyən şəxsə yönələn monoloqudur. Bu həm də günah və günahsızlıq, rəhm və cəza, xeyir və şər haqqında geniş qapsamlı bir fəlsəfi diskursdur. Kamünün "Çöküş"ü günah hissi və ondan azad olmağın mümkünsüzlüyü haqqında bir romandır. Adıçəkilən personaj ("Klamans" latın mənşəli sözdür (*clemens*), "bağışlayan" deməkdir) bəzən rəğbət doğuran, bəzən təhlükəli, ancaq bütün bunlarla bərabər, həyatında baş verən bir hadisəni ömrü boyu unuda bilməyən bir insandır. Klamans uzun-uzadı öz-özü ilə danışır, mətni birbaşa tələffüz edir, ancaq hər an həyatda buraxdığı boşluğu doldurmağa can atır. Lakin bu birnəfəsə deyilən monoloqda onun tənha küçələrdə sərgərdan gəzməsini, beynindəki şeytanları tuta bilmək üçün Parisi tərk edib Amsterdama gəlməsini duymaq mümkündür. Klamans danışır və həmsöhbətinə bircə an da olsa danışmaq imkanı vermir, Klamans fərdiyyətçidir, o həm də həmsöhbətini nəzərə almayıb öz-özü ilə danışan bir tipdir. Əsərin bir yerində Klamans həmsöhbətini müşayiət edərkən geri qayıtdığı yolda kanalları görür və onları Dantenin cəhənnəmindəki konsentrik dairələrə bənzədir. Bu, əsərdəki birinci tamamlayıcı detaldır. İkinci detal körpü obrazı ilə bağlıdır. Klamans bir gün

körpü başında dayanan, matəm içində qovrulan bir qadının özünü çaya atmasını xatırlayır. Allaha yalvarır ki, bu hadisəni bir də təkrar etsin, onu da, elə özünü də xilas edə bilsin.

Sonda əvvəlki fikrimizə qayıdıb təkrar etmək istərdik ki, Kamüyə filosof-yazıçı, yaxud yazıçı-filosof demək, əslində, onun bir yaradıcı kimi missiyasını anlamamağa bərabərdir. O, fəlsəfə və sosiologiya mütəxəssisi olduğuna görə bədii mətnlərində xalis fəlsəfi yönümlü ideyalarla çıxış etmirdi, o, sadəcə, yeni tipli yazıçı idi və yeni kateqoriya onun bədii mətnlərinin bütün strukturunda – dil, üslub, kompozisiya və ən əsası, yeni təhkiyə nümunəsində özünü göstərirdi. Kamü ideya yazıçısı idi, romanlarının hər birinin adı həm də məhz onun ədəbi kəşfi olan metaforalar idi, klassik nəsr ənənələrini yeni metaforalarla zənginləşdirən və inkar edən Kamü həm də bütün "izm"lərdən yuxarıda dururdu, ekzistensializmi ədəbi rakursdan populyarlaşdırdığına görə bu fəlsəfi cərəyanda ilişib qalmırdı, roman poetikasına yeniliklər gətirdiyinə görə "yeni roman" yaradıcılarından böyüklüyü və miqyası etibarilə yerdən göyə qədər fərqlənirdi.

Volter və Deni Didronun yeni şəraitdə davamçısı olan Kamü, hər şeydən öncə, azadlığın müdafiəçisi idi.

*Cavanşir Yusifli*

# TAUN

(roman)

# TAUN

*...Hər hansı dustaq həyatını nəyləsə müqayisə eləmək ona bənzəyir ki, real mövcud olan bir əşyanı real mövcud olmayan başqa bir əşya ilə müqayisə edəsən.*

*Daniel Defo*

## I FƏSİL

Bizim bu əhvalatla bağlı qəribə hadisələr 194...-ci ildə Oran şəhərində baş verib. Ümumi mülahizə beləydi ki, həmin hadisələr o adi şəhərin təbiəti ilə heç cür uyuşmur, onun gündəlik həyat ritmi ilə ziddiyyət təşkil edir. Əsl həqiqətdə isə Oran şəhəri ilk baxışdan Əlcəzair tərəflərdə kiçik bir fransız prefekturası olmaqdan başqa bir şey deyildi.

Bu şəhər, sözün kəsəsini desək, çirkin idi və yalnız müəyyən vaxt keçdikdən sonra onu ətrafındakı yüzlərcə ticarət mərkəzindən ayıran ciddi fərqləri sezə bilərdin; məsələn, belə bir şəhər təsəvvür elə görüm necədir: quşsuz, göyərçinsiz, ağacsız bir yurd-yuva... Orada nə yarpaq xışıltısı, nə də bir quş civiltisi eşidilir. Fəsil dəyişməsini yalnız göyün üzündən oxumaq olur. Göy üzü Tanrı qapısıdır. Yazın gəlişini ancaq havaların dəyişməsindən, bir də gül-çiçəyin hər yanı bürüməsindən bilərsən. Onları da ki, şəhər kənarından xırdavatçılar gətirirlər. Bahar deyilən budursa, yolda-bərədə əlüstü satılıb-sovulur. Yayda günəş, onsuz da, quruyub qaxaca dönmüş binaların üzərinə od ələyir, divar boz kül qalağı ilə örtülür, bu od-alovun əlindən qaçıb qapı-pəncərələrin bambalaca kölgəsində girələnə bilərsən.

Payızda isə əksinə, palçıq, sanki, sel ağzına qoşulub gəlir. Gözəl, rahat günlər qışın payına düşür. Hər hansı bir şəhərlə əsl tanışlıq orada adamların necə işləməsini, sevgi və həsrətini, bir də... necə ölməsini bilməkdən başlayır. Bizim bu balaca şəhərdə, havanınmı təsirindəndir, nədəndir, bilmirəm, bütün bunlar bir-birinə elə qarışıb ki, bir şeyin varlığı ilə yoxluğu arasındakı fərqi hiss etmirsən. Yəni burada insanlar darıxmaqdan və ona vərdiş eləməkdən üzülürlər, əzab çəkirlər. Bizim şəhər sakinlərinin gecə-gündüz işləyib dəridən-qabıqdan çıxmaları varlanmaqdan ötrüdür. Onlar, əsasən, kommersiya işlərinə baş qoşur, özlərinin ifadəsiylə desək, “işlərdən də imtina etmirlər – dənizdə çimir, kinoya baxır, qadınlarla sevişirlər. Ancaq ağlı başında olan adamlar kimi bütün bu əyləncələrə şənbə və bazar günləri vaxt ayırır, həftənin qalan günlərini çoxlu pul qazanmağa sərf edirlər. Axşamlar işdən çıxan kimi hər gün eyni saatda, eyni kafedə, eyni bulvarda görüşürlər. Cavanlıqda qızğın, ehtiraslı olsalar da, həvəsdən tez düşürlər, yaşa dolduqca onların fitri qüsurları bir daha banket salonlarından, qızğın, üzücü kart oyunu gedən klubların divarlarından o yana adlamır. Şübhəsiz, bu yerdə deyən tapılır ki, bütün bunlar təkcə bizim şəhərə xas deyil, adamların elə hamısı, əslinə baxsan, belədir... Bir yana baxanda səhərdən-axşamadək işləyib, qalan vaxtını kart oynamaqla, kafedə oturub laqqırtı vurmaqla öldürən adamlarda qəribə nə var ki? Axı bu dünyada elə şəhərlər, elə məmləkətlər də var ki, insanlar tamam başqa havayla nəfəs alır, hər şeydən şübhələnir, tərəddüd keçirirlər. Amma bu tərəddüd onların həyatını dəyişə bilmir. Heç şübhəsiz, tərəddüdün olması, bir balaca özünü göstərməsi də nəsə deyir. Oran isə, əksinə, şübhədən-filandan tamam xali bir şəhərdir. Necə deyərlər, müasir şəhərdir. Nəticə etibarilə bizdə adamların necə, nə təhər sevməsinin təfərrüatına varmağın

mənası yoxdur. Qadınlar və kişilər məhəbbət deyilən oyunda ya çox tez bir zamanda bir-birini məhv edir, ya da sakitcə, qalmaqalsız yaşamağa alışırlar. Bu iki əks qütb arasında orta hədd olmur və gözlənilmir. Bunun özündə bir elə qəribəlik yoxdur. Başqa şəhərlərdə olduğu kimi Oranda da insanlar vaxt darlığındanmı, ya sadəcə, laqeydlikdənmi mahiyyətinə varmadan sevməyə məhkum olunublar. Bəli, bütün bunlar adi şeylərdir. Bu şəhərdə ən qəribəsi ölməklə bağlı müəyyən çətinliklərin mövcudluğudur. "Çətinlik" sözü bir o qədər də yerinə düşmür, narahatlıq desək, daha dəqiq olar. Xəstələnmək həmişə və hər yerdə pis şeydir, ancaq elə ölkələr də var ki, orada xəstələnməyin özü göydəndüşmə, ilahi paydır: sənin nazını çəkirlər...

Xəstənin qayğıya, adicə xoş sözə ehtiyacı olur, o, nəyəsə, kiməsə ürəyində möhkəmcə ümid bağlayır – bütün bunlar təbiidir. Ancaq Oranda hər şey havanın şıltaqlığı, gördüyün işin mənası, yatıb-durduğun yerin nəmişliyi idi... Hər şey, hər şey möhkəm cansağlığı istəyir. Xəstə o ölkədə tək-tənhadır. İstidən, bürküdən od tutub yanan dörd divar arasında ayağı tələdəymiş kimi can üstə olan kəs kimin yadına düşür? Eyni anda, az qala, bütün şəhər telefonda, yaxud kafedə ağızdolusu kommersiya işlərindən, veksel sənədlərindən danışır. Bu yerdə xəstəmi, xəstəlikmi yada düşər? Bəlkə, sonra başa düşərsiniz ki, naqolay ölüm nə deməkdir.

Bu bir neçə natamam ştrix də, güman edirəm ki, sizə bizim şəhəri tanıdar. Yeri gəlmişkən, heç nəyi şişirtmək gərək deyil. Üzərində dayanılmalı cəhət də bax budur: şəhərimizin və həyatımızın yekrəng və cəfəng olması... Bunun bircə əlacı var: vərdiş ki elədin, işlərin yağ kimi gedəcək. Bizim şəhərdə vərdiş eləmək böyük amildir. Bu mənada, şübhəsiz ki, həyat bir elə cəlbedici deyil. Ancaq burası da var ki, hər gün hərc-mərclikdən uzağıq. Bax elə bu səbəbdən şəhərimizin təmizürəkli və işgüzar

sakinləri müsafirlərindən qanuni hörmət qazanırlar. Hər cür təbii gözəllikdən, yaşıllıq və ruhdan məhrum olan bu şəhər, bir növ, dincərliyi andırır, adamı yuxu tez aparır. Ancaq ədalət naminə deyək ki, onun hər yanı təpələrlə əhatə olunmuş çılpaq qayaların arasında yerləşməsi özü misilsiz bir mənzərədir. Bir şeyə təəssüflənək ki, şəhər arxası buxtaya tərəf tikilib və buna görə heç yandan dəniz görünmür, adamlar onu dörd gözlə axtarsalar da...

İndi mübahisəsiz razılaşmaq olar ki, bu ilin yazında bizim sakinləri qəfil yaxalayan hadisələr sonrakı bir çox ciddi əhvalatların baş verməsinə səbəb olub. Bu faktlar, əlbəttə, kiməsə inandırıcı, kiməsə uydurulmuş, saxta hadisə təsiri bağışlayacaq. Ancaq burası da var ki, nağılçı belə əks-qütblərə çox istinad etməməlidir. O yalnız bunu yazmağa borcludur: "Filan hadisə baş verdi". Bircə şərtlə: əgər o bilsə ki, doğrudan da, belə bir hadisə baş verib və birbaşa böyük bir xalqın taleyinə bağlıdır, üstəlik, minlərlə şahidi var.

Məhz o şahidlər ürəklərində bu həqiqəti qələmə alana əhsən deyəcəklər. Ancaq bizim nağılçı – onun adını sonra biləcəksiniz – bir çox səbəblərdən, bəlkə, qənaətedici sübutlar tapılmadığından, bəlkə də, işin bütün təfərrüatını bilmədiyi üçün belə bir vəzifəni boynuna götürmür. Belə olsaydı, nə vardı ki: elə tarixçi olardı. Tarixçi diletant belə olsa, sənədlərə, faktlara əsaslanır. Məlumunuz olsun ki, bu əhvalatı nəql edən adamın da əlində bəzi sənədləri var. Ən öncə şəxsi müşahidələri, sonra hadisələrlə bağlı başqalarının ifadələri. İş elə gətirib ki, o, bu əhvalatın bütün iştirakçılarından inandırıcı faktlar eşidib. Nəhayət, əlinə keçən bir kağız parçası. Təhkiyə boyu o, yeri gəldikcə bu mənbələrə üz tutacaq və həm də... Ancaq yetər, gəlin əsl mətləbə keçək. İlk günün təsviri xüsusi zəhmət tələb edir.

Doktor Bernar Ryö aprelin 16-da səhərçağı otağından çıxarkən ölü siçovulu ayaqladı. Əvvəl-əvvəl heç

nə olmamış kimi siçovulu ayaqqabısının ucuyla kənara itələdi və isti-isti pillələri endi. Ancaq küçəyə düşən kimi ağlına gəldi ki, dalandarı xəbərdar etsin: axı ölü siçovul onun kandarının ağzında nə gəzirdi? Qoca dalandar cənab Mişel bu hadisəni elə qarşıladı ki, guya, o çox qeyri-adi bir şey kəşf edibmiş. Bir şey də var: əgər doktor bunu, sadəcə olaraq, qəribə bir hadisə kimi qəbul edirdisə, qapıçı bunu əsl biabırçılıq sayırdı.

Onun mövqeyi qəti və kəskin idi: bu evdə, bu binada siçovul ola bilməz! Doktor nə illah elədisə də, Mişel öz sözündə möhkəmcə dayanırdı. Deməli, bu binada siçovul olmur – billah olmayıb, onu bura kənardan gətiriblər... Məzhəkədir, məzhəkə! Kimsə kimisə barmağına dolamaq istəyib.

Elə həmin axşam Bernar Ryö qapısının ağzında durub cibində açar axtarırdı ki, gözü qaranlıqda dəhlizin o başından səndələyə-səndələyə gələn bir siçovula sataşdı. Heyvancığaz dayandı, bədəninin müvazinətini saxlamağa çalışdı, sonra durmadan, düz onun üstünə götürüldü. Sonra ayaqları üstə geri döndü, yerə dəyəndə zəif qışqırtı eşidildi, cəhənglərindən qan fışqırırdı, doktor onu bir gözüylə tez-tələsik süzüb evə qalxdı.

Beynini məşğul edən heç də tək siçovul deyildi. Bu axan qan yadına öz dərdini salırdı. Bütün ili xəstə yatan arvadı sabah səhər dağlarda yerləşən sanatoriyaya yola düşməliydi. Onu necə var elə, çarpayıda yatan gördü. Sabahkı canüzücü səyahətə o, beləcə hazırlaşırdı. Sakitcə gülümsəyirdi.

– Mən özümü çox yaxşı hiss edirəm, – dilləndi. Doktor sakitcə onun üzünə baxırdı. Üzərinə gecə lampasının zəif işığı düşmüşdü. Otuzyaşlı qadının sifəti ona ilk gənclik illərini xatırladırdı. Bəlkə də, bu işıqlı, sehrli təbəssümün gücünə...

– Gücün çatarsa, yat. Qulluqçu qadın saat 11-də gələcək, mən sizi saat 12-nin qatarına çatdıraram.

Azca tərləmiş alnından öpdü. Arvadı onu qapıya qədər həmin o sehrli təbəssümlə yola saldı.

Ertəsi gün, aprelin 17-də, saat 8-də dalandar doktoru qapıdan keçərkən yaxaladı və guya, hansısa lotu-potunun ünvanına dəhlizə üç ölü siçovul tulladığına görə qarğış və söyüş yağdırdı. Görünür, onlar yekə tələlərlə tutulduqlarından tamam qana bələnmişdilər. Dalandar siçovulların pəncələrindən yapışaraq bir müddət qapı ağzında dayandı: bəlkə də, o, belə hesab edirdi ki, haçansa həmin o lotular daha hansısa zarafatlarıyla özlərini ələ verəcəklər. Ancaq əbəs yerə.

– Yaxşı, baxarıq, – Mişel dodaqaltı deyinirdi, – əvvəl-axır yaxaları əlimə keçəcək.

Fikri-zikri bu qəribə hadisəylə qarışmış Ryö, adəti üzrə, yoxlanılmasına ən kasıb xəstələrin yaşadığı məhəllələrdən başlamağa qərar verdi. Bu məhəllələrdən zir-zibili mərkəzə baxanda çox gec yığışdırırdılar və düm-düz, tozlu küçələrlə şütüyən maşınlar, az qala, səkinin künclərinə qoyulmuş yeşikləri vurub uçuracaqdı. O yalnız öz getdiyi yolun üstündə, zirzibil və kirli əsgilərin içində 10-a yaxın siçovul ölüsünü saydı.

Baş çəkdiyi birinci xəstə pəncərələri küçəyə açılan, həm yataq, həm də yemək otağı olan mənzildəki çarpayıda uzanmışdı. Bu, sifətini sərt qırışlar örtmüş qoca bir ispan idi. Qənşərində, yorğanın üstündə noxud dolu qazança vardı. Doktor içəri girəndə yarıdikəlmiş vəziyyətdə olan xəstə arxaya çevrildi ki, rahat nəfəs ala bilsin, yoxsa astma tamam əhədini kəsmişdi. İynə vurulanda xəstə danışmağından qalmırdı:

– Doktor, onların necə qaynaşdığını görürdünüzmü?

– Hə, hə, – arvadı da təsdiq etdi, – qonşumuz artıq üçünü tutub.

Qoca əllərini bir-birinə sürtürdü.

– Zibilxanalarda onların əlindən ayaq atmağa yer qalmayıb. Aclıq, fəlakət gələcək!

Ryö başa düşdü ki, söhbət siçovullardan gedir, və artıq bütün məhəllə işdən xəbərdardır. O, bütün xəstələri yoxlayandan sonra evə qayıtdı.

– Sizə teleqram gəlib, yuxarıdandır, – Mişel dedi.

Doktor ondan siçovullar barədə soruşdu.

– Yox, yox, – dalandar qəti şəkildə bildirdi, – mən sərvaxtam, gözümdən yayına bilməzlər. Belə zarafat bir də keçməz!

Teleqramda yazılmışdı ki, sabah anası gəlir. Xəstə arvadı çıxıb gedəndən sonra evə anası baxacaqdı. Otağa girəndə qulluqçu qadını gördü.

Perronun qurtaracağında, düz çıxışın başında Ryö balaca oğlunun əlindən tutmuş müstəntiq Otonla rastlaşdı. Soruşdu ki, bəlkə, bir yana səfərə gedir, yola çıxır?

Ucaboylu, qarabəniz, bir az bu dünyanın, bir az da o dünyanın adamına oxşayan (lap dəfn bürosunun məmuruydu ki, dururdu) Otonun cavabı nəzakətli, ancaq kəsə oldu:

– Arvadımın – xanımım Otonun yolunu gözləyirəm. Valideynlərimə baş çəkməkdən qayıdır.

Parovoz fit çaldı.

– Siçovullar... – müstəntiq sözünü bitirə bilmədi.

Ryö qatara tərəf getmək istədisə də, dayandı.

– Hə... hə... Ancaq heç nədir bu. Ötüb-keçər.

Elə bu an yanlarından əlində içi dolu ölü siçovul yığılmış yeşik tutan bir dəmiryol işçisi ötdü. Eymənmiş kimi oldu.

Elə həmin gün, nahardan sonra, hələ axşam müayinəsinə başlamamışdan Ryö bir cavan oğlanı qəbul etmişdi. Özünü jurnalist kimi təqdim edən bu oğlan səhər tezdən gəlmişdi.

Adı Reyon Ramber idi. Gödəkboylu, enlikürək, qətiyyətli, ağıllı gözləri olan Ramberin əynində idman formasına bənzər paltar vardı. Dərhal mətləbə keçdi. Adlısanlı Paris qəzetlərinin birində işləyirdi. Ərəblərin həyat

şəraiti, tibbi-gigiyenik durumuyla maraqlanır, Ryöyə suallar yağdırırdı. Ryö dedi ki, vəziyyət heç də yaxşı deyil. Ancaq o, söhbəti uzatmazdan əvvəl bilmək istəyirdi ki, görəsən, bu jurnalistin əsl həqiqəti söyləməyə gücü çatacaqmı?

– Şübhəsiz, – dedi.

– Onu demək istəyirəm ki, sizin yazdığınız yalan çıxmayacaq ki?

– Açığını deyim ki, sizi qəti əmin edə bilmərəm. Ancaq belə bir əmmanın meydana çıxması üçün bir əsas görmürəm.

Ryö nəzakətlə dedi ki, sözsüz, belə bir hökm əsassız olardı, ancaq... Sualı bu şəkildə verməklə bilmək istəyirdi ki, Ramberin şahidliyinin kənar müdaxilələrə ehtiyacı yoxdur ki?

– Mən də elə bunun, yalnız bunun tərəfindəyəm.

***

Sonrakı günlərdə vəziyyət daha da ağırlaşdı. Ölü gəmiricilərin sayı artırdı. Hər səhər daha çox cəsəd toplanırdı. Dördüncü gündən sonra siçovullar dəstə ilə açıq havada ölməyə çıxırdılar. Onlar kanalizasiya borularından, zirzəmilərdən çıxır, uzun cərgə ilə səndələyə-səndələyə işıqlı yerə toplanır, yerlərində fırlanır, adamların arasındaca yıxılıb-ölürdülər. Gecələr həyətlərdə, kiçik küçələrdə can verən siçovulların iniltisi eşidilirdi. Səhər isə bağlarda, keşkəl qırağında toplanmış cəsədlər tapılırdı. Hamısının burnunun ucu qanlı idi, bəziləri şişmiş və iylənmiş, bəziləri isə qaxaclaşsa da, bığ tükləri hələ yapıxmamışdı. Şəhərin içində, evlərin girəcəyində, həyətlərdə kiçik dəstələrlə toplanmış cəsədlər tapılırdı. Bəzən inzibati binaların zallarında, məktəb həyətində, kafelərin döşəməsində də tək-tək ölü siçovullara rast gəlirdilər. Əhali onları şəhərin ən mərkəzi yerlərində

görüb qorxuya düşürdü. Arm meydanında, bulvarda, Fron-dö Mer gəzinti sahəsində də siçovul ölüsünə rast gəlirdilər. Səhər tezdən hər yan cəsədlərdən təmizlənsə də, gün ərzində yavaş-yavaş şəhər siçovul ölüsü ilə dolurdu. Gecə vaxtı gəzinənlər bəzən təzə ölmüş bir siçovulun yumşaq cəsədini tapdalayıb diksinirdilər. Elə bil, evlərimizin sancıldığı bu torpaq öz eyiblərini büruzə verir, həmişə onu içəridən qazımış kifir canlıları çölə çıxarıb aləmə göstərirdi. Həmişə sakit həyat sürmüş, indi, bir neçə gün ərzində çaxnaşmaya düşmüş kiçik şəhərimizin vəziyyətini təsəvvür edin. Elə bil, həmişə soyuqqanlı olmuş sağlam bir adam birdən-birə coşub-qaynamağa başlamışdı.

İş o yerə gəlib çatdı ki, Ransdoq agentliyi (xəbərlər, sənədlər, hər cür məsələ barədə məlumat verən büro) özünün radio xəbərlərində məlumat verdi ki, təkcə aprel ayının 25-də altı min iki yüz otuz bir siçovul ölüsü toplanıb və yandırılıb. Şəhərin vəziyyəti haqqında aydın təsəvvür verən bu rəqəm əhalinin həyəcanını bir az da artırdı. İndiyə qədər şikayətlənirdilər ki, şəhərdə iyrənc bir hadisə baş verir. İndi isə anlayırdılar ki, nə gələcəyi, nə də mənşəyi məlum olan bu qeyri-adi əhvalatda nə isə hədələyici bir cəhət də var. Təkcə sinəgirliyə tutulmuş qoca ispan əllərini ovuşdura-ovuşdura, sevincək bir səslə elə hey deyirdi: “Hə, çıxırlar, siçovullar çıxırlar”.

Aprelin 28-də Ransdoq məlumat verdi ki, təxminən, səkkiz min siçovul ölüsü yığılıb. Çaşqınlıq şəhəri bürüdü: camaat ciddi tədbir görülməsini tələb edir, rəhbərliyi günahlandırırdı. Dəniz sahilindəki evlərdə yaşayanların bəziləri isə çəkilib dənizdə yaşamaq istədiklərini söyləyirdilər. Amma ertəsi gün məlumat agentliyi xəbər verdi ki, vəziyyət qəfildən dəyişib, sanitariya idarəsi gün ərzində az cəsəd toplayıb. Şəhər rahat nəfəs aldı.

Amma elə həmin gün günortaçağı Ryö maşınını evin qarşısında saxlayanda gördü ki, ev xidmətçisi irə-

liki tindən çıxıb, ağır addımlarla gəlir. Kişinin başı sallaq, qolları və qıçları aralı, addımları nizamsız idi. Qoca xidmətçi bir keşişin qoluna girmişdi, həkim keşişi də tanıyırdı. Bu adam keşiş Panelu idi, çox qabiliyyətli və mübariz bir din xadimi kimi hörmət qazanmışdı. Dinə biganə olanlar da ona rəğbət bəsləyirdilər. Həkim dayanıb onları gözlədi. Qoca Mişelin gözləri parıltılı, nəfəsi xışıltılı idi. Kişi özünü pis hiss eləyib havada gəzinməyə çıxıbmış. Amma boynunun, qoltuqaltı vəzilərinin və güngörməz yerinin dözülməz ağrısından geri qayıtmalı olub və qayıda bilmək üçün keşiş Paneludan kömək istəyib.

– Vəzilərim şişib, – qoca dilləndi. – Yəqin, nə vaxtsa gücə düşmüşəm.

Həkim əlini maşının qapısından uzadıb Mişelin ona tərəf əyilmiş boynunu yoxladı. Barmaqları ağac düyününə oxşayan bir şişə toxundu.

– Gedin, yatın yerinizdə, qızdırmanızı ölçün, günortadan sonra sizə baş çəkərəm.

Ev xidmətçisi gedəndən sonra Ryö keşiş Paneludan siçovulun əhvalatı barədə nə fikirləşdiyini soruşdu.

– Hə! Zənnimcə, epidemiyadır, – keşiş cavab verdi və girdə eynəkləri arxasında gözləri güldü.

Nahardan sonra Ryö arvadının sağlamlıq evindən göndərdiyi teleqramı yenidən oxuyurdu ki, telefon zəng çaldı. Zəng edən onun keçmiş xəstələrindən biri, bələdiyyə idarəsinin işçisi idi. Bu kişi uzun müddət ürək damarının sıxılmasından əzab çəkmişdi və kasıb olduğuna görə Ryö onu pulsuz müalicə eləmişdi. O deyirdi:

– Bəli, yaxşı ki, yadınızda qalmışam. İndi söhbət başqa adam haqqındadır. Tez bura gəlin, qonşuma nə isə olub.

Kişi tövşüyə-tövşüyə danışırdı. Ryönün yadına ev xidmətçisi düşdü, fikirləşdi ki, sonra ona da baş çəkər.

Bir neçə dəqiqə sonra o, mərkəzdən kənarda, Fedherb küçəsindəki alçaq bir evin qapısından keçdi. Təzə rənglənmiş və iy verən pilləkənin yarısında onu qarşılamağa düşən bələdiyyə xidmətçisi Jozef Qranla görüşdü. Qran, təxminən, əlliyaşlı, sarıbığ, ucaboy, donqabel, arıq bir kişi idi. O, Ryönün qarşısına çıxdı:

– İndi vəziyyət yaxşıdır, bir az əvvəl elə bilirdim ki, can verir.

O, ağzını yaylıqla örtmüşdü. Binanın ikinci və axırıncı mərtəbəsində sol tərəfdəki qapının üstünə qırmızı tabaşirlə yazılmışdı: "Buyurun içəri, mən özümü asmışam".

Onlar içəri girdilər. Yıxılmış bir stulun üstündən kəndir sallanırdı. Masa otağın küncünə çəkilmişdi, kəndir havada yellənirdi.

– Onu kəndirdən vaxtında qurtarmışam, – Qran sadə dillə danışsa da, dirənə-dirənə sözünə davam elədi. – Qapıdan çıxanda səs eşitdim. Sonra qapının üstündə bu yazını oxuyanda, bilmirəm necə izah eləyim, əvvəl fikirləşdim ki, zarafatla yazılıb. Sonra isə qəribə, demək olar ki, qeyri-adi bir inilti eşitdim. – O, başını qaşıya-qaşıya dedi: – Zənnimcə, boğazı kəndirə keçirib sallanmaq əzablı işdir. Məlum məsələdir ki, belə anda çöldə dayanıb gözləmək olmazdı və mən içəri tələsdim.

Onlar başqa bir qapını itələyib qonşu otağa keçdilər. Otağın özü işıqlı, döşənəcəyi isə kasıb idi. Qısaboy, gonbul bir kişi dəmir çarpayıda uzanmışdı. O, dərindən nəfəs ala-ala qızarmış gözlərini içəri girənlərə zillədi. Həkim dayandı. Ona elə gəldi ki, kişinin xırıltısı ara verəndə otaqda siçovulun civiltisi eşidilir. Otağın künclərinə diqqətlə baxandan sonra Ryö xəstəyə tərəf gəldi. Kişi nə çox hündürdən yıxılmış, nə də ağır zədə almışdı, boğazının damarları kəndirə tab gətirmişdi. Amma hər halda, bir az boğulma qalmışdı. Kardioqram

çıxarmaq lazım idi. Həkim kanfora iynəsini vurub dedi ki, bir neçə günə hər şey qaydasına düşəcək.

– Sağ olun, həkim, – kişi xırıltılı səslə təşəkkür elədi.

Ryö Qrandan polis idarəsinə xəbər verib-vermədiyini soruşanda Qran çaşqın-çaşqın cavab verdi:

– Yox, deməmişəm, yox... Mən fikirləşdim ki, hər şeydən əvvəl...

– Düz fikirləşmisiniz, – Ryö onun sözünü kəsdi. – Mən özüm xəbər verərəm.

Bu vaxt xəstə hərəkətə gəldi, dirsəklənib oturdu, etiraz edib bildirdi ki, xəbər verməyinə dəyməz.

– Sakit olun, – Ryö onu arxayınlaşdırmaq istədi. – Burada elə bir şey yoxdur. Məsələ bundadır ki, mən xəbər verməyə borcluyam.

– Ah! – deyib xəstə yerinə uzandı. Sonra qısa hıçqırıqlarla ağlamağa başladı. Bayaqdan kənarda durub bığını didişdirən Qran çarpayıya yanaşdı:

– Yaxşı, cənab Kottar. Başa düşmək lazımdır ki, həkim bu işdə məsuliyyət daşıyır, məsələn, elə birdən ağlınıza gəldi ki, təzədən belə edəsiniz...

Kottar göz yaşı tökə-tökə dedi ki, daha belə iş görməyəcək, bu da bir ağılsızlıq idi, indi isə istəyi budur: ondan əl çəksinlər. Ryö ona dərman yazdı və sonra dedi:

– Yaxşı, razılaşdıq. Xəbər vermərəm, iki-üç gündən sonra sizə baş çəkərəm. Bir də belə səfehlik etməyin.

Pilləkəni düşəndə həkim Qrana dedi ki, o, polisə xəbər verəcək, amma rəisdən xahiş edəcək, istintaq üçün iki gün sonra gəlsin. Sonra əlavə etdi:

– Bu gecə onu nəzarətdə saxlamaq lazımdır. Ailəsi varmı?

– Ailəsini tanımıram. Amma mən özüm ona keşik çəkərəm. – Sonra o, çiyinlərini çəkdi: – Düzünə qalsa, heç deyə bilmərəm ki, onun özünü tanıyıram. Amma gərək dar ayaqda bir-birimizə kömək edək.

Həyətə düşəndə Ryö künc-bucağa nəzər salandan sonra Qrandan soruşdu ki, məhəllədə siçovullar yoxa çıxıbmı? Bələdiyyə xidmətçisi dəqiq bir şey bilmirdi. Doğrudur, ona bu məsələ barədə danışmışdılar, amma o, məhəllə söhbətlərinə məhəl qoymurdu.

– Mənim başqa qayğılarım var, – dedi.

Ryö onun əlini sıxdı. Həkim arvadına məktub yazmazdan əvvəl ev xidmətçisinə baş çəkməyə tələsirdi.

Axşam qəzetlərini satanlar qışqırışırdılar ki, siçovul basqını dayanıb. Ryö ev xidmətçisinin evinə girəndə gördü ki, kişi bir əli ilə qarnını, o biri əli ilə boynunu tutaraq çarpayıdan aşağı sallanıb, güc verə-verə yerdəki ləyənə qırmızı bir maye qusur.

Xeyli qusandan sonra xidmətçi təngnəfəs dikəlib yerində uzandı. Qızdırması otuz doqquz yarım idi, bədənindəki şişlər xeyli böyümüşdü, böyründəki iki qara ləkə getdikcə artırdı. Kişi daxili ağrılardan şikayətlənirdi:

– İçim yanır, bu zibil məni yandırır.

O, sözləri tam deyə bilmir, başağrısından yaşarmış və girdələşmiş gözlərini həkimə tərəf birtəhər çevirirdi. Həkim susub durmuşdu. Ev xidmətçisinin arvadı ona yanaşıb kədərli səslə soruşdu:

– Bu nə xəstəlikdir?

– Nə isə bir xəstəlikdir. Hələ bir söz deyə bilmərəm. Axşama qədər pəhriz saxlasın və mədəsini təmizləyin. Çoxlu su verin içsin.

Elə, əslində, ev xidmətçisi susuzluqdan yanırdı.

Evə qayıdan kimi Ryö şəhərin ən tanınmış həkimlərindən olan Rişara zəng vurdu. Həmkarı onun sualına belə cavab verdi:

– Yox, hələlik elə bir qeyri-adi hal görməmişəm.

– Yüksək hərarətli və daxili yanğılardan şikayətlənən xəstəniz yoxdur?

– Hə, var, iki nəfər bədənlərindəki şişlərin yanğılı ağrılarından şikayətlənir.

– Qeyri-adi hala bənzəyir?

– Hm... Bilirsinizmi, adi hal belədir ki...

Axşamüstü ev xidmətçisi sayıqlayır, qırx dərəcə qızdırma içində siçovullardan şikayətlənirdi. Ryö istədi şişlərdən birini yoxlasın. Xəstə ağrıdan: “Ah, əclaflar!” – bağırdı.

Şişlər daha da böyümüş, bərkimiş, damar-damar olmuşdu. Xəstənin arvadı başını itirmişdi. Həkim ona dedi:

– Onu gözdən qoymayın. Vəziyyəti ağırlaşsa, mənə xəbər verin.

Ertəsi gün, aprelin 30-da mavi, nəmli səmada ılıq bir meh oynayırdı. Külək şəhərin uzaq ətraflarından gül-çiçək ətri gətirirdi. Səhər tezdən küçədən gələn səslər də həmişəkindən şən və canlı idi. Bir həftə ərzində başına gəlmiş anlaşılmaz əhvalatdan yaxa qurtarmış balaca şəhərimiz üçün bu gün yeni bir gün idi. Arvadından məktub alıb arxayınlaşmış həkim də ev xidmətçisinin mənzilinə düşəndə özünü gümrah hiss edirdi. Elə xəstənin qızdırması da səhər otuz səkkiz dərəcəyə enmişdi.

– Vəziyyət düzəlir, eləmi, həkim? – xidmətçinin arvadı soruşdu.

– Gözləyək, görək nə olur.

Amma günortaçağı xəstənin qızdırması qəfildən qırx dərəcəyə qalxdı, o, ara vermədən sayıqlamağa və qusmağa başladı. Şişlərin ağrısı daha da artmışdı və elə bil, ev xidmətçisi boğazını uzadıb, mümkün qədər başını bədənindən aralı saxlamağa çalışırdı. Çarpayının ayaq tərəfində oturan arvadı yorğanın üstündən əlini ehtiyatla ərinin ayaqları üstünə qoymuşdu. O, həkimin üzünə baxırdı. Həkim dedi:

– Qulaq asın, gərək onu ayrı yerdə tək saxlayaq və fərdi müalicəyə keçək. İndi xəstəxanaya zəng edərəm, “təcili yardım” maşını ilə apararıq.

İki saat sonra "təcili yardım" maşınında həkimlə arvad əyilib xəstəyə baxırdılar. Xəstənin ərp bağlamış ağzından kəsik-kəsik "Siçovullar!" sözü uçurdu. Onun çirkli dodaqları göyərmiş, göz qapaqları yumulmuşdu, şişdən sıxılmış nəfəsi qısa və xırıltılı idi. Bədəni asma xərəyin dibinə elə sinmişdi ki, elə bil, xərək onun üstünü örtüb yoxa çıxarmaq istəyir, yaxud aşağıdan, yerin dərinliyindən hansı bir qüvvəsə onu özünə tərəf dartırdı. Ev xidmətçisi gözəgörünməz, ağır bir yükün altında boğulurdu. Arvadı ağlayırdı:

– Deməli, daha ümid yoxdur, həkim?

Ryö bir az susub:

– O öldü, – dedi.

***

Ev xidmətçisinin ölümü, demək olar ki, qəribə, anlaşılmaz bir dövrə son qoydu və yeni, daha çətin bir dövr başladı. Bu yeni dövrdə təəccüb və anlaşılmazlıqlar yavaş-yavaş həyəcan və qorxuya çevrildi. Şəhərimizin sakinləri vəziyyəti görüb anlasa da, heç ağıllarına gətirə bilmirdilər ki, tale bizim balaca şəhərimizi siçovulların günaşırı qırıldığı və ev xidmətçilərinin qəribə xəstəlikdən öldüyü bir guşəyə çevirib. Bu məsələdə onlar səhv edirdilər və fikirləri dəyişməli idi. Əgər əhvalat indiyə qədər olmuşlarla bitsəydi, onlar yenə də əvvəlki adət-ənənələri ilə yaşamağa başlayacaqdılar. İş elə gətirdi ki, şəhərin ev xidmətçiləri də, varlı sakinləri də cənab Mişelin getdiyi yolla həyatdan getməyə başladılar. Elə həmin vaxtdan da qorxu və həyəcan şəhəri bürüdü.

Təzə əhvalatların geniş təsvirinə başlamazdan əvvəl hekayətçi məsləhət bilir ki, bir az əvvəlki əhvalatlar haqqında başqa bir şahidin də fikrini bilək. Söhbətin əvvəlində adını çəkdiyimiz Jan Taru bir neçə həftə

əvvəl Oran şəhərinə gəlmiş və gəldiyi vaxtdan da mərkəzdəki iri mehmanxanaların birində yaşayırdı. Davranışından hiss olunurdu ki, öz gəliri ilə sərbəst yaşamaq imkanı var. Şəhər camaatı ona yavaş-yavaş öyrəşmişdi, heç kimin ağlına gəlmədi ki, onun haradan və nə üçün gəldiyi ilə maraqlansın. Ona şəhərin bütün ictimai yerlərində rast gəlmək olardı. Lap yazın əvvəlindən tez-tez çimərliyə gedir və üzməkdən ləzzət alırdı. Həmişə gülümsəyən bu xeyirxah adam hər cür əyləncəyə qoşulur, amma heç birinə aludə olmurdu. Onun bircə adəti bəlli idi: şəhərimizdə sayca çox olan ispan rəqqas və musiqiçilərinə tez-tez baş çəkirdi.

Bir sözlə, onun da gündəliyində həmin çətin günlər barədə ardıcıl qeydlər vardı. Bu qeydlərin də özünəməxsus cəhətləri var və hiss olunur ki, müəllif hadisəyə ciddi əhəmiyyət verməyib. İlk baxışda adama elə gilir ki, Taru hadisələrə zərrəbinin tərs üzü, uzağı göstərən tərəfi ilə baxıb. Qərəz, tarixi olmayan bir əhvalatın tarixini yazmağa çalışıb. Bu cəhətə adam təəssüflənir, həm də fikirləşirsən ki, müəllif hissiyyatsız adamdır. Amma qeyd dəftərində həmin dövrə aid elə yazılar var ki, əhəmiyyətsiz sayılsa da, xırda təfsilatlara və qəribəliyinə görə müəllif haqqında tələsik fikir söyləməyə mane olur.

Jan Tarunun ilk qeydləri Orana gəldiyi vaxtdan başlayır. Bu qeydlərdən duyulur ki, o, təbiətən yaraşıqsız bir şəhərə gəlməsindən qəribə bir razılıq hissi ilə danışır. Şəhər bələdiyyə idarəsinin binasını bəzəyən iki tunc şiri olduğu kimi təsvir edir, şəhərin ağacsız, binaların yaraşıqsız olması, şəhərin səfeh bir plan üzrə tikilməsi barədə həvəslə söhbət açır. Taru tramvayda və küçələrdə eşitdiyi söhbətləri də heç bir izahat əlavə etmədən qələmə almışdı. Yalnız daha sonra, Kamp adlı bir nəfər barədə eşitdiyi söhbəti qələmə alarkən müəllif izahat da verib. Taru iki tramvay nəzarətçisinin söhbətini eşitmişdi:

– Sən Kampı tanıyırdınmı?

– Kampı? Ucaboy, qarabığ oğlanı?

– Hə, elədir. Yoldəyişən işləyirdi.

– Bəli, tanıyırdım.

– Hə, kişi ölüb.

– Pah, nə vaxt ölüb?

– Siçovul əhvalatından sonra.

– İşə bax ha! Nədən ölüb axı?

– Bilmirəm, deyəsən, qızdırmadan. Elə özü də dözümlü adam deyildi. Qollarının altından yara çıxarıbmış. Dözə bilməyib, ölüb.

– Kənardan baxanda sağlam adama oxşayırdı.

– Yox, ciyərləri zəif idi, özü də Orfeon orkestrində musiqiçi idi. Ömrü boyu güc verib truba üfürən adamın ciyəri dözməz.

– Hə, elədir, – ikinci nəzarətçi söhbətə yekun vurdu. Adamın ki ciyəri xəstə oldu, gərək truba üfürməsin.

Bir neçə qeyddən sonra Taru öz-özünə sual verir ki, nə üçün Kamp sərfəsiz bir işə qoşulub Orfeon orkestrinə yazılmış və səhhəti imkan vermədiyi halda bazar günü nümayişlərində musiqiçilik edirmiş.

Başqa bir əhvalat. Tarunun pəncərəsi ilə üzbəüz eyvanda tez-tez baş verən bu hadisə onu maraqlandırıb.

Tarunun pəncərəsi yandakı köndələn küçəyə açılırmış və bu küçənin kölgəliklərindəki pişiklər uzanıb mürgü vururmuş. Hər gün nahardan sonra bütün şəhər istinin təsirindən mürgülədiyi vaxt küçənin o üzündəki eyvana qısaboy, qoca bir kişi çıxarmış. Ağ saçları səliqə ilə daranmış, ciddi görkəmli, şax qamətli, hərbçilər kimi yığcam geyimli bu kişi eyvanda durar, "Mine, mine" deyə asta və mülayim səslə pişikləri çağırarmış. Pişiklər isə əvvəlcə yerlərindən tərpənmədən yuxudan saralmış gözlərini açıb ona baxarlarmış. Kişi kağız vərəqlərini doğrayır, aşağıya səpələyir, pişiklər uçuşan ağ

kəpənəkciklərlə maraqlanır, küçənin ortasına gəlir, pəncələrini yerə düşən kağız qırıntılarına tərəf uzadırdılar. Elə bu vaxt qısaboy qoca pişikləri nişan alıb aşağıya tüpürür, əgər tüpürcəyi pişiklərin birinin üstünə düşsə, gülürmüş.

Nəhayət, hiss olunurdu ki, bu şəhərin ticarətçi təbiəti, onun görkəminin, işgüzarlıq və əyləncələrinin də ticarət məsələlərinə xidmət etməsi Tarunu maraqlandırmışdı. Bu qəribəlik (gündəlikdə bu vəziyyət məhz "qəribəlik" adlandırılıb) Tarunun xoşuna gəlmişdi və o axtardığını tapmış adam kimi həyəcanlı "Axır ki!" ifadəsini də işlətmişdi. Səyyahın həmin dövrə aid qeydlərinin ancaq bu yerində fərdi cəhətlər duyulur. Bu qeydlərin mənasını və ciddiliyini də ayırd etmək çətindir. Mehmanxana hesabdarının otaqda siçovul ölüsü görəndən sonra rəqəmləri səhv salması haqqında qeydindən sonra Taru başqa yazılarından fərqli, çətin anlaşılan bir xətlə yazıb: "Sual: vaxtı itirməmək üçün nə edəsən? Cavab: vaxtın çox olduğunu duyasan. İmkanlar: diş həkiminin qəbul otağında, narahat bir stulda günlərlə oturub gözləyəsən; bazar gününü günortadan sonra öz eyvanında keçirəsən; anlamadığın dildə mühazirəyə qulaq asasan, ən uzaq və ən narahat dəmir yolu ilə səyahətə çıxasan, özü də oturmağa yerin olmaya; tamaşa bileti üçün saatlarla növbəyə durasan, axırda da bilet ala bilməyəsən və i.a." Belə üslub və fikir qarışıqlığından sonra müəllif qəfildən şəhərimizin tramvaylarını, onların yaraşıqsızlığını, rənglərinin zövqsüz və içərilərinin natəmiz olmasını təsvir etməyə başlayır və fikrini "əladır" sözü ilə bitirdiyindən bir şey anlamaq olmur.

Siçovul əhvalatı haqqında isə Tarunun qeydləri belədir:

"Bu gün üzbəüzdəki qocanın çaşqın görkəmi var. Pişiklər daha görünmürlər. Küçələrə səpələnmiş çoxlu

siçovul ölüsünə görə pişiklər yoxa çıxıblar. Zənnimcə, pişiklər ölü siçovulu yemirlər. Yadıma gəlir ki, mənim pişiklərim ölü siçovula ikrahla baxırdılar. Yəqin, pişiklər qaçıb, zirzəmilərə yığışıblar və qoca onları görmədiyindən pərişan idi. Saçı həmişəki kimi səliqəli daranmamışdı, qaməti də əvvəlki kimi şax deyildi. Hiss olunurdu ki, nigarandır. Eyvanda bir az dayanıb içəri qayıtdı. Amma qayıtmazdan əvvəl boş küçəyə tüpürdü də.

Bu gün tramvayda siçovul ölüsü tapdılar. Tramvay dayandı. Heç kim baş çıxara bilmirdi ki, siçovul tramvaya necə girib. İki-üç qadın tramvaydan düşdü. Sonra siçovulu çölə atdılar. Tramvay yola düşdü.

Mehmanxanada gecə növbətçisi işləyən abırlı bir kişi mənə dedi ki, bu siçovul əhvalatı nə isə bir bəla gətirəcək. "Bilirsinizmi, siçovullar gəmini tərk edəndə..." Mən də cavab verdim ki, siçovul və gəmi məsələsi məlumdur, amma bu əhvalatın şəhərdə baş verməsinin nəticəsini yoxlayan olmayıb. Kişi fikrindən dönmürdü. Onda mən soruşdum ki, məsələn, necə bəla baş verə bilər? O da bir şey bilmirdi ki, çünki gələn bəlanı əvvəlcədən görmək olmur. Amma o bildirdi ki, elə zəlzələ də gözləmək olar. Mən onun fikrinə şərik olanda isə bəs nəyə görə qorxmadığımı soruşdu. Onda mən belə cavab verdim:

– Məni ancaq mənəvi rahatlıq maraqlandırır.

Kişi məni yaxşı başa düşdü.

Mehmanxananın restoranında maraqlı bir ailə görürəm. Ailə başçısı dik yaxalıqlı qara kostyum geymiş ucaboy, arıq bir kişidir. Başının ortası dazdır, yanlarda isə iki çəngə boz tükü var. Bir cüt xırda və sərt gözləri, nazik burnu və sallaq dodaqları kişini təlim-tərbiyə görmüş yapalaq quşuna oxşadır. O, restoranın qapısına birinci çatır, kənara çəkilir, qara siçana oxşayan arvadını irəli buraxır, sonra dabanlarını yerə döyə-döyə özü içəri keçir, daha sonra isə təlim almış küçük-

lər kimi geyindirilmiş balaca bir oğlanla bir qızcığaz gəlirlər. O, stola çatır, gözləyir ki, əvvəl arvadı otursun, sonra özü oturur və nəhayət, balacalar öz stullarına əyləşirlər. O, arvadını nəzakətlə acılayır, varislərinə sərt sözlərlə müraciət edirdi:

– Nikol, sən özünü olduqca pis aparırsan!

Qızcığaz az qalır ağlasın. Kişiyə də elə bu lazımdır.

Bu səhər oğlan siçovul əhvalatına görə çox həyəcanlı idi və masa arxasında nə isə demək istəyirdi.

– Filip, süfrə başında siçovuldan danışmazlar. Belə sözü ağzına almağı sənə qadağan edirəm.

– Atanız düz deyir, – qara siçan dilləndi.

Küçüklər burunlarını boşqablarına tərəf əydilər, yapalaq isə arvadının sözlərindən razı qaldığını bildirmək üçün başını mənalı-mənalı yellədi.

Belə ibrətamiz misala baxmayaraq, şəhərdə siçovul əhvalatından danışanlar çox idi. Qəzet də işə qoşulmuşdu. Əvvəllər müxtəlif yazılar dərc edən yerli xəbərlər bölməsi indi ancaq bələdiyyə idarəsini tənqid etməklə məşğul idi: bizim rəhbərlərin heç ağlına gəlirmi ki, bu gəmiricilərin iylənmiş cəsədləri necə bəla gətirə bilər?.. Mehmanxananın direktoru da ancaq bu məsələdən danışırdı. Onun özündən çıxmağa haqqı var. Adlı-sanlı bir mehmanxananın liftindən siçovul cəsədi tapılması yaxşı hal deyildi. Onu sakitləşdirmək üçün dedim:

– İndi elə hamı bu vəziyyətdədir.

– Elədir, – o cavab verdi, – indi biz də olmuşuq hamının tayı.

Elə camaatı narahat eləməyə başlamış qəribə qızdırma haqqında söhbəti də ondan eşitmişdim. Mehmanxanadakı xidmətçi qadınlardan biri də qızdırmaya tutulmuşdu.

– Hər halda, yoluxucu xəstəlik deyil, – o tələsik əlavə eləmişdi.

Mən də ona cavab verdim ki, mənim üçün fərqi yoxdur. Direktor dedi:

– Hə! Görürəm. Siz də elə mənim kimi fatalistsiniz.

Əslində, mən belə bir söz deməmişdim və özüm də fatalist deyiləm. Direktora elə beləcə də dedim...

Elə həmin dövrdən başlayaraq Tarunun gündəliyində əhalini nigaran qoymağa başlamış qəribə qızdırma haqqında ətraflı qeydlər var. Siçovulların yoxa çıxması ilə küçəyə qayıtmış pişiklərin üstünə həvəslə tüpürməyə başlamış balaca qoca barədə xırda qeyddən sonra Taru yazır ki, şəhərdə ona yaxın adam qızdırmaya düşmüş və çoxu ölmüşdür.

Tarunun qeydləri içində həkim Ryönün təsvirini lap rəsmi sənəd kimi qəbul etmək olar. Elə hekayətçinin özü də həmin təsvirin dəqiq olduğunu təsdiqləyir.

“Otuz beş yaşı olar. Ortaboylu, enlikürəkdir. Sifəti, az qala, dördküncdür. Badamı gözləri tutqundur. Sinəsi irəli çıxıb. Burnu düz və ətlidir. Qısa vurulmuş qara saçları var. Damağı gərilmiş, ətli dodaqları isə, az qala, həmişə sıxılmış olur. Dərisinin qırmızı, saçının qara olması, həmişə tutqun rəngli paltar geyməsi onu Siciliya kəndlisinə oxşadır və bu görkəm ona yaraşır.

Yerişi itidir. Enişli səkilərdə də yerişini dəyişmir. Tez-tez yüngül sıçrayışlarla üzbəüz səkiyə keçir. Maşın sürəndə fikri dağınıq olur, istədiyi səmtə dönəndən xeyli sonra da dönmə işığını söndürməyi unudur. Həmişə başıaçıq gəzir. Bilikli adama oxşayır”.

Tarunun xəstəliyə aid göstərdiyi rəqəmlər doğru idi. Həkim Ryö bu məsələni yaxşı bilirdi. Ev xidmətçisinin meyitini izolyatora qoyandan sonra Rişara zəng etmiş, qızdırmalı xəstələr haqda onu sorğu-suala tutmuşdu.

– Baş çıxara bilmirəm, – Rişar cavab vermişdi. – İki nəfər ölüb, biri xəstələnəndən qırx səkkiz saat sonra, o biri isə üç gün sonra. İkinci xəstə axırıncı gün səhər, az qala, tamam sağlam görünürdü.

– Belə təzə xəstələriniz olanda mənə xəbər edin, – Ryö söhbəti qurtarmışdı.

O, başqa bir neçə həkimə də zəng etdi. Öyrəndi ki, bir neçə gün ərzində iyirmiyə yaxın adamda eyni hal baş verib və çoxu ölüb. Ryö Oran şəhəri həkimləri həmkarlar təşkilatı katibi Rişara tapşırdı ki, yeni xəstələri izolyatora salsınlar.

– Mən nə edə bilərəm? – Rişar cavab verdi. – Gərək bələdiyyə idarəsi bir ölçü götürsün. Bir də sizə kim deyib ki, yoluxma qorxusu var?

– Mənə heç nə deyən olmayıb, amma bilirəm ki, xəstəliyin əlamətləri qorxuludur.

Rişar fikirləşirdi ki, o, məsul adam deyil. Əlindən gələn o olar ki, vəziyyəti rəisinə danışsın.

Elə beləcə söhbətlərin uzandığı vaxt hava da korlanmışdı. Ev xidmətçisi ölən günün ertəsi səmanı qara bulud aldı. Gur, qısa yağışlar yağdı. Leysan ara verəndə isti külək əsirdi. Dənizin də mavi rəngi buludlu səma altında ürəkbulandıran boz, gümüşü rəngə çevrilmişdi. Bu baharın rütubətli günləri yayın qızmar günlərindən də ağır keçirdi. Dağətəyi düzəndə tikilmiş, dənizi lap az görən şəhərdə hava boğanaq idi. Uzun, suvaqlı divarlar, vitrinlərini toz basmış küçələr, bulaşıq sarı rəngli tramvaylar arasında adama elə gəlirdi ki, səma zindan örtüyüdür. Təkcə Ryönün sinəgir qoca xəstəsi havadan ləzzət alır, sevinirdi.

– Hə, hava qızır, – deyirdi. – Belə hava bronxlara xeyirdir.

Hava, doğrudan da, qızırdı. Amma bu istilik də qızdırma kimi qalxırdı. Kottarın özünü öldürmək cəhdi barədə istintaqda iştirak etmək üçün səhər Fedherb küçəsinə gedəndə Ryö fikirləşirdi ki, bütün şəhər qızdırma içindədir. Amma bu fikri ilə özü də razılaşa bilmirdi. Güman edirdi ki, belə fikirlər yorğunluq və nigaranlıqdan yaranır, imkan tapıb fikirlərini qaydaya salmalıdır.

O, evə çatsa da, polis komissarı hələ gəlməmişdi. Qran qapının ağzında gözləyirdi. Onlar düşündülər ki, Qranın mənzilində qapını açıq qoyub gözləsinlər. Bələdiyyə işçisi ikiotaqlı, adda-budda döşənmiş bir mənzildə yaşayırdı. Mənzildə görə biləcəyin ikicə əşya vardı; biri üstünə iki-üç lüğət yığılmış ağ rəngli kitab rəfi, o biri isə aşağısında güclə oxunan hərflərlə "Çiçəkli xiyaban" yazılmış qara bir tablo. Qranın mülahizəsinə görə, Kottar gecəni yaxşı yatmışdı. Səhər oyananda qəribədir ki, başı şiddətli ağrıdan sancırdı və halsızlıqdan tərpənə bilmirmiş yazıq. Qran üzdən yorğun və əsəbi görünürdü. Otaqda vərdiş elədiyi kimi obaş-bubaşa gəzinir, hərdən dayanır, masanın üstündən əlyazması ilə dolu bir qovluğu gah açır, gah da qapayırdı.

Həkimə deyirdi ki, Kottarı heç əməllicə tanıyıb eləmir, amma nədənsə fikirləşir ki, çox da kasıb adama oxşamır. Hər halda, qəribə adamdır. Bu qədər vaxtda pilləkəndə salamlaşmaqdan başqa bir münasibətləri olmayıb.

– Ancaq ikicə dəfə fürsət tapıb onunla söhbətləşə bilmişəm. Bir neçə gün əvvəl evə gətirdiyim bir qutu tabaşiri pilləkəndə dağıtdım. Tabaşirlər yaşıl və qırmızı idi. Elə bu vaxt Kottar çölə çıxdı və tabaşirləri yığmağa kömək elədi. Sonra soruşdu ki, bu rəngbərəng tabaşirlər nəyimə gərəkdir?

Qran Kottara deyib ki, məktəbi bitirəndən sonra keçən müddətdə latın dilini unutduğuna görə indi evdə məşğul olur, dili yenidən öyrənir.

– Bəli, – o, üzünü həkimə sarı çevirdi, – mənə deyiblər ki, fransız sözlərinin mənasını yaxşı anlamaq üçün belə lazımdır.

Demək, əvvəlcə latın sözlərini lövhəyə yazır, sonra sözün hallanmaya və şəxsə görə təsrif edilən hissəsini göy tabaşirlə, dəyişməyən hissəsini isə qırmızı tabaşirlə alt-alta yazırmış.

– Bilmirəm Kottar məni başa düşdü, ya yox, hiss etdim ki, maraqlanır və məndən bir qırmızı tabaşir istədi. Doğrudur, mən təəccübləndim, amma... heç ağlıma gəlməzdi ki, tabaşiri belə məqsədlə istəyirmiş.

Ryö onların ikinci söhbətinin mövzusu ilə maraqlandı. Elə bu vaxt polis komissarı öz katibi ilə içəri keçdi. O istəyirdi ki, əvvəlcə Qranı dinləsin. Qran danışarkən həkim hiss etdi ki, o, Kottarı "ruhdan düşmüş adam" adlandırır. Hələ bir dəfə Kottarın hərəkətini "kor-təbii qərar" da adlandırdı. Onlar Kottarın özünə qəsd etməsinin səbəbini soruşanda Qran bir söz tapıb deyə bilmirdi. Axırda "intim qüssə" ifadəsinin üstündə durdular. Komissar soruşdu ki, Kottarın "bu işi" təkrar edə biləcəyini büruzə verən bir cəhət duyulmayıb ki?

Qran cavab verdi:

– Dünən qapımı döydü, kibrit istəyirdi. Bir qutu kibrit verdim. Üzrxahlıq edib dedi ki, qonşuluqda belə şeylər olur... Sonra söz verdi ki, kibriti qaytaracaq. Mən də dedim ki, lazım deyil.

Komissar bələdiyyə xidmətçisindən Kottarın hərəkətlərində bir qəribəlik duyub-duymadığını soruşdu.

– Mənə qəribə görünən bu oldu ki, deyəsən, söhbət etmək istəyirdi. Mən isə məşğul idim, işləyirdim.

Sonra Qran Ryöyə tərəf çevrilib çəkinə-çəkinə əlavə etdi: – Şəxsi işim vardı.

Komissar xəstənin özünü görmək istəyirdi. Ryö fikirləşdi ki, Kottarı bu görüşə hazırlamaq lazımdır. O, Kottarın otağına girəndə əyninə xalat geymiş Kottar qalxıb çarpayıda oturdu və qapıya baxıb sıxıla-sıxıla soruşdu:

– Polis gəlir, eləmi?

– Bəli, – Ryö cavab verdi. – Narahat olmayın. İki-üç kəlmə rəsmi sual-cavabdan sonra çıxıb gedəcək.

Kottar bildirdi ki, bunun heç bir əhəmiyyəti yoxdur və o, polisi xoşlamır. Ryö səbirsizliklə dedi:

– Elə mənim də polisdən xoşum gəlmir. Belə vəziyyətdə gərək polisin sualına tez və dəqiq cavab verəsən ki, canın qurtarsın.

Kottar susdu, həkim qapıya tərəf addımlayan kimi onu geri çağırdı. Həkim geri qayıdanda kişi onun əlindən tutdu:

– Xəstə bir adama, özünü asmaq istəmiş bir adama dəyib-toxunmazlar, eləmi, həkim?

Həkim bir müddət ona baxdı, sonra inandırdı ki, bu barədə heç bir söz ola bilməz və həkimin əsas borcu da xəstəsini müdafiə etməkdir. Kottar toxtadı və həkim komissarı içəri çağırdı.

Polis işçisi Qranın verdiyi ifadəni oxudu və Kottardan soruşdular ki, nə səbəbə belə hərəkət edib? O, komissarın üzünə baxmadan cavab verdi ki, "İntim qüssə" ifadəsi düzgün seçilib. Komissar tələsik soruşdu ki, bu hərəkəti təkrar etmək fikrinə düşəcəkmi? Kottar əsəbiliklə cavab verdi ki, elə fikri yoxdur və ondan əl çəksələr yaxşıdır.

– İstəyirəm sizə bildirim ki, – komissar bezikmiş tərzlə sözə başladı, – hələlik başqalarının rahatlığını pozan siz özünüzsünüz. – Sonra o, həkimin işarəsi ilə dayandı və qapıdan çıxarkən köksünü ötürdü: – Onsuz da, bu qızdırma əhvalatı başlayandan iş başımızdan aşır...

Sonra o, həkimdən qızdırma məsələsinin qorxulu olub-olmadığını soruşdu və həkim də cavab verdi ki, heç nə bilmir.

– Vaxt çatıb, vəssalam, – komissar söhbətə son qoydu.

Doğrudan da, vaxt çatmışdı. Gün keçdikcə vəziyyət korlanır, hər yeni xəstəyə baş çəkdikcə Ryö hiss edirdi ki, fikri doğrulmağa başlayıb. Axşamüstü həkim qoca xəstənin qonşuluğunda başqa birisinə baş çəkməyə getmişdi. Xəstə qızdırma içində sayıqlaya-sayıqlaya qusurdu. Bədənindəki şişlər ev xidmətçisinin şişlərindən də

böyük idi. Şişlərdən biri yetişməyə başlamışdı və çox keçməmiş açıldı, çirk verdi. Həkim vilayətin dərman anbarına zəng vurdu. Onun peşə qeydləri elə həmin gündən başlayıb. İlk qeydi isə belədir: “Dərman yoxdur”. Sonra o, eyni vəziyyətə düşmüş başqa xəstələrə baş çəkməli oldu. Şişləri çərtmək vacib idi. Hər şişin üzərinə ülgüclə xaçşəkilli iki xətt çəkən kimi qanqarışıq qatı irin axmağa başlayırdı. Qol-qıçını aralı qoyub uzanmış xəstələrin yaraları qan verirdi. Onların qarın və qıçlarında ləkələr əmələ gəlir, kəsilmiş şişlərin ağzı bağlanır, yenidən şişirdi. Xəstələrin çoxu dözülməz üfunət yaya-yaya ölürdü.

Siçovul əhvalatı vaxtı dil boğaza qoymayan mətbuat indi susmuşdu. Çünki siçovullar küçədə qırılırdı, adamlar isə evlərdə ölürdülər. Mətbuat da ancaq küçələrdən yazır. Amma bələdiyyə idarəsi ilə şəhər rəhbərliyi narahat olmağa başlamışdılar. Nə qədər ki hər həkimin cəmi iki-üç belə xəstəsi vardı, heç kim hərəkətə gəlmirdi. Kiminsə bütün xəstələri hesablaması kifayət etdi. Məlum oldu ki, xəstənin sayı lap çoxdur. Bir neçə gün ərzində ölənlərin sayı lap artdı, bu qəribə xəstəliklə məşğul olanlar anladılar ki, əsl epidemiya ilə üzləşiblər. Elə həmən vaxt Ryönün yaşlı həmkarı Kastel onun yanına gəldi:

– Yəqin ki, sən bu xəstəliyin adını bilirsən, Ryö?

– Hələ analizlərin cavabını gözləyirəm.

– Mən isə bilirəm. Özü də mənim analizə ehtiyacım yoxdur. Mən xeyli vaxt Çində işləmişəm, iyirmi il əvvəl də həmin xəstəliyə öz adını verməyə cürət etmədilər. İctimai fikir müqəddəs şeydir: küy qaldırmaq olmaz, əsas məsələ əhalini küyləməməkdir. Hələ həmkarlarımdan biri belə deyirdi: “Ola bilməz, hamı bilir ki, bu xəstəlik Avropadan təmizlənib. Bəli, hamı bilirdi, təkcə ölənlər bilmirdilər. Yaxşı, Ryö, boynuna al ki, bu xəstəliyi sən də tanımısan.

Ryö fikirləşirdi. Otağının pəncərəsindən dənizə açılan mənzərəni qapamış uzaq qayaya baxırdı. Səma mavi olsa da, havada qəribə bir tutqunluq vardı və bu tutqunluq günortadan keçdikcə yavaş-yavaş seyrəlirdi. Həkim dilləndi:

– Elədir, Kastel, adam heç inana bilmir. Bu xəstəlik, deyəsən, taundur.

Kastel ayağa qalxıb qapıya tərəf addımladı.

– Heç bilirsiniz bizə nə cavab verəcəklər? – qoca həkim Ryödən soruşdu. – "Bu xəstəlik orta səviyyəli ölkələrdə çoxdan yoxa çıxıb" deyəcəklər.

– "Yoxa çıxıb" nə deməkdir axı? – Ryö çiyinlərini çəkdi.

– Elədir. Amma unutmayın ki, təxminən, iyirmi il əvvəl Parisdə də eyni vəziyyət idi.

– Yaxşı. Güman edək ki, indi vəziyyət iyirmi il əvvəlkindən çətin olmayacaq. Adam gördüyünə heç inana bilmir.

***

"Taun" sözü birinci dəfə idi dilə gətirilirdi. Söhbətimizin bu yerində Bernar Ryönü öz pəncərəsi arxasında qoyub, onun şübhə və təəccübünə haqq qazandırmaq istəyirik. Çünki onun hadisəyə münasibəti bəzi cəhətlərə görə şəhər əhalisinin əksəriyyətinin münasibətinə bənzəyirdi. Doğrudan, bəla elə bir şeydir ki, hamının başına gələ bilər, amma bəla başının üstünü alsa da, adam onun varlığına inana bilmir. Dünyada müharibələrin sayı qədər taun xəstəliyi olub. Taun da, müharibə də adamları həmişə qəfildən yaxalayır. Həkim Ryö də bütün şəhər əhalisi kimi qəfil yaxalanmışdı və onun şübhələrinə səbəb də elə bu cəhət idi. Həkim nigarançılıqla ümid arasında qalmışdı. Müharibə baş verəndə camaat belə deyir: "Uzun çəkməz, axmaq işdir".

Şübhə yox ki, müharibə axmaq işdir, axmaq iş olsa da, uzanıb gedir. Axmaq iş həmişə uzanır və bunu tək özünü fikirləşməyənlər daha yaxşı duyurlar. Bizim şəhərin camaatı da bu mənada başqalarına bənzəyirdi, ancaq özlərini fikirləşirdilər. Onlar bəlanın mövcudluğuna inanmırdılar. Bəlanı insan təyin etmir və adam fikirləşir ki, o, mücərrəd bir məfhumdur, qorxulu yuxu kimi bir şeydir və keçib-gedəcək. Lakin bəla həmişə keçib-getmir, qorxulu yuxular bir-birini əvəz edir və keçib-gedən adamlar olur. Bu keçib-gedən, dünyadan köçən adamların ilk sırasında da humanistlər gedirlər, çünki onlar əvvəlcədən ehtiyat etməyi bacarmırlar. Bizim şəhər camaatının günahı heç də başqalarından çox deyildi, sadəcə, təvazökarlığı unudur, güman edirdilər ki, hələ hər şeyə qadirdirlər və bəla onlara dəyib-toxuna bilməz.

Onlar yenə də işgüzarlıq edir, səfərlərə hazırlaşır, yeni fikirlər irəli sürürdülər. Axı nə biləydilər ki, gələcəyi, səfərləri, mübahisələri yoxa çıxaran bir taun da var? Onlar özlərini azad sayırdılar, amma nə qədər ki bəlalar var, heç kəs, heç vaxt azad olmayacaq.

Həkim Ryö şəhərdə bir dəstə adamın qəfil ölümünün səbəbini dostunun qarşısında etiraf eləsə də, təhlükə ona hələ də mücərrəd görünürdü. İş burasındadır ki, həkimlərdə ağrılar haqqında müəyyən fikir yaranır və götür-qoy daha uzun çəkir. İndi pəncərə qarşısında zahirən dəyişməmiş şəhərə baxdığı vaxt yüngül bir ürəkbulanması ilə gələcəyin nigarançılığını çəkirdi. Çalışırdı ki, bu xəstəlik haqqında bildiklərini fikrində cəmləsin. Yaddaşında müxtəlif rəqəmlər oynayır və fikirləşirdi ki, tarix boyu məlum olan otuz böyük taundan yüz milyona yaxın adam ölüb. Yüz milyon ölü nədir axı? Müharibə vaxtı hər ölümə çox cüzi əhəmiyyət verilir. Ancaq adamın meyitini görəndə ölümün təsiri dəqiq duyulur. Tarixə səpələnmiş yüz milyon ölümün

təsəvvürü isə adamın şüurundan bir parça duman kimi keçib-gedir. Həkim Konstantinopol taununu yada saldı. Prokopun yazdığına görə, bir gündə on min adam ölüb. On min adam böyük bir kinoteatrın zallarını beş dəfə doldurar. Təsəvvür etmək çətindir. Gərək beş böyük kinoteatrın tamaşaçılarını şəhər meydanına gətirib, qalaq-qalaq yığıb öldürəsən, onda mənzərə daha aydın görünər. Heç olmasa, adam tanış sifətləri bu qalaqlarda təsəvvür edə bilər. Məlum məsələdir ki, belə də etmək mümkün deyil, həm də ki heç on min sifət tanıyan adam tapılar? Bir məsələ də məlumdur ki, Prokop kimi adamlar saymağı bacarmırdılar. Yetmiş il əvvəl Kantonda qırx min siçovul taundan qırılsa da, adamlar hələ bəladan xəbərsiz idilər. İş burasındadır ki, 1871-ci ildə siçovulları saymaq imkanı yox idi. Təxmini hesablayırdılar, orta hesabla elə-belə, gözəyarı hesablayırdılar. Əgər bir siçovulun uzunluğu otuz santimetrdirsə, qırx min siçovulu dalbadal düzsək, gör hara çatar...

Həkim əsəbiləşirdi ki, nahaq yerə cürbəcür fikirlərə vaxt itirir. Bir neçə xəstə hələ epidemiya demək deyil, ehtiyat tədbirləri kifayət edər. Məlum əlamətləri nəzərdən keçirmək lazımdır; qorxu və həyəcan, qızarmış gözlər, köpüklü ağız, başağrıları, şişlər, amansız susuzluq, sayıqlama, bədəndə ləkələr, daxili sərt ağrılar və bütün bunlardan sonra... Bütün bunlardan sonra həkimin yadına tibbi məlumat kitabından oxuduğu əlamət sadalamalarından sonrakı bir cümlə düşürdü: "Nəbz zəif, axıcı olur və xəstə cüzi bir hərəkət nəticəsində ölür". Bəli, bütün bunlardan sonra adam sapdan asılı qalır, dəqiq hesabla adamların dörddəüçü səbirsiz olduğuna görə hərəkətsiz dayana bilməyib cüzi hərəkəti edəcək və ölümə tələsəcək.

Həkim hələ də pəncərədən çölə baxırdı. Çöldə təmiz bahar səması görünür, içəridə isə bayaq dilə gətirilmiş sözün əks-sədası hələ də cingildəyirdi: taun.

Bu sözdə elmin müəyyənləşdirdiyi mənadan başqa, bir-birini əvəz edən ardıcıl və ecazkar mənzərələr də müşahidə edilirdi. Adıçəkilən mənzərələri bu sarı, boz şəhərə – günün bu çağı canlanmağa başlayan, qaynarlığından çox uğultusu duyulan, biganə və xoşbəxt sayılan bu şəhərə uyuşdurmaq olmurdu.

Keçmiş bəlaların könül bulandıran mənzərələri isə heç fikirləşməyə fürsət tapmamış sakit-sakit göz önündən süzüb-keçirdi: quşların taunu dimdiyində yayıb xarabazara çevirdiyi Afina, əhalisi sükut içində can verən Çin şəhərləri, çürümüş cəsədləri quyulara quylayan Marsel dustaqları, qorxulu vəba küləyinin qarşısını kəsmək üçün Provənsdə tikilmiş uca barı, Caffanın lənətə gəlmiş dilənçiləri, Konstantinopol xəstəxanasının torpağın üstünə düzülmüş nəm və çürük çarpayıları, qarmaqla çəkilib evdən çıxarılan xəstələr, Qara taun çağı maskalanmış həkimlərin karnavalı, Milan qəbiristanlıqlarına toplaşan camaat, London küçələrində meyitlər yüklənmiş arabalar, gecə və gündüz hər yandan eşidilən sonsuz şivən səsləri. Yox, bütün bu əlamətlər hələlik yox idi. Küçədən eşidilən bir cingilti, tramvayın zəng səsi əzab dolu fikirləri bircə anda alt-üst elədi. Yalnız evlərin yöndəmsiz damları üzərindən görünən dənizdən də nigarançılıq sorağı gəlirdi. Körfəzə tamaşa edən həkim Ryö fikirləşirdi ki, Lükresin söylədiyinə görə, bir vaxtlar xəstəliyə tutulmuş afinalılar dəniz kənarında iri tonqallar qalayırlarmış. Adamlar gecə vaxtı meyitləri tonqalların yanına gətirir, öz ölüsünə yer tapmayanlar məşəl döyüşünə girişir, əzizlərinin cəsədlərini çölə atmaqdansa, qanlı vuruşa girişməyi üstün tuturlarmış. Sakit və qaranlıq suların sahilində iri tonqalların qırmızı alovunu, məşəl döyüşündən gecənin qaranlığına yayılan qığılcımları, sakit səmaya ucalan qalın, zəhərli tüstü burumlarını təsəvvürə gətirmək olur. Bu mənzərədən qorxmağa dəyərdi...

Hələlik isə qorxulu fikirlərə meydan vermək olmaz. Doğrudur, bir az əvvəl "taun" sözü dilə gətirilib, indinin özündə bəla bir neçə adamı torpağa göndərib. Nə olsun ki? Bəla dayana bilər. Əsas məsələ budur ki, gərək yaxşı götür-qoy edəsən, gərəksiz fikirləri qovub, lazımi tədbirlər görəsən. Sonra taun dayanacaq, çünki onun varlığı təsəvvürə gəlmirdi, gəlsə də, zəif gəlirdi. Əgər taun dayansa – çox mümkün ki, elə belə də olacaq – hər şey qaydaya düşəcək. Əksinə olsa, bu xəstəliklə tanış olacağıq, tanış olacağıq ki, ona qalib gələk.

Həkim pəncərəni açanda şəhərin səs-küyü içəri doldu. Lap yaxınlıqdakı bir emalatxanadan motorlu mişarın qısa və yeknəsəq cingiltisi eşidilirdi. Ryö gərnəşdi. Ən rahat iş gündəlik işdir. Qalanı isə zəif bir sapdan və cüzi bir hərəkətdən asılıdır. Başqa yol yoxdur. Əsas məsələ budur ki, gərək hər kəs öz peşəsinə yaxşı əməl eləsin.

Həkim Ryö bu şəkildə aranı dağa, dağı arana daşıdığı zaman xəbər yayıldı ki, Jozef Qran onu görməyə müntəzirdir. Bələdiyyə idarəsinin işçisi Qran idarədə hər cür işə buyrulduğundan hərdən əhalinin siyahıya alınması ilə də məşğul olurdu. İndi də ona ölənlərin siyahısını tutmağı tapşırmışdılar. Tutduğu siyahının bir nüsxəsini Ryöyə verməyə boyun olmuşdu.

Qran qonşusu Kottarla içəri girdi. Əlindəki kağızı həkimə uzatdı:

– Rəqəmlər artır, həkim, qırx səkkiz saat ərzində on bir adam ölüb.

Ryö Kottara salam verdi, əhvalını soruşdu. Qran dedi ki, Kottar həkimə təşəkkür etməyə gəlib və ona əziyyət verdiyi üçün üzrxahlıq dilədi. Ryö isə əlindəki siyahıya baxırdı, sonra başını qaldırıb dedi:

– Yaxşı, bəlkə, bu xəstəliyin adını açıb deməyin vaxtı çatıb. İndiyə qədər tərəddüd eləmişik. Mən laboratoriyaya getməliyəm, gəlin bir yerdə gedək.

– Bəli, bəli, elədir, – deyə-deyə Qran həkimin arxasınca pilləkəni enirdi. – Gərək hər şeyi öz adı ilə çağırasan. Yaxşı, bəs nə addır o elə?

– Yox, deyə bilmərəm. Bir də ki bilməyinizin əhəmiyyəti olmayacaq.

– Görürsünüzmü, – Qran gülümsədi, – deməli, asan iş deyilmiş.

Onlar Arm meydanına öz tutdular. Kottar susurdu. Küçələrdə adamlar artırdı. Bu ölkədə, adətən, axşam toranı yavaşca gecə qaranlığına çevrilir, hələ qaralmamış səmada ilk ulduzlar görünməyə başlayırdı. Az sonra şəhər işıqları yandı, səma qaranlıqlaşdı, gəzişənlərin söhbəti ümumi bir uğultuya çevrildi. Arm meydanının tininə çatanda Qran dedi:

– Məni bağışlayın, burada tramvaya minib evə qayıtmalıyam. Axşamlar mütləq işləməliyəm. Ölkəmizdə belə bir məsəl var: “Bu günün işini sabaha qoyma...”

Ryö artıq bilirdi ki, əslən Montelimardan olan Qran ölkəsindəki atalar sözlərini tez-tez dilə gətirir və bu məsəllərə “Xəyal çağı”, yaxud “Müqəddəs işıqlar” kimi çox işlənmiş və köhnəlmiş ifadələr əlavə etməyə başlayır. Kottar dilləndi:

– Hə! Düz deyir. Günortadan sonra onu evdən çıxarmaq olmur.

Ryö Qrandan soruşdu ki, axşamlar da bələdiyyə idarəsi üçün işləyir, ya yox? Qran da cavab verdi ki, özü üçün işləyir. Söhbəti kəsməmək üçün Ryö dilləndi:

– Lap yaxşı! De görüm, bir irəliləyiş varmı?

– Neçə ildir özümə zülm verib, özümü məcbur edib işləyirəm. Birtərəfli fikirləşəndə elə bir irəliləyiş yoxdur.

Həkim addımını saxlayıb soruşdu:

– Yaxşı, bəs işinizin məzmunu nədir?

Qran mızıldana-mızıldana dəyirmi şlyapasını iri qulaqlarının üstünə çəkdi. Ryö, deyəsən, başa düşdü ki, burada nə isə tam şəxsi işdən söhbət gedir. Qran

isə onlardan ayrılıb iti addımlarla gül ağaclarının altından keçərək Marn bulvarına sarı irəliləyirdi. Laboratoriyaya çataçatda Kottar həkimə dedi ki, onunla görüşüb məsləhət almaq istəyir. Ryö isə ciblərini eşələdi, bayaqkı siyahını axtararaq onu otağına dəvət etdi. Sonra nə isə düşünüb dedi ki, sabah onların məhəlləsinə gəlməlidir və axşamüstü Kottara baş çəkə bilər.

Kottardan ayrılanda həkimin ağlına Qran gəldi. O, Qranı taun xəstəliyinin içində, həm də, yəqin ki, belə bir taunun deyil, tarixin məşhur taun epidemiyalarından birində təsəvvür edirdi. "Belə vəziyyətdə onun kimi adamlar salamat qalırlar. Həkim yadına saldı ki, taunun arıq adamlardan yan keçib cüssəli adamları qırmasını da haradasa oxuyub. Qranı fikirləşdikcə həkim onda nə isə bir qəribəlik kəşf edirdi.

Doğrudan da, ilk baxışda Jozef Qran adi bir bələdiyyə işçisi idi və öz vəzifəsinə uyğun gəlirdi. Bu ucaboy, arıq kişi paltar geyindirilmiş müqəvvaya oxşayır, özü də həmişə iriölçülü paltar alırdı ki, bəlkə, gələcəkdə ətə-cana gəldi. Alt dişlərinin çoxu hələ yerində olsa da, üst dişləri tökülmüşdü. Gülümsəyəndə üst dodağı dartınır, ağzı boş və qaranlıq görünürdü. Bu təsvirə onun seminarist yerişini, divar dibi ilə cəld sivişib qapılardan girməsini, rütubət və tütün iyi verməsini və başqa xırda cəhətlərini də əlavə etsək, bu kişinin işi barədə də təsəvvür yaranır. Onu ancaq şəhər hamamlarının iş cədvəlini yoxlayan, yaxud məişət zibillərinin yığılması barədə yeni məlumatları gənc şöbə müdirinə təqdim edən bir məmur kimi təsəvvürə gətirmək olar. Tanımayanlar belə onun sadə, ikincidərəcəli, lakin vacib bələdiyyə işləri üçün dünyaya gəldiyini, gündəlik altmış iki frank otuz santim əməkhaqqı aldığını duya bilərdi.

Elə o da məşğul olduğu işlərdən bu şəkildə danışır, söhbətində "ixtisaslaşma" sözünü də şəksiz işlədirdi. İyirmi iki il qabaq məktəbi bitirəndən sonra təhsilini

davam eləməyə pulu çatmamışdı, elə bu ərəfədə ona tez "yüksəlmək" imkanı qazandıran bu işi təklif etmişdilər və o da dərhal razılaşmışdı. Əsas məsələ şəhər meriyasının irəli sürdüyü vacib məsələlərin həllində bir müddət ciddi çalışmaq idi. Bir az keçdikdən sonra isə vəd edildiyi kimi şöbə müdiri vəzifəsinə keçib firavan ömür sürə bilərdi. O, anlaşılmaz bir təbəssümlə deyirdi ki, əslində, onu işə can yandırmağa şövq edən təkcə bu cəhət deyildi. Halal əməklə sakit və firavan ömür sürmək, sıxıntı çəkmədən sevimli işinə başını qarışdırmaq imkanı, bilsən, necə şirin görünmüşdü. Təklif edilən işi xoş niyyətlə, belə deyək, öz fikrinə sadiqlik naminə qəbul eləmişdi.

Nə qədər uzun bir müddət keçsə də, Qranın dayanıqsız vəziyyəti dəyişmədi, qiymətlər durmadan və necə gəldi qalxsa da, onun aldığı əməkhaqqı, cüzi artımlar nəzərə alınmasa, yenə dəyişməmişdi. Öz vəziyyətindən Ryöyə şikayət etsə da, başqaları giley-güzarından xəbərsiz idi. Bu, Qranın fərqli cəhətlərindən biri idi. İstəsəydi, haqqını tələb edər, ən azından, verilmiş vədləri dilə gətirə bilərdi. Niyə? Kimdən əskik idi ki? Məsələ burasındadır ki, onu işə götürmüş idarə müdiri çoxdan vəfat eləmişdi, elə Qranın özü də işə girərkən nələr vəd olunduğunu dəqiq yada sala bilmirdi. İkinci və daha böyük maneə bu idi ki, Jozef Qran etirazını bildirmək üçün lazımi söz tapa bilmirdi.

Ryö hiss eləmişdi ki, yerlimiz Qranın ən zəif cəhəti də elə budur. Elə bu cəhətə görə Qran nə fikirləşdiyi mövzuda ərizə yaza bilir, nə də rəhbərlik qarşısında lazımi tərzdə söhbət açırdı. Özünün dediyinə görə, ona mane olan əsas cəhətlərdən biri özünün də çox arxayın olmadığı "hüquq" sözünü işlətmək idi. Eyni zamanda, "vədlər" sözünü də işlətsə, belə çıxır ki, kimdənsə haqq tələb edir və belə bir tərz onun tutduğu kiçik vəzifəyə uyğun gəlmir. Həm də fikirləşirdi ki, "xeyirxahlıq",

“xahiş etmək”, “rəhmdillik” kimi sözləri dilə gətirməyə qüruru yol verməzdi. Elə beləcə, yerinə düşən sözlər tapa bilmədiyindən bu həmvətənimiz yaşı keçincə xırda buyruqlara çiyin verməli, baş əyməli olub. Bir də ki, Ryöyə dediyinə görə, maddi vəziyyəti heç də fəna deyildi, çünki ayağını yorğanına görə uzatmağı bacarırdı bu adam. Ən sonda, o, bizim şəhər valisinin – şəhərin ən iri sənaye sahibkarlarından olan valinin artıq zərbi-məsələ çevrilmiş bir ifadəsi ilə razılaşıb. Vali tez-tez deyirmiş ki, əslində (o, “əslində” sözünü xüsusi vurğu ilə deyirmiş), bəli, əslində, hələ heç kəsin aclıqdan öldüyünü görən olmayıb. Hər halda, Jozef Qranın adət elədiyi quru həyat tərzi onu, doğrudan da, aclıq hədəsindən uzaqlaşdırmışdı. O, hələ də lazımi sözlər axtarmaqla məşğul idi.

Bir tərəfdən, demək olar ki, onun həyatı nümunəvi həyat idi. Bizim şəhərdə də, kənarda da aztapılan xeyirxah adamlardan biri idi. Azacıq büruzə verdiyi xasiyyətindən duyulurdu ki, doğrudan da, səmimiyyət və xeyirxahlıq nümunəsidir, belə xüsusiyyəti də bizim dövrdə hər adamda görmək olmur. Yeganə qohumu olan bacısı və bacısı uşaqlarını çox istəməsindən, iki ildən bir Fransaya gedib onlara baş çəkməsindən danışırdı. Boynuna alırdı ki, gənc yaşında itirdiyi valideynlərinin xatirəsi onu kədərləndirir. Açıqca deyirdi ki, öz məhəlləsində hər axşam saat beşdə zəng çalan bir kilsə zənginin mülayim səsini başqa səslərdən çox xoşlayır. Bütün bu sadə hissləri büruzə vermək üçün ən adi bir sözü seçməkdə çətinlik çəkirdi. Axırda bu cəhət onun ən böyük qayğısına çevrilmişdi. Hər dəfə həkimi görəndə belə deyirdi: “Eh, ay həkim, ən böyük arzum fikrimi söyləməyi öyrənməkdir”.

Həmin axşam uzaqlaşıb gedən Qranın arxasınca baxdığı vaxt həkim onun nə demək istədiyini qəfildən anladı: bu Qran ya kitab yazır, ya da ona bənzər bir işlə məşğuldur. Laboratoriyaya girincə Qranın məşğuliyyə-

tini fikirləşir və bu fikir ona təsəlli verirdi. Həkim xeyirxah təbiətli kiçik məmurları olan bir şəhərdə taunun yayılmasına inana bilmirdi. Daha doğrusu, o, xeyirxahlığın taunla əhatə olunduğunu təsəvvürünə gətirə bilmir, fikirləşirdi ki, taun bizim şəhər camaatına güc gələ bilməz.

***

Ryönün ərşə qalxan səyi nəticəsində ertəsi gün prefekt idarəsində səhiyyə işçilərinin iclası çağırıldı. Ryö ilə görüşəndə Rişar dedi:

– Camaat çox nigarandır. Dedi-qodular işimizə ziyan vurur. Prefekt rəisi buna belə reaksiya verdi: "Siz ki deyirsiniz belə lazımdır, gəlin ölçü götürək, amma səsi çıxmasın". O, hələ bunların şayiə olduğunu güman edir.

Prefekt idarəsinə yola düşəndə Bernar Ryö Kasteli də öz maşınına götürdü. Yolda Kastel dedi:

– Bizdə serum dərmanı yox imiş, xəbərin var idimi bundan?

– Bilirəm. Anbara zəng eləmişdim. Direktor ehtiyatsızın yekəsi imiş. Gərək dərmanı Parisdən gətirdək.

– Çox uzun çəkməz ki?

– Teleqram da göndərmişəm, – Ryö cavab verdi.

Prefekt rəisi gülümsədi, ancaq təbəssüm əsəbiliyini ört-basdır edə bilmədi. Teç-tələsik mətləbə keçdi:

– Başlayaq. Vəziyyəti izah etməyə ehtiyac yoxdur, məncə.

Rişar düşündü ki, bu artıq iş olar. Həkimlər vəziyyətdən halidirlər. Əsas məsələ ölçü götürməklə əlaqəlidir.

Qoca Kastel sərt səslə dedi:

– Əsas məsələ bu xəstəliyin taun olub-olmadığını aydınlaşdırmaqdır.

Həkimlərdən iki-üçü həyəcanlı görünürdü. Qalanları tərəddüd içində idi. Prefekt rəisi ayılmış kimi oldu və bu həyəcanlı sözləri çöldə kimsənin eşitmədiyini bilmək

məqsədi ilə qapıya baxdı. Rişar dedi ki, onun fikrincə, hay-küyə baş qoşmaq işlərinə yaramaz, indilik bunu demək olar ki, yaralı şişlər əmələ gətirən bir qızdırmadan söhbət gedir, dəqiq olmayan mülahizələr elmdə də, həyatda da pis nəticələrlə sonuclanır. Bunu ki hamı bilir, özü də beş barmağı kimi. Saralmış bığlarını sakitcə tərpədən qoca Kastel açıqrəngli gözlərini Ryönün üzünə zillədi. Sonra çevrilib iclasdakıları xoş təbəssümlə süzdü və bu baxışla, sanki, demək istəyirdi ki, xəstəliyin taun olduğuna əmindir, amma bu fikri rəsmən təsdiqləsə, çox ağır nəticələr hasil olacaq, aləm dəyəcək bir-birinə. Əvvəla, bu halda bir həkim kimi ciddi ölçülər götürməli idi. Bilirdi ki, həqiqətdə həmkarlarının bir çoxu məhz bu cəhətə görə dəqiq rəy bildirmirlər və o da ömumi sakitlik naminə "taun" sözünü dilə gətirmirdi. Prefekt rəisi gur səslə bildirdi ki, hər halda, yaxşı fikirləşmək, diaqnozu dəqiqləşdirmək yaxşı olardı. Kastel dedi:

– Əsas məsələ dəqiq ifadə işlətməkdə deyil, düzgün danışıb fikir yaratmaqdadır.

Ryö dinib-danışmadığından onun fikrini soruşurdular:

– Tif xəstəliyini xatırladan bir qızdırmadan söhbət gedir, amma bu xəstəlik şişlər əmələ gətirir, xəstə uzun müddət qusur. Mən şişlərdən nümunə götürüb analizə verdim və laboratoriya bildirdi ki, taun virisunu tapıb. Demək lazımdır ki, bu mikrobun bəzi xüsusiyyətləri keçmişdəki mikroblardan fərqlənir.

Rişar bildirdi ki, elə bu cəhətə görə bir az tərəddüd edirik və bir neçə gün ərzində toplanmış analizlərin cavabını gözləməliyik.

Ryö bir az susub dedi:

– Bir mikrob ki üç gün ərzində dalağın həcmini dördqat böyüdür, vəziləri naringi boyda şişirdir, irinli yaraya çevirir, onunla rastlaşanda tərəddüd eləməyə vaxt qalmamalıdır. Yoluxma mənbələri getdikcə çoxa-

lır. Xəstəliyin yayılma sürətinin qarşısı alınmasa, iki ay ərzində şəhər əhalisinin yarısını qıra bilər. Əsas məsələ bu xəstəliyə taun, yaxud artan qızdırma adı verməkdə deyil, əhalinin yarısını ölümdən qurtarmaqdadır.

Rişar dedi ki, məsələni qaraya bürümək lazım deyil, xəstəliyin yoluxucu olması sübut edilməyib, çünki ölənlərin qohum-əqrəbası xəstəliyə tutulmayıb.

– Başqaları ki ölürlər, – Ryö sözünə davam elədi. – Doğrudur, yoluxmanı hamıya aid etmək olmaz. Əgər belə olsa, ölümün sayı riyazi hesabla artar, əhali qırılıb-qurtarar. Burada söhbət məsələni qaraya boyamaqdan deyil, lazımi ölçü götürməkdən gedir.

Rişar bildirdi ki, əgər bu xəstəlik özü kəsilməsə, onun qarşısını almaq üçün qanunun tələb elədiyi çox ağır tədbirlər həyata keçirilməlidir. Bu tədbirlərə əl atmaq üçün xəstəliyin taun olduğunu təsdiqləmək lazımdır. Bir halda ki təsdiq olunmayıb, bu məsələ üzərində yenə fikirləşmək lazımdır.

Ryö sözündən dönmədi:

– Söhbət qanun üzrə görüləcək tədbirlərin ağırlığından deyil, əhalinin yarısının qırılmasına mane olmaq üçün həmin tədbirlərin vacibliyindən gedir. Qalanı rəhbər idarənin işidir, elə şəhərimizin prefekt rəisi də belə işlərin həlli üçün təyin olunub.

– Doğrudur, – prefekt rəisi sözə başladı. – Amma gərək siz bu xəstəliyin taun olduğunu rəsmən təsdiq edəsiniz.

– Biz bunu təsdiq eləməsək də, xəstəlik şəhər əhalisinin yarısını qıracaq, – Ryö cavab verdi.

Rişar əsəbi səslə söhbətə qoşuldu:

– Məsələ bundadır ki, həmkarlarımız bu xəstəliyin taun olduğuna əmindir. Elə Ryönün vəziyyəti təsvir etməsi bunu sübuta yetirir.

Ryö cavab verdi ki, o, sindromu yox, gördüyü faktları təsvir edib. Onun gördükləri isə qırx səkkiz saat

ərzində ölüm gətirən şişlər, bədən ləkələri və üzücü qızdırmadır. O soruşdu ki, cənab Rişar ciddi profilaktik tədbirlər görülmədən epidemiyanın kəsilə biləcəyini söyləyib məsuliyyəti öz boynuna götürə bilərmi?

Rişar tərəddüdlə Ryöyə baxdı:

– Yaxşı, onda açıq danışaq, bu xəstəliyin taun olduğuna əminsinizmi?

– Siz məsələyə düz yanaşmırsınız. Söhbət xəstəliyin adının təsdiqlənməsindən deyil, vaxt itirməkdən gedir.

– Sizin sözünüzdən belə çıxır ki, – prefekt rəisi sözə qarışdı, – əgər xəstəlik taun olmasa da, tauna qarşı görülməli profilaktik tədbirlərə əl atmaq lazımdır.

– Bəli, mənim fikrimi bilmək vacibdirsə, fikrim belədir.

Həkimlər xeyli məsləhətləşdilər və axırda Rişar dedi:

– Deməli, biz məsuliyyəti üzərimizə götürüb tauna qarşı tədbirlərə başlamalıyıq.

Bu nəticə hamının ürəyindən oldu.

Sonra o, Ryöyə müraciət elədi:

– Sizin də fikriniz belədir, eləmi, əziz həmkarım?

– Məsələnin nə cür qoyulmasının fərqi yoxdur. Bircə onu bilməliyik ki, əhalinin yarısının qırılmasının qarşısını almaq istəyirik, əks halda risk etmiş olardıq.

Bu sözlər heç kəsin xoşuna gəlmədi və Ryö otaqdan çıxdı.

Bir az sonra isə o, çürüntü və sidik iyi verən uzaq bir məhəllədə qollarının altından qan sızan, ağrıdan nalə çəkən bir qadının qarşısında idi.

***

İclasın ertəsi günü qızdırmalıların sayı bir az da artdı. Qəzetlər bu mövzuda söhbət açsa da, həyəcanlı sözlər işlətmədən, bir-iki eyhamla kifayətləndilər. İkinci gün isə Ryö prefekturanın tələm-tələsik ucqar küçələrə yapışdırdığı ağ rəngli kiçik afişaları oxuya bildi. Afişaların məzmunundan duyulurdu ki, şəhər rəhbərliyi hələ vəziyyəti düzgün anlamayıb. Görülən tədbirlər ciddi deyildi və hiss olunurdu ki, ictimaiyyəti qorxuya salmaq istəmirlər.

Adıçəkilən afişalarda bildirilirdi ki, Oran şəhərində yoluxucu, keçici olduğu hələ təsdiqlənməmiş naməlum, qızdırmalı bir xəstəlik qeydə alınmışdır. Bir neçə adamın xəstələnməsi ümumi həyəcana əsas vermir, ən ümdəsi – əhali təmkinli olmalıdır. Ancaq ehtiyat naminə prefekt rəisi hamının yaxşı anladığı bəzi tədbirləri həyata keçirməlidir. Bütün əhalinin "baş üstə" deyəcəyi bu tədbirlər istənilən epidemiya ehtimalına qarşı yönəldilib. Eyni zamanda prefekt rəisi bu tədbirlərin həyata keçirilməsində şəhər əhalisinin ona yaxından kömək göstərəcəyinə şübhə etmir.

Sonra isə qərara alınmış tədbirlər sadalanırdı. Bu tədbirlər içərisində elmi üsulla siçovulların kökünün kəsilməsi, yeni kanalizasiya borularına zəhərli qaz buraxılması və sudan ehtiyatla istifadə etmək tövsiyə olunurdu. Məsləhət görülürdü ki, təmizliyə ciddi nəzarət olunsun, bit-birəlilər şəhər dispanserlərinə müraciət etsinlər. Həm də ki xəstəsi olan ailələrin həkim göstərişlərinə əməl etmələri məcburidir və xəstələrin xüsusi izolyator otaqlarında saxlanmalarına razılıq verilməlidir. Belə otaqlar xəstələrin az müddətdə sağaldılmasına və şəfa tapmağına daha çox imkan yaradır. Əlavə qeydlər xəstələrin otaqlarının və nəqliyyat vasitələrinin dezinfeksiya olunmasının məcburiliyini göstərirdi. Xəstələrin

qohum-əqrəbasının sanitariya qaydalarına ciddi riayət etmələri də məsləhət görülürdü.

Afişanı oxuyan həkim Ryö tələsik addımlarla öz iş yerinə getdi. Jozef Qran həkimi gözləyirdi və onu görən kimi işarə ilə əllərini yuxarı qaldırdı, Ryö ona çatıb dedi:

– Hə, bilirəm, xəstələrin sayı artır.

Ötən gün şəhərdə on xəstə ölmüşdü. Həkim Qrana dedi ki, axşam Kottara baş çəkməlidir və bəlkə, onunla da görüşdü. Qran dedi:

– Hə, ona baş çəkməyiniz yaxşı olar. Mənə elə gəlir ki, bir az dəyişib.

– Necə dəyişib?

– Ağlı başına gəlib.

– Əvvəl ağılsız idi ki?

Qran tərəddüd elədi. Yox, o, Kottara ağılsız deyə bilməzdi, ağılsız sözü yerinə düşməzdi. Kottar qapalı, sakit bir adam idi, bəzən tənha çöldonuzunu xatırladırdı. Onun bütün həyatı öz otağından, ucuz bir restorandan və sirli gəzintilərdən ibarət idi. O, rəsmən şərab və likör firmasının nümayəndəsi idi. Hərdənbir iki-üç nəfər qonağı olurdu, yəqin, müştəriləri idi. Bəzən axşamlar evlə üzbəüzdəki kinoteatra gedirdi. Qran hiss eləmişdi ki, Kottar qanqster filmlərini xoşlayır. Hər halda, Kottar tənha və ətrafındakılardan çəkinən adam təsiri bağışlayırdı.

Qranın dediyinə görə, indi bütün bu cəhətlər dəyişmişdi:

– Heç bilmirəm necə izah edim? Bilirsinizmi, mənə elə gəlir ki, o, adamlarla qaynayıb-qarışmağa çalışır, istəyir hamını öz ətrafına toplasın. Mənimlə tez-tez söhbətə girişir və gəzməyə çıxmağı təklif edir. Mən də hər dəfə etiraz edə bilmirəm. Elə mən özüm də onunla maraqlanıram, axı onun həyatını xilas eləmişəm.

Özünü öldürmək cəhdindən sonra Kottarın qonaqları yoxa çıxmışdı. O, küçədə, dükanlarda adamların

rəğbətini qazanmağa çalışırdı. Xırdavatçıya belə şirindillik edən, papirossatanın söhbətinə belə maraqla qulaq asan ikinci bir adam təsəvvür etmək olmazdı.

– Papirossatan gürzə kimi zəhərli bir qadındır. Mən Kottarı xəbərdar elədim, amma o dedi ki, mən səhv edirəm. O qadının da yaxşı cəhətləri var, gərək bələd olasan.

İki-üç dəfə Kottar Qranı şəhərin təntənəli restoranına qonaq aparmışdı. Onun özü belə restoranlara tez-tez getməyə başlamışdı. Kottar deyirmiş:

– Belə restoranlarda adam özünü yaxşı hiss eləyir, ora gələnlər də yaxşı adamlardır.

Qran restoran xidmətçilərinin Kottara xüsusi hörmətlə yanaşdıqlarını duymuş və Kotarın əliaçıqlıq edib onlara artıq pul verdiyini görəndə bu hörmətin səbəbini anlamışdı. Kottar ona hörmətlə cavab verənlərdən çox razı qalırdı. Bir gün onu qapıya qədər yola salan baş xidmətçi paltosunu geyinməyə kömək eləyəndən sonra Kottar demişdi:

– Yaxşı olar, şahid ola bilər.

– Nəyə şahid ola bilər?

Kottar bir az tərəddüd eləyib demişdi:

– Şahid ola bilər ki, mən pis adam deyiləm.

Bəzən Kottarın əhvalı dəyişirdi. Bir gün xırdavatçı onunla mehriban danışmadığından evə qayıdanda hirslənib özündən çıxmışdı:

– Bu əclaf da elə başqaları kimidir, – deyirdi.

– Başqaları kimdir?

– Elə hamı.

Qran bir dəfə papiros dükanında baş vermiş qəribə bir əhvalatın da şahidi olmuşdu. Qızğın söhbət vaxtı satıcı qadın bütün Əlcəzairə səs salmış yeni bir cinayət işindən danışırdı. Cavan bir ticarət işçisinin çimərlikdə bir ərəbi öldürməsindən söhbət gedirdi. Qadın axırda belə demişdi:

– Bu murdar cinayətkarların hamısını həbsxanaya salsaydılar, namuslu adamlar da arxayın nəfəs alardılar.

Qadın Kottarın qəfildən həyəcanlandığını və üzrxahlıq etmədən, tələsik çölə çıxdığını görüb söhbəti kəsməli olmuşdu. Qran da, satıcı qadın da məəttəl qalmışdılar.

Sonra isə Qran Kottarın xasiyyətində baş vermiş başqa dəyişikliklərdən Ryöyə xəbər verməyi vacib saydı. Təbiətən Kottar çox liberal adam idi. Həmişə: "Böyüklər kiçikləri yeyirlər", – deməsi buna sübut idi. Amma indi xeyli vaxt Oranın ən təmkinli qəzetini oxumağa başlayıb və bu qəzeti oxuduğunu adamların gur yerində daha tez-tez nəzərə çarpdırmağa çalışdığı açıqca duyulurdu. Hələ bir dəfə, yatağından qalxandan bir neçə gün sonra Qran poçta gedəndə Kottar xahiş eləmişdi ki, hər ay pul yolladığı, uzaqda yaşayan bacısına onun əvəzinə yüz frank pul göndərsin. Qran otaqdan çıxanda isə sözünü dəyişmişdi:

– Yox, iki yüz frank göndərin, qoy sevinsin. Bacım elə bilir ki, onu heç yada salmıram, əslində isə onu çox istəyirəm.

O, Qranla qəribə bir söhbətə də girişmişdi. Qranın hər axşam evdə nə isə bir işlə məşğul olduğunu bildiyindən Kottar onu sorğu-suala tutmuş və demişdi:

– Bilirəm, siz kitab yazırsınız.

– Belə də demək olar, amma mənim işim daha mürəkkəbdir!

– Eh! Mən də istərdim ki, sizin kimi yaradıcılığa qurşanım.

Qranın təəccübləndiyini görəndə Kottar mızıldamışdı ki, incəsənət adamlarının imkanları yaxşı olur.

– Axı nəyə görə? – Qran soruşmuşdu.

– Ona görə ki, incəsənət adamlarının imtiyazları çox olur, bunu hamı bilir. Onlara daha çox güzəşt edirlər.

Bu söhbətdən sonra Ryö Qrana dedi:

– Yəqin, bu siçovul əhvalatı çoxları kimi onun da fikirlərini alt-üst edib. Bəlkə, bu təzə qızdırmadan da qorxub.

Qran cavab verdi:

– Yox, inanmıram, həkim, mənim fikrimcə...

Siçovul qırmaqla məşğul olan maşın ucadan tırıldaya-tırıldaya küçədən keçirdi. Səs uzaqlaşıb danışmağa imkan verənədək Ryö susub gözlədi və sonra Qranın nə fikirdə olduğunu soruşdu. Qran ciddi nəzərlərlə həkimə baxdı:

– Bu adam nədə isə özünü günahkar sayır.

Həkim çiyinlərini çəkdi. Polis komissarı demişkən, onsuz da, iş başdan aşır.

Günortadan sonra Ryö Kastellə söhbət etdi. Serum dərmanı hələ gəlib çıxmamışdı. Ryö deyirdi:

– Heç bilmirəm bu dərmanın əhəmiyyəti olacaqmı? Mikrob qəribə mikrobdur.

– Yox, mən bu fikirdə deyiləm, – Kastel etiraz elədi. – Bu heyvancığazlar müxtəlif görkəm alsalar da, eyni şeylərdir.

– Siz belə ehtimal edirsiniz. Düzünə qalsa, onun haqqında heç nə bilmirik.

– Doğrudur, mən ehtimal edirəm. Elə hamı ehtimal edir.

Bütün gün ərzində həkim hiss edirdi ki, hər dəfə taun barədə fikirləşəndə canındakı narahatlıq getdikcə artır. Nəhayət, anladı ki, qorxmağa başlayıb. Adamla dolu kafelərə iki dəfə baş çəkdi. Kottar kimi o da insan hərarətinə ehtiyac duyurdu. Bu fikir Ryönün xoşuna gəlməsə də, axşam Kottara baş çəkəcəyinə söz vermişdi.

Axşam Ryö Kottarın mənzilinə girəndə o, yemək masasının qarşısında oturmuşdu. Masanın üstündə açıq qalmış bir macəra romanı gözə dəyirdi. Amma axşamdan xeyli keçmişdi və inanmaq olmazdı ki, belə

qaranlıqda Kottar kitab oxuyurmuş. Yəqin, elə bircə dəqiqə əvvəl o, bu yarıqaranlıqda fikrə gedibmiş. Ryö onun əhvalını soruşdu. Kottar yerinə otura-otura deyindi ki, əhvalı yaxşıdır, amma heç kəsin onun işlərinə qarışmadığına əmin olsa, özünü daha yaxşı hiss edərdi. Ryö bildirdi ki, həmişə tənha olmaq yaxşı iş deyil.

– Yox, məsələ başqadır. Mən yamanlıq etmək naminə başqalarının işinə qarışanlardan danışıram.

Ryö susub durmuşdu.

– Bilin ki, özüm haqda danışmıram. Mən bayaq bu romanı oxuyurdum. Bədbəxtin birini bir səhər qəfildən həbs edirlər. Özünün xəbəri olmadan onun işlərini araşdırırlarmış. İdarələrdə ondan söhbət gedir, adını vərəqdən-vərəqə köçürürmüşlər. Sizcə, bu, düzgün işdir? Sizcə, adamla belə rəftar etməyə icazə verilir?

– Vəziyyətə baxır, – Ryö cavab verdi. Bir tərəfdən, əslinə qalsa, heç kəsə belə ixtiyar verilmir. Bunların hamısı ikincidərəcəli məsələlərdir. Uzun müddət evdə tək qalmaq lazım deyil. Hərdən gəzməyə çıxın.

Kottar bir az coşdu, dedi ki, çox vaxt camaat içində olur, bunu bütün məhəllə əhli təsdiq edə bilər. Məhəllədən kənarda da dost-tanışları var.

– Cənab Riqodu tanıyırsınızmı? Arxitektoru deyirəm. O da mənim dostumdur.

Otaqda hava getdikcə qaralırdı. Küçədə adam çoxalırdı və küçə işıqları yananda, elə bil, çölə şən ovqat səpələndi. Ryö eyvana çıxdı, Kottar da onun arxasınca gəldi. Bütün şəhərdə olduğu kimi bu ətraf məhəllələrdə də axşamlar sərin meh gəncləri cana gətirir, şənləndirir, küçələrə qızardılmış ət iyi, xoş əhvali-ruhiyyə paylayırdı. Gecələr gözə görünməyən gəmilərin fit səsləri, dənizin həniritisi, gəzişən adamların söz-söhbəti eşidilirdi. Bütün bunları Ryö xoşlayırdı. Amma indi qarşıdakı təhlükə onu elə günə qoymuşdu ki, adət elədiyi xoş əlamətlər də ürəyini sıxırdı. O, Kottara dedi:

– İşığı yandıra bilərik?

İşıq yananda qısaboy Kottar gözlərini qırpa-qırpa həkimə baxdı.

– Həkim, əgər xəstələnsəm, məni xəstəxanada öz xəstəniz kimi qəbul edərsinizmi?

– Əlbəttə.

Onda Kottar soruşdu ki, klinikada, yaxud xəstəxanada müalicə olunan bir adamı həbs edə bilərlərmi? Ryö cavab verdi ki, belə hallar olur, amma xəstənin vəziyyəti də nəzərə alınır.

"Mən sizə inanmıram", – deyib Kottar köksünü ötürdü və həkimdən xahiş elədi ki, şəhərə çıxanda onu da öz maşını ilə aparsın.

Şəhərin mərkəzində adam da, işıq da nisbətən seyrək idi. Uşaqlar hələ qapıların qarşısında oynayırdılar. Kottarın xahişi ilə həkim maşını bir dəstə uşağın oynadığı yerdə saxladı. Uşaqlar qışqırışa-qışqırışa oynayırdılar. Onlardan biri – qara saçı səliqə ilə yana daranmış, sifəti çirkli bir uşaq açıqrəngli gözlərini Ryöyə zilləyib durmuşdu. Ryö gözünü uşaqdan çəkdi. Kottar səkidə durub həkimin əlini sıxdı. O, iki-üç dəfə çevrilib arxaya baxandan sonra boğuq səslə soruşdu:

– Həkim, camaat epidemiyadan danışır, doğru deyirlər?

– Camaat həmişə danışır, məlum məsələdir, – Ryö cavab verdi.

– Düz deyirsiniz. On adam öləndən sonra aləm lap qarışacaq. Heç yerinə düşmədi bu əhvalat.

Ryö maşını işə salıb yerindən tərpətmək istəyəndə sakit, ciddi gözlərini ona zilləmiş uşağa bir də baxdı. Uşaq qəfildən həkimin üzünə güldü.

– Nə lazımdır, balaca, – həkim də ona gülümsədi.

Kottar maşına tərəf əyilib boğuq və kövrək səslə "Bu da bir zəlzələdir. Əsl zəlzələdir! " – dedi və tələsik addımlarla uzaqlaşdı.

Zəlzələ baş verməsə də, ertəsi gün Ryönün işi lap çox oldu. O, bütün günü şəhəri dolanıb xəstələrin qohumları və ailələri ilə danışıqlar aparmalı oldu. Hələ indiyə qədər işinin belə ağır olduğunu hiss etməmişdi. İndiyə qədər xəstələr ona inanır, işini asanlaşdırırdılar. O, ilk dəfə hiss edirdi ki, xəstələr, elə bil, öz qınına çəkilir, çaşqın və inamsız olurlar. Həkim belə əlamətlərlə mübarizəyə hələ adət eləməmişdi. Axşam saat onda maşınını, adətən, axırıncı baş çəkdiyi sinəgir (astmalı) qocanın qapısında saxlayandan sonra həkim hiss etdi ki, oturacaqdan qalxmağa çətinlik çəkir. O, bir az ləngiyib küçəyə, qaranlıq səmada sayrışan ulduzlara tamaşa etdi. Sinəgir qoca qalxıb çarpayısında oturmuşdu. O, əvvəlkinə nisbətən rahat nəfəs alır və qarşısındakı bir qab noxudu saya-saya başqa qaba yığırdı. Kişi həkimi şən ovqatla qarşıladı:

– Hə, həkim, doğrudan, taun yayılıb?

– Bunu sizə kim dedi?

– Qəzetdən oxudum, radio da belə dedi.

– Yox, yayılan xəstəlik taun deyil.

Qoca coşqun səslə dedi:

– Hər halda, böyük cənablar əl-ayağa düşüblər!

– Belə sözlərə inanmayın, – həkim cavab verdi.

Həkim qocanı müayinə edəndən sonra kasıb döşənəcəkli yemək otağının ortasında əyləşmişdi. Həkim qorxuya düşmüşdü. Bilirdi ki, sabah səhər bu qıraq məhəllədə on-on beş təzə xəstə bədənlərindəki şişlərin ağrısından sızıldaya-sızıldaya onu gözləyəcək. Şişlərin çərtilməsi iki-üç xəstənin vəziyyətini yaxşılaşdırmışdı. Çoxu xəstəxanaya aparılmalı idi və kasıblar üçün xəstəxananın nə demək olduğu da məlum məsələdir. Xəstələrdən birinin arvadı ona demişdi: "İstəmirəm ki, ərim onların əlində təcrübə aləti olsun. Əslində, xəstə təcrübə aləti olmayacaqdı, öləcəkdi. Aydındır ki, xəstəliyin qarşısını almaqdan ötrü görülmüş tədbirlər kifa-

yət etməmişdi. Xüsusi hazırlanmış izolyatorlar isə tələm-tələsik başqa xəstələri çıxarılıb boşaldılmış iki iri zaldan ibarət idi. Bu zalların pəncərələrinin kənarlarını keçə parçalarıyla tutub, üstündən sanitariya kağızları çəkmişdilər. Xəstəlik öz-özünə dayanmasa, şəhər rəhbərliyinin gördüyü tədbirlərlə ona qalib gəlmək mümkün olmayacaqdı.

Amma axşamdan bəri verilən rəsmi məlumatlar ümidverici idi. Ertəsi gün Ransdoq agentliyinin məlumatında deyilirdi ki, sakinlər şəhər rəhbərliyinin tədbirlərini yaxşı qarşılamış və otuza yaxın xəstə haqqında xəbər vermişlər. Kastel Ryöyə zəng edib soruşdu:

– Xüsusi zallarda neçə çarpayı var?

– Səksən.

– Yəqin ki, şəhərdə xəstələrin sayı otuzdan çoxdur.

– Xəbər verməkdən çəkinənlər də var. Ən çoxu isə xəbər verməyə macal tapmayanlardır.

– Dəfn mərasimlərinə nəzarət edilirmi?

– Yox. Rişara telefonla demişəm ki, boş danışıqdan əməli tədbirlərə keçməyin vaxtıdır. Ya epidemiyanın qarşısına ciddi sədd çəkməliyik, ya da hər şeyi özbaşına buraxmalıyıq.

– Bəs sonra?

– Cavab verdi ki, əlində heç bir səlahiyyət-filan yoxdur. Zənnimcə, xəstələrin sayı artacaq.

Doğrudan da, üç gün ərzində məxsusi hazırlanmış zallar xəstə ilə doldu. Rişar deyirdi ki, məktəblərdən birini boşaldıb xüsusi xəstəxana açmaq istəyirlər. Ryö vaksin gözləyir və yaraları çərtməklə məşğul idi. Kastel köhnə kitablarını vərəqləyir, vaxtının çoxunu kitabxanada keçirirdi. Nəhayət, o, belə bir qənaətə gəlmişdi:

– Siçovullar ya taun, ya da tauna oxşayan başqa bir xəstəlikdən qırılıblar. On minlərlə birənin şəhərin canına daraşması da elə bunun nəticəsidir. Birə – nə birə!

Hər biri kotan öküzü! Vaxtında tədbir görülməzsə, birələr, az qala, həndəsi silsilə üzrə xəstəliyi yayacaqlar.

Ryö dinib-danışmadı.

Elə həmin günlər hava aydınlaşmağa başladı. Günəş axırıncı kifir buludları qovub dağıdırdı. Günəşin sarımtıl şüaları gözəl, mavi səmanı oxşayır, göydən təyyarələrin uğultusu eşidilir, sanki, yeni fəsil adamları sakit bir həyata çağırırdı. Ancaq dörd gün içində xəstələrin sayı hər gün durmadan artdı. Birinci gün on altı, sonrakı gün iyirmi dörd, daha sonra iyirmi səkkiz və dördüncü gün otuz iki nəfər oldu. Elə həmin gün uşaq bağçalarından birinin xüsusi xəstəxanaya çevrildiyini xəbər verdilər. İndiyə qədər nigaranlığına zarafat qatan şəhər əhalisi də bədbinləşmişdi.

Ryö prefekt rəisinə zəng edib dedi:

– Görülmüş tədbirlər kifayət etmir.

– Rəqəmlərin artmasından xəbərim var, vəziyyət, doğrudan da, ciddiləşib, – rəis cavab verdi.

– Vəziyyət ciddilikdən də o yana keçib, indi hər şey aydındır.

– Rəhbərliyə deyəcəyəm ki, lazımi göstərişlər versin.

Ryö dəstəyi asıb Kastelə dedi:

– Göstəriş gözləyirlər! Amma ağıllı tədbir tökmək vaxtıdır.

– Serum dərmanından nə xəbər var?

– Bu həftə gətirməlidirlər.

Prefekt idarəsi Rişarın vasitəçiliyi ilə Ryödən xahiş elədi ki, paytaxtdan rəsmi göstərişlər almaq üçün bir hesabat tərtib eləsin. Ryö hesabatda xəstəliyin klinik təsvirini və məlum rəqəmləri göstərdi. Elə həmin gün qırx adam öldü. Prefekt rəisi bildirdi ki, sabahdan tədbirləri sərtləşdirməyi öz öhdəsinə götürür. Xəstələrin məcburən izolyatora salınması haqqında qərar qəbul olundu. Xəstələrin mənzilləri dərmanlanıb bağlanmalı,

onların ailə üzvləri karantinə salınmalı, dəfn işləri şəhər idarəsinə tapşırılmalıdır. Bir gün sonra təyyarə ilə serum dərmanı gətirdilər. Dərman hazırkı müalicə işlərinə çatardı, amma xəstəlik geniş yayılsa, bəs etməyəcəkdi. Mərkəzdən Ryönün teleqramına cavab verdilər ki, dərman ehtiyatı qurtarıb və yeni istehsalata başlayıblar.

Elə həmin günlər təbiətin bahar nəfəsi əyalətdən şəhər bazarlarına axıb gəlirdi. Minlərlə qızılgül gülsatanların səkilər boyu düzülmüş səbətlərində solub tələf olsa da, onların şirin ətri bütün şəhərə yayılırdı. Zahirən şəhərdə heç nə dəyişməmişdi. Tramvaylar həmişəki kimi səhər və axşam adamla dolur, gün ərzində isə boş dolanırdı. Taru pəncərədən qısaboy qocaya baxır, qoca isə pişiklərin üstünə tüpürürdü. Qran hər axşam evə tez qayıdır və öz sirli işinə qurşanırdı. Kottar ora-bura qaçır, müstəntiq cənab Oton isə həmişəki kimi öz işləri ilə məşğul idi. Sinəgir qoca yenə də noxudları saya-saya bir qabdan başqasına boşaldırdı. Hərdən jurnalist Ramberə də rast gəlmək olurdu, onun baxışlarında qəribə bir sakitlik və baş verən hadisələrə ciddi maraq duyulurdu. Axşamlar bu adamlar şəhərə dağılışır, kinoteatrların qarşısında növbələr yaranırdı. Bir müddət elə təsəvvür yarandı ki, epidemiya çəkilib gedir, çünki bir neçə gün ərzində cəmisi on adam ölmüşdü. Sonra ölənlərin sayı qəfildən artdı və onların sayı yenidən otuza çatdığı gün Ryö prefekt rəisi ilə görüşdü. Rəis: “Mərkəz qorxuya düşüb”, – deyib əlindəki teleqramı Ryöyə uzatdı. Teleqramda deyilirdi: “Taun epidemiyası haqqında rəsmi elan verin. Şəhəri bağlı elan edin”.

# II FƏSİL

Elə həmin gündən sonra taun bizim hamımızın ümumi qayğısına çevrildi. İndiyə qədər son qəribə əhvalatlar təəccüb və nigarançılıq yaratmışdısa da, şəhər camaatı öz iş-gücü, şəxsi qayğıları ilə məşğul idi. Şübhə yox ki, vəziyyət elə beləcə qalacaqdı. Amma elə ki şəhərin qapıları bağlandı, hamı, lap elə bu əhvalatı danışanın özü də anladı ki, qorxulu bir tələyə düşüblər və birgə çıxış yolu axtarmaq lazımdır. Fərdi bir iztirabın, məsələn, sevimli bir adamdan ayrılma əzabının bütün bir xalqdan ayrılmaq əzabına döndüyü ilk həftələrdən əhali arasına qorxu, sürgün iztirabları yayıldı.

Şəhərin qapılarının bağlanmasının ən ağır nəticələrindən biri ayrılığa hazırlığı olmayan adamların qəflətən bir-birindən ayrı düşməsi oldu. Az əvvəl vağzal səkilərində qucaqlaşıb ayrılmış analar, uşaqlar, ərlər, məşuqlar elə güman edirdilər ki, bir neçə gün, bir neçə həftə sonra görüşəcəklər. Bu sadəlövh adamlar müvəqqəti ayrılığın fikrini başlarından çıxarıb iş-güclərinə yenicə qurşanmışdılar ki, ümidsiz bir ayrılığa məhkum olduqlarından xəbər tutdular. Şəhərin bağlanması haqqında rəsmi qərarın dərc olunmasından bir neçə saat əvvəl şəhərin qapıları bağlanmışdı və indi xüsusi halları nəzərə almaq imkanı da əldən çıxmışdı. Xəstəliyin belə qəfil hücumu ilk növbədə şəhər əhalisini şəxsi hisslərdən təcrid olunmağa məcbur eləmişdi. Qərarın qüvvəyə mindiyi ilk saatlarda prefekt idarəsi adamla doldu. Bəziləri zəng edir, bəziləri isə məmurlarla görüşür, düşdükləri qəribə vəziyyətdən söhbət edib kömək istəyirdilər.

Ərizəçilərin vəziyyəti nə qədər acınacaqlı olsa da, onlara kömək etmək mümkün deyildi. Düzünə qalsa, düşdüyümüz vəziyyətin güzəştsiz, çıxılmaz bir vəziyyət olduğunu bir neçə günə ancaq anladıq. Hamı başa

düşdü ki, bu vəziyyətdə "vasitə tapmaq", "hörmət", "istisna" sözləri heç bir əhəmiyyət kəsb eləmir.

Hətta məktub yazıb bir az arxayınlaşmaq imkanımız da əlimizdən çıxdı. Əvvəlcə şəhəri bütün ölkəyə bağlayan nəqliyyat yolları, sonra isə yeni əmrlə poçt əlaqələri də kəsildi ki, məktublar yoluxma vasitəsinə çevrilməsin. İlk günlər bəzi tanınmış şəxsiyyətlər çıxış qapıları ağzında gözətçilərlə dil tapıb bir-iki məktub yola sala bilmişdilər. Amma bu, ilk günlər idi və keşikçilər güman edirdilər ki, xırda-para güzəştlərə yol vermək olar. Elə ki bir müddət keçdi və keşikçilər vəziyyətin çox ciddi olduğunu anladılar, hər cür güzəştin pis nəticələr verə biləcəyinə görə heç bir güzəştə yol vermədilər. Şəhərlərarası telefon əlaqəsinə ilk vaxtlar icazə verildiyinə görə danışıq məntəqələri qarşısında bir izdiham yaranmışdı ki, bu vasitəni də bir neçə günlük tamam kəsməli oldular. Sonra isə ancaq təcili hallarda – ölüm, uşaq doğulması və evlənmə xəbərləri haqqında telefon danışıqlarına icazə verildi. Ancaq teleqrafdan sərbəst istifadə etmək imkanımız qalmışdı. Əvvəlcədən bir-birinə ürəklə, ehtirasla bağlanmış adamların əlaqələri, hissləri on sözdən ibarət qısa bir teleqramın ümidinə qalmışdı. Teleqrafın ifadə imkanları az olduğundan birgə uzun ömür sürmüş, indi ayrılıq əzabı çəkən insanların ən geniş fikirləri yavaş-yavaş qısalıb vaxtaşırı göndərilən adi sözlərə döndü: "Mən yaxşıyam. Özündən muğayat ol. Öpürəm".

Aramızda elələri vardı ki, məktub yazmaq fikrindən əl çəkə bilmir, məktub göndərmək üçün cürbəcür fəndlər işlədirdi. Bəzən cavab almasaq da, güman edirdik ki, işlətdiyimiz fəndlər baş tutur. Həftələr boyu eyni məktubu yenidən yazır, eyni məlumatları və çağırışları yenidən köçürür və bir müddət sonra duyurduq ki, ilk dəfə yazdığımız yanğılı sözlər köçürüldükcə gücdən düşüb adiləşib. Sonra biz onları yenidən köçürür və

çalışırdıq ki, bu ölü cümlələri cana gətirib onların vasitəsilə güzəranımızın çətinliyindən danışaq. Nəhayət, bu boş monoloqları, divara deyilən uzun sözləri qısa teleqramlarla əvəz etməyi üstün tuturduq.

Bir neçə gün sonra, daha şəhərdən heç kəsin çıxa bilməyəcəyinə əmin olanda adamlar maraqlandılar ki, epidemiyadan əvvəl şəhərdən çıxanların geri qayıtmasına icazə veriləcəkmi? Xeyli götür-qoydan sonra prefekt idarəsi buna icazə veriləcəyini bildirdi. Eyni zamanda xəbərdar etdi ki, gələnlərə geri qayıtmaq icazəsi verilməyəcək, gəlməyə icazəsi olanlar geri qayıtmağa icazə ala bilməyəcəklər. Elə bu vəziyyəti də bəzi ailələr yaxşı qiymətləndirə bilmədi. Qohumları ilə görüşmək arzusu ilə yananlar vəziyyətdən istifadə edib onları görüşə çağırırdılar. Tezliklə onlar da anladılar ki, özləri taunun əsirləridir, çağırdıqları yaxın adamları da təhlükəyə sala bilərlər, sakitcə oturub ayrılığın iztirabını çəkməyə başladılar. İnsanın ən ağır vəziyyəti mənəvi hisslərin əzablı ölüm qorxusuna üstün gəlməsi halıdır. Bəziləri fikirləşə bilər ki, bir-birinə can atan iki sevgilinin ayrılıq əzabını nəzərdə tuturam. Əslində isə çoxdan ailə qurmuş qoca həkim Kastellə arvadı nəzərdə tutulur. Xanım Kastel epidemiyadan bir neçə gün əvvəl qonşu şəhərə getmişdi. Bu ailə mehribanlıq nümunəsi deyildi və çox güman ki, indiyə qədər ailə həyatlarından çox da razı deyillərmiş. Amma bu uzun ayrılıq onları inandırıb ki, bir-birindən ayrı yaşaya bilməzlər və onların məhəbbəti qarşısında taun da sədd çəkə bilməz.

Onların vəziyyəti başqa idi. Qalan əksər hallarda isə ayrılıq qalib gəlmişdi və ancaq epidemiya ilə birgə sona çatacaqdı. Bizim hamımızın heysiyyəti isə (əvvəl deyildiyi kimi, oranlılar sadə ehtiraslı adamlardır) getdikcə dəyişirdi. Öz xanımlarına həmişə inanmış ər və məşuqlar indi qısqanclıq edirdilər. Məhəbbəti ötəri

sanan kişilər indi duyurdular ki, yanılırlarmış. Həmişə anası ilə birgə olmuş, anasına gözucu baxmış oğullar indi onların sifətinə qonmuş qırışları yada salıb əzab çəkirdilər. Qəfil gəlmiş və sonu görünməyən bu ayrılıq bizi karıxdırmışdı. Həm qısa, həm də uzun görünən bu ayrılığın fikri hamını məşğul edirdi. İndi biz iki cür əzab çəkirdik – həm öz əzabımızı çəkirdik, həm də bizdən uzaq düşmüş oğulların, zövcələrin, məşuqələrin sıxıntı çəkdiyini təsəvvür edir, onların əzabına şərik olurduq. Əslində, bizim şəhər adamları başqa bir vaxt belə bir ayrılığa, əl-qol açmaq imkanına sevinərdilər. Amma indi taun onları küncə sıxmışdı, bu yöndəmsiz şəhərdə xatirədən başqa bir şey görə bilmirdilər. Çünki indi hamı bikarçılıqdan eyni küçələri dolanır, kiçik şəhərin küçələri isə əvvəlki qayğısız gəzintiləri yada salırdı.

Beləliklə, taunun bizim şəhər camaatına ilk hədiyyəsi sürgün əhvali-ruhiyyəsi oldu. Əhvalatı qələmə alan əmindir ki, bu fikri bütün şəhər adamlarının adından deyə bilər, çünki həmin hissi onlarla birgə duyub. Bəli, sürgündə qalmaq qorxusu bütün ürəklərin qənimi olmuşdu, burada nə geri dönmək, nə də vaxtı tələsdirmək imkanı vardı, intizar hakim kəsilmişdi. Bəzən xəyalpərvərlik edir, evdə oturub qapının zəngini, yaxud pilləkəndə tanış ayaq səslərini gözləyirdi, guya ki, şəhərə axşamçağı qatar gələcək və gözlədiyimiz adamı gətirəcək. Bu oyun da çox uzana bilməzdi. Nəhayət, anlamalı olurduq ki, daha şəhərə qatar gəlmir. Başa düşürdük ki, ayrılıq uzun çəkəcək və vaxt keçirməyə öyrənməliyik. Elə həmin günlər həbsdə olduğumuzu anlamağa başlayır, ancaq öz keçmişimizlə yaşayır, gələcəyə tələsənlər isə tezliklə peşman olub qalanlara qoşulur, ümid yaralarının əzabını çəkirdilər.

Tezliklə şəhər əhalisi az əvvəl yaranmış bir adəti – ayrılığın vaxtını hesablamaq adətini də unutdu. Nə üçün? Ona görə ki, ayrılığın, təxminən, altı ay çəkəcəyini

hesablamış, bu vaxtın əzablarına hazırlaşan, bütün iradəsini toplayıb altı ay dözməyə çalışanlar belə kiminsə dilindən, qəzet səhifəsindən, yaxud başqa bir məlumatdan öyrənirdilər ki, bu ayrılıq altı ay deyil, bir il və bəlkə, daha çox çəkə bilər.

Ruhsuzluq, inamsızlıq elə güc gəlirdi ki, adamlar bu bəladan heç vaxt qurtara bilməyəcəklərini fikirləşirdilər. Ona görə də qərara alırdılar ki, daha bu barədə fikirləşməsinlər, gələcəyə baxmasınlar, başlarını aşağı salıb gözləsinlər. Amma kədəri gizlətmə, təslimolma siyasəti də yaxşı nəticə vermədi. Heç olmasa, əvvəllər çox ruhdan düşmür, ayrı düşdükləri yaxın adamlarla gələcək görüşlər haqda fikirləşir, taunun hədəsini unudurdular. İndi isə heç bir ümid işığı sezilməyən qəm dəryasında üzür, mənasız günlər keçirir, bədbinliyə öyrəşirdilər.

Onlar, beləcə, həm əsirlikdə qalmışların, həm də sürgünə düşmüşlərin əzabını çəkir, xəyallarla dolu boş bir aləmdə yaşayırdılar. Aludə olduqları köhnə xatirələr də acı bir qüssə gətirirdi. Çoxu indi görə bilmədikləri əzizlərinə, yolunu gözlədikləri yaxın adamlara vaxtında deyə bilmədikləri xoş sözlərin, göstərə bilmədikləri mehribanlığın xiffətini çəkirdi. İndi darıxan, keçmişdən və gələcəkdən məhrum olmuş bu adamlar qanunun, yaxud insan bədxahlığının qurbanı olub çərçivə arxasına salınmış adamlara oxşayırdılar. Bir sözlə, bu dözülməz sürgündən yaxa qurtarmaq üçün ən yaxşı vasitə xəyalən dəmir yolunun işini bərpa etmək, qapı zənglərinin səsini gözləmək idi.

Məsələ bundadır ki, buradakıların əksəriyyəti öz evində sürgünə məruz qalmışlar idi. Doğrudur, hamı sürgündə sayılırdı, amma jurnalist Ramber və onun kimilərinin vəziyyəti tamam başqa idi. Onlar səfər vaxtı taunun çənginə ilişib qalanlar idi. Beləlləri həm əziz adamlardan, həm də öz vətənlərindən uzaq düşmüş-

dülər. Bu daha ağır bir sürgün idi, çünki onlara tək ayrılıq deyil, məsafə də əzab verirdi, taunlu şəhərdən itirilmiş vətənə üz tutanda gözləri qarşısını hündür barılar kəsirdi. Elə şəhərin tozlu küçələrini bütün gün sükut içində dolananlar da, axşamın gəlməsini gözləyən və vətənin səhərini yuxuda görənlər də onlar idi. Onlar öz əzablarını boş təsəlli və inamsız xəbərlərə qatır, hər yeni sorağı bir qaranquş uçuşu, kimsəsiz küçədə dolanan son günəş şüaları kimi qarşılayırdılar. Yavaş-yavaş xarici aləmə göz yumur, didərginlik qüssəsinə təslim olur, doğma torpağın, adət etdikləri hansısa bir işığın, bir mənzərənin, bir ağacın əksini, tanış qadın sifətlərini xəyallarında cəmləyir və bu xəyal aləmindən əl çəkmək istəmirdilər.

Nəhayət, qısa da olsa, məşuqların güzəranından danışaq. Onların vəziyyəti daha maraqlı idi və özüm də bu halı yaxşı duyurdum. Onların nigaranlıqlarına bir iztirab da qatılmışdı. İndiki şərait imkan verirdi ki, vəziyyəti düzgün götür-qoy etsinlər. Az adam tapılardı ki, belə bir şəraitdə öz miskin vəziyyətini aydın görə bilməsin, həsrəti çəkilən adamın hərəkətlərini xəyalında canlandırmasın. Xəyala gətirilən şəxsin nə ilə məşğul olması, necə vaxt keçirməsindən xəbərsizlik əzab verirdi. Sevən hər kəs güman edir ki, sevgilisinin hər məşğuliyyəti şirin bir əyləncədir. İndi keçmişi yada salmaq, məhəbbətin imkanlarını aramaq vaxtı idi. Başqa vaxt hamımız fikirləşirik ki, daimi məhəbbət yoxdur və bizim öz məhəbbətimiz adi bir hissdir. Amma xatirələr güclü çıxır. Deməli, bütün bir şəhəri dəhşətə gətirmiş bu xəstəlik ancaq xəstəlik qorxusu gətirməmişdi. O həm də insanları xatirələrlə yaşamağa və daxili haqq-hesab çəkməyə məcbur eləmişdi. Beləliklə, xəstəlik fikri özündən yayındırır və yeni imkanlar arayırdı.

Adamlar günü-günə sata-sata, tənha, səma ilə göz-gözə yaşamağa adət edirdilər. Belə bir tərkidünyalıq

onların xasiyyətini korlamağa başlamışdı. Şəhər əhalisinin bir qismi özlərini taleyin ümidinə buraxıb ona əsir düşmüşdülər. Elə bil, havanın necə keçdiyinə də ilk dəfə ciddi maraq göstərirdilər. Gün çıxanda sevinir, yağış yağanda isə buludlarla birgə yasa batırdılar. Cəmi bir neçə həftə əvvəl onlar belə zəiflik göstərmirdilər, çünki tənha deyildilər, ətrafla qaynayıb-qarışırdılar. Sonra isə özlərini göylərin şıltaqlığına təslim etdilər, əzab və ümidlə yaşamağa başladılar.

Tənhalığın dəbə mindiyi belə bir dövrdə heç kəs qonşu köməyinə ümid eləmir və hər kəs öz başını girləməyə çalışırdı. Əgər bizlərdən biri təsadüfən ürəyini başqa birisinə açsa, aldığı cavabdan narazı qalırdı. O hiss edirdi ki, müsahibi onu anlamır və onlar başqa-başqa şeylərdən danışırlar. Əgər birisi ona rahatlıq verməyən, çox götür-qoy etdiyi bir əzabdan, duyğudan söz açırdısa, müsahibi keçici bir duyğudan, ötəri bir əzabdan başqa bir şey təsəvvürə gətirə bilmirdi. Cavab istər xeyirxah, istərsə də bədxah olsun, saxta və gərəksiz görünürdü. Nə susmağı, nə də başqaları ilə dil tapmağı bacarmayanlar isə kəlmə kəsmək naminə sadə şeylərdən, gündəlik məsələlərdən söhbət açmağı öyrənirdilər. Elə buna görə də ən ağır iztirablar bu adamların ev xidmətçisi, yaxud başqa birisinə maraq göstərməsi də həmin vəziyyətdən doğurdu.

Amma yad şəhərdə bağlanıb qalmış bu adamlar nə qədər ağır əzab çəksələr də, ilk günləri başqalarından rahat keçirdilər. Yerli camaat qorxudan lərzəyə düşdüyü günlərdə onların fikri qovuşmaq arzusu ilə yandıqları adamların yanında idi. Sevgi həyəcanı onları ümumi sıxıntıdan ayırmışdı. Taun haqda fikirləşəndə də onu ancaq ayrılığı əbədiləşdirə biləcək bir hədəyə bənzədirdilər. Belə fikirlər onlara müvazinət verirdi. Sevgi həsrəti ölüm qorxusuna üstün gəlmişdi, onların bədbəxtliklərinin üstün cəhəti də bu idi. Əgər biri xəstələnib

ölsə, heç xəstəlikdən qorunmağa macal tapmamış öləcəkdi. Sevgilisinin xəyalı ilə söhbət edən bir adam başqa fikrə macal tapmadan torpağın sükutuna qovuşur, başqa heç nəyə vaxtı qalmır.

***

Bizim şəhər camaatı qəfil düşdükləri sürgün vəziyyətindən baş çıxarmağa macal tapmamış taun şəhərin darvazalarını bərk-bərk bağladı və Oran limanına yol almış gəmiləri geri qaytardı. Şəhər bağlanandan sonra buraya çöldən heç bir nəqliyyat gəlmirdi. Həmin gündən adama elə gəlirdi ki, bütün maşınlar şəhər içində dövrə vurur. Bulvarın hündür yerindən limana baxanda da mənzərənin dəyişdiyi açıqca duyulurdu. Dənizin bu sahilinin ən qaynar limanlarından biri sayılsa da, burada qəfildən həyat sönmüşdü. Karantinə saxlanılmış bir neçə gəmidən başqa gəmi görünmürdü. Susub durmuş kranlara, yüksüz qalmış vaqonlara, yan-yana düzülmüş çəlləklərə baxanda hiss olunurdu ki, şəhərin ticarəti də taun xəstəliyinə tutulub.

Bütün həyat alt-üst olsa da, şəhər camaatı başına gəlmiş qəzadan baş aça bilmirdi. Hamının canına ayrılıq və ölüm qorxusu çöksə də, yenə hər kəs öz şəxsi işinə üstünlük verirdi; xəstəliyə hələ ciddi fikir verən yox idi. Camaatın çoxu öz şəxsi narahatlığının, yaxud şəxsi marağının qeydinə qalırdı. Elə bu marağa görə də çoxu tez bezikdi. Taun isə bezikənlərə də məhəl qoymurdu. Bu adamların ilk hərəkətlərindən biri şəhər rəhbərliyinə müraciət oldu. Onların mətbuatda dərc olunan sualına ("Qəbul olunmuş tədbirləri bir az yumşaltmaq olmazmı?") prefekt rəisinin cavabı çoxları üçün gözlənilməz oldu. İndiyə qədər nə qəzetlər, nə də Ransdaq agentliyi xəstəlikdən ölənlərin sayı haqda rəsmi məlumat almamışdı. İndi isə prefekt rəisi onlara

məlumat verdi və agentlikdən xahiş etdi ki, həftəlik məlumatı dərc etsin.

Camaatın bu məsələyə münasibəti də ləng üzə çıxdı. Üçüncü həftənin məlumatında üç yüz iki adamın öldüyünün xəbər verilməsi ciddi həyəcan doğurmadı. Bir tərəfdən ona görə ki, bəlkə, ölənlərin hamısı taundan ölməmişdi. Digər tərəfdən isə adi günlərdə şəhərdə həftə ərzində nə qədər adam öldüyünü bilən yox idi. Şəhərin iki yüz min əhalisi vardı. Heç kim bilmirdi ölənlərin sayı adi vəziyyətə uyğun gəlir, ya yox. İndiyə qədər heç kim adi günlərdə ölənlərin sayı ilə maraqlanmamışdı, amma əslində, çox maraqlı məsələ idi. Əhali müqayisə üçün başqa rəqəm bilmirdi. Ancaq ölənlərin sayının günü-gündən artdığını biləndən sonra işin nə yerdə olduğunu anlamağa başladılar. Beşinci həftənin məlumatında üç yüz iyirmi bir, altıncı həftəninkində isə üç yüz qırx beş adam öldüyü xəbər verilirdi. Sayın artdığı nəzərə çarpırdı. Amma artım böyük olmadığına görə şəhər sakinləri nigaranlıqla yanaşı təskinlik də tapır, fikirləşirdilər ki, bu da qəribə bir təsadüfdür və keçib-gedəcək.

Onlar əvvəlki kimi şəhərin küçələrini dolanır, kafelərdə yığışıb söhbət edirdilər. Ümumiyyətlə götürəndə isə camaat qorxaq kütlə təsiri bağışlamırdı. Həmişəkindən də çox zarafatlaşır, müvəqqəti çətinliyi şən ovqatla keçirmək istəyirdilər. Bir sözlə, üzdə vəziyyət yaxşı idi. Ayın axırına yaxın, kilsə duaları həftəsi (bu haqda ayrıca danışacağıq) ərzində elə ciddi dəyişikliklər baş verdi ki, şəhərin görkəmi də dəyişdi. Ən əvvəl prefekt rəisi nəqliyyat və ərzaq məsələlərinə aid qərarlar qəbul etdi. Elektrik enerjisinə qənaət haqda da ölçü götürülmüşdü. Orana hava və avtomobil yolu ilə ancaq ən vacib materiallar gətirilirdi. İctimai nəqliyyatın hərəkəti getdikcə azalır, az qala, heçə enirdi. Dəbdəbəli mağazalar bir-bir bağlandı, qalan mağazaların vit-

rinlərinə çatışmayan malların adları yazıldı və mağazalar qarşısında növbələr yarandı.

Oran şəhəri qəribə bir görkəm aldı. Piyadaların sayı çox artmışdı. Əvvəllər küçələrin boş olduğu vaxtlarda indi adam qaynaşırdı. Mağazalar və bəzi idarələr bağlandığından bikar qalmış adamlar küçələrə çıxır, kafelərdə otururdular. Hələlik onların bikarlığı işsizlik deyil, məzuniyyət sayılırdı. Günortadan sonra, saat üçə yaxın aydın səmalı Oran şəhərinə baxan hər kəs elə bilərdi ki, şəhərdə bayram keçirilir, əhalinin sərbəst əylənməsi naminə nəqliyyat dayandırılıb və mağazalar da bağlanıb.

Məlum məsələdir ki, əhalinin ümumi məzuniyyəti kinoteatrlara çox xeyir verdi. Amma iki həftədən sonra yeni film ehtiyatı qurtardı və kinoteatrlar əvvəl göstərdikləri filmləri təkrar göstərməyə başladı. Buna baxmayaraq, onların gəliri azalmırdı.

Kafelərin də işi yaxşı gedirdi. Şərab və başqa spirtli içkilərin ticarətin əsasını təşkil edən bu şəhərdə içki ehtiyatı çox olduğundan kafelər boş qalmırdı. Sözün düzü, içki çox satılırdı. Kafelərdən biri belə bir reklam yazmışdı: “Tünd şərab mikrobu öldürür”. Camaat, onsuz da, əvvəlcədən eşitmişdi ki, spirtli içki yoluxucu xəstəlikdən qoruyur və bu fikir indi daha da ciddiləşdi. Hər gecə saat ikiyə yaxın kafelərdən çıxarılmış içki düşkünləri küçələrdə dolaşır və şən ovqatları ilə şəhəri cana gətirirdilər.

Bütün bu dəyişikliklər elə tez baş vermiş və elə qəribə görünürdü ki, onları təbii, uzun çəkəcək bir vəziyyət kimi dərk eləmək çətin idi. Elə buna görə də hər kəs öz şəxsi hisslərinə daha çox əhəmiyyət verirdi.

Şəhər darvazalarının bağlandığı vaxtdan iki gün sonra həkim Ryö xəstəxanadan çıxarkən Kottarla rastlaşdı. Kottarın kefi kök idi və həkim ondan hal-əhval tutduqda:

– Bəli, hər şey yaxşıdır, – qısaboy kişi cavab verdi. – Həkim, deyin görək bu taun söhbəti nə yerdədir, deyəsən, doğru çıxır axı!

Həkim onun sözünü təsdiqlədi, müsahibi isə gizli bir sevinclə dedi:

– Yəqin ki, tez qurtarmayacaq. Hər şey alt-üst olacaq.

Onlar bir müddət yanaşı getdilər. Kottar danışırdı ki, varlı tacir qonşularından biri evinə çoxlu ərzaq toplayıbmış ki, bahalıq düşəndə satsın. Amma özü xəstəliyə tutulub və onu xəstəxanaya aparmağa gələnlər çarpayısının altından çoxlu konserv tapıblar. "Kişi öldü. Taunu pulla sağaltmaq olmur". Kottar epidemiya haqda yalan-gerçək çoxlu əhvalat danışırdı. O eşitmişdi ki, guya, şəhər mərkəzində tauna yoluxmuş bir kişi səhər vaxtı qızdırma içində küçəyə çıxıb, rast gəldiyi ilk qadını tutub, sinəsinə sıxıb və qışqırıb ki, ona taun yoluxub.

– Yaxşı! – Kottar qorxulu söhbətinə uyğun gəlməyən şən bir səslə əlavə etdi. – Belə çıxır ki, biz hamımız havalanacağıq.

Elə həmin gün günortadan sonra Jozef Qran da həkim Ryöyə ürəyini açmışdı. O, madam Ryönün şəklini masanın üstündə görüb həkimə baxmış, həkim isə onun sual dolu baxışına cavab vermişdi ki, arvadı şəhərdən kənarda müalicədədir. Qran demişdi: "Əslinə qalsa, bəxtiniz gətirib". Həkim isə cavab vermişdi ki, doğrudur, bəxti gətirib, amma arvadının xəstəliyi onu çox narahat edir. Qran isə demişdi: "Eh! Sizi başa düşürəm".

Ryö onu tanıdığı vaxtdan bəri ilk dəfə idi Qran açıq söhbətə girişirdi. Doğrudur, o danışanda ilişir, lazımi sözləri arayırdısa da, hər halda, söz tapıb danışa bilirdi və adama elə gəlirdi ki, həmin söhbətə başlamağa çoxdan hazırlaşırmış.

O lap gənc yaşında evlənib, qonşuluqdakı gənc kasıb bir qızla ailə qurub. Evlənmək üçün təhsilini yarımçıq qoyub işə giribmiş. Nə sevgilisi Janna, nə də onun özü məhəllədən kənara çıxmazlarmış. O, görüşə qızgilin evinə gedirmiş və qızın valideynləri gələcək kürəkənlərinin utancaqlığına gülürlərmiş. Qızın atası ocaqçı imiş. İstirahət günləri evdə, pəncərənin qarşısında oturar, iri əllərini dizləri üstünə qoyub dinməzcə küçəyə, adamlara tamaşa edərmiş. Anası isə bütün günü ev işləri ilə məşğul olur, Janna da ona kömək edirmiş. Qadın elə cansız imiş ki, Qran onu küçədə görəndə yazığı gəlirmiş. Günlərin birində dükanın vitrinində bəzədilmiş Yeni il ağacına baxan Janna: "Ah, necə gözəldir", – deyə Qrana sığınmışdı. Elə həmin andaca Qran qızın əlini öz əlinə alıb sıxmış və beləliklə, onlar evlənmək qərarına gəlmişdilər.

Qranın danışdığına görə, bu tarixçənin gerisi lap sadə olub. Hamı kimi onlar da evləniblər, bir müddət bir-birini seviblər, işləyiblər. İş adamın başını elə qarışdırır ki, sevgi yaddan çıxır. Janna da işləməli olub, çünki idarə müdiri Qranın maaşını artıracağına söz vermiş, amma sözünə əməl etməmişdi. Adam bir az fikirləşsə, Qranın nə demək istədiyini anlaya bilərdi. Belə ki, iş yorub onu əldən salıb, getdikcə ruhdan düşüb, gənc arvadına qayğı və mehribanlıq göstərməyə imkanı qalmayıb. Varlanmağa ümidi qalmayan kasıblar çox işləyir, axşamlar yorğun olur, masa arxasında mürgü vururlar. Bu halda ehtiras da sönür. Yəqin ki, Janna əzab çəkib, amma bir söz deməyib, bəzən adam çəkdiyi əzabdan da xəbərsiz olur. Beləcə, illər keçib. Sonra Janna çıxıb gedib. Məlum məsələdir ki, tək getməyibmiş. "Səni sevirdim, amma daha təngə gəlmişəm... Elə bilmə ki, xoşbəxt həyat arxasınca qaçıram. Yeni bir həyata başlamaq üçün xoşbəxt olmaq vacib deyil". Bəli, Jannanın ona yazdığı məktubun məzmunu belə idi.

Jozef Qranın özü də əzab çəkmişdi. Ryönün dediyi kimi, istəsə, o da yeni həyata başlaya bilərdi. Amma cəsarət eləmirdi.

Arvadının fikri indi də ona rahatlıq vermirdi. Ən böyük arzusu da bu idi ki, ona məktub yazıb günahkar olmadığını sübuta yetirsin. "Amma çətin məsələdir, – deyirdi. – Çoxdandır bu barədə fikirləşirəm. Sevdalı günlərimizdə bir-birimizi yaxşı anlayırdıq. Sevgi daimi deyil. Müəyyən bir vaxtda onu saxlamaq üçün lazımi sözlər deyə bilərdim, amma dilim gəlmirdi". Qran hərdən yaylıqla burnunu silir, sonra da bığlarını təmizləyirdi. Ryö dinməzcə ona baxırdı.

– Məni bağışlayın, həkim, – Qran sözünə davam etdi. – Heç bilmirəm necə deyim? Sizə inanıram. Ürəyimi açıb sizinlə danışa bilirəm. Elə açıq danışdığıma görə də həyəcanlanıram.

Açıqca duyulurdu ki, taundan qorxmağı Qran heç ağlına da gətirmirdi.

Axşamüstü Ryö arvadına teleqram vurub bildirdi ki, şəhər bağlanıb, özü yaxşıdır, arvadının tez sağalmasını arzulayır və onu unutmur.

Şəhər darvazalarının bağlandığı vaxtdan üç həftə sonra Ryö xəstəxanadan çıxarkən bir oğlanla rastlaşdı. Oğlan onu gözləyirdi və sözünə belə başladı: "Güman edirəm ki, məni unutmamısınız".

O, Ryöyə tanış gəlsə də, kimliyi yada düşmədi.

– Bu əhvalatlardan əvvəl sizin görüşünüzə gəlmişdim, – oğlan sözünə davam etdi. – Ərəblərin həyat tərzi haqda məlumat almaq istəyirdim. Mən Raymon Ramberəm.

– Hə, yadıma düşdü. İndi sizin reportaj hazırlamaq üçün yaxşı mövzunuz var.

Hiss olunurdu ki, oğlan nigarançılıq keçirir. O, həkimə dedi ki, başqa məsələdən danışmaq istəyir və Ryönün köməyinə ehtiyacı var.

– Müraciətimə görə məni bağışlayın, – o əlavə etdi. – Bu şəhərdə heç kəsi tanımıram, qəzetimizin buradakı müxbiri də səfehin biridir.

Ryö təklif etdi ki, mərkəzdəki dispanserə qədər birgə gedib söhbət etsinlər. O, dispanserə bəzi göstərişlər verməli idi. Onlar qara əhali yaşayan məhəllənin darısqal küçələri ilə aşağı endilər. Axşam düşürdü. Adi günlərdə adam qaynaşan bu küçələr, elə bil, tamam kimsəsiz idi. Axşamın qızartısı çökmüş səmada şeypur səsi yayılır və bununla da əsgərlər hələ iş başında olduqlarını bildirirdilər. Qarışıq küçələrin mavi, boz, bənövşəyi rənglərə boyanmış divarları arası ilə getdikcə Ramber həyəcanlı səslə öz dərdini danışırdı. Onun qadını Parisdə qalmışdı. Əslinə qalsa, həmin qadın onun arvadı deyildi, amma hər halda, onun qadını idi. Şəhər bağlanan kimi qadına teleqram göndərib. Əvvəlcə elə bilirdi ki, müvəqqəti bir çətinliyə düşüb və qadınla məktublaşa bilər. Orandakı həmkarları bildiriblər ki, kömək etmək imkanları yoxdur, poçt onun məktubunu qəbul etməyib, prefekt idarəsinin katibəsi şikayətinə məhəl qoymayıb. "Hər şey yaxşıdır. Tezliklə görüşənədək" sözləri yazılmış bir teleqramı yola salmaq üçün iki saat növbəyə durmalı olub.

Amma səhər yerindən qalxanda fikirləşib ki, bu vəziyyətin nə qədər davam edəcəyi məlum deyil və o, bir çarə qılmalıdır. Şəhərdən çıxmaq qərarına gəlib. Ezamiyyə vərəqinin köməyi ilə (onun sənətinin üstünlükləri var) prefekt idarəsi rəisi ilə görüşə bilib. Rəisə söyləyib ki, Oran şəhəri ilə heç bir əlaqəsi yoxdur, burada qalmaq istəmir, bura təsadüfən gəlib çıxıb, şəhərdən çıxandan sonra, karantinə düşməli olsa da, getmək istəyir. Rəis isə cavab verib ki, onun vəziyyətini yaxşı başa düşür, amma istisnaya yol verə bilməz, hər halda, vəziyyəti nəzərə alar, amma ümumi ünsiyyət elə ciddidir ki, heç bir çıxış yolu qalmayıb.

– Axı mən bu şəhərdə yad adamam, – Ramber sözünü tamamladı.

– Bəli, elədir. Ümid ona qalır ki, epidemiya çox çəkməyəcək.

Söhbəti yekunlaşdırmaq üçün həkim Rambərə təsəlli verməyə çalışdı. Məsləhət gördü ki, Oran əhvalatlarından maraqlı reportajlar hazırlasın. Ramber çiyinlərini çəkdi. Onlar mərkəzə çatmışdılar.

– Bilirsinizmi, həkim, mən, doğrudan da, çox pis vəziyyətə düşmüşəm. Axı mən dünyaya ancaq reportajlar yazmaq üçün gəlməmişəm. Mən istəyirəm öz qadınımla yaşayım. Buna haqqım yoxdur yəni?

Ryö cavab verdi ki, Ramber haqlıdır.

Mərkəzdəki bulvarda əvvəlki izdihamdan əsər-əlamət yox idi. Rast gələn bir-iki adam da hara isə tələsirdi. Adamların təbəssümü yoxa çıxmışdı. Ryö fikirləşdi ki, vəziyyət Ransdoq agentliyinin bugünkü məlumatından sonra dəyişib. İyirmi dörd saat əvvəl camaat hələ ümidlə yaşayırdı. Aldıqları təzə məlumat hələ yaddaşlarından silinməyib. Ramber sakit-sakit danışırdı:

– Məsələ burasındadır ki, həmin qadınla tanışlığımız təzə olsa da, bir-birimizi duymağa başlamışdıq.

Ryö dinib-danışmırdı.

– Söz-söhbətimlə sizi darıxdırıram, – Ramber yenə dilləndi. – İstəyirdim sizdən xahiş edim ki, əgər mümkünsə, xəstə olmamağım haqda mənə arayış verəsiniz.

Ryö başını buladı, səkidə qaçarkən yıxılan balaca bir oğlanı ehmalca ayağa qaldırdı. Onlar gəlib Arm meydanına çıxdılar. Respublika şərəfinə ucaldılmış abidənin özü kimi ətrafındakı əncir və palma ağaclarının yarpaqları da tozlu və çirkli idi. Onlar abidənin yanında dayandılar. Ryö ağımtıl toza bulaşmış çəkmələrini növbə ilə səkiyə çırpdı. Sonra Rambərə baxdı. Həsir şlyapası arxaya dartınmış, boş bağlanmış qalstukun altında

yaxası açıq qalmış, üzü yaxşı qırxılmamış bu jurnalist acınacaqlı bir günə düşmüşdü.

– İnanın ki, mən sizi yaxşı başa düşürəm, – Ryö dilə gəldi. – Amma siz düz fikrə düşməmisiniz. Mən sizə arayış verə bilmərəm, çünki xəstə olub-olmadığınızı bilmirəm. Həm də ona görə ki, elə mənim otağımdan, yaxud prefekt idarəsindən çıxacağınız andaca xəstəliyə tutulmadığınıza zəmanət verə bilmərəm. Həm də ki...

– Həm də ki? – Ramber soruşdu.

– Həm də ki, əgər sizə belə bir arayış versəm də, xeyri olmayacaq.

– Nəyə görə?

– Çünki bu şəhərdə sizin vəziyyətinizə düşmüş minlərlə adam var və onları şəhərdən buraxmaq olmaz.

– Yaxşı, onlara taun yoluxmayıbsa, necə?

– Bu da əsaslı səbəb deyil. Mən də yaxşı bilirəm ki, acınacaqlı vəziyyətdir. Amma bu vəziyyət hamımıza aiddir və şəraitlə barışmalıyıq.

– Axı mən ki buralı deyiləm!

– Çox təəssüf ki, hazırkı vəziyyətdə siz də hamı kimi buralı sayılırsınız.

Jurnalist həyəcanla dedi:

– Sizə and içirəm ki, burada söhbət bəşəri hisslərdən gedir. Bir-birini sevən iki şəxsin ayrılıqdan necə əzab çəkməsini, bəlkə də, anlaya bilmirsiniz.

Ryö cavab verməyə tələsmədi. Az sonra dilə gəlib dedi ki, o, ayrılığın əzabını duyur. Bütün varlığı ilə arzu edir ki, Ramber öz qadınına qovuşsun, sevənlər heç vaxt ayrı düşməsinlər. Amma arada qanun və qadağalar var, arada taun var. Həkimin işi isə öz borcunu yerinə yetirməkdir.

Ramber incik səslə dedi:

– Yox, siz məni duya bilmirsiniz. Siz qanunun dili ilə danışırsınız, təsəvvürünüz mücərrəddir.

Həkim qarşıdakı Respublika abidəsinə baxa-baxa dedi ki, qanunun dili ilə danışdığına əmin olmasa da, şəraitin dili ilə danışdığını yaxşı bilir. Bunlar isə həmişə eyni olmur. Ramber qalstukunu düzəldərək dedi:

– Belə çıxır ki, mən özüm başıma çarə qılmalıyam? Amma nə cür olsa, bu şəhərdən gedəcəyəm, – incik səslə sözünü tamamladı.

Həkim yenə də bildirdi ki, onun vəziyyətini başa düşür, amma kömək göstərə bilməz.

– Xeyr, kömək göstərə bilərsiniz, – Ramber qəfildən coşdu. – Mənə deyiblər ki, görülən tədbirlərdə sizin böyük rolunuz olub. Elə ona görə də sizin görüşünüzə gəlmişəm. Fikirləşdim ki, hazırladığınız tədbirlərdə, heç olmasa, bir istisnaya yol verə bilərsiniz. Amma görürəm ki, sizə fərqi yoxdur. Heç kimin vəziyyətini nəzərə almamısınız. Ayrı düşənlərin sizə dəxli yoxdur.

Həkim etiraf elədi ki, müəyyən mənada jurnalist haqlıdır, tədbir görülərkən heç kimin vəziyyətini nəzərə almaq istəməyib.

– Bəli! Başa düşürəm, – Ramber dilləndi. – İndi ümumi mənafedən danışacaqsınız. Axı bu ümumi mənafenin özü də də ayrı-ayrı adamların mənafeyindən ibarətdir.

Həkim elə bil fikirdən ayrıldı:

– Yaxşı, məsələ həm elədir, həm də başqa cür. Heç kimi günahlandırmaq lazım deyil. Nahaq yerə acıqlanırsınız. Bu vəziyyətdən qurtara bilsəniz, mən də çox şad olaram. Sadəcə, elə işlər var ki, vəzifə borcuma görə yol verə bilmərəm.

Jurnalist səbirsizliklə başını yellədi:

– Doğrudur, nahaq yerə acıqlanıram. Onsuz da, vaxtınızı çox almışam.

Həkim ondan xahiş etdi ki, icazə üçün get-gəlləri haqda məlumat versin və onu günahkar saymasın. Həkim həm də dedi ki, görüşüb məsləhətləşsələr, bəlkə

də, bir çıxış yolu tapa bilərlər. Ramber, elə bil, qəfildən pərt olmuşdu, bir müddət susub dedi:

– Hə, bəlkə də. Sizin dediklərinizə, mənim ümidsizliyimə baxmayaraq, bəlkə də, bir yol tapıldı. – Qısa tərəddüddən sonra əlavə etdi: – Hər halda, mən sizə haqq qazandıra bilmirəm.

O, şlyapasını alnına çəkdi və tələsik addımlarla uzaqlaşdı. Ryö onun Jan Tarunun yaşadığı mehmanxanaya girdiyini də gördü.

Həkim onun arxasınca baxıb başını buladı. Jurnalist öz xoşbəxtliyi üçün dərd çəkməkdə haqlı idi. Bəs onun belinə günah yükləyəndə də haqlı idimi? "Təsəvvürünüz mücərrəddir". Taunun gücləndiyi, həftədə beş yüz adamın üstündən xətt çəkdiyi bir şəhərin xəstəxanasında gecə-gündüz çalışmaq absurddurmu? Bəli, bədbəxtliyin özündə də bir az mücərrədlik və qeyri-adilik var. Elə ki mücərrədlik adamları qırmağa başladı, bu mücərrədliklə mübarizə etmək lazımdır. Ryö bilirdi ki, bu, çətin bir mübarizədir; məsələn, ona tapşırılmış təzə xəstəxananı da (üç təzə xəstəxana açılmışdı) idarə etmək çətin məsələ idi. O, ümumi məsləhətxananın qarşısında qəbul otağı ayırmışdı. Otağın ortasında dərmanlı su ilə dolu bir hovuz qazılmış, suyun ortasında isə kərpicdən adacıq qurulmuşdu. Qəbul olunan xəstəni həmin adacığa çıxarır, paltarını soyundurub suya tökür, özünü çimizdirir, qurulayır, xəstəxana paltarı geydirib Ryöyə təhvil verirdilər. Daha sonra xəstə palatalardan birinə yerləşdirilirdi. Xəstəxananı məktəb binalarından birində açmağa məcbur olmuşdular və burada yerləşdirilmiş beş yüz çarpayının, az qala, hamısı tutulmuşdu. Səhər qəbulunda Ryönün özü iştirak edir, xəstələrə vaksin vurur, yaralarını çərtib boşaldırdı. Sonra o, statistik məlumatı öyrənir, günortadan sonra isə xəstələri məsləhətxanada qəbul edirdi. Axşamüstü ev çağırışlarına gedir və evə gecədən xeyli

keçəndən sonra qayıdırdı. Keçən gecə arvadından gəlmiş teleqramı verərkən anası Ryönün əllərinə baxıb demişdi ki, onun əlləri əsməyə başlayıb. Ryö isə belə cavab vermişdi:

– Hə, ola bilər, vəziyyət düzələndə əsəblərim də qaydasına düşəcək.

Ryö cüssəli və dözümlü adam idi. Hələ işdən yorulmamışdı. Amma xəstə çağırışına getmək əzablı bir işə dönmüşdü. Epidemiya qızdırması müşahidə olunan kimi xəstəni aparmaq lazım idi. Elə bu yerdə də, sözün əsl mənasında, anlaşılmazlıq və çətinlik başlayırdı. Xəstənin qohumları bilirdilər ki, onu ancaq sağalandan, yaxud öləndən sonra görə biləcəklər. "Rəhm edin, həkim" – Taru yaşayan mehmanxanada xidmətçilik edən gənc qadının anası madam Lore yalvarmağa başlayırdı. Bu sözlərin nə mənası vardı? Məlumdur ki, həkim şəfqətli idi. Amma indi rəhmdillik vaxtı deyildi. Xəstəxanaya zəng vurmaq lazımdır. Çox keçməmiş xəstəxana maşınının hənirtisi eşidilirdi. Əvvəlcə qonşular pəncərələrini açır, küçəyə boylanır, sonra isə tələm-tələsik pəncərələri bağlayırdılar. Elə mübahisə, göz yaşları, yalvarış, bir sözlə, anlaşılmazlıq başlayırdı; qızdırma və qəhərdən yanan bu mənzillərdə adamlar, az qala, havalanırdılar. Amma xəstəni aparırdılar. Sonra Ryö də çıxıb gedirdi.

İlk günlər o, xəstəliyi təyin edən kimi xəstəxanaya zəng vurur və xəstəni yola salmamış başqa çağırışa gedirdi.

Belə hallarda xəstənin qohumları qapıları kip bağlayır, əzizləri ilə əbədi ayrılmaqdansa, taunla üz-üzə qalmağa üstünlük verirdilər. Adamlar qışqırır, əlindən, ətəyindən yapışıb xəstəni vermək istəmir, polis, daha sonra isə hərbçilər köməyə gəlir və xəstəni zorla aparırdılar. Sonrakı həftələr Ryö xəstənin yanında oturub xəstəxana maşınını gözləməyə məcbur olurdu. Həkim-

lərə könüllü köməkçilər qoşulduqdan sonra Ryö bir xəstəni müayinə edir və vaxt itirmədən başqa bir çağırışa gedə bilirdi. Amma ilk günlərdə madam Lorenin süni tüllərlə bəzədilmiş kiçik mənzilində baş vermiş əhvalata bənzər səhnələr başlayırdı. Ana həkimin qarşısına çıxır, çaşqın bir təbəssümlə deyirdi:

– Güman edirəm ki, bizim uşağın qızdırması camaatı qorxuya salan qızdırmadan deyil.

Həkim isə dinməzcə xəstənin yorğanını və köynəyini qaldırır, onun qarnına, budlarına səpələnmiş qırmızı ləkələrə və bud dibindəki şişkin yaralara baxırdı. Ana qızının buddibi yaralarını görəndə özünü saxlaya bilmir, dəhşətdən qışqırırdı. Hər axşam analar övladlarının çılpaq bədənində ölüm əlamətlərini görür, beləcə qışqırır, hər axşam analar Ryönün əllərindən tutub yalvarır, gərəksiz sözlər deyir, göz yaşı tökür, hər axşam xəstəxana maşını gəlir, yersiz dava-dalaşa və ağrı-acıya harayçılıq edirdi. Bir-birinə bənzəyən belə axşamların oxşar səhnələrinə Ryö elə adət eləmişdi ki, hər yeni çağırışda eyni hadisəyə hazırlaşırdı. Bəli, taun da indi yeknəsəq idi. Burada dəyişən bircə şey vardırsa, o da Ryönün özü idi. O, özündə baş verən dəyişikliyi Respublika abidəsinin yanında tələsik addımlarla mehmanxanaya gedən Ramberin arxasınca baxdığı axşam duymağa başlamışdı.

Bu ağır həftələrin sonunda, məşəqqətli axşamlardan sonra Ryö duymuşdu ki, onun şəfqəti öz-özünə yox olmağa başlayıb! Acımaq hissi əhəmiyyətsiz bir şeyə çevriləndə gözdən düşürmüş. Bu dərdli günlərin Ryö üçün yeganə təsəllisi ürəyinin beləcə daşa dönməsi oldu. Bilirdi ki, daşa dönmüş ürəklə boynuna düşən vəzifəsini daha yaxşı icra edəcək. Buna bir az sevinirdi də. Gecə saat ikidə anası onu qarşılayanda gözlərindəki boşluğu duyur və oğlunun bu yeni görkəminə acıyırdı. Mücərrədliklə mübarizə apara bilmək

üçün adamın özü də bir az mücərrəd olmalıdır. Axı bunu Ramber kimi heyvana necə başa salasan? O, öz xoşbəxtliyinə mane olan hər şeyi anlaşılmaz sayır. Əslində, Ryönün özü də bilməmiş deyildi ki, jurnalist haradasa haqlıdır. Amma, ancaq və lakin Ryö bunu da bilirdi ki, bəzi hallarda mücərrədlik xoşbəxtliyə güc gəlir və bunu nəzərə almaq lazımdır. Ramberin əvvəlki etiraflarından bilinirdi ki, indi içində çapaladığı vəziyyət daha ağır bir hal hesab edilməli idi. İndi o, özünün xoşbəxtlik diləyini taunun mücərrədlikləri ilə qarşılaşdırmalı idi. Uzunsürən epidemiya vaxtı bizim şəhərin bütün həyatı beləcə bir mücadilədən ibarət idi.

***

Amma bəzilərinə anlaşılmaz və ağlasığmaz görünən hadisələr başqaları üçün adi məişət hadisəsi idi. Vəba epidemiyasının birinci ayının sonu ölənlərin sayının artması və keşiş Panelunun bir moizəsi sayəsində hüzrlü günlərə çevrilmişdi. Keşiş Panelu qoca Mişelin xəstələndiyi ilk günlərdə ona keşik də çəkmişdi. Keşiş Oranın coğrafiya cəmiyyətinin bülletenindəki çıxışları sayəsində də ad qazanmışdır. O, öz moizələri ilə əhalini elə cəlb eləmişdi ki, müasir individializm mövzusunda məruzə oxuyan mütəxəssis onun qədər dinləyici tapa bilməzdi. O, öz çıxışları ilə xristianlığın elə bir növünü təbliğ edirdi ki, həm müasir sərbəstliklərdən azad idi, həm də keçmişin qaranlıq təsəvvürlərindən. Keşiş öz dinləyicilərini acı həqiqətlərin əsiri etmək istəmirdi. Elə buna görə də rəğbət qazanmışdı.

Beləliklə, həmin ayın sonunda din xadimləri qərara almışdılar ki, tauna qarşı mübarizədə öz üsullarından istifadə etsinlər. Onlar dindarları bir həftə ərzində birgə dua oxumağa çağırmışdılar. Bu dini mərasim bazar günü, tauna qurban getmiş müqəddəs Roxun şərəfinə

təntənəli ayinlərlə başa çatmalı idi. Elə bu münasibətlə keşiş Paneludan xahiş etmişdilər ki, son mərasimdə çıxış eləsin. On beş gündən bəri Panelu ata müqəddəs Avqustin və Afrika kilsəsi mövzusunda məruzə hazırlayırdı. Kilsənin yeni tapşırığını da böyük məmnuniyyətlə qəbul etdi.

Hələ mərasim moizəsinə xeyli qalmış şəhərdə bu barədə söhbət gedirdi. Sonra isə həmin moizəni çətin dövrün tarixində mühüm hadisə saydılar.

Dini mərasim həftəsində çox adam iştirak elədi. Adi günlərdə Oran camaatı dini mərasimlərə çox əhəmiyyət vermir; məsələn, bazar günləri səhərlər əhalinin çoxu kilsə yığıncağına deyil, çimərliyə tələsirdi. Elə indi də dinə münasibət dəyişməmişdi. Bir yandan şəhər darvazaları bağlandığına görə şəhərdən çıxıb çimərliklərə getmək mümkün deyildi, digər tərəfdən isə camaat qəribə əhvalatlar və həyatlarında nə isə bir dəyişiklik baş verdiyini duymağa başlamışdı. Amma çoxu hələ də güman edirdi ki, epidemiya tezliklə kəsiləcək və ayrı düşənlər öz ailələrinə qovuşacaqlar. Hələlik ciddi sıxıntı çəkmirdilər. Onlara elə gəlirdi ki, taun çağırılmamış qonaq kimi bir şeydir, gəldiyi kimi də çıxıb gedəcək. Camaat qorxuya düşsə də, hələ bədbinləşməmişdi. Taun hələ elə bir səviyyəyə çatmamışdı ki, hamı ancaq onunla məşğul olsun və əvvəlki həyat tərzi unudulsun. Camaat nə isə gözləyirdi. Taun onlarda elə bir əhvali-ruhiyyə yaratmışdı ki, istər dinə qarşı, istərsə də başqa məsələlərə qarşı nə etinasızlıq edir, nə də ehtirasa yol verirdilər. Onların bu münasibətini "obyektivlik" adlandırmaq olardı. Dini dualar həftəsi iştirakçılarının çoxu da belə adamlardan idi və onlardan biri həkim Ryöyə demişdi: "Hər halda, bunun bizə zərəri dəyməz". Taru öz gündəliyinə yazmışdı ki, çinlilər belə vəziyyətdə taun ilahəsi qarşısında təbil çalırlar və təbil çalmağın profilaktik tədbirlərdən təsirli olub-olmamasını

təyin etmək heç cür mümkün deyil. O həm də qeyd edirdi ki, taun ilahəsinin mövcud olub-olmadığını bilmədiyimiz üçün bu barədə dəqiq söz də deyə bilmərik.

Hər halda, şəhərin beş kilsəsi bütün həftə dindarlarla dolurdu. İlk günlər camaatın çoxu kilsənin qarşısındakı palma və nar bağında toplaşır, içəridən eşidilən çıxışlara və dualara qulaq asırdı. Sonra onlar da bir-birindən nümunə götürür, yavaş-yavaş içəri keçir, öz utancaq səslərini dua oxuyan xorun səsinə qatırdılar. Bazar günü isə camaat elə çoxaldı ki, girəcəyin pillələri də adamla doldu. Bir gün əvvəldən hava tutqunlaşmışdı və bazar günü güclü yağış yağırdı. Çöldə qalanlar çətirlərini açmışdılar. Keşiş Panelu moizə kürsüsünə qalxdığı vaxt içərini yaş parça iyi bürümüşdü.

O, ortaboylu olsa da, cüssəli görünürdü. Kürsüyə söykənib iri əlləri ilə kürsünün kənarlarından yapışandan sonra qara kölgəsi və polad sağanaqlı eynəyindən başqa heç nə görünmürdü. Səsi güclü və ehtiraslı idi, çöldə də eşidilirdi. Elə ki "Qardaşlar, siz bəlaya düşmüsünüz və bu bəlaya layiqsiniz" cümləsi ilə camaata hücum etdi, içəridəkilər də, çöldəkilər də yerlərində qurdalandılar.

Çıxışın gerisi mənaca əvvəlki acı cümləyə uyğun gəlmədi. Yalnız sonrakı cümlələrdən camaat anlamağa başladı ki, bu məşhur natiq həmin ağır cümlə ilə bütün çıxışının mövzusunu şərh etmək istəyirmiş. Elə bu cümlədən sonra Panelu ata Misir taununun təsvirini misal gətirdi və dedi: "Bu bəla dünyaya endiyi ilk dəfədən Allahın düşmənlərinə zaval vermək üçün gəlib. Firon əbədiyyət qaydalarına zidd çıxdığına görə taun onu diz çökdürdü. Tarixin ilk günlərindən Allahın bəlaları lovğaları və haqqı görməyənləri diz çökdürüb. Bunu başa düşün və diz çökün".

Çöldə yağış daha da güclənmişdi və keşişin bu son cümləsi sakitcə qulaq asan camaatı bir anlıq çaşdırdı.

Pəncərələri döyəcləyən iri yağış damlalarının səsi daha aydın eşidildi. Adamların bəziləri qısa tərəddüddən sonra yerlərindən qalxıb döşəmə üstündə diz çökdülər. Sonra başqaları onlara baxıb nümunə götürdü, sıralar bir-birinin ardınca tərpəşdi və çox keçməmiş camaatın hamısı dizi üstə çökdü. Panelu qamətini düzəltdi, dərindən nəfəs aldı və səsinə bir az da güc verdi: "Əgər taun sizinlə qarşılaşıbsa, deməli, ciddi fikirləşməyin vaxtı çatıb. Düzgün adamların qorxuya düşməyinə dəyməz, zalımlar isə lərzəyə düşməlidirlər. Geniş dünya xırmanında Allahın zavalı bəşər taxılını elə sovuracaq ki, saman buğdadan tamam ayrılacaq. Burada saman buğdadan çox olacaq. Allahın özü belə cəza vermək istəməzdi. Lap qədimdən dünyada yamanlıqlar mövcuddur, lap qədimdən də dünya Tanrının rəhmdilliyinə güvənib. Kim ki öz günahını qanırdı, hər arzusuna çatırdı. Öz günahını etiraf etməkdən heç kəs çəkinmirdi. Vaxtı gələndə günahlar üzə çıxır. Çoxu fikirləşirdi ki, həyatın axınına düşmək daha asandır və Tanrının rəhmdilliyi daimidir. Amma həmişə belə qala bilməzdi. Çoxdan idi Tanrı bu şəhərin əhalisinə rəhmdillik edirdi. Amma onun səbri tükəndi, dözə bilmədi, rəhmli baxışını yana çevirdi. Allahın nəzərindən kənar düşdüyümüzə görə taun bəlası bizi yaxaladı!"

Zalda kim isə səbirsiz at kimi fınxırdı. Qısa sükutdan sonra keşiş nisbətən sakit səslə sözünə davam elədi: "Bir misal deyim: "Qızıl əfsanə"də yazılıb ki, kral Hümbertin dövründə, Lombardiyada İtaliya əhalisi elə güclü bir tauna tutulubmuş ki, sağ qalanlar ölüləri basdırmağa güc-bəla ilə çatırlarmış. Taun əsasən Roma və Pavianı bürüyübmüş. Həmin vaxt xeyirxah bir mələkə peyda olub, şər mələkəyə göstəriş verirmiş. Şər mələkə kamanı dartır, evlərə ox atırmış. Hansı evə neçə ox atılsa, həmin evdə oxların sayı qədər adam ölürmüş".

Panelu qısa qollarını çölə tərəf uzatdı, narın yağış dumanının arxasında qalmış nəyi isə göstərirmiş kimi uca səslə dedi: "Qardaşlar, indi bizim küçələrimizə həmin oxlardan yağır. Baxsanız, görərsiniz ki, evləriniz üzərindəki taun mələkəsi Lüsifer kimi gözəl, şərin özü kimi gözqamaşdırandır. Sağ əli ilə qırmızı kamanı qaldırır, sol əlini isə evlərinizə tuşlayır. Bəlkə, indi də barmağını sizin qapılardan birinə tuşlayıb və qapınıza onun oxu sancılıb; bəlkə də, indi taun sizin evinizə girib, otaqda oturub, qayıtmağınızı gözləyir. Bəla hazırdır, səbirlə gözləyir, o, dünyanın özü kimi əbədidir. O, əlini sizə uzadıbsa, heç bir bəşəri qüvvə, gərəksiz insan elmi də sizi onun çəngindən qurtara bilməz. Zaval sizə əl atıbsa, xırmanda sovrulan qılçıq kimi həyatdan kənara düşəcəksiniz".

Bu məqamda keşiş camaatın düçar olduğu bəlaya daha dəqiq dini məna verməyə çalışdı. O, xəstəliyi şəhərin üzərində oynayan, hara gəldi zərbə vuran, qana bulaşıb havaya qalxan iri bir dəyənəyə bənzətdi. Onun təsvirincə, həmin dəyənək qan tökür, əzab verir və insanı həqiqəti düzgün anlamağa hazırlayırdı.

Uzun çıxışının sonuna yaxın Panelu ata bir anlıq susdu. Onun saçı alnına tökülmüşdü, həyəcandan bədəni əsir, kürsünün kənarlarını əlləri ilə bərk-bərk sıxırdı. Qısa fasilədən sonra o, ağır və ittihamlı bir səslə dedi: "Bəli, fikirləşmək vaxtı çatıb. Sizə elə gəlirdi ki, bazar günləri Allah evinə baş çəkməklə borcunuzu verirsiniz. Sizə elə gəlirdi ki, Tanrıya yaltaqlanmaqla günahlarınızı yuya bilərsiniz. Amma Tanrı yaxınlıq gözləyir. Onun böyük rəğbətini təsadüfi görüşlərlə qazanmaq olmaz. O, sizi tez-tez görmək istəyirdi, o, sizi bu yolla sevirdi və əslinə qalsa, sevginin bundan başqa yolu yoxdur. Tanrı sizin yolunuzu gözləməkdən bezikdi və sizə bəla göndərdi. Bəşər tarixi yaranandan bəri günah işləmiş şəhərlərin hamısı belə bəlalara düçar olub. Siz indi

günahın nə demək olduğunu bilirsiniz; onu Qabil və onun üç oğlu, daşqından əvvəlkilər, Sodom və Qomorh, Firon və Job – bütün günahkarlar da bilirdilər. İndi, şəhərinizə bəla gələndən bəri siz də onlar kimi canlı və cansızlara tamam başqa gözlə baxmağa başlamısınız. Nəhayət, indi siz bilirsiniz ki, ən vacib məsələyə yaxınlaşmaq lazımdır".

İçəriyə nəmli külək vurdu və şamların alovları titrəşdi. Külək şam iyi və öskürək səslərini Panelunun durduğu xitabət kürsüsünə də çatdırdı. Keşiş camaatın xoşuna gələn bir incəliklə əsas məsələyə keçdi və sakit səslə dedi: "Bilirəm ki, sizin çoxunuz məndən müxtəsər söz gözləyirsiniz. Sizə əsas sözüm sizi həqiqətə çağırmaq və bayaq dediklərimlə yanaşı, sizə həyat sevinci arzulamaqdır. İndi elə bir vaxt deyil ki, məsləhətlərlə, yaxud qardaş köməyi ilə sizə xeyir vermək mümkün olsun. İndi həqiqət qanuna çevrilib. Düzgün yol isə məlakənin qırmızı oxla göstərdiyi yoldur. Bəli, qardaşlar, xeyirlə şəri, qəzəblə rəhmi, taunla xilası yanaşı qoymuş İlahi qüvvə burada açıqca duyulur. İndi sizə əzab verən bu bəla sizi ayıldır və haqqın yolunu göstərir.

Qədim zamanlarda Həbəşistan xristianları əbədi həyata qovuşmaq üçün taunu dini bir vasitə sayırlarmış. Xəstəliyə tutulmayanlar da xəstələnib ölmək üçün xəstə yorğanına bürünürlərmiş. Şübhə yox ki, belə xilas yolu düzgün yol deyil. Bu cür tələsmək xudpəsəndliyə bənzəyir. Allahdan çox tələsmək lazım deyil, vaxtı qabaqlamağa çalışanlar səhv yola düşürlər. Hər halda, bu misal da bizim üçün dərs olmalıdır. İndi bizim inkişaf etmiş şüurumuzda belə bir fikir aydın iz salıb ki, hər əzabın axırı işıqlı əbədilikdir. Bu fikir əbədiliyə gedən yolun qaranlıqlarını işığa qərq edir. Bu fikir izah edir ki, İlahi qüvvə hər cür şəri xeyirə çevirir. Elə bu gün də, ölümün və əzabın təntənəsi günündə də həmin fikir

bizi əbədi sükuta və həyat məramına doğru aparır. Budur, qardaşlar, mənim sizə deyəcəyim təsəlli sözləri bunlar idi və istəyirəm ki, siz buradan ancaq cəza qorxusu deyil, həm də təsəlli aparasınız".

Hamı hiss edirdi ki, Panelu çıxışını başa vurub. Çöldə yağış kəsmişdi. Nəmli səmadan axan günəş şüaları meydana təzə işıq yaymışdı. Küçədən adamların və maşınların səsi eşidilirdi, oyanan şəhər dilə gəlmişdi. İçəridəki camaat dağılışmaq üçün hərəkətə gəlirdi. Elə bu vaxt keşiş dilə gəldi və dedi ki, onun əsas məqsədi taunun dini qüvvə və cəza vasitəsi olduğunu izah etmək idi, belə faciəvi bir mövzuda natiqlik məharəti göstərmək yersiz çıxırdı. Ona elə gəlirdi ki, hamı hər şeyi yaxşı anlayıb. Keşiş həm də yada saldı ki, Marseldə baş vermiş güclü taun vaxtı tarixçi Matyö Mare yazıbmış ki, heç bir kömək və ümid yeri olmayan bir cəhənnəmə düşüb. Matyö Mare kor imiş! Keşiş Panelu isə tamam başqa cür fikirləşir, Tanrı köməyinə və xristianlığın xilasına belə bir gündə daha çox ümidi olduğunu söyləyirdi. O ümid edirdi ki, qorxulu vəziyyətə, əzabla can verənlərin ah-naləsinə baxmayaraq, şəhər əhalisi göylərə üz tutub məhəbbətlə dolu dini kəlamlar söyləyəcək. Qalanı isə Allahın öz əlindədir.

***

Dini moizənin bizim şəhər əhalisinə təsiri olub-olmadığını demək çətindir. Müstəntiq cənab Oton həkim Ryöyə demişdi ki, onun fikrincə, keşiş Paneluنun çıxışı "tamam haqlı" bir çıxış idi. Amma hamının fikri belə rəsmi deyildi. Sadəcə, bu çıxış indiyə qədər çaşqınlıq içində olanları başa salmışdı ki, naməlum bir günaha görə anlaşılmaz vəziyyətə düşüblər və bütün şəhər həbsxanaya çevrilib. Bəziləri yeni vəziyyətə uyğunlaşaraq yaşamağa başlayır, başqaları isə əksinə,

hər vasitə ilə bu həbsxana şəraitindən can qurtarmağa çalışırdılar.

Camaat əvvəlcə bütün xarici aləmdən təcrid olunmaq məsələsinə ciddi əhəmiyyət verməmişdi. Onlar üçün bu vəziyyət də başqa müvəqqəti çətinliklər kimi bir şey idi. Amma elə ki isti yay günlərində olduğunu anladılar, vəziyyət dəyişdi. Bəziləri ümidsizlik içində çıxış yolu axtarırdı.

Bilmirəm bu bir təsadüf idi, ya yox, elə həmin bazar günündən sonra camaat, bir növ, qorxuya düşmüş və öz vəziyyətini daha aydın təsəvvür etməyə başlamışdı. Bu cəhəti nəzərə alsaq, şəhərdə vəziyyət, elə bil, yüngülləşmiş və dəyişmişdi. Amma bu dəyişkənliyin zahiri, yaxud daxili olduğunu ayırd etmək çətin idi.

Dini moizədən bir-iki gün sonra Ryö Qranla həmin mövzuda danışa-danışa xiyabana tərəf getdiyi vaxt gecənin qaranlığında bir nəfərlə üz-üzə gəldilər. Həmin adam onların yolunu kəsir və keçib-getmək bilmirdi. Vəziyyətə görə şəhərin işıqları gec yandırılırdı. Qəfildən işıqlar yandı. Arxada qalmış dirəkdəki lampa yolu kəsən adamın üzünü işıqlandırdı. Bu adam yolun ortasında durub səssizcə gülürdü, gözləri də yumulu idi. Kişinin ağarmış, key sifətindən iri tər damlaları süzülürdü. Onlar keçib-getdilər. Qran dedi:

– Bu kişi dəlidir.

Ryö Qranın qoluna girib aralandığı vaxt hiss etdi ki, o, həyəcandan titrəyir və dedi:

– Çox keçməz ki, bizim bu divarların arasında hamı havalanar.

O yorulmuşdu, hiss edirdi ki, boğazı quruyub və Qrana dedi:

– Gedək bir şey içək.

Onların girdiyi kiçik kafedə tək bir lampa yanırdı, o da kassanın qarşısına qoyulmuşdu. Ala-toranlıqda oturmuş adamlar, nədənsə, asta səslə danışırdılar. Qran

spirt sifariş edib bir qurtuma içdi. Həkim təəccübləndi. Sonra Qran çölə çıxmaq istədi. Çölə çıxandan sonra Ryöyə elə gəldi ki, gecənin qaranlığı inilti səsləri ilə doludur. Küçə lampalarından yuxarıdakı qaranlıqdan zəif bir vıyıltı eşidilir və adama elə gəlirdi ki, zaval qanad açıb şəhərin qaranlıq və isti səmasında süzür. Qran dilə gəldi:

– Çox yaxşı, çox yaxşı.

Ryö fikirləşirdi ki, görəsən, Qran nə demək istəyir?

– Çox yaxşı, yaxşı ki, əlimdə işim var.

– Hə, bir işlə məşğul olmaq vacibdir, – Ryö cavab verdi.

Göydən eşidilən vıyıltıya qulaq asmamaq naminə Ryö sükutu pozdu və Qranın öz məşğuliyyətindən razı olub-olmadığını soruşdu.

– Bəli, zənnimcə, yaxşı məşğuliyyət seçmişəm.

– İşiniz hələ uzun çəkəcək.

Qran bir az dirçəldi, spirtin istisi səsində də duyulurdu.

– Bilmirəm. Amma bu, əsas deyil, həkim, yox, bu, əsas şərt deyil.

Ryö hiss edirdi ki, o, qaranlıqda əl-qolunu oynadır, fikrini söyləmək üçün lazımi ifadələr seçir. Qran dilləndi:

– Bilirsinizmi, həkim, mən nə fikirdəyəm: istəyirəm ki, əlyazmamı naşir oxuyandan sonra ehtiramla ayağa qalxıb öz işçilərinə desin: "Əsərin tayı-bərabəri yoxdur, cənablar, şlyapalarınızı çıxarın, təzim edin".

Onun bu sözləri Ryönü təəccübləndirdi. Ona elə gəldi ki, həmsöhbəti qaranlıqda qarışıq hərəkətlər edir, əlini gah başına tərəf aparır, gah da yuxarı qaldırır. Yuxarıda isə tükürpərdən vıyıltı getdikcə güclənirdi. Qran hələ danışırdı:

– Bəli, gərək yazanda gözəl əsər yazasan.

Ədəbiyyat məsələlərinə az bələd olsa da, Ryöyə elə gəlirdi ki, bu sahədə işlər Qranın fikirləşdiyi kimi sadə

deyil; məsələn, hər halda, nəşriyyat işçiləri onun təsəvvür etdiyi kimi, idarədə başıörtülü oturmurlar. Amma Ryönün özü də dəqiq bir təsəvvürə malik olmadığından susmaq qərarına gəldi. O, özündən ixtiyarsız, taunun sirli sədalarına qulaq asırdı. Onlar Qranın yaşadığı məhəlləyə yaxınlaşırdılar. Bura nisbətən hündür olduğundan sərin bir meh həm sərinlik gətirir, həm də şəhərin tozunu və hay-küyünü sovurub aparırdı. Qran hələ də danışır, Ryö isə onun dediklərinin hamısını eşitmirdi. Ancaq onu anlaya bilmişdi ki, Qranın haqqında danışdığı əsərin mühüm hissəsi yazılıb, amma müəllif əsərin gözəl alınması üçün çox əzab çəkməli olur. “Bəzən bütün bir gecəni, uzun bir həftəni tək bir sözü... bəzən də bir bağlayıcını götür-qoy edirəm”. Bu sözlərdən sonra Qran dayandı, həkimin pencəyinin düyməsindən tutdu və dili topuq vura-vura dedi:

– Yaxşı başa düşün, həkim. Söz seçmək çətin məsələdir. “Lakin” və “və” sözlərini bir-birindən ayırmaq asan işdir. Amma “və” sözü ilə “sonra” sözlərindən birini seçmək bir az çətindir. “Sonra” sözü ilə “sonra isə” sözlərini düzgün seçib işlətmək daha çətindir. Amma ən çətin məsələ “və” bağlayıcısının işlədilib-işlədilməməsinin vacibliyini bilməkdir.

– Elədir, başa düşürəm, – Ryö cavab verdi.

Ryö yoluna davam etdi. Qran əvvəl bir az duruxdu, sonra addımlayıb ona çatdı.

– Bağışlayın məni, heç bilmirəm bu axşam mənə nə olub, – o mızıldadı.

Ryö astaca Qranın kürəyinə vurub dedi ki, ona kömək etmək istəyir və yazdığı əsərə böyük maraq göstərir. Qran bir az ürəkləndi və evlərinə çatanda bir anlıq tərəddüddən sonra həkimi içəri dəvət etdi. Ryö razılaşdı.

Qran ona yemək otağındakı masanın arxasında yer göstərdi. Masanın üstü çox xırda hərflərlə yazılmış və

sətirlərin çoxu pozulmuş vərəqlərlə dolu idi. Qran həkimin maraqla baxdığını görüb dedi:

– Hə, yazdığım bunlardır. Amma əvvəlcə deyin görüm, bir şey içmək istəyirsinizmi? Evdə çaxırım var.

Ryö etiraz elədi, o, vərəqlərə baxırdı. Qran dedi:

– Ora baxmayın. Həmin vərəq ilk cümləmlə başlayır. Bu cümlə mənə çox əzab verib, hələ də əzab verir.

Qranın özü də gözlərini vərəqlərə dikmişdi. Sonra əlini uzadıb onlardan birini götürdü. Vərəqi abajursuz elektrik lampasına tərəf qaldırdı. Vərəq əlində titrəyirdi. Ryö gördü ki, Qranın alnı tərləyib. O dedi:

– Əyləşin. Oxuyun o vərəqi, qulaq asım.

Qran gülümsəyib çaşqın-çaşqın baxırdı.

– Hə, elə bu səhifəni sizə oxumaq istəyirəm.

O, vərəqə baxa-baxa bir az ləngidi və nəhayət, stula oturdu. Ryönün qulağına boğuq bir uğultu səsi gəlirdi və fikirləşirdi ki, bu səs göydə dolanan zavalın vıyıltısına cavab idi. Həmin anda həkimdə ağrılı bir duyğu oyanmışdı; aşağıda görünən bu qapalı şəhər, ah-naləlari gecənin qaranlığına qarışmış bu şəhər onun ürəyini sıxırdı. Elə bu vaxt Qranın səsi eşidildi: "Gözəl bir may səhəri, məlahətli bir Amazon qızı yaraşıqlı Amazon atının belində Bulon meşəsinin gül-çiçəkli xiyabanlarını gəzirdi. Araya sükut çökdü və bu sükutda əzab çəkən şəhərin hənirtisi eşidildi". Qran vərəqi masanın üstünə qoysa da, gözünü ondan çəkə bilmirdi. Bir az sonra başını qaldırıb soruşdu:

– Hə, necədir?

Ryö cavab verdi ki, başlanğıc maraqlı olduğundan gerisini də dinləmək yaxşı olardı. Qran isə bu fikirlə razılaşmadı, əlini kağızların üstünə qoyub dedi:

– Bu hələ ki təxmini variantdır. Təsəvvürümdəki mənzərəni olduğu kimi təsvir etməyə, cümlələrimin ritmini atın yorğa yerişinin rejiminə uyğunlaşdırmağa qadir olandan, bir-iki-üç, bir-iki-üç – ahəngini tutandan

sonra işim asanlaşacaq. Onda əsər elə gözəl olacaq ki, elə əvvəlini oxuyandan sonra "şlyapalarınızı çıxarın" deyə biləcəklər.

Amma bunun üçün Qran hələ çox çalışmalı idi. O heç razı ola bilməzdi ki, cümlələri bu vəziyyətdə naşir əlinə keçsin. Doğrudur, bəzən ilk cümlə onun xoşuna gəlirdi. Amma özü yaxşı bilirdi ki, təsvir hələ təsəvvürü tam əhatə edə bilməyib, cümlə asan bir dillə yazılıb və adi bir qəlibə düşüb. Qran beləcə danışdığı vaxt küçədə qaçışan adamların ayaq səsləri eşidildi. Ryö ayağa qalxdı.

"Görərsiniz bu yazını nə səviyyəyə qaldıracağam", – deyib Qran sözünü yekunlaşdırdı və pəncərə tərəfə baxıb əlavə elədi: "Əlbəttə, bütün bu əhvalat qurtarandan sonra".

Çöldə yenə də tələsik addım səsləri eşidilirdi. Ryö pilləkənləri düşdü və küçəyə çıxmaq istəyərkən qarşısından iki nəfər keçdi. Yəqin, bu adamlar şəhər darvazasına tərəf gedirdilər. İstidən və taun qorxusundan başını itirmiş bəziləri şəhər darvazalarına hücum çəkir, dava salır, şəhərdən çıxıb qaçmaq istəyirdilər.

***

Başqaları da, məsələn, elə Ramber kimiləri də bu qorxulu şəraitdən can qurtarmağa çalışırdılar. Amma beləl追 daha düzgün, daha uğurlu vasitələr arayırdılar. Ramber əvvəlcə rəsmi idarələrə get-gəlini davam etdirirdi. O, elə güman edirdi ki, güclü iradə ilə hər məqsədə nail olmaq mümkündür və əslində, elə onun peşəsi də dönməzliklə uğur qazanmaqdır. Ramber müxtəlif vəzifə sahibləri və səlahiyyətli adamlarla görüşmüşdü. Amma indi hiss etmişdi ki, səlahiyyətli adamların səlahiyyəti də işə yaramır. Buranın güclü adamları, əsasən, öz işini yaxşı və dəqiq bilən bank sahibləri, ixracat,

şərab ticarəti üzrə mütəxəssislər və başqaları idi. Təhsil haqqında diplomları bir yana, bu adamların hər biri hər cür iş bacarır və adətən, köməklərini əsirgəmirlər. Di gəl ki, belə adamlar da taun barədə heç bir söz deyə bilmirdilər.

Ramber hər imkandan istifadə edir, şəhərin görkəmli adamlarına öz dərdini açırdı. O, hamıya söyləyirdi ki, bu şəhərdə yad bir adam sayılır və onun ziddiyyəti nəzərə alınmalıdır. Jurnalistin müsahibləri də əksər halda onun fikri ilə razılaşırdılar. Eyni zamanda ona izah etməyə çalışırdılar ki, belə vəziyyətə düşmüş adamlar çoxdur və onun vəziyyətini istisna saymaq olmaz. Ramber deyə bilərdi ki, hər halda, ona güzəşt edə bilərlər, amma cavablarında eşidəcəkdi ki, bu, inzibati çətinliklər yaradar və çoxlarını həbsə salar. Ramberə həkim Ryödən aldığı cavaba bənzər cavablar verib özünə haqq qazandıranları rəsmiyyətçilər adlandırmaq olardı. Amma elələri də vardı ki, təsəlli verməyə çalışır, kömək üçün müraciət edənləri sakitləşdirirdilər ki, çətinlik müvəqqətidir, vəziyyət dəyişəcək. Ən məsul vəzifəli şəxslər isə nəzakətlə xahiş edirdilər ki, şikayətçi ərizə yazıb qoysun və ona kömək etməyə çalışacaqlar. Beləcə, Ramber qapılar döydükcə cürbəcür üzlər görürdü. Boşboğazlar ona yaşayış yeri və maddi yardım bürosunun köməyini təklif edir, bürokratlar şəxsi vərəqə doldurtdurur, kağızların arasına qoyur, səbirsizlər əllərini göyə qaldırır, imkansızlar üzlərini yana çevirirdilər. Amma bütün idarələrdə ən çox kök salmışlar başgirləyənlər idi; onlar Ramberə başqa bir idarə ünvanı verir, yaxud yeni bir təşəbbüs üçün məsləhət verirdilər.

Jurnalist idarələr gəzməkdən yorulmuşdu. O, indi bələdiyyə və prefekt idarələrinin işinə yaxşı bələd olmuşdu. Qapılarına bank vərəqələri, yaxud müstəmləkə ordusunda xidmətə çağıran afişalar yapışdırılmış rəis otaqlarının qarşısında oturub saatlarla gözləyəndə,

yaxud hər sualın cavabı, az qala, üzlərinə yazılmış idarə işçiləri ilə görüşdüyü anlarda çox şey öyrənmişdi. Ramber Ryö ilə söhbətində demişdi ki, bütün bu görüşlər onun ümumi vəziyyəti aydın görməsinə mane olur. Taunun getdikcə qol-qanad açması haqda dəqiq məlumatı yox idi. Həm də bu get-gəllər sayəsində günlər də tez keçirdi. Şəhərin düşdüyü vəziyyətdən belə bir nəticə çıxırdı ki, keçən hər gün sağ qalmış hər kəsi ölümə yaxınlaşdırır. Ryö boynuna almışdı ki, bu fikir doğru fikirdir, amma hər halda, hamıya aid ola bilməz.

Bir dəfə Ramberin arzusuna çatmaq ümidi artdı. Ona prefekt idarəsindən rəsmi bir anket göndərmiş və həmin vərəqdəki suallara dəqiq cavab yazmasını xahiş etmişdilər. Vərəqdə onun şəxsiyyəti, ailə vəziyyəti, keçmiş və indiki iqtisadi vəziyyəti, həm də həyat tərzi haqqında məlumat istəyirdilər. Ramberə elə gəlmişdi ki, buradakı vəziyyəti istisna təşkil elədiyinə görə öz daimi yaşayış yerinə qaytarılmasına imkan yaranıb. İdarələrin birindən aldığı tələsik bir məlumat onun ümidini daha da artırdı. Nəhayət, anket vərəqinin hansı bürodan göndərildiyini öyrənib ora müraciət edəndə ona dedilər ki, həmin anket “bir hadisə baş verə bilməsi ehtimalına görə doldurulur”.

“Nə hadisəsi?” – Ramber soruşmuşdu.

Ona izah eləmişdilər ki, əgər taun xəstəliyinə tutulsa və ölsə, bu məlumatlar lazım olacaq; əvvəla, ailə üzvlərinə xəbər vermək üçün, sonra isə xəstəxana xərclərinin şəhər büdcəsi, yaxud onun qohumları tərəfindən ödəniləcəyini dəqiqləşdirmək üçün. Əlbəttə, bu faktın özü sübut edirdi ki, Ramber sevgilisindən tamam ayrı düşməyib, cəmiyyət onların qeydinə qalır. Amma buna təsəlli demək olmazdı. Ramberin diqqətini daha çox cəlb edən cəhət bu idi ki, ağır faciə günlərində belə bəzi idarələr öz işini əvvəlki kimi davam etdirir. Həm də ki onlar indi yuxarıdan göstəriş almadan işləyirlər.

Sonrakı dövr Ramber üçün həm çox asan, həm də çox çətin bir dövr idi. O, əldən düşmüşdü. Bütün idarələrə baş çəkmiş, hər cür təşəbbüsə qoşulmuş və nəhayət, anlamışdı ki, çıxış yolu yoxdur. İndi kafeləri gəzməyə başlamışdı. Səhərlər kafelərdən birinin səkisində oturur, ılıq pivə içə-içə qəzetləri oxuyur, xəstəliyin yaxın vaxtda ovqatını öyrənmək üçün yol keçənlərin üzünə baxır və üzlərdəki qəm-qüssəni görüb üzünü yana çevirirdi. Üzünü yana çevirəndə isə mağaza vitrinlərinə vurulmuş reklamlarda adı çəkilən və özü yoxa çıxmış spirtli iştahaaçan içkilərin adlarını dönə-dönə oxuyandan sonra ayağa qalxır, şəhərin küçələrini dolanmağa başlayırdı. Beləcə, küçədən kafeyə, kafedən restorana keçə-keçə günü başa vururdu. Bir axşam Ryö onu kafelərdən birinin qarşısında gördü. Jurnalist qapı ağzında durmuşdu, içəri girməyə tərəddüd edirdi. Nəhayət, qərara gəlib içəri keçdi və küncdəki masalardan birinin arxasında oturdu. Həmin günlər kafelərdə də, xüsusi göstərişə görə, işığı mümkün qədər gec yandırmağa çalışırdılar. İçəri alaqaranlıq idi. Qüruba əyilmiş günəşin son şüalarından qızarmış səmanın əksi pəncərəyə düşür və masaların mərmər üstlüyünə zəif bir işıltı verirdi. Boş zalda Ramber qara bir kölgəyə bənzəyirdi və Ryö başa düşdü ki, o, dərin fikrə dalıb. Elə bu şəhərdə həbsə düşənlərin hamısı belə vəziyyətdədir və onları xilas etmək üçün çox iş görmək lazımdır. Ryö üzünü yana çevirdi.

Ramber vaxtının bir hissəsini də vağzalda keçirirdi. Dəmir yoluna açılan qapılar bağlanmışdı. Amma küçə tərəfdən gözləmə zallarına girmək olurdu. Zalların içi kölgəli və sərin olduğundan bəzən dilənçilər də bura gəlirdilər. Ramber bu zallarda qatarların keçmiş hərəkət cədvəlini, tüpürməyin qadağan olması haqqında qeydi, dəmiryol polisinin elanlarını dönə-dönə oxuyurdu. Sonra alaqaranlıq zalın bir küncündə otururdu. Aylar-

dan bəri işləməyən xidmət guşələrinə, Bandolda, yaxud Kannda gözəl istirahət təklif edən reklam şəkillərinə tamaşa edirdi. Bu kimsəsiz guşədə Ramber xəyala dalır, qəribə bir rahatlıq və azadlıq tapırdı. Ramber Ryöyə etiraf eləmişdi ki, xəyala dalıb yada saldığı yerlərin hamısından çox Parisi arzulayır. Bu şəhərin qədim daşlardan hörülmüş bir guşəsi, Pale-Ruayal meydanında dənlənən göyərçinlər, Şimal vağzalı, Panteon məhəlləsi, yada düşən başqa guşələr Ramberə rahatlıq vermir və bu şəhəri belə çox sevdiyini hələ indi anlayırdı. Ryö isə fikirləşirdi ki, Ramberin Parisə məhəbbəti sevdiyi qadına məhəbbəti ilə bağlıdır. Bir dəfə Ramber Ryöyə demişdi ki, səhər saat dörddə yuxudan oyanır, doğma şəhəri yada salır. Həkim isə öz təcrübəsindən bilirdi ki, həmin saatda bəzən kişi öz qadınına can atır. Bəli, saat dördə qədər ən ağır gecələrdə belə adam yatır. Sevən bir ürək isə rahatlığını ancaq öz sevgilisində tapa bilir və ona qovuşandan sonra ən dərin, ən şirin yuxuya gedə bilir.

***

Böyük kilsə yığıncağından bir neçə gün sonra istilər başladı. İyun ayı qurtarırdı. Bazar günü, kilsə yığıncağında yağan yağışdan bir gün sonra qəfildən isti yay günləri başladı. Əvvəlcə qaynar nəfəsli güclü bir külək bütün günü əsib şəhərin divarlarını qurutdu. Sonra günəşli günlər başladı. Bütün günü şəhərə, elə bil, od ələnirdi. Evdən və kölgəli küçələrdən çıxanda günəş şüaları adamın gözlərini qamaşdırırdı. Yayın ilk istiləri taundan qırılanların sayının artması ilə eyni vaxta təsadüf eləmişdi. Həftədə yeddi yüz adam ölürdü. Mərkəzlə ətraf arasındakı orta məhəllələrdə, adətən, adamların günü açıq havada, eyvanlarda keçirdi. İndi adamlar çölə çıxmır, üstəlik, qapı-pəncərəni də bərk-bərk

bağlayırdılar. Bilmək olmurdu: camaat istidən gizlənirdi, yoxsa taundan? Bəzi evlərdən iniltilər də eşidilirdi. Əvvəllər adamlar belə səslər eşidəndə ayaq saxlayıb maraqlanır, qulaq asırdılar. İndi isə, elə bil, hamının ürəyindən daş asılmışdı. Heç kim yan-yörədəki iniltilərə məhəl qoymur, bu səsləri adi danışıq dili sayırdılar.

Şəhər darvazalarında baş vermiş toqquşmalar vaxtı jandarmlar silaha əl atmalı olmuşdular və bir neçə adam yaralanmışdı. İstinin və qorxunun təsirindən başı qızmış sakinlər əhvalatı daha da şişirdir və danışırdılar ki, toqquşma vaxtı ölənlər də olub. Camaat arasında narazılıq getdikcə artdığından şəhər rəhbərliyi nigaranlıq keçirməyə başlamış, küylənmiş əhalinin üsyana qalxması ehtimalına qarşı lazımi tədbirlər görməyə başlamışdı. Qəzetlərdə qadağan saatları haqqında göstərişlər çap olundu və göstərişi pozanları həbs cəzası ilə hədələdilər. Şəhərdə patrullar dolanırdı. Bəzən gecələr kimsəsiz küçələrdə gözətçi atlarının ayaq səsləri eşidilir, atlılar bağlı pəncərələrin arası ilə keçib-gedirdilər. Gözətçilər keçəndən sonra şəhərin küçələrinə vahimə dolu bir sükut çökürdü. Şəhərdə təkəmseyrək güllə səsləri də eşidilirdi. Xüsusi silahlı dəstələr şəhərdə rast gələn it-pişiyi vurub yığırdılar ki, heyvanlar şəhərə birə yaymasınlar. Elə bu atəş səsləri də əhalinin həyəcanını artırırdı.

İstidən və sükutdan bezikmiş, həm də qorxu içində yaşayan şəhər camaatı hər adi şeyə böyük məna verməyə başlamışdı. Fəsil dəyişərkən səmanın rəngini və torpağın ətrinin dəyişdiyini bu il hamı duya bilmişdi. Hamı hiss edirdi ki, yay başlayıb və isti hava epidemiyanı daha da gücləndirəcək. Axşamlar şəhər üzərində uçuşan qaranquşların səsi də, elə bil, cırlaşmışdı. Bazara gətirilən güllərin də düyməsi tez açılırdı. Səhər satılan güllərin ləçəkləri tozlu səkilərə tökülürdü. Açıqca duyulurdu ki, bahar keçib və onun gətirdiyi güllər

istidən və taun qorxusundan solur, məhv olur. İndi bizim şəhər camaatı üçün mavi yay səması da, ürəksıxan tozlu küçələr də ölüm carçıları idi. Hər gün şəhərdə yüzdən çox adam ölürdü. İndi parlayan günəş adamları əvvəlki kimi çimərliklərə və istirahətə çağırmırdı. Əksinə, indi adamlar günəşdən də, həyatdan da gizlənirdilər. İndiki günəş şüaları əvvəlki xoşbəxt günlərin min rəngli şüalarına oxşamırdı. Taun günəşi təbiətin bütün rənglərini soldurmuş, insan şənliyini qara örpəyə bürümüşdü.

Bəli, xəstəlik böyük dəyişikliklər yaratmışdı. Əvvəllər bütün şəhər camaatı yayı sevinclə qarşılayırdı. Az qala, bütün şəhər dənizə axışır, çimərliklər gənclərlə dolurdu. Bu yay isə dənizdə çimmək qadağan olunmuş, adamlar dəniz sevincindən uzaq düşmüşdülər. Belə şəraitdə necə yaşayırdılar? Ömrümüzün həmin günlərinin ən dəqiq təsvirini Tarunun qeydlərində tapmaq olar. Çünki o, taunun yayılması və gedişini yaxşı izləyirdi. O qeyd eləmişdi ki, radio məlumatlarından aydın olur ki, taun qurbanları sayının həftədə yüzlərcə deyil, gündə doxsan iki, yüz yeddi, yaxud yüz iyirmi hesabı ilə deyildiyi günlərdən vəziyyətin dəyişdiyi məlum olmuşdu. Qəzetlər və şəhər rəhbərləri taun haqqında məlumatda hiyləgərlik işlədirlər. Onlara elə gəlir ki, həftəlik doqquz yüz on rəqəmi əvəzinə gündəlik yüz otuz rəqəmini verməklə sayı azaldır və vəziyyəti yüngülləşdirirlər. O, epidemiyanın törətdiyi qəribə əhvalatları da qələmə almışdı. Boşalmış məhəllələrdən birində tək yaşayan bir qadın gecəyarısı pəncərəsini açır, çölə nə isə qışqırır və yenidən pəncərəsini bağlayırmış. Taru həm də yazırdı ki, dükanlarda nanəli konfet qalmamışdı, çünki söz yayılmışdı ki, bu konfetlər yoluxmanın qarşısını alır.

Taru öz köhnə tanışları üzərində müşahidəsini də davam etdirmişdi. O yazırdı ki, adətən, pişiklərin

üstünə tüpürən qoca da pis vəziyyətə düşmüşdü. Güllə səsləri eşidilən səhər pişiklərin bir hissəsi qırılmış, qalanları isə qorxudan qaçıb gizlənmişdilər. Həmin gün qoca, adəti üzrə, eyvana çıxmış, pişikləri küçədə görməyib təəccüblənmiş, oyan-buyana boylanmış və eyvanda dayanıb gözləməyə başlayıbmış. Qoca əsəbi hərəkətlərlə eyvanın məhəccərini döyəcləyir, yeni kağız parçaları doğrayıb hazırlayırmış. O, bir neçə dəfə otağa girib, eyvana çıxıb, nəhayət, evə girib, qapı-pəncərəni acıqla bağlayıb. Sonrakı günlərdə eyni əhvalat təkrar olunub, amma qocanın sifətinin dəyişdiyi, qəm-qüssəyə batdığı açıqca duyulurmuş. Bir həftə sonra Taru qocanı çox gözləsə də, o, eyvana çıxmayıb. Sonra isə Taru öz gündəliyinə belə bir qeyd də əlavə edib: "Taun epidemiyası vaxtı pişiklərin üstünə tüpürmək qadağandır".

Tarunun tanışlarından biri də qonşuluqdakı gecə qarovulçusu idi. Hər axşam evə qayıdarkən Taru onunla rastlaşırdı. Kişi gecənin qaranlığında var-gəl edir və rast gələnlərə deyirdi ki, belə bir bəla baş verəcəyini o, əvvəlcədən duyubmuş. Taru kişinin, doğrudan da, belə bir söz demiş olduğunu etiraf eləyib və onun yadına salıb ki, xəstəlik yox, zəlzələ olacağını xəbər verirmiş. Qoca gözətçi cavabında deyib: "Elə kaş zəlzələ baş vermiş olaydı! Zəlzələ bir dəfə olur və qurtarıb gedir... Ölüləri, diriləri sayırlar, sonra söz-söhbət kəsilir. Amma bu xəstəlik çox səfeh şeydir. Xəstəliyə yoluxmayanlar da xəstəliyi ürəyində gəzdirir".

Mehmanxana müdirinin də vəziyyəti yaxşı deyildi. Əvvəllər şəhərin qonaqları şəhərdən çıxa bilmədiklərinə görə mehmanxanada qalırdılar. Elə ki epidemiya gücləndi və şəhərdən çıxmaq ümidi azaldı, çoxları dost-tanış evinə köçdü. Şəhərə yeni qonaqlar gəlmədiyindən otaqların çoxu boş qalmışdı. Mehmanxanada qalmış kirayənişinlərdən biri də Taru idi. Müdir onu

görəndə dil-ağız edir və deyirdi ki, burada qalmış müştərilərə dərin hörməti olmasa, mehmanxananı bağlayardı. Müdir tez-tez Tarudan epidemiyanın nə qədər çəkə biləcəyi ehtimalını soruşurdu. Taru isə belə cavab vermişdi: "Deyilənə görə, belə xəstəliklər soyuq düşəndə kəsilir". Müdir həyəcanlı səslə deyib: "Axı, cənab, bizdə heç vaxt əməlli-başlı soyuq olmur. Hər halda, hələ bir neçə ay çəkər... Müdir özü də yaxşı bilirdi ki, hələ bir neçə il buralara səfər edən olmayacaq. Taun turizmin kökünü baltalamışdı. Cənab Oton, yapalağa oxşayan kişi də bir müddət yoxa çıxandan sonra restorana gəlməyə başlamışdı. Amma indi arvadı ilə deyil, uşaqları ilə gəlirdi. Soruşub öyrəndilər ki, arvadın anası xəstələnib ölmüş, anasına qulluq elədiyinə görə özü karantindədir. Müdir Taruya demişdi: "Hər halda, yaxşı məsəl deyil. Arvadı karantində oldu-olmadı, onlardan uzaq gəzmək yaxşıdır.

Taru izah elədi ki, əgər belə fikirləşsələr, gərək hamıdan uzaq gəzələr, hamıdan çəkinələr. Müdir qəti etiraz elədi: "Yox, cənab, nə sizdən, nə də məndən çəkinmək lazımdır".

Taun getdikcə güclənsə də, cənab Otonun əhvalı dəyişmirdi. O, həmişəki kimi restorana girir, uşaqları ilə üz-üzə oturur, onlara tez-tez göstəriş verir, acıqlanırdı. Təkcə balaca oğlan bir az dəyişmişdi. O da bacısı kimi qara paltar geymiş və stula yapıxıb oturmuşdu. Elə bil, atasının kiçildilmiş əksi idi. Gecə nəzarətçisinin cənab Otondan xoşu gəlmirdi və o, bir dəfə Taruya demişdi: "Bu kişi elə öləndə də qara kostyumda öləcək. Onun meyitini dəfnə hazırlamağa ehtiyac qalmayacaq. Elə ölən kimi qəbrə qoyacaqlar, geyimi hazırdır".

Tarunun gündəliyində keşiş Panelunun möizəsi haqqında da qeydlər vardı. O yazırdı: "Onun coşmasının səbəbini başa düşürəm. Adətən, bəla gələndə də, sona çatanda da söz-söhbət başlayır. Bəla gələndə

köhnə adət hələ itməmiş olur, qurtaranda isə həmin adət bərpa olunur. Ancaq bədbəxtlik hökm sürdüyü vaxt adamlar şəraitə adət edir, yəni susmağı öyrənir. Gözləyək, görək nə olur?"

Taru həm də yazırdı ki, Ryö ilə uzun bir söhbət edib və həmin söhbət səmərəli olub. O, həkimin anası madam Ryönün gözlərinin açıq-qəhvəyi rəngi və bu gözlərdə duyulan hədsiz xeyirxahlıq hissinin taundan da güclü olmasını yazmışdı. Daha sonra isə həkim Ryönün müalicə etdiyi sinəgir qoca haqqında qeydlər gəlirdi.

Taru həmin qocanın görüşünə həkimlə söhbət etdiyi gün onunla birgə getmişdi. Qoca özünün iki noxud küpəsini balışın altına qoyub, dirsəklənib oturubmuş. O, Tarunu görən kimi bic-bic gülümsəyib və əllərini ovuşduraraq deyib: "Hə, biri də gəldi. Zəmanə dəyişib. İndi xəstədən çox həkim var. Deməli, vəziyyət ciddiləşir, eləmi? Keşiş düz deyib, hər kəs öz cəzasını çəkir".

Ertəsi gün Taru qocanın yanına tək gəlib.

Tarunun xatirə dəftərində yazıldığına görə, xəstə qoca əlli yaşına qədər xırdavatçılıq edib, əlli yaşa çatandan sonra isə belə qərara gəlib ki, işlədiyi bəsdir, yerinə uzanıb və daha ayağa qalxmayıb. Əslində isə sinəgirlik ayaq üstə olan xəstəyə daha az əzab verir. Özünün xırda gəliri ilə yetmiş beş yaşa çatmış qoca elə indi də qıvraq görünürdü. Ən çox acığı gələn şey isə saatdır, evində bir dənə də olsun saat yox idi. Onun dediyinə görə, saat həm bahadır, həm də əhəmiyyətsiz şeydir. O, vaxtı, əlalxüsus ən vacib saydığı yemək vaxtını küpələrdəki noxudlarla hesablayırdı. Yuxudan oyananda küpənin biri noxudla dolu olurdu. Sonra noxudları bir-bir səliqə və dəqiq hərəkətlə başqa küpəyə atır və vaxtı hesbalayırdı. O deyirdi: "Küpə on beş dəfə dolanda yeməyimin vaxtı çatır. Vaxtı hesablamaq asan işdir".

Arvadının dediyinə görə, bu kişi lap gənc yaşlarından öz xasiyyətini büruzə verib. O, heç vaxt heç nə ilə maraqlanmayıb; nə öz işinə, nə dostlarına, nə kafe əyləncələrinə, nə musiqiyə, nə qadınlara, nə də gəzintiyə həvəsi olub. O, yaşadığı şəhərdən də kənara çıxmayıb. Tək bircə dəfə ailə işlərinə görə Əlcəzair şəhərinə getməli olub. Onda da Orana yaxın vağzallardan birində dayanıb, şəhərə çıxa bilməyib və elə birinci qatarla da geri qayıdıb.

Tarunun belə bir həyat tərzinə təəccübləndiyini görəndə qoca izah etməyə çalışıb ki, dini əqidəyə görə, insan həyatının birinci hissəsi yoxuş, ikinci hissəsi isə enişdir. Ömrün eniş hissəsi insanın özündən asılı olmur, ömür gözlənilmədən qırıla bilər, belə bir vəziyyətdə heç nə etmək olmaz, elə ən yaxşısı budur ki, heç nə etməyəsən. Kişi heç çəkinmədən öz fikrinin əleyhinə də çıxırdı. Az sonra Taruya demişdi ki, Allah yoxdur, əgər Allah özü mövcud olsa, keşişlərə ehtiyac qalmazdı. Taru başa düşdü ki, bu fikir tez-tez yığılan dini ianələrə görə yaranıb. Qocanın şəxsiyyətində nəzərə çarpan cəhətlərdən biri də bu idi ki, hələ çox yaşamaq ümidində olduğunu tez-tez təkrar edirdi.

Taru öz-özündən soruşurdu: “Görəsən, bu qoca peyğəmbər deyil ki?” Sonra da sualına özü cavab verirdi: “Ola bilər, əgər peyğəmbərlik əqidəyə sadiqlikdirsə, o da peyğəmbərdir”.

Tarunun xatirə dəftərində nəzərə çarpan yazılardan biri də tauna tutulmuş şəhərin birgünlük həyatının və şəhər sakinlərinin həmin yay günündəki məşğuliyyətinin dəqiq təsviridir. “Adamlar ancaq əyyaşlara gülürlər, əyyaşların özləri isə hamıdan çox gülürlər”. Sonrakı təsvir isə belə davam edir: “Səhər tezdən şəhərin kimsəsiz küçələrində yüngül bir meh əsir. Həmin an, elə bil, gecə keçinənlərlə gündüz can verməyə hazırlaşanların arasında ötəri bir fasilədir, elə bil, taun bir

anlıq gücdən düşür və dayanıb nəfəsini dərir. Həmin vaxt bütün mağazalar bağlı olur. Bəzilərinin qapısına belə bir yazı da vurulur: "Tauna görə bağlıdır". Deməli, başqa dükanlar açılsa da, bu açılmayacaq. Qəzetsatanlar hələ yuxudadırlar, qəzetlərdəki yenilikləri qışqıra-qışqıra müştəri çağırmırlar. Küçələrin tinində, işıq dirəklərinin altında oturub mürgü vururlar. İndi tramvaylar hərəkətə gəlib səs-küy salan kimi onlar da ayılıb şəhərə yayılacaq, "taun" sözünün iri hərflərlə yazıldığı qəzetləri adamlara uzadacaqlar". Məqalə başlıqları diqqəti cəlb edir: "Builki payız taun payızı olacaqmı?" Professor B. belə cavab verib: "Xeyr". Taunun yayıldığı doxsan dördüncü gün ərzində yüz iyirmi dörd adam ölüb.

"Kağız çatışmazlığı getdikcə daha çox duyulsa da, bəzi qəzetlər öz həcmini kiçiltməli olsa da, "Epidemiya xəbərləri" adlı yeni bir qəzet meydana çıxmışdı. Qəzetin vəzifəsi belə izah olunurdu: "Qəzetin məqsədi xəstəliyin çoxalması və azalması haqqında dəqiq məlumatları əhaliyə çatdırmaq, epidemiyanın gələcəyi barədə xəbər vermək, xəstəliyə qarşı mübarizə aparmağa hazır olan hər kəslə əlaqə yaratmaq, əhalini mənəvi düşkünlükdən qorumaq, rəhbərliyin qərarlarını yaymaq, bir sözlə, düçar olduğumuz bəlaya qarşı mübarizə səylərini birləşdirməkdir". Elə, əslində də, çox keçməmiş həmin qəzet taunun qarşısını ala bilən ərzaq növləri haqda məlumatlar verməyə başladı.

"Səhər saat altıdan, qəzet köşklərinin açılmasına bir saat qalmış növbə yaranır, qəzetlər əvvəlcə köşklərdə, sonra isə şəhər ətrafına işləyən tramvaylarda satılır. Tramvay şəhərin yeganə nəqliyyat vasitəsinə dönüb və pilləkənlərinə qədər adamla dolu olduğundan çox ləng hərəkət edir. Qəribə burasıdır ki, sərnişinlərin hamısı yoluxmanın qarşısını almaq üçün bir-birinə arxasını çevirir. Dayanacaqlarda yerə tökülən kişi və qadınların hərəsi bir yana qaçır, adamlardan aralı düşməyə tələ-

sirlər. Əsəbləri gərilmiş adamlar arasında savaşanlar da olur".

"Tramvaylar hərəkətə başlayandan sonra şəhər yavaş-yavaş yuxudan ayılır, kafelərin bəziləri açılır. Amma bu kafelərdə də belə elanlar gözə çarpır: "Qəhvə yoxdur", "Özünüzlə qənd gətirin" və i. a. Sonra dükanlar açılır və küçələr cana gəlir. Hava açıldıqca gün qızır və qızmar iyul günü başlayır. İşi-gücü olmayanlar bu vaxt bulvarda gəzməyə çıxırlar. Elə bil, öz arxayınlıqları ilə tauna acıq vermək istəyirlər. Hər gün saat on birdə mərkəzi küçələr gənc qadın və kişilərlə dolu olur. Bu adamların yaşamaq həvəsi xəstəliyə meydan oxuyur. Epidemiya yayıldıqca həyat eşqi, ehtiras da artır".

"Günortaçağı restoranlar bircə anda adamla dolur. Çox keçməmiş qapı ağzında növbə gözləyənlər dəstəsi yaranır. Günün istisindən hava tutqunlaşır. Yemək növbəsi gözləyənlər restoranların qarşısındakı kölgəliklərin altına yığılır, qızmar günəşdən qorunurlar. Adamların çoxu ərzaq tədarükündən yaxa qurtarmaq üçün restoranlara axışır. Amma burada yoluxma qorxusu daha çoxdur. Müştərilər qarşılarındakı boşqabları uzun-uzadı silib-təmizləməli olurlar. Bir neçə gün əvvəl bəzi restoranlar müştəriləri şirnikləndirmək üçün belə bir elan yazırdı: "Buradakı qablar qaynadılıb". Sonralar belə elanlara ehtiyac qalmadı, çünki müştəri, onsuz da, çoxalmışdı. Həm də ki indi müştərilər xəsislik etmirlər. Əla növ şərablar, yaxud əla növ əvəzinə satılan içkilər baha da olsa, yaxşı satılır. Qiymətlər də qalxmağa başlayıb. Restoranların birində adamlar qorxuya düşüb. Çünki müştərilərdən biri masa arxasında özünü pis hiss edib, rəngi saralıb və səndələyə-səndələyə qapıdan çıxmağa tələsib".

"Saat ikiyə yaxın adamlar küçələrdən çəkilir və küçələr sükutun, tozun, günəş və taunun görüş yerinə

çevrilir. İri boz binaların arasından küçələrə od-alov yağır. Günün bu çağında evdən çıxa bilməyən camaat axşam hava hələ sərinləşməmiş küçələrə yayılır. İstilərin başladığı ilk günlərdə axşamlar da küçələrdə adam az olurdu. İndi isə axşam düşən kimi, elə bil, adamların həyat ümidi artırdı. Onlar küçələrə çıxır, söhbət edir, savaşır, barışır, qırmızı səmalı iyul axşamını başa vurur, qızmar gecənin qaranlığına qovuşurlar. Hər axşam bulvarda gəzişən, əli əsalı, başı şlyapalı bir qoca nahaq yerə boğazına güc gəlib qışqırırdı: "Tanrı böyükdür, ona üz tutun". Adamlar isə yaxşı bələd olduqları, yaxud Tanrıdan da vacib saydıqları əməllərin arxasınca qaçışırlar. Əvvəllər bu bəlanı adi bir xəstəlik hesab etdikləri vaxt adamlar dinə inanırdılar. Elə ki gördülər məsələ çox ciddidir, başladılar həyatın şirinliyini yada salmağa. Gündüzlər adamların üzünə çökmüş qüssə kölgəsi axşamlar yoxa çıxır, tozlu və qızmar küçələrdə coşqun, sərbəst, əyləncəli bir həyat başlayır".

"Elə mən də başqaları kimi yaşayıram. Bəli! Mənim kimilər ölümdən qorxmurlar. Bunu büruzə vermək üçün yaxşı imkan yaranıb".

***

Taru gündəliyində Ryö ilə görüşündən yazmışdı və Ryö ilə görüşləri onun özü xahiş eləmişdi. Həkim evdə Tarunu gözlədiyi vaxt otağın küncündə kətil üstündə oturmuş anasına tamaşa edirdi. Anası ev işlərini qurtarıb bikar qalanda həmişə eyni yerdə otururdu. O, əllərini dizləri üstünə qoyub sakitcə gözləyirdi. Ryöyə elə gəlirdi ki, anası beləcə oturub gözləyəndə tək onun yolunu gözləmir. Amma duyurdu ki, o, evə girəndə anasının sifəti işıqlanır, ömrünü ev işləri ilə keçirmiş bu qarının sakit sifətində bir canlanma duyulur. Həmin axşam Ryönün anası pəncərədən çölə, kimsəsiz küçə-

yə baxırdı. Küçə işıqlarının sayını ikiqat azaltmışdılar. Zəif işıqlı seyrək küçə lampaları şəhərin küçələrini çox pis işıqlandırırdı. Madam Ryö soruşdu:

– Görəsən, taun qurtarınca işığa belə qənaət edəcəklər?

– Yəqin, belə olacaq.

– Kaş ki qışa qədər xəstəlik qurtaraydı. Qışda belə işıq adamı bədbinləşdirər.

– Hə, elədir, – Ryö cavab verdi.

Sonra həkim duydu ki, anası gözünü onun üzünə zilləyib. Həkim özü də duyurdu ki, son günlər çox işlədiyinə görə ovurdları çöküb.

– Deyəsən, bu gün işlərin düz gətirməyib, – anası soruşdu.

– Hə! Elə həmişəki kimi.

Həmişəki kimi! Həkim demək istəyirdi ki, Parisdən göndərilən serum dərmanı əvvəlkilərdən də zəif çıxıb, ölənlərin sayı getdikcə artır. Hələ də kütləvi serum iynəsi vurmaq imkanı yox idi. Ancaq xəstəlik düşmüş ailələrin üzvlərinə iynə vurulurdu. Hamıya iynə vurmaq üçün çoxlu dərman lazım idi. Bəzi xəstələrin şişləri elə bərkiyirdi ki, çərtmək olmurdu və belə şişlər xəstələrə əzab verirdi. Son günlər iki xəstədə epidemiyanın yeni bir forması aşkar olunmuşdu. Taunun ağciyər forması üzə çıxmışdı. Elə birinci günün yığıncağında həkimlər başını itirmiş prefekt rəisinə yeni qorunma qaydaları haqqında qərar qəbul etdirdilər. Bu qaydalara əsasən, xəstəliyin ağızdan yoluxması və ağciyər formasına qarşı tədbirlər görülməli idi. Həmişəki kimi indi də hamı çaşıb-qalmışdı.

Həkim anasına baxdı. Anasının qonur gözləri mehribanlıqla onu süzdü.

– Qorxmursan ki, ana?

– Mənim yaşımda adamlar qorxaq olmurlar.

– Günlər uzanıb, mən isə bütün günü çöldə oluram.

– Evə qayıdacağını biləndə gözləyirəm, az, ya çox gözləməyin dəxli yoxdur. Arvadından bir xəbər varmı?

– Hə, axırıncı teleqramda yazdığına görə, hər şey yaxşıdır. Bilirəm ki, məni arxayın eləmək üçün belə yazıb.

Qapının zəngi çalındı. Həkim gülümsədi və anası gedib qapını açdı. Qapının ağzındakı alaqaranlıqda Taru irigövdəli boz ayıya oxşayırdı. Ryö qonağına yazı masasının arxasında yer göstərdi, özü isə kreslonun arxasında ayaq üstə qaldı. Otaqdakı yeganə lampa da masanın üstündə, onların ikisinin arasında idi.

Taru birbaş mətləbə keçdi.

– Bilirəm ki, sizinlə açıq danışmaq olar.

Həkim onun dediklərini başı ilə təsdiqlədi.

– On beş gün, fikir verin, düz on beş gün, yaxud bir aydan sonra burada sizə ehtiyac olmayacaq. Məsələ elə ciddiləşib ki, sizin imkanlarınız heçə enir.

– Doğrudur, – həkim onun fikrini bölüşdü.

– Səhiyyə xidməti pisdir. Sizin vaxtınız çatmır və köməkçiləriniz də yoxdur.

Ryö bu fikri də təsdiqlədi.

– Xəbər tutmuşam ki, prefekt idarəsi işə yarayan adamları cəlb edib xilasetmə dəstələri yaratmaq istəyir.

– Bu da düzgün xəbərdir. Amma narazılıq edən çoxdur və prefekt rəisi tərəddüd edir.

– Bəlkə, könüllülər dəstəsi yaratmaq daha yaxşı olar?

– Könüllülər də çağırılıb, amma onların sayı azdır.

– Çünki könüllülər rəsmi yolla və inamsız çağırılıb. Təşəbbüskarların özləri iş bacarmırlar. Çünki özlərini bəladan uzaq sayırlar. Tapdıqları dərmanlarla heç zökəmi də müalicə etmək olmaz. Belə getsə, onların özləri də, biz də qırılacağıq.

– Ola bilər, – Ryö cavab verdi. – Amma onlar məhbuslar haqqında da fikirləşiblər. Ağır işlərdə məhbuslardan istifadə etmək istəyirlər.

– Mən istərdim, belə işlər azad adamlara tapşırılsın.

– Mən də belə istərdim. Yaxşı, bəs siz niyə belə fikirləşirsiniz?

– Məhbusların yenidən ölümə məhkum olunması mənə ağır gəlir.

Ryö Taruya baxıb soruşdu:

– Bəs nə məsləhət görürsünüz?

– Könüllü səhiyyə dəstələri yaratmaq üçün plan hazırlamışam. Bu işi mənə həvalə edin və şəhər rəhbərliyinə toxunmayaq, onların işi, onsuz da, çoxdur. Mənim dostlarım birinci dəstəyə qoşulurlar. Mən də onların arasında olacağam.

– Siz özünüz də yaxşı bilirsiniz ki, belə təklifi məmnuniyyətlə qəbul etməliyəm. Bizim sənətimizin belə vəziyyətdə köməyə ehtiyacı olur. Mən danışıb prefekt idarəsini razı salaram. Əslində, heç onların başqa çarəsi də yoxdur. Amma...

Ryö bir az fikirləşib sözünə davam elədi:

– Amma özünüz yaxşı bilirsiniz ki, bu işdə ölüm qorxusu var. Hər halda, sizi xəbərdar etmək borcumdur. Yaxşı götür-qoy eləmisinizmi?

Taru qonur gözlərini ona zilləyib sakit-sakit baxırdı:

– Həkim, Panelunun moizəsi haqda nə fikirdəsiniz?

Sual təbii idi və Ryö də təbii bir səslə cavab verdi:

– Ömrümün çoxu xəstəxanalarda keçib və ümumi cəza fikri mənə tanışdır. Amma bilirsinizmi, xristianlar hərdən belə danışsalar da, əslində, heç vaxt belə fikirləşmirlər. Onların fikirləri sözlərindən yaxşı olur.

– Hər halda, siz də Panelu kimi fikirləşirsiniz ki, taunun yaxşı cəhətləri də var, o, adamların gözünü açır, onları fikirləşməyə məcbur edir!

Həkim səbirsizliklə başını yellədi.

– Elə bütün bəşəri xəstəliklər belədir. Bütün başqa bəlalar necədirsə, taun elədir. Doğrudur, bəla bəzilərinə dərs ola bilər. Amma bəlanın gətirdiyi ağrı-acını

görəndən sonra ancaq dəli, kor, yaxud qorxaq adamlar tauna təslim ola bilər.

Ryö səsini azacıq qaldırmışdısa da, Taru gülümsəyə-gülümsəyə onu sakitləşdirmək istədi.

– Yaxşı, – Ryö çiyinlərini çəkdi. – Amma siz mənə cavab vermədiniz. Yaxşı fikirləşmisinizmi?

Kreslosunda qurdalanan Taru başını irəliyə, işığa tərəf uzatdı.

– Həkim, siz Allaha inanırsınız?

Bu dəfə də sual təbii sual idi, amma cavabında həkim tərəddüd edirdi.

– Xeyr, heç bilmirəm necə izah edim? Mənə elə gəlir ki, qaranlığa düşmüşəm və bu qaranlığın içindəkiləri görmək istəyirəm. Bu məsələlərə marağım çoxdan sönüb.

– Sizi Paneludan fərqləndirən cəhət də məhz elə budurmu?

– Ağlım kəsmir. Panelu dini təlim edir. O, can verən adamları az görüb və buna görə də ancaq haqqın adından danışır. Kənd kilsəsində günahkarları qəbul edib dinləyən və can verənlərin başı üstə duran hər bir keşiş elə mənim kimi fikirləşir. Belə adamlar bəlanın mənasını aramazdan əvvəl ona çarə qılmağa çalışırlar.

Ryö ayağa qalxdı. İndi onun üzünə işıq düşmür, sifəti görünmürdü.

– Yaxşı, indi ki sualıma cavab vermək istəmədiniz, qalsın.

Taru kreslosundan tərpənmədən gülümsədi.

– Olarmı sualınıza sualla cavab verim?

Ryö də gülümsədi:

– Görürəm, sirr saxlamağı sevirsiniz. Deyin gəlsin.

– Yaxşı, deyin görək, indi ki Allaha inanmırsınız, bəs nə üçün həmişə xeyirxahlıq etməyə çalışırsınız? Bəlkə, sizin cavabınız mənim də cavab tapmağıma kömək elədi.

Ryö işığa sarı gəlmədən dedi ki, o artıq bu suala yetərincə cavab verib. Əgər o, hər şeyə qadir olan bir Allaha inanmış olsa, xəstələri müalicə etməz və onları Allahın ixtiyarına verərdi. Allaha inandığını güman edənlərin heç biri, lap Panelunun özü də tam inama malik deyil. Heç kəs özünü bütünlüklə Allahın ixtiyarına vermir. Ryönün özü isə daha düzgün yol seçdiyini güman edir, o, bəlaya qarşı mübarizə aparır.

– Hə! – Taru dilləndi. – Deməli, sizin öz sənətiniz haqqında fikriniz belədir?

– Demək olar ki, belədir, – Ryö otağın işıqlı küncünə tərəf addımladı.

Taru astaca fit çaldı, həkim ona baxıb sözünə davam etdi.

– Bəli, düşünürsünüz ki, qürurdan belə danışıram. Amma inanın ki, qürurum lazım olandan heç də artıq deyil. Başıma nələr gələcəyini və bu əhvalatdan sonra nələr olacağını bilmirəm. Hələlik bircə bunu anlayıram ki, xəstələri müalicə etmək lazımdır. Sonra xəstələr də, mən də olub-keçənləri fikirləşəcəyik. İndi isə ən vacib məsələ xəstələrin müalicəsidir. Mən də onları bacardığım kimi qoruyuram, vəssalam.

– Soruşa bilərəmmi kimdən qoruyursunuz?

Ryö pəncərəyə tərəf çevrildi. Heç nə görməsə də, aralıda qaranlıq üfüqə qarışmış dənizin pıçıltısını eşidirdi. Hiss edirdi ki, yorulub və eyni vaxtda özünün qəribə, mehriban müsahibi ilə səmimi söhbətə girişmək niyyətini üəyindən qova, başından çıxara bilmirdi.

– Bilmirəm. Kimdən qoruduğumu bilmirəm, inanın mənə. Taru, and içirəm ki, bilmirəm. Heç bu sənəti necə seçdiyimi də bilmirəm. Bir yaş həddi var, bütün gənclər bu həddə çatanda artıq peşə seçirlər, mənim də payıma belə bir peşə düşüb. Bəlkə də, mənim kimi bir adam, bir fəhlə oğlu üçün daha çətin bir iş olduğundan qismətimə düşüb. Sonra can verənləri görməli

oldum. Bəzi adamlar ölümə etiraz edirlər. Can verən bir qadının: "Yox, getmərəm", – bağırdığını heç eşitmisiniz? Mən isə eşitmişəm. Əvvəl mənə elə gəlirdi ki, adət edə bilmərəm. Onda gənc idim və bütün günahı həyatın qanunlarında görürdüm. Sonra yavaş-yavaş yumşaldım. Amma yenə də can verən adamlara laqeydliklə baxa bilmirəm. Daha nə deyim. Amma hər halda...

Ryö sözünü yarımçıq kəsib yerində oturdu. Ona elə gəlirdi ki, boğazı quruyub.

– Hər halda, nə? – Taru astaca soruşdu.

Ryö diqqətlə Taruya baxdı, sonra çaşqın şəkildə sözünə davam elədi.

– Hər halda... zənnimcə, bu söhbəti sizin kimi bir adam anlaya bilər. Bir halda ki həyat məsələsini ölüm həll edir, bəlkə, elə Allahın özünə də sərf edər ki, adamlar ona inanmasın, əllərini göyə açıb kömək gözləməkdənsə, var qüvvələrini toplayıb ölümlə mübarizəyə atılsınlar. Biçarələr.

– Bəli, başa düşürəm. Amma sizin qələbələriniz həmişə müvəqqəti qələbələr olacaq, vəssalam.

Ryö kiriyirdi, sözü ağzından çıxarmaqda çətinlik çəkirdi:

– Bilirəm, həmişə elə olacaq. Amma mübarizəni dayandırmaq üçün bu da bir əsas deyil.

– Doğrudur, mübarizəni dayandırmaq olmaz. Amma bu tauna görə düşdüyünüz vəziyyəti də təsəvvür edirəm.

– Bəli, ağır məğlubiyyətdir.

Taru bir müddət həkimə baxdı, sonra ayağa qalxıb qapıya sarı addımladı. Ryö də onun arxasınca getdi. Həkim yaxınlaşanda Taru gözlərini döşəməyə dikib dedi:

– Bütün bunları kimdən öyrənmisiniz, həkim?

Həkim fikirləşmədən cavab verdi:

– Əzab-əziyyətdən.

Ryö otağının qapısını açıb dəhlizə çıxanda Taruya dedi ki, o da aşağı enir, ətraf məhəllədəki xəstələrdən birinə baş çəkməlidir. Taru onunla getmək istədiyini bildirdi və həkim razılaşdı. Dəhlizin qurtaracağında madam Ryö onların qarşısına çıxdı və Ryö Tarunu anasına təqdim etdi:

– Dostumdur.

– Hə! Çox gözəl, sizinlə tanış olmağıma şadam.

Ryönün anası keçib gedəndə Taru bir də çevrilib ona baxdı. Qapıdan çıxanda Ryö pilləkənin işığını yandırmaq istədi. Adətən, düyməsi basılandan bir dəqiqə sonra sönən bu işıq da yanmadı. Pilləkən zil qaranlıq idi. Ryö fikirləşdi ki, yəqin, pilləkən işıqlarını da qənaət məqsədi ilə kəsiblər. Bilmək olmazdı, çünki son vaxtlar evlərdə də, küçələrdə də hər şey xarab olurdu. Bəlkə də, ev xidmətçiləri və şəhər sakinləri hər şeyə biganə yanaşmağa başlayıblar. Həkimin başqa səbəb aramağa vaxtı qalmadı, arxadan Tarunun səsi eşidildi:

– Həkim, gülünc görünsə də, yenə də bir söz demək istəyirəm. Demək istəyirəm ki, siz tamamilə haqlısınız.

Ryö qaranlıqda çiyinlərini çəkdi:

– Düzü, mən özüm heç nə deyə bilmərəm. Yaxşı, bəs siz özünüz bu barədə nə bilirsiniz?

Taru cavab verdi:

– Eh! Məndən çox şey öyrənmək olmaz.

Həkim dayandı və arxada Tarunun ayağı sürüşdü. O səndələyib Ryönün çiynindən tutdu.

Ryö soruşdu:

– Sizə elə gəlir ki, həyatın hər üzünə bələdsiniz?

Qaranlıqdan Tarunun sakit səsi eşidildi:

– Bəli.

Onlar küçəyə çıxanda hiss etdilər ki, gecədən xeyli keçibmiş, saat on bir olardı. Şəhərə sükut çökmüşdü.

Lap uzaqdan bir "təcili yardım" maşınının səsi eşidilirdi. Onlar maşına mindilər və Ryö mühərriki işə saldı. Taruya dedi:

– Gərək sabah xəstəxanaya gəlib yoluxmaya qarşı iynə vurdurasınız. Bu işə girişməmişdən əvvəl bilməlisiniz ki, sağ qalmaq imkanınız üçdəbirdir.

– Həkim, siz özünüz də yaxşı bilirsiniz ki, bu xəbərdarlıqların əhəmiyyəti yoxdur. Yüz il əvvəl bir İran şəhərinin bütün əhalisi taundan qırılıb. Ancaq şəhərin mürdəşiri sağ qalıb və axıra qədər öz peşəsinə xidmət edib.

– Sadəcə, onun bəxti gətirib, üçdəbir imkan baş tutub, – həkim təmkinli səslə cavab verdi. – Əslinə qalsa, həyatın bu sirləri haqqında hamımız çox az şey bilirik.

Onlar kənar məhəlləyə çatdılar. Maşının işığı kimsəsiz küçələri işığa qərq edirdi. Maşın dayandı. Həkim Tarudan soruşdu ki, xəstənin yanına getmək istəyirmi? Taru cavab verdi ki, istəyir. Maşından düşəndə üzlərinə azacıq işıq düşdü.

Ryö qəfildən dostyana gülüb soruşdu:

– Yaxşı, Taru, axı sizi bu işə qoşulmağa nə vadar edir?

– Bilmirəm. Bəlkə də, daxili hisslərim vadar edir.

– Hansı hissdir o elə?

– Anlamaq hissi.

Taru üzünü yana çevirdi və sinəgir qocanın mənzilinə girənə qədər həkim onun sifətini görə bilmədi.

***

Elə ertəsi gündən Taru işə başladı, birinci kömək dəstəsini təşkil etdi və həmin dəstədən sonra çoxlu başqa dəstə də yarandı.

Bu sanitar dəstələrinə öz dəyərindən artıq əhəmiy-

yət vermək fikrimiz yoxdur. Əslində isə bu gün şəhər sakinlərinin çoxu onların əhəmiyyətini şişirtməyə çalışır. Əhvalatı söyləyən şəxs isə belə fikirdədir ki, xeyirxah təşəbbüslərin əhəmiyyətini şişirtməklə bu təşəbbüslərə səbəb olmuş bəlanın gücünü və əhəmiyyətini də istər-istəməz şişirtmiş olar. Belə bir təsəvvür yaranar ki, gözəl təşəbbüslər az olur, məcburiyyətdən yaranır, insanların fəaliyyətində qəddarlıq və biganəlik daha çox gözə çarpır. Mən belə bir fikirlə razılaşa bilmərəm. Dünyadakı bütün bədxahlıqlar nadanlıqdan yaranır. Elə xeyirxahlığın özü anlaşılmayanda bədxahlıqdan da pis nəticə verə bilər. İnsan təbiətində xeyir şərdən güclüdür, amma əsas məsələ bunda deyil. Məsələ ondadır ki, adamlarda az, ya çox nadanlıq olur və əsl nadanlar özlərini çoxbilmiş sayırlar. Hər cür bəla və bədxahlıqlar, insan öldürmək qərarı da nadanlıqdan doğur. Caninin qəlbi işıqsız və kor olur. Gözü həyat işığı və qəlbi nurla dolmamış bir adamdan nə xoş əməl, nə də əsl məhəbbət gözləmək olar.

Elə buna görə də Tarunun yaratdığı sanitar dəstələrin əhəmiyyəti haqqında ancaq həqiqi söz deyilməlidir. Həmin dəstələri əhəmiyyətsiz sözçülüklə tərifləyib göylərə qaldırmaq fikrində deyilik. Amma taunun əzab verib parçaladığı ürəklərin tarixçisi kimi şərhimizi davam etdirəcəyik.

Elə əslində də, könüllü sanitar dəstələrinə qoşulanlar böyük tariflərə layiq deyildilər. Çünki onların başqa çarəsi yox idi və bu dəstələrə qoşulmamaq mümkün deyildi. Bu adamlar şəhər sakinlərini inandırmağa çalışırdılar ki, taunun hər qapını döyməsini gözləmək lazım deyil və ümumi bəlaya qarşı mübarizə tədbirlərinə hamı qoşulmalıdır. Çünki taun artıq öz sifətini göstərmiş, hamını hədə altına almışdı.

Bu, yaxşı məsələdir. Amma iki dəfə ikinin dörd olduğunu təlim etdiyi üçün müəllimi tərifləməzlər.

Bəlkə də, müəllimi belə gözəl bir peşə seçdiyinə görə tərifləmək lazımdır. Deyək ki, Taru və başqaları da iki dəfə ikinin üç deyil, dörd olduğunu söyləməklə xeyirxahlıq edirlər. Onu da deyək ki, onların bu fəaliyyəti müəllimin və müəllim təbiətli bütün başqalarının fəaliyyəti ilə eynidir. Çox şükür ki, belə adamlar təsəvvür etdiyimizdən də çoxdur. Hər halda, mən belə fikirləşirəm. Mənə irad tuta bilərlər ki, axı elə anlar olur iki dəfə ikinin dörd olduğunu söyləyənləri ölüm cəzası gözləyir. Müəllim də bunu yaxşı bilir. Məsələ iki dəfə ikinin, doğrudan da, dörd olub-olmadığına inanmaqdadır. Ölüm hədəsi altına düşmüş şəhər sakinləri də taunun pəncəsində olub-olmadıqlarını bilməli və bu bəlaya qarşı mübarizəni qərarlaşdırmalı idilər.

Həmin vaxt şəhərimizdə çoxlu yeni təlimçilər meydana çıxmış və şayiə yaymışdılar ki, heç bir cəhdin xeyri yoxdur, bəlaya təslim olmaq lazımdır. Taru, Ryö və onların dostları şayiələrə cavab verir və hər dəfə belə qəti bir qərar çıxarırdılar ki, nə yolla olursa olsun, mübarizə aparmaq və təslim olmamaq lazımdır. Mümkün qədər çalışıb insan ölümünün və əbədi ayrılığın qarşısını almaq gərəkdir. Bunlara nail olmaq üçün taunu məğlub etmək lazım idi. Acı da olsa, həqiqət belə idi.

Elə buna görə də bütün qüvvə və bacarığını sərf edən qoca Kastel elə buradaca, əldə olan vasitələrin köməyi ilə yoluxma əleyhinə yeni vaksin iynəsi hazırlamağa çalışırdı. Ryö də onunla birgə ümid edirdi ki, şəhərdə yayılmış taunun öz mikrobundan istifadə edib daha səmərəli yeni bir vaksin iynəsi yaratmaq olar. Çünki hazırkı taun mikrobu elmə məlum olan taun mikrobundan azacıq da olsa fərqlənirdi. Kastel ümid edirdi ki, sınaq maddəsini yaxın vaxtda hasil edə biləcək.

Heç vaxt qəhrəmanlıq iddiasında olmamış Qran isə sanitar dəstələri birliyinin katiblik işini öz öhdəsinə götürmüşdü. Tarunun yaratdığı dəstələrdən bəziləri

əhali sıx olan məhəllələrdə yoluxmanın qarşısını almaq üçün tədbirlərdə iştirak edirdilər. Onlar təmizliyin qorunmasına nəzarət edir, dərmanlanmamış dam və zirzəmiləri siyahıya alırdılar. Başqa dəstələrin üzvləri isə evlərə gedən həkimləri müşayiət edir, taunlu xəstələri daşıyır, lazım gəlsə, mütəxəssis çatışmayanda xəstələri, yaxud ölüləri aparan maşınları idarə etməli olurdular. Bütün bu işlər üçün tələb olunan qeydiyyat və siyahılaşdırma işləri ilə Qran məşğul olurdu.

Bizə elə gəlir ki, Ryö, yaxud Tarudan fərqli olaraq Qran kimi bir adam könüllü sanitar dəstələrinə qoşulmuş fədailəri daha yaxşı təmsil edirdi. O, sanitar dəstəsinə qoşulmağa tərəddüdsüz razılıq vermiş və bu işə öz iradəsi ilə qoşulmuşdu. Özü də bir şərt qoymuşdu ki, ancaq xırda işlərlə məşğul olacaq. Yaşı çox olduğundan ağır işlərə qoşula bilməzdi. Axşam saat altıdan saat səkkizə qədər özünü bu işə həsr edə bilərdi. Ryö mehribanlıqla ona təşəkkür elədikdə isə Qran təəccüblənib demişdi: "Burada nə var ki? Şəhərə taun yayılıb, gərək biz də özümüzü müdafiə edək, aydın məsələdir. Eh! Kaş elə bütün məsələlər belə aydın olaydı!" Bəzən axşamlar Qran qeydiyyat işlərini qurtarandan sonra Ryö onunla söhbət edirdi. Sonra Taru da onların söhbətinə qoşulmağa başladı. Qran onların ikisinə də ürək qızdırırdı. Ryö ilə Taru isə taunun aləmi qarışdırdığı bir vaxtda Qranın səbirlə davam etdirdiyi yaradıcılığına xüsusi maraq göstərirdilər. Əslində, gərginlikdən yaxa qurtarmaq istəyəndə də onlar bu mövzuya keçirdilər.

Hərdən Taru Qrandan soruşurdu:

– Hə, Amazon qız necədir?

Qran isə sıxıntılı təbəssümlə həmişə eyni cavabı verirdi:

– Qız at belindədir, at çapır.

Bir axşam Qran dedi ki, Amazon qızın təsvirində işlətdiyi "yaraşıqlı" sözünü "şux qamətli" ifadəsi ilə

əvəz etməyi qərara alıb. "Bu ifadə ilə daha aydın təsəvvür yaranır", – deyə o, özünə haqq qazandırmışdı. Sonrakı axşam isə o, düzəliş verdiyi ilk cümləni Ryö ilə Taruya oxudu: "Gözəl bir may səhəri əla bir Amazon atına minmiş şux qamətli Amazon qızı Bulon meşəsinin gül-çiçəkli xiyabanlarını dolanırdı".

– Belə yaxşı deyil? İndi daha aydın təsəvvür yaranır. "May ayının bir səhəri" ifadəsini "bir may səhəri" ilə əvəz eləmişəm, belə daha yığcamdır.

Sonra o nigaran olmağa başladı ki, "əla" sözünü düzgün seçməyib. Onun fikrincə, bu söz yaxşı səslənmirdi. Elə bir ifadə tapmaq lazım idi ki, onun təsəvvüründəki yaraşıqlı atın əksi həmin sözlə görünsün. Sonra "əzəmətli" sözünü götür-qoy elədi. Daha sonra isə "parıltılı" sözünü dönə-dönə təkrarlayıb qərara gəldi ki, bu söz də ahəngə uyğun gəlmir. Nəhayət, bir axşam təntənəli səslə elan elədi ki, axtardığı ifadəni tapa bilib: "Qara rəngli alaz atı". Onun fikrincə, elə qara rəngin özündə bir gözəllik əlaməti var.

– Yox, düz gəlmir, – Ryö dilləndi.

– Niyə axı?

– Alaz sözünün özü atın növünü yox, rəngini bildirir.

– Hansı rəngdir o elə?

– Dəqiq bilmirəm, hər halda, qara rəng deyil.

Qran yaman pərt oldu. Az sonra dedi:

– Sağ olun, yaxşı ki, sizinlə məsləhətləşdim. Özünüz görürsünüz ki, necə çətin işdir.

– Bəs "gözoxşayan" ifadəsi necə, xoşunuza gəlir? – Taru soruşdu.

Qran ona baxdı və fikirləşə-fikirləşə dedi:

– Hə, düz tapmısınız, belə yaxşıdır.

Onun üzünə mülayim bir təbəssüm qondu. Bir müddət sonra Qran etiraf elədi ki, "gül-çiçəkli" ifadəsi də onu nigaran qoyub. Axı o, Montelamar və Oran

şəhərlərindən başqa heç yeri görməyib. Elə buna görə də hərdən dostlarına sual verir, Bulon meşəsinin necə çiçək açması haqqında təsəvvür qazanmaq istəyirdi. Əslində, nə Ryö, nə də Taru həmin meşənin necə çiçəklənməsini yadlarına sala bilmirdilər. Qran isə onların yaddaşsızlığına təəccüblənib demişdir: "Yalnız incəsənət adamları mənzərəyə düzgün tamaşa edə bilirlər".

Bir dəfə həkim gördü ki, Qran yaman sevinir. O, "gül-çiçəkli" ifadəsini "çiçəyə qərq olmuş" ifadəsi ilə əvəz eləmişdi və əlini ovuşdura-ovuşdura deyirdi: "Axır ki, təsəvvür yaranır, mənzərə duyulur. Təzim edin, cənablar!" O, cümləni təntənə ilə oxumağa başladı: "Gözəl bir may səhəri gözoxşayan alaz ata minmiş şux qamətli Amazon qızı Bulon meşəsinin çiçəyə qərq olmuş xiyabanlarını dolanırdı". Cümləni ucadan oxuyandan sonra axırıncı sözlərin axıcı səslənmədiyini duyub Qran bir az kəkələdi, pərt olub yerində oturdu. Sonra evə qayıtmaq üçün həkimdən icazə istədi: fikirləşmək üçün sakit guşəyə çəkilməli idi.

Elə həmin günlər məlum oldu ki, Qran öz iş yerində huşsuzluq edir və bələdiyyə idarəsində işçilərin azaldığı bir vaxtda onun pis işləməsi idarədə narazılığa səbəb olub. Qranın işlədiyi şöbənin işləri ləngiməyə başlamışdı və müdir onu çağırıb danlamışdı ki, aldığı əməkhaqqına görə üzərinə düşən vəzifənin öhdəsindən gəlməlidir.

Müdir həm də belə bir xəbərdarlıq eləmişdi: "Eşitdim ki, siz işdən sonra könüllü sanitar dəstələrində çalışırsınız. Bu, sizin öz işinizdir. Mənim işim isə budur ki, sizi idarədəki vəzifənizə düzgün əməl etməyə çağırım. Belə ağır bir vəziyyətdə hər kəsin ən səmərəli işi öz vəzifəsinə düzgün əməl etməsidir. Əgər belə olmasa, əlavə xidmətlər də bir əhəmiyyət verməz".

– Müdir haqlıdır, – deyib Qran Ryöyə baxdı.

– Bəli, müdir haqlıdır.

– Fikrim yaman qarışıb, bilmirəm bu cümlənin axırını necə səliqəyə salım.

O fikirləşirdi ki, "Bulon" sözünü ixtisar eləsin, çünki "meşə" sözü böyük hərflə yazılsa, hansı meşədən söz getdiyi anlaşılacaq. Onda belə oxunacaq: "Meşənin çiçəyə qərq olmuş xiyabanları". Yenə də "meşə" sözünün vəziyyəti nigarançılıq yaradırdı. Bəzi axşamlar Qran Ryödən də yorğun görünürdü.

Bəli, o, uyğun söz və ifadə seçməkdən yorulur, sanitar dəstələrinin yazı-pozu işlərinin də öhdəsindən gəlməyə çalışırdı. Hər axşam məlumat vərəqlərini yoxlayır, sanitar dəstələrinin fəaliyyətindən dəqiq nəticə çıxarmağa səy göstərirdi. Bəzən o, Ryönü axtarır, xəstəxanalardan birində tapır, idarələrdən, yaxud tibb məntəqələrindən birində ona bir iş masası ayrılmasını xahiş edirdi. Sonra isə onun üçün ayrılmış masanın arxasına keçir, öz idarəsində işlədiyi kimi fəaliyyətə başlayır, yazdığı vərəqlərin mürəkkəbini qurutmaq üçün onları dərman və xəstəlik iyi basmış otağın havasında yelləyirdi. O, qətiyyətlə çalışırdı ki, Amazon qızı haqqında yox, məşğul olduğu işi fikirləşsin.

Əgər, doğrudan da, insanlar nümunə üçün bir qəhrəman obrazı seçməlidirsə və bizim bu tarixçəyə də belə bir obraz vacibdirsə, biz elə bu sadə insanın obrazını təklif edərdik. Onun şəxsində xeyirxah və zahirən gülünc təsir bağışlayan bir obraz yaşayır. Belə bir qərar həqiqətə daha yaxın olar, iki dəfə ikinin nəticədə dörd olduğunu göstərər, qəhrəmanlığı isə öz yerinə, yəni ikinci yerə çəkər. Bəli, qəhrəmanlıq ön planda deyil, arxa planda görünməlidir. Belə bir qərar, həm də bizim tarixçənin mahiyyətini açar. Bu mahiyyət isə ancaq xoş hisslərə xidmət etməli, yəni nə tamam pis, nə də tamam yaxşı kimi qələmə alınan hissləri əks etdirməlidir.

Həkim Ryö belə fikirləşirdi və taunlu şəhərə radio və qəzetlər vasitəsilə kənardan göndərilən müraciət və

ovundurmaları eşitdikcə öz fikrinə haqq qazandırırdı. Hava və avtomobil yolları ilə göndərilən köməklərə, mətbuat və radio dalğaları ilə axan qayğıkeş və atəşin çıxışlara baxmayaraq, şəhər bütün dünyadan uzaq düşmüş bir qəribə bənzəyirdi. Belə çıxışlar həkimi əsəbiləşdirirdi. Doğrudur, o bilirdi ki, deyilən və yazılan sözlərdə riyakarlıq yoxdur. Bu sözlər lazımi tərzdə, lazımi dillə deyilmirdi. Belə çıxışlarda Qranın kiçik təşəbbüsünün mahiyyəti duyulmur, taun yayılmış bir şəhərdə Qran kimi adamların fədakarlığı nəzərə alınmırdı.

Bəzən gecəyarısı, şəhər sükuta qərq olduğu zaman, azacıq yuxulamaqdan ötrü yerinə girməzdən əvvəl həkim Ryö qulağını radioya dayamalı olurdu. O, min kilometrlərlə uzaqdan gələn naməlum səslərin mehriban kəlmələrini eşidirdi. Bu səslər nə qədər səmimi olsa da, uzaqdakı həmin adamlar gözləri ilə görə bilmədikləri ağrı-acını bölüşə bilməzdilər. Hamı "Oran! Oran!" deyirdi. Bu çağırışlar dənizlər aşıb gəlsə də, bir əhəmiyyəti yox idi. Onlar ancaq narahatlıq gətirir, ayrılığın təsiri ilə Qran, həm də bu tarixçəni yazanın özü yad adamlara dönürdülər. "Oran! Oran!.. Hə, yaxşı, nə olsun, – həkim fikirləşirdi. – Ancaq oranlılar bilir ki, ya birgə yaşamalı, ya da birgə ölməlidirlər, başqa bir çarə yoxdur. Çöldəkilər çox uzaq düşüblər".

Taunun var qüvvəsini toplayıb ciddi hücuma keçməsi və şəhəri ələ keçirməsinin təsvirindən əvvəl, hələ də özünü yad sayan, bu şəhərdən və xəstəlikdən yaxa qurtarmaq məqsədi ilə hələ də əl-qol atan Ramber kimi zatlardan da danışmaq lazımdır. Onlar tauna əsir düşmək istəmirdilər və bu arzu başqalarının yaşamaq arzusundan güclü deyildi. Belə cəhdlərlə müqayisədə, bizim fikrimizcə, başqalarının fədakarlığı daha aydın nəzərə çarpmalı idi.

Ramber çalışırdı ki, taunun əsiri olmasın. Qanuni yollarla şəhərdən çıxmağın mümkün olmadığını duyandan

sonra o, Ryöyə demişdi ki, qeyri-qanuni yollara əl atmaq fikrindədir. Jurnalist əvvəlcə kafe xidmətçilərinə müraciət eləmişdi. Çünki kafe xidmətçiləri hər məsələdən hali olurlar. Amma onun müraciət elədiyi ilk xidmətçilər də bu cür işlərə görə ciddi cəza tədbirləri tətbiq olunduğundan xəbərdar idilər. Başqa birisi isə onu araqarışdıran hesab eləmişdi. Ancaq Ryönün otağında Kottarla görüşəndən sonra azacıq bəxti gətirdi. Həmin gün o, Ryöyə başqa idarələrə də baş çəkməsi və yenə də bir nəticə əldə edə bilməməsi haqqında danışırdı. Bir neçə gün sonra Kottar küçədə Ramberə rast gəldi və xeyirxah bir əda ilə soruşdu:

– Hələ bir şey çıxmır?

– Yox, bir şey çıxmır.

– İdarə işçilərinə ümid eləməyin. Onlar başa düşən deyillər.

– Bilirəm. Mən başqa bir yol axtarıram. Amma bu yolu tapmaq da çətindir.

– Hə! Başa düşürəm, – Kottar cavab verdi.

Sonra o, Ramberə dedi ki, çıxış yolu bilir. Ramberin təəccübləndiyini görüb izah elədi ki, uzun illərdir Oranın bütün kafelərinə baş çəkir və bu kafelərdə dostları var, belə işlərlə məşğul olan bir təşkilatın mövcud olduğundan xəbərdardır. Məsələ burasındadır ki, qazancı xərcini ödəyə bilmədiyinə görə Kottar aztapılan malların alverinə qurşanmışdı. O, cürbəcür siqaretlər, keyfiyyətsiz spirt alıb-satır və bu malların qiyməti getdikcə artdığından xeyli pul qazanmışdı.

– Yəni siz əminsiniz ki, belə bir təşkilat var?

– Bəli, mənim özümə təklif ediblər.

– Siz də getmək istəmədiniz?

– Təəccüblənməyin, – Kottar mülayim səslə cavab verdi, – mənim getməməyimin səbəbi var. – Cüzi bir sükutdan sonra soruşdu: – Bəs niyə soruşmursunuz ki, getməməyimə səbəb nədir?

– Məncə, bunun mənə dəxli yoxdur, – Ramber cavab verdi.

– Bir cəhətdən, doğrudan da, bunun sizə dəxli yoxdur. Başqa bir cəhətdən isə... Xülasə, əsas məsələ budur ki, taun başlayandan sonra mən özümü burada daha arxayın hiss edirəm.

Ramber onun sözlərinə qulaq asıb soruşdu:

– Yaxşı, həmin təşkilata necə getmək olar?

– Eh! Çətin məsələdir, gərək bir yerdə gedək.

Axşam saat dörd idi. İstidən adam boğulurdu. Mağazaların qapıları bağlanmış, küçələr isə boşalmışdı. Darısqal küçələrə enən Kottarla Ramber dinib-danışmadan xeyli yol getdilər. Günün belə çağında taun hiss edilmirdi. Elə xəstəlikdən əvvəlki yay günlərində də şəhər belə sakit, rənglər sönük görünürdü. İndi isə bilmək olmurdu ki, havaya ağırlıq gətirən ölüm qorxusu idi, yoxsa isti və tozanaq. Taunu görə bilmək üçün müşahidə qabiliyyəti və düşüncə gərəkdir. Onun da nəzərə çarpan əlamətləri var; məsələn, xəstəliyə xoş münasibətini gizləməyən Kottar Ramberə söylədi ki, adətən, belə vaxtlarda istidən ləhləyən itlər evlərin girəcəklərindəki kölgələrdə sərinlik axtarır, döşəməyə uzanıb mürgü vururdular. İndi itlər yoxa çıxıblar.

Onlar Palma bulvarı ilə gəlib Arm meydanını keçdilər və Marin məhəlləsinə tərəf üz tutdular. Sol üzdə divarları yaşıl rəngə boyanmış sarı kölgəlikli bir kafe vardı. Onlar alınlarının tərini silib içəri keçdilər. Yaşıl örtüklü masanın arxasındakı yüngül stullarda oturdular. Zal tamam boş idi. İçəridə uçuşan milçəklərin səsi eşidilirdi. Kassanın yanındakı sarı rəngli qəfəsdə tükü tökülmüş, əldən düşmüş bir tutuquşu mürgüləyirdi. Çirkli, hörümçək toru basmış divarlardan isə döyüş səhnələri təsvir olunmuş köhnə tablolar asılmışdı. Az qala, bütün masaların, hətta arxasında oturduqları masanın da üstündəki bulaşıq toyuq ayaqlarının izlərini görən Ramber

təəccüblənmişdi. Elə bu vaxt qaranlıq künclərin birisindən yaraşıqlı bir xoruz çıxdı və izlərin mənşəyi məlum oldu.

İçəridə boğanaq daha çox hiss olunurdu. Kottar pencəyini çıxardı və əlini masaya döydü. Zalın küncündəki qapıdan uzun, qara döşlüyün arxasında itmiş qısaboy bir kişi çıxdı. O, Kottarı görüb uzaqdan salamlaşdı və ayağı altında fırlanan xoruza bir təpik ilişdirib irəliyə gəldi, səsini xoruzun qığıltısına qoşub qonaqların nə sifariş eləmək istədiklərini soruşdu. Kottar ağ şərab sifariş etdi və Qarsia adlı bir nəfəri soruşdu. Xidmətçi cavab verdi ki, həmin adam bir neçə gündür kafeyə gəlmir.

– Sizcə, bu axşam gələcək? – Kottar soruşdu.

– Deyə bilmərəm. Yaxşı, siz özünüz onun nə vaxtlar gəldiyini bilirsiniz?

– Bilirəm, amma məsələ onda deyil. Bu dostumu onunla görüşdürmək istəyirdim.

Xidmətçi yaş əlini döşlüyün ətəyinə silə-silə soruşdu:

– Hə! Bu cənab da həmin işlərlə məşğuldur?

– Elədir, – Kottar cavab verdi.

– Yaxşı, onda bu axşam gəlin. Uşaq göndərib çağırtdıraram onu.

Qapıdan çıxanda Ramber Kottardan “hansı işlərdən” söhbət getdiyini soruşdu.

– Qaçaqmaldan söhbət gedir. Onlar şəhər qapılarından mal keçirir və yaxşıca pul qazanırlar.

– Deməli, gizli əlaqələri var?

– Əlbəttə.

Axşamüstü kafenin kölgəliyi qaldırılmışdı. Qəfəsdəki tutuquşu cığıltılı səsini zalı doldurmuş qısaqol köynəkli müştərilərin səsinə qatırdı. Müştərilərdən biri – başına həsir şlyapa keçirmiş, gündən yanmış sinəsi açıq qalmış bir kişi Kottarı görən kimi ayağa qalxdı. Təxminən, otuz yaşı olardı, üzü uzunsov və qaraşın idi,

xırda qara gözləri, ağ dişləri də diqqəti cəlb eləyirdi. Barmaqlarına iki-üç üzük keçirmişdi. O yaxınlaşıb dedi:

– Salam. Gəlin ayaqüstü bir şey içək.

Onlar barın qarşısında dinib-danışmadan adama üç qədəh içdilər.

– Bəlkə, çölə çıxaq? – Qarsia dilləndi.

Qapıdan çıxanda Qarsiya Kottardan nə üçün gəldiklərini soruşdu. Kottar isə ona izah elədi ki, Ramberi onun yanına mal almaq üçün deyil, şəhərdən çıxmaq məqsədi ilə gətirib. Qarsia siqaretini tüstülədə-tüstülədə irəliləyirdi. O, suallar verir, Ramberin özünü görmürmüş kimi ondan danışarkən "həmin adam" deyə müraciət edirdi. Axırda soruşdu:

– Yaxşı, bəs niyə getmək istəyir?

– Arvadı Fransada qalıb.

– Belə de!

Az sonra Qarsia yenə sual verdi:

– Bəs sənəti nədir?

– Jurnalistdir.

– Çoxdanışan olur jurnalistlər.

Ramber dinmədi. Kottar cavab verdi:

– Dost adamdır.

Sonra dinib-danışmadan xeyli getdilər. Dəmir çərçivəyə alınmış sahil səkisinə çatdılar. Onlar kiçicik bir bufetə tərəf buruldular. Burada sardina balığı qızardıb satırdılar və balığın iyi küçəyə yayılmışdı. Qarsia dilləndi:

– Hər halda, bu işlə mən yox, Raul məşğul olur. Gərək onu axtarıb tapam. Onu tapmaq da çətindir.

Kottar işgüzar bir səslə soruşdu:

– Gizlənir yəni?

Qarsia cavab vermədi. Bufetə çatanda Qarsia onlara tərəf çevrildi və ilk dəfə Rambərə müraciət elədi:

– Birisi gün saat on birdə, şəhərin yuxarı hissəsində gömrük idarəsinin tinində görüşərik.

Ayrılıb getmək istəyəndə qəfildən geri döndü və onlara dedi:

– Amma xərciniz çıxacaq.

O, şərt kəsirdi. Ramber cavab verdi:

– Məlum məsələdir.

Az sonra jurnalist Kottara təşəkkür elədi. Kottar isə mehriban bir görkəm alıb cavab verdi:

– Yox, dəyməz! Sizə kömək elədiyimə özüm də sevinirəm. Həm də ki siz jurnalistsiniz, nə vaxtsa yaxşılığımın əvəzini çıxa bilərsiniz.

İki gün sonra Ramberlə Kottar şəhərin yuxarı hissəsinə aparan uzun, kölgə düşməyən küçə ilə qalxırdılar. Gömrük idarəsinin bir hissəsini tibb məntəqəsinə çevirmişdilər. İri darvazanın qarşısındakı adamların çoxu xəstə qohumları ilə görüşmək mümkün olmasa da, onlar haqqında məlumat almaq üçün toplaşmışdılar. Bura gəlib-gedən çox idi və yəqin ki, Qarsia görüşü qəsdən belə qarışıq yerə təyin eləmişdi. Kottar dilləndi:

– Sizin getmək arzunuz adamı təəccübləndirir. Əslində, indi burada maraqlı əhvalatlar baş verir.

– Mənim üçün maraqlı deyil, – Ramber cavab verdi.

– Hə, doğrudur, burada qalmaq qorxuludur. Amma burada elə taundan əvvəl də həyat üçün qorxu var idi; maşını çox olan bir küçəni keçmək də həyat üçün qorxuludur.

Elə bu vaxt Ryönün maşını onların yanında dayandı. Maşını Taru sürürdü. Onun yanında oturan Ryö isə mürgü vururdu. Ryö gözünü silib onları bir-birinə təqdim elədi. Taru dedi:

– Biz tanışıq, eyni mehmanxanada yaşayırıq.

Həkim Rambərə dedi ki, onu şəhərə apara bilər. Ramber cavab verdi:

– Sağ olun, burada görüşümüz var.

Həkim Ramberin üzünə baxdı və Ramber öz sözünü təsdiqlədi:

– Bəli, görüşümüz var.

Kottar təəccüblə soruşdu:

– Məsələdən həkim də xəbərdardır?

Elə bu vaxt Taru Kottara baxa-baxa dedi:

– Müstəntiq gəlir.

Kottar tutuldu. Müstəntiq Oton işgüzar addımlarla onlara tərəf gəlirdi. O, Ryögilin dəstəsinin yanından keçərkən şlyapasını qaldırıb salam verdi.

– Salam, cənab müstəntiq! – Taru dilləndi.

Müstəntiq maşının içindəkilərə də salam verdi. Sonra azacıq geri çevrildi, arxadakı Ramberlə Kottarı da səthi salamladı. Taru Kottarla jurnalisti ona təqdim elədi. Müstəntiq bir anlıq səmaya baxıb köksünü ötürdü, zəmanədən şikayətləndi və nəhayət, soruşdu:

– Cənab Taru, mənə dedilər ki, siz profilaktik tədbirlərin tətbiqi ilə məşğulsunuz. Amma sizin bu qərarınızı tərifləmək istəməzdim. Həkim, sizcə, bu xəstəlik hələ çox çəkəcək?

Həkim bildirdi ki, xəstəliyin tez qurtaracağına ümid edir. Müstəntiq də ümidlə yaşadığını bildirdi və dedi ki, taleyin işini bilmək olmasa da, ümid eləmək yaxşıdır. Taru isə müstəntiqə vəziyyətlə əlaqədar işinin artıb-artmaması haqda sual verdi.

– Əksinə, ümumi qanun pozğunluqları azalıb, – müstəntiq cavab verdi. – İndi, əsasən, təzə qanunları izah etməklə məşğulam. Köhnə qanunlara isə əvvəlkindən də yaxşı əməl olunur.

Taru:

– Deməli, təzələri ilə müqayisədə köhnə qanunlar çox şükürlü imiş.

Müstəntiq xəyaldan ayılıb ciddiləşdi. Taruya soyuq nəzər salıb dedi:

– Nə fərqi var ki? Qanun bir şeydir, cəza isə başqa bir şey. Bizlik bir iş yoxdur.

Müstəntiq uzaqlaşanda Kottar dedi:

– Elə onun özü bir nömrəli düşməndir.

Ryönün maşını da yola düşdü.

Az sonra Ramberlə Kottar gördülər ki, Qarsia onlara tərəf gəlir. O dinib-danışmadan yaxınlaşdı və salam vermək əvəzinə dedi: "Gözləmək lazımdır".

Ətrafda toplaşanların əksəriyyəti qadınlar idi və hamı susub durmuşdu. Qadınların hamısının əlində bağlama vardı və nahaq da olsa, ümid edirdilər ki, bağlamaları içəriyə ötürə bilərlər və xəstəliyə tutulmuş əzizləri evdən gətirilmiş ərzağı ala bilər. Qapını əlisilahlı adamlar qoruyurdular. Bəzən içəri həyətin o üzündəki binadan qışqırıq səsləri eşidilir, gözləyənlər isə həyəcan dolu gözlərini binaya zilləyirdilər.

Üç kişi yanaşı dayanmışdı, belə bir mənzərəyə tamaşa elədikləri vaxt arxadan onlara salam verən bir nəfərin ciddi səsini eşidib geri çevrildilər. Hava isti olsa da, Raul səliqəli geyinmişdi. Əynində tutqun rəngli kostyum, başında kənarları qatlanmış yaraşıqlı şlyapa vardı. Sifəti solğun görünürdü. Qara gözləri, yığcam ağzı vardı. O, qəti bir səslə dedi:

– Şəhərə tərəf enəcəyik. Qarsia, sən gəlməsən də olar.

Qarsia bir siqaret yandırdı və qalanlar aralandılar.

Raulu araya alan Ramberlə Kottar onun iri addımları ilə ayaqlaşmağa çalışırdılar. Raul dedi:

– Qarsia məsələni mənə izah edib. Baş tutan işdir. Amma on min frank xərciniz çıxacaq.

Ramber razılaşdı və Raul əlavə etdi:

– Onda sabah ispanların Sahil restoranında birgə nahar edərik.

Ramber yenə razılıq əlaməti kimi başını yellədi və Raul onun əlini sıxaraq görüşdükləri vaxtdan etibarən birinci dəfə gülümsədi. Raul gedəndən sonra Kottar üzrxahlıq elədi ki, ertəsi gün məşğul olacaq. Onsuz da, Ramberin ona ehtiyacı qalmamışdı.

Ertəsi gün jurnalist ispan restoranına girəndə hamı çevrilib dörd gözlə ona baxırdı. İstidən od tutub yanan darısqal küçələrin birində yerləşən bu yarıqaranlıq restorandakı müştərilərin çoxu ispan tipli adamlar idi. Amma elə ki küncdəki masalardan birinin arxasında əyləşmiş Raul işarə ilə Ramberi yanına çağırdı, müştərilərin marağı söndü və hər kəs öz yeməyinə girişdi. Raulun yanında arıq, ucaboy, enlikürək, atsifət, saqqallı və saçı çallaşmış bir nəfər əyləşmişdi. Kişi köynəyinin qolunu çırmalamış, qara, tük basmış arıq, uzun qollarını masaya dirəmişdi. Ramber təqdim ediləndə o, üç dəfə başını yelləyib salamlaşdı. Raul onun adını demədi və ad əvəzinə “dostumuz” sözünü işlətdi.

– Məsələ qəliz məsələdir, – Raul cavab verdi. – Bizə lazım olacaq adamları tapmaq vaxt istəyir.

Atsifət kişi yenə başını yellədi və Ramber razılaşmalı oldu. Yemək vaxtı söhbət üçün mövzu tapa bilmirdilər. Amma elə ki Ramber atsifət kişinin futbolçu olduğunu eşitdi, hər şey dəyişdi. Çünki Ramberin özü də futbolla çox məşğul olmuşdu. Onlar Fransa çempionatı, peşəkar ingilis komandaları və hücum taktikasından söhbətə girişdilər. Naharın axırında atsifət kişi Ramberlə köhnə dost kimi söhbətləşir və ona təlqin etməyə çalışırdı ki, meydançada ən gözəl yer yarımmüdafiədir.

– Səbəbini bilirsənmi? Ona görə ki, yarımmüdafiəçi top ötürəndir, futbolun canı da elə budur... Ramberin özü həmişə mərkəz hücumçusu olsa da, müsahibinin fikrini təsdiq elədi. Radionun səsi söhbəti yarımçıq kəsdi, zərif bir melodiya səslənəndən sonra elan elədilər ki, keçən gün taun otuz yeddi adamı aparıb. Bu xəbər adamların yanından səssiz-küysüz keçdi, ona bir elə əhəmiyyət verən olmadı.

Atsifət kişi çiyinlərini oynadıb ayağa qalxdı. Raulla Ramber də qalxdılar.

Ayrılarkən mərkəz yarımmüdafiəçisi Ramberin əlini səmimiyyətlə sıxaraq dedi:

– Mənim adım Qonzalesdir.

Aradakı iki gün Ramberə çox uzun göründü. O, Ryö ilə görüşüb vəziyyət haqqında nə bilirdisə ona danışdı. Sonra xəstələrdən birinə baş çəkməyə gedən həkimə yol yoldaşı oldu. Xəstə olan evin qarşısında həkimlə xudahafizləşdi. Evin dəhlizindən səs-küy qalxdı, qonşular xəstənin ailəsinə həkimin gəldiyini xəbər verdilər.

– Kaş ki Taru tez gələydi, – həkim mızıldadı.

O, yorğun görünürdü. Ramber soruşdu:

– Epidemiya güclənir yəni?

Həkim bildirdi ki, son vaxtlar xəstələrin sayı çox artmayıb, amma əsas məsələ bu artımda deyil. Əsas məsələ bundadır ki, tauna qarşı mübarizə vasitələri kifayət eləmir.

– Mübarizə vəsaitimiz çatmır. Dünyanın bütün qoşun hissələrində vəsait çatmayanda adamlar vəsaiti əvəz eləyir. Bizim isə adamımız da çatmır.

– Axı kənardan həkimlər və sanitar işçiləri göndərilib.

– Elədir, – Ryö cavab verdi. – Amma cəmisi on həkim və yüzə yaxın sanitar göndərilib. Epidemiyanın indiki vəziyyətində birtəhər keçinmək olur. Amma epidemiya güclənsə, adam çatmayacaq.

Ryö evin içərisindən gələn səslərə qulaq asa-asa Ramberin üzünə gülümsəyib dedi:

– Bəli, vəziyyət belədir, çalışın tez gedəsiniz.

Ramber tutuldu:

– Bilirsiniz, mən xəstəliyə görə getmirəm. – Ryö ona inandığını bildirsə də, Ramber sözünə davam elədi: – Mən özüm bilirəm ki, qorxaq adam deyiləm və cəsarətimi sübuta yetirmək imkanlarım da olub. Amma indi bəzi fikirlərlə heç cür razılaşa bilmirəm.

Həkim Ramberin üzünə baxıb dedi:

– Siz arvadınızla görüşəcəksiniz.

– Ola bilər. Amma məni əsas bir fikir narahat edir. Qorxuram ki, bu vəziyyət uzana və mən evə qayıdana qədər arvadım qocala. Adamlar otuz yaşdan sonra qocalmağa başlayırlar, gərək vaxtdan yaxşı istifadə edəsən. Bilmirəm məni anlaya bilirsiniz, ya yox?

Həkim dilucu dedi ki, onu yaxşı anlayır. Elə bu vaxt Taru onlara yaxınlaşdı və həyəcanlı səslə dedi:

– Elə indicə Paneludan xahiş elədim ki, bizə qoşulsun.

– Bəs nə cavab aldın? – həkim soruşdu.

– Bir az fikirləşib razılaşdı.

– Çox gözəl, – həkim cavab verdi. – Çox şadam ki, keşiş öz moizəsindən artıq xeyir verəcək.

– Hamı bizə qoşulmağa hazırdır. Gərək yadlarına salasan, imkan yaradasan.

Sonra o gülümsəyərək Ryöyə göz vurdu.

– Mənim isə işim ondan ibarətdir ki, adamlara imkan yaradım.

– Bağışlayın, mən getməliyəm, – deyib Ramber uzaqlaşdı.

Görüş günü saat səkkizə beş dəqiqə qalmış Ramber kilsə tağının altında idi. Hava hələ sərin idi. Səmada xırda, ağ bulud parçaları görünürdü və gün qalxan kimi həmin buludlar da əriyib yoxa çıxacaqdı. Qarşıdakı çəmənliyin otları qurumuş olsa da, səhərçağı oradan rütubət iyi gəlirdi. Şərq tərəfdəki evlərin arasından qalxan günəş Janna d'Arkın qızıla boyanmış heykəlinin dəbilqəsini qızdırmağa başlayırdı. Qüllə saatlarından biri səkkiz dəfə zəng çaldı. Ramber kimsəsiz meydançada bir az gəzindi. Kilsənin içindən nəm və mumiya iyi gəlirdi. Qəfildən kilsə xorunun səsi kəsildi. On nəfərə yaxın qara geyimli adam kilsədən çıxıb şəhərə tərəf yollanırdı. Elə onlar kimi qara geyimli başqa bir dəstə

isə pilləkənləri qalxıb kilsəyə girirdi. Ramber siqaret yandırdı, sonra da fikirləşdi ki, bəlkə də, belə yerdə papiros çəkməyə icazə verilmir.

Saat doqquza on beş dəqiqə işləmiş kilsənin içindən orqan sədaları eşidildi. Ramber qübbənin altına keçib içəri baxdı. Az sonra gözləri içəridəki alaqaranlığa adət eləyəndə az əvvəl içəriyə keçmiş qara geyimli adamları gördü. Onlar qurama bir minbərin qarşısına toplaşmışdılar. Həmin minbərin üstünə isə müqəddəs Roşun şəhər emalatxanalarından birində yonulmuş heykəli qoyulmuşdu. Adamlar heykəlin qarşısında diz çöküb qalmış, içəridəki alaqaranlıqda xırda, qara kölgələrə oxşayırdılar. Onların başı üzərindəki orqan ara vermədən çalınırdı.

Ramber çölə çıxanda gördü ki, Qonzales pilləkənləri enib şəhərə tərəf gedir. O, Ramberi görüb dedi:

– Elə bildim çıxıb getmisən. Mən xeyli gecikmişəm.

Sonra izah elədi ki, bir az aralıda saat səkkizə on dəqiqə qalmış dostlar ilə görüşü vardı. Dostlar gəlib çıxmayıb, o isə iyirmi dəqiqə əbəs yerə gözləməli olub.

– Yəqin, onların işi düz gətirməyib. Bizim işimizdə hər şey bizdən asılı olmur.

O təklif elədi ki, ertəsi gün həmin vaxtda Fədailər abidəsi önündə görüşsünlər. Köksünü ötürən Ramber şlyapasını geri itələdi. Qonzales gülə-gülə dedi:

– Eybi yoxdur. Yadına sal ki, bir qol vurmaq üçün neçə fənd qurub, neçə top ötürməli olursan.

– Əlbəttə, elədir, – Ramber cavab verdi. – Amma oyun saat yarımdan artıq çəkmir.

Oran şəhərinin Fədailər abidəsi limandan yuxarıdakı qayaların üstündə qurulub. Bu kiçik gəzinti meydanı yeganə yer idi ki, buradan dənizə tamaşa etmək olar. Ertəsi gün Ramber görüşə tez gəlmişdi və döyüşlərdə həlak olmuş fədailərin daş üzərinə həkk olunmuş adlarını oxuyurdu. Az sonra meydana iki nəfər də gəldi. Onlar gözucu Rambərə baxıb aralandılar, sürahiyə

dirsəklənib aşağıya – boş və kimsəsiz limana tamaşa etməyə başladılar. Oğlanların boyu eyni idi, ikisi də yaşıl şalvar və qısaqol köynək geymişdi. Jurnalist bir az kənara çəkilib oturacaqlardan birində oturdu və oğlanlara sərbəstcə tamaşa elədi. Üzlərini görəndə fikirləşdi ki, yaşları iyirmidən çox olmaz. Elə bu vaxt Qonzales üzrxahlıq edə-edə ona yaxınlaşdı.

O: "Dostlarımız bunlardır", – deyib Ramberi oğlanların yanına apardı və onları təqdim elədi. Gənclərdən birinin adı Marsel, o birinin adı isə Lui idi. Sifətcə bir-birinə çox oxşadıqlarından Ramber fikirləşdi ki, yəqin, qardaşdırlar. Qonzales dedi:

– Bəli, tanışlıq məsələsi həll olundu, qaldı məsələnin özünün həlli.

Marsellə Lui dedilər ki, onların növbəsi iki gün sonra başlayacaq və bir həftə çəkəcək, bu günlər ərzində imkandan istifadə eləmək lazımdır. Onların keşik çəkdiyi Qərb qapısında dörd nəfər olurlar və o biri iki nəfər təcrübəli əsgərlərdir. Həmin adamlara sirr açmaq lazım deyil. Əvvəla, ona görə ki, onlara bel bağlamaq olmaz, həm də ki işin xərci arta bilər. Bəzi axşamlar həmin iki nəfər gecənin bir hissəsini yaxınlıqdakı barlardan birinin gizli otağında keçirir. Marsellə Lui təklif edirdilər ki, Ramber onların darvaza yaxınlığındakı evində yaşasın ki, lazım olanda onu tapa bilsinlər. Belə olsa, iş xeyli asanlaşır. Tələsmək lazımdır, çünki son günlər şəhərdən çöldəki nəzarət məntəqələrinin ikiqat artırılacağı haqqında söhbət gedirdi.

Ramber razılaşdı, axırıncı siqaretlərindən onlara da təklif etdi. Bayaqdan susub durmuş gənclər Qonzalesdən soruşdular ki, pul məsələsi həll olunubmu və onlar beh ala bilərlərmi?

– Yox, – Qonzales cavab verdi. – Beh almağa dəyməz, bu kişi dost adamdır. Pul məsələsi axırda həll olunacaq.

Təzə bir görüş təyin etdilər. Qonzales məsləhət gördü ki, iki gün sonra ispan restoranında görüşsələr yaxşıdır. Oradan da nəzarətçilərin evinə gedərlər.

– Birinci gecəni mən də səninlə qalaram, – o, Ramberi arxayınlaşdırdı.

Ertəsi gün Ramber mehmanxanada öz otağına qalxarkən pilləkəndə Taru ilə rastlaşdı. Taru dedi:

– Mən Ryö ilə görüşə gedirəm, istəyirsinizsə, birgə gedək.

Ramber tərəddüd içində cavab verdi:

– Hər dəfə mənə elə gəlir ki, onunla görüşəndə vaxtını alıram.

– İnanmıram, o, sizi çox istəyir. Sizin haqqınızda mənə çox danışıb.

Jurnalist fikirləşib dedi:

– Yaxşı, onda belə danışaq. Nahardan sonra vaxtınız varsa, lap gec də olsa, mehmanxananın barına gəlin.

– Vaxt məsələsi həkimdən və taunun vəziyyətindən asılıdır.

Gecə saat on birdə Ryö ilə Taru darısqal bara daxil oldular. Otuza yaxın adam barın kürsüsünə dirsəklənmişdi; uca səslə danışırdılar. Tauna tutulan şəhərin kimsəsiz küçələrindən belə bir qarışıqlığa düşmüş Ryö ilə Taru əvvəlcə karıxıb dayandılar. Sonra başa düşdülər ki, barda spirt satıldığından belə tünlükdür. Ramber uzun kürsünün o biri başında idi və hündür oturacaqdan qalxıb onlara əl edirdi. Onlar yaxınlaşdılar və Ramber yanındakı keflilərdən birini ehmalca kənar edib yer düzəltdi.

– Spirt içməkdən qorxmursunuz?

– Yox, əksinə, –Taru cavab verdi.

Ryö qarşısındakı qədəhi iylədi, acı təbabət otlarının iyini duydu. Bu qarmaqarışıqlıqda söhbət eləmək mümkün deyildi, deyəsən, Ramberin də içməkdən başqa fikri yox idi. Onun nə dərəcədə kefli olduğunu ayırd

eləmək çətin idi. Ortadakı darısqal meydançada iki masa qoyulmuşdu. Masalardan birinin arxasında oturan və qollarını yanındakı iki qadının qollarına keçirən dənizçi zabit üzbəüzdə oturmuş gonbul kişiyə Qahirədə baş vermiş yatalaq epidemiyasından danışırdı: "Yerli əhali üçün düşərgələr yaradılmış, xəstələri çadırlara yığmışdılar. Düşərgələrin ətrafına silahlı keşikçilər düzülmüşdü. Gizli yolla düşərgəyə soxulmaq istəyənlərə atəş açırdılar. Qanun sərt olsa da, düzgün qanun idi".

O biri masanın arxasında səliqəli geyinmiş cavanlar oturmuşdular. Onların səsi musiqi sədalarına qarışdığından nədən danışdıqlarını ayırd eləmək olmurdu. Ryö səsini qaldırıb Ramberdən soruşdu:

– Hə, işləriniz necədir?

– Vaxt yaxınlaşır, bəlkə də, bir həftəyə getdim.

– Çox təəssüf, – Taru söhbətə qoşuldu.

– Niyə təəssüf edirsiniz?

Taru Ryöyə baxdı və Ryö izah elədi:

– Hə! Taru fikirləşir ki, siz elə burada da bir işə yarayardınız. Amma mən sizin getmək arzunuzu çox yaxşı başa düşürəm.

Taru yenə içki sifariş elədi. Ramber oturduğu kətildən qalxıb Tarunun üzünə baxa-baxa soruşdu:

– Mən hansı işə yarayardım?

Taru tələsmədən əlini uzadıb qədəhini götürdü və sakit səslə dedi:

– Hə, elə bizim sanitar dəstəmizdə də işləyə bilərdiniz.

Ramber fikrə getdi və yavaş-yavaş qalxıb öz kətilində oturdu. Taru isə qədəhini başına çəkib diqqətlə ona baxırdı.

– Yəni bizim sanitar dəstələrimiz sizə gərəksiz görünür?

– Yox, çox gərəklidir, – deyib Ramber də qədəhini boşaltdı.

Ryö Ramberin əlinin əsdiyini görüb anladı ki, o, əməlli-başlı keflənib.

Ertəsi gün Ramber ikinci dəfə ispan restoranına gələndə qapının qarşısında stol açıb oturmuş bir dəstə kişinin arasından keçdi. Hava azacıq sərinləməyə başlayırdı və çöldə oturanlar axşam sərinliyini gözləyirdilər. Onların çəkdiyi siqaretlərin acı tüstüsü başları üstündə axışırdı. Restoranın içi, demək olar ki, boş idi. Ramber burada birinci dəfə Qonzaleslə əyləşdiyi masanın arxasına keçdi. Xidmətçini xəbərdar elədi ki, hələ gözləyəcək. Saat səkkizin yarısı idi. Çöldə oturanlar da yavaş-yavaş içəri dolub yemək masalarının arxasına keçdilər. Xidmətçilər yemək paylamağa başladılar.

İçərini qab-qaşıq və danışıq səsləri bürüdü. Saat səkkiz oldu. Ramber hələ gözləyirdi. Zalın işığı da yandı. Masanın arxasında başqa müştərilər də oturdu. Ramber özünə yemək sifariş elədi. Saat doqquzun yarısında o, yeməyini qurtardı. Amma nə Qonzales, nə də gözətçi gənclər gəlib çıxdılar. Ramber siqareti siqaretə calayırdı. Zal yavaş-yavaş boşalır, küçəyə gecənin qaranlığı çökürdü. Dənizdən axan yüngül bir meh qapının pərdələrini oynadırdı. Saat doqquzda zal tamam boşalmışdı və Ramber gördü ki, xidmətçi qadın təəccüblə ona baxır. O, yeməyin pulunu verib çölə çıxdı. Üzbəüzdə bir kafe vardı. Ramber kafenin barında oturub restoranın qapısını gözətləməyə başladı. Saat onun yarısında kafedən çıxıb mehmanxanaya tərəf getdi. Yol boyu ünvanını bilmədiyi Qonzalesi necə tapacağını, təzə bir imkan üçün hər şeyi yenidən başlamalı olacağını fikirləşəndə qanı daha da qaraldı.

Sonra o, Ryöyə danışmışdı ki, həmin axşam "təcili yardım" maşınları ilə rastlaşa-rastlaşa mehmanxanaya qayıtdığı vaxt arvadını deyil, şəhərdən çıxış yolu haqqında fikirləşir və az qala, arvadını yaddan çıxarıbmış. Elə ki ümidinin boşa çıxdığını duyub, yenidən arvadı

gözləri qarşısına gəlib, ayrılığın odu onu yandırıb, iztirabın çəngindən qaçırmış kimi öz otağına qaçıb.

Ertəsi gün səhər tezdən o, Kottarın ünvanını soruşmaq üçün Ryönün yanına gəldi və dedi:

– Əlaqələri itirdiyimə görə hər şeyi təzədən başlamalıyam.

– Sabah axşam bura gəlin. Elə Tarunun da Kottarla nə isə işi var, xahiş eləyib onu çağırım. Saat onda gələcək. Siz isə saat on birin yarısında gələ bilərsiniz.

Ertəsi gün Kottar Ryögilə gələndə Ryö ilə Taru qəribə bir əhvalatdan – Ryönün xəstəxanasındakı xəstələrdən birinin taundan sağ qurtarmasından söhbət edirdilər. Taru deyirdi:

– Təsadüfi haldır. Xəstənin bəxti gətirib.

– Yəqin, onun xəstəliyi taun deyilmiş, – Kottar söhbətə qoşuldu.

O birilər xəstəliyin taun olduğunu sübuta yetirməyə çalışsalar da, Kottar inanmadı:

– Bir halda ki o sağalıb, deməli, xəstəliyi taun deyilmiş. Siz özünüz də yaxşı bilirsiniz ki, taun heç kəsə aman vermir.

– Adətən, belə olur, – Ryö cavab verdi. – Amma diqqətlə izləyəndə təsadüfi hallar olur.

Kottar güldü:

– Qəti inanmıram. Xəstəliklə bağlı bu axşam səsləndirilən məlumatı eşitmisiniz?

Taru xeyirxahlıqla Kottara baxıb bildirdi ki, məlumatı eşidib, vəziyyətin ciddiləşdiyindən məlumatsız deyil, amma hələ ümidsizləşmək olmaz. Vəziyyət ciddi olduğundan daha güclü mübarizə vasitələrinə keçmək lazımdır.

– Yaxşı, daha güclü mübarizəyə başlamısınız?

– Bəli. Amma gərək mübarizəni hamı aparsın.

Kottar bir şey anlamadı. Taru izah elədi ki, adamların çoxu biganəlik edir. Taun ümumi bəladır və ona

qarşı mübarizədə hər kəs öz borcuna əməl etməlidir. Könüllü sanitar dəstələrinə hamı yazıla bilər.

– Hə, düz fikirdir, – Kottar cavab verdi. – Amma bunun da bir əhəmiyyəti olmayacaq. Taun çox güclüdür.

– Biz əlimizdən gələni etməliyik. Taunun güclü olub-olmadığını sonra biləcəyik.

İş masasının arxasına keçən Ryö məlumat vərəqələrinin üzünü köçürürdü. Taru nigaran-nigaran qurdalanan Kottardan gözünü çəkmədən dedi:

– Yaxşı, cənab Kottar, bizim dəstələrə niyə qoşulmursunuz?

Kottar incik hərəkətlə ayağa qalxdı, şlyapasını əlinə alıb dedi:

– Bu, mənim sənətim deyil. – Sonra isə deyinməyə başladı: – Həm də ki bu taunlu günlərdə mənim güzəranım yaxşı keçir. Axı mənim nəyimə yaraşır ki, taun əleyhinə mübarizəyə qoşulam?

Taru əlini alnına çəkib tapmaca açırmış kimi dedi:

– Düzdür, dübbədüzdür, bu xəstəliyə baş qarışmasaydı, indi siz, yeriniz məlum, həbsxanada istirahət edirdiniz.

Kottar diksindi və müvazinətini itirmiş adam kimi stuldan yapışdı. Ryö də başını qaldırdı, maraqla ona baxdı.

– Kim bunu sizə deyib? – Kottar qışqırdı.

Taru təəccübləndi:

– Siz özünüz, yadınızdan nə tez çıxdı? Bəlkə də, siz belə demək istəməmisiniz. Hər halda, həkimlə ikimiz belə güman eləmişik.

Kottar çox hirslənmişdi və anlaşılmaz sözlər söyləyirdi. Taru dedi:

– Nahaq belə həyəcanlanırsınız. Nə həkimin, nə də mənim sizi satmaq fikrimiz yoxdur. Sizin əhvalatın bizə dəxli yoxdur. Həm də ki elə bizim də polisdən xoşumuz gəlmir. Yaxşı, əyləşin görək.

Kottar stula baxdı, bir az tərəddüd eləyəndən sonra yerində oturdu. Çox keçməmiş köksünü ötürüb dedi:

– Köhnə əhvalatdır, bu yaxınlarda üzə çıxarıblar. Mən elə bilirdim yaddan çıxıb. Yoldaşlarımdan biri məni satıb. Polis məni çağırıb göstəriş verdi ki, istintaq qurtarınca uzağa getməməliyəm. Hiss edirəm ki, əvvəl-axır həbsə alacaqlar.

– Ciddi məsələdir? – Taru soruşdu.

– Baxır nə mənada soruşursunuz. Hər halda, adam öldürməmişəm.

– Həbs edərlər, yoxsa məcburi işə göndərərlər?

– Bəxtim gətirsə, həbs edərlər, – Kottar üzgün səslə cavab verdi. Az sonra deyinməyə başladı: – Səhv eləmişdim. Hamı səhv edə bilər. Amma fikirləşəndə ki, həmin səhvə görə həbs olunacağam, ev-eşiyimdən, həmişəki güzəranımdan, bütün tanışlarımdan ayrı düşəcəyəm, ağlım başımdan çıxır.

– Hə! Deməli, buna görə özünüzü asmaq fikrinə düşmüşdünüz? – Taru soruşdu.

– Elədir, amma axmaq fikir idi.

Ryö də söhbətə qoşuldu, söylədi ki, onun nigaranlığının səbəbini anlayır və üstəlik, ona təsəlli verdi ki, bəlkə də, hər şey yaxşı qurtarar .

– Elədir, bilirəm ki, hələlik qorxmağ dəyməz.

Taru dedi:

– Məlum məsələdir ki, bizim dəstələrə qoşulmaq istəməzsiniz.

Kottar şlyapasını əlində oynada-oynada sıxıntı içində Taruya baxıb dedi:

– Buna görə mənə acığınız tutmasın.

– Elə iş olar? Amma heç olmasa, çalışın xəstəlik mikrobunun müdafiəçisinə dönməyəsiniz, – Taru gülümsədi.

Kottar etiraz eləyib bildirdi ki, şəhərə xəstəlik arzulamayıb, xəstəlik özü təşrif buyurub və yaranmış

vəziyyət hələ ki ona sərf edir. Ramberin içəri girdiyini görəndə isə uca səslə əlavə elədi:

– Hər halda, mənə elə gəlir ki, sizin fəaliyyətinizin əhəmiyyəti olmayacaq.

Ramber öyrəndi ki, Kottar Qonzalesin ünvanını bilmir və onu tapmaq üçün həmin kafeyə getmək lazımdır. Ertəsi günə vədələşdilər. Ryö dedi ki, nəticəni o da bilmək istərdi. Ramber Taru ilə onu otağına çağırdı və dedi ki, gecənin nə vaxtı istəsələr, gələ bilərlər.

Səhər Kottarla Ramber kafedə görüşüb Qarsiaya sifariş göndərdilər. Axşam onu neçə saat kafedə gözləsələr də, gəlib çıxmadı. Ertəsi gün isə Qarsia kafedə yerində oturmuşdu. O, Ramberin söhbətinə diqqətlə qulaq asandan sonra dedi ki, məsələnin niyə, hansı səbəbdən alınmadığından xəbəri yoxdur. Amma iyirmi dörd saat içində bütün məhəllədəki evlərin mühasirəyə alınıb yoxlanıldığını eşidib. Ola bilsin ki, Qonzales və onun dostları mühasirədən çıxıb görüşə gələ bilməyiblər... Qarsia onları yenidən Raulla qarşılaşdıra bilərdi. Amma bu, ən azı, iki gün çəkə bilərdi.

Ramber dedi:

– Bəli, görürəm, hər şeyi təzədən başlamaq lazımdır.

İki gün sonra görüşəndə Raul Qarsianın fikrini təsdiqlədi: şəhərin aşağı məhəllələrinə giriş kəsilibmiş. Qonzaleslə görüşmək lazım idi. İki gündən sonra Ramber futbolçu ilə birgə nahar elədiyi vaxt o deyirdi:

– Ağlımız yoxdur da. Gərək bir-birimizi itirməmək üçün bir şey fikirləşəydik.

Elə Ramber də bu fikirdə idi. Qonzales sözünə davam elədi:

– Sabah səhər gənc keşikçilərlə görüşməyə gedərik, işi qaydaya salmağa çalışarıq.

Ertəsi gün onlar gəncləri evdə tapa bilmədilər. Sonrakı gün günortaçağı Lisey meydanında görüşmək üçün məktub yazıb qoydular. Sonra Ramber çox düş-

kün bir vəziyyətdə evə qayıtdı. Taru onunla rastlaşanda vəziyyətini görüb soruşdu:

– Görürəm ki, işlər yaxşı getmir?

– Hər şeyi təzədən başladığımçün əldən düşmüşəm.

Sonra o, Tarugili yenidən dəvət elədi:

– Bu axşam bizdəsiniz!

Axşam Taru ilə Ryö otağa girəndə Ramber çarpayısında uzanmışdı. O qalxıb əvvəldən hazır qoyduğu qədəhlərə şərab süzdü. Qədəhini götürən Ryö vəziyyətin necəliyini soruşdu. Ramber dedi ki, hamı ilə təkrar görüşüb və yaxın vaxtda axırıncı görüşə getməlidir. Sonra qədəhini başına çəkib əlavə etdi:

– Amma bilirəm ki, bu görüşə də gəlməyəcəklər.

– Canınızı oda-közə vurmayın, buna dəyməz, – Taru dilləndi.

– Siz vəziyyəti yaxşı duymamısınız, – Ramber çiyinlərini çəkdi.

– Nəyi yəni?

– Taunu deyirəm.

Ryö ona baxdı və Ramber davam elədi:

– Yox, siz başa düşməmisiniz ki, taun elə hər şeyi yenidən başlamaq işinə xidmət edir.

O, otağın küncünə tərəf gedib valoxudanı açdı.

– Hansı valı qoyursan, mən tanıdığımı? – Taru soruşdu.

Ramber cavab verdi ki, mahnının adı "Sen-Ceyms xəstəxanası"dır. Mahnı çalındığı zaman çöldən iki güllə səsi eşidildi.

– Ya it öldürürlər, ya da qaçmaq istəyən var, – Taru dilləndi.

Bir az sonra mahnı başa çatdı və küçədən "təcili yardım" maşınının vıyıltısı eşidildi. Maşının səsi getdikcə yaxınlaşdı, mehmanxananın qarşısından keçib uzaqlaşdıqca zəiflədi və nəhayət, kor quyuya daş atdılar. Ramber köksünü ötürüb dedi:

– Bu, mükəmməl türküdür. Gün ərzində, azından, on dəfə qulaq asmışam.

– Yəni onu bu qədər sevirsiniz?

– Yox, iş burasındadır ki, başqa valım yoxdur.

O, bir az susdu və yenə dilləndi:

– Hər halda, hər şeyi yenidən başlamaq lazımdır.

Sonra Ryödən sanitar dəstələrinin vəziyyətini soruşdu. Ryö dedi ki, beş dəstə fəaliyyətdədir və başqa dəstələr də yaratmaq istəyirlər. Jurnalist çarpayısının üstündə oturub dırnaqlarına baxırdı. Ryö isə çarpayının qırağında oturmuş jurnalistin qısa, dolğun cüssəsinə tamaşa edirdi. Qəfildən Ramber, Ryöyə baxa-baxa dedi:

– Bilirsinizmi, həkim, sizin təşkilat haqqında çox fikirləşmişəm, sizə qoşulmamağımın səbəbi var. Həm də ki mən vaxtında özümü göstərmişəm. İspaniya müharibəsində iştirak eləmişəm.

– Kimin tərəfində? – Taru soruşdu.

– Məğlubların tərəfində. Amma o vaxtdan bəri xeyli fikirləşmişəm.

– Nə barədə? – Taru yenə dilləndi.

– Cəsarət barədə. İndi mən bilirəm ki, insan böyük işlər görməyə qadirdir. Amma böyük hisslərə malik olmayan adam məni maraqlandırmır.

– Mənə elə gəlir ki, insan hər şeyə qadirdir, – Taru cavab verdi.

– Yox, yox, insan əzab çəkməyə, eləcə də uzun müddət xoşbəxt yaşamağa qadirdir. Amma ən vacib işlərə qadir deyil.

Sonra o, müsahiblərinə baxıb dedi:

– Yaxşı, Taru, sizin özünüz məhəbbət yolunda ölməyə razı olarsınız?

– Bilmirəm, amma məncə, indi yox.

– Görürsünüzmü? Açıqca duyulur ki, siz ideya yolunda ölməyə hazır adamsınız. Mən isə ideya uğrunda ölənlərə çəpəki baxıram. Qəhrəmanlıq hissinə inan-

mıram, bilirəm ki, bu, asan işdir və ölümlə əlaqədar olduğunu da duymuşam.

Ryö gözünü jurnalistdən çəkmədən diqqətlə qulaq kəsildi və sonda mülayim səslə dedi:

– Ramber, axı insan quruca ideya deyil.

Ramber çarpayıdan sıçrayıb ayağa qalxdı, üzü həyəcandan alışıb-yanırdı:

– Əksinə. Məncə, xalis ideyadır. Məhəbbətdən üz çevirən bir adam mənasız fikirdən başqa heç nəyə bənzəmir. Biz daha məhəbbətə layiq və qadir deyilik. Boynumuza alaq, həkim. Layiq olacağımız günü gözləyək, əgər bir şey çıxmasa, qəhrəmanlıq oyunu oynamadan taleyin hökmünü gözləyək. Daha bundan o yanı bilmirəm.

Ryö ayağa qalxdı, sonra yorğun səslə dedi:

– Siz haqlısınız, Ramber, tamam haqlısınız. Mən heç vaxt sizi başladığınız işdən geri dönməyə çağırmıram. Getmək fikrinizi haqlı və gözəl fikir sayıram. Amma sizə deməliyəm ki, bizim bu əhvalatda qəhrəmanlıq fikri yoxdur. Söz mərdlikdən gedir. Doğrudur, mərdlik sözü gülünc görünə bilər. Amma mərdlik olmasa, tauna qarşı mübarizə baş tutmaz.

Ramber ciddi görkəm alıb soruşdu:

– Axı mərdlik nə deməkdir?

– Ümumiyyətlə, onun nə demək olduğunu bilmirəm. Amma indi öz peşəmə əməl etməyi mərdlik sayıram.

Ramber acıqla dedi:

– Eh! Heç bilmirəm indi mənim peşəm nədir. Bəlkə, elə, doğrudan da, məhəbbəti üstün tutmaqda səhv eləyirəm.

Ryö onunla üz-üzə durub ciddi səslə dedi:

– Yox, siz səhv eləmirsiniz.

Ramber fikirli-fikirli onlara baxdı:

– Hər halda, sizin ikiniz bu işdə heç nə itirmirsiniz. Yaxşıların arasında olmaq daha asandır.

Ryö qədəhini boşaltdı:

– Gedək, bizim işimiz var.

Həkim çıxdı. Taru da onun arxasınca getdi. Çıxmazdan əvvəl çevrilib jurnalistə dedi:

– Xəbəriniz varmı ki, həkimin arvadı buradan bir neçə yüz kilometr aralıda sanatoriyada qalıb?

Ramber, elə bil, diksindi, amma Taru ləngiməyib uzaqlaşdı.

Ertəsi gün səhər tezdən Ramber həkimə zəng vurub dedi:

– Şəhərdən çıxmağa imkan tapana kimi sizin dəstədə işləməyimə icazə verərsiniz?

Qısa sükutdan sonra həkimin səsi eşidildi:

– Bəli, Ramber, çox sağ olun.

## III FƏSİL

Beləcə, həftələr keçdikcə tauna düçar olanlar bacardıqları qədər çarpışırdılar. Ramber kimilər isə, görünür, hələ belə düşünürdülər ki, sərbəstdirlər və özlərinə artıq başqa bir yol seçə bilərlər. Amma əslində, həmin vaxt, avqustun ortalarında taun hamını bir dam altına yığa bilmişdi. İndi insan taleləri əvəzinə taunun tarixi yaranmışdı. Hamı eyni vaqiə ilə yaşayır və eyni duyğuları keçirirdi. Ən böyük hiss isə ayrılıq və əsirə çevrilmə hissi idi, qorxu və etirazı yaradan da elə o idi. Elə buna görə də nağılçı istəyir ki, istinin və xəstəliyin güclənib şahə qalxdığı bir zamanda bəzi zorakılıq halları, ölülərin basdırılması, ayrı düşmüş sevgililərin iztirabı haqda olanları söyləsin.

Yerə vurulan top kimi ilin ortasında qəfil qalxan külək xəstəliyə bürünmüş şəhərin başı üzərində bir neçə gün vıyıldadı. Oran sakinləri küləyi sevmirlər. Ona görə ki, düzən yerdə bina edilmiş bu şəhəri küləkdən hifz edən təbii maneə olmadığından külək bütün küçə-

lərdə əlləri cibində istədiyi kimi veyllənə və öz gücünü göstərə bilir. Son aylar bir damla belə yağış yağmadığından şəhəri basmış boz tozanaq küləyin qanadlarında ürəkdən oynayırdı. Külək tozu və kağız parçalarını qaldırıb piyadaların üst-başına çırpırdı. Küçələrdə adam azalmışdı. Ağzını yaylıq, yaxud əli ilə örtmüş piyadalar küçədə ləngimədən evlərinə tələsirdilər. Axşamlar kafe və restoranlara yığışanlar mümkün qədər çox ləngiməyə çalışırdılar. Artıq axşamlar küçələrdə yaşanmış günü uzatmağa çalışan adamlar toplaşmırdılar. Evə, yaxud kafelərə gedənlər də yolu tələsik keçir, küçələr boşalır, adamsız dalanlardan küləyin iniltisindən qeyri heç nə eşidilmirdi. Şəhərdən görünməyən təlatümlü dənizdən yosun və duz iyi qalxırdı. Toz basmış, dəniz iyi verən, küləyin bağrının başına çəkdiyi bu kimsəsiz şəhər həyatdan uzaq düşmüş qəmli bir adacığa bənzəyirdi.

Bu günə qədər taun mərkəzə nisbətən şəhərin ətraflarında, adamın sıx olduğu və rahatlığın çatışmadığı ərazidə daha çox adam qırmışdı. Amma qəfildən taun şəhərin işgüzar mərkəzinə yayılmağa başladı. Mehmanxana sahibi danışırdı ki, "taun" kartlarını oynadır. Hər halda, mərkəzi məhəllələrdə yaşayanlar başa düşmüşdülər ki, növbə artıq onlara çatıb. Gecənin sükutunda şütüyən "təcili yardım" maşınlarının səsi taunun xəbərdarlıq siqnalı kimi qulaqları deşirdi.

Şəhərin içində xəstəliyin daha çox yayıldığı bəzi məhəllələr əlavə mühasirəyə alındı. Ancaq haçansa iş dalınca gedən adamları bu məhəllələrdən çölə buraxmırdılar. Həmin küçələrin camaatı narahat olmağa və kənar məhəllələrdə qalanların azadlığına qibtə eləməyə başlamışdılar. Mühasirədən bayırda qalanlar isə öz sərbəstliklərini mühasirədə qalanların vəziyyəti ilə müqayisə edib təsəlli tapırdılar. "Başqalarının azadlığı bizimkindən də azdır" ifadəsi çoxları üçün təsəlli vasitəsinə dönmüşdü.

Elə həmin dövrdə Qərb qapısı yaxınlığındakı qarışıq məhəllələrdə bir neçə yanğın baş verdi. Sonra məlum oldu ki, həmin yanğınları tibbi karantindən çıxmış adamlar törədiblər. Evlərinə qayıdandan sonra ailə üzvlərinin xəstəlikdən öldüyünü bilib ağlını itirmiş bəziləri öz evlərinə od vururlarmış ki, evə ayaq açmış taun evlə birgə yansın. Bu hərəkətin qarşısını almaq üçün çox çalışmalı oldular. Belə küləkli günlərdə bütün məhəllələr od alıb yana bilərdi. Əvvəlcə sübut eləməyə çalışdılar ki, dövlətin həyata keçirdiyi dezinfeksiya tədbirləri yoluxmanın qarşısını almaq üçün kifayət edir. Bir nəticə çıxmadıqda isə yanğın törədənlərə qarşı çox ciddi cəza tədbirləri elan edildi. Adamlar isə həbsə alınmaq qorxusundan deyil, həbsxanaya düşməyin ölümə bərabər olduğunu bildiklərinə görə bu əməldən əl çəkdilər. Hamı eşitmişdi ki, həbsxanada ölənlərin sayı günügündən artır. Və bu sözlərin həqiqət olduğu sübuta yetmişdi. Məlum səbəblərə görə taun dəstə ilə yığışanlara, əsgərlərə, dindarlara və məhbuslara daha çox və qəfil hücumlar çəkirdi. Bəzi məhbuslar tək yaşasalar da, həbsxana havasından uzaq düşmür, şəhər həbsxanasının məhbusları da, keşikçiləri də bir-birinin ardınca tauna qurban gedirdilər. Beləcə, həbsxananın müdirindən axırıncı məhbusa qədər hamısı ölümə məhkum olunmuşdu və buna görə, bəlkə də, ilk dəfə idi həbsxanada ədalətsizliyə yol verilmirdi.

Şəhər rəhbərliyi həbsxanadakı bu bərabərliyi aradan qaldırmaq üçün həlak olmuş nəzarətçiləri ölümündən sonra medalla təltif eləməyi qərara almışdı. Şəhərdə hərbi vəziyyət elan olunduğundan keşikçilərin də işi, bir növ, hərbi işə bənzədiyinə görə onlara fəxri hərbi medallar verirdilər. Bu işə məhbuslar etiraz eləməsələr də, hərbi rəhbərlik narazılıq edib belə bir təşəbbüsün camaatı çaşdıra biləcəyini söylədi. Hərbçilərin narazılığına haqq qazandırıb, həlak olmuş keşikçiləri epide-

miya medalı ilə təltif etməklə kifayətlənməyi qərara aldılar. Amma əvvəl həlak olub hərbi medalla təltif olunanların medallarını geri almaq olmazdı və hərbçilər də öz sözlərinin üstündə durmuşdular. Bir də ki hərbi medal öz təsir qüvvəsinə görə epidemiya medalına tay ola bilməzdi və epidemiya vaxtı belə bir medal əhəmiyyətsiz görünürdü. Hamı narazılıq edirdi.

Həm də ki inzibati rəhbərlik dini, yaxud hərbi rəhbərlik qədər təşəbbüslərdə buluna bilmirdi. Şəhərdəki iki kilsənin din xadimləri müvəqqəti olaraq bəzi dindarların evlərinə paylanmışdılar. Hərbçilər də çalışırdılar ki, əsgərləri kiçik dəstələrlə məktəblərdə və ictimai binalarda yerbəyer eləsinlər. Beləliklə, xəstəlik bir yandan adamları ümumi bəla qarşısında birləşdirsə də, digər tərəfdən onları ictimai yığıncaq yerlərindən məhrum edir, tənhalaşdırırdı. Elə bu vəziyyət də dəhşətli narahatlıq yaradırdı.

Bütün bu narahatlıq hissləri küləyin təsiri ilə qolboyun olub bəzi adamların şüurunda da yanğın törədirdi. Gecələr şəhər darvazalarına yeni basqınlar oldu. İndi kiçik silahlı dəstələr hücuma keçirdi. Atışmalar oldu, adamlar yaralandı, bəziləri şəhərdən qaça bildilər. Keşikçi dəstələri gücləndirildi və belə təşəbbüslərin qarşısı birdəfəlik alındı. Amma şəhərdə yeni bir inqilabi canlanma yarandı və bəzi zorakılıq halları baş verdi. Yanmış, yaxud tibbi nəzarət naminə bağlanmış evlərin bir qismi qarət olundu. Düzünə qalsa, bu hadisələrdə qərəzçilik olduğunu demək çətindir. Əksər hallarda düzgün adamlar da müəyyən şəraitə düşüb başqalarını yamsılamalı olurdular. Bəziləri od almış evlərə girir, başını itirmiş ev sahibinin gözü qarşısında evdən müəyyən şeyləri çıxarırdılar. Ev sahibinin çaşqınlığını görən digər tamaşaçılar da yanan evə doluşur və çox keçməmiş alov dillərinin işıqlandırdığı alaqaranlıq küçədə döşənəcək və başqa əşyalar daşıyan naməlum adamların

kölgələri qaçışırdı. Belə hadisələrə görə də şəhər rəhbərliyi tauna görə tətbiq olunmuş xüsusi vəziyyəti hərbi vəziyyətlə əvəzlədi və müvafiq qanunlar qəbul etdi. İki oğrunu güllələdilər. Amma heç inanmaq olmurdu ki, belə sərt bir tədbir başqalarına lazımi təsir göstərə bilsin. Bu qədər ölənlərin içində iki nəfərin güllələnməsi böyüdüləsi bir şey deyildi, dənizdə damla timsalındaydı. Sonralar da tez-tez qarət halları baş versə də, şəhər rəhbərliyi lazımi ölçü götürə bilmədi. Bütün şəhər sakinlərinə təsir edən yeganə hadisə qadağan saatının qoyulması oldu. Saat on birdən sonra şəhər boş və kimsəsiz olurdu.

Aylı gecələrdə şəhərin ağappaq divarları və əyri-üyrü, bir az da çarpaz küçələri qəribə mənzərə yaradırdı. Yaşıllığa həsrət qalan bu boşluqdan nə bir addım səsi, nə də it hənirtisi eşidilirdi. Böyük şəhərin sükutunda cansız daş tikililər və süst heykəllərdən başqa heç nə gözə dəymirdi. Burada insan obrazını keçmişin xeyirxahlarına və böyük adamlarına ucaldılmış heykəllərin donuq daş sifətləri canlandırırdı. Kimsəsiz, ürəksıxan küçə ayrıclarında ucalan bu heykəllər bizim düşdüyümüz sükut dünyasının simvolu idi və şəhəri möhtəşəm bir məzar görkəminə salmışdı. Taun, daş divarlar və zil qaranlıq əlbir olub gecənin həyatını əlindən almış, onu tamam-kamal boğmuşdu.

Zülmət insanların qəlbinin içinə çökmüşdü. Ölənlərin dəfn mərasimləri adamları bir az da ruhdan salırdı. Deməli, dəfn mərasimlərindən də danışmaq lazım gələcək və buna görə sizdən əvvəlcədən üzr diləyirik. Bilirsiniz ki, bu fikrə irad tutanlar tapılacaq. Amma bunu da başa düşmək lazımdır ki, həmin vaxt dəfn mərasimləri ara vermirdi və biz də bütün şəhər sakinləri kimi bu dəfnlərlə məşğul olmağa məcbur idik. Elə düşünməyin ki, canlı adamlar arasında olmaq, məsələn, elə dəniz çimərliyinə getməkdən dəfn mərasimlərini üstün

tuturduq. Amma iş burasındadır ki, çimərliklər də bağlanmışdı və adamlar ölülər birliyinin dirilərə qalib gələcəyindən qorxur, bunu düşündükdə üşənirdilər; soyuq çimərlikdə olduğu kimi, əsl həqiqət də elə bunda idi. Həqiqət elə bir şeydir ki, istər onu görməzliyə vur, istər gözünü bağla, o, öz yenilməz qüvvəsi ilə işini görəcək; məsələn, sevdiyiniz bir adamın dəfn vaxtı yetişəndə necə ola bilər ki, onun dəfnində iştirak etməyəsən?

Bəli, bizim dəfn mərasimlərinin əsas özəlliyi tələsmək idi! Bütün rəsmiyyətlər sadələşmiş, dəfn idarəsinin xidməti ləğv edilmişdi. Xəstələr ailədən kənarda vəfat edir və yaxın adamlar meyitlərin yanında çox dayana bilmirdilər. Əgər xəstə axşam ölübsə, meyiti səhərə qədər tək qalır, əgər səhər ölübsə, elə həmin gün vaxt itirmədən torpağa tapşırırdılar. Aydın məsələdir ki, xəstənin vəfatını mütləq şəkildə ailəsinə bildirirdilər. Amma əgər ailə üzvləri əvvəl xəstəyə xidmət etdiklərinə görə karantinə düşüblərsə, onlar dəfndə iştirak edə bilmirdilər. Mərhumla bir evdə yaşamayan qohumlar isə meyit yuyulub tabuta qoyulduqdan sonra qəbiristana yola düşəndə gələ bilərdilər.

Həkim Ryönün çalışdığı əlavə xəstəxana da eynən bu vəziyyətdə idi. Keçmiş məktəb binasının arxa tərəfə açılan qapısı vardı. Dəhlizin bir tərəfində xeyli tabut yığılmışdı. Dəhlizin qarşısında isə ailə öz qohumunun qapağı bağlanmış tabutunu görürdü. Vaxt itirmədən əsas məsələyə keçirdilər, yəni ailə başçısı lazımi sənədlərə qol çəkməli olurdu. Sonra tabutu maşına qoyurdular. Maşın isə ya həqiqi dəfn maşını olurdu, ya da bu məqsədlə kirayələnən böyük «təcili yardım» maşını. Ailə üzvləri hələ işləmək icazəsi olan taksilərdən birinə minir, maşınlar sürəti artırır, kənar küçələrdən keçib qəbiristana doğru şütüyürdü. Girəcəkdə jandarm işçisi maşınları saxlayıb rəsmi buraxılış kağızına möhür vururdu. Əgər bu möhür olmasa, son mənzilə yetmək

mümkün deyildi. Sonra maşınlar yan-yana qazılmış boş qəbirlərə yan alırdı. Kilsə mərasimi ləğv olunduğuna görə keşiş tabutu qəbir başında qəbul eləyirdi. Tabutu düşürüb kəndirə keçirir, qəbirin içinə sallayırdılar. Tabut qəbirə düşən kimi keşiş müqəddəs su tökülmüş zəncirli kasanı tərpədir və elə bununla da ilk torpaq parçaları tabutun üstünə səpilməyə başlayırdı. "Təcili yardım" maşını dayanmadan geri qayıdırdı ki, dezinfeksiyadan keçsin. Ailə üzvləri isə qəbrin torpaqla tamam dolmasını gözləmədən taksiyə doluşur və on beş dəqiqə sonra öz evlərinə çatırdılar.

Beləcə, bütün mərasimin çox tez qurtarması yoluxma qorxusunu da maksimum dərəcədə azaldırdı. Məlumdur ki, əvvəlcə bu cür mərasimlər ailə üzvlərinə əzab verirdi. Amma taun epidemiyası vaxtı belə incəlikləri nəzərə almaq imkanı yox idi; hər şey qayda-qanuna tabe idi. Bəli, əvvəllər adamlar bu vəziyyətdən narazı idilər, çünki hər kəsin ümdə arzularından biri hörmətlə dəfn olunmaqdır. Amma sonralar, xoşbəxtlikdən, vəziyyət kardinal şəkildə dəyişdi, yəni ərzaq problemi meydana gəldi və adamlar daha vacib bir problem qarşısında, sadəcə, ilişib qaldılar. Başı ərzaq üçün növbələrə, get-gələ, rəsmi çalışmalara qarışmış adamlar ətrafda ölənlərin necə can verməsi və özlərinin necə öləcəkləri haqda fikirləşməyə vaxt tapmırdılar. Ərzaq çatışmırdı, bunun özü bir bəla olsa da, əslində, başqa bəlaları unutmağa xidmət eləmişdi. Epidemiya belə geniş yayılsa da, qalan bəlalar bir-birini əvəz edə-edə yüngülləşirdi.

Günlər keçdikcə tabut çatışmırdı, kəfən ağı çatışmırdı, qəbiristanda yer azalırdı. Bir əlac tapmaq lazım idi. İşin öhdəsindən gələ bilmək üçün ən sadə yol dəfn mərasimlərini birləşdirmək, təcili hallarda isə xəstəxana ilə qəbiristan arasında get-gəli artırmaq idi. Ryönün işlədiyi xəstəxanada olan-qalan beş tabut idi. Tabutlara

meyit qoyulandan sonra onları "təcili yardım" maşınına yığırdılar. Qəbiristanda tabutlar boşaldılır, qaralmış meyitləri təzə hazırlanmış açıq anbardakı cənazələrin üstünə qoyurdular. Tabutlar cidd-cəhdlə dezinfeksiya edilir, təmizlənir və yalnız bundan sonra xəstəxanaya qaytarılır və yenidən istifadə olunurdu. Bu işin belə yaxşı təşkil olunmasından prefekt rəisi də məmnun qaldı. O, Ryöyə dedi ki, keçmişdəki taun epidemiyalarının təsvirindəki dəfn mərasimlərinə nisbətən bu mərasim şükürlüdür. Keçmişdəki epidemiyalar vaxtı meyitləri zəncilərin yük arabalarında daşıyırmışlar. Ryö belə cavab verdi:

– Razıyam ki, dəfn mərasimi, az qala, eynidir. Amma indi biz qeydiyyat aparırıq. Ölənlərin sayı ildırım sürəti ilə artır.

Şəhər rəhbərliyi bu işdə müəyyən uğur qazanmışdı, ancaq dəfnin xoşagəlməz bir şəraitdə keçməsini göz önünə alan prefekt idarəsi qohumların dəfndə iştirakına yol verməmək qərarına gəldi. Onlara qeyri-rəsmi olsa da, ancaq qəbiristanın qapısına qədər gəlmək icazəsi verilirdi. Çünki son vaxtlar dəfn mərasimi də xeyli dəyişmişdi. Qəbiristanın boş bir ərazisində iki böyük quyu qazılmışdı. Quyulardan biri kişilər, o birisi isə qadınlar üçün ayrılmışdı. Şəhər rəhbərliyi bu işdə ölülərin mənəviyyatına hörmət hissini qorumağa çalışmışdı. Amma elə ki vəziyyət daha da gərginləşdi, bu hörməti saxlamağa da imkan qalmadı, kişi və qadın meyitlərini üst-üstə, necə gəldi basdırmağa başladılar. Xoşbəxtlikdən, bu xəcalətli vəziyyət ancaq epidemiyanın son və ağır günlərinə qismət oldu. Haqqında danışdığımız əsas dövrdə isə kişi və qadın quyuları ayrı idi və prefekt idarəsi bu vəziyyəti saxlamaq istəyirdi. Quyuların hər ikisinin dibinə tökülmüş qalın əhəng qatı qaynayır və tüstülənirdi. Quyuların qırağında da hündür əhəng yığınları pıqqıldaşırdı. "Təcili yardım" maşınları

meyitləri daşıyıb qurtarandan sonra cəsədlər düzülmüş xərəkləri quyuların başına gətirir, qaxaclaşmış meyitləri bir-bir quyuya itələyib onları yan-yana düzməyə cəhd göstərdikdən sonra üstlərinə əvvəlcə əhəng tökür, sonra isə bir qat torpaqla örtürdülər. Ertəsi gün qohumlardan biri rəsmi sənədə qol çəkməyə çağırılırdı. Bu rəsmiyyət isə sübuta yetirirdi ki, dəfn olunan it deyil, insandır.

Bu fəaliyyəti uğurla həyata keçirmək üçün işçi qüvvəsi lazım idi, amma adamlar qırılırdı, bir ucdan azalırdı. Kiçik tibb işçilərinin və quyuqazanların taundan bir çox qohumları tələf olmuşdu. Adamlar nə qədər qorunsalar da, günlərin birində xəstəliyin qarmağına keçirdilər. Amma ən qəribəsi bunda idi ki, bütün epidemiya dövründə bu sahə üzrə işçi qüvvəsindən ciddi korluq olmadı. Epidemiyanın ən yüksək dərəcəyə çatdığı zamandan az əvvəl həkim Ryönün nigarançılığı çox artmışdı. Nə idarə işində, nə də ağır işlərdə işlətməyə adam tapılmırdı. Amma elə ki taun bütün şəhəri əsirinə çevirdi, vəziyyət kökündən dəyişdi. Çünki taunun güclənməsi iqtisadi çətinlik də yaratmışdı və işsiz qalanlar çox idi. Əksər hallarda əsas tibb işçiləri çatışmasa da, kiçik sanitar xidmətçiləri kifayət qədər tapılırdı. O zaman hiss olunurdu ki, ehtiyac qorxuya üstün gəlir və xırda işlərdə riskə görə artıq pul verildiyi üçün işə girmək istəyən çoxdur. Səhiyyə idarəsində işə girmək istəyənlərin siyahısı yaranmışdı. Məzuniyyətə çıxanları siyahı üzrə birinci olanlar əvəz edirdilər. Belə bir şərait yarandığına görə prefekt rəisi məhbusların məcburi sanitar xidmətə cəlb olunması fikrini həyata keçirmədi. Nə qədər ki işsizlər vardı, məcburi əməyi təxirə salmaq olardı.

Avqust ayının axırına qədər həlak olan şəhər sakinləri, pis-yaxşı, müəyyən bir qayda üzrə dəfn olunur və şəhər rəhbərliyi öz vəzifələrini vicdanla yerinə yetirdiklərinə arxayın idilər. Amma hadisələrin getdikcə sərt

şəkil alması dəfn işində də kəskin dəyişikliklər yaratdı. Avqust ayından başlayaraq taun elə ciddi hücuma keçdi, ölənlərin sayı elə artdı ki, şəhərin kiçik qəbiristanı böyük axına tab gətirə bilmədi. Qəbiristanın divarlarını söküb ərazini genişləndirdilər. Amma bu da kifayət eləmədi, başqa çarə tapmaq lazım idi. Qərara aldılar ki, ölüləri gecə basdırsınlar, tələsiklik çox da nəzərə çarpmasın. "Təcili yardım" maşınlarına daha çox meyit yığmaq imkanı yarandı. Gecələr qadağan saatını pozanlar (yaxud xidməti üzrə küçədə olanlar) ağ rəngə boyanmış uzun səhiyyə maşınlarının böyük sürətlə, zəng çala-çala qəbiristana tərəf şütüdüyünü görə bilirdilər. Meyitləri tələm-tələsik quyulara tökürdülər. Maşın boşalan kimi meyitlərin üzərinə parça-parça əhəng tökülür, sonra isə quyunun üstü torpaqlanırdı. Getdikcə daha dərin quyular qazmağa çalışırdılar.

Çox keçməmiş yenə qəbiristanda yer çatışmadı və əlavə yer axtarmalı oldular. Şəhər rəhbərliyi bütün tullantıları zibil yandırılan anbara göndərmək haqqında göstəriş verdi. Nəhayət, taundan ölənləri də sobaya göndərməli oldular. Bu məqsədlə şəhərin şərqində darvazadan çöldə köhnə sobanı işə salmaq lazım gəldi. Nəzarət postları da darvazadan bayırda quruldu. Bələdiyyə idarəsinin bir işçisi məsləhət gördü ki, işi asanlaşdırmaq üçün indi istifadəsiz qalmış tramvay yolundan istifadə etsinlər. Bu məqsədlə tramvayların oturacaqlarını söküb əvəzinə xərəklər düzdülər və tramvay yolunu sobanın qarşısına qədər uzatdılar. Nəzarətçilər sobaya gedən tramvay yolu üstündəki təpəyə qalxmağı qadağan eləsələr də, adamlar qaçıb bu təpəyə qalxır və sobaya tərəf gedən, içi meyitlə dolu tramvayların üstünə çiçəklər atırdılar. İçərisinə meyit yığılmış, üstünə gül-çiçək səpələnmiş tramvaylar gecələr də işləyirdi.

İlk günlər səhərə yaxın şəhərin şərq məhəllələri üzərinə pis iyli, qalın bir duman çökürdü. Həkimlər

söyləyirdilər ki, həmin dumanın iyi pis olsa da, adamlara zərər vura bilməz. Lakin bu məhəllələrin sakinləri dərhal bəyan etdilər ki, öz yurd-yuvalarını tərk edəcəklər, çünki taunun, guya, göydən ələndiyinə inanırdılar. Mühəndislər baş sındırıb mücərrəd bir qurğunun köməyi ilə tüstünün istiqamətini dəyişdilər və camaat sakitləşdi. Yalnız bərk külək qalxan günlər şərq tərəfdən şəhərə qəribə bir iy yayılır və adamlar hiss edirdilər ki, taun hər axşam alov dillərinə bürünüb şəhər əhalisinin bir dəstəsini yoxa çıxarır.

Epidemiyanın ən ağır günləri belə keçirdi. Amma xoşbəxtlikdən, vəziyyət bundan da ağır olmadı. Əgər bundan da ağır bir vəziyyət yaransaydı, nə idarələrin canfəşanlığı, nə rəhbərliyin yeni tədbirləri, nə də sobaların gecə-gündüz işləməsi köməyə çata bilərdi. Ryö bilirdi ki, çarəsiz tədbirlər, məsələn, meyitlərin dənizə atılması tədbiri də nəzərdə tutulub və o, eybəcərləşmiş meyitlərin mavi dalğalar üzərində üzməsini də təsəvvürə gətirirdi. O həm də bilirdi ki, qırılanların sayı belə artsa, heç bir təşkilat vəziyyəti idarə edə bilməyəcək, adamlar dəstə-dəstə küçələrdə ölüb çürüyəcək, ağlını itirmiş ölümcül xəstələr sağ qalanlara sarmanacaq, şəhər meydanlarında dəhşətli səhnələr yaranacaq.

Bizim şəhər camaatı indi ayrılıq sıxıntısı əvəzinə belə qorxulu hisslər keçirməyə başlamışdı. Mən özüm yaxşıca duyuram və təəssüflənirəm ki, bu mövzuda danışarkən qeyri-adi səhnələr, məsələn, köhnə kitablarda rast gəlinən qəhrəmanlıq nümunələri, yaxud gözqamaşdıran bir əhvalat təsviri verə bilmirəm. Əslinə qalsa, bəlanın özü maraqlı tamaşa deyil və ən ağır bəlalar bir-birinə bənzəyir. Taun epidemiyası günlərini görənlər həmin dövrü amansız, sonu görünməyən bir yanğın kimi deyil, hər şeyi əzib-dağıdan amansız bir tapdaq kimi yada salırlar.

Epidemiyanın əvvəlində həkim Ryönün təsəvvürə gətirdiyi coşqun mənzərələr tauna aid deyilmiş. Xəstəlik əvvəlcə yaxşı işləyən dəqiq bir idarə işinə dönmüşdü. Mən isə nə başqalarını, nə də özümü çaşdırmamaq üçün hər şeyi olduğu kimi təsvir etməyi qərara aldım. Sənətkarlıq naminə sözə bəzək vurmadım və xırda detalları nəzərə almasaq, hər əhvalatı düzünəqulu söyləyirəm. Əlimi ürəyimin üstünə qoyub deyirəm ki, əgər o dövrün ən ağır və ən ümumi acısı ayrılıq hissi idisə, bu hissin özü də mənasını itirməyə başlamışdı.

Ayrılıqdan daha çox əzab çəkmiş camaat da şəraitə adət eləməyə başlamışdı yəni? Yox, belə demək olmaz. Onlar həm fiziki, həm də mənəvi cəhətdən zəifləmişdilər desək, daha düzgün olar. Epidemiyanın əvvəlində onlar uzaq düşdükləri adamları daha tez-tez xatırlayır və heyifsilənirdilər. Amma uzaqda qalmış sevimli adamların gülüşü, xoşbəxt günlər xatırlansa da, indi nə etdiklərini, nə düşündüklərini təsəvvürə gətirmək çətinləşirdi. Bir sözlə, adamların yaddaşı dəyişməsə də, təsəvvür etmək imkanı azalmışdı. Epidemiyanın ikinci mərhələsində isə onların yaddaşı da korlanmağa başlamışdı. Amma unudulan sevimli adamların sifəti deyil, onlarla təmas və mehribanlıq idi. İlk həftələr adamlar ayrı düşdükləri məhəbbətin uzaq, gözəl bir kölgəyə döndüyündən şikayətlənirdilərsə, sonralar həmin kölgənin də uzaqlaşıb rəngini və gözəlliyini itirdiyini duydular. Bu uzun ayrılıq çağında yaxın adamın məhəbbəti və məhrəmliyi təsəvvür dairəsindən də uzaqlaşmağa başlamışdı.

Adamlar taunun qayda-qanunlarına təslim olur və getdikcə xırdalaşırdılar. Ali hisslər bizim camaatdan uzaqlaşırdı. Onları yeknəsəq duyğular əvəz edirdi. Hamının bircə fikri vardı: “Bu vəziyyət tez sona çatsın”. Bəli, hamı belə deyirdi və hamının ümdə arzusu

bu bəladan qurtarmaq idi. Amma bu arzunun özü də zəifləmiş, atəşsiz, cılız bir səsə çevrilmişdi. Xəstəliyin ilk həftələrindəki coşqunluq süstlüyə çevrilmişdi. Bu süstlük isə mütilikdən çox, müvəqqəti dözümə oxşayırdı.

Camaatımız çıxış yolu tapmadığına görə şəraitə uymalı olmuşdu. Doğrudur, bədbəxtlik və əzab hissi hələ yaşayırdı, amma əvvəlki kimi göynədici deyildi. Bəziləri, məsələn, elə həkim Ryö bunu duyur və fikirləşirdi ki, kök salmaqda olan ümidsizlik adəti ümidsizliyin özündən də pisdir. Ayrı düşənlər ilk vaxtlar ümidlə yaşayırdılar, indi bu ümid işığı da sönməyə başlayırdı. Onlara küçələrdə, kafelərdə, dost evində rast gələndə gözlərindəki darıxma adama sirayət edir və bu gözlərin təsiri ilə bütün şəhər gözləmə otağına bənzəyir. Peşəsi olanlar taunun axınına düşüb dinməzcə işlərini görürdülər. İndi hamı təvazökar idi. Ayrı düşmüşlər daha özlərinin ayrılıq əzabından danışmır, başqaları ilə birgə xəstəlikdən ölənlərin gündəlik rəqəmlərini izləyirdilər. Əvvəllər onlar özlərini gəlmə sayır və bu ümumi bəlanı qəbul etmək istəmirdilər. İndi isə onlar yaddaşlarını və ümidlərini itirib keçən saatlarla yaşayırdılar. Ancaq indiki zaman mövcud idi. Onu da demək lazımdır ki, taun məhəbbət və dostluğa da düşmən kəsilmişdi. Məhəbbət qismən gələcəyə üz tutan bir hissdir, biz isə yaşadığımız anın ixtiyarında idik.

Məlum məsələdir ki, bu vəziyyət də hamı üçün eyni deyildi. Düzdür, ayrı düşmüş sevgililərin hamısı əvvəl-axır həmin vəziyyətə düşürdü, amma bəzisi tez, bəzisi isə gec təslim olurdu. Elə ki vəziyyətə tabe olub sakitləşirdilər, qüssəli bir görkəm alırdılar. Sonra taunun tez qurtarması üçün çarələr fikirləşirdilər. Bəziləri qısqanclıq xəstəliyinə tutulur, bəziləri isə yeni əzmkarlıqla fəaliyyətə qoşulur, şənbə axşamı və bazar günləri evdə oturmurdular. Axşam düşəndə isə melanxolik

bir əhval içində hiss edirdilər ki, yaddaşları tamam pozulmayıb, xatirələr hələ yaşayır. Axşamçağı dindarlar üçün vicdan imtahanı çağıdır. Məhbuslar və sürgünə düşmüşlər üçün isə axşamlar ən ağır iztirab çağıdır. Onlar səmanın boşluğundan başqa heç nə görə bilmir, boşluqdan asılıb qalır, sonra isə vəbaya bürünüb yatırdılar.

Belə bir vəziyyətdə hamı başa düşmüşdü ki, fərdi həyat yaşamaq imkanı yoxa çıxıb. Taunun ilk günlərində ancaq öz xırda maraqlarının qeydinə qalanlar, başqalarına məhəl qoymadan şəxsi həyatına sığınanlar xeyli dəyişmişdilər. İndi onlar başqaları kimi fikirləşir, camaata qoşulub ümumiləşir, öz məhəbbətlərinin belə əvvəlki sifətini itirirdilər. Taun onları elə cəzb eləmişdi ki, ancaq yuxuda ümid işıqlarını sezə bilir və bəzən də "taun gəlsə, canım qurtarardı" fikrinə gəlirdilər. Amma əslində, onlar yuxuda idilər, bütün bu dövrün özü uzun yuxudan başqa bir şey deyildi. Şəhər əhalisi yuxu içində dolanan bir kütləyə dönmüşdü. Ancaq gecənin ikiqat yuxusunda hərdən huşa gəlir, ürək yaralarının ağrılarını duyaraq diksinib ayılır, dərdləri təzələnir, unudulmuş məhəbbətlərinin çaşqın sifətini görürdülər. Səhər açılanda isə yenidən taunun ağuşuna cumurdular.

Soruşa bilərlər ki, ayrı düşmüş sevgililər kimə bənzəyirdilər? Cavab asandır: demək olar ki, heç kimə bənzəmirdilər. Yaxud elə deyə də bilərik ki, hamıya bənzəyirdilər, heç kimdən fərqlənmirdilər. Onlar şəhərin ümumi, əzablı həyatına qoşulmuşdular, etiraz hissləri soyuqqanlılığa çevrilmişdi. Bir də görürdün ki, ən ağıllıları belə qəzet səhifələrində, radio xəbərlərində taunun tez qurtaracağı haqda məlumat arayır, hansısa bir jurnalistin darıxmadan əsnəyə-əsnəyə yazdığı sətirlərdən ümid, ya da qorxu kökləri tapırdılar. Sonra isə pivə içir, xəstələrə qulluq edir, idarə işi görür, val oxudur,

hamı kimi güzəran keçirirdilər. Başqa sözlə desək, onların başqa güzəran seçmək imkanı qalmamışdı. Taun həyat tərzi seçmək imkanını aradan qaldırmışdı. Şəhər əhli nə geyiminə, nə də aldığı ərzağın keyfiyyətinə fikir verirdi. Hamı hər şeylə razılaşırdı.

Sözün qısası, belə demək olar ki, ayrı düşmüş sevgililər əvvəlki bütün üstün cəhətlərini itirmişdilər. Sevgidən yaranan qürur hissi də, məhəbbətin dadı, tamı da çəkilib gedir, unudulurdu. İndi, heç olmasa, vəziyyət aydınlaşmışdı, hamı bilirdi ki, bəla ümumi bəladır. İndi hamımız birgə şəhər darvazalarından gələn atəş səslərinə qulaq asır, həyat ümidi verən məlhəmlərə baxır, yanğınlara, ölülərin siyahısına, vahiməli tüstülərə nəzər yetirir, "təcili yardım" maşınlarının canüzən zəngini eşidir, hamımız birgə məhbus çörəyi yeyir, özümüz də bilmədən eyni taleyin kədərli yekununu gözləyirdik. Məhəbbət yoxa çıxmamışdı, o, bizimlə idi, amma istifadəsiz qalırdı, ağır yükə çevrilirdi, qanımızdaca süstləşirdi. Məhəbbət yekunsuz bir səbirə, ümidsiz bir intizara dönmüşdü. Bunu adamların ərzaq mağazaları qarşısındakı uzun və səs-səmirsiz növbələrindən də duymaq olurdu. Elə bu da itaətkarlıq, hədsiz və sonsuz bir dözüm nümunəsi idi. Amma ayrılıq dözümü başqalarından min dəfə güclüdür. Ayrılığın yaratdığı aclığı heç nə ilə doydurmaq olmaz.

Ayrı düşmüş sevgililərin şəhərimizdəki mənəvi güzəranını düzgün təsəvvür edə bilmək üçün yaşıllıqsız, toz basmış bu şəhərdə axşamçağı kişi və qadınların küçələrə axışmasını göz qabağına gətirmək lazımdır. Şəhərin yuxarı meydançalarına, maşın və mühərrik səslərindən uzaq guşələrə axışanların xışıltılı ayaq səsləri və boğuq pıçıltıları şəhər üzərində cövlan edən bəlanın vıyıltılı qanad səslərinə qarışıb uzaqlaşır və bu səda hər axşam təkrar olunduqca beyinlərdə yuva salır, ürəklərdən didərgin düşmüş məhəbbətin yerinə çökürdü.

# IV FƏSİL

Sentyabr və oktyabr aylarında taun şəhəri tamam əldən saldı. Yüz minlərlə adam hələ sağ qalsa da, sürünə-sürünə yaşayır, qurtarmaq bilməyən günlərin, həftələrin sonunu gözləyirdi. Səmanı gah duman örtür, gah bürkü olur, gah da yağış yağırdı. Cənubdan axan buludlar asta-asta yaxınlaşır, amma şəhərin üstündən yan keçir, göyün dərinliyində dövrə vururdu. Elə bil, keşiş Panelunun təsvir elədiyi bəla şəhərin üstündə cövlan edir, buludları kənara qovalayırdı. Oktyabrın əvvəlində güclü leysan küçələri təmizlədi. Sonra başqa bir yenilik baş vermədi.

Ryö və dostları necə bərk yorulduqlarını duymağa başlamışdılar. Sanitar dəstələrində çalışanlar əldən düşmüşdülər. Həkim Ryö dostlarında və özündə duyduğu biganəlik hissinin ağır yorğunluqdan gəldiyini bilirdi; məsələn, əvvəllər taunun vəziyyəti haqda məlumatları izləyən bu adamlar indi bu mövzuya maraq göstərmirdilər. Karantin müəssisələrindən birinə müvəqqəti rəhbər təyin olunmuş Ramber nəzarət altında olan adamların sayını əzbər bilirdi. Xəstəlik əlaməti duyulan adamların lazımi yerə köçürülməsi sistemini də, serum dərmanının xilas edə bildiyi adamların sayını da hafizəsinə həkk eləmişdi. Amma indi həftə ərzində taundan ölənlərin sayı ilə, xəstəliyin güclənməsi, yaxud zəifləməsi ilə maraqlanmırdı. O, hələ də şəhərdən çıxa biləcəyinə ümid edirdi.

Gecə-gündüz işləyən başqaları isə nə qəzet oxuyur, nə də radioya qulaq asırdılar. Məlumatı başqasından eşidəndə maraqlanan adam kimi qulaq assalar da, elə laqeydlik göstərirdilər ki, döyüşlərdə əldən düşmüş, ancaq borcunu yerinə yetirən, nə qələbəyə, nə də barışığa ümidi olan döyüşçüləri xatırladırdılar.

Qran hələ də taundan qırılanların siyahısı ilə məşğul

olsa da, lazım gəlsə, ümumi nəticələr haqda bir söz deyə bilməzdi. Yorğunluğa tab gətirən Taru, Ramber və Ryödən fərqli olaraq onun səhhəti zəif idi. Çünki o həm öz idarəsində çalışır, həm Ryöyə kömək edir, həm də xəlvəti məşğuliyyətini davam etdirirdi. O, həmişə yorğun görünsə də, ürəyində tutduğu iki-üç arzuya ümid bəsləyirdi. Əvvəlcə fikirləşirdi ki, taun qurtarandan sonra birhəftəlik də olsa məzuniyyət götürüb yaxşıca istirahət edəcək. Həm də ümid edirdi ki, yazısını başa vurub naşirləri heyran qoyacağı gün çatacaq. Hərdən o, səmimi söhbətə girişir, bəzən həkim Ryö ilə söhbətində onun arvadı Jannanı yada salır, deyirdi ki, yəqin, Janna ərini unutmur, onun taleyini fikirləşir. Elə onunla söhbətlərin birində həkim duydu ki, ilk dəfədir kövrəklik edib öz arvadı haqqında nigaranlığından danışır. Arvadı tez-tez teleqram göndərib səhhətinin yaxşılaşdığını söyləsə də, həkim dözə bilməyib müalicə evinin baş həkiminə teleqram vurmuş, arvadının əhvalını soruşmuşdu. Cavabda isə bildirmişdilər ki, arvadının səhhəti pisləşir, amma vəziyyətin ciddiləşməməsi üçün əllərindən gələni edəcəklər. Həkim bu sirri ürəyində saxlamışdı və dərdini qəfildən Qrana açmasını isə yorğunluq əlaməti sayırdı. Qran onu sorğuya tutub arvadının əhvalını soruşanda həkim cavab verməli olmuşdu. Sonra isə Qran belə demişdi: “Bilirsinizmi, həkim, indi bu xəstəlik yaxşı müalicə olunur”. Ryö də onunla razılaşıb əlavə eləmişdi ki, ayrılıq çox uzun çəkdi, əgər arvadının yanında olsa, müalicəsində kömək edə bilərdi və arvadı, yəqin ki, təkliyin də əzabını çəkir. Sonra həkim susmağa çalışmış, Qranın suallarına ötəri cavablar vermişdi.

Elə başqaları da eyni vəziyyətdə idi. Taru birtəhər dözürdüsə də, gündəliyindən duyulurdu ki, qeydə aldığı əhvalatlar əvvəlki kimi dərin təhlil olunsa da, mövzu genişliyi azalmışdı. Bütün bu dövr ərzində onun

ən çox maraqlandığı adam Kottar olmuşdu. Mehmanxana karantin evinə çevriləndən sonra Ryönün mənzilinə köçmüş Taru axşamlar Qranın, yaxud Ryönün gətirdiyi statistik məlumatlarla lap az maraqlanırdı. O, söhbəti dəyişərək şəhərdə baş vermiş xırda əhvalatlar haqda məlumat arayırdı.

Kastel də əldən düşmüşdü. Bir gün o, Ryöyə serum dərmanın hazır olduğunu xəbər verməyə gəlmişdi və onlar qərara almışdılar ki, ilk peyvənd iynəsini cənab Otonun ağır vəziyyətdə xəstəxanaya gətirilmiş oğlu üzərində sınaqdan keçirsinlər. Həkim Ryö köhnə dostuna son günlər ölənlərin sayı haqda məlumat verdiyi vaxt gördü ki, kişi oturduğu kreslodaca dərin yuxuya gedib. Kastelin, adətən, mülayim və şən görünən, gənclik ovqatı yağan sifəti qoca, üzgün bir kişi sifətinə çevrilmişdi. Aralı qalmış dodaqları arasına tüpürcək yığılmışdı. Həkimin həyəcandan nəfəsi daraldı.

Ryö hiss edirdi ki, yorğunluq onu da belə zəiflədib. Hiss edirdi ki, əsəbləri zəifləyir, işin və günlərin ağırlığından dözümü yoxa çıxır, təmkini çılğınlığa çevrilir. Təmkini qorumaq üçün yeganə çıxış yolunu vəziyyətdən yaranmış sərtliyi ürəyində saxlamaqda görürdü, işi davam etdirə bilmək üçün başqa çarə yox idi. Başqa heç nəyə ümid qalmamışdı, yorğunluq bütün ümidləri yoxa çıxarmışdı. O bilirdi ki, yaranmış vəziyyətdə müalicə ilə deyil, diaqnostika ilə məşğul olur. Onun işi görmək, müayinə etmək, qeydə almaq və hökm çıxarmaqdır. Əri xəstəliyə tutulmuş qadınlar həkimin qolundan yapışıb hönkürə-hönkürə deyirdilər: "Həkim, onu həyata qaytarın!" Amma onun işi həyata qaytarmaq deyil, xəstəni izolyatora göndərməkdən ibarət idi. Ona dikilmiş gözlərdəki kinin səbəbini anlaya bilmirdi. Hələ bir nəfər belə də demişdi: "Sizin ürəyiniz yoxdur". Xeyr, onun ürəyi var. Bu ürək yaşamaq üçün doğulmuş adamların ölümünə günün iyirmi saatı ərzində şahid

olmalı idi. Ürəyin bundan artıq imkanı yox idi, adamları həyata qaytarmağa gücü qalmırdı.

Yox, gün ərzində onun işi kömək eləmək deyil, qeydə almaqdan ibarət olurdu. Doğrudur, buna kişi peşəsi demək olmazdı. Amma əslinə qalsa, qorxuya düşmüş, üzülmüş camaat arasında da yaxşı kişi peşəsinə xidmət edə bilənlər çox deyildi. Hələ yaxşı ki, yorğunluq güc gəlmişdi. Əgər Ryö belə yorğun olmasaydı, ölümün bolluğu onu kövrəldərdi. Gün ərzində cəmi dörd saat yatan adam kövrəklik edə bilməz. O, hər şeyi olduğu kimi görür, gördüyü kimi qəbul edir, acı bir həqiqət sayır. Məhkum olunmuş xəstələr də bunu duyurdular. Taundan əvvəl onlar həkimi xilaskar sayırdılar. Həkim üç həb və bir iynə ilə xəstəni sağaldır, təşəkkürlər alırdı. İndi isə həkim xəstə yanına əsgərlərlə gəlirdi və bəzən qapını açdırmaq üçün əsgərlər tüfəngin qundağını işə salmalı olurdular. Xəstələr istərdilər həkimi də, bütün dünyanı da özləri ilə o dünyaya aparsınlar. Bəli, doğrudur, insan insanlardan ayrılmaq istəmir, əgər hər dəfə bunu duyanda kövrəklik etsən, öz vəziyyətinə də kövrəlməli olarsan.

Qurtarmaq bilməyən həftələr ərzində həkim ayrılıq əzabı çəkir, dostlarının üzündə də həmin ağrını duyurdu. Amma getdikcə artan yorğunluğun ən qorxulu cəhəti bu idi ki, bəlaya qarşı mübarizəni davam etdirənlər ətrafdakı hadisələrə biganəliklə yanaşı, öz-özlərinə də biganəlik etməyə başlamışdılar. Yorğunluğun təsirindən bəziləri çox da vacib sayılmayan adətlərdən vaz keçirdilər. Sonra yavaş-yavaş onlar tərtib olunmuş gigiyena qaydalarına da laqeydlik göstərir, tələb olunan dezinfeksiyadan keçmir, bəzən yoluxma əleyhinə tədbir görmədən ciyər taununa tutulmuş xəstələrin yanına gəlirdilər. Xəstəlik yayılmış evlərə hazırlıqsız getməli olduqlarını biləndə idarəyə qayıdıb lazımi qoruyucu ləvazimatı götürməyə ərinirdilər. Elə ən qorxulu

cəhət də bu idi ki, tauna qarşı mübarizə aparanların özləri taunun qurbanı ola bilərdilər. Onlar bəxtlərinə ümid edirdilər, amma bəxtə də bel bağlamaq olmur.

Şəhərdə elə bir adam da var idi ki, yorulmur, ruhdan düşmürdü, ancaq yaranmış vəziyyətdən həmişə razılıq edirdi. Bu adam bizim Kottar idi. O, tanıdığı adamlarla əlaqələrini pozmasa da, özünü hadisələrin axınından bir balaca kənarda saxlayırdı. Bu dünyada yeganə sirdaşı Taru idi. İlk növbədə ona görə ki, Taru bütün əhvalatlardan xəbərdar idi, sonrası da ki, Taru onu ürək açıqlığı və səmimiyyətlə qarşılayırdı. Onu ən çox təəccübləndirən bu idi ki, Taru bütün günü işləyib əldən düşsə də, adamlara qarşı mehribanlıq və xeyirxahlığını itirmirdi. Taru işdən tamam üzgün qayıdanda da özünü cəmləyə bilir və ertəsi gün təzə qüvvə ilə işə başlayırdı. Bir gün Kottar Rambera demişdi: "Bununla dərdləşmək olar, çünki əsl kişidir. Tək bircə sözdən adamın fikrini başa düşür".

Elə bu sirdaşlığına görə də Tarunun dəftərində Kottarın şəxsiyyəti haqda qeydlər çoxalıb. Taru çalışıb ki, Kottarın şəxsiyyətini onun hərəkətləri və söhbətləri əsasında təsvir etsin. Gündəlikdəki "Kottar və taun məsələsi" başlıqlı qeydlər bir neçə səhifəni tutur və biz də bu qeydlər haqda məlumat vermək istəyirik. Tarunun Kottar haqda ümumi fikri belə bir cümlə ilə başlayır: "Bu adam inkişafda olan bir adamdır. O, doğrudan da, getdikcə qıvraqlaşır və yaranmış vəziyyətdən şikayətlənmirdi. Bəzən Taru ilə söhbət vaxtı belə cümlələr işlədirmiş: "Doğrudur, işlər yaxşı deyil. Amma heç olmasa, hamının başı qarışıb".

Sonra Taru yazırdı: "Doğrudur, o da başqaları kimi hədə altındadır, daha doğrusu, başqaları ilə birgə hədə altına düşüb. Amma məsələni ciddi qəbul eləmir, əminəm ki, o da taun xəstəliyinə tutula bilər. İş burasındadır ki, o, maraqlı bir fikrə düşüb. Deyir ki, ağır xəstəliyə,

yaxud ciddi bəlaya düşmüş bir adam başqa xəstəlik və bəlalardan qorxmaya bilər. Bir dəfə mənə belə dedi: "Heç xəbəriniz varmı ki, iki xəstəlik bir bədənə sığmır? Təsəvvür edin ki, ciddi və çarəsiz bir xəstəliyə, xərçəng, yaxud vərəmə tutulmusunuz. Sizə heç vaxt taun, yaxud yatalaq xəstəliyi yoluxmaz, bu, mümkün deyil. Hələ bundan da artıq demək olar; heç ömrünüzdə görmüsünüz ki, xərçəng xəstəliyinə tutulmuş bir adam avtomobil qəzasında ölə?" Hər halda, bu fikirlə Kottar özünə xoş ovqat yaradırdı. Onun qorxduğu yeganə şey təklik idi. Tək məhbus olmaqdansa, camaatla birgə ölməyi üstün tutardı. Taun başlayandan nə gizli istintaq, nə qovluqlar, nə gizli göstərişlər, nə də qəfil həbs haqda fikirləşən vardı. Daha doğrusu, indi nə polis, nə köhnəli-təzəli cinayətlər, nə də günahkarlar var. İndi ancaq taledən mərhəmət gözləyən məhkumlar var, elə polis işçiləri də onların arasındadırlar.

Beləliklə, Tarunun təsvirinə görə, Kottar şəhər camaatının indi düşdüyü sıxıntının dadını çoxdan bilən bir adam imiş və az qalırmış camaata belə desin: "Hə, çarpışın, mən bu sıxıntını çoxdan görmüşəm".

Bir dəfə ona dedim ki, adamlardan ayrı düşməmək üçün ən düz yol düzgünlükdür. O isə acıqla mənə baxıb dedi: "İş buna qalsa, heç kəs birgə olmaz. Bəli, mən belə bilirəm. Adamları birləşdirmək üçün onlara taun xəstəliyi göndərmək lazımdır. Ətrafınıza baxsanız, bunu duyarsınız". Onun nə demək istədiyini də, müasir şəraitdən necə razı olduğunu da lap yaxşı başa düşdüm. O, özündə baş vermiş dəyişikliyi başqalarında da duymuşdu: şəhərdə azmış bir kimsənin sualına əvvəllər laqeyd qalanlar indi dayanıb yol göstərir, məsləhət verirlər; indi camaat bahalı restoranlara axışıb, orada çox ləngiməyə çalışır; kinoteatrların qarşısında uzun növbələr yaranır, tamaşa zalları və rəqs meydançaları adamla dolu olur; hamı insan yaxınlığı arayır,

çiyin-çiyinə, qarın-qarına sıxlaşırlar. Kottar belə yaxınlığı hamıdan əvvəl aramışdı. Ancaq qadınlarla yaxınlığa can atmırdı, çünki cürbəcür fikirlər mane olurdu. Könlünə qadın düşəndə də bu fikirdən vaz keçirdi ki, əvvəl-axır bu əməldən zərər çəkə bilər.

Ümumiyyətlə, o, taundan razı idi. Təkliyi xoşlamasa da, həmişə tək qalmış bu adamı taun camaatla yaxınlaşdırmışdı. Ətrafındakılara həmdəm olmaqdan həzz alırdı. Bəli, o, hədə altında yaşayan adamların qorxusuna, şübhəsinə, nigaranlığına həmdəm idi. Bu yaxın adamlar söz salmaq istəməsələr də, bütün söhbətlərin axırı tauna gəlib çıxır, özləri yüngül bir başağrısı tutan kimi şübhəyə düşüb qorxudan ağarır. Hər şeydən şübhələnir, nigaranlıq çəkir, köynəklərinin bir düyməsi itəndə belə həyəcan keçirirdilər.

Taru bəzi axşamlar Kottarla gəzməyə çıxırmış. Sonra o, gündəliyində yazırdı ki, axşam düşəndə, yaxud gecə vaxtı küçəyə çıxıb rəngarəng insan axınına qarışır, adamlarla çiyin-çiyinə gəzinir, taunun soyuğundan qorunmaq üçün sığınacaq sayılan əyləncə yerlərinə gedirlərmiş. Bir neçə ay əvvəl Kottarın tək oturub vaxt keçirdiyi, amma rahatlıq tapa bilmədiyi bahalı restoranlara indi bütün şəhər axışır, hamı birgə əylənir, vaxt keçirirdi. Hər şey günü-gündən bahalaşdığına görə indi daha çox pul xərclənirdi, şəhərdə qıtlaşan ərzağı restoranlarda tapmaq olurdu. Qumarxanalarda oyunların və bikar müştərilərin sayı daha da artmışdı. Taru ilə Kottar əvvəllər yaxınlıqlarını gizlədən və indi açıq-aşkar birgə gəzən qadın-kişilərə də tamaşa edirdilər. Belə cütləşənlər indi heç kimdən çəkinmədən qol-boyun olub şəhəri dolanır, mehribanlıqlarını gizlətmirdilər. Kottar belələrinə heyran-heyran baxıb deyirdi: "Əhsən, qoçaqlar!" O, qaynaşan camaatın arasında ucadan danışır, ətrafda ürəklə pul xərcləyənlərə, çəkinmədən işrətə qoşulanlara maraqla tamaşa edirdi.

Amma Taru qeyd edirdi ki, Kottarın vəziyyətə münasibətində qəddarlıq çox duyulmurdu. Onun: "Mən bu günləri başqalarından əvvəl də görmüşəm", – deməsi lovğalıqdan çox bədbinliyə bənzəyirdi. Tarunun dediyinə görə, Kottar səma ilə şəhər divarları arasında həbsə alınmış bu camaata rəğbət bəsləyirmiş. Kottar deyirmiş ki, imkanı olsa, bu camaata lazımi məsləhət də verə bilərmiş. Bir dəfə o, Taruya deyib: "Görürsünüz nə danışırlar: taundan sonra belə edəcəyəm, filan işi görəcəyəm... Sakitcə oturub gözləməkdənsə, öz ovqatlarını korlayırlar. Başa düşmürlər ki, hələlik vəziyyət şükürlüdür. Heç mən deyə bilərəmmi ki, həbsə alınandan sonra belə edəcəyəm, filan işi görəcəyəm? Həbs işin sonu deyil, əvvəlidir. Taun isə başqa şeydir... Mənim fikrimi bilmək istəyirsiniz? Bu adamların bədbəxtliyi ondadır ki, özlərinə sərbəstlik vermirlər. Bəli, mən nə dediyimi bilirəm".

Sonra Taru yazırdı: "O, doğrudan da, nə dediyini bilir. Kottar Oran camaatının təbiətindəki ziddiyyətləri görürdü, bilirdi ki, adamlar yaxınlıq ehtiyacı duysalar da, bir-birindən ehtiyat edir, çəkinirlər. Məlum məsələdir ki, hər kəs öz qonşusundan şübhələnir, cüzi bir yaxınlığın yoluxma ilə nəticələnə biləcəyini fikirləşirdi. Elə Kottar da bir vaxt yaxınlıq eləmək istədiyi hər kəsdən şübhələnirdi ki, onun haqda polisə xəbər verə bilərlər. İndi hamı şübhə içində idi. Hamı bilirdi ki, arxayınca yaşadığı vaxt yaxası taunun əlinə keçə bilər. Elə bu bir həqiqət olduğuna görə hamı qorxu içində idi. Kottar isə əvvəllər də qorxu içində yaşadığına görə indiki vəziyyətdə başqalarından fərqlənirdi. O, taunun hələ ələ keçirmədiyi adamlar arasında dolandıqca fikirləşirdi ki, azadlığı da, həyatı da hər an əlindən gedə bilər. O, qorxu hissinə çoxdan bələd idi və indi hamının bu hissə qapanmasından razı idi. Daha doğrusu, ona elə gəlirdi ki, bu hissi başqaları ilə bölüşüb və yükü

yüngülləşib. Elə onun səhvi də bunda idi və onu anlamaq daha çətin bir məsələyə dönürdü. Əslində, elə onun maraqlı cəhəti də bu cəhət idi".

Daha sonra Tarunun qeydləri qəribə bir epizodla başa vurulub. Həmin hissədə Kottarın da, taun xəstəliyinə tutulanların da düşdüyü vəziyyət daha yaxından görünür. Bu epizodun həmin dövrün ağır vəziyyətinə canlı bir nümunə olduğunu sizin nəzərinizə çatdırırıq.

Kottar Tarunu operaya dəvət eləmişdi və onlar şəhər teatrında Qlükkün "Orfey" operasına baxmağa getmişdilər. Opera truppası şəhərə taun başlamazdan əvvəl, yazda gəlmişdi. Xəstəlik yayılandan sonra yol bağlandığından şəhərdə qalmışdılar. Bizim opera teatrı da onlarla müqavilə bağlamışdı ki, həftədə bir dəfə öz tamaşalarını təkrar etsinlər. Beləliklə, neçə ay idi ki, həftənin beşinci günləri bizim operadan Orfeyin melodik iniltiləri və Oridisin zəif sədaları eşidilirdi. Amma tamaşa zalı hər dəfə dolu olurdu və teatr yaxşı gəlir gətürürdü. Kottarla Taru şəhərin adlı-sanlı adamları yığışan ən bahalı parterdə oturmuşdular. Bu yerlərə keçən hər kəsə xüsusi diqqət yetirirdilər. Musiqiçilər öz alətlərini sazlayır, səhnənin qarşısındakı gur işığın altında parterə gələnlər bir sıradan o biri sıraya keçir, nəzakətlə salamlaşırdılar. Mülayim söhbətlərin uğultusu altında adamlar gümrahlaşır, alaqaranlıq küçələrdə duyduqları qorxunu unudurdular. Təmtəraqlı geyimlər taunu qovurdu.

Birinci pərdədə Orfey çətinlik çəkmədən öz qəmgin ariyalarını oxudu, qədim geyimli bir neçə qadın səs-səsə verib onun dərdi və məhəbbətin gücü haqda nəğmə dedi. Tamaşaçılar bu hissəni təmkinli bir razılıqla qarşıladılar. İkinci pərdədə isə Orfey cəhənnəm rəhbərini insafa gətirmək istədiyi vaxt büruzə verdiyi titrəməni duyan çox olmamışdı. Sonrakı səhnələrdə üzə çıxan anlaşılmaz hərəkətlər isə müğənninin ifa tərzində yenilik kimi qəbul olundu.

Yalnız üçüncü pərdədə, Orfeylə Oridisin əsas dueti vaxtı (Oridisin məşuqunu tərk etdiyi vaxt) zalda həyəcanlı bir canlanma duyuldu. Elə bil, müğənni də zaldakı bu canlanmanı gözləyirmiş, daha doğrusu, canındakı nasazlığı başqalarının da duyub-duymadığını bilmək istəyirmiş. O, antik geyimin içində ayaqlarını gen qoya-qoya, eybəcər bir yerişlə qarşıya tərəf gəldi, səndələyərək yan dekorasiyadan yapışmaq istədi və üzü üstə yerə sərildi. Neçə vaxtdan bəri göstərilən bu tamaşanın ən dəhşətli səhnəsi belə yarandı. Orkestrin səsi kəsildi və parterdəki camaat ayağa qalxıb yavaş-yavaş zaldan çıxmağa başladı. Əvvəl sakitcə – kilsədən, yaxud mərhumla son görüş otağından çıxan adamlar kimi tələsmədən çıxırdılar. Qadınlar gen donlarının ətəyini yığıb başlarını qaldırmadan cərgədən çıxır, kişilər qadınlarını irəli buraxır, başqalarına da mane olmamağa çalışırdılar. Sonra yavaş-yavaş tələsməyə başladılar, pıçıltılar həyəcanlı qışqırtılara çevrildi, adamlar qapıya tərəf qaçdı, çaxnaşma düşdü. Kottar ilə Taru ayağa qalxsalar da, yerlərində dayanıb həyatın yeni bir tamaşasına baxırdılar; taun səhnəyə çıxmışdı, zalın təmtərağından qalan yeganə nümunə isə qırmızı örtüklü oturacaqlar üstündə qalmış yelpiklər və yerə düşmüş toxunma yaxalıqlar idi.

***

Sentyabrın ilk günləri Ramber Ryönün dəstəsinə qoşulub xeyli iş görmüşdü. Qonzales və növbə çəkən iki əsgərlə görüş təyin etdiyi iki gün isə Ryödən icazə almışdı.

Günortaçağı jurnalistlə Qonzales gənc əsgərləri gözləyirdilər. Əsgərlər gülə-gülə yaxınlaşıb dedilər ki, keçən dəfə bəxtləri gətirməmişdi və elə özləri də vəziyyətdən şübhəli idilər. Sonrakı həftəni isə onlar növbə

çəkmirlər. Gələn həftəni gözləmək lazım idi. Ramber razılaşdı. Qonzales gələn həftənin birinci gününə görüş təyin elədi. Qərara aldılar ki, həmin görüşdən sonra Ramber Marsellə Luinin evində qalsın. Qonzales dedi: "Gələn həftə görüşürük. Əgər mən gəlməsəm, birbaş əsgərlərin evinə gedərsiniz. Evin harada olduğunu sizə başa salarıq". Amma Marsellə Lui dedilər ki, evi elə indi ona göstərsələr, daha yaxşıdır. Evdə dörd nəfərə yemək də tapılar. Həm də ki Ramber müvəqqəti yaşayacağı şəraitlə tanış olar. Qonzales bu fikri bəyəndi və onlar limana tərəf endilər.

Marsellə Lui Marin məhəlləsinin sonunda, şəhər darvazalarından birinin yaxınlığında yaşayırdılar. Evləri qalın divarlı balaca bir ispan daxması idi. Damın taxtaları rənglənmişdi. Otaqlar boş və yarıqaranlıq görünürdü. Əsgərlərin anası üzünü qırış basmış, gözləri gülən bir ispan qarısı idi. Qarı qablara bişmiş düyü qoyurdu. Qonzales düyünü görüb təəccübləndi, çünki şəhərdə düyü tapılmırdı. Marsel dedi:

"Darvazanın yanında çox şey tapmaq olur". Ramber dinməzcə yeyib-içirdi. Qonzales onu dost kimi qələmə verib təriflədiyi vaxt jurnalist irəlidəki bir həftəni necə başa vuracağı haqda fikirləşirdi.

Amma o, iki həftə gözləməli oldu. Çünki keşik dəstələrinin sayını azaltmışdılar və hər dəstə iki həftə keşik çəkirdi. Bu iki həftəni Ramber səhər açılandan gecəyarıya qədər var gücü ilə işlədi. Gecəyarı yerinə girəndə isə möhkəm yuxuya gedirdi. Birdən-birə sərbəst həyat tərzindən ağır işə keçməsi onu elə yorurdu ki, heç fikirləşməyə də halı olmurdu. Heç planlaşdırılmış qaçışı haqda da söhbət eləmirdi.

Amma qəribə bir əhvalat baş vermişdi: gözləməyə başladığı vaxtdan bir həftə sonra o, həkimə dedi ki, keçən gecə ilk dəfə bərk keflənibmiş. Gecə bardan çıxanda ona elə gəlib ki, xayaları şişir və qollarının altı

ağrıyır. Fikirləşib ki, tauna yoluxub və bu fikrə ilk reaksiyasını həkim Ryö ilə söhbət vaxtı özü də pislədi. Deməli, o, qorxuya düşən kimi şəhərin ən hündür yerindəki meydançaya qaçıb. Dəniz buradan görünməsə də, o, üzünü dənizə tərəf tutub və şəhər divarlarının arxasında, dənizin o tayında qalmış arvadını haraylamağa başlayıb. Evə qayıdandan sonra bədənində taun əlamətləri tapmayıb və qorxaqlığına görə öz-özünü danlayıb. Ryö bu hərəkətin çox da qeyri-adi olmadığını bildirib dedi:

– Kiminsə adamın könlünə düşməsi adi bir haldır.

Sonra Ramber çıxmağa hazırlaşarkən o əlavə elədi:

– Bu səhər cənab Oton sizin barənizdə danışırdı. Məndən soruşurdu ki, sizi tanıyırammı. Sonra dedi sizə məsləhət verim ki, qaçaqmalçılar məhəlləsinə çox getməyəsiniz. Orada sizi görənlər olub.

– İndi mən bu sözlərdən nə məna çıxarım?

– Belə məna çıxarın ki, tələsməlisiniz.

– Sağ olun, – deyib Ramber Ryönün əlini sıxdı.

Qapıdan çıxanda Ramber qəfildən dönüb geri baxdı. Ryö taun başlayandan ilk dəfə idi Ramberin gülümsədiyini görürdü. Ramber soruşdu:

– Axı siz mənim qaçmağıma mane ola bilərsiniz, niyə mane olmursunuz?

Ryö, adəti üzrə, başını yellədi və dedi ki, Ramber öz xoşbəxtliyini üstün tutursa, bu, Ramberin öz işidir, onun isə bu fikrə mane olmağa haqqı yoxdur. Həm də duyur ki, bu işdə nəyin yaxşı, nəyin pis olduğunu demək də çətindir.

Ramber yenə sual verdi:

– Yaxşı, onda deyin görüm, nəyə görə tələsməyimi məsləhət görürsünüz?

Ryö də gülümsədi və sakitcə cavab verdi:

– Yəqin, mən də xoşbəxtliyə kömək eləmək fikrinə düşmüşəm.

Ertəsi gün Ryö ilə Ramber bir yerdə işləsələr də, başqa söhbət eləmədilər. Sonrakı həftə isə Ramber balaca ispan daxmasına köçdü. Otaqda onun üçün əlavə çarpayı qoymuşdular. Əsgər oğlanlar nahar üçün evə gəlmirdilər və Ramberdən xahiş etmişdilər ki, küçədə az görünsün. Ramber evdə tək qalır və qarı ilə söhbətə girişirdi. Qara geyimli, ağbirçək, qaraşın üzünü qırış basmış bu qarı çox diribaş qadın idi və hər dəfə Ramberə baxanda gözləri gülürdü.

Bir dəfə qarı Ramberdən soruşdu ki, bəs arvadına taun yoluxdurmaqdan qorxmur ki? Ramber isə fikirləşirdi ki, o, indi bəxtini yoxlayır: burada qalmalı olsa, arvadından həmişəlik ayrı düşə bilər.

– Arvadın mehribandırmı? – qarı soruşurdu.

– Çox mehribandır.

– Gözəldirmi?

– Məncə, gözəldir.

– Hə! Deməli, buna görə çalışırsan.

Ramber fikrə gedirdi. Fikirləşirdi ki, əslində, arvadına görə çalışır, amma yəqin, başqa səbəblər də var.

O, qarıya dedi ki, tək arvadına görə çalışmır, qarı isə onun sözünə inanmadığını bildirdi.

Hər səhər kilsəyə gedən qarı bir dəfə ondan soruşdu:

– Siz Allaha inanmırsınız?

Ramber etiraf elədi ki, inanmır. Qarı başını yelləyib hər şeyi anladığını bildirdi və dedi:

– Düz fikirləşmisiniz, arvadınızın yanına gedin. Sizin başqa kiminiz var ki?

Günün qalan vaxtını Ramber otaqda, çılpaq divarların arasında fırlanır, özünə məşğuliyyət axtarırdı. Axşam düşəndə gənc əsgərlər evə qayıdırdılar. Onlar çox danışmırdılar. Kəlmə kəsəndə isə Ramber hələ vaxtın yetişmədiyini bildirmək üçün dilə gəlirdi. Şamdan sonra Marsel gitara çalır və birgə oturub keyfiyyətsiz likör içirdilər. Ramber fikirli görünürdü.

Çərşənbə günü Marsel evə girən kimi dedi:

– Sabah gecə saat on ikidə məsələni həll edirik. Hazır ol.

Oğlanlarla birgə keşik çəkən iki nəfərdən biri tauna tutulmuşdu, o biri isə yoldaşı ilə bir evdə yaşadığına görə müayinədən keçirdi. Beləliklə, Marsellə Lui iki-üç gün tək keşik çəkəcəkdilər. Gecə məsləhətləşib dəqiq qərara gəlməli idilər. Ertəsi gün məsələni həll etmək olardı. Ramber təşəkkür elədi. Qarı ondan soruşdu: "Hə, razısınızmı?" Ramber razılıq eləsə də, başqa bir şey haqda fikirləşirdi.

Ertəsi gün hava ağır idi. İsti adamı boğurdu. Taunun vəziyyəti haqda da pis xəbərlər alınmışdı. İspaniyalı qarı əhvalını pozmadan dedi: "Dünyada çox işlər görülür, elə belə də olmalı idi". Marsellə Lui kimi Ramber də evdə köynəksiz gəzirdi. Amma kürəyindən və sinəsindən süzülən tər kəsilmək bilmirdi. Bu yarıqaranlıq otaqda xeyli gəzindikdən sonra Ramber köynəyini əyninə geydi və şəhərə çıxmaq istədiyini bildirdi. Marsel dedi:

– Ehtiyatlı olun, bu gecə məsələ həll olunur.

– Hər şey ölçülüb-biçilib.

Ramber həkimin evinə getdi. Ryönün anası dedi ki, o, şəhərin yuxarı hissəsindəki xəstəxanadadır. Xəstəxananın darvazası qarşısında bir dəstə adam yığışmışdı. Gözlərinin altı tuluqlaşmış növbətçi serjant camaata deyirdi: "Çəkilin buradan". Adamlar bir az geri çəkilib yenə irəli çıxırdılar. Kürəyi tərdən islanmış serjant tez-tez təkrar edirdi: "Gözləməyin mənası yoxdur". Elə camaat da bilirdi ki, gözləməyin mənası yoxdur, amma qızmar günün altında durub gözləyirdilər. Ramber özünün buraxılış vərəqini çıxardı və serjant ona Tarunun iş otağının səmtini göstərdi. Otağın qapısı elə həyətə açılırdı. Ramber qapıya çatanda Panelu otaqdan çıxırdı.

Tarunun iş otağı təzə ağardılmış, səliqəsiz, kiçik bir

otaq idi. İçəridən dava-dərman və rütubət iyi gəlirdi. Taru qara rəngli taxta masanın arxasında oturmuşdu. Köynəyinin qollarını çırmalamışdı, biləyinə süzülən təri əlindəki dəsmal ilə silirdi. Ramberi görən kimi soruşdu:

– Hələ buradasınız?

– Hələ buradayam. Ryö ilə danışmaq istəyirəm.

– İçəridə, zaldadır. Amma onsuz keçinə bilsəniz, daha yaxşı olar.

– Nə üçün?

– Çünki işi çoxdur. Mən də çalışıram ki, onu işdən ayıran olmasın.

Ramber Taruya baxırdı. Taru arıqlamışdı. Yorğunluqdan gözləri çuxura düşmüş, üzünün qırışı artmışdı. Enli kürəyi də, elə bil, bükülmüşdü. Ağzı ağ cuna ilə bağlanmış bir tibb işçisi qapını döyüb içəri girdi, əlindəki vərəqləri masanın üstünə qoyub: "Altı nəfər", – dedi və qayıdıb çölə çıxdı. Taru jurnalistə baxıb vərəqləri əlində yellədi.

– Gözəl vərəqlərdir, eləmi? Əslində, bəd vərəqlərdir. Ölüm vərəqləridir. Bu gecə ölənlər haqda məlumatdır.

Tarunun alnını da qırış basmışdı. O, vərəqləri kənara qoyub dedi:

– İndi bizim hesabdarlıqdan başqa bir işimiz qalmayıb.

Sonra o, əlini masaya dayayaraq ayağa qalxdı:

– Hə, nə vaxt gedirsiniz?

– Bu axşam, gecəyarısı.

Taru Ramberin bu uğuruna sevindiyini bildirdi və ona tapşırdı ki, özündən muğayat olsun. Ramber ona baxıb soruşdu:

– Siz bu sözləri səmimiyyətlə deyirsiniz?

Taru çiyinlərini çəkdi:

– Mən elə yaşdayam ki, ancaq səmimi danışmalıyam. Yalan danışmaq ağır işdir.

Jurnalist dedi:

– Taru, mən həkimlə görüşmək istəyirəm. Bağışlayın məni.

– Bilirəm. O, məndən mehriban adamdır. Yaxşı, gedək.

– Mən buna görə demirəm, – Ramber mızıldadı və yerində dayandı.

Taru ona baxdı və gözlənilmədən üzünə təbəssüm qondu.

Onlar divarına yaşıl rəng çəkilmiş, ağ lampalar düzülmüş darısqal bir dəhlizlə getdilər. Qapısının rəngli şüşələri arxasında kölgələr görünən iri zala çatanda Taru yandakı başqa bir qapını açıb Ramberi içəri buraxdı. Otağın bütün divarları şkaflardan ibarət idi. Taru şkaflardan birini açıb içəridən iki əleyhqaz maskası çıxartdı və birini Ramberə uzatdı. Jurnalist bu maskanın bir xeyri olub-olmadığını soruşdu və Taru cavab verdi ki, bir xeyri olmasa da, başqalarında tibbə inam yaradır.

Sonra onlar şüşəli qapını açıb içəri keçdilər. Bura geniş bir zal idi, hava isti olsa da, pəncərələr möhkəm bağlanmışdı. İki sıra düzülmüş boz çarpayıların üstündə sərinkeşlər işləyirdi... Hər tərəfdən inilti və zarıma səsləri eşidilirdi. Ağ geyimli adamlar çarpayılar arasında ləng addımlarla fırlanırdılar. Ramber hiss etdi ki, içəridəki istidən boğulur, zalın yarıqaranlığında zarıyan xəstələrdən biri ilə məşğul olan Ryönü zorla tanıya bildi. Həkim xəstələrdən birinin yaralarını çərtirdi. İki tibb işçisi xəstənin qıçlarını yana çəkib saxlamışdı. Həkim ayağa qalxanda əlindəki alətləri kiçik məcməyiyə atdı. Sonra yarası sarınan xəstəyə baxa-baxa bir anlıq fikrə getdi. Tarunun yaxınlaşdığını görüb soruşdu:

– Təzə nə xəbər var?

– Panelu karantin evində Ramberi əvəz etməyə razılıq verdi. Keşiş, onsuz da, çox iş görür. İndi qalır təzə yaranan üçüncü dəstədə Ramberi əvəz etmək.

Ryö başını yelləyib razılığını bildirdi və Taru sözünə davam elədi:

– Kastel ilk hazırlıq işlərini başa vurub. İndi sınaq keçirmək istəyir.

– Hə, bax bu, yaxşı xəbərdir.

– Və nəhayət, Ramber sizin yanınıza gəlib.

Ryö geri döndü. Maskanın şüşəsi arxasından jurnalistə baxıb gözlərini qıydı.

– Siz burada nə gəzirsiniz? Elə bilirdim getmisiniz.

Taru dedi ki, Ramber bu gecə getməlidir və Ramber əlavə elədi:

– Belə bir imkan var.

Onlar danışdıqca maska ağız tərəfdə bir az şişir və nəmlənirdi. Elə bil, üz-üzə dayanmış heykəllər danışırdı. Ramber dedi:

– Sizinlə danışmaq istəyirdim.

– Çıxanda danışarıq. Tarunun otağında gözləyin.

Az sonra çöldə Taru sükan arxasına keçdi. Ryö ilə Ramber arxada oturdular. Taru dedi:

– Daha benzin yoxdur. Sabahdan piyada gəzəcəyik.

Ramber dilə gəldi:

– Həkim, mən getmək istəmirəm. İstəyirəm sizinlə qalım.

Taru dinib-danışmadan maşını sürürdü. Həkimin isə, elə bil, yorğunluqdan danışmağa halı yox idi. Nəhayət, o soruşdu:

– Bəs arvadınız?

Ramber cavab verdi ki, o, yenə fikirləşib. Əvvəldən ağlına gəlmiş bir fikir ona rahatlıq vermir, fikirləşir ki, indi çıxıb getsə, sonra xəcalət çəkəcək.

Bu xəcalət hissi isə məhəbbətinə də mane olacaq. Ryö dikəlib qəti səslə dedi ki, axmaq fikirdir, xoşbəxtliyi üstün tutmaq xəcalətli iş deyil.

Ramber dedi:

– Elədir, amma başqalarından ayrılıb xoşbəxtliyə tək qovuşmaq da xəcalət gətirə bilər.

Bayaqdan dinib-danışmayan Taru arxaya çevrilmədən dedi ki, əgər Ramber burada camaatın bədbəxtliyinə şərik olmaq qərarına gəlsə, yaxşıdır. Ramber dedi:

– Məsələ başqadır. Mən əvvəllər fikirləşirdim ki, bu şəhərə yad adamam və sizə qoşulmalı deyiləm. İndi isə gördüyümü görmüşəm və bilirəm ki, istər-istəməz mən də buralı olmuşam. Bu bəla bizim hamımıza gəlib.

Heç kimin dinib-danışmadığını görən Ramber əsəbi səslə davam elədi:

– Axı bunu siz özünüz də yaxşı bilirsiniz! Yoxsa sizin bu xəstəxanada nə işiniz vardı? Məgər siz özünüz də fikirləşib şəxsi xoşbəxtliyinizi qurban verməmisiniz?

Yenə də Ryö ilə Tarudan cavab gəlmədi. Sükut uzun çəkdi, həkimin evinə çatana qədər susdular. Bu vaxt Ramber təkidlə axırıncı sualını verdi. Ryö ona tərəf çevrildi. Əlini oturacağa dirəyib ağır-ağır dikəlib dedi:

– Bağışlayın məni, Ramber, heç bilmirəm sizə nə deyim. İndi ki bizimlə qalmaq istəyirsiniz, qalın.

Maşın bərk silkələndi və onun sözü yarımçıq qaldı. Sonra Ryö irəli baxa-baxa davam elədi:

– Dünyada heç nə adamı öz sevgilisindən ayrı düşməyə razı sala bilməz. Amma mən də bu ayrılıqla razılaşmışam. Heç özüm də bilmirəm niyə.

Sonra o, öz yerinə çökdü və yorğun səslə dedi:

– Bu da belə bir haldır. Onu nəzərə alıb nəticə çıxarmaq lazımdır.

– Necə nəticə? – Ramber soruşdu.

– Bilmirəm, mən müalicə ilə məşğulam, başqa şey bilmirəm. Mümkün qədər tez müalicə etməliyik. Bu saat ən vacib məsələ budur.

Gecəyarısı Taru ilə Ryö Ramberi nəzarətçi təyin olunduğu məhəllənin planı ilə tanış etdikləri vaxt Taru

saatına baxdı. Başını qaldıranda gördü ki, Ramber də ona baxır. Taru soruşdu:

– Sizi gözləyənləri xəbərdar eləmisiniz?

Ramber üzünü yana çevirib dedi:

– Sizin yanınıza gələndə onlara kağız yazıb göndərmişdim.

***

Kastelin hazırladığı serum vaksini oktyabrın son günlərində sınaqdan keçirildi. Ryö son ümidini bu dərmana bağlamışdı. O fikirləşdi ki, əgər bu sınaq da baş tutmasa, bütün şəhər taunun ixtiyarında qalacaq. Epidemiya ya istədiyi qədər insan qıracaq, ya da öz-özünə kəsiləcək.

Kastelin Ryö ilə söhbət elədiyi gündən bir az əvvəl cənab Otonun oğlu xəstələnmiş, qalan ailə üzvləri isə karantinə alınmışdılar. Uşağın anası karantinə ikinci dəfə düşürdü. Həkim Oton oğlunda xəstəlik əlamətlərini görən kimi Ryönü çağırtdırmışdı. Həkim gələndə uşağın ata-anası çarpayının ayaq tərəfində durub dinməzcə baxırdılar. Balaca qızı otağa buraxmamışdılar. Oğlanın özü isə müayinədən çəkinmədən özünü həkimin ixtiyarına vermişdi. Ryö başını qaldıranda müstəntiqin sakit baxışını və onun arxasında durmuş zövcəsinin ağarmış sifətini gördü. Ağzını yaylıqla örtmüş qadın gözlərini geniş açıb həkimin hərəkətlərini izləyirdi.

Müstəntiq təmkinlə soruşdu:

– Həmin xəstəlikdir, eləmi?

– Elədir, – deyib həkim yenə uşaq tərəfə çevrildi.

Ananın gözləri hədəqəsindən çıxsa da, dinib-danışmırdı. Oton da susurdu. Sonra o, astaca dedi:

– Hə, həkim, deməli, lazımi tədbir görməliyik.

Həkim hələ də yaylığını ağzından çəkməmiş qadına tərəf baxa bilmirdi. O, çəkinə-çəkinə dedi:

– Tədbir ləngiməyəcək, indi gedib zəng edərəm.

Oton həkimi yola salmaq üçün ona qoşuldu, həkim isə çevrilib qadına dedi:

– Çox təəssüf edirəm. Uşaq üçün hazırlıq görün, özünüz bilirsiniz nə lazımdır.

Otonun zövcəsi donub-qalmışdı. O, başını aşağı dikib dedi:

– Yaxşı, indi hazırlıq görərəm.

Otaqdan çıxarkən həkim sıxıla-sıxıla onlardan soruşdu ki, bəlkə, nəyəsə ehtiyacları var. Qadın dinməzcə ona baxırdı. Müstəntiq isə üzünü yana çevirib dedi:

– Başqa ehtiyacımız yoxdur, bircə uşağı xilas edin.

Karantin qaydaları əvvəlcə çox səthi idi. Sonra Ryö ilə Ramber bu qaydaları sərtləşdirdilər. Onlar təkid eləmişdilər ki, karantinə düşmüş ailə üzvləri də bir-birindən ayrı saxlanılsınlar. Əgər onlardan biri özündən xəbərsiz xəstəliyə tutulmuşdusa, xəstəliyi üzə çıxınca başqalarına da yoluxa bilərdi. Həkim bu qayda haqda müstəntiqə danışanda o, belə tədbirə tərəfdar olduğunu bildirdi. Amma ərlə arvad bir-birinə baxanda indiki vəziyyətdə bu ayrılığın necə ağır keçəcəyini duymaq çətin deyildi. Otonun zövcəsi ilə qızı Ramberin başçılıq etdiyi karantin evinə salındı. Müstəntiqin özünə yer qalmadığına görə onu şəhər stadionunda açılmış karantin müəssisəsinə göndərməli oldular. Burada hələ rahatlıq yox idi, adamları çadırlara yığmışdılar. Ryö narahatlıq üçün üzrxahlıq eləmək istəyəndə müstəntiq bildirdi ki, qayda hamı üçündür və onun borcu əməl etməkdir.

Xəstə uşağın özünü isə məktəb binasında açılmış əlavə xəstəxanaya aparıb on çarpayılıq bir otağa qoydular. İyirmi saat keçəndən sonra həkim gördü ki, uşağın vəziyyəti ümidsizdir. Körpənin bədəni heç bir müqavimət göstərmədən xəstəliyə təslim olurdu. Ağrılı şişlər getdikcə artır və uşağın cılız qol-qanadını iflic edirdi.

Uşağın sağalacağına ümid olmadığını görəndən sonra Ryö qərara gəlmişdi ki, Kastelin serum dərmanını onun üzərində sınaqdan keçirsin. Elə həmin gün axşamüstü uşağa vaksin edib xeyli gözlədilərsə də, bədəndə müqavimət əlaməti sezə bilmədilər. Ertəsi gün səhər tezdən sınağın nəticəsini öyrənmək üçün hamı uşağın ətrafına toplaşmışdı.

Qızdırmadan yanan uşaq yerində çapalayırdı. Səhər saat dörddən Kastellə Taru uşağın başı üstündə durub xəstəliyin qalxıb-enmə prosesini müşahidə edirdilər. Çarpayının baş tərəfində dayanmış Tarunun, elə bil, beli bükülmüşdü. Ayaq tərəfdə isə Ryö ilə Kastel dayanmışdılar. Ryö ayaq üstə qalsa da, Kastel oturub əlindəki köhnə bir kitabı vərəqləyir, özünü soyuqqanlı göstərməyə çalışırdı.

Səhər hava işıqlandıqca keçmiş sinif otağına başqa adamlar da gəlməyə başladı. Əvvəl Panelu gəldi, çarpayının o üzünə keçdi və Tarunun yaxınlığında divara söykənib dayandı. Keşişin üz-gözündən qüssə yağırdı, ağır günlərin yorğunluğundan alnının qırışları daha da dərinləşmişdi. Sonra Jozef Qran gəlib çıxdı. O gələndə saat yeddi olardı və tez-tez hıçqırdığına görə üzrxahlıq elədi. Dedi ki, bir anlığa vəziyyətdən xəbər tutmağa gəlib. Ryö bir söz demədən, dişlərini qıcayıb başını sağa-sola bulayan, gözüyumulu, sifəti dəyişmiş uşağı göstərdi. Otaq tamam işıqlananda o başda divara vurulmuş qara lövhədə vurma cədvəlinin rəqəmləri sezilməyə başlamışdı. Bu vaxt Ramber otağa girdi. O, dinməzcə yaxınlaşıb çarpayının başına dirsəkləndi və cibindən siqaret qutusu çıxartdı. Sonra uşağa baxıb qutunu cibinə qoydu.

Kastel başını qaldırdı, eynəyin arxasından Ryöyə baxıb soruşdu:

– Uşağın atasından bir xəbər yoxdur ki?

– Yox, onun özü karantinə salınıb.

Həkim çarpayının başlığından tutmuşdu və uşaq inildədikcə özündən xəbərsiz dəmiri sıxırdı. Gözünü uşaqdan çəkə bilmirdi. Uşağın bədəni qəfildən gərildi, dişləri daha bərk qıcandı, qol-qıçını yana açıb inildədi. Cılız bədəni örtmüş hərbçi yorğanından yun və turşumuş tər iyi qalxırdı. Sonra bədənin gərginliyi azaldı və uşaq aralı qalmış qol-qıçını yığdısa da, gözünü açmadı və təngnəfəslik başladı. Taru Ryöyə baxırdı, baxışları rastlaşanda Taru üzünü yana çevirdi.

Xəstəlik böyük-kiçik qanmır və onlar son aylar neçə-neçə körpənin can verməsini görmüşdülər. Amma indiyə qədər heç bir xəstənin əzablarını belə ardıcıllıqla izləməmişdilər. Doğrudur, elə indiyə qədər də günahsız insanların çəkdikləri əzabı haqsızlıq sayırdılar. Amma bir günahsızın çəkdiyi əzabları, can verməsini belə yaxından və uzun-uzadı müşahidə eləməmişdilər.

Uşaq yenidən gərildi və qarnına bıçaq soxulmuş adam kimi qıvrılıb inildədi. O, bir müddət beləcə qalıb titrətdi. Cılız bədəni elə əsirdi ki, elə bil, taunun amansız qasırğası ona hücum çəkib silkələyir, havaya qaldırmaq istəyirdi. Sonra gərilmə keçdi, uşaq bir az rahatlaşdı, elə bil, qızdırma da çəkilirdi.

Tövşük içində gələn bu rahatlıq ölüm rahatlığına oxşamağa başlayırdı. Sancı və hərarət üçüncü dəfə hücuma keçəndə uşaq yenə qıvrıldı, onu yandıran alov dillərindən qaçırmış kimi çarpayının bir küncünə sığındı, sərt hərəkətlə başını silkələyib yorğanı üstündən atdı. Sonra hərarətdən qızarmış göz qapaqları arasından iri damlalar süzülüb yanaqlarına axdı. Sancı keçəndə uşaq cılız qıçlarını və iki gün ərzində əriyib çöpə dönmüş qollarını özünə yığıb qəribə bir vəziyyətdə büzüşdü.

Taru əyilib gonbul əli ilə uşağın sifətindəki təri və göz yaşlarını sildi. Kastel də bayaqdandır kitabı örtüb gözlərini xəstəyə zilləmişdi. O, ağzını açıb danışmaq

istəyəndə öskürək sözünü yarımçıq qoydu, sonra boğazını arıtlayıb dedi:

– Vəziyyəti səhər heç yüngülləşmədi, eləmi, Ryö?

Ryö cavab verdi ki, vəziyyət yüngülləşməsə də, uşaq başqalarına nisbətən daha çox müqavimət göstərir. Divara söykənib qalmış Panelu boğuq səslə dedi:

– Əgər öləcəksə, çox əzab çəkməsi yaxşı deyil.

Ryö acıqla ona tərəf çevrildi və nə isə demək istədi. Amma dinmədi, özünü ələ alıb üzünü uşağa tərəf çevirdi.

Otaq tamam işıqlanmışdı. Başqa beş çarpayıda uzanmış xəstələr də inildəyirdilər. Otağın o başındakı bir xəstə arabir qışqırırdı da. Onun qışqırığında ağrıdan çox təəccüb duyulurdu. Elə bil, xəstələrin özləri də qorxunc başlanğıcı duyur, xəstəliyin hökmü ilə barışmağa başlayırdılar. Uşaqdan başqa heç kəs çapalayıb müqavimət göstərmirdi. Ryö tez-tez onun nəbzini yoxlayırdı. Özü də bilirdi ki, bu yoxlamanın heç bir əhəmiyyəti yoxdur və öz yerindən tərpənmək naminə belə edir. Gözünü yumub uşağın nəbzini yoxlayanda öz nəbzini də tutur və az qala, çalışırdı ki, onları qoşa saxlasın. Amma çox keçməmiş uşağın nəbzi itir, həkimin ümidi boşa çıxırdı. Həkim uşağın biləyini buraxıb öz yerinə qayıdırdı.

Ağardılmış divara düşən qırmızı şüalar gün qalxdıqca saralırdı. Çöldə qızmar bir səhər açılırdı. Qran yenə qayıdacağını bildirib qapıdan çıxdı. Hamı dinməzcə gözləyirdi. Uşağın gözləri yumulu idi və elə bil, bir az sakitləşmişdi. Quru çöpə dönmüş barmaqları ilə çarpayının yanlarını qaşıyırdı. Əlinin birini uzadıb yorğanın üstündən dizini qaşımaq istədiyi vaxt diksinib qıçlarını yığdı, dizlərini qarnına sıxıb dayandı. Dünəndən yumulu qalmış gözlərini ilk dəfə açıb Ryönün üzünə baxdı. Göyərmiş sifəti dartındı və uşağın ağzından uzun, cingiltili bir nalə qopdu. Səs uzandıqca otaqdakı

başqa xəstələrin iniltiləri ağır bir donqultuya dönüb qarışıq, vahiməli bir səda yaratdı. Ryö dişlərini qıcadı, Taru üzünü yana çevirdi. Ramber çarpayıya yanaşıb Kastelin yanında durdu. Kastel dizinin üstə açıq qalmış kitabı örtdü. Panelu uşağın əzablı nalə çıxan, köpüklü ağzına baxırdı. O, irəli çıxıb dizi üstə çökdü, boğuq səslə dedi: "Ey Tanrı, bu uşağı xilas elə". Uşağın naləsinə qarışmış bu sözləri hamı eşitdi və heç kim nə onun hərəkətinə, nə də sözlərinə təəccüblənmədi.

Uşağın səsi kəsilmirdi və ətrafdakı xəstələr də ona qoşulmuşdular. O başda arabir qışqıran xəstə indi dayanmadan nalə çəkir, səsini uşağın səsinə qoşurdu. Başqa xəstələr də çapalamaya düşmüşdülər. Otaqdakı hönkürtü səsləri Panelunun oxuduğu duaya qarışmışdı. Yorğunluqdan və əzabdan keyləşmiş Ryö əli ilə çarpayının dəmirini sıxıb gözlərini yumdu.

Ryö gözlərini açanda Taru onun yanında idi. Həkim dedi:

– Mən gedirəm, daha dözə bilmirəm.

Qəfildən xəstələrin səsi kəsildi. Həkim hiss etdi ki, uşağın səsi zəifləyib. Səs daha da zəiflədi və nəhayət, kəsildi. Səs kəsiləndə Kastel çarpayının yuxarı başına keçib dedi ki, uşaq keçindi. Ətrafdakı hənirtilər başa çatmış ağır bir döyüşün uzaqdan gələn əks-sədasına bənzəyirdi. Ağzı açıq qalmış körpə qarışmış mələfələrin arasında süstləşmişdi. Yanağındakı göz yaşları damcılanıb durmuş, cılız bədəni, elə bil, daha da kiçilmişdi.

Keşiş Panelu çarpayıya yaxınlaşıb xaç çevirdi. Sonra əbasının ətəyini yığıb çölə çıxdı.

Taru Kasteldən soruşdu:

– Yenə sınaq keçirməli olacağıq?

Qoca həkim başını yelləyib küskün bir təbəssümlə dedi:

– Bəlkə də, keçirdik. Hər halda, uşağın xəstəliyə müqaviməti xeyli artmışdı.

Ryö otaqdan çıxarkən çox əsəbi idi, tələsik addımlarla keşişin yanından keçəndə keşiş əlini uzadıb onun qolundan tutdu.

– Səbirli olun, həkim.

Həkim sərt hərəkətlə ona tərəf çevrilib acıqlı səslə dedi:

– Axı siz bu uşağın günahsız olduğunu bilirsiniz!

O, üzünü çevirib irəli keçdi, keşişdən əvvəl qapıdan çıxıb həyətin küncündəki skamyalardan birində, toz basmış xırda ağacların altında oturdu. Alnının təri gözünün çökəyinə axırdı. Canında qəribə bir darıxma vardı. Ürəyindəki kədərin acısından, az qala, qışqırmaq istəyirdi. Başının üstündəki əncir yarpaqlarının arasından isti səpələnirdi, gün qalxdıqca səhərin mavi səmasına ağımtıl bir duman qarışır, havanı ağırlaşdırırdı. Ryö skamyanın üstünə sərələnib budaqlara, səmaya tamaşa edir və yavaş-yavaş özünə gəlirdi. Elə bu vaxt arxadan bir səs eşitdi:

– Nahaq mənimlə belə acıqla danışırdınız? Bayaqkı mənzərə mənə də çox ağır gəldi.

Ryö çevrilib Paneluya dedi:

– Düz deyirsiniz. Bağışlayın məni. Yorğunluq adamın ağlını qaçırır. Bəzən elə olur ki, bu şəhərdə hər şeyə etiraz etmək istəyirəm.

– Başa düşürəm, – Panelu mızıldadı. – Qavraya bilmədiyimiz hadisələrə etiraz etməli oluruq. Bəlkə, anlaşılmaz mövcudluğu sevsək, daha yaxşıdır.

Ryö sərt hərəkətlə dikəlib yerində oturdu. Qəzəblə Paneluya baxıb başını buladı:

– Xeyr, keşiş ata. Sevgi haqda mənim fikrim başqadır. Körpələrə əzab verən bir varlığı sevməyə ölüncə razı olmaram.

Panelunun sifətinə qüssəli bir ifadə qondu:

– Eh, həkim! Mərhəmətin nə olduğunu mən hələ indicə anladım.

Ryö yenidən skamyaya sərələnmişdi. Canına çökmüş yorğunluq səsini bir az yumşaltdı:

– Özüm də bilirəm ki, məndə mərhəmət hissi yoxdur. Bu mövzuda sizinlə mübahisə etmək istəmirəm. İndi biz birgə işləyirik, dua və sitayişlərdən kənar, ümumi bir məqsədə xidmət edirik. Bu, ən vacib şərtdir.

Panelu Ryönün yanında əyləşib həyəcanlı səslə dedi:

– Elədir, bəli, axı siz də bəşər naminə çalışırsınız.

Ryö gülümsəməyə çalışdı:

– "Bəşər naminə" ifadəsi mənə çox təntənəli görünür, hələ o səviyyəyə çatmamışam. Məni insanın sağlamlığı maraqlandırır. Ən vacib məsələ budur.

Panelu tərəddüdlə ağzını açdı:

– Həkim...

Sonra dayandı. Onun da alnından tər axırdı. "Salamat qalın", – deyib ayağa qalxanda, deyəsən, gözləri dolmuşdu. Keşiş uzaqlaşmaq istəyəndə Ryö bir az fikirləşib ayağa qalxdı və ona tərəf irəliləyib dedi:

– Bağışlayın məni. Bir də belə səbirsizlik etmərəm.

Panelu əlini ona uzadıb kədərli səslə dedi:

– Hər halda, sizi inandıra bilmədim.

– Axı bunun nə mənası var? Siz özünüz də yaxşı bilirsiniz ki, mən ancaq ölüm və insan əzabına düşmən kəsilmişəm. İndi siz istədiniz-istəmədiniz, həmin ölüm və əzablara qarşı birgə mübarizə aparır, birgə də əzab çəkirik.

Ryö Panelunun əlini hələ də buraxmamışdı və gözünü onun üzündən çəkib əlavə elədi:

– İndi heç Allah da bizi bir-birimizdən ayıra bilməz.

***

Sanitar dəstəsinə qoşulduğu gündən Panelu xəstəxanalara və taun yayılmış evlərə baş çəkirdi. O, xilaskarların dəstəsində idi və buradakı işini öz dini vəzi-

fəsinə uyğun ən vacib xidmət sayırdı. Xəstəlikdən ölənləri görmüşdü. Özünə peyvənd vurmuşdusa da, öz ölümü haqda da fikirləşməyə başlamışdı. Zahirən həmişə sakit görünürdü. Amma can verən körpənin bitib-tükənməyən əzabına tamaşa edəndən sonra xeyli dəyişmişdi. Üz-gözündən gərginlik yağırdı. Günlərin birində gülümsəyərək həkimə demişdi ki, "Keşiş həkimə müraciət etməlidirmi?" adlı qısa bir məruzə üzərində işləyir. Həkim başa düşdü ki, Panelu təvazökarlıq etsə də, söhbətə çox ciddi bir mövzudan başlayıb. O, əlyazmasını oxumaq istədiyini bildirəndə keşiş cavab verdi ki, bu yaxınlarda kilsədə ibadət vaxtı moizə oxuyacaq və öz fikirlərinin, heç olmasa, bəzilərini moizədə söyləyəcək. Axırda o, həkimə dedi:

– Çox istərdim ki, siz də gələsiniz, həkim, mövzu sizi maraqlandıracaq.

Keşişin ikinci moizəsi küləkli bir günə düşdü. Sözün düzü, birinci moizəyə nisbətən xeyli az adam yığışmışdı. İndi bizim camaatı belə yeniliklər maraqlandırmırdı. Şəhərdə yaranmış vəziyyətə görə "yenilik" sözünün özü mənasını itirmişdi. Camaatın çoxu dinə inamını tam itirməmişdi, az inamı olanlar isə dini bəd əməllərdən uzaq saxlamağa çalışırdılar. Bəziləri adəti sitayişdən çox, dini əlamətlərə riayət edirdilər. Kilsəyə gedib sitayiş etməkdənsə, gözmuncuğu, yaxud müqəddəs Roxun həmailini gəzdirirdilər.

Əvvəlcə camaat peyğəmbərliklərə inanmağa başlamışdı. Yazda, epidemiyanın əvvəlində hamı oturub xəstəliyin qurtaracağını gözləyir və heç kimin ağlına gəlmirdi ki, bu xəstəlik qurtarmaya da bilər. Amma elə ki günlər keçdi, camaat anlamağa başladı ki, bu bəla çox uzun çəkə bilər, hamı öz ümidini epidemiyanın kəsiləcəyi günə bağladı. Beləliklə, katolik kilsəsi müqəddəslərinin və falçıların yaydıqları peyğəmbərliklər əldən-ələ, dildən-dilə keçməyə başladı. Naşirlər bu işdən

xeyir götürə biləcəklərini cəld hesablayıb işə girişdilər, əldə gəzən peyğəmbərlik mətnlərini böyük tirajla nəşr edib yaydılar. Elə ki gördülər camaatın marağı artır, özləri təzə mətnlər aramağa başladılar. Şəhər kitabxanalarından tapdıqları və müxtəlif adamlardan eşitdikləri xırda, maraqlı mətnləri çap etdilər. Elə ki mətnlər peyğəmbərlikdən çox uzaq oldu, jurnalistlərə müraciət etdilər. Jurnalistlər də cəld işə qarışıb keçən əsrlərin jurnalistləri kimi bu sahədə öz məharətlərini göstərdilər.

Peyğəmbərliklər və gələcək haqda rəvayətlərin bəziləri qəzetlərdə çap olundu. Belə yazılara maraq xəstəlikdən əvvəl camaatın sentimental yazılara göstərdiyi maraqdan az olmadı. Onların bəzilərində qəribə hesablamalar vardı; ilin təqvimdə yeri, ölənlərin sayı, taun altda keçən ayların hesabı... Başqa peyğəmbərliklərdə isə tarixdə baş vermiş taunlar müqayisə olunur, onların oxşarlığı (peyğəmbərlikdə buna ardıcıllıq deyilir) üzə çıxarılır və qəribə hesablamalar yolu ilə hazırkı vəziyyətlə əlaqələndirilirdi. Amma camaata xoş gələn elə rəvayətlər var ki, onları hər kəs istədiyi səmtə yoza bilir və təskinlik tapırdı. Müqəddəs Ana və müqəddəs Odil haqda rəvayətlər hamının xoşuna gəlir və tez-tez yada salınırdı. Ümumiyyətlə, peyğəmbərliklərin belə bir ümumi cəhəti vardı ki, hamısı təskinlik verirdi. Təskinlik verməyən təkcə taunun özü idi.

Beləcə, dini rəvayət və peyğəmbərliklərin dinin özünü sıxışdırdığına görə Panelunun moizə oxuduğu kilsədə adam çox deyildi. Axşamüstü Ryö kilsəyə girəndə külək ancaq qapılardan içəri dolub sərinlik gətirirdi. Həkim gördü ki, bu sakit kilsəyə yığışanların hamısı kişidir. O, özünə yer tapıb oturanda keşiş də minbərə qalxdı. Keşiş əvvəlki moizəsinə nisbətən indi daha mülayim səslə danışır və daha dərin fikirlər söyləyirdi. Camaat hiss elədi ki, o, çıxışının əvvəlində tərəddüdlə, dirənə-dirənə danışır. Maraqlı cəhətlərdən biri də bu

idi ki, camaata müraciət eləyərkən "siz" yox, "biz" deyə müraciət edirdi.

Sonra yavaş-yavaş keşişin səsi gücləndi. O, sözünü belə başlamışdı ki, aylardan bəri taun bizim aramızdadır, indi biz ona bələd olmuşuq, bilirik ki, aramızda fırlanır, sevdiyimiz adamları əlimizdən alır, bizi işdə, evdə gözləyir, həmişə bizə nə isə deyib və çox mümkün ki, biz onun ilk xəbərdarlıqlarını eşitməmişik. Bu fikri Panelu keçən moizəsində də söyləmişdi. Deyəsən, haqlı fikir idi. Hər halda, özü inanırdı. Bəlkə də, bu sözləri din naminə deyil, öz şəxsi fikri kimi deyirdi. Deyilən hər fikirdən bir mənfəət götürmək olur. Xristianın ən qəddar sınağı onun mənfəəti ilə bağlıdır. Elə, əslində də, xristian öz mənfəətini aramalıdır, onun nədən ibarət olduğunu, harada gizləndiyini bilməlidir.

Həmin vaxt Ryö hiss etdi ki, ətrafdakılar qurdalanıb yerlərini rahatlayırlar. Külək açıq qalmış giriş qapılarından birini çırpdı. Kim isə yaxınlaşıb qapını əli ilə tutdu. Bu kiçik çaxnaşmada Panelunun səsi bir az zəiflədi. O deyirdi ki, taunun yaratdığı vəziyyəti araşdırmaqdansa, taundan dərs almaq lazımdır. Ryö belə başa düşdü ki, keşişin fikrincə, izaha ehtiyac yoxdur. Sonrakı sözlər Ryönü daha çox maraqlandırdı. Keşiş deyirdi ki, bəzi işləri Allahın adı ilə bağlamaq olar, bəzilərini isə yox. Deməli, xeyirlə şər mövcuddur və onları ayırmaq asan bir işdir. Amma şərin özündə bir qarışıqlıq var. Belə çıxır ki, şərin də gərəkli və gərəksizi var: məsələn, bir var ki, Don Juan cəhənnəmə vasil ola, bir də var ki, günahsız bir uşaq ölə; günaha batmış adamın cəza almasına haqq qazandırmaq olur, amma bir körpənin əzab çəkməsini anlamaq olmur. Doğrudan da, dünyada elə bir bəla tapmaq olmaz ki, uşaq əzabından ağır olsun; bu əzabın yaratdığı dəhşəti görmək və səbəbini aramaq lazımdır. Qalan hər şeydə Tanrı bizə qayğı göstərirdi, bu yerə qədər din nəzərə çarpmırdı. İndi

ağzımız divara dirənib. İndi biz taun divarının dibində qalmışıq, bu divarın ölüm səpən kölgəsində imdad aramalıyıq.

Keşiş Panelu heç özünü də bu divarı aşa bilənlərdən saymırdı. O deyə bilərdi ki, körpə əzabının əvəzi axirətdə çıxacaq, amma əslində, heç buna da əmin deyildi. Kim kimi inandıra bilər ki, insanın bu dünyada çəkdiyi əzab o dünyada sevinclə əvəz olunacaq? Əzab və ürəkağrısı görmüş bir xristian buna çətin inanar. Keşiş divarın dibində, camaatla bir yerdə, ağrıdan qollarını açıb xaç şəkli almış xəstələrin, əzab çəkən körpələrin yanında qalmağı qərara almışdı. Moizə vaxtı heç kimdən çəkinmədən dedi: "Qardaşlar, vaxt gəlib çatıb. Ya hər şeyə inanmaq, ya da hər şeyi inkar etmək lazımdır. Sizin aranızda hər şeyi inkar etməyə cəsarəti çatan tapılarmı?"

Ryö fikirləşdi ki, keşiş yolunu azıb və elə həmin andaca moizəçi səsini daha da ucaldıb dedi ki, bu tələb xristianın mənafeyinə xidmət edir və onu xeyirxahlığa aparır. Keşiş bilirdi ki, xeyirxahlığın özündə də bir sərtlik olduğunu söyləyəndə mülayim, klassik moizələrə öyrəşmiş dinləyicilərin çoxu təəccüblənəcək. Amma taun dövrünün dini adi günlərin dininə bərabər ola bilməz. Əgər Tanrı insanın xoşbəxt günündə ruhuna rahatlıq gətirirsə, bədbəxt günündə də qəlbinə sərtlik verir. Bu gün Tanrı öz bəndələrinə bədbəxtlik göndərmişdi və indi bəndələr soyuqqanlı bir qərar qəbul etməli idilər – ya hər ŞEY, ya da heç NƏ.

Neçə əsr əvvəl nadan bir müəllif yazıb ki, guya, kilsənin sirrini öyrənib və kilsədə günah bağışlana bilməz. O demək istəyirdi ki, orta səviyyə yoxdur, yalnız Cənnət və Cəhənnəm mövcuddur, insan öz əməllərinə görə ya mükafatlanır, ya da cəza alır. Panelunun dediyinə görə, belə bir fikir ancaq bivec adamın ağlına gələ bilər. Çünki kilsədə günahyuma guşəsi var. Ola

bilsin ki, hansı dövrdəsə həmin guşəyə etimad az olub və bağışlanan günah haqda təsəvvür yox imiş. Günahın hər biri ağır günah, dinə laqeydlik isə cinayət sayılırdı. Bir sözlə, ya hər şey, ya da heç nə.

Panelu bir anlıq fasilə verdi və Ryö çöldə güclənən küləyin vıyıltısını eşitdi. Keşiş səsini küləyin səsinə qatıb dedi ki, onun sözlərini kor-koranə mütiliyə çağırış kimi qəbul eləməsinlər. Söz mütilikdən gedirsə də, fərdin özünün qəbul edə bildiyi bir mütilik nəzərdə tutulur. Bir körpənin əzab çəkməsini görmək insana sıxıntılı bir mütilik gətirir. Bu hissi keçirmək də vacibdir. Onu qəbul etmək lazımdır, çünki Tanrı göndərib (sonra o əlavə elədi ki, bu sözləri demək onun üçün də ağırdır). Ancaq bu yolla xristian heç nə itirmədi, bütün yolları bağlı görüb əsas yola düşəcək. Hər şeyi inkar etməmək naminə hər şeyə inanacaq. Bəzi dindar arvadlar şişkin vəzilərin deşilməsi ilə xəstəliyin bədəndən çıxdığını eşidəndən sonra belə deyirlər: “Ey Tanrı, onun vəzilərinə imkan ver”. Bəli, xristian ilahi qüvvəni anlamasa da, özünü ona bağlaya bilər. “Bu məsələni anlayıram, o birisini isə qəbul etmirəm” demək olmaz, insan gərək anlaşılmayanı da öyrənib qəbul etməyə çalışsın. Körpələrin əzab çəkməsi canımıza yanğı gətirdi, amma bu yanğı olmasa, qəlbimizdə boşluq yaranardı”.

Keşiş bir anlıq fasilə verəndə yenə camaat arasında yüngül bir canlanma yarandı və o, yenidən səsini qaldırıb öz-özünə sual verdi ki, yaranmış vəziyyətdə düzgün yol necə seçilməlidir. O qorxurdu ki, camaat “fatalizm“ sözünü dilə gətirəcək. Əgər belə olsa da, keşiş geri çəkilmək fikrində deyildi və həmin sözün qarşısına “fəal” sözünü də qoşmağa çalışacaqdı. Deməli, yadda saxlamaq lazımdır ki, əvvəl haqqında danışdığı Həbəşistan xristianlarının əməllərini yamsılamaq lazım deyil. Tauna tutulmuş farsların hərəkətlərini yada salmaq da gərəksizdir. Onlar itlərini açıb xristian sanitarlarının

üstünə buraxır, Allaha yalvarırlarmış ki, onun göndərdiyi bəlanın qarşısını alan bu kafirlərə taun yoluxdursun. Qahirə keşişləri isə, əksinə, çox vasvasılıq ediblər, onları da yamsılamaq lazım deyil. Taun vaxtı bu keşişlər müqəddəs suyu camaatın ağzına pinsetlə damızdırırlarmış ki, ağızlarını qabın qırağına dirəyib bir-birinə xəstəlik yoluxdurmasınlar. Farslar üçün uşağın əzab çəkməsi heç nə imiş, qahirəlilər isə xəstəliyin qorxusundan dini ayini də pozublar. Hər iki halda düzgünlük olmayıb, Tanrının göstərişinə əməl edilməyib. Panelu başqa əhvalatları da yada salmaq istəyirdi. Marseldə baş vermiş dəhşətli taunun tarixçəsini yazmış bir nəfər göstərib ki, Mersi kilsəsinin səksən bir din xadimindən yalnız dördü sağ qalıb. Bu dörd nəfərdən üçü də şəhərdən qaçıb. Bu yazını oxuyarkən Panelunun fikri yetmiş yeddi yoldaşının ölümü və qalan üç nəfərin qaçmasına əhəmiyyət vermədən şəhərdə tək qalmış keşiş üzərində cəmlənib. O, yumruğunu kürsüyə çırparaq dedi: "Qardaşlar, bax o tək qalan insandan nümunə götürmək lazımdır!"

Burada söhbət tərkidünyalıqdan, şüurlu cəmiyyətin xəstəliyə qarşı qoyduğu qaydalara etinasızlıqdan getmir. Hər şeydən əl üzüb bəlanın qarşısında diz çökməyi təklif edən adamlara qulaq asmaq lazım deyil. Ayaq açıb irəli getmək, alaqaranlıqda yol tapıb hərəkətə gəlmək və mümkün qədər çox xeyirxahlıq etmək lazımdır. Beləcə yaşamaq, qalan hər şeydə, lap körpələrin ölümündə də Allaha bel bağlamaq lazımdır. Fərdi kömək aramağın əhəmiyyəti yoxdur.

Bu yerdə Panelu Marseldəki taun zamanı ad çıxarmış keşiş Belzünsü yada saldı. Söylədi ki, epidemiyanın axırına yaxın bacardığı hər işi görmüş həmin keşiş başqa bir çarə qalmadığını güman edərək azuqə toplayaraq öz evinə çəkilib və qapını kərpiclə hörüb. Onu, az qala, peyğəmbər sayan camaat bu hərəkətindən

hirslənib, evinin ətrafına meyitlər düzüb, hətta damdan evinin içinə də cəsədlər atıblar ki, xəstəliyə tutulub ölsün. Beləcə, keşiş zəiflik göstərib ölümdən qaçmaq istədiyi halda göydən başına ölülər yağıb. Biz də başa düşməliyik ki, taundan qaçılası bir yer yoxdur. Belə ağır bir vəziyyətdə biz Tanrıya kin bəslədiyimizi, yaxud onu sevdiyimizi bilməliyik. Kimin Tanrıya kin bəsləməyə cəsarəti çatar?

Panelu moizəsini başa vurduğunu bildirərək dedi: "Qardaşlarım, Allaha məhəbbət çətin bir məhəbbətdir. Bu məhəbbətin yolunda insan öz şəxsiyyətini qurban verməlidir. Yalnız bu məhəbbət körpələrin əzabı və ölümündən gələn ağrını silə bilər, yalnız bu məhəbbət ölümə haqq qazandıra bilər, çünki ölümü anlamaq mümkün deyil, onu gözləmək lazımdır. Mən bu ağır ibrəti sizinlə bölüşmək istəyirdim. Bu həqiqət insanlara qəddar görünsə də, Allahın gözündə həqiqət olaraq qalır, deməli, eyni gözlə baxmağa çalışmaq lazımdır. Bu yerdə biz bərabərləşməliyik. Bu zirvə başında hər şey qarışacaq və bərabərləşəcək, zahiri haqsızlıqdan həqiqət doğacaq. Beləcə, Fransanın cənubundakı kilsələrin çoxunun döşəmələri altında taundan ölənlərin cəsədləri əsrlərdən bəri yatır. Keşişlər onların qəbri üstündə durub danışır və onları dilə gətirən duyğular qəbirdəkilərin duyğularından yaranır, bu qəbirlərdə körpələr də var".

Ryö qapını açıb çıxanda içəri güclü külək üfürdü. Küləyin qanadında içəriyə yağışın və nəm səkinin iyi doldu. Dindarlar çölə çıxmamışdan qabaq şəhərdəki vəziyyətdən xəbərdar oldular.

Ryödən irəlidə qoca bir keşişlə gənc bir din xadimi gedirdi, əlləri ilə baş örtüklərini tutmuşdular ki, külək aparmasın. Yaşlı keşiş moizə haqda danışırdı. O, Panelunun natiqliyini tərifləsə də, danışığındakı cəsarətli sözlərdən nigaran qaldığını bildirirdi. Onun fikrincə, moizədə bədgümanlıq duyulurdu və Panelu yaşda bir

keşişin bədgümanlıqla danışmağa haqqı yoxdur. Gənc din xadimi özünü küləkdən qorumaq üçün başını aşağı əyib dedi ki, o, Panelu ilə tez-tez görüşür, onda baş verən dəyişikliyə bələddir və çox güman ki, bu dəyişiklik daha da güclənəcək. Qoca keşiş soruşdu:

– Yaxşı, onun əsas fikri nədir?

Onlar küçəyə çıxmışdılar və küləyin uğultusundan heç nə eşitmək olmurdu. Gənc dindar danışmağa imkan tapanda dedi:

– Keşişin həkim məsləhətinə qulaq asmasının özü bir uyğunsuzluqdur.

Ryö Taruya Panelunun moizəsi haqda məlumat verəndə Taru dedi ki, müharibə vaxtı onun tanıdığı bir keşiş gözləri tökülmüş bir cavanın sifətini görəndən sonra dinə inamını itirmişdi. Sonra o əlavə elədi:

– Panelu düz danışıb. Günahsız adamın gözləri çıxarılırsa, xristian ya dindən üz döndərməlidir, ya da gözlərinin çıxarılmasına razı olmalıdır.

Tarunun bu fikri sonrakı bədbəxt hadisələrin, yaxud Panelunun çıxışının camaata qəribə görünməsinin səbəbini izah edirmi, görəsən? Sonra bu vəziyyətə baxarıq.

Moizədən bir neçə gün sonra Panelu, doğrudan da, köçmək fikrinə düşdü. Xəstəliyin elə bir dövrü idi ki, şəhərdə bir yerdən başqa yerə köçənlərin sayı artmışdı. Taru mehmanxanadan çıxıb Ryönün evinə köçdüyü kimi, Panelu da kilsənin ona verdyi mənzili tərk edib, kilsəyə tez-tez gələn və hələlik xəstəliyə tutulmamış bir qarının evinə köçdü. Qarının evinə yığışarkən keşiş bərk yorulmuş və kədərlənmişdi. Elə bu vəziyyətinə görə də qarının gözündən düşmüşdü. Qarı sevinə-sevinə müqəddəs Odilin peyğəmbərliyinin düzgün olduğundan danışdığı vaxt keşiş qılıqsız olduğuna görə bir az əsəbi cavab vermişdi. Sonra keşiş nə qədər çalışsa da, qarının könlünü ala bilməmişdi. Qarı ondan küsmüşdü. Hər axşam özünün cürbəcür tikmələrlə bəzə-

dilmiş otağına keçməzdən əvvəl keşiş qarı ilə salamatlaşır, qarı isə üzünü ona çevirmədən: “Gecəniz xeyrə qalsın, keşiş ata”, – deyə mızıldayırdı. Belə axşamlardan birində yatmağa gedərkən keşiş hiss etdi ki, neçə gündən bəri duyduğu üzgünlük qızdırma və başağrsına çevrilib.

Əhvalatın gerisini qarının özü söyləyib. Ertəsi gün səhər o, adəti üzrə, tez qalxıbmış. Keşişin otaqdan çıxmadığını görüb təəccüblənib, xeyli tərəddüd eləyəndən sonra qapını döyüb. Keşiş hələ də yatağında imiş, gecəni yatmayıbmış, görkəmi də xeyli dəyişibmiş. Qarının dediyinə görə, o, həkim çağırmağı məsləhət görüb, keşiş isə acıqlı səslə etiraz edib. Qarı otaqdan çıxmalı olub. Xeyli sonra keşiş qarını içəri çağırıb, sərt danışığına görə üzrxahlıq edəndən sonra bildirib ki, onun xəstəliyi taun deyil, ümumi yorğunluqdan bu günə düşüb, tezliklə sağalacaq. Qarı isə cavab verib ki, o, həkim çağırmağı məsləhət görərkən taun qorxusunu ağlına gətirməyib, çünki öz taleyini Tanrıya tapşırıb, özünü cavabdeh saydığına görə keşişin sağlamlığı qeydinə qalıbmış. Keşiş başqa bir söz demədiyinə görə qarı yenə də həkim çağırmaq məsləhətini təkrar edib. Keşiş yenə etiraz edib, amma etirazını əsaslandırdığı sözlər qarıya anlaşılmaz görünüb. Qarı keşişin qızdırmasını salmaq üçün dərman otları dəmləyib.

Belə bir vəziyyətdə öz vəzifəsini dəqiqliklə yerinə yetirmək qərarına gəlmiş qarı hər iki saatdan bir keşişə baş çəkirmiş. Keşişin canındakı darıxma qarını təəccübləndirirmiş. O gah yorğanı kənara atır, gah üstünü örtür, tez-tez əli ilə alnının tərini silir, gah da azacıq qalxaraq boğuq xırıltı ilə öskürür, sinəsini təmizləməyə çalışırdı. Öskürəndə elə boğulurdu ki, elə bil, boğazında pambıq tıxaclar vardı. Hər dəfə öskürək ara verəndə keşiş halsız bir hərəkətlə yerinə uzanır, sonra yenə azacıq dikəlib gözlərini irəliyə zilləyir, elə bil, sinəsinin səsinə

qulaq asırdı. Qarı keşişi incidəcəyindən qorxub həkim çağırmaq qərarına gələ bilmirdi. Fikirləşirdi ki, xəstəlik, doğrudan da, adi bir qızdırma ola bilər.

Axşama tərəf qarı keşişi dilə tutub bir az danışdırandan sonra yenə də həkim çağırmağı məsləhət bildi. Keşiş başını qaldırıb tövşüyə-tövşüyə qəti səslə dedi ki, həkim çağırılmasını lazım bilmir. Sonra qarı qərara aldı ki, sabah səhərə qədər gözləyər, əgər vəziyyəti yaxşılaşmasa, özü həkim çağırar. Ransdoq agentliyinin radio vasitəsilə hər gün dəfələrlə elan elədiyi telefon nömrəsinə zəng etməsi kifayətdir. Qarı həm də fikirləşmişdi ki, gecəni keşişin yanında oturub ona qulluq edəcək. Amma axşam keşişə dərman otu dəmləyib verəndən sonra bir az uzanıb dincəlmək istəmiş, bərk yuxuya gedib bir də səhər oyanmışdı. Oyanan kimi də keşişin otağına qaçmışdı.

Keşiş yerində dinməzcə uzanıbmış. Dünənki acı öskürəklər kədərli bir süstlüklə əvəz olunub, keşiş gözlərini başı üstündəki çilçırağın qotazlarına zilləyib qalıbmış. Qarı içəri girəndə ona tərəf çevrilib. Qarı hiss edib ki, keşiş taqətdən düşüb. O hal-əhval tutanda keşiş deyib ki, vəziyyəti yaxşı deyil, həkim çağırmaqdansa, xəstəxanaya zəng etmək lazımdır. Gəlib qayda üzrə onu aparsınlar. Qarı qorxuya düşərək zəng etməyə qaçıb.

Ryö günorta gəlib çıxıb. Qarının söhbətinə qulaq asandan sonra deyib ki, Panelu düz qərara gəlibmiş, həkim çağırmağın əhəmiyyəti yox imiş. Keşiş onu da laqeyd bir baxışla qarşılayıb. Panelunu müayinə edən Ryö ya vəzi, ya da ciyər taunu əlamətləri tapa bilməyəndə təəccüblənib. Yalnız boğulma və öskürək şübhə doğururdu. Amma nəbzi elə zəif idi ki, sağalacağına ümid azalırdı. Ryö Paneluya dedi:

– Sizdə xəstəliyin əsas əlamətləri duyulmur. Amma bir az şübhə var, gərək sizi xəstəxanaya aparam.

Panelu üzgün, nəzakətli bir təbəssümlə ona baxdı. Həkim çıxıb zəng edəndən sonra yenə otağa qayıtdı. O, Paneluya baxıb mülayim səslə dedi:

– Mən sizin yanınızda qalacağam.

Keşiş tərpənib üzünü Ryöyə tərəf çevirdi. Gözlərinə mehriban bir ifadə qonmuşdu. Dili topuq vura-vura danışmağa başladı.

– Sağ olun. Amma keşişlərin dostu olmur. Onlar bütün hisslərini Tanrıya həsr edirlər.

Keşiş çətinliklə danışdığına görə sözlərində təəssüf hissi olub-olmadığını ayırd etmək çətin idi.

Sonra o, çarpayının baş tərəfindən asılmış xaçı istədi, xaçı əlinə alıb dinməzcə baxdı.

Xəstəxanada Panelu ağzını açıb kəlmə kəsmədi. Həkimlərin müayinə və dava-dərmanına dinməzcə imkan versə də, xaçı əlindən buraxmadı. Onun vəziyyəti dəyişirdi. Ryö şübhə içində qalmışdı. Xəstəlik tauna həm oxşayırdı, həm də oxşamırdı. Son vaxtlar, elə bil, xəstəliyin özü əlamətlərini dəyişməyə başlamışdı. Amma sonra məlum oldu ki, Panelunun vəziyyətinə bu şübhənin dəxli yox imiş.

Onun qızdırması qalxdı. Öskürək getdikcə ağırlaşıb bütün günü əzab verdi. Nəhayət, axşamüstü keşiş öskürəndə boğazındakı tıxac çıxdı. Bu, qırmızı bir düyüntü idi. Qızdırmadan yanan keşişin gözlərində ifadəsiz bir boşluq yaranmışdı. Ertəsi gün səhər onu ölmüş gördülər. Başı çarpayıdan sallanmışdı, gözləri də əvvəlki kimi ifadəsiz idi. Keşişin ölüm vərəqinə belə bir qeyd əlavə etdilər: “Şübhəli hal”.

***

Builki payız əvvəlki illərinkinə bənzəmədi. Hava şıltaqlıq edirdi. Son istilər qəfildən kəsildi və hava sərinləşdi. Əvvəlki payızlarda da külək qalxırdı, amma

bu payız külək ara vermirdi. İri bulud parçaları göydə qaçışır, evlərin üstünə kölgə salır, bulud uzaqlaşanda isə açıq noyabr səmasından yerə soyuq çökürdü. Bəzi adamlar plaş geyinməyə başlamışdılar. Amma qəribə bir cəhət də üzə çıxmışdı: qəzetlər yazmışdı ki, iki yüz il əvvəl, Cənubda taun zamanı həkimlər özlərini qorumaq üçün yağlanmış parçadan paltar geyirlərmiş. Tacirlər bu məlumatdan istifadə edib dəbdən düşmüş hava keçirməyən sintetik geyimləri üzə çıxarmışdılar.

Payızın gəlişi hər cəhətdən duyulsa da, köhnə qəbiristanlarda duyulmurdu. Keçən illər payızda xatirə günü qəbiristana gedən tramvayı xrizontem iyi bürüyürdü, qadınlar qəbiristana gedir, əziz mərhumlarının qəbirlərini gül-çiçəyə qərq edirdilər. Uzun aylar boyu yaddan çıxan qəbirlər xatirə günü sevincək olurdu. Amma bu il heç kim ölüləri yada salmaq istəmirdi. Daha doğrusu, ölüm və ölülər haqda fikirləşməkdən bezmişdilər. Əvvəlki kimi qəbiristana gedib qüssəli, həzin hisslər keçirməyə, unudulmuş mərhumdan il başında üzrxahlıq etməyə imkan yox idi. Ölüləri unutmağa çalışırdılar. Bu il ölülərə xatirə günü keçirilmirdi. Tarunun fikrincə, son vaxtlar kinayə ilə danışmağa başlamış Kottarın dediyi kimi, bu ilin hər günü ölülər günü sayılırdı.

Krematorilərdə taunun atəşfəşanlığı getdikcə güclənirdi. Doğrudur, ölənlərin sayı artmırdı. Amma adama elə gəlirdi ki, taun özünə məskən salıb rahatlanıb və müvafiq proqram üzrə iş görür. Başı çıxan adamların dediyinə görə, elə bunun özü yaxşı cəhət idi. Ölənlərin sayının günü-gündən artıb sonra sabit bir vəziyyətə çatması həkim Rişarın xoşuna gəlirdi. O, sabitliyi göstərən rəqəmlərə baxıb deyirdi: “Bax, bu yaxşıdır, gözəl rəqəmdir”. Onun fikrincə, xəstəlik özünün yüksək mərhələsinə çatmışdır və bundan sonra ancaq aşağı enə bilər. O həm də Kastelin düzəltdiyi yeni serum dərmanı-

nın xeyrindən danışırdı. Çünki həmin dərman, doğrudan da, gözlənilməz uğurlar qazanmağa başlamışdı. Qoca Kastel bu tərifin əleyhinə çıxmasa da, bildirirdi ki, hələ dəqiq bir söz demək olmaz, tarixi epidemiyalar vaxtı da belə gözlənilməz dəyişikliklər baş verib. Çoxdandır prefekt idarəsi camaata ürək-dirək verə biləcək xəbərlər yaymaq istəsə də, taun buna imkan vermirdi. Son göstəricilərdən ürəklənmiş rəhbərlik istəyirdi ki, həkimləri toplayıb fikirlərini öyrənsin və vəziyyətin yaxşılaşması haqda məlumat yaysın. Amma iş elə gətirdi ki, xəstəliyin sabitləşdiyi bir vaxtda həkim Rişarın özü xəstəliyə qurban getdi.

Bu bəd xəbər rəhbərliyin sevincini alt-üst etdi və onlar əvvəlki bədbinliyə qayıtdılar. Kastel isə öz dərmanı üzərində işini dayandırmırdı. Şəhərdə elə bir müəssisə yox idi ki, xəstəxanaya, yaxud düşərgəyə çevrilməsin. Hələlik təkcə prefekt idarəsinə toxunmamışdılar, çünki yığıncaq keçirməyə başqa bir yer qalmamışdı. Həmin dövrdə taunun vəziyyəti müəyyən qədər sabitləşdiyinə görə Ryönün sanitar dəstələrinin işi də əvvəlki kimi günü-gündən ağırlaşmırdı. Həkimlər və onların köməkçiləri ağır işlərin daha da ağırlaşacağı qorxusundan çıxmışdılar. İndi bu əzablı işi səliqə ilə davam etdirmək lazım idi. Xəstəliyin ağciyər forması elə sürətlə artırdı ki, elə bil, ciyərlərə dolmuş xəstəlik qığılcımlarını külək üfürüb közərdirdi. Qan qusan bu xəstələr çox yaşamırdılar. Xəstəliyin bu forması daha tez yoluxa bilərdi. Amma bu barədə də mütəxəssislərin fikri müxtəlif idi. Hər ehtimala qarşı tibb işçiləri hələ də qaz maskalarından istifadə edirdilər.

Ağciyər formasının artması belə təsəvvür yarada bilərdi ki, xəstəliyin özü də artıb. Amma xəstəliyin şişli yara formasının azalması vəziyyəti bərabərləşdirirdi.

Ərzağın getdikcə qıtlaşması da böyük narahatlıq yaradırdı. Dükanlardan yoxa çıxmış vacib ərzaq mallarını

alverçilər od qiymətinə satırdılar. Kasıb ailələr çox pis vəziyyətə düşmüşdülərsə də, varlılar istədikləri ərzağı tapıb ala bilirdilər. Taun adamlar arasında bərabərliyi bərpa etməkdənsə, haqsızlığı daha da artırmışdı. Doğrudur, ölümdə bərabərlik qalırdı, amma belə bərabərliyi heç kim arzu eləmirdi. Aclıqdan əzab çəkən kasıblar azadlıq, ucuz çörək tapılan kənar şəhər və kəndlər haqda daha çox fikirləşirdilər. Onlar haqsız da olsa düşünürdülər ki, indi ki onları yedirdə bilmirlər, şəhərdən çıxmalarına icazə verməlidirlər. Şəhərdə belə bir şüar yayılmışdı: "Ya çörək verin, ya da azadlıq". Bu şüarı gah divarlara yapışdırır, gah da prefekt idarəsinin qarşısında qışqırırdılar. Bu söz-söhbət qarışıqlıq yaradıb tez kəsilsə də, onun ciddi nəticələr verə biləcəyini hamı başa düşürdü.

Məlum məsələdir ki, qəzetlər aldıqları ümidverici xəbərləri yaymağa çalışırdı. Onları vərəqləyəndə oxumaq olardı ki, əhali "nümunəvi sakitlik" və təmkin nümayiş etdirir. Hər sirri məlum olan qapalı bir şəhərdə "nümunəvi" davranışın mövcud olmasına şübhə edən də yox idi. Buradakı sakitlik və təmkini daha yaxından duymaq üçün rəhbərliyin təşkil etdiyi karantin evləri və düşərgələrdən birinə baş çəkmək kifayət idi. Biz özümüz həmin yerlərdə olmadığımızdan Tarunun yazdıqlarına müraciət edirik.

Taru öz gündəliyində düşərgəyə çevrilmiş şəhər stadionuna Ramberlə birgə baş çəkməsini təsvir edib. Stadion şəhərin qurtaracağında yerləşir. Bir yanından tramvay yolu keçir. Yanları hündür beton barılarla bağlanıb. Dörd giriş qapısına düzülmüş qarovulçular buradan qaçmaq istəyənlərin yolunu kəsmişdilər. Həm də ki barılar çox hündür olduğundan karantinə salınmış bədbəxtlərin güzəranını çöldən heç kəs görə bilməzdi. İçəridəkilər isə səhər və axşam barının o üzündən keçən tramvayların səsinə qulaq asır və fikirləşirdilər ki, məh-

rum olduqları fəal həyat bir neçə addımlıqda, barının o üzündə davam edir, bu hündür barı da, elə bil, müxtəlif planetlərdə olan iki yad aləmin arasına çəkilmişdi.

Taru ilə Ramber stadiona bazar günü günortadan sonra getmişdilər. Futbolçu Qonzales də onların yanında idi. Ramber onunla görüşüb stadiona növbə ilə qarovulçu işləməyə razı salmışdı. İndi onu düşərgənin rəisinə təqdim etmək istəyirdi. Günortadan sonra onlar görüşəndə Qonzales deyib ki, taundan əvvəl, adətən, bu vaxtlar idman paltarını geyib stadionda futbol oynayırmış. İndi stadion düşərgəyə çevrildiyi üçün Qonzales çox darıxırmış. Elə qarovulçuluq etməyə razılaşmasına da, əsasən, bu darıxma səbəb olub. O həm də şərt qoyub ki, ancaq həftənin son günləri qarovulçuluq edəcək. Hava ala buludlu olduğuna görə Qonzales göyə baxıb təəssüflə deyib ki, yaxşı futbol havasıdır. Yol boyu futbol xatirəsini yada salan Qonzales oyuna hazırlıqdan, əlvan köynəklər geymiş futbolçuların yaşıl meydanda qaçışmasından, fasilə vaxtı içdiyi limonadın sərinliyindən danışırmış. O həm də yolboyu rast gəldiyi xırda daşları ayağı ilə vurub uçururmuş. Qonzales vurduğu daşları kanalizasiya dəliklərinə salmağa çalışır, daş dəliyə düşəndə: “Hesab bir-sıfır oldu”, – deyirmiş. O, ağzındakı siqareti də çəkib qurtarandan sonra havaya ataraq ayağı ilə vurub. Nəhayət, onlar stadiona yaxınlaşanda kiçik meydanda futbol oynayan uşaqların topu onlara tərəf gəlib, Qonzales dəqiq zərbə ilə topu uşaqlara qaytarıb.

Onlar stadiona girdilər. Stadionun tribunaları adamla dolu idi. Meydanda isə yüzlərcə qırmızı rəngli çadır düzülmüşdü. Adamlar gündüzlər istidən və yağışdan qorunmaq üçün tribunalarda oturur, axşamlar isə çadırlara qayıdırdılar. Tribunaların altında duşxanalar işləyirdi. Oradakı geyim otaqlarını isə idarə və tibb otaqlarına çevirmişdilər. Karantindəkilərin çoxu tribunalarda

oturmuşdu. Bəziləri səkilərdə gəzinir, bəziləri isə çadırın qabağında oturub nəyə gəldi mat-mat baxırdılar. Tribunadakılar, elə bil, oturub nə isə gözləyirdilər. Taru Ramberdən soruşdu:

– Bunlar bütün günü nə edirlər?

– Heç nə.

Doğrudan da, bu qədər adamın hamısı boş-bikar fırlanırdı. Özü də bu tünlükdə qəribə bir sükut hökm sürürdü. Ramber dedi:

– İlk günlər söz-söhbət çox olurdu. Sonralar hamı susmağa adət eləyib.

Taru gündəliyində yazırdı ki, bu adamların vəziyyətini anlamaq çətin deyilmiş. Onlar bütün günü çadırda oturub milçəklərin vızıltısına qulaq asır, ora-buralarını qaşıyır, söhbətə qulaq asan bir adam tapanda isə ürəklərini deşən qəzəb və qorxu dolu cümlələri onun üstünə yağdırırlarmış. Amma elə ki düşərgə adamla dolub, söhbətə qulaq asan azalıb, hamı susur və bir-birindən ehtiyat edirmiş. Boz səmanın özündən də qırmızı çadırların üzərinə qorxu yağırdı.

Elə bil, buradakıların hamısı qorxu içində idi. Bir halda ki onları camaatdan ayırmışdılar, deməli, nə isə bir səbəb vardı. İndi hamı bir-birinin üzündən həmin səbəbi arayır. Taru üzünə baxdığı hər kəsin gözündə ayrılığın qüssəsini duyub. Burada bütün fikirlərin axırı ölümə calandığına görə heç kim fikirləşmək istəmir. Hamı, elə bil, istirahətdə idi. Taru yazırdı: "Ən pis cəhət bu idi ki, adamlar unudulmuşdular və unudulduqlarını bilirdilər". Tanışlar başqa qayğıların çoxluğundan unutmuşdular. Sevənlər isə onları bu vəziyyətdən qurtarmaq üçün bütün günü canfəşanlıq etdiklərinə görə onların özlərini unudurdular. Bu da adi bir hal idi. Amma nəhayət, belə məlum olurdu ki, heç kim heç kəs haqda fikirləşməyə macal tapmır və elə bunun özü də ən böyük bədbəxtlik idi. Bir adam haqda fikirləşəndə gərək onu hər an yad edəsən: nə ev

işləri, nə milçəyin vızıltısı, nə yemək, nə qaşınma bu fikrə mane olmasın. Amma milçək vızıltısı və qaşınma adamlara aman vermir. Elə buna görə də həyat ağırlaşır. Bunu düşərgədə olanlar başa düşürdülər.

Onları stadionda qarşılayan müdir dedi ki, cənab Oton onlarla görüşmək istəyir. O, Qonzalesi öz otağına ötürüb Taru ilə Ramberi Otonun yanına apardı. Tribunanın bir küncündə oturmuş Oton onları görüb ayağa qalxdı. O, həmişəki kimi, rəsmi geyimdə idi. Amma Tarunun nəzərinə çarpdı ki, gicgahlarında saçı xeyli ağarıb. Müstəntiq yorğun görünürdü və söhbət vaxtı bir dəfə də olsun müsahiblərinin üzünə baxmadı. O, bu görüşdən çox məmnun olduğunu bildirdi və xahiş etdi ki, həkim Ryöyə onun təşəkkürünü yetirsinlər. Taru ilə Ramber susurdular. Az sonra Oton dedi:

– Güman edirəm ki, Jak çox əzab çəkməyib.

Taru birinci dəfə eşidirdi ki, Oton oğlunun adını çəkir. O fikirləşdi ki, Oton xeyli dəyişib. Qütbə çəkilən günəş buludların arxasından qırmızımtıl şüalar yayırdı və həmin şüalar tribunada oturmuş Tarugilin də sifətinin rəngini dəyişmişdi. Taru cavab verdi:

– Yox, oğlunuz əzab çəkmədi.

Sonra onlar ayağa qalxıb ayrılanda Oton hələ də günəşin batdığı səmtə baxırdı.

Taru ilə Ramber Qonzaleslə xudahafizləşməyə gələndə o, qarovulçuların növbə cədvəlinə baxırdı. Qonzales onların əlini sıxandan sonra gülümsəyərək dedi:

– İndi geyim otağımıza baş çəkdim, elə bir dəyişiklik yoxdur.

Az sonra müdir Taru ilə Ramberi yola salanda tribunalarda uca bir xırıltı eşidildi və stadionun radiosu işə düşdü. Əvvəllər oyunların nəticəsini və komandaların tərkibini elan edən bu radio indi xırıltı ilə bildirdi ki, axşam yeməyi paylanır və hamı öz çadırına qayıtmalıdır. Adamlar tribunalardan düşüb ayaqlarını sürüyə-

sürüyə öz çadırlarına tərəf gedirdilər. Hamı çadırlara yığışandan sonra, adətən, vağzallarda işlədilən iki elektrik avtomobili çadırların arası ilə fırlanıb yemək paylamağa başladı. Adamlar öz qablarını çadırdan çölə uzadır, avtomobil dayanır, xidmətçilər çömçələri iri qazanlara salıb qablara xörək tökür, sonra isə avtomobil qonşu çadıra yan alırdı.

Taru müdirə dedi:

– Burada işlər mexanikləşdirilib.

– Hə, yaxşı təşkil olunub, – müdir onların əlini sıxıb xudahafizləşdi.

Axşam düşürdü. Meydança axşamın mülayim işığına boyanmışdı. Qaşıq və boşqabların səsi hər yanı bürümüşdü. Yarasalar çadırların üstündə fırlanıb uzaqlaşdılar. Divarın o üzündən keçən tramvayın səsi eşidildi. Qapıdan çıxarkən Taru mızıldadı:

– Müstəntiqə lap yazığım gəldi. Gərək ona kömək edək. Axı müstəntiqə necə kömək edəsən?

***

Şəhərdə başqa bir neçə düşərgə də vardı. Amma onları görə bilmədiyimizə və dəqiq məlumatımız olmadığına görə qalanlar haqda bir söz deyə bilmərik. Təkcə onu deyə bilərik ki, bu düşərgələrin mövcudluğu, burada qalanların çoxluğu, daxili radioların nəriltisi, hündür divarlar və onların vahiməsi şəhər camaatını daha çox qorxuya salır, ürək sıxıntısını artırırdı. Düşərgələrin rəhbərliyi ilə camaat arasında münaqişələr çoxalırdı.

Noyabrın axırında səhərlər hava soyuq keçirdi. Güclü yağışlar səkiləri yuyub-təmizləmişdi, səma da hər dəfə su yükünü boşaldandan sonra bərq vururdu. Səhərlər zəif günəş şüaları şəhəri qızdıra bilməsə də, göz qamaşdırır, axşamlar isə hava nisbətən ılıqlaşırdı.

Belə günlərin birində Taru həkim Ryöyə özü haqda bir az məlumat verməк imkanı tapdı.

Həmin gün axşam saat ona yaxın, ağır iş gününün sonunda Ryö astmalı qocaya baş çəkməyə gedəndə Taru da ona qoşuldu. Köhnə məhəllə üzərində səma tərtəmiz idi. Alaqaranlıq küçələrdən sonra evdə astmalı qocanın çənə döyməsinə qulaq asmaq çətin idi. Qoca deyirdi ki, yağlı tikənin həmişə eyni adamlara düşməsindən narazı olanlar var. "İndi "su səhəngi suda sınar" məsəli düz çıxacaq, didişmə düşəcək", – deyə o, əllərini ovxalayırdı. Həkim onu müayinə etdiyi anda da qoca dil boğaza qoymurdu.

Damın üstündən addım səsləri gəlirdi. Xəstənin qarısı Tarunun bu səsə diqqət yetirdiyini görüb izah elədi ki, qonşular evin üstündəki eyvanda gəzinməyə çıxırlar. Qarı həm də dedi ki, eyvandan şəhərə gözəl mənzərə açılır, yuxarıdakı qonşuların eyvanları ümumi olduğuna görə elə eyvandanca bir-birinin evinə keçə bilirlər. Axırda astmalı qoca onlara məsləhət verdi:

– Qalxın yuxarıda bir az dincəlin, oranın havası təmizdir.

Onlar yuxarı qalxanda eyvan kimsəsiz idi, amma üç stul qoyulmuşdu. Bir tərəfdə uzun eyvan qayaya dirənirdi. O biri tərəfdə isə bir neçə küçə və limanın qara kölgələri görünürdü. Daha uzaqda dənizlə səmanın nikah xətti uzanırdı. İrəlidəki qayalardan o üzdə bir işıq hey yanıb-sönürdü. Bu, xəbərdarlıq fənəri idi, yazdan bəri fırlanır, yaxınlaşan gəmiləri başqa limanlara göndərirdi. Küləyin üfürüb təmizlədiyi mavi səmada ulduzlar parıldayır və xəbərdarlıq fənərinin yeknəsəq şüaları da tez-tez bu parıltıya qoşulurdu. Yüngül meh haradansa ədviyyat və daş-torpaq iyi gətirirdi. Ətrafda tam sakitlik idi.

Ryö stula oturaraq dedi:

– Burada hava gözəldir. Elə bil, taun buralara qalxa bilməyib.

Taru arxasını ona çevirib dənizə baxırdı. O, bir az susub cavab verdi:

– Bəli, hava gözəldir.

O gəlib həkimin yanında oturdu və diqqətlə ona baxmağa başladı. Uzaqdakı fənər aram-aram yanıb-sönürdü. Aşağı küçədən qab-qaşıq cingiltisi eşidildi və qapılardan biri açılıb-örtüldü. Taru sakit səslə soruşdu:

– Ryö, heç mənim kim olduğumla maraqlanmısınız? Məni özünüzə dost sayırsınız?

– Bəli, – həkim cavab verdi, – mən sizi dost sayıram. Amma bir-birimizlə maraqlanmağa vaxt qalmır.

– Cavabınız məni ürəkləndirdi. İstəyirsinizmi bu bir saatı "dostluq saatı" elan eləyək?

Ryö cavab vermək əvəzinə ona baxıb gülümsədi.

– Yaxşı, onda qulaq asın...

Uzaq küçələrdən birində nəm yolda sürüşən maşının uğultusu eşidilirdi. Maşın uzaqlaşandan sonra başqa qarışıq səslər də sükutu pozdu. Sonra isə eyvanda oturmuş iki kişinin üzərinə gecənin ulduz yüklü sükutu çökdü. Taru ayağa qalxıb eyvanın sürahisinə söykəndi və üzünü stulda oturmuş Ryöyə tutdu. Tarunun səma fonunda qara kölgəsi görünürdü. O, çox danışdı və uzun söhbətinin yaddaqalan hissələri bunlardır:

– Ryö, fikrimi sadələşdirib demək istəyirəm ki, mən bu şəhəri və bu epidemiyanı görməmişdən əvvəl də taunun əzabını çəkirdim. Elə onu demək kifayətdir ki, mən də başqaları kimiyəm. Elə adamlar var ki, öz vəziyyətlərini başa düşmür və həmin vəziyyətdəcə arxayın yaşayırlar. Amma elələri də var ki, öz vəziyyətini duyur və onu dəyişməyə çalışırlar. Mən də həmişə öz vəziyyətimi dəyişməyə çalışmışam.

Gənc yaşlarımda öz sadəlövh fikirlərimlə yaşayırdım, deməli, heç bir ciddi fikrim yox idi. Heç nə ara-

mırdım, necə gəldi, elə də yaşayırdım. Hər işim uğurla başlayırdı, şüurum yaxşı işləyirdi, qadınlarla münasibətim də yaxşı idi. Yüngül bir nigaranlığım olsa da, tez çəkilib gedirdi. Günlərin birində fikirləşməyə başladım. İndi...

Gərək onu da deyim ki, mən sizin kimi kasıb deyildim. Atam baş vəkil idi, özünüz bilirsiniz ki, bu da balaca vəzifə deyil. Amma o, vəzifəsinə görə lovğalanan adam deyildi, təbiətən xeyirxah idi. Anam isə çox sadə və az nəzərə çarpan bir qadın idi, mən onu həmişə sevmişəm, amma onun haqda danışmasam yaxşıdır. Atam mənimlə məşğul olur və zənnimcə, fikirlərimi anlamağa çalışırdı. O, kənarda eşqbazlıq da edirmiş, bunu indi daha yaxşı anlayıram. Amma bu cəhətinə görə ondan qətiyyən incimirəm. O, belə işləri elə ehtiyatla görürdü ki, heç kim incimirdi. Sözün qısası, indi o yoxdur, rəhmətə gedib, yadıma salıb fikirləşəndə anlayıram ki, müqəddəslər kimi təmiz yaşamasa da, pis adam deyildi. Orta səviyyəli adam idi, vəssalam. Belələrinə qarşı adamda rəğbət hissi yaranır.

Amma onun bir xüsusiyyəti də vardı: "Şeks" adlı yol məlumat kitabını bütün kitablardan çox sevirdi. Özü səfərə çıxan deyildi, ancaq məzuniyyət vaxtı Bretandakı kiçik malikanəsinə səfər edirdi. Amma o, Paris – Berlin qatarının yola düşüb mənzilə çatma vaxtlarını, Liondan Varşavaya getmək üçün neçə nəqliyyat dəyişmək lazım gəldiyini, öz şəhəri ilə dünyanın paytaxt şəhərləri arasındakı dəqiq məsafəni əzbər bilirdi. Briansondan Şamoniksə necə getmək lazım olduğunu deyə bilərsiniz? Heç vağzal rəisləri də bu suala cavab verə bilməz. Atam isə belə sualların cavabını bilirdi. O, az qala, hər axşam bu sahədə biliyini artırır və öz məşğuliyyəti ilə fəxr edirdi. Atamın bu məşğuliyyəti məni çox əyləndirirdi. Mən ona suallar verir, cavabının məlumat kitabındakı cavabla eyni olduğunu görüb sevinirdim.

Belə məşğələlərimiz bizi bir-birimizə yaxınlaşdırır, atam ona qoşulmağımdan razı qalırdı. Mən isə fikirləşirdim ki, atamın dəmir yolları sahəsindəki biliyi başqa biliklərdən gərəksiz deyil.

Mən, deyəsən, sözü uzadıram və qorxuram ki, bu kişi haqda lazım olduğundan çox danışam. Sözün qısası, onun tək bir işi mənim taleyimə təsir göstərib. Daha doğrusu, bu təsir üçün o, şərait yaradıb. On yeddi yaşım olandan sonra bir dəfə atam məni dəvət etdi ki, məhkəmə işində onun çıxışına qulaq asım. Həmin gün mühüm bir məhkəmə işi aparılırdı və şübhəsiz atam da həmin günü özü üçün mühüm bir gün sanırmış. O həm də güman edirmiş ki, belə bir təntənəli məhkəmə prosesindən sonra mən həvəslənər və atamın peşəsini davam etdirmək arzusuna düşərəm. Mən atamın sözünü yerə salmamaq üçün razılaşdım. Həm də ki atamın evdə gördüyüm əlamətlərinə əlavə olaraq onu başqa bir şəraitdə də görüb dinləmək istəyirdim. Başqa heç bir fikrim yox idi. Məhkəmə zalındakı əhvalatlar mənə jurnalların on dörd iyul yubiley nömrəsindəki yazılar və yaxud mükafat paylama mərasimləri kimi təbii görünürdü. Ümumiyyətlə, məhkəmə işi haqda dəqiq təsəvvürüm yox idi.

Amma həmin gün yaddaşıma tək bircə adamın – məhkumun surəti həkk olundu. Nədə təqsirləndirildiyini bilməsəm də, günahkar olduğunu duymuşdum. Otuzyaşlı, balaca, kürən bir kişi idi. Günahlarını elə səmimiyyətlə etiraf edir, necə cəza alacağını elə həyəcanla gözləyirdi ki, gözlərimi ondan çəkə bilmirdim. Kişi gur işığa düşüb karıxmış bayquşa oxşayırdı. Boynundakı qalstuku əyri durmuşdu. Sağ əlini tez-tez ağzına aparır, dırnağını gəmirirdi. Xülasə, o, hələlik sağ idi.

Amma qəfildən duymuşdum ki, mən bu adama ölüyə baxan kimi baxırdım. Elə bilməyin ki, orada atamı yaddan çıxarmışdım. Amma ölüm hökmünü gözləyən

bu adama baxdıqca keçirdiyim həyəcan bütün fikrimi bir nöqtəyə cəmləmişdi. Danışıqları eşidə bilmir, bircə onu duyurdum ki, bu adamı öldürmək istəyirlər və xəyalən, kor-koranə bir qətiyyətlə onun tərəfinə keçmişdim. Yalnız atam əsas çıxışına başlayanda xəyaldan ayrıla bildim.

Qırmızı xalat geyib dəyişmiş, xeyirxah görkəmini itirmiş bu kişi ara vermədən danışır, ağzından təntənəli cümlələrə bükülmüş zəhər yağdırırdı. Mən başa düşdüm ki, o, cəmiyyətin adından günahkara ölüm cəzası tələb edir, hətta onun boynunun vurulmasını istəyirdi. Doğrudur, o, "bu baş yerə düşməlidir" ifadəsini işlətmişdi, amma fərq böyük deyildi, axırda istəyinə nail oldu, həmin başın axırına çıxdı. Məlum məsələdir ki, icraçı başqa adam olacaqdı. Sonrakı danışıqları da axıra qədər dinlədim və axırda da hiss etdim ki, mühakimə edilən bədbəxtə rəğbətim atama rəğbətimdən güclüdür. Adətə görə, son ana qədər müttəhim zalda olmalı idi və mənə elə gəlir ki, bu adətin özü də ağır bir cəzadır.

Həmin gündən sonra atamın məlumat kitabına da nifrət edirdim. Həmin gündən sonra ədliyyə işinə də, ölüm hökmünə də, hökmün icrasına da nifrət edir və bilirdim ki, atam belə hökmlərin çıxarılmasında tez-tez iştirak edir, özü də həmin günlər yuxudan erkən oyanırdı. Mən bu barədə anamla danışmasam da, sonra onu daha diqqətlə müşahidə edir və duyurdum ki, valideynlərimin qarşılıqlı yaxınlığı yoxdur, anam öz taleyinə təslim olub. Həmin vaxt onun susmasını bağışlamışdım. Sonralar isə anladım ki, anamın bağışlanmalı bir günahı da yox imiş. Çünki evlənənə qədər kasıb ailədə böyümüş və kasıblıqdan mütilik dərsi almışdı.

Yəqin, elə güman edirsiniz ki, mən elə həmin vaxtdan evimizdən çıxmışam. Xeyr, bir neçə ay, bir ilə yaxın evdə qaldım. Amma ürəyim yaralı idi. Bir axşam

atam tapşırdı ki, onu tez oyatsınlar. Həmin gecəni yata bilmədim. Ertəsi gün atam qayıdınca evdən çıxdım. Atam məni axtartdırıb tapdı və ona sakitcə izah etdim ki, məni evə qayıtmağa məcbur etsə, özümü öldürəcəyəm. Atam axırda razılaşmalı oldu, çünki təbiətən mülayim adam idi. Amma sərbəst həyatın (o, mənim hərəkətimi bu cür qiymətləndirirdi və mən etiraz etmirdim) çətinlikləri haqda xeyli danışdı. Sonra cürbəcür məsləhətlər verdi, kövrəldi və səmimi göz yaşı tökdü. Sonralar anamı görmək üçün evə baş çəkəndə onunla da rastlaşırdım. Zənnimcə, belə təsadüfi görüşlər də ona kifayət edirdi. Onun üçün darıxmasam da, yadıma düşəndə qüssələnirdim. Atam öləndə anamı öz evimə gətirdim. Anamdan ayrı yaşamaq fikrim yox idi, amma o da vəfat etdi.

Söhbətin başlanğıcını ona görə belə uzatdım ki, bu dövr mənim üçün hər şeyin başlanğıcı idi. İndi daha qısa danışacağam. Elə on səkkiz yaşımda həyata başladığım günlərdən kasıblığın üzünü gördüm. Çörəyimi qazanmaq üçün cürbəcür peşələrə qulluq etdim. İşlərim qaydasına düşdü. Amma yenə də ölüm hökmünün fikri məni hər şeydən çox məşğul edirdi. Bayquşa oxşayan kürən kişi gözlərim önündən çəkilmirdi. Siyasi həyata qoşuldum. Daha doğrusu, taunlu xəstə kimi aciz qalmaq istəmirdim. Mənə elə gəlirdi ki, yaşadığım cəmiyyətin özülü ölüm cəzası üzərində qoyulub və bu cəmiyyətə qalib gəlməklə insan qətlini aradan götürmək olar. Bu fikirləri başqalarından eşidib onlara inanmışdım, elə, əslində də, əksəriyyəti haqlı fikirlər idi. Beləliklə, sevdiyim adamlara qoşulmuşdum, onları elə indi də sevirəm. Uzun müddət bu fikirlərlə yaşadım və Avropanın elə bir ölkəsi yoxdur ki, oradakı siyasi mübarizələrə qoşulmamış olam. Xülasə, gerisini danışıram.

Bəli, hərdən hiss edirdim ki, elə biz özümüz də hərdən ölüm hökmü verməli oluruq. Amma mənə elə

izah edirdilər ki, heç kimin öldürüləcəyi bir dünya qurmaq üçün bir neçə adamın öldürülməsi vacibdir. Bu fikir bir cəhətcə həqiqət olsa da, mən bu cür həqiqətləri əsas götürə bilmirdim. Tərəddüd edirdim. Amma mən yenə də bayquşa oxşayan kişi haqda fikirləşir, rahatlıq tapa bilmirdim. Bir ölüm hökmünün icrasını gördüyüm günə qədər (Macarıstanda) gənclik illərimin xülyaları içində yaşadım.

Heç ömrünüzdə bir adamın güllələnməsinə tamaşa etmisiniz? Əlbəttə ki yox, adətən, belə tamaşalara ancaq lazımi adamlar dəvət olunur. Siz ancaq kitablardakı təsvirləri oxumuş olarsınız. Dirəyə söykənmiş gözübağlı bir adam və xeyli aralıda bir neçə əsgər. Xeyr, belə deyil! Heç xəbəriniz varmı ki, əsgərlər dəstəsi məhkumun qarşısında, yarım metrlik bir məsafədə düzülürlər? Bilirsiniz ki, əgər məhkum ikicə addım irəli çıxsa, tüfənglər sinəsinə dirənər? Bilirsinizmi, bu qısa məsafədən bütün tüfənglər məhkumun düz ürəyinə tuşlanır və atəşdən sonra həmin sinədə yumruq keçə bilən bir dəlik açılır? Xeyr, siz bunları bilmirsiniz, çünki belə xırda təfsilatları hamıya danışmırlar. Yuxusuz adamın yuxu arzusu taunlunun həyat arzusundan güclü olur. İnsanların yuxusuna mane olmaq lazım deyil. Yuxusuzluq ağıza acı tam gətirir və fəaliyyəti kütləşdirir. Həmin vaxtdan bəri yaxşı yata bilmirəm. Ağzımda acılıq duysam da, kütləşməmişəm, yəni düşünə bilirəm.

Nəhayət, mən anladım ki, bu uzun illər boyu qəlbən tauna qarşı vuruşmuşamsa da, özüm taunlu xəstə olaraq qalmışam. Anladım ki, öz hərəkətlərimlə minlərlə adamın ölüm hökmündə iştirak etmişəm, ölümə imkan yaradan hərəkət və prinsiplərə tərəfdar çıxaraq ölümə yol açmışam. Başqa yoldaşlarımı bu cəhət narahat etmir, onlar bu mövzuda söhbət salmırdılar. Mən isə çox həyəcan keçirirdim. Onlarla bir olsam da, özümü

tənha sanırdım. Yoldaşlarıma öz nigaranlığımdan söz açanda onlar əsas məqsəd haqda fikirləşməkdə təkid edir, sanballı əsaslarla məni sakitləşdirməyə çalışırdılar. Onlara cavab verirdim ki, əgər beləyə qalsa, qırmızı xalat geyinən rütbəli taunluların hökmlərinə də haqq qazandırmaq olar. Bir halda ki rütbəsiz taunluların rütbəli taunlulara qarşı əməllərini müdafiə edirik, rütbəliləri də müdafiəsiz qoymaq olmaz. Onlar başa salmağa çalışırdılar ki, qırmızı xalatlıların peşəsi cəza tətbiq etməkdir. Mən isə fikirləşirdim ki, əgər güzəşt edilirsə, gərək hamıya güzəşt edilsin.

Zənnimcə, tarix mənim fikrimə haqq qazandırıb, indi hər iki tərəf daha çox rəqib öldürməyə çalışır, hamısı çıxış yolunu adam öldürməkdə görür.

Hər halda, mənim əsas məqsədim haqqa çatmaq deyildi. Məni narahat edən bayquşa oxşayan kürən kişi və onun ölümünü tələb edən, bu zəncirli adamın ölümü üçün çalışan taun nəfəsli adamlar idi. Məni narahat edən sinədə açılan dəlik idi. Özlüyümdə qəti qərara almışdım ki, ömrüm boyu heç vaxt insan ölümünə səbəb olacaq heç bir əmələ yol verməyim. Bəli, kor-koranə də olsa, belə bir qərar qəbul eləmişdim.

O vaxtdan bəri heç dəyişməmişəm. Amma çoxdandır xəcalət çəkirəm. Xəcalət çəkirəm ki, nə vaxtsa mən də istər-istəməz kiminsə ölümünə bais olmuşam. Zaman keçdikcə anlayırdım ki, ən yaxşı adamlar belə ölümə bais olur, yaxud ölümə şərait yaradır, çünki onların həyat qanunu belədir. Bizim hər bir hərəkətimiz kiminsə ölümünə səbəb ola bilər. Bəli, buna görə həmişə xəcalət çəkmişəm, anlamışam ki, bizim hamımız taunlu xəstələrik. Bu fikir mənə rahatlıq verməyib. Mən hələ də axtarışdayam, hamını anlamağa çalışıram, heç kimə düşmən kəsilmək istəmirəm. Bircə onu bilirəm ki, hər vasitə ilə çalışıb taunlu xasiyyətimizi dəyişməliyik, ancaq bu yolla rahatlıq taparıq. Yalnız bu yolla insan xilas olar,

az yamanlıq edər, bəlkə, üstəlik, yaxşılıq etməyə də imkan tapar. Elə buna görə də qərara almışam ki, istər haqlı, istər haqsız ölümə, həm də ölümə haqq qazandıran hər cür əmələ qarşı mübarizə aparım.

Elə buna görə də bu taun epidemiyasını təzə bir şey saymıram, bir onu bilirəm ki, sizinlə əl-ələ verib ona qarşı mübarizə aparmalıyam. Dəqiq bilirəm ki (bəli, Ryö, mən həyatı yaxşı öyrənmişəm, bunu özünüz görürsünüz), belə bir xəstəlik hər kəsin canında var, heç kəs özünü istisna saya bilməz. Gərək hamı ehtiyatlı olsun ki, nəfəsini başqalarının nəfəsinə qatıb onlara xəstəlik yoluxdurmasın. Ən təbii şey mikrobdur. Qalan hər şey – sağlamlıq, düzgünlük, saflıq insan təbiətinin məhsuludur və onlar daim yaşamalıdır. Ən az ehtiyatsızlıq edən, heç kəsə xəstəlik yoluxdurmayan adama namuslu demək olar. Ehtiyatlı olmaq üçün iradə və gərginlik gərəkdir! Bəli, Ryö, taunlu xəstə kimi yaşamaq çətin işdir. Amma bu xəstəlikdən qorunmaq daha da çətindir. Elə buna görə də hamı çətinlik içindədir, çünki hər kəsdə bir az taun yoluxması var. Elə buna görə də bu çətinlikdən bezikən bəzi adamlar onun ancaq bir üzünü tanıya bilir və ölüm onların xilas yoluna çevrilir.

İndi bilirəm ki, mənim bu dünya üçün heç bir əhəmiyyətim yoxdur və ölümə qarşı çıxdığım gündən özümü ömürlük sürgünə məhkum etmişəm. Tarixi başqaları yaradacaq. Həm də bilirəm ki, başqalarını günahlandırmağa da haqqım yoxdur. Ölümə adi bir hal kimi baxmağı bacarmıram. Bu, üstün bir cəhət deyil. Amma indi öz təbiətimlə barışmışam, təvazökarlığa adət etmişəm. Bir onu bilirəm ki, yer üzündə bəlalar və bəlaların qurbanları var və mümkün qədər çalışmaq lazımdır ki, bəlanın köməkçisinə dönməyəsən. Bəlkə də, bu fikir sizə sadə görünür, onun sadə olub-olmadığını bilməsəm də, həqiqət olduğuna əminəm. İndiyə qədər eşitdiyim müxtəlif fikirlər məni bir az çaşdırsa da, başımı

çevirə bilməyib, amma həmin fikirlər başqalarının başını çevirib və onları caniliyə sürükləyib. İnsanların ən böyük bəlası ondadır ki, aydın danışmırlar. Mən aydın danışığı və hərəkəti düzgün yol kimi seçmişəm. Mən deyirəm ki, bəla və bəlanın qurbanları mövcuddur. Əgər belə deməklə özüm də bəla yaradıramsa, bu, mənim günahım deyil. Buna görə təqsirkar sayılsam da, günahsız olacağam. Özünüz görürsünüz ki, bu da bir çıxış yolu deyil.

İndi üçüncü bir tip adamlar gərəkdir. Əsl həkimlər kimi adamlar, amma belələri az rast gəlinir və yəqin ki, belə adam olmaq çətin işdir. Elə buna görə də mən özümü qurbanların arasına saldım və bəlanı zəiflətməyə çalışıram. Qurbanların arasında olanda az rast gələn əsl insanların ucalığa, ruhi əmin-amanlığa gedən yolunu daha aydın görmək olur.

Sözünü başa vuranda Taru oturduğu yerdə ayağını yelləyib asta-asta eyvanın döşəməsinə vururdu. Həkim bir az susandan sonra azacıq qalxıb Tarudan ruhi əmin-amanlığın yolunu nədə gördüyünü soruşdu.

– Rəğbət hissində görürəm, – Taru cavab verdi.

Uzaqdan "təcili yardım" maşınının səsi eşidildi. Yan üzdəki qayanın arxasından qarışıq səslər gəldi. Xeyli aralıda partlayış səsinə bənzər bir gurultu da eşidildi. Sonra sakitlik çökdü. Ryö sakitcə oturub xəbərdarlıq fənərinin yanıb-sönməsini sayırdı. Dənizdən gələn meh bir az gücləndi və özü ilə duz iyi gətirdi. Diqqətlə qulaq asanda uzaqda dalğaların qayalara çırpılmasını eşitmək olurdu. Taru sakit səslə dedi:

– Məni bir məsələ maraqlandırır: görəsən, insanlar necə müqəddəsləşirlər?

– Siz ki Allaha inanmırsınız.

– Elədir. Amma bu gün tanıdığım ən çətin məsələ budur ki, görəsən, Allaha inanmadan müqəddəs olmaq mümkündürmü?

Az əvvəl səs-küy gələn səmtdə gur bir işıq parladı, az sonra isə küt bir partlayış eşidildi. İşıq yoxa çıxdı və onun yerində qırmızı işartı qaldı. Külək eyvana qışqırıq səsləri, güllə vıyıltısı, sonra isə qarmaqarışıq hənirtilər gətirdi. Taru qulaq asırdı. Az sonra səs-səmir kəsildi.

– Yenə şəhər darvazasında atışma oldu.

– Daha sakitləşdilər, – Ryö cavab verdi.

Taru dedi ki, adamlar heç vaxt sakitləşməyəcək, həlak olanlar artacaq, qayda belədir.

Həkim cavab verdi:

– Deyim ki, özümü müqəddəslərlə yox, məğlublarla həmrəy sayıram. qəhrəmanlığa və müqəddəsliyə marağım yoxdur. Kəsəsi, insan olmaq istəyirəm.

– Bəli, məqsədimiz eyni olsa da, mənim imkanım daha azdır.

Ryö Tarunun zarafat etdiyini düşündü. Ancaq qaranlıqda ona tərəf baxanda duydu ki, sifəti ciddi və qüssəlidir. Taru soruşdu:

– Bilirsinizmi, biz dostluq naminə nə etməliyik?

– Nə etməliyik?

– Gedib dənizdə çimməliyik. Lap müqəddəsliyə hazırlaşanlar da belə bir istirahətdən zərər çəkməzlər.

Ryö gülümsəyirdi. Taru dedi:

– Buraxılış vərəqlərimizlə sahilə çıxa bilərik. Sözün düzü, taunun içində yaşamaq adamı bezdirir. Doğrudur, indi əsas şərt adamların xilası uğrunda mübarizədir. Amma qalan hər şeyə marağını itirmiş adamın mübarizəsi də heç nəyə dəyməz.

– Elədir, gedək, – Ryö cavab verdi.

Az sonra onlar maşını sahilə yaxın dəmir çərçivənin qarşısında saxladılar. Ay çıxmışdı. Ətrafa mülayim bir işıq səpələnmişdi. Şəhər geridə qalmışdı və arxadan əsən isti və üfunətli bir meh onları dənizə tərəf itələyirdi. Onlar buraxılış vərəqlərini gözətçilərdən birinə göstərdilər, mühafizəçi vərəqləri uzun-uzadı yoxladı.

Sonra qapıdan keçib səkiyə düzülmüş, şərab və balıq iyi verən çəlləklərin arası ilə irəlilədilər, burulub qayalığa tərəf getdilər. Qayalığa çatmamış burunlarına yod və yosun iyi vurdu, sonra isə ləpələrin səsi eşidildi.

Ləpələr qayaların ətəyinə ilişib astaca şırıldaşırdı. Taru ilə Ryö ləpədöyən xırda qayaların üstü ilə irəlilədikcə onlara elə gəlirdi ki, mülayim, yumşaq dəniz heyvanlarının üstü ilə gedirlər. Axırda gəlib iri bir qaya parçasının üstünə çıxdılar. Ayaqları altında su həzin-həzin qalxıb-enirdi. Dəniz beləcə nəfəs aldıqca ləpələrin üzərində xırda parıltılar əmələ gəlirdi. İrəlidə gecənin hüdudsuz qaranlığı duyulurdu. Qayanın ılıq nəmi ayaqlarına hopduqca Ryönün canına xoş ovqat yayılırdı. Çevrilib dostunun sakit və mərd sifətinə baxanda Ryö duydu ki, əvvəlki hissləri unutmasa da, onun da ovqatı yaxşılaşıb.

Onlar soyundular. Ryö suya birinci cumdu. Suya baş vuranda bir az üşüsə də, üzə çıxanda duydu ki, su ılıqdır. Ryö üzgü vura-vura fikirləşirdi ki, suyun ılıqlığına səbəb torpağın hələ soyumamış hərarətidir. Bütün yay boyu istilik yığmış torpaq payızın bu vaxtında hələ də hərarətini itirməyib. O, tələsmədən üzür, suyu qolları ilə geriyə itələyib ayaqları ilə şappıldadır, köpükləndirirdi. Arxadan eşidilən boğuq guppultudan bildi ki, Taru da suya cumdu. Ryö suyun üstündə arxası üstə uzanıb müvazinətini saxladı, mavi səmaya, aya, ulduzlara tamaşa etməyə başladı. Dərindən nəfəs aldı. Gecənin sükutunda eşidilən şappıltı yavaş-yavaş yaxınlaşdı. Tarunun tövşüyü də eşidilirdi. Taru çatanda Ryö çevrilib onunla bərabər üzməyə başladı. Taru daha bərk üzdüyünə görə o da sürəti artırmalı oldu.

Bir müddət belə arxayın, bərabər, şəhərdən və taundan uzağa üzdülər. Ryö dayandı və onların ikisi də yavaş-yavaş geriyə üzməyə başladılar. Az sonra soyuq bir axına düşdülər. Dənizin bu şıltaqlığına təəccüblənsələr

də, heç nə demədən ikisi də hərəkətlərini yeyinləşdirib sahilə tələsdi.

Dinib-danışmadan paltarlarını geyinib yola düşdülər. Danışmasalar da, hər ikisi bu mülayim gecənin xoş xatirəsini yaddaşlarına həkk edirdi. İrəlidəki nəzarət postuna, taunun qarovulçularına çatanda Ryö, Tarunun nə fikirləşdiyini duyurdu. Bilirdi ki, o da Ryönün özü kimi bir müddət xəstəlikdən aralı düşdüyünə sevinir və indi yenidən işə başlamağın vacibliyini düşünürdü.

***

Bəli, yenidən işə başlamaq lazım idi və taun heç kəsi uzun müddət unuda bilməzdi. Dekabr ayında taun şəhər camaatının sinəsini yandırdı, meyityandıran sobanı alovlandırdı, karantin düşərgələrini adamla doldurdu, bir sözlə, öz arxayın yürüşünü zəiflətmədi. Şəhər rəhbərliyi güman edirdi ki, soyuqların düşməsi ilə epidemiyanın yayılması da azalacaq, amma xəstəlik payızın əvvəlindəki sürətini azaltmaq bilmirdi. Hələ gözləmək lazım idi. Amma camaatın gözləməyə amanı yox idi və hamı ümidini itirirdi.

Həkimə gəldikdə isə onun istirahəti elə həmin dostluq və istirahət gecəsi ilə başa çatdı. Şəhərdə təzə bir xəstəxana da açılmışdı və Ryö xəstələrdən başqa heç bir kəslə söhbət etməyə vaxt tapmırdı. Amma həkim hiss edirdi ki, xəstəliyin ağciyər formasının getdikcə artdığı belə bir dövrdə xəstələrin özləri həkimə, bir növ, kömək etməyə başlamışdılar. Epidemiyanın ilk dövründə xəstələr qorxudan başlarını itirir, həkimlərə mane olurdularsa, indi özləri vəziyyəti düzgün başa düşür, müalicəyə kömək etməyə çalışırdılar. Xəstələr ardı-arası kəsilmədən su içir və yataqlarının isti olmasını istəyirdilər. Həkim çox yorulsa da, belə xəstələrlə görüşəndə özünü tənha saymırdı.

Dekabrın axırına yaxın həkim müstəntiq Otondan bir məktub aldı. Oton hələ də karantin düşərgəsində idi və yazırdı ki, karantin vaxtı keçmiş olsa da, onu səhvən düşərgədə saxlayır və buraxmırlar. Onun arvadı bir neçə gün əvvəl karantindən çıxıb ərinin gec buraxılmasından şikayətlənmək üçün prefekt idarəsinə gedib, amma ona kobudluqla cavab veriblər ki, heç bir səhvə yol verilməyib.

Ryö Ramberdən xahiş etdi ki, bu işi araşdırsın və bir neçə gün sonra cənab Oton düşərgədən buraxılıb Ryönün yanına gəldi. Doğrudan da, düşərgə rəhbərliyi səhv edibmiş və Ryö bu səhvə görə pərt oldu. Düşərgədə xeyli arıqlamış cənab Oton isə təmkinli səslə Ryönü sakitləşdirməyə çalışaraq deyib ki, eybi yoxdur, hamı səhv edə bilər. Onun belə münasibətini görəndə həkim fikirləşdi ki, müstəntiq xeyli dəyişib. Ryö müstəntiqdən soruşdu:

– İndi nə etmək fikrindəsiniz, cənab müstəntiq? Yəqin, işdə qovluqlarınız sizi gözləyir.

– Xeyr, işə qayıtmaq istəmirəm, məzuniyyət götürəcəyəm.

– Bəli, istirahət etmək lazımdır.

– Xeyr, istirahət üçün demirəm, düşərgəyə qayıtmaq istəyirəm.

– Axı siz elə düşərgədən gəlirsiniz?

– Fikrimi yaxşı izah edə bilmədim. Eşitmişəm ki, bu düşərgədə könüllülər də işləyirlər.

Müstəntiq gözlərini oynadaraq sözünə davam elədi:

– İstəyirəm bir işlə məşğul olum. Həm də ki səfeh sözə oxşasa da, deməliyəm, oğlum üçün çox əzab çəkirəm, istəyirəm başım qarışsın.

Ryö ona baxırdı. Fikirləşirdi ki, bu adamın sərt baxışlarına mülayimlik qonmasına inanmaq olmur. Amma elə bil, müstəntiqin gözləri dumanlanmışdı, əvvəlki sərt parıltısını itirmişdi. Ryö dilləndi:

– Bəli, çox yaxşı. İndi ki belə bir arzunuz var, çalışaram kömək edim.

Həkim müstəntiqin düşərgədə işə başlamasına kömək elədi. Yeni il bayramına qədər taunlu şəhərdə ciddi bir dəyişiklik olmadı. Taru həmişəki təmkini ilə öz işini görürdü. Ramber isə həkimə bildirdi ki, tanış cavan gözətçilərin vasitəsilə arvadı ilə gizli məktublaşmağa başlayıb. Hərdənbir arvadından məktub ala bilir. Həkimə məsləhət gördü ki, belə bir imkandan o da istifadə eləsin, həkim razılaşdı və neçə aydan bəri məktublaşmadığı arvadına məktub yazdı. Amma o, məktubu yazanda çətinlik çəkirdi, elə bil, qələmi kütləşmişdi. Məktubu yola salsa da, xeyli vaxt cavab gözləməli oldu. Kottar həmişəki kimi möhtəkirlik edir və yavaş-yavaş varlanırdı. Qrana gəldikdə isə, bayram ərəfəsində onun işləri yaxşı getmirdi.

Builki Yeni il bayramı xoşbəxtlik bayramından çox, bədbəxtlik bayramına bənzəyirdi. Dükanlar boş və qaranlıq idi, vitrinlərdə köhnə şokolad, yaxud boş qutulardan başqa heç nə görünmürdü. Tramvaylardakı qaşqabaqlı adamların görkəmində də bayram ovqatı duyulmurdu.

Əvvəlki bayram günlərində varlı, kasıb – hamı bir yerə toplaşır, əylənirdi. İndi isə sınıq-sökük yeməkxanalarda od qiymətinə yemək və içki məclisi quranlar da sıxıntı içində idilər. Kilsələrdən ibadət əvəzinə nalə səsləri eşidilirdi. Soyuq və kimsəsiz küçələrdə qaçışan uşaqlar isə başlarının üstünü almış hədədən xəbərsiz idilər. Heç kim onlara keçmişdən, çantası hədiyyəli Şaxta babadan, insan kədəri kimi qədim və eyni zamanda yeniyetmə arzusu kimi təzə ənənələrdən danışmağa cəsarət eləmirdi. Adamların qəlbində qalmış ümid işartısı elə köhnə, elə solğun idi ki, ölümdən qorunmaq üçün vacib olan cüzi cəhdlərə birtəhər bəs edirdi.

Az əvvəl Qran növbəti görüşə gəlməmişdi. Ryö nigaran qalıb ertəsi gün səhər ona baş çəkmək istədi, amma evdə tapa bilmədi. Bütün tanışlara xəbər göndərildi. Saat on birə yaxın Ramber xəstəxanaya gəlib həkimə danışdı ki, yol keçərkən Qranı uzaqdan görüb, o, boş-bikar gəzinirmiş və görkəmi də yaxşı deyilmiş. Sonra onu gözdən qaçırıb və tapa bilməyib. Həkimlə Taru maşına minib Qranı axtarmağa getdilər.

Saat on ikidə hava hələ soyuq idi. Ryö Qranı görüb maşından düşdü. Qran ağacdan yonulma oyuncaqlar düzülmüş bir vitrinin qarşısında durub tamaşa edirdi. Qoca məmurun sifəti göz yaşından islanmışdı. Ryö onun bu vəziyyətini görəndə çox qüssələndi, çünki o, göz yaşlarının səbəbini bilir və Qranın ürək sıxıntısını öz ürəyində də duyurdu.

O, Qranın söhbətini unutmamışdı və bilirdi ki, bir vaxtlar Yeni il ərəfəsində beləcə bir vitrinin qarşısında Janna Qrana sıxılıb ona öz razılığını bildirmişdi və onlar nişanlanmışdılar. Ryö duyurdu ki, indi uzaq keçmişdən Qranın qulağına Jannanın səsi gəlir. Bu gözüyaşlı qocanın indi nə fikirləşdiyini Ryö dəqiq bilirdi. Onun özü də fikirləşirdi ki, doğrudan da, məhəbbətsiz bir həyat ölü həyata bənzəyir və belə ömrün elə bir anı çatır ki, insan həbsxanalardan, işdən, hər şeydən bezir, nə vaxtsa sevdiyi bir şəxsi arzulamağa başlayır, ürəyi mehribanlıq həsrəti ilə yanır.

Qran arxadan gələn həkimin əksini şüşədə gördü. Göz yaşlarını silmədən geri çevrildi, vitrinin şüşəsinə söykənib yaxınlaşan həkimə baxdı və inildədi:

– Ah, həkim! Ah, həkim!

Həkim danışa bilməsə də, başını yelləyib onu anladığını bildirdi. Ryö də əzab çəkirdi və həmin anda onun qəlbində sonsuz insan əzabına qarşı bir hiddət baş qaldırmışdı. Nəhayət, o dilə gəldi:

– Hə, Qran...

– Vaxtım çatsa, ona bir məktub yazardım. Qoy Janna bilsin... qoy əzab çəkməsin, xoşbəxt yaşasın...

Ryö Qranın qolundan tutub çəkə-çəkə apardı. Qran ona qoşulub getsə də, ara vermədən anlaşılmaz, ala-yarımçıq fikirlər söyləyirdi:

– Çoxdandır həyat beləcə davam edir. Adam istər-istəməz bu axına düşür. Eh! Həkim! Mənim belə sakit görünməyimə baxmayın. Həmişə canfəşanlıq eləmişəm ki, adi insan görkəmində olum. Daha gücüm çatmır...

O, qəfildən dayandı, bütün bədəni titrəyirdi, gözləri hədəqəsindən çıxırdı. Ryö onun əlindən tutdu. Qranın əli hərarətdən yanırdı. Ryö dedi:

– Gedək evə.

Qran onun əlindən çıxıb qaçdı, bir neçə addımdan sonra qollarını yana açıb dayandı, irəli-geri səndələməyə başladı. Yerində fırlanıb soyuq səkiyə sərildi, üzünə sızan göz yaşları toza bulanıb lehmələndi. Yol keçənlər dayanıb kənardan tamaşa edirdilər. Ryö Qranı qucağına götürməli oldu.

Evində çarpayıda uzadılmış Qran boğulurdu, taun onun ciyərlərini oynadırdı. Ryö fikrə getmişdi. Fikirləşirdi ki, Qranın ailəsi yoxdur, onu xəstəxanaya aparmağına dəyməz. Evdə tək qalar və Taru da ona qulluq edər...

Qranın sifəti göyərmiş, baxışı solğunlaşmışdı. Gözünü sobadakı zəif alov dillərinə zilləmişdi. Taru sobaya taxta qırıqları töküb otağı qızdırmaq istəyirdi. Qran mızıldadı: "İşlər yaxşı deyil". O danışdıqca ciyərlərindən qəribə bir xışıltı qopurdu. Ryö ona məsləhət gördü ki, danışmasın, sonra tezliklə qayıdacağını bildirib otaqdan çıxmağa hazırlaşdı. Xəstə gülümsədi və sifətinə mehriban bir ifadə qondu. O, həkimə göz vurub dedi ki, əgər sağ qalsa, həkim də təzim etməli olacaq. Amma az sonra onun vəziyyəti pisləşdi.

Bir neçə saat sonra Ryö ilə Taru gördülər ki, Qran başaltına dirsəklənib oturmaq istəyir. Ryö onun hərarətdən yandığını və xəstəliyin gücləndiyini görüb qorxuya düşdü. Amma elə bil, Qranın şüuru özünə qayıtmışdı. O xahiş elədi ki, siyirmədəki əlyazmasını versinlər. Taru vərəqləri gətirdi. Qran vərəqləri sinəsinə sıxdı, sonra onları Ryöyə verib işarə elədi ki, oxusun. Əlyazması böyük deyildi. Əlli səhifə ancaq olardı. Həkim onu vərəqləyib gördü ki, bu səhifələrdəki yazı dəfələrlə dəyişdirilib haldan-hala salınmış, dönə-dönə köçürülmüş əsas bir cümlədən ibarətdir. Hər vərəqdə may ayı, "amazon qızı", "meşənin xiyabanları" kimi ifadələr rastlaşır, dəyişdirilir, müxtəlif variantlarda təkrar olunurdu. Vərəqlərdə uzun-uzadı izahlar və qarşılıqlı variantlara da rast gəlirdi. Axırıncı səhifənin sonunda səliqəli xətlə yazılmış təzə bir cümlə vardı: "Çox sevimli Jannam, bu gün Yeni il bayramıdır..." Daha aşağıda isə dəfələrlə dəyişdirilmiş cümlənin sonuncu variantı xüsusi səliqə ilə köçürülmüşdü. Qran: "Oxuyun", – deyərək təkid edirdi. Ryö oxumalı oldu:

– Gözəl bir may səhəri, şux qamətli bir Amazon qızı yaraşıqlı Amazon atına minib meşənin gül-çiçəyə qərq olmuş xiyabanları ilə gəzinirdi...

– Hə, necə çıxıb? – Qran hərarət içində soruşdu.

Ryö başını qaldırmadı. Qran həyəcanla dedi:

– Eh! Bilirəm. Bilirəm ki, "gözəl" sözü düz seçilməyib.

Ryö əlini onun əlinin üstünə qoydu. Qran deyindi:

– Gecdir, həkim, düzəlişə vaxtım çatmayacaq...

Qran çətinliklə nəfəs alırdı və qəfildən qışqırdı:

– Yandırın onu!

Ryö bilmirdi nə etsin. Qran isə öz əmrini elə həyəcanlı və elə ucadan təkrar elədi ki, Ryö vərəqləri azacıq közərən sobaya atmalı oldu. Otağa işıq və cüzi bir istilik yayıldı. Həkim Qrana tərəf qayıdanda o, üzünü

çevirib susmuşdu. Taru laqeyd adamlar kimi pəncərə qarşısında durub çölə baxırdı. Ryö Qrana serum iynəsi vurandan sonra dostunun qulağına pıçıldadı ki, işi bitmiş kimidir, Qran səhərə çıxmaz. Taru xəstənin yanında qalmaq istədiyini bildirdi, Ryö dərhal razılaşdı.

Ryö bütün gecəni Qranın ölə biləcəyi haqda fikirləşirdi. Amma ertəsi gün səhər açılanda gördü ki, Qran çarpayıda oturub Taru ilə söhbət eləyir. Qızdırması düşmüşdü. Ümumi zəiflik əlamətlərindən başqa heç nə duyulmurdu. O, həkimə dedi:

– Eh, həkim, dünən nahaq iş gördüm. Amma yenə yazacağam. Hamısı yadımda qalıb.

Ryö Taruya astaca dedi:

– Gözləyək, görək nə olur.

Günortaya kimi bir dəyişiklik baş vermədi. Axşam düşən kimi Qranın xilas olduğuna inanmağa başladılar. Ryö bu sağalmanın səbəbini anlaya bilmirdi.

Elə həmin günlər Ryönün qəbuluna başqa bir xəstə də gətirmişdilər. Ryö həmin xəstənin vəziyyətinin ümidsiz olduğunu görüb onu izolyatora qoymuşdu. Xəstə qız qızdırma içində yanırdı və ağciyər taununa tutulduğuna şübhə qalmamışdı. Ertəsi gün səhər onun da qızdırması düşmüşdü və həkim bu halı da ölümqabağı müvəqqəti dirçəlmə hesab eləmişdi. Günortayacan qızın vəziyyəti dəyişməmişdi. Axşam qızdırma azacıq qalxsa da, ertəsi gün səhər qızdırmadan əsər-əlamət yox idi. Xəstə qız zəifləmişdi, ancaq sakit nəfəs alırdı. Ryö Taruya demişdi ki, bu qızın sağalmağı taun epidemiyasında qəribə bir istisnadır. Amma elə həmin həftə ərzində Ryönün xəstəxanasında dörd nəfərin də bu şəkildə sağaldığı müşahidə olundu.

Həmin həftənin sonunda Ryö ilə Taru sinəgir qocaya baş çəkməyə getmişdilər. Qoca onları görən kimi həyəcanla hüdüləməyə başladı:

– Hə, görürsünüz, yenə qaçışmağa başlayıblar.

– Kim axı?

– Siçovullar!

Aprel ayından bəri şəhərdə bir dəfə də olsa siçovul görünməmişdi.

– Yəni təzədən başlayacaq, görəsən? – Taru üzünü Ryöyə çevirdi.

Qoca əllərini ovuşdura-ovuşdura dedi:

– Eh, onların necə qaçışdığını görmək gərəkdir! Adama ləzzət verir!

Qocanın özü küçə qapısından həyətə iki siçovul gəldiyini görmüşdü. Qonşular da həyətlərində siçovul görmüşdülər. Aylardan bəri boş qalmış damlarda yenə siçovulların qaçışması eşidilirdi. Sonralar həftənin əvvəlində çap olunmuş statistik məlumata baxanda Ryö gördü ki, ölənlərin sayı azalıb.

## V FƏSİL

Xəstəliyin qəfildən belə yumşalması gözlənilməz olduğuna görə camaat hələ sevinməyə tələsmirdi. Keçən aylar onlar azadlıq arzusu ilə yana-yana səbirli olmağı da öyrənmişdilər və xəstəliyin yaxın vaxtda kəsiləcəyinə ümidləri az idi. Amma hər halda, bu yeni xəbər ağızdan-ağıza keçib adamların qəlbində ümid işığı yandırmağa başlamışdı. Qalan bütün işlər ikinci plana keçmişdi. Xəstəliyin təzə qurbanlarına çox əhəmiyyət verilmirdi; əsas məsələ bu idi ki, ölənlərin ümumi sayı azalırdı. Sağalma dövrünün yaxınlaşdığına ümidin artdığı həm də ondan bilinirdi ki, adamlar öz aralarında danışanda sözarası eşitdirməyə başlamışdılar ki, taundan sonra şəhərdə vəziyyət əvvəlki qaydasına düşə bilər.

Amma hamı belə bir fikirlə razı idi ki, əvvəlki rahatlıqlar birdən-birə bərpa olunmayacaq, çünki qurub-

yaratmaq vurub-dağıtmaqdan çətindir. Hər halda, ümid edirdilər ki, ərzaq məsələsi bir az yaxşılaşa bilər və camaat ən ağır problemdən yaxa qurtarar. Ümid işığının artdığı vaxtda belə adamlar arxayınlaşa bilmir, ölçüb-biçir və deyirdilər ki, xilasa ümid varsa da, hələ sabahkı günü xilas günü saymaq olmaz.

Elə, doğrudan da, taun bir gün sonra yoxa çıxmadı, amma xəstəliyin azalması camaatın gözlədiyindən də artıq nəzərə çarpırdı. Yanvarın ilk günlərindən elə bərk soyuq düşdü ki, elə bil, şəhərin üzərində hava donub durmuşdu. Səma heç vaxt belə mavi görünməmişdi. Günlər boyu səmada kiçicik də olsa bir ləkə görünmürdü. Havanın belə təmiz bir vaxtında taun üççə həftəyə zəifləyib üzüldü, sayı gündən-günə azalan tabutlara sığındı. Bir neçə aydan bəri topladığı qüvvəni taun bir neçə gündə itirdi. O, Ryönün xəstələrindən Qran və gənc qızı əfv etdiyi kimi, başqalarına da güzəştə getdi, bəzi məhəllələrdən tamam çəkildi. Həftənin ilk günü xəstələnənlərdən hamısı həlak olsa da, iki gün sonra xəstələnənlərin, az qala, hamısı sağalmışdı. Xəstəliyin beləcə gerilədiyini görəndə adam fikirləşirdi ki, o yorulub əldən düşüb, taqəti kəsilib, riyazi hesablama üzrə inkişaf edən əvvəlki sürətini itirib. Kastelin serum iynəsi indiyə qədər bir xeyir verməmişdisə də, həmin günlər möcüzə göstərirdi. Başqa həkimlərin də əvvəllər nəticə verməyən sınaqları indi uğurlar qazanırdı. Elə bil, xəstəliyin özü indi xəstəliyə tutulub zəifləmiş, əvvəllər dəf etdiyi hücumların qarşısında acizləşmişdi. Amma o, hərdən özünə gəlir, sağalacağına ümidi olan üç-dörd xəstəni birdən həlak edirdi. Son kor-koranə hücumların qurbanları bəxti gətirməyənlər idi. Müstəntiq Oton da belələrinin sırasına düşdü. Onu karantin düşərgəsindən çıxararkən Qran dedi ki, bu kişinin bəxti gətirməyib, amma anlamaq olmurdu ki, Qran müstəntiqin ölümünə, yaxud həyatına heyifsilənirdi.

Ümumiyyətlə götürəndə epidemiyanın zəifliyi açıqca duyulurdu. Şəhər rəhbərliyi ilk günlər qələbə təbilini çalmağa cəsarət etməsə də, az sonra arxayınlaşıb məlumat yaydı ki, xəstəlik üzərində qələbə çalınıb və epidemiya öz mövqeyini itirir. Əslinə qalsa, bilmək olmurdu qələbə sözünü işlətməyinə dəyər, yoxsa yox. Bircə şey məlum idi ki, xəstəlik gəldiyi kimi də çəkilib gedirdi. Xəstəliyə qarşı aparılan mübarizədə heç nə dəyişməmişdi. Əvvəllər bir nəticə verməyən bu mübarizə bu gün uğurlu sayılırdı. Belə bir təsəvvür yaranırdı ki, xəstəliyin özü yorulub, yaxud məqsədinə nail olandan sonra geri çəkilirdi. Bir sözlə, o, öz işini görmüşdü.

Adama elə gəlirdi ki, şəhərdə heç nə dəyişməyib. Əvvəlki kimi sakit görünən küçələrə axşam düşəndə elə əvvəlki adamlar axışırdılar. Kinoteatrlar və kafelər də elə əvvəlki kimi işləyirdi. Adamlara yaxından baxanda duymaq olardı ki, sifətlərdəki gərginlik nisbətən azalıb və hərdən gülümsəyənlər də rast gəlir. Belələrini görəndə yada düşürdü ki, əvvəllər gülümsəyən adam görmək çətin məsələ idi. Belə təsəvvür yaranırdı ki, aylardan bəri şəhərin üzərinə salınmış qalın örtükdə dəlik açılıb və hər həftənin əvvəlində radio vasitəsilə verilən statistik məlumatlar sübut edirdi ki, həmin dəlik getdikcə genişlənir, rahat nəfəs almaq imkanı yaranır. Elə bunun özü də bir yüngüllük idi. Əvvəllər şəhərdən qatar çıxması, limana gəmi gəlməsi, yaxud avtomobillərin işləməsinə icazə veriləcəyi xəbərləri şübhə ilə qarşılanırdı. İndi isə yanvarın ortasında yayılan bu yeni xəbərlər heç kimdə ciddi təəccüb doğurmurdu. Hələ bu da az idi. Amma bu cəhətlərin hamısı bir yerdə böyük ümid işığına dönməyə başlamışdı. Taunun hökmranlığına son qoyulurdu.

Bütün bu dəyişikliyə baxmayaraq, yanvar ayında əhalinin hərəkətlərində qəribə uyğunsuzluqlar duyulurdu. Coşqunluqla düşkünlüyün qarışıq düşdüyü bir

dövr yaranmışdı. Xəstəliyin azaldığı haqda xoş xəbərlər yayıldığı vaxt belə şəhərdən qaçmağa çalışanlar vardı. Bu əhvalat şəhər rəhbərlərini də, keşik xidmətçilərini də mat qoymuşdu, çünki qaçmaq cəhdlərinin çoxu uğurla başa çatırdı. Amma əslində, belə bir vaxtda qaçmağa çalışanlar təbii hisslərin təsiri altında hərəkət edirdilər. Bəziləri taun dövründə yaranmış ümidsizliyin kölgəsindən çıxa bilmirdi. Hələ onların üzərinə ümid işığı düşməmişdi. Taun dövrü qurtarsa da, onlar həmin dövrün qanunları ilə yaşayırdılar, dəyişikliyin sürəti ilə ayaqlaşa bilmirdilər. Başqaları isə əksinə, sevincdən elə coşmuşdular ki, özlərini ələ ala bilmirdilər. Beləleri günün çox hissəsini evdə keçirir, uzun müddət ayrı düşdükləri əzizləri ilə görüş ümidi yarandığı bir vaxtda taunun son qurbanına dönməkdən, ağır cəfanın səfasından məhrum olmaqdan çəkinirdilər. Aylar boyu ayrılıq və ümidsizlik içində yaşamış bu adamların təmkinini ölüm hədəsi poza bilməmişdisə də, çılğın bir ümid işığı onları tamam çaşbaş salmışdı. Beləleri kor-koranə tələsir, sağalmağın təbii davamından bir addım irəli düşmək istəyirdilər.

Amma eyni vaxtda xoş əlamətlər də nəzərə çarpmağa başlamışdı. Qiymətlərin qəfildən aşağı düşməsi xoş əlamət idi. İqtisadi mənada bu əlaməti izah etmək çətin idi. Çünki əvvəlki çətinliklər hələ dəyişməmişdi, şəhərin çıxış yollarında karantin qaydaları davam edir, gətirilən ərzağın da miqdarı artmamışdı. Əsas məsələ mənəvi rahatlığın bərpasında idi. Taun geri çəkildikcə rahatlıq artırdı. Əvvəllər dəstə halında yaşamış, xəstəliyə görə ayrılmış cəmiyyətlər də canlanmağa başlamışdı. Şəhərdəki iki dini məktəb fəaliyyətə başlamağa hazırlaşırdı. Hərbçilər də boş qalmış kazarmalarına toplanmağa, adəti qarnizon həyatına keçməyə başlamışdılar. Bunlar xırda əlamət sayılsa da, böyük əhəmiyyət kəsb edirdi.

Yanvarın 25-nə kimi əhali gizli sevinc içində yaşadı. Elə həmin həftə ölənlərin sayı elə azaldı ki, prefekt idarəsi epidemiyanın kəsilməsi haqda rəsmi məlumat verdi. Məlumatda eyni vaxtda bildirilirdi ki, şəhər darvazaları hələ iki həftə bağlı qalacaq və profilaktik tədbirlər bir ay davam etdiriləcək. Məlum məsələdir ki, belə ehtiyat tədbirləri heç kimi narazı salmazdı. Belə bir şərt də irəli sürülmüşdü ki, əgər həmin dövrdə ölənlərin sayı artsa, əvvəlki qanunlar öz qüvvəsində qalacaq. Amma hamı əmin idi ki, vəziyyət getdikcə yaxşılaşır və yanvarın 25-də axşamüstü şəhəri bayram ovqatı bürüdü. Şəhərdəki şənliklə həmrəy olduğunu bildirmək üçün prefekt idarəsi küçə işıqlarının xəstəlikdən əvvəlki kimi gur yandırılması haqda göstəriş verdi. Bütün şəhərdə çilçıraqlar yandı, camaatın çoxu xoş ovqatla sərin qış axşamında gəzintiyə çıxdı.

Amma səs-küylü küçələrdə qapı-pəncərəsini bağlayıb yas saxlayanlar da az deyildi. Hər halda, yas saxlayanların özləri də qalan qohumlarının və özlərinin ölüm hədəsindən uzaqlaşdıqlarını hiss edib arxayın nəfəs almağa başlamışdılar. Bu şənliklərə tamam biganə qalanlar isə hələ xəstəxanada ağır xəstəsi olanlar və karantin evində həyəcanlı günləri sayanlar idi. Onların da qəlbində azacıq ümid oyanmışdı, amma bu, hələ həyat ümidi deyildi və şəhərdə canlanan həyat eşqi onların iztirabını daha da artırırdı.

Bir neçə adamın iztirabı qalanların ümid işığını söndürə bilməzdi, taun hələ təslim olmamışdı və onun qurtarmasına sübut gərək idi. Amma əsas kütlə bir neçə həftə əvvəldən qatarların fit çalaraq şəhərdən uzaq yollara üz tutmasını, gəmilərin suları yara-yara limana yaxınlaşmasını təsəvvür etməyə başlamışdı. Bəlkə də, bir gün sonra ehtiraslar soyuyacaq və şübhələr artacaqdı. Amma həmin gün camaat sakit və nisgilli mənzillərindən çıxıb küçələrə yayılır, sağ qalmalarını

bayram edirdilər. Həmin axşam Taru, Ryö, Ramber və başqaları da gəzintiyə çıxmışdılar və başqalarından az sevinmirdilər. Taru ilə Ryö bulvardan qayıdandan xeyli sonra da küçələrdə şənlənənlərin səsini eşidir, eyni zamanda bağlı pəncərələr arxasında matəm saxlayanların da əzabını duyurdular. Şəhər həm gülür, həm də ağlayırdı.

Küçələrdən birində, şənliyin gur yerində Taru dayandı. Üzbəüzdəki qaranlıq səkidə kiçik bir kölgə qaçırdı. Bu qaçan pişik idi, yazdan bəri onlar ilk dəfə idi şəhərdə pişik görürdülər. Pişik bir anlıq dayanıb ehtiyatla irəli baxdı, pəncəsini yaladı və sağ qulağının dibini qaşıdı, sonra isə səssizcə qaçıb qaranlıqda yox oldu. Taru gülüməsdi. Pişiklərdən ötrü darıxmış qoca da, yəqin, sevinəcəkdi.

Taunun yavaş-yavaş çəkilib öz gizli yuvasına qayıtdığı bir vaxtda yaranmış şəraitdən narazı olan da tapılırdı. Tarunun gündəliyindəki qeydə görə, vəziyyətdən narahat olan adam Kottar idi.

Düzünə qalsa, ölümün sayı azalmağa başladığı günlərdən Tarunun gündəliyində də anlaşılmaz qeydlər var idi. Bəlkə də, yorulmuşdu, çünki həm xətti pis oxunurdu, həm də bir mövzunu tamamlamamış başqa mövzuya keçirdi. Bir yandan da ilk dəfə idi onun qeydlərində qeyri-dəqiqlik və şəxsi mülahizəyə üstünlük verilməsi duyulurdu. Kottara həsr elədiyi uzun bir qeydi başa vurmamış pişiklərlə oynayan qoca haqda yazmağa başlamışdı. Tarunun yazdığına görə, onun qocaya olan marağına taun xələl gətirməmişdi, xəstəlikdən əvvəlki kimi indi də onunla maraqlanır, amma indiki marağı öz şəxsi istəyinə daha çox xidmət edirdi. O, qocanı görməyə çalışmışdı. Yanvarın 25-dən bir neçə gün sonra küçənin tinində durub onun eyvanını izləmişdi. Pişiklər əvvəlki kimi küçədə özlərini günə verirdilər, elə bil, görüşə gəlmişdilər. Amma həmişəki vaxtda qocanın eyvanının qapısı açılmadı. Sonrakı günlər də

qapı bağlı idi. Taru fikirləşmişdi ki, qoca ya ruhdan düşüb, ya da ölüb. Ruhdan düşübsə, deməli, taun ona da zərər vurub, əgər ölübsə, bu barədə də fikirləşmək lazımdır, bəlkə, o da astmalı qoca kimi gələcəyi görən müqəddəslərdən imiş. Taru bu fikirdə deyildi, amma güman edirdi ki, bu qocanın əhvalatında bir "qəribəlik" varmış. Gündəlikdə belə bir qeyd vardı: "Bəlkə də, həmin əhvalatda gələcəyə eyham vuran bir əlamət varmış. Əgər elə isə, bunu ancaq sadə və günahsız bir şeytan əməli adlandırmaq olar".

Gündəlikdə Kottara həsr olunmuş sətirlərə qarışmış başqa qeydlər – gah taundan sonra heç nə olmayıbmış kimi öz işinə qurşanmış Qran haqda, gah da həkim Ryönün anası haqda yazılar vardı. Ryönün evində yaşadığı vaxt onun anası ilə qısa söhbətlər, qarının adətləri, təbəssümü, taun haqda fikirləri dəqiqliklə qeydə alınmışdı. Taru, əsasən, madam Ryönün sükutu, adi cümlələrlə geniş fikir söyləyə bilməsi, sakit küçəyə açılan pəncərə qarşısında dinməzcə saatlarla oturması, hava qaralanda pəncərə qarşısında azacıq sezilən mülayim bir kölgəyə dönməsini təsvir edirdi. Taru yazırdı ki, bu qarı bir otaqdan başqasına keçərkən ayağının səsi eşidilmir, büruzə verməyə çalışmadığı təbii xeyirxahlığı gözlərində də, sözlərində də daim duyulur, ən ağır suala belə çox fikirləşmədən ağıllı cavab verir və nəhayət, dinməz bir kölgəyə bənzəyən bu qarı hər cür işıqdan nurlu, vəbanın özündən də güclü bir məxluq idi. Təsvirin bu yerində Tarunun xətti tamam korlanmış, sətirlər əyilmişdi. Çətin oxunan bu hissənin axırıncı sözləri onun öz şəxsi hisslərinin başlanğıcı idi: "Mən anamı da beləcə sakit təbiətinə görə sevirdim və həmişə onu görməyə çalışırdım. Ölümündən səkkiz il keçsə də, hələ öldüyünə inana bilmirəm. O, sadəcə, əvvəlkindən də görünməz olub. Bir dəfə görüşünə gələndə gördüm ki, yox olub, vəssalam".

İndi də Kottar haqda qeydlərə nəzər salaq. Ölənlərin sayı azalmağa başlayandan o, müxtəlif bəhanələrlə tez-tez Ryönün yanına gəlirmiş. Amma əslində, hər dəfə epidemiyanın vəziyyəti haqda sual verirmiş: "Sizcə, xəstəlik elə-belə, qəfildən kəsilə bilər?" Özü xəstəliyin belə tezliklə qurtaracağına heç inanmırmış. Amma günü-gündən inamsızlıq azalırmış. Yanvarın ortalarında Ryö Kottarın növbəti sualına optimist cavab verib. Hər dəfə belə cavablar alanda Kottar sevinməkdənsə, müxtəlif hallara düşür, ovqatı getdikcə daha da korlanırmış. Bir gün həkim söyləyib ki, vəziyyət yaxşılaşsa da, hələ sevinib arxayınlaşmağa dəyməz. Onda Kottar soruşub:

– Yəni demək istəyirsiniz ki, xəstəlik yenidən güclənə bilər?

– Bəli, elə də ola bilər, əksinə, sağalma prosesi də güclənə bilər.

Hamını narahat edən bu inamsızlıq Kottarı, elə bil, sevindirmişdi. O, Tarunun gözü qabağındaca məhəllə tacirləri ilə söhbətə girişib Ryönün sözlərindəki inamsızlığı təbliğ etməyə başlayıb. Bu mövzuda təbliğat aparmaq çətin iş deyildi. Çünki ilk sevinc günlərindən sonra çoxlarının qəlbinə nigaranlıq çökmüşdü və şəhər rəhbərliyinin təyin etdiyi xilas gününə qədər sağ qalacağına şübhə edirdilər. Elə bu nigaranlıq da Kottara arxayınlıq verirdi. Bəzən o, ruhdan düşüb Taruya deyirdi: "Bəli, əvvəl-axır darvazalar açılacaq. Onda bütün tanışlar məndən üz döndərəcəklər!"

Yanvarın 25-nə kimi onun xasiyyətindəki dəyişiklikləri hamı duymuşdu. Günlərlə çalışıb məhəllə camaatı ilə yaratdığı münasibət və əlaqələri kəsmişdi. O, yavaş-yavaş öz evinə çəkilir, camaatla görüşməməyə çalışırdı. İndi nə restorana, nə teatra, nə də xoşladığı kafelərə gedirdi. Yenidən tənhalığa cumsa da, epidemiyadan əvvəlki həyat tərzini tapa bilmirdi. Evdən çölə çıxmır,

yeməyini də yaxınlıqdakı restorandan evə gətizdirirdi. Bəzən axşamlar evdən çıxır, xırda bazarlıq edir, dükandan çıxanda da kimsəsiz küçələrə burulurdu. Belə vaxtlarda Taru ilə rastlaşanda da yarımçıq bir-iki kəlmə kəsib aralanırdı. Bəzən isə əhvalı dəyişir, adamlarla görüşür, taun haqda uzun söhbətə girişir, camaatın fikrini öyrənməyə çalışır, bütün axşamı adamlar arasında keçirirdi.

Şəhər rəhbərlərinin rəsmi elanından sonra Kottar tamam yoxa çıxıb. İki gün sonra Taru onu küçələrdə veyllənən görüb. Tarudan xahiş edib ki, onunla bir az gəzinsin. İşdən yorğun qayıdan Taru bir az tərəddüd edib. Amma Kottar əl çəkməyib. Kottar çox həyəcanlı imiş, əllərini oynada-oynada tələsik və ucadan danışırmış. Tarudan soruşub ki, şəhər rəhbərliyinin elanına görə, xəstəliyin qurtarması xəbərinə inanır, ya yox. Taru da cavab verib ki, rəhbərliyin elanı bəlanın qurtarması üçün tam zəmanət verə bilməz, amma əgər gözlənilməz bir hadisə baş verməsə, xəstəlik qurtarmaq üzrədir. Kottar deyib:

– Bəli, gözlənilməz hadisə baş verməsə... Gözlənilməz hadisə isə həmişə baş verir.

Taru bildirib ki, elə rəhbərlik də elan verəndə gözlənilməz hadisələri nəzərdə tutduğuna görə şəhər darvazalarının açılmasını iki həftə ləngidib. Kottar isə belə cavab verib.

– Elə yaxşı ki belə ediblər. İşlər ki belə gedir, onların sözü boş vədə çevrilə bilər.

Taru onunla razılaşıb, amma bildirib ki, şəhər darvazalarının vaxtında açılacağına və normal həyatın başlayacağına ümid edir.

– Yaxşı, siz normal həyata qayıtmağı nədə görürsünüz? – Kottar soruşub.

– Kinoteatra təzə filmlərin gəlməsində, – Taru gülümsəyərək cavab verib.

Kottar isə gülümsəmirdi. O bilmək istəyirdi ki, görəsən, şəhərdə bir dəyişiklik yaranacaq, yoxsa hər şey əvvəlki kimi, yəni heç nə olmayıbmış kimi davam edəcək. Tarunun fikrincə, taun şəhərdə dəyişiklik edəcəkdi də, etməyəcəkdi də. Məlum məsələdir ki, şəhər əhalisinin ən böyük arzusu heç nə olmayıbmış kimi əvvəlki həyata qayıtmaqdır. Bir mənada, doğrudan da, dəyişiklik olmayacaq, başqa bir mənada isə adamlar dəyişiklik istəməsələr də, onu duyacaqlar, hər şeyi unutmaq olmur, taunun izləri qalacaq, üzdə qalmasa da, ürəklərdə qalacaq. Kottar isə cavab verdi ki, onu ürəklər maraqlandırmır və buna lap az əhəmiyyət verir. Onu maraqlandıran budur ki, görəsən, idarələrdə bir dəyişiklik olacaq, yoxsa elə əvvəlki kimi işləyəcəklər. Taru cavab verdi ki, bu barədə bir şey bilmir. Amma güman edir ki, epidemiya vaxtı pozulmuş idarə işləri qaydaya düşənə qədər xeyli vaxt keçəcək, həm də təzə problemlər şərait yaradacaq ki, idarələr öz işlərində dəyişiklik aparsın.

– Hə, doğrudur, gərək hamı öz işində dəyişiklik aparsın, – Kottar cavab verdi.

Onlar gəzinə-gəzinə gəlib Kottarın evinin qarşısına çıxdılar. Kottar elə əvvəlki kimi həyəcanlı idi, amma optimist görünməyə çalışırdı. Şəhərin canlanmasına və həyatın yeni qaydalar üzrə qurulacağına ümid edirdi.

Taru dedi:

– Yaxşı, güman edirəm ki, sizin də işiniz yaxşı qurtarar. Axı əslində, indi yeni bir həyat başlamalıdır.

Onlar xudahafizləşmək üçün bir-birinin əlini sıxdılar.

Kottar həyəcanla dedi:

– Doğru deyirsiniz, hər şeyin yenidən qurulması yaxşı olardı.

Elə bu vaxt qaranlıq tindən iki nəfər çıxıb onlara tərəf gəlirdi. Kottar nigaranlıqla bu adamların kim olduğunu bilmək istədiyi vaxt onlar yaxınlaşıb Kottardan

adının “Kottar” olub-olmadığını soruşdular. Kottar diksinib içini çəkdi və geri çəkilib bircə an içində qaranlıq küçədə gözdən itdi. Təəccübdən karıxmış Taru az sonra özünə gəlib onların Kottarı nə üçün axtardıqlarını soruşdu. Yüngül geyinsələr də, rəsmi görkəmi olan bu adamlar təmkinlə cavab verdilər ki, ondan bir söz soruşmalı idilər. Sonra isə tələsmədən Kottarın qaçdığı səmtə getdilər.

Evə qayıdan kimi Taru həmin əhvalatı gündəliyinə köçürüb və axırda da öz yorğunluğu haqda yazıb (yorğunluğu elə xəttindən də duyulurdu). O həm də qeyd edib ki, hələ görüləsi işi çoxdur, amma hər halda, hazır olmağı da vacibdir və özünün hazır olub-olmadığını götür-qoy edirdi. Sonra o, özünə belə cavab verirdi: insan ömrünün gecə və gündüzündə elə bir an var ki, adamı qorxuya salır və insan ancaq həmin o andan qorxur.

Bunlar Tarunun gündəliyinin son sözləri idi.

***

İki gün sonra, şəhər darvazalarının açılmasına bir neçə gün qalmış, günortaçağı evə qayıdarkən həkim Ryö öz-özündən soruşurdu ki, görəsən, çoxdan gözlədiyi teleqramı bu gün alacaqmı? Son günlər işi epidemiya günlərindən az olmasa da, getdikcə güclənən azadlıq ümidi canındakı yorğunluğu yoxa çıxarmışdı. İndi o, ümidlə yaşayır, fikirləşir və sevinirdi. İnsan daim öz arzularını boğub gərgin həyat sürə bilməz. Əgər Ryönün gözlədiyi teleqramda da şad xəbər gəlsə, o, yeni həyata başlaya bilərdi. Ryö fikirləşirdi ki, hamı yeni bir həyata başlamalıdır.

O, xidmətçi otağının qarşısından keçirdi. Yeni ev xidmətçisi çərçivəyə söykənib durmuşdu və Ryönü görəndə gülümsündü. Pilləkəni qalxanda həkim güz-

güdə özünə baxdı. Yorğunluq və rahatsızlıqdan rəngi qaçmışdı.

Bəli, bu anlaşılmazlıq qurtaran kimi o, yeni həyata başlayacaq, həm də bir az bəxti gətirsə... O, qapını açan kimi anası qarşısına çıxıb bildirdi ki, Taru xəstələnib. O, səhər qalxıb, işə getməyə halı olmayıb, qayıdıb yerinə girib. Madam Ryö nigaran idi. Oğlu dedi:

– Bəlkə də, ciddi bir şey yoxdur.

Taru çarpayısında uzanmışdı. Onun iri başı yastığa düşmüş, əzələli sinəsi yorğanın altında tez-tez qalxıb-enirdi. Qızdırması vardı və başı bərk ağrıyırdı. Taru Ryöyə dedi ki, əlamətlər taun əlamətlərinə oxşayır. Həkim onu müayinə edib dedi:

– Yox, hələlik pis fikrə düşməyinə dəyməz.

Taru susuzluqdan yanırdı. Dəhlizdə həkim anasına dedi ki, Tarunun xəstəliyi tauna bənzəyir. Qarı ah çəkdi:

– Ah, ola bilməz, axı gərək indi belə olmayaydı!

Sonra o əlavə elədi:

– Onu evdə saxlayaq, Bernar.

Ryö bir az fikirləşib dedi:

– İxtiyarım yoxdur. Amma yaxın vaxtda darvazalar açılacaq. Səni yada salsam, özüm ilk dəfə qanunu pozub onu evdə saxlayardım.

– Elə ikimizi də evdə saxla, Bernar, – qarı israr elədi. – Axı mənə təzəcə vaksin iynəsi vurublar.

Həkim dedi ki, elə Taruya da iynə vurmuşdular. Bəlkə də, yorğunluqdan axırıncı iynəni vurdurmayıb, yaxud başqa bir ehtiyatsızlıq edib.

Ryö kabinetinə keçdi. Geri qayıdanda əlində serum iynəsinin iri ampulaları vardı. Taru onları görüb dedi:

– Hə! Deməli, məsələ məlumdur.

– Yox, hər ehtimala qarşı vuracağam.

Taru dinməzcə qolunu irəli uzatdı və adətən, özünün başqalarına vurduğu tanış dərmanın damarına axıdılıb qurtarmasını gözlədi.

Ryö Tarunun üzünə baxa-baxa dedi:

– Görək bu axşam vəziyyət necə olur.

– Bəs izolyasiya olunma məsələsi necə, Ryö?

– Xəstəliyinizin taun olduğunu deməyə əsas yoxdur.

Taru gülümsəməyə çalışdı:

– İlk dəfə görürəm ki, xəstəyə serum iynəsi vurulsun və onu izolyatora göndərməsinlər.

Ryö üzünü yana çevirib dedi:

– Anamla ikimiz sizə qulluq edəcəyik. Burada rahat olarsınız.

Ryö susdu və ampulaları yığışdırmağa başladı. Nəhayət, o, çarpayıya yaxınlaşdı. Xəstə ona baxırdı, görkəmi yorğun olsa da, qonur gözləri mülayim idi. Ryö gülümsəyib dedi:

– Bacarsanız yuxulayın. Mən tez qayıdacağam.

Qapıya çatanda Ryö Tarunun səsini eşidib geri döndü.

Taru ürəyindəki sözləri necə söyləməli olduğunu ölçüb-biçdiyindən bir az ləngidi və nəhayət, dilə gəldi:

– Ryö, gərək hər şeyi açıq deyəsən, belə lazımdır.

– Söz verirəm.

Tarunun enli sifətində təbəssüm oyandı:

– Sağ ol. Ölmək fikrim yoxdur, mübarizə aparacağam. Amma döyüşü uduzsam, ölməli olsam, yaxşı ölmək istəyirəm.

Ryö çarpayıya tərəf əyilib onun çiyinlərindən tutdu:

– Yox, əzizim. Müqəddəs insana çevrilmək üçün yaşamaq lazımdır. Həyat üçün çarpışın.

Gün ərzində havanın soyuğu bir az yumşalsa da, günortadan sonra küləkli yağış və dolu yağdı. Hava qaralanda isə səma açıldı və şaxta gücləndi. Ryö evə axşam qayıtdı. Paltosunu soyunmamış dostunun otağına keçdi. Anası nə isə toxuyurdu. Taru isə, elə bil, heç yerindən tərpənməmişdi, amma hərarətdən ağarmış dodaqlarından duyulurdu ki, gərgin çalışırdı.

Həkim soruşdu:

– Hə, necədir?

Taru enli çiyinlərini azacıq tərpədib dedi:

– Belədir ki, mən uduzuram.

Həkim əyilib onu müayinə etdi. Dərisinin altında düyünlər əmələ gəlmişdi. Sinəsi elə xışıldayırdı ki, elə bil, dəmirçi kürəsi işləyirdi. Taruda taunun hər iki əlaməti birdən duyulurdu. Ryö qalxaraq dedi ki, serum iynəsi hələ öz təsirini göstərməyib. Taru da nə isə demək istədi, amma qızdırma onun səsini boğdu.

Nahardan sonra Ryö ilə anası gəlib xəstənin yanında oturdular. Gecə mübarizə içində keçəcəkdi və Ryö bilirdi ki, Tarunun taun ilahəsi ilə döyüşü ağır bir döyüş olacaq. Bu döyüşdə Tarunun köməyinə gələn onun güclü çiyinləri və enli kürəyi deyil, Ryönün tədbirləri və xəstənin öz qəlbi olacaqdı. O, xəstənin yaralarını deşib qanını çıxarmışdı və bir neçə ayın təcrübəsindən bilirdi ki, yaraların açıq qalması, gücverici iynələr bir az kömək edir. Əslində, həkimin yeganə çarəsi çox az baş verən bir təsadüfə ümid bağlamaq idi. İndi o, taunun ən murdar sifətini görürdü. Taun bir daha sübut edirdi ki, ona qarşı qurulmuş sədləri istədiyi vaxt aşır, gözlənilməz yerlərdə peyda olur, bəzən də haradasa işini yarımçıq qoyur. Bəli, taun yenə də təəccüb doğururdu.

Taruya gəldikdə isə o, dinməzcə mübarizə aparırdı. Bütün gecəni bir dəfə də olsun xəstəliyin sərt hücumlarına sərt hərəkətlə cavab vermədi, onun mübarizəsi dözüm və sükutdan yaranmışdı. Üstəlik, bütün gecəni bircə dəfə də olsun danışmadı, yəni bununla da demək istəyirdi ki, danışmağın daha heç bir mənası qalmayıb. Həkim dostunun vəziyyətini onun gözlərindən oxumağa çalışırdı. Taru gah gözlərini yumur, gah da açıb ətrafa, həkimə və onun anasına diqqətlə baxırdı. Baxışları həkimin gözlərinə sataşanda hər dəfə böyük səy göstərib gülümsəməyə çalışırdı.

Gecənin bir vaxtında küçədə tələskən addım səsləri eşidildi. Adamlar uzaqdan eşidilən göy gurultusunun xəbərdarlığına görə tələsirdilər. Gurultular yavaş-yavaş yaxınlaşdı və nəhayət, yağış başladı. Az sonra isə yağış doluya döndü və dolu dənələri səkiləri döyəclədi. Pəncərə kölgəlikləri də təbil kimi çalmağa başladı. Otağın alaqaranlığında Ryö bir müddət yağışın səsinə qulaq asandan sonra yenə Taruya baxırdı. Həkimin anası isə yenə toxuyur və hərdən başını qaldırıb xəstəyə baxırdı. Həkim bütün tədbirləri görəndən sonra oturub gözləyirdi.

Yağışın səsi kəsiləndən bəri otağa qəribə bir sükut çökmüşdü və bu sükutun içində gözəgörünməz bir döyüşün lal hənirtiləri duyulurdu. Yuxusuzluqdan üzülmüş həkimə elə gəlirdi ki, bütün epidemiya ərzində qulağında səslənən vıyıltını yenə eşidir. O, anasına işarə etdi ki, gedib yatsın. Anası başını yelləyib qalmaq istədiyini bildirdi, sonra isə səhv düşmüş bir ilməni düzəltməyə çalışdı. Ryö qalxıb xəstəyə su verdi və qayıdıb yerində oturdu.

Yağış ara verdiyi üçün küçədə yenə ayaq səsləri eşidildi. Səslər yaxınlaşır, evin qarşısından keçib uzaqlaşırdı. Həkim fikirləşdi ki, gecə yarıdan keçəndən sonra da adamların gəzindiyi, "təcili yardım" maşınlarının səsi eşidilməyən bu gecə epidemiyadan əvvəlki gecələrə oxşayır. Çöldə taunsuz bir gecə keçirdi. Adama elə gəlirdi ki, soyuğun, işığın və adamların qovub şəhərdən çıxarmaq istədiyi xəstəlik küçələrin qaranlığından qaçıb bu isti otağa sığınmış və Tarunun süstləşmiş bədənində yerini bərkitmişdi. Bəla indi şəhərin başı üzərində deyil, bu otağın içində vıyıldayırdı. Elə bil, neçə saatdan bəri Ryönün qulağına gələn səs də onun səsi idi. Gözləmək lazım idi ki, həmin səs burada da kəsilsin, taun burada da təslim olsun.

Səhərə az qalmış Ryö əyilib anasına dedi:

– Bir az yat ki, səhər saat səkkizdə məni əvəz edə biləsən. Yatmazdan əvvəl damcı dərmanı qəbul elə.

Madam Ryö ayağa qalxdı. Əlindəkiləri bir yana qoyub çarpayıya yaxınlaşdı. Taru xeyli vaxtdır gözlərini açmırdı. Saçları alnının tərinə yapışmışdı. Madam Ryö köksünü ötürdü və Taru gözlərini açdı. O, qarının mülayim sifətinin ona tərəf əyildiyini görüb qızdırma içində gülümsədi və gözlərini yenidən yumdu. Ryö keçib anasının kreslosunda oturdu. İndi küçədə də, otaqda da tam sakitlik idi. Səhərin soyuğu otaqda da duyulmağa başlamışdı.

Həkim bir az yuxuladı və küçədən keçən bir arabanın səsinə oyandı. O, həyəcanla Taruya baxdı və gördü ki, Taru da yuxulaya bilib. Uzaqlaşmaqda olan arabanın dəmir üzlüklü ağac təkərlərinin səsi hələ eşidilirdi. Çöldə hələ hava işıqlaşmamışdı. Həkim çarpayıya yaxınlaşanda gördü ki, Taru ona baxır. Amma gözlərində elə bir boşluq vardı ki, elə bil, hələ yuxudan ayılmayıb. Həkim soruşdu:

– Yuxulamışdınız, eləmi?

– Elədir.

– Nəfəsiniz bir az asanlaşıbmı?

– Bir az asanlaşıb. Yəni bunun bir mənası var?

Həkim bir az susub dedi:

– Yox, Taru, bunun bir mənası yoxdur. Siz də mənim kimi bilirsiniz ki, səhərlər müvəqqəti yüngüllük olur.

Taru onun sözünü təsdiqləyib dedi:

– Sağ olun. Mənimlə həmişə belə dəqiq danışın.

Ryö çarpayısının ayaq tərəfində oturdu. Tarunun kötük kimi sərtləşmiş qıçları ona toxunurdu. Xəstənin tövşüyü güclənirdi. O, boğula-boğula soruşdu:

– İndi qızdırmam qalxacaq, eləmi Ryö?

– Elədir, amma günortaçağı vəziyyəti yoxlayarıq.

Taru güc toplamaq istəyirmiş kimi gözlərini yumdu.

Üzündən yorğunluq yağırdı. İçində qaynayan qızdırmanın bədəninə yayılmasını gözləyirdi. Baxışı sönük idi. Ryönün ona tərəf əyildiyini görəndə gözləri işıqlandı. Ryö suqabını irəli uzadıb dedi:

– İçin.

Taru suyu içib başını yastığa qoydu və dedi:

– Yaman uzun çəkir.

Ryö onun nəbzini yoxladı, amma Taru üzünü yana çevirmişdi və halı pis idi. Qızdırması qəfildən qalxmışdı, elə bil, içərisindəki bir səddi yarıb bütün bədəninə yayılmışdı. Taru üzünü çevirib Ryöyə baxanda həkim baxışları ilə ona ürək-dirək verdi. Taru gülümsəmək istədi, amma gərilmiş, ərplə bərkimiş dodaqları təbəssüm doğura bilmədi. Gözləri isə işıqlı idi, təslim olmayan iradə və cəsarəti gözlərinin işığından duyulurdu.

Saat yeddidə madam Ryö otağa girdi. Həkim öz otağına keçdi ki, zəng edib xəstəxanaya gələ bilməyəcəyini desin. O həm də qərara almışdı ki, məsləhətxanadakı qəbulunu da təxirə salsın. Bir anlıq divanda uzandı, amma tez ayağa qalxıb otağa qayıtdı. Taru üzünü çevirib madam Ryöyə baxırdı. O, bütün fikrini cəmləyib yaxınlıqda, əllərini dizlərinə qoyub səssiz kölgə kimi oturmuş qarıya baxırdı. Onun belə diqqətlə baxdığını görən qarı barmağını dodaqları üstünə qoyub onun susmasına işarə elədi və durub xəstənin başı üstündəki lampanı da söndürdü ki, yuxuya getsin. Amma pərdələrin arasından da işıq axmağa başlamışdı. Çox keçməmiş otaq işıqlandı və qarı Tarunun sifətini sezməyə başlayanda gördü ki, hələ ona baxır. Madam Ryö ona tərəf əyildi, yastığını düzəltdi və əlini bir anlıq onun tərdən islanmış, pırtlaşıq saçlarında saxladı. Həmin anda qulağına Tarunun boğuq, zəif səsi gəldi: o, qarıya “sağ ol” deyir, indi vəziyyətinin yaxşılaşdığını söyləyirdi. Qarı yerində oturanda Taru gözlərini yummuşdu,

dodaqları bir-birinə yapışsa da, üzgün sifətində təbəssüm duyulurdu.

Günortaçağı qızdırma ən yüksək həddə çatmışdı. Xışıltılı öskürək xəstənin bütün bədənini lərzəyə gətirirdi və çox keçməmiş o, qan tüpürməyə başladı. Yaraları daha dolub şişmirdi, içəridə bərkiyib düyünləşmişdi. Ryö hiss etdi ki, həmin şişləri dəlib boşaltmaq mümkün olmayacaq. Hərdən qızdırma və öskürək ara verəndə Taru gözlərini açıb dostlarına baxırdı. Daha sonra isə o, gözlərini gec-gec açır və yanındakılara baxanda saralmış sifətinə əvvəlki sevinc işığı gəlmirdi. Bədənindən, elə bil, tufanlar keçirdi və Taru getdikcə zəifləyib süstləşirdi. Ryö dostunun sifətinə baxdıqca görürdü ki, bu sifət təbəssüm və hər cür ifadəni itirmiş bir maskaya dönür. Onun gözləri qarşısındaca sevdiyi bir insanı zaval qamçılayıb üzür, amansız xəstəlik didib-parçalayırdı. Həkim təsəvvürünə gətirirdi ki, dostunu taun seli öz ağuşuna alıb aparır, o isə əli qoynunda tamaşa edir, heç nə edə bilmir, ürəyi parçalana-parçalana bəlanın gücünə təslim olurdu. Onun gözləri dolmuşdu və qəfildən Tarunun divara tərəf çevrildiyini, həyat ilməsi qırılıbmış kimi dərindən köks ötürüb süstləşdiyini göz yaşları arasından sezdi.

Sonrakı gecə sükut gecəsi idi. Dünyadan təcrid olunmuş bu otaqda, geyindirilib dəfnə hazırlanmış meyitin ətrafında qəribə bir sükut yaranmışdı. Belə sükutu Ryö neçə gün əvvəl taunun hücum edib qalib gəldiyi evlərdə də duymuşdu. Elə həmin gecələr də həkim bu sükuta təəccüb edirdi. Bu, ağır mübarizədən sonra yaranan bir boşluq, məğlubiyyət sükutu idi. Amma indi dostunun cəsədini bürüyən sükut taundan yaxa qurtarmış küçələrin arxayınlıq sükutu ilə uyğunlaşırdı. Həm də bu uyğunluq elə dərin idi ki, həkim taunun birdəfəlik məğlub olduğuna inanmağa başlamışdı. Həmin məğlubiyyətdən yaranmış əmin-amanlığın

özündə isə sağalmaz bir ağrı duyulurdu. Ryö fikirləşirdi ki, görəsən, Taru öz ölümü ilə rahatlıq tapa bilibmi? Amma bir şeyi dəqiq bilirdi ki, özü ömrü boyu rahatlıq qazana bilməyəcək. Oğlu öldürülmüş ananın barışmaz olduğu kimi, o da öz dostunun qatilini bağışlaya bilməyəcəkdi.

Çöldə əvvəlki gecələr kimi hava soyuq, səma isə işıqlı və donuq ulduzlarla dolu idi. Yarıqaranlıq otaqda havanın soyuqluğu, gecənin soyuq nəfəsi duyulurdu. Madam Ryö çarpayının yanında, masaüstü lampanın işığında həmişəki kimi sakitcə oturmuşdu. Ryö isə otağın ortasında, işıqdan uzaqda kresloya çökmüşdü. O fikirləşdikcə tez-tez arvadı yadına düşür və bu fikri başından qovmağa çalışırdı. Gecə təzə düşmüşdü və küçədən keçənlərin ayaq səsləri soyuq küçədə aydınca eşidilirdi. Madam Ryö oğlundan soruşdu:

– Görüləsi bir işin qalmayıb ki?

– Yox, zəng vurub danışmışam.

Sonra onlar dinməzcə keşik çəkməyə başladılar. Hərdən madam Ryö oğluna baxırdı. Həkim anasının xəlvəti baxışlarını görəndə ona gülümsəyirdi. Küçədən tanış səslər eşidilirdi. Avtomobil hərəkətinə rəsmi icazə olmasa da, bəziləri maşınla küçələrə çıxmağa başlamışdı. Maşınlar şütüyüb keçir, yox olur, sonra yenə səsləri eşidilirdi. Gah addım səsi, gah danışıq, gah da at nalının cingiltisi gəlirdi otağa. Tini burulan iki tramvayın qarışıq uğultusundan sonra içəriyə yenə soyuq bir sükut çökdü. Madam Ryö dilə gəldi:

– Bernar.

– Bəli.

– Yorulmamısan?

– Xeyr.

O, anasının onu sevdiyini də, nələr fikirləşdiyini də duyurdu. Ryö həm də bilirdi ki, yaxın bir insanı sevmək adi bir haldır və məhəbbətin danışıq dili həmişə zəif

olur. Anası ilə o, bir-birini həmişə beləcə sükut içində sevəcəklər. Günlərin birində ya anası, ya da onun özü dünyadan köçəcək və onlar heç vaxt bir-birini sevdiklərini dilə gətirə bilməyəcəklər. Elə Taru ilə də beləcə oldu: birgə çalışdılar, bir-birinə bağlandılar, amma əsl dostluq etməyə imkan tapmamış ayrıldılar. Bəli, Tarunun öz ifadəsi ilə desək, o uduzdu. Yaxşı, bəs Ryönün qazancı nə idi? Onun qazancı bu idi ki, taunun üzünü görüb yadında saxlamışdı, dostluğa bələd olub onu xatirəsinə həkk eləmişdi, ana mehribanlığını duymuşdu və o da xatirəyə çevriləcəkdi. Bu taunla ölüm-dirim oyununda insanın yeganə qazancı tanışlıq və xatirə olur. Bəlkə, elə Taru bunları udub-uduzmaqdan danışırmış!

Yenə küçədən maşın keçdi və madam Ryö yerində qurdalandı. Ryö ona baxıb gülümsədi. Anası dedi ki, qətiyyən yorğun deyil və tezcə əlavə etdi:

– Gərək sən sonra gedib dağda istirahət edəsən.

– Əlbəttə, gedəcəyəm, ana.

Bəli, gedib dağdakı istirahət evində dincəlmək lazım idi. Axı niyə də getməsin? Elə orada da yeni bir xatirə qazanardı. Amma adam ancaq öz bildikləri və xatirələri ilə yaşayır və onları qazanc sayırsa, arzulardan təcrid olunursa, bu, çətin bir həyat olmalıdır. Tarunun həyatı məhz belə idi və o, təmənnasız bir ömrün saf cəhətlərinə bələd idi. Taru insanın insan tərəfindən məhkum olunmasına qarşı çıxırdı. Amma onu da yaxşı bilirdi ki, istər-istəməz hər kəs kimi isə məhkum edir və bəzən məzlumların özləri cəllada çevrilirlər. Elə buna görə də Taru ömrünü şübhə və daxili hərc-mərclik içində keçirmiş, ümidsiz yaşamışdı. Bəlkə, elə bu səbəbə görə Taru müqəddəslər kimi yaşamağa çalışmış, özünü insanlara xidmətə həsr eləmişdi? Əslində, Ryö bu barədə heç nə bilmirdi. Onun yaddaşında Tarunun yalnız müəyyən obrazı qalacaq – ya onu istədiyi yerə aparmağa hazır olan, maşının sükanından ikiəlli

tutan Taru, ya da ölüm yatağında hərəkətsiz uzanmış bu böyük, ağır bədən. Həyat qaynarlığı və ölüm sükutu – bu da bir dərs idi.

Bəlkə də, elə bu fikirlərə görə səhər həkim arvadının ölüm xəbərini də sakitcə qarşıladı. O, öz kabinetində oturmuşdu. Anası tələsik otağa girib teleqramı ona verdi və poçtalyona xərclik vermək üçün geri qayıtdı. Qarı oğlunun yanına qayıdanda gördü ki, teleqram əlində açıq qalıb, özü isə pəncərədən çölə, açılan səhərin gözəlliyinə tamaşa edir. Madam Ryö astaca dilləndi:

– Bernar...

Həkim fikirli-fikirli ona baxanda qarı soruşdu:

– Teleqramda bəd xəbər var?

– Elədir, – həkim cavab verdi. – Səkkiz gün əvvəl...

Madam Ryö üzünü pəncərəyə tərəf çevirdi. Həkim susub durmuşdu. Sonra o, anasından xahiş elədi ki, ağlamasın, dedi ki, belə qurtaracağını bilirdi, amma hər halda, ağır xəbərdir. Elə bu sözləri deyəndə də həkim duyurdu ki, əzaba adət edib. Aylardan bəri, ələlxüsus da son iki gündə əzab onun qanına çökmüşdü.

***

Nəhayət, şəhər darvazaları açıldı. Fevralın günəşli bir səhəri hamı – əhali, qəzetlər, radio, şəhər rəhbərliyi bu şad xəbəri aləmə yaydı. Darvazaların açılması münasibətilə yaranmış şənliklərdə tam iştirak edə bilməsək də, onun təsvirini verməyimiz vacibdir.

Həm gündüz, həm də gecə üçün əyləncələr təşkil olunmuşdu. Eyni zamanda vağzalda qatarlar hərəkətə gəlir, gəmilər limana yaxınlaşıb lövbər salır və xəbər verirdilər ki, ayrılıq əzabı çəkənlərin qovuşma günü başlayıb.

Ayrılıq əzabının bizim şəhər camaatında necə hisslər doğurduğunu təsəvvür etmək çətin deyil. Gün

ərzində həm şəhərə gələn, həm də şəhərdən çıxan qatarlar adamla dolu idi. Ayrılıq yanğısı keçirmişlər iki həftə əvvəldən həmin ilk günə bilet sifariş eləmiş və aradakı gözləmə günlərində qərarın dəyişə biləcəyini fikirləşib əzab çəkmişdilər. Şəhərə yaxınlaşan sərnişinlərin bəziləri həsrətini çəkdikləri adamın vəziyyətindən xəbərdar olsalar da, ətrafdakılar şəhərin vəziyyətindən xəbərsiz və bir az nigaran idilər. Ayrılıq vaxtı ehtirasdan yananlar isə ancaq görüşə tələsir, başqa heç nəyə əhəmiyyət vermirdilər.

Əlbəttə, görüşə belə çox tələsənləri, ona qaça-qaça gedənləri ancaq görüşün özü maraqlandırırdı. Onlar yalnız bir dəyişiklik duyurdular: aylar keçdikcə ayrılıq müddətinin gödəlib-azalmasını səmimi-qəlbdən arzulasalar da, indi şəhərə çatdıqları, qatarın dayandığı anın uzanmasını istəyirdilər. Bir neçə ayda itirdikləri sevgi ləzzətinin əvəzini çıxmaq üçün şadyanalıq dəqiqələrinin ömrünün uzanmasını arzulayırdılar. Vağzal səkisində, yaxud evdə oturub əzizini arzulayanlar da beləcə kədərli fikirlər içində gözləyirdilər. Ramber də belələrindən idi, neçə həftə əvvəl xanımına xəbər göndərmişdi. İndi xanımı gəlirdi və özü həyəcan içində gözləyirdi. Taunlu aylar onun alovlu məhəbbətini mücərrəd bir hissə döndərmişdi, qorxurdu ki, əvvəlki duyğularını tapa bilməyə.

Ramber istəyirdi ki, epidemiyanın ilk günlərində duyduğu yanğını, onu şəhərdən çıxıb sevgilisinə tərəf qaçmağa təhrik edən güclü hissi geri qaytarsın. Amma özü yaxşı bilirdi ki, bu mümkün deyil. O dəyişmişdi, taun onun fikirlərini qarışdırmışdı, nə qədər çalışsa da, əvvəlki yanğını duya bilmirdi. Hərdən ona elə gəlirdi ki, taun lap qəfildən qurtarıb və o, fikrini cəmləməyə imkan tapmayıb. Xoşbəxtlik böyük sürətlə yaxınlaşırdı və onu qarşılamağa hazırlıq yox idi. Ramber duyurdu ki, bütün arzuları birgə və gözlənilmədən həyata keçir. Sən demə, sevincin özü də yanğı verirmiş.

Əslinə qalsa, yol gözləyənlərin, az qala, hamısı Ramberin günündə idi. Vağzal səkisində şəxsi həyata hazırlaşan bu adamlar hələ də özlərini ümumilikdən ayıra bilmir, bir-biri ilə salamlaşır, gülümsünürdülər. Amma elə ki qatarın tüstüsü göründü, onların qəlbindəki məhbus nisgilini həyəcanlı sevinc dalğaları darmadağın elədi. Qatar dayananda canüzən ayrılığa son qoyuldu. Adamlar qucaqlaşıb əzizlərinin yadlaşmış sinələrini sinələrinə sıxdıqda əvvəllər ayrılıq yeri olmuş bu vağzal səkisi bircə an içindəcə ən ağrılı ayrılıqlara son qoydu. Ramber heç imkan tapmamışdı ki, ona tərəf qaçıb sinəsinə sıxılan qadının üzünü görə bilsin. O, qadını bağrına basıb üzünü onun tanış saçlarına dayadığı vaxt gözləri yaşardı. Heç özü də bilmirdi sevincdən ağlayır, yoxsa qəlbində düyün salmış keçmiş qüssədən; hələlik göz yaşları imkan vermirdi ki, sinəsinə sıxılmış qadının öz sevgilisi, yaxud yad bir qadın olduğunu ayırd eləsin. O, öz şübhəsini sonra aydınlaşdıracaqdı. Amma indi, bütün ətrafdakılar kimi o da inanmaq istəyirdi ki, taun gəldi-gedərdir və o, insan qəlbini dəyişə bilməz.

Görüşənlər bir-birinə sığınıb evə qayıdarkən gözləri heç nəyi görmürdü, tauna meydan oxuyurdular, səkidə tənha qalanları da sezə bilmirdilər. Eyni qatarla gəlib səkidə tənha qalanlar isə xəbərsizlikdən ürəklərinə dammış şübhənin həqiqətə çevrildiyini duymağa başlamışdılar. Bu zavallıların indi yeganə yol yoldaşı təzələnmiş qəm-qüssə idi, onlar ayrılığın ən acı nöqtəsinə çatmışdılar. Əzizləri quyuya atılmış, yaxud sobada yandırılmış bu analar, ərlər, məşuqələr üçün taun hələ davam edirdi.

Tənhalığa düşmüşlərin halına kim yanacaqdı axı? Səhərdən sərin havaya hopan günəş şüaları indi, günortaçağı şəhəri daha da canlandırmışdı. Təpələrə düzülmüş qala topları ağızlarını göyə tutub gurlayır,

atəşfəşanlıq edirdi. Şəhər camaatı küçələrə səpələnib əzabla xoşbəxtlik arasındakı dəqiqələri bayram edirdi.

Bütün meydançalarda camaat rəqs edirdi. Bir neçə gün ərzində şəhərdə maşınların sayı xeyli artmışdı və adamla dolu küçələrdə hərəkət çətinləşmişdi. Bütün axşamı aramsız çalınan kilsə zənglərinin titrək səsi aləmə yayılırdı. Kilsələrdə dini mərasimlər keçirilirdi. Eyni zamanda əyləncə yerləri də adamla dolu idi, kafe sahibləri sabahı fikirləşmədən olub-qalan spirtli içkiləri müştərilərə paylayırdı. Müştərilərin də hamısı şən və həyəcanlı idi, cütləşmiş qadın və kişilər heç kimdən çəkinmir, istədikləri kimi əylənirdilər. Hamı qışqırır, gülüşürdü. Ağır aylar ərzində qəlblərin küncündə gizlədilmiş həyat eşqini üzə çıxarıb sədəqə pulu kimi ətrafa səpələyirdilər. Ertəsi gün isə səliqəli, ehtiyatlı həyat tərzinə başlayacaqdılar. Hələlik ən müxtəlif mənşəli adamlar çiyin-çiyinə verir, qardaşlaşırdılar. Ölümün bərabərləşdirə bilmədiyi adamları həyat sevinci bir neçə saatlıq da olsa bərabərləşdirmişdi.

Amma bu zahiri görkəmin özü də bütün vəziyyəti əks etdirə bilməzdi. Ramber kimi günortadan sonra şəhəri dolanan adamlar arasında xoşbəxtliyi səliqə ilə dadanlar da vardı. Bəzi ailələr və cütləşmiş məşuqlar şəhəri adi gəzintiyə çıxmış adamlar kimi dolanırdılar. Bəziləri, doğrudan da, elə bil, onlara əzab vermiş guşələri ziyarətə çıxmışdılar. Onlar təzə gələnlərə taunun dəhşətləri haqda məlumat verir, lazımi yerləri göstərir, vahimə doğurmadan qorxulu hadisənin tarixçəsini danışmağa çalışırdılar. Amma elələri də vardı ki, öz gizli hisslərinin izi ilə gəzir, bəzən də məşuqəsinə sığınıb deyirdi: “Bax, filan vaxt bu yerdə sənin üçün yanırdım, amma əlim sənə çatmırdı”. Belələrini başqalarından fərqləndirən cəhət bu idi ki, onlar böyük insan axınında ayaq saxlayıb ehtirasla pıçıldaşırdılar. Əsl sevinci meydanlardakı orkestrlərin səsindən çox, onların

pıçıltıları büruzə verirdi. Cütləşmiş sevgililər camaat arasında qələbə rəmzi kimi dolanır, öz sərbəstlikləri ilə aləmə car çəkirdilər ki, taun qurtarıb, qorxulu günlər geridə qalıb. Onlar keçmişə meydan oxuyur, insan ölümünün milçək ölümünə tay olduğu günləri, qərəzli vəhşilik və hesablanmış əzab anlarını, hamını hər şeydən məhrum edən məhbusluq çağlarını, sağ qalanları dəhşətə gətirən ölüm iyini tanımaq istəmirdilər. Onlar etiraf eləmək istəmirdilər ki, bir hissəsi qalaq-qalaq sobalarda yandırılıb yağlı tüstüyə dönən, qalan hissəsi isə əsə-əsə öz növbəsini gözləyən xalq biz idik.

Axşamçağı şəhərə çıxıb kilsə zəngi, top atəşi, musiqi sədası və şən qışqırıqlar altında küçələri tənha keçdiyi vaxt həkim Ryö həmin əlamətləri görürdü. O, öz peşəsini davam etdirməli idi, çünki xəstələrin məzuniyyəti olmur. Şəhərə enən işıqlı küçəni əvvəllərdəki kimi qızardılmış ət və razyanalı araq iyi götürmüşdü. Ətrafda camaat sevincdən qovrulurdu. Bir-birinə sarmaşan kişi və qadınların üzləri həyəcan və ehtirasdan od tutub yanırdı. Bəli, taun və qorxu hissi geridə qalmışdı, indi bir-birindən doymayan sevgililərin görüşü sübuta yetirirdi ki, taun həm də sürgün və ayrılıq demək imiş.

Ryöyə elə gəlirdi ki, aylardan bəri adamların aradığı əsas məqsədin nə olduğunu hələ indi anlayıb. Bunun üçün ətrafdakılara nəzər salmaq kifayət edirdi. Ağır əzab və məhrumiyyətlərdən sonra taunu yola salmış bu adamlar uzun vaxtdan bəri oynadıqları rolun səhnə paltarını hələ indi geymişdilər. Bunlar yadellilər idi, əvvəlki təki sifətlərində qəriblik duyulurdu. İndi isə bütün görkəmlərindən uzaq vətənin sorağını almaq olardı. Taun şəhər darvazalarını bağladığı gündən onların həmdəmi ayrılıq olub, yaxın insan hərarətindən, hər dərdi unutduran bir hərarətdən uzaq düşüblər. Şəhərin müxtəlif güşələrində ilişib qalmış bu kişi və qadınların hər biri kiməsə doğru can atır, ayrılığın odundan müx-

təlif dərəcəli yanıqlar alırdılar. Əksəriyyəti ilk günlərdən əzab çəkir, ayrı düşmüş sevgilinin bədən hərarətini, mehribanlıq, yaxud itirilmiş vərdişləri arayırdı. Bəziləri isə dostlarından ayrı düşdüyünə, məktublaşmaq imkanını itirdiyinə görə əzab çəkirdi. Taruya bənzəyən bir neçəsi də ayrılıq əzabı çəkirdi, amma nədən ayrı düşdüklərini özləri də qəti deyə bilmirdilər. Dərdlərinə başqa ad tapa bilmir, bəzən daxili əmin-amanlıq həsrətində olduqlarını söyləyirdilər.

Ryö irəlilədikcə ətrafdakı insan axını sıxlaşır, səs-küy artırdı və ona elə gəlirdi ki, çatmaq istədiyi məhəllənin yolu xeyli uzanıb. Səs-küylü kütləyə qarışdıqca həkim onların xoşbəxt qışqırtılarını daha yaxşı anlamağa başlayır və bəzən də fikirləşirdi ki, bu səslər elə onun öz sinəsindən qopur. Bəli, hamı fiziki və mənəvi əzabı birgə çəkmişdi. Ölüm xəbərləri, "təcili yardım" zəngləri, əzab-əziyyətlər onları əsl vətənə qayıtmağa səsləmişdi. Onların hamısının əsl vətəni bu boğulan şəhərin divarlarının o biri üzündə qalmışdı, əsl vətən divarlardan çöldəki təpənin yaşıllığı, dəniz sahili, azad ölkələr və sevgili həsrəti demək idi. İndi onlar həmin vətənə, xoşbəxtliyə qayıtmaq, qalan hər şeydən üz döndərmək istəyirdilər.

Ayrılıq əzabı və birlik həsrətinin mənasını aramaq istədikdə Ryö duydu ki, bu barədə bir şey bilmirmiş. Adamla dolu, qarmaqarışıq küçələri keçib nisbətən seyrəkliyə çatanda Ryö fikirləşdi ki, hər şeyin bir məna daşıyıb-daşımaması vacib deyil, insanın arzusuna əməl olunub-olunmadığını öyrənmək gərəkdir.

İndi o, arzulara necə əməl olunduğunu bilirdi və ətrafdakı boş küçələrə çatanda bunu daha yaxşı duyurdu. Yeganə arzusu öz məhəbbət ocağına qovuşmaq olanların bəziləri arzularına çatmışdılar. Onların bəziləri isə gözlədikləri adamları itirib şəhəri tənha dolanırdılar. Elələri də var idi ki, tale onları ikiqat ayrılıqdan

qurtarmışdı. Belələri illər boyu yaxınlıq etsələr də, məhəbbətin gur ocağını qalamağa imkan tapmayanlar idi. Onlar, elə Ryönün özü də, gələcəyə ümid bəsləyirdilər, indi isə əbədi ayrılığa qovuşmuşdular. Ramber kimilər isə öz itkilərini tapıb tərəddüdsüz qəbul eləmişdilər. Elə həmin gün səhər Ryö Ramberlə görüşüb ayrılarkən demişdi: "Mətin olun, indi səhv etmək olmaz". Bəli, onlar bir müddət də olsa xoşbəxt yaşayacaqdılar. İndi anlamışdılar ki, insanın həmişə arzuladığı və hərdən də qovuşa bildiyi ən şirin arzu insan mehribanlığıdır.

İnsanı bir yana qoyub başqa mücərrəd arzularla yaşayanların sorğusu isə cavabsız qalmışdı. Taru, haqqında danışdığı çətin, daxili əmin-amanlığa qovuşmuşdu, deyəsən, amma o, məqsədinə ölümlə qovuşmuşdu və qazancının xeyrini görə bilməmişdi. Ryönün rast gəldiyi başqaları da, axşamçağı küçələrdə əylənib kef çəkənlər də öz arzularına çatmışdılar, çünki onlar icrası özlərindən asılı olan sadə arzuları seçmişdilər. Qranla Kottarın yaşadığı küçəyə buruldüğu vaxt Ryö fikirləşirdi ki, insan və onun sadə, güclü məhəbbəti haqda fikirləşənlərə hərdənbir də olsa sevinc bəxş olunması yaxşı cəhətdir.

***

Bu əhvalatın nəqli sona çatır. İndi həkim Bernar Ryö etiraf edə bilər ki, müəllif onun özüdür. Amma yazını başa vurmazdan əvvəl o, heç olmasa, özünə haqq qazandırmaq və hadisələri doğru sözlü bir şahid kimi şərh etdiyini bildirmək istəyir. Taun dövründə peşəsi ona imkan vermişdi ki, şəhər əhalisinin əksəriyyəti ilə görüşüb onların hisslərinə bələd olsun. Bir sözlə, onun çox görüb çox eşitmək imkanı vardı. Həm də çalışıb ki, gördüklərinə əlavələr etməsin və taunlu günləri

yaşamış camaatın fikrini qarışdırmasın. Elə buna görə də təsadüfən, yaxud bədbəxt hadisələr nəticəsində əlinə düşmüş mətnlərdən istifadə edib.

Cinayət işi üzrə ifadə verənlər ehtiyatlı olmağa çalışdıqları kimi, müəllif də ehtiyatlı olmağa çalışıb. Eyni zamanda, haqsevər bir insanın daxili tələbinə uyğun olaraq o, zərərçəkənin tərəfini saxlayıb, şəhər əhalisi ilə birləşib onların sevgisinə, əzabına, sürgün həyatına həmdəm olub. Əhalinin hər dərdi, düşdüyü ağır vəziyyət həm də onun özününkü idi.

Düzgün şahidlik etmək üçün o, əsasən, hadisələr, sənədlər və danışılanları nümunə gətirməli, öz şəxsi fikri, həsrəti və həyəcanları haqda isə susmalı idi. Bu üsulu seçməkdə yeganə məqsədi isə həmşəhərlilərinin vəziyyətini anlatmaq, həm də onların özlərinin çox vaxt yaxşı anlaya bilmədiyi anları dəqiqliklə şərh etmək idi. Bu məqsədə nail olmaq çətin məsələ deyildi. Müəyyən təsvirlər zamanı hiss edəndə ki, öz fikirlərini də həmin təsvirə qoşmaq istəyir, o, bu işdən yan keçir, fikirləşirdi ki, bu şəhərdə hamının dərdi eynidir. Dünyada çox vaxt insanlar əzabı tənha çəkirlər, burada isə vəziyyət başqa idi. Elə buna görə də müəllif hamının adından danışmalı idi.

Amma şəhərin elə bir sakini də vardı ki, həkim Ryö onun adından danışa bilməzdi. Həmin şəxs Taru idi və günlərin birində o, Ryöyə belə demişdi: "Onun ən böyük günahı bundadır ki, uşaqlara və kişilərə ölüm gətirən varlığa daxilən haqq qazandırır. Başqa cəhətləri başa düşürəm, amma iş burasındadır ki, bu günahı da bağışlamağa məcburam". Bu sözləri söyləyən Tarunun özü qəlbən tənha idi.

Ryö qarışıq küçələri birtəhər keçib Qranla Kottarın yaşadıqları küçəyə dönəndə gördü ki, polislər yolu kəsiblər. Qəribə hal idi, yaxınlıqdakı bayram sədaları ilə müqayisədə bu küçə kimsəsiz və lal bir guşəyə

dönmüşdü. Həkim buraxılış vərəqini göstərdi. Polis işçisi dedi:

– Buraxa bilmərəm, həkim. Küçədə bir dəli var, camaata atəş açır. Amma burada qalsanız yaxşıdır, bəlkə, sizə ehtiyac oldu.

Elə bu vaxt Ryö gördü ki, Qran ona tərəf gəlir. Qran da əhvalatdan xəbərsiz idi. Onu da küçəyə buraxmamışdılar və öyrənə bilmişdi ki, güllə onun yaşadığı binadan atılır. Binanın küçə tərəfi günəşin son şüalarına qərq olmuşdu. Qarşıdakı böyük bir ərazi isə bomboş idi. Küçənin ortasında bir papaq və bulaşıq əsgi görünürdü. Ryö ilə Qran küçənin o biri başını da görürdülər, orada da polis yolu kəsmişdi. Yalnız yaxında yaşayanlar tələsik addımlarla binalara girib-çıxa bilirdilər. Üzbəüzdəki binanın qapı-pəncərələri bağlanmış, qarşıda isə əli revolverli bir neçə polis işçisi durmuşdu. Küçədə tam sakitlik idi, mərkəz tərəfdən isə musiqi sədaları eşidilirdi. İkinci mərtəbədəki pəncərələrdən biri yarıaçıq idi.

Qəfildən qarşıdakı binadan iki dəfə atış açıldı və yarıaçıq pəncərənin şüşələri çilik-çilik oldu. Sonra yenə sükut çökdü. Şəhərdəki hay-küydən sonra bu küçənin sükutu Ryöyə çox qəribə görünürdü. Birdən Qran dilləndi:

– Bu ki Kottarın pəncərəsidir, özü də Kottar yoxa çıxıb axı!

Ryö polis işçisindən soruşdu:

– Bəs polis indi niyə güllə atır?

– Onun başını qarışdırmaq istəyir. İndi lazımi avadanlığı olan maşın gəlməlidir. O, binaya girmək istəyənlərə atəş açır, bir polis işçisi də yaralanıb.

– O, niyə atəş açır axı?

– Bilinmir. Camaat küçədə əyləndiyi vaxt atmağa başlayıb. Birinci atəşdən heç nə anlaya bilməyiblər. İkinci güllədən yaralanan olub və camaat qışqıra-qışqıra qaçıb dağılışıb. Yəqin, dəlidir!

Qəfil çökən sükutun içində dəqiqələr çox ağır keçirdi. Qəfildən küçənin o başında bir it göründü. Çoxdan idi şəhərdə it görünmürdü. Bu da, yəqin, evdə gizlədilmişlərdən idi. İt səki ilə gəlib evin qarşısında dayandı. Tərəddüdlə yan-yörəyə baxıb yerə şöngüdü, sonra qanrılıb dişləri ilə böyrünü qaşıdı. Polis işçiləri fit çalıb iti çağırdılar. O, başını qaldırıb baxdı, sonra dikəlib ləng addımlarla küçənin ortasına gəldi ki, orada qalmış papağı iyləsin. Elə həmin andaca ikinci mərtəbədən atəş açıldı. İt ikiqat olub yıxıldı, pəncələrini havada oynatdı, sonra böyrü üstə düşüb can verməyə başladı. Atəşə cavab olaraq beş-altı güllə birdən açıldı və pəncərənin çərçivələri çilikləndi. Sonra yenə sükut çökdü. Günəş yavaş-yavaş enir, qarşıdakı evin kölgəsi Kottarın pəncərəsinə çatırdı. Həkimdən arxada avtomobil əyləcinin səsi eşidildi. Polis işçisi dilləndi:

– Bax, gəldilər.

Polislərin əllərində kəndirlər, bir nərdivan və yağlı əsgiyə bükülmüş iki bağlama vardı. Onlar yandakı küçə ilə fırlanıb qarşıdakı binaya yetişdilər. Binanın qapı və pəncərələrində azacıq canlanma duyuldu. Sonra gözləməyə başladılar. İt isə daha tərpənmirdi, amma indi tündrəngli bir gölməçənin içində idi.

Polislərin gizləndiyi evlərdən qəfil pulemyot atəşi başladı. Nişana götürülən pəncərənin çərçivələri qırılıb töküldükdə də açıq qalmış pəncərə yerindən içərini görmək mümkün deyildi. Lap qısa bir fasilədən sonra üzbəüzdəki başqa bir evdən ikinci bir pulemyot şaqqıldayıb pəncərənin o biri küncünü nişan aldı və divarlardan qəlpələr töküldü. Elə həmin andaca üç polis işçisi qaça-qaça küçəni keçib giriş qapısından içəri soxuldu. Onların arxasınca üç polis işçisi də içəri keçəndən sonra pulemyotun səsi kəsildi. Yenə gözləməyə başladılar. Sonra binanın içindən iki partlayış eşidildi. Çox keçməmiş polis işçiləri evin qapısından çölə, az qala, sürüyə-

sürüyə bir adam çıxartdılar. Qısaqol köynək geymiş bu adam anlaşılmaz sözlər qışqırırdı. Bircə anın içindəcə bütün bağlı pəncərələr açıldı və evlərdəki adamlar küçəyə boylanıb tamaşa etməyə başladılar. Bəziləri isə qaçıb küçəyə çıxmışdılar. Tutulmuş sısqa kişini küçədə ayaq üstə qoydular və bir anlıq onu görmək imkanı yarandı. Polis işçiləri onun qollarını arxaya burmuşdular. Kişi qışqırırdı. Bir nəfər polis nəfəri yaxınlaşıb ona iki sərrast yumruq ilişdirdi.

Qran mızıldadı:

– Bu Kottardır, havalanıb.

Kottar yerə sərilmişdi. Polis nəfəri onun halsız cəsədinə bir-iki təpik də ilişdirdi. Sonra isə tamaşaya yığılmış dəstə aralanıb Ryö ilə dostu Qranın durduğu səmtə axışdı. Polis işçisi göstəriş verdi:

– Aparın onu!

Dəstə qarşıdan keçəndə Ryö üzünü yana tutdu.

Ryö ilə Qran ayrılanda hava qaralırdı. Bir müddət süstləşmiş küçə yenidən yavaş-yavaş cana gəlirdi. Evin tininə çatanda Qran həkimlə xudahafizləşdi. O, evə qalxıb işləmək istəyirdi. Bir-iki addım aralanandan sonra çevrilib həkimə dedi ki, nəhayət, Jannaya məktub yazıb və indi rahat yaşayır. Həm də əlavə etdi ki, məşhur cümləsini yenidən yazmağa başlayıb və cümlədəki artıq sözləri ixtisar edib.

Sonra o, bic bir təbəssümlə şlyapasını qaldırıb rəsmi təzim etdi. Amma Ryö, Kottarın çənəsinə ilişdirilmiş yumruqları unuda bilmirdi və sinəgir qocanın evinə çatınca Kottar gözləri qarşısından çəkilmədi. Günahkar adamın fikri ölmüş adamın fikrindən çox əzab verir, deyəsən.

Ryö qoca xəstənin mənzilinə çatanda hava qaralmışdı. Şəhərdəki şənliyin sədaları otağa da dolurdu. Qoca isə elə əvvəlki kimi öz noxudlarını sayırdı. O dedi:

– Yaxşı edirlər. Camaatın əylənməyə haqqı var.

Gərək həyatın hər üzünü görəsən. Bəs sizin həmkarınız haradadır, həkim?

Çöldən partlayış səsləri eşidilirdi, amma bunlar sadə partlayışlar idi, uşaqlar fişəng atırdılar. Həkim qocanın xırıltılı sinəsini müayinə edə-edə cavab verdi:

– Həmkarım ölüb!

– Bah! – qoca bir az tutuldu.

– Taundan öldü.

Qoca bir az susub dedi:

– Bəli, yaxşı adamlar ölürlər. Həyat belədir. Hər halda, o kişi nə aradığını bilirdi.

Həkim eşitmə aparatını qabına qoyub soruşdu:

– Niyə belə deyirsiniz?

– Heç, elə-belə. O, boş söz danışan adam deyildi. Hər halda, mənim xoşuma gəlirdi. Elə-beləcə xoşuma gəlirdi. Başqaları deyir: "Taun gəlib, taun bədbəxtlik gətirib. Belə getsə, bəziləri hələ mükafat da istərdi. Axı taun nə deməkdir? Taun da elə həyatın bir hissəsidir".

– İnhalyasiya etməyi unutmayın.

– Eh, həkim, narahat olmayın. Mən hələ çox yaşayacağam, çoxlarının ölümünü görəcəyəm. Mən yaşamağı bacarıram.

Çöldən şən səslər eşidilirdi. Həkim otağın ortasında durub qulaq asırdı. O soruşdu:

– İcazə verərsinizmi, sizin yuxarı eyvana çıxım?

– Əlbəttə. Camaata yuxarıdan baxmaq istəyirsiniz, eləmi? Buyurun. Amma adamlar elə həmin adamlardır.

Həkim pilləkənə tərəf getdiyi vaxt qoca soruşdu:

– Həkim, doğrudanmı, taundan həlak olanlara abidə qoymaq istəyirlər?

– Bəli, qəzet belə yazır. Ya abidə qoyulacaq, ya da iri bir lövhə.

– Hə, deməli, hələ mübahisə də edəcəklər.

Qoca xırıltılı səslə gülürdü:

– Bilirəm necə danışacaqlar. “Bizim mərhumlar...” deyə qışqıracaq, sonra da gedəcəklər yeyib-içməyə.

Həkim pilləkəni qalxırdı. Evlərin üstündə səma soyuq və qaranlıq idi, ulduzlar da sərt və soyuq görünürdü. Bu gecə, bir vaxt Taru ilə onun taunu unutmaq üçün buraya qalxdıqları gecədən çox da fərqlənmirdi. Amma indi qayalara çırpılan dalğalar daha güclü idi. Hava isə sakit və mülayim idi, yüngül meh dənizin duzlu nəfəsini ətrafa yayırdı. Şəhərdəki səslər də buraya dalğa-dalğa axırdı. Bəli, bu gecənin hənirtisindən şikayət deyil, rahatlıq duyulurdu. Uzaqdan bulvarın qara zolağı və meydançaların çilçırağı görünürdü. Bu azad gecənin arzuları yüyənsiz idi və Ryönün qulağına gələn səslər də həmin arzuların sədaları idi.

Qaranlıq liman tərəfdən ilk fişənglər qalxdı və rəsmi atəşfəşanlıq başlandı. Bütün şəhərdən şən nidalar ucaldı. Taru, Kottar, Ryönün sevdiyi və itirdiyi bütün kişi və qadınlar, bütün ölülər və günahkarlar unudulmuşdu. Sinəgir qoca doğru deyirdi ki, adamlar elə həmin adamlardır. Amma elə bu cəhət də insanların gücü və təmizliyinə bir sübutdur, elə buna görə də Ryö indi dərd-qəmi bir yana qoyub adamlara qoşulurdu. Rəngarəng fişənglər səmaya qalxıb çilikləndikcə, şən qışqırıqlar dalğa-dalğa eşidildikcə həkim Ryö yumşalır və burada sona çatan əhvalatı qələmə almağı qərarlaşdırırdı. Susanların sırasında qalmamaq, taun əzabı görmüşlərin tərəfini saxlamaq, onlara qismət olmuş haqsızlıq və zülmün xatirəsini yaşatmaq üçün yazmaq qərarına gəlmişdi. O, taundan öyrəndiyi bir dərsi başqalarına da çatdırıb demək istəyirdi ki, insanın gözəlliyi eybəcərliyindən çoxdur.

Amma həkim yaxşı bilirdi ki, onun yazdığı tarixçə son qələbə tarixçəsi sayıla bilməz. Bu yazı insan qırğını və onun amansız vasitəsinə qarşı görülmüş və görülə bilməmiş tədbirlər haqda məlumat, eyni zamanda

bəlanı tanımaq istəməyən, müqəddəsliyə çatmasalar da, həkimlik etməyə çalışıb əzab çəkmiş adamların fədakarlığına şahidlik sayılacaq.

Şəhərdən qalxan şən sədaları dinlədikcə həkim Ryö fikirləşirdi ki, bu şənlik yenə də yasa çevrilə bilər. O bilirdi ki, sevincdən qışqırışan bu əhali çox şeydən xəbərsizdir. Onlar bilmirlər ki, taun mikrobu nə ölür, nə də yoxa çıxır. Bu mikroblar on illər boyu ev döşənəcəyi və mitil arasında yuxulayıb yata bilər, otaqda, zirzəmidə, bağlamada, yaylıqda, kağız üstündə gizlənib səbirlə gözləyər və ola bilsin ki, günlərin birində insanlara bəla və dərs vermək üçün oyanar, xoşbəxt bir şəhərin siçovullarını qırmağa başlayar.

# ÇÖKÜŞ

(roman)

# ÇÖKÜŞ

Ümid edirəm ki, sizə kömək əlimi uzatsam, bunu sırtıqlıq hesab etməzsiniz. Qorxuram ki, əks halda, bu iş yerinə göz qoyan, onu idarə eləyən qorilla ilə dil tapa bilməyəsiniz. Əslinə qalanda, o, holland dilindən başqa bir dil bilmir. Mənə ümumi maraqlarımızı müdafiə etmək imkanı verməyincə sizin cin içmək istəyinizi anlamayacaqdır. Baxın, ümid edirəm ki, məni başa düşdü; başının bu şəkildə sallanışı mənim gətirdiyim sübutlarla razılaşdığını bildirir. Doğrudan da, çevrildi və tez qalxıb araq şüşəsinin dalınca getdi, asta-usta tərpənməklə. Sizinki gətirib: cınqırı da çıxmadı. Sifarişi rədd edəndə bircə nəriltisi bəsdir – heç kəs xahişini ikinci dəfə təkrarlamağa cürət etməz. Kefinin qulu olmaq güclü heyvanları fərqləndirən özəllikdir. Amma mən gedirəm; icazə verin, sizə dərin minnətdarlığımı bildirim. Sizə təşəkkür edirəm; haçansa, hansı bəd bir məqamdasa cansıxıcı söz işlətdimsə, bağışlayın. Sizdən yaxşısını tapa bilməzdim. Buna görə də icazə verin, qədəhimi sizinkinin böyrünə yapışdırım.

Haqlısınız, onun susqunluğu sarsıdıcıdır. Balta dəyməmiş meşələrin səssizliyidir bu – ağzına qədər dolu topun saçdığı qorxu hissi qədər qorxunc bir susqunluq. Getdikcə təəccüblənirəm ki, bizim susqun dostumuz sivil dünyanın dillərinə etina etmir. Axı onun sənəti odur ki, özünün də nəyə görəsə "*Mexiko-siti*" adlandırdığı bu Amsterdam sahilində bütün millətlərdən olan dənizçiləri qəbul etsin. Təsəvvür edin ki, günlərin bir günü ibtidai insan Babil qülləsinə gəlib çıxır və orada yaşamalı olur. Ən azı, vətən həsrəti ilə çürüyərdi burada. Ancaq bu heç də belə deyildir, bizim bu mey-

xanaçı qürbət acısı dadmayıb, öz yolu ilə gedir; heç nəyi vecinə almır. Onun dilindən eşitdiyim nadir cümlələrdən biri belə idi: "Xoşundur, götür, yox, xoşun deyilsə, rədd ol get buradan". Görəsən, kiminlə razılaşmaq lazım idi, kim rədd olmalı idi?! Şübhəzis ki, dostumuz özünü nəzərdə tuturdu. Onunla razılaşmaq lazım gəlirdi. Boynuma alım ki, elə bu açıqürəkli, sözü üzə deyən adamlar məni yamanca çəkir. Peşəmdən irəli gələn vəzifə borcumdan dolayı insan haqqında çox düşündüyümüz zaman meymunlara qısqanmağım gəlir. Onların, ən azı, gizli niyyətləri olmur.

Düzünü söyləsək, bizim sahibin, nə qədər gizlətməyə çalışsa da, bilirik ki, müəyyən gizli niyyətləri var.

Beş addımlığında söylənilənləri anlamaya-anlamaya xarakterində bir inamsızlıq əmələ gəldi. Buna görə də kədərqarışıq ciddi görkəm aldı, elə bil, nəhayət, insan cəmiyyətində bütün işlərin yaxşı getmədiyindən şübhələndi. Ovqatının belə bir məqamında onunla sənəti və peşəsindən kənar söhbətlərə körpü salmaq məşəqqətdir. İndi isə arxa divara nəzər salın – görürsünüzmü, birbaşa sahibin başı üzərində divar kağızlarının üzərində rəngi bir azca solmuş düzbucaqlı şəkli var, elə bil, əvvəllər burada hansısa şəkil asılıbmış. Həqiqətən də, orada tablo asılıbmış, özü də əvəzsiz, şedevr... Bizim meyxana sahibi onu satın alıb, bir an sonra satdıqda mən, doğrudan da, orada idim. Hər iki halda eyni inamsızlıq hissini nümayiş etdirmişdi; bir neçə həftə bu alış-veriş haqqında düşündü. Bu mənada insan cəmiyyətində həyat, etiraf etmək lazımdır ki, təbiətindəki ilkin sadəliyini bir balaca itirmişdir.

Yadda saxlayın ki, bu adamla bir işim yoxdur, onu heç nədə günahlandırmıram. Onun tam olaraq əsaslandırılmış inamsızlığına haqq qazandırmağa hazıram, bu hissi böyük məmnunluqla bölüşərdim, əgər ünsiyyətcil təbiətim buna yol vermiş olsaydı. Nə pis ki,

boşboğazın biriyəm və çox asan şəkildə insanlara bağlanıram. Özümlə onların arasında lazım olan məsafəni gözləyə bilsəm də, mənim üçün tanışlığa aparan bütün səbəblər gözəldir. Fransada yaşadığım zaman haçan ki ağıllı bir adamla rastlaşırdım, bu, ola bilməzdi ki, onunla ünsiyyətsiz keçsin. Görürəm ki, onun dəbdən düşmüş ifadəsi sizi yaman təəccübləndirdi. Etiraf edim ki, məndə bu kimi ifadələrə bir mütilik var: eşitdimmi, dayana bilmərəm. Zəiflik! Bunun üstündə özümü nə qədər danlamışam. Özüm də yaxşı bilirəm ki, insanın nazik mələfəyə meyli onun ayaqlarını yumaq vərdişinin olmasına dəlalət etmir. Düzdür, zərif üslub elə, əslində, dəri xəstəliyinin üstünə örtülən ipək parçadır ki var. Özümü sakitləşdirmək üçün deyirəm ki, pəltək boşboğazlar bizim bu qardaşımızdan təmiz deyillər. Əlbəttə ki, ikinci stəkandan vaz keçmərəm.

Amsterdamda çoxmu qalacaqsınız? Gözəl şəhərdir, deyilmi? Uzun illərdən bəri, bəli, Parisdən ayrıldığım çağlardan bəri ilk dəfə gördüyüm sifət. Ürəyin yaddaşı daha möhkəmdir və mən də bu gözəl paytaxtımızı unutmamışam, Senanın sahillərini heç unutmaq olar? Paris xalis fantasmaqoriyadır, üzərində dörd milyon marionetkanın gəzişdiyi gözəl dekorasiyadır. Axırıncı siyahıyaalmaya görə, bəlkə də, artıq beş milyon. Onlar bir ucdan törəyib-artır. Burada təəccüblü nə var ki? Mənə həmişə belə gəlib ki, həmvətənlərimiz iki əsas ehtirasın quludurlar: düşünmək və əxlaqsızlıq etmək. Necə deyərlər, axırını düşünmədən. Ancaq gəlin onları bunun üstündə təqsirləndirməyək; yolundan azan təkcə onlar deyil ki, bütün Avropa əxlaqsızlığın içindədir. Düşünürəm ki, gələcək tarixçi haqqımızda nə yazacaq? Müasir insanı səciyyələndirmək istədikdə bu sadə cümlə karına gələcək: "Əxlaqsızlıq edir və qəzet oxuyurdu". Cəsarətlə deyə bilərəm ki, bu kiçik cümlə ilə məsələ tam əhatə ediləcək.

Hollandlar. Yox, onlar heç də müasir deyillər. Onların gələcəyi hələ qabaqdadır. Bir onlara diqqətlə baxın! Görün nə ilə məşğuldurlar. Bütün bu kişilər arvadların hesabına baş girləyirlər. Bir sözlə, bütün bunlar – kişilər və qadınlar ifrat burjualaşıblar və indiyə kimi onlar haqqında yaranıb formalaşmış əfsanələrə hörmət əlaməti kimi, yaxud sadəcə, səfehlikdən buralara baş çəkirlər. Ya təxəyyülləri daşdandır, ya da gerizəkalıdırlar. Vaxtaşırı olaraq baştutan oğraşlar burada bıçaqlaşırlar, yaxud bir-birinə atəş açırlar, ancaq düşünməyin ki, vəhşi və qəddardırlar. Bunu rol tələb edir, məsələ bu qədər sadədir; sonuncu gülləni boşaldanda qorxudan ölürlər. Ancaq onları mən ailə məsələləri üstündə insanları təngə gətirib çərlədənlərlə müqayisədə daha sivil (sivillə zibil arasında fərqə baxın!) hesab edirəm. Görürsünüzmü, müasir cəmiyyət belə bir qətl üçün çox ideal şəkildə qurulub. Siz, yəqin ki, Braziliya sahillərində üzən balaca balıqlar haqqında eşitmisiniz; birdən bu balıqlardan mini hansısa balıqçının üstünə cumur, bir neçə saniyənin içində onu yeyib qurtarır, gözünü yum, aç: görəcəksən ki, yerdə sür-sümük qalıb. "İstəyirsinizmi ki, şəxsi həyatınız olsun? Bütün insanlar kimi". Yəqin ki, suala "hə" cavabı verərdiniz. Buna necə "yox" deyəsən! Razısınızmı? İndi sizi gəmirirlər: budur, işiniz-gücünüz, ailəniz, üstəlik, asudə vaxtınız. Budur, iti dişlər bədəninizə batır, sümüklərinizə ilişir. Ancaq ədalətli deyiləm. Burada yırtıcı heyvanlardan bəhs edilməməlidir. Bizdə bütün işlər belə qurulub: kim kimi harada tutdu...

Budur, cininizi gətirdilər. Sizin sağlığınıza! Bir baxın, qorilla ağzını açdı və məni doktor adlandırdı. Bu ölkədə hamı doktor, yaxud professordur. Burada insanlara xeyirxah və ya ciddi olduqlarına görə hörmətlə yanaşmaq dəbdədir. Hollandlarda kinlilik milli xüsusiyyətə çevrilməyib. Mən isə, yeri gəlmişkən deyim ki, doktor-

filan deyiləm. Belə demək olarsa, bura vəkil kimi gəlib çıxmışam. İndi tövbə hakimiyəm.

İcazə verin, özümü təqdim edim: bəndəniz Jan-Batist Klamans. Şadam sizinlə tanışlığıma. Səhv eləmirəmsə, kommersiya ilə məşğulsunuz. Necə deyərlər, yeri düşəndə! Əla cavabdır! Dəqiq və düzdür. Biz hər şeylə bu şəkildə uğraşırıq: müəyyən dərəcədə! Ancaq icazə verin, bir balaca xəfiyyəlik edim. Haradasa, mənimlə yaşıdsınız. Baxışlarınız deyir ki, dünyanı dişinə vurub gəlmiş qırxyaşlı, əyin-başında heç bir kəm-kəsir olmayan bir adamsınız; bizdə, Fransada geyim tərzi sizinki kimidir, bu xüsusiyyətlər əllərinizə baxanda da bilinir. Yəni, bir növ, burjuasınız. Ancaq ütülənmiş burjua. Keçmiş zamanın bitməmiş formasında çaşırsınız, sözün doğrusu, bu, ikiqat mədəniyyətə malik olduğunuzu sübut edir, çünki hər şeydən qabaq siz bunu bilir və eşidən kimi hirslənirsiniz. Nəhayət, üzr istəyirəm ki, bir belə vaxtınızı alıram, bunu isə mən bəlağətsiz deyəcəyəm: dünyagörüşünüz, həyata baxışınız çox geniş və təqdirəlayiqdir. Demək, siz... ancaq bu, bir elə vacib deyil. Məni insanın peşəsindən çox, əqidəsi maraqlandırır. İcazə verin, sizə iki sual verim, ancaq gəlin şərti şumda kəsək, ciddi hesab eləməsəniz, cavab verməyin! Varlısınızmı? Belə də? Yaxşı. Kasıblarla var-dövlətinizi bölüşdünüzmü? Yox? Demək, siz fərqli düşünürsünüz. Demək, siz Əhdi-cədiddə yazılanlara riayət etmirsiniz, ancaq özünüz bilən yaxşıdır, hər halda, belə etməklə o qədər də qabağa getməmisiniz. Bu hərəkətiniz sizə hansı dividentləri gətirib? Əhdi-cədidi heç oxudunuzmu? Siz, doğrudan, maraqlı adamsınız.

Mənə gəldikdə isə... Nə deyim, nəticəni özünüz çıxarın. Boy-buxun, çiyinlərin enliliyi və deyilənə görə, qəddarlıq yağan sifətimlə daha çox reqbi oyunçusuna bənzəyirəm, belə bir şeyi siz də hiss etdinizmi? Ancaq danışıq tərzinə baxanda, demək olar ki, nəzakətliyəm.

Yunundan əynimə palto biçilən dəvə, görünür, xora xəstəliyindən əziyyət çəkirmiş və xora yazığın bədəninə elə keçib ki, tamam keçəlləşib, əvəzində mənim zərif dırnaqlarım var. Mən də elə sizin kimi təcrübəliyəm, ancaq ehtiyatlanmadan hər şeyi sizə, üzünüzdəki ifadələrə etibar edirəm. Bir sözlə, yaxşı davranışıma və mədəni danışıq tərzimə rəğmən, bu limandakı matros barının daimi müştərisiyəm. Bəsdir daha, dayanın, uzağa getməyin. Bir insan kimi iki peşənin sahibiyəm, bütün tarixçə bundan ibarətdir. Artıq bunu sizə demişəm ki, tövbə hakimiyəm. Mənə aid olan tarixçədə yalnız bircə şey sadədir: heç nəyin sahibi deyiləm. Bəli, vaxtilə böyük var-dövlətim olub, ancaq yaxınlarıma qəpiyimi də qıymadım. Bu, nəyi sübut edir ki? Onu sübut edir ki, mən bir Saddukeyəm. Paho! Limanı başına alan sirenanın səsini eşidirsinizmi? Bu, o deməkdir ki, Zeyder-Zedə gecə duman olacaq!

Artıq gedirsiniz? Bağışlayın ki, sizi yolunuzdan elədim. Siz Allah, bağışlayın. Yox, yox, icazə verin, bu dəfə mən ödəyim. Bu gün *Mexico-siti*-də mənim qonağımsınız, inanın, sizi görməyimə çox şad oldum. Əlbəttə, sabah da bura gələcəyəm, həmişə axşamlar gəldiyim kimi və sizin dəvətinizi məmnuniyyətlə qəbul edəcəyəm. Yolumu soruşursunuz? Yaxşı... yersiz hesab eləməsəniz, ən münasibi o olardı ki, sizi limana qədər müşayiət edəydim. Oradan yəhudi məhəlləsinə sarı getməklə siz heç bir çətinlik çəkmədən indi çiçəklərlə və gumbuldayan orkestrlərlə dolu olan tramvay vaqonlarının şütüdüyü prospektə çıxacaqsınız. Sizin hoteliniz bu prospektlərdən birində yerləşir, adı Damrakdır. Lütfən, birinci siz keçin. Mən isə yəhudi məhəlləsində yaşayıram – hər halda, indiyə qədər onu belə adlandırırdılar, hitlerçilər gəlib onu kökündən qaşıdılar. Qazmaq kimi... Özü də necə qaşıdılar! Yetmiş beş min yəhudini konslagerə göndərdilər, yaxud öldürdülər. Bir

anın içində süpürüb təmizlədilər. Belə bir səydən, belə bir səliqə-sahmandan necə məmnun olmayasan? İnsanın xarakteri yoxdursa, özündə, heç olmasa, səliqə-sahman hissini tərbiyə etməlidir. Burada, şübhəsiz ki, möcüzədən söhbət gedir, mən də tarixdə misli-bərabəri olmayan cinayətlərin törədildiyi yerdə yaşayıram. Ola bilər ki, bunun özü mənə qorillanı və onun etimadsızlığını anlamağa kömək etsin. Bu şəkildə məni qarşısıalınmaz şəkildə insanlara doğru çəkən fitri meylimlə boğuşa bilərəm. İndi, yeni bir sifət gördüyüm zaman kimsə başım üstündə həyəcan təbili çalır: “Sakit olun! Qarşıda təhlükə var!” Kiməsə hədsiz-hüdudsuz rəğbətim olsa belə, sayıqlığımı əldən vermirəm.

Bilirsinizmi, mənim vətənimdə, balaca bir kənddə, ora almanların cəza dəstələri doluşanda bir zabit qoca anaya çox böyük nəzakətlə girov kimi iki oğlundan hansını güllələmək lazım olduğunu soruşubmuş. Seçim etmək! Təsəvvür edirsinizmi? Bunu kim ağlına gətirə bilər? Bax bunu, məhz bu vəziyyəti? Gözün görə-görə seçilən şəxsi götürüb aparırlar. Bir az da dərinə getsək, nələr ola bilər, bir Allah bilir. Ancaq cənab, sizi inandırıram ki, dünyada hər şey mümkündür. Bir nəfər tanıyırdım, bütün qəlbi ilə vəfasızlığı qəbul etmirdi. Pasifist idi, tam, sərhədsiz azadlığın tərəfdarı idi, dünyadakı bütün insanları və heyvanları sonsuz məhəbbətlə sevirdi. Misilsiz bir insan! Ürəyi qızıl kimi idi! Buna şübhəniz olmasın. Bilirsinizmi, Avropada son dini müharibələrdə kəndinə sığındı. Evinin kandarından bir yazı da asmışdı: “Tərəddüd etmədən içəri keçin. Öz eviniz bilin. Xoş gəlibsiniz!” Sizcə, belə bir ürəkaçıqlığına birinci kimlər reaksiya vermişdi? Faşistlər! Onlar bu mərd kişinin evinə daxil oldular, onu öz evləri bildilər, bir an içində kişinin bağırsaqlarını çölə tökdülər. Bağışlayın, xanım. O, hələ də bir şey başa düşməyib. Ətrafda bir gör nə qədər adam var, artıq gec olsa da, yağış

neçə gündür kəsmək bilmir. Xoşbəxtlikdən, cin var, bu zülmət qaranlığın içində yeganə işartı. Onun içimizdə qaladığı alovun qızılı şölələrini hiss etməmiş olmazsınız. Gecələr şəhərin küçələrində gəzməyi və cinin içimi yavaş-yavaş necə qızdırdığını xoşlayıram. Bütün gecəni gəzirəm, nəyinsə xəyalını qurur, öz-özümlə söhbət edirəm. Dünən gecə olduğu kimi. Qorxuram ki, sizi bir balaca heyrətləndirib özünüzdən çıxarım. Yox? Təşəkkür edirəm, çox nəzakətlisiniz. Ancaq həqiqət budur ki, ürəyim ləbələb doludur, ağzımı açdımmı – sözlər sel kimi tökülür. Üstəlik, ölkənin özü məni ilhamlandırır. Bu xalqı sevirəm, insan kütləsi kiçik bir məkanda evlərlə su arasında "üzən", üstündən buxar qalxan duman, soyuq torpaq və dənizlə əhatələnən səkilərdə qaynaşır. Bu xalqı sevirəm; hollandların naturasında ikili bir şey var: bu an, bu dəqiqə burada səninlə olsalar da, həm də çox uzaqdadırlar.

Bəli, elədir ki var! Daşla döşənmiş yolda ağır addım səslərinə qulaq kəsilin, qızılı rəngdə siyənəklərin və xəzəl olmuş yarpaqlardan düzəldilən rəngbərəng daşqaşların aşıb-daşdığı dükanların arasından necə ağır-ağır getdiklərini seyr edin. Şübhəsiz ki, siz onların günün bu vaxtında, elə dünən axşamdan burada nə elədikləri barədə düşünürsünüz. Hamı kimi siz də səhv edirsiniz, bu şərəfli insanları vəkil və tacir qismi ilə qarışdırırsınız, belə hesab edirsiniz ki, günün bu vədəsində gəlirlərini və əbədi həyat şanslarını hesablayırlar, ancaq xislətlərindəki lirikanı heç hesaba almırsınız, bu cəhət çox nadir hallarda, başlarına enli şlyapa qoyub anatomiya mühazirələrinə qulaq asdıqları zaman peyda olur. Siz necə də səhv edirsiniz!

Düzdür, lap yanımızdan ötüb-keçirlər, ancaq nəfəsinizi dərib saxlayın və onlara baxın: başlarını görürsünüzmü? Cin və nanəli likörü reklam edən neon lövhələrindən axıb tökülən qırmızı və ya yaşıl işıq saçan

dumanda. Cənab, bilmirsinizsə, deyim, Hollandiya bir yuxudur, dumanlı və qızılı rəngdə bir yuxu – gündüzlər daha dumanlı, gecələrsə daha qızılı, ancaq gecəbə-gündüz bu yuxu Leonqrinlərlə aşıb-daşır. Məsələn, bax, hündür sükanlı, dəfn mərasiminin başında gedən matəm quşuna bənzəyən qara velosipedlərini fikirli-fikirli sürən bu gənclər kimi dayanmadan ölkəni ayaq-dan salır, dənizlərin və göllərin başına dolanırlar. İnsan-larsa bu zəif dumanın içində xəyala dalır, eyni yerdə dövrə vurur, dumanın qızıl haləsi içində dua edirlər – bizdən o qədər uzaqdırlar ki... Xəyal içində minlərlə kilometr uzaqlara gedib çıxıblar, uzaq Yava adasına. Onlar bütün vitrinlərini bəzəyən və bu an başımız üstündə uçan, sonra mağaza lövhələrinin arxasında tropik qurşaqda yaşayan meymunlar kimi ayaqlarından tələyə düşən İndoneziya tanrılarına dua edirlər. Bax bu cəhətləri ilə onlar necə də dərd çəkən koloniya sakin-lərinə oxşayırlar, yəni Hollandiya təkcə Avropanın tica-rət yuvası deyil, həm də insanların dəlilikdən və xoş-bəxtlikdən qıyya çəkib öldükləri Sipanqo və adalara gedib çıxan dənizlərdir.

Ancaq təəssüf ki, çıxıb gedirəm, hesab edin ki, məhkəmədə sonuncu nitqimi söyləyirəm. Bağışlayın! Cənab, bağışla, nə deyirəmsə, bir növ, adətkərdəyəm, dilim öyrəşib. Yeganə istəyim budur ki, bu şəhəri və onun mahiyyətini düzgün anlayasınız. Biz o mahiyyə-tin lehməsi içindəyik. Görürsünüzmü, Amsterdamın dövrələmə çayları necə də cəhənnəmin dolanbaclarına bənzəyir. Şübhəsiz ki, məkrli niyyətlərlə dolu burjua cəhənnəminə. Başqa bir məkandan bura təşrif gətirdik-də bu dairələrdən necə keçdiyindən asılı olaraq həyat, demək, həm də onun içindəki cinayətlər bir az da tündləşir, bir az da qatılaşır. Burada biz sonuncu dairə-nin üstündəyik. Elə bir dairə ki... Bəyəm siz onu bilirsi-niz? Lənət şeytana, sizin kim olduğunuzu müəyyən-

ləşdirmək getdikcə daha da çətinləşir. Demək, siz bunu nə üçün dediyimi anlayırsınız: dünyanın mərkəzi məhz bu nöqtədə yerləşir, halbuki Hollandiya materikin kənarında qərar tutub. Hissiyyatlı adam bunun nə demək olduğunu başa düşər. İstənilən halda, əlindən qəzet düşməyən insanlar və avara-sərgərdanlar üçün bu, materikin son nöqtəsidir. Onlar Avropanın hər bir nöqtəsindən bura təşrif gətirir, dəniz ətrafında, bozumtul qumların üstündə məskunlaşırlar. Sirena səsini eşitdilərmi, qatı duman içində gəmi siluetlərini axtarır, sonra körpüylə kanalların üstündən keçir və yağış altında evlərinə qayıdırlar. Soyuqdan donmuş halda *Mexico-siti*-də, az qala, bütün dillərdə cin soruşurlar! Onları elə burada gözləyirəm.

Beləliklə, əziz eloğlu, sabaha qədər! Yox, yox, sən indi yolu asanca tapacaqsan. Gəl körpünün üstündə ayrılaq – bilirsinizmi, gecələr körpü üstündə gəzməyi heç xoşlamıram. Ona görə ki, tövbəliyəm. Təsəvvür edin ki, kimsə gözlərinizin qabağında özünü çaya atır.

İkisindən biri: siz ya bu bədbəxt adamı sudan çıxarmaq üçün özünüz ora tullanmalısınız –hava soyuq olduğundan ölmək təhlükəsi kifayət dərəcədə realdır – yaxud heç nə etmirsiniz, o adamın qurtulmaq naminə cəhd edib əllərini şappıldatması zaman keçdikcə canınızda ağrıya çevriləcək və sümüklərinizi belə göynədəcəkdir. Gecəniz xeyrə qalsın! Necə, doğrudan da, vitrindəki qadınların kim olduqlarını bilmirsiniz? Cənab, gözümün işığı, bunlar arzunun, xəyalın özüdür ki var! Münasib qiymətə Hindistana səfər etmək. Görmürsünüzmü, üst-başlarından qəribə ətir qoxusu gəlir? İçəri girən kimi onlar pərdələri çəkir və gəmi səfəri başlanır. Tanrılar belə göydən yerə enir, okeanda dalğaların qoynunda hara gəldi gedirsiniz. Cəhd edin.

Bilirsinizmi tövbə hakimi nə deməkdir? Demək, bu sualı verməklə sizi maraqlandıra bilmişəm. İnanın ki,

bu sözü elə-belə demişəm, ağlıma gəldi birdən-birə. İnanın, necəsini izah edə bilərəm. Məlum mənada bu, elə mənim missiyama daxildir. Ancaq əvvəlcə sizi bəzi faktlardan agah etməliyəm, onlar məni yaxşı başa düşməkdə yardımçınız ola bilər.

Bir neçə il ərzində Parisdə vəkil işlədim və sözün düzü, kifayət qədər xətir-hörmət də qazandım. Ah, bayaqdan gap etsək də, sizə əsl adımı belə deməmişəm. Nəcib işlər üzrə ixtisaslaşmışdım. Dul qadınları və yetimlərin haqqını müdafiə edirdim. Bu qismin hüquqlarının müdafiəsinə nə üçün "nəcib iş" adının verilməsinin səbəbini mən də bilmirəm – bu dünyada heç nəyə haqqı çatmayan dullar və yırtıcı yetimlər nə qədər desən! Ancaq müttəhimdən, necə deyərlər, bir çimdik belə qurbanlıq qoxusunun gəlməsi kifayət edirdi, onda mantiyamın enli qolları havada uçurdu. Özü də necə! Tufan onun yanında toya getməli olurdu. Bir sözlə, ürəyim mantiyamın qolları üstündə çırpınırdı. Düzdür, düşünmək olardı ki, hər gecə ədalət ilahəsi ilə yatıb-dururdum. Əminəm ki, müdafiə təriqi çıxışlarımın yandırıcı tonu, həyəcanımın səmimiliyi, əminlik və bu kimi digər halları gördükdə sarsılardınız. Riqqətə gəlib ağlayardınız. Təbiətimdəki nəciblik sifətimə çökmüşdü, necə deyərlər, xeyirxahlığım üzümdən oxunurdu. Bundan başqa, iki səmimi hiss mənimlə qoşa addımlayırdı. Haqq-ədalət uğrunda mübarizə aparmağın doğurduğu məmnunluq və ümumən hakimlərə güzəşt yeri qoymayan nifrətim. Ancaq burası da var ki, bu nifrət, əslində, bir elə amansız da deyildi. İndi anlayıram ki, buna görə müəyyən əsaslar olsa da, kənardan əcaib bir ehtirasa bənzəyirdi. İnkar etmək olmaz ki, ən azı, hazırkı durumda hakimlərin sayı bir elə çox deyildi, elə deyilmi? Ancaq bunu başa düşmürəm ki, bu adam bir belə ağır öhdəliklərin altına girib, necə olur ki, özünü biabır eləmir. Bununla belə, hakimlərlə çox

rastlaşdığımdan onları rahatca qəbul elədim, necə ki cırcırama görəndə təəccüblənmirəm. Burada bir yegana fərq var ki, düzqanadlıların hücumu mənə bir qara qəpik qazandırmasa da, bir tikə çörəyimi nifrət etdiyim insanlarla bəhsləşmə sayəsində əldə edirdim.

Beləliklə, mövqe etibarilə ədalət düşərgəsində idim və bu, mənim könül rahatlığım üçün kifayətləndirici bir faktor idi. Haqlı olmağın, rəqib üzərində qələbənin doğurduğu məmnunluq və öz məninə hörmət – bütün bunlar, canım-ciyərim, mübarizədə duruş gətirmək və hətta irəliyə getmək üçün təkanverici addımlar sayılmalı idi. İnsanları bu hissdən məhrum eləsəniz, onları quduz itə döndərərsiniz. Dünyada yüzlərcə, minlərcə cinayət yalnız ona görə baş verib ki, təqsirkar bir gün faş olacağı fikrinə tab gətirməyib. Haçansa bir sənayeçi tanıyırdım. Arvadı füsunkar bir qadın idi, baxan dəli olurdu, ancaq bu qadına o, bir gün xəyanət elədi və sözün hərfi mənasında qadının qarşısında təqsirli olmasını sinirə bilmirdi, dəli olub cinlənirdi, qadınsa susurdu. Arvadının gözəlliyi, daxili bütövlüyü üzə çıxdıqca o daha da cinlənirdi. Bütün bunların sonunda günah hissinin dərk edilməsi onun üçün dözülməz həddə çatdı. Sizcə, o zaman o, nə elədi? Xəyanətin daşını atdımı? Öldürdü onu. Münasibətlərimiz də bundan sonra yarandı.

Ona baxanda mənim vəziyyətim həsəd aparılası idi. Canilər düşərgəsinə düşmək riskim sıfıra bərabər idi (yeri gəlmişkən, arvadımı qətlə yetirə bilməzdim, çünki subay idim), üstəlik, vəhşi heyvanlar kimi əsl cani olduqlarına görə onları müdafiə edirdim. Müdafiəni aparmaq maneram mənim üçün hədsiz məmnunluq mənbəyinə çevrilmişdi. Peşə fəaliyyətim qüsursuz-filansız idi. Rüşvət almırdım, öz-özünə aydındır ki, belə olduğu üçün heç bir hiylə, fırıldaq işlətmirdim. Bu da nadir hallarda baş verir, heç zaman heç bir jurnalistə,

yaxud vəzifə mövqeyi mənim üçün fayda gətirəsi heç bir məmura yalan söyləmirdim ki, o da əvəzində barəmdə iltifatlı sözlər desin. İki-üç dəfə şərait yarandı ki, "Fəxri legion" ordeninə təqdim edilim, ancaq mən ciddi görkəm alıb bundan imtina etdim – vəzifəmi vicdanla yerinə yetirməyim əvəzində xoş sözlər eşitməyin özü mənim üçün elə mükafat sayılırdı. Nəhayət, yəni bunu da deyim ki, unutmayasınız yoxsul və imkansız adamlardan gördüyüm işin haqqını almır və bu barədə ağzımı Allah yoluna qoyub danışmırdım. Ancaq düşünməyin ki, bütün bunları sizə lovğalıqdan deyirəm. Mənim burada bir elə xidmətim-filanım yox idi: bizim cəmiyyətimizdə şöhrətin yerini tutan tamahkarlıq məndə həmişə ironiya oyadıb. Yuxarıda sadalananları nəzərdə tuturam; tezliklə görəcəksiniz ki, dediyim sözlərdə zərrə qədər də yalan yoxdur.

Siz deyin, mənə bundan artıq nə lazım idi? Mən öz varlığımla qürrələnirdim, ancaq hamıya məlum idi ki, bu, böyük bir xoşbəxtlikdir, halbuki xatircəmlik naminə bəzən özümüzü elə göstəririk ki, özünəvurğunluq adı verməklə bu hissi atəşlərə yaxırıq. Necə istəyirsiniz, elə də başa düşün, mən şəxsən dul qadın və yetimlərin naləsini eşidəndə dəli oluram və biganə qala bilmirəm. Bu hiss günbəgün, ilbəil böyüyərək bütün varlığıma hakim kəsildi. Məsələn, yolu keçəndə korların əlindən tutub kömək edirəm. Başqa cür ola da bilməz! Səkinin bir küncündə titrəyən əlağacı gözümə sataşdımı, cəld özümü ora atıram, bütün xeyirxah insanları qabaqlayıb korun titrək qolundan ehmalca yapışıb küçənin o biri tərəfinə keçirir, onu maneələrin olmadığı rahat bir məkana çəkirəm, elə buradaca qarşılıqlı iltifat içində ayrılırıq. Eyni şəkildə şəhər içində lazımi ünvanı tapmayıb azanlara vaxt itirmədən köməkçi oluram: kiminsə siqaretini yandırıram, kiməsə ağır yüklü arabanı sürməkdə əl tuturam, körpüdə mühərriki qəfil-

dən sönmüş avtomobili itələyirəm, Xilaskar Ordunun üzvünün satdığı qəzetdən, gül dükanında qoca qarının satdığı güldən, şübhəsiz ki, böyük məmnunluqla alıram – bilə-bilə ki, qarı bu gülləri Monparnas məzarlığından oğurlayır. Mən sədəqə verməyi də xoşlayıram – ən çətini bu barədə danışmaqdır. Dostlarımdan biri – comərd xristian etiraf edirdi ki, kasıb və itib-batmış insanın onun evinə yaxınlaşdığını görəndə ilkin keçirdiyi hiss narazılıqdır. Məndə məsələ əksinəydi: mən sevinirdim! Ancaq gəlin bundan bəhs etməyək.

Gəlin, ən yaxşısı, hansı mərifət sahibi olduğumdan danışaq. Bu cəhətim qabarıq və şübhə doğurmayan bir şey idi. Bu, mənə sonsuz sevinc gətirirdi. Başqa bir təsadüfdə, səhərlər işim rast gətirsəydi, yəni avtobusda, yaxud metroda kiminçünsə ayağa dura bilsəydim (həm də buna layiq olan birisinə), çox hörmətli bir xanımın əlindən düşənləri qaldırıb çox böyük lütfkarlıqla ona təqdim edə bilsəydim, yaxud sadəcə, taksi növbəmi harasa tələsən başqa birisinə bağışlaya bilsəydim, bu uğur bütün günümə bəs edərdi. Etiraf etmək lazımdır ki, ictimai nəqliyyatda tətil olanda sevinirdim, çünki bu günlərdə avtobus dayanacaqlarından keçəndə hirsi boğazına dirənmiş, hirsindən evinin yolunu unutmuş həmvətənlərimdən birini avtomobilimə götürə bilərdim. İki sevən gəncin yanaşı oturmasına nail olmaq üçün teatrda yerimi güzəşt etməyim, dəmiryol vaqonunda gənc bir qızın qulluğunda durmağım, onun çamadanını nəzakətlə əlindən alıb boyu çatmadığı rəfə qoymağım – digər insanlarla müqayisədə bu cür qəhrəmanlıqları tez-tez edirdim, çünki onlardan fərqli olaraq mən məhz bu kimi halların və təsadüflərin marığına yatırdım və bunlar, sözün açığı, mənə rahatlıq gətirirdi.

Alicənab adam kimi tanınırdım və əslində, elə beləydim. Bu xüsusiyyətimi həm ictimai, həm də şəxsi

fəaliyyət sferalarında büruzə verirdim. Əlimdən verdiyim hər hansı şey, yaxud ödədiyim pula görə qətiyyən təəssüf etmirdim; əksinə, bu kimi xeyriyyəçilikdən həzz alırdım və hərdən ağlıma belə bir fikir gəlirdi ki, verdiyim hədiyyələr heç nəyə yaramır; ancaq bir dəfə də olsun bu hədiyyələri verdiyim şəxslərin naşükürlüyü haqqında düşünmədim. Doğrudan, kiməsə nəsə hədiyyə verməyi çox xoşlayırdım, ancaq kimsə məni buna məcbur eləsəydi, qanım it qanına dönərdi. Üzərində dəqiq rəqəmlər yazılan abunə kağızları məni özümdən çıxarırdı. Bir sözlə, əliaçıqlığımın da sahibi elə özüm olmaq istərdim.

Bütün bunlar xırım-xırda şeylərdir, ancaq bunlar sizə həyatda nə qədər sevinc tapdığımı anlada bilər, xüsusən də öz peşəmdə. Budur, məsələn, yalnız ədalət naminə, yaxud sadəcə, ürəyin yandığından, yəni pulsuz-parasız müdafiə etdiyin təqsirləndirilən şəxsin arvadı səni məhkəmə palatasının dəhlizində saxlayır, bu qadının necə kəkələdiyinin şahidi olursan, deyir ki, bütün ailəmiz sənə borcludur, bilmirəm borcunuzdan necə çıxacağıq, sənsə cavabında deyirsən ki, bizim üçün bu, adi şeydir, vəzifə borcumuzdur, yerimdə kim olsaydı, elə belə edərdi; hətta pul yardımı etmək keçir ürəyindən, qoy qarşıdan gələn çox ağır günləri maddi çətinlik içində keçirməsinlər, sonra isə ürəyindən gələn xeyirxahlıq selinin qarşısını almaq niyyəti ilə bədbəxt qadının əlini öpür və bununla da söhbətə nöqtə qoyursan. İnanın, əzizim, iki gözüm, bu, vulqar şöhrətpərəstliyə sığmayan gözəl bir məmnunluq hissidir. Bu zaman sən özünü xeyirxahlığın elə bir zirvəsində hiss edirsən ki, heç bir əvəz güdmürsən.

Elə bu ucalıqda qalaq. İndi "ucalığa can atmaq" ifadəsi ilə, şübhəsiz ki, nə demək istədiyimi anlayırsınız. Mən buranı əbəs yerə "kulminasiya nöqtəsi", başqa sözlə, "nəciblik zirvəsi" adlandırmadım, yalnız burada

qərar tuta və yaşaya bilərəm. Bəli, yalnız zirvəyə can atdıqda özümü sərbəst hiss edirdim. Hətta həyatın xırdalıqlarında belə həmişə digər insanlardan ucada durmağa çalışmışam. Trolleybusu metro vaqonlarından üstün tutmuşam, avtobusu avtomobilin, terrası antresolun ayağına verməmişəm. İdman təyyarələrinin ölüsüyəm: bax başın üstünə, açıq səma özünə çəkir səni, paroxodlarda isə həmişə gəzinti naminə yuxarı göyərtəni seçirəm. Dağlarda dərələrdən qaçır, aşırımlara, yaylalara dırmaşıram; yalnız yüksək dağlıq ərazilərdəki düzənlikləri seçirəm, mənim üçün başqa bir alternativ mövcud ola bilməz. Əgər taleyin hökmü ilə özümə hər hansı peşəni seçib, məsələn, xarrat, yaxud taxtapuş ustası olsam, rahat olun, yalnız damı seçərdim və heç bir başgicəllənməsindən qorxub-eləməzdim. Həbsxanalar, qəbir, yerin altı, mağaralar, uçurumlar... məndə dəhşət hissi oyadır. Mənim hətta qəzetlərdə ilk sütunu zəbt etmək kimi sırtıqlığa gedən speleoloqlardan da zəndeyi-zəhləm gedir və bu tədqiqatçıların hünəri ikrah doğurur. Sıldırımdan dəniz səviyyəsindən səkkiz yüz metr aşağı atılıb qayalarda parça-parça olmaq riskinə gedən insanlara həmişə şübhə ilə yanaşmışam. Fikrimcə, belə bir riskə yalnız xəstə və dəhşətli dərəcədə zədəli kompleksləri olanlar gedə bilər. Burada nəsə iyrənclik var!

Ancaq dəniz səviyyəsindən beş, yaxud altı yüz metr yüksəklikdə qərar tutan təbii terras, hansını ki görə bilərsən, hansı ki gün işığına bürünüb – bax burada mənim üçün nəfəs almaq son dərəcə asandır və ürəyimcədir, xüsusən burada məndən başqa heş kəs yoxdursa və insan qələbəliyindən bir dünya qədər uzağamsa. Nəyə görə işıqlı moizələrin, cürətli ideyaların, odun möcüzəsinin zirvələrdə baş verdiyini gözəl anlayırdım. Belə düşünürəm ki, bu dünyada heç kəs yer altında və ya həbsxana kameralarında istədiyi kimi

düşüncələrə dala bilməz (əgər bunlar geniş panoramın açıldığı bir qüllə üstündə yerləşməyibsə) – burada düşünmək yox, lap kif basmaq olar. Əvvəlcə rahibliyə gedib, sonra rütbəsi əlindən alınan insanları gözəl başa düşürəm, məsələ sadədir: hücrənin pəncərəsi işıqlı dünyaya deyil, lal divara açılırmış. İnanın ki, məni kif basmırdı. Hər gün və hər saat özümlə tək qalanda, yaxud insanların içində yüksəkliyə "dırmaşır", burada tonqal qalayır, olduğum yerdən aşağının göz işləməyən dibinə qədər gedib çatan səslə şaqqanaq çəkirdim. Beləcə, həyatdan və dünyada mövcudluğumdan həzz alırdım.

Xoşbəxtlikdən, vəkil peşəsi mənim yüksəkliyə can atmaq ehtirasıma tam uyğun gəlirdi. O, məni, onsuz da, heç nədə borclu olmadığım, ancaq daim qulluğunda dayandığım yaxınlarıma qarşı inciklik hissindən xilas edirdi. Bu peşə məni müttəhimlərdən yuxarı tutduğum hakimliklə aramda məsafə saxlamağa məcbur edirdi, müttəhimlər isə mənə minnətdar olmalıydılar. Cənablar, bu vəziyyətə baxın və özünüz qiymət verin: etdiklərimin cəzasını çəkmədən yaşayırdım. Heç bir məhkəmə qərarı mənə şamil edilmirdi, heç vədə tribunal səhnəsində oturmurdum. Əksinə, onlardan yuxarıda, haradasa, antik teatrdakı allahlar kimi dekorasiya tirlərinin üzərində qərar tutmuşdum, bu tirlər zaman keçdikcə hansısa qurğunun köməyi ilə aşağı endirilir ki, hərəkət dayanmasın. Bütün hallarda yerdə qalan insanlardan ucalıqda yaşamaq bizim üçün hamı tərəfindən görünmək şansı yaradırdı, kütlə bunu görüb qışqırırdı.

Müdafiə etdiyim şəxslərdən biri – yeri gəlmişkən deyim ki, məhz bu motivlərlə qətl törətmişdi – qəzetlərdəki cinayət xronikası, həyatın xırdalıqlarından bezikmə və özü haqqında yüksək fikri, şübhəsiz ki, onu həddən ziyadə vəcdə gətirmişdi. Bir çox insanlar kimi

onlar da mövcud vəziyyətləri ilə razılaşmır və tezliklə şöhrətlənmək azarı onları uğursuzluq vəd edən hərəkətlərə sövq edə bilərdi. Axı tanınmaq üçün yaşadığın evdə qapıçını qətlə yetirmək kifayət idi. Bədbəxtlikdən, bu tipli şöhrət keçicidir, çünki dünyada böyründən bıçaqlanan və buna, doğrudan da, layiq olan qapıçıların sayı-hesabı yoxdur. Məhkəmədə cinayət həmişə ön səhnədədir, cinayətkar isə səhnədə çox az gözə dəyir, bəzən onu başqa fiqurlar əvəz edir. Bir sözlə, bir neçə dəqiqəlik təntənə müqabilində o, elə şeylər ödəyir ki... Baxın, biz vəkillər bu şöhrət əsiri insanları müdafiə edərkən onlarla eyni zamanda və bir sırada cüzi səy müqabilində şöhrətlənə bilərik. Məhz bu cəhət məni belə səyləri yerinə yetirməyə sürükləyə bilərdi, baxmayaraq ki müdafiə etdiyim şəxslər mənə çox cüzi haqq ödəyirdilər. Axı törətdikləri əməllərin cəzasını çəkməklə həm də mənim imicimin artmasına xidmət edirdilər. Onların yolunda sərf etdiyim enerji, natiqlik istedadı, həyəcan elə onlar qarşısında bütün borcumu axıracan ödəməyə şərait yaradırdı. Məhkəmə cəza verirdi ki, müttəhim günahını təmizləsin, mən isə borc hissindən tam azad şəkildə, məhkəmədən və cəzadan qorxub-eləmədən havalarda uçurdum. Əzizim, axı qayğısız bir varlığı necə də cənnət sakini adlandırmayasan? Beləcə, həyatdan kam alırdım. Heç zaman necə yaşamağı öyrənməmişəm. Bu mənada mənə anadangəlmə usta demək olardı. Digər insanlar üçün ən mühüm vəzifə zərbədən yayınmaq, başqa biriləri üçünsə hücum edən şəxslə dil tapmaqdır. Mənə gəlincə, bu məsələlərdə mahirəm. Şərait tələb eləyəndə üzüküləyə nə qədər desən, dayanmışam, yol getmişəm, başqa bir şəraitdə bir ömür susmuşam; bir sözlə, gah heç nəyi vecimə almamış, gah da ciddi görkəmdə gəzib-dolanmışam. Təəccüblü deyil ki, bu xüsusiyyətlərlə olmazın uğurlar qazanmış, necə var

tanınmışam, qazandığım qələbələrin sayını isə, sadəcə, yaddan çıxarmışam. Nəyə desəniz qadirəm – cəmiyyətdə yorulmaz rəqqas və ciddi erudit adı qazanmışam, qadınları da elə ədalət məhkəməsi kimi sevmişəm (bu iki elementi bir araya gətirmək o qədər də asan iş deyil), bundan başqa, idmançıyam, incəsənətdən və ədəbiyyatdan bir balaca başım çıxır – bax burada bir balaca dayanıb nəfəs dərmək gərəkdir, əks halda məni özünəvurğunluqda təqsirləndirə bilərsiniz. Bununla belə, ömrünün çiçəklənən dövrünü yaşayan, ağlı və sağlamlığı yerində olan, istedadlı, fiziki təmrinlərin icrasında hamını arxada qoyan, nə kasıb, nə də zəngin, yuxusuzluqdan əzab çəkməyən, özündən, taleyindən razı, ancaq bu xüsusiyyəti yalnız ünsiyyətin nadir və son dərəcə xoş məqamlarında izhar edən bir şəxsi təsəvvürünüzə gətirin. Razılaşın ki, belə bir xoşbəxt adamın həyatı ağır olmamalıydı.

Bəli, bir çoxları mənim göstəricilərimə həsəd apara bilərdi. Heç zaman özümə zülm edib başımı hansısa müşkül üstündə sındırmamışam, həyatı necə var elə – başdan-ayağa, şərbəti və zəhəri ilə birlikdə olduğu kimi qəbul etmişəm. Xüsusi olaraq nəfs, materiya – bir sözlə, dünyada aşiq olan, yaxud tənhalıqda ömür çürüdən insanları dərdə məhkum edən və əhədini kəsən bütün cismani şeylər yel olub yanımdan keçə bilməyib, əksinə, sevinc bəxş edib mənə. Mən, əslində, cismə yiyələnmək məqsədi ilə dünyaya gəlmişəm. Məndə bu yüksək dözümlülük və soyuqqanlılıq elə buradan irəli gəlir; insanların hiss etdikləri və üstəlik, onların yaşamaq ümidini artıran ruhumdakı bu harmoniya da oradandır. Məni onların əzizi edən keyfiyyət bundan başqa bir şey deyildir.

Bəzən yeni tanış olduğum insanlara elə gəlirdi ki, artıq haçansa, haradasa mənimlə görüşüblər, ancaq xatırlaya bilmirlər. Yaşadıqları dramlarla birgə həyat və

insanlar mənim bütün arzularımın çin olmasına yardım edirdilər; mənə ehtiram bəsləyən insanların heyranlığını məmnuniyyətlə qəbul edirdim. Yeri gəlmişkən, az qala, özümü fövqəlinsan saydığım dərəcədə tam sağlam həyat tərzi keçirirdim.

Sadə (atam zabit idi), ancaq yaxşı bir ailədən çıxmışdım, amma bir səhər – indi bunu səmimi-qəlbdən etiraf edə bilərəm – özümü şahzadə hiss etdim. Burada söhbət, yaxşı yadda saxlayın ki, özümü dünyada ən ağıllı adam saymağımdan getmir, əsla! Belə bir özünəgüvənmə heç nəyə yaramasa da, onunla hələ də məzələnən yüzlərcə səfeh var. Yox, yenə də yox... həyat məni bir az ərköyün böyütmüşdü, indi utancaqlıqla olsa da, etiraf edim ki, özüm haqqında yüksək fikirdə idim, sanırdım ki, seçilmişlərdənəm. Elə bir adam ki, qisməti yalnız uğur qazanmaq olmalı idi! Mənim təvazökarlığımın əsl mahiyyəti bundan ibarət idi. Bu uğuru yalnız malik olduğum məziyyətlərimin ayağına yazmaqdan imtina etdim və inana bilmirdim ki, bu kimi müxtəlif məziyyətlərin yalnız bir şəxsdə birləşməsi təsadüfidir. Buna görə də asudə xoşbəxtlik içində yaşayaraq hiss edirdim ki, bu tale payı mənə hansısa ali qüvvələr tərəfindən verilib. Əgər indi qayıdıb sizə desəm ki, Allaha-filana inanmıram, siz belə bir əminliyin təsadüfi olmadığından həyəcan keçirə bilərsiniz. Adi, yaxud qeyri-adi, bütün bu şeylər uzun müddət məni adiliyin fövqündə saxladı, məhz onun sayəsində neçə illər ərzində o zirvədən bir qarış da aşağı enmədim, ancaq günlərin bir günü, daha doğrusu, gecələrin birində... Yox, bu, tamam başqa məsələdir, yaxşısı onu unutmaqdır. Ola bilər ki, məsələni bir az şişirdirəm. Yaşamaq elə gözəl idi, yeni-yeni sevinclərdən doyammırdım. Bir sözlə, bayramdan-bayrama adlayırdım. Elə olurdu, gecələri dayanmadan rəqs edirdim, insanları və həyatı sevirdim, bu sevgi hər gün bir damcı böyüyürdü.

Bəzən, belə dəli-divanə gecələrin birində, gecədən xeyli keçmiş rəqslər, yüngül sərxoşluq, əzginlik, aldığım həzzin ümumi və şiddətli atəşi məni ekstaz vəziyyətinə salır, yorulub əldən düşmüş halda, yorğunluğun sərhədində dayanaraq elə bilirdim, dünyanın və insanların sirrini aça bilərəm. Ancaq səhəri yorğunluq çəkilib gedir, bununla da sirlərin "açarı" itmiş olurdu və bir az sonra kef ovçusuna çevrilirdim. Həmişə dallarınca qaşdığımdan onları tez tapırdım, özümü bilmərrə doymuş hesab etmirdim, harada necə dayanacağımı bilmirdim və həmin gecə, yəni dünən gecə musiqinin qəfildən kəsildiyi, işıqların keçdiyi ana qədər elə beləcə davam etdi. Bu qədər xoşbəxt olduğum bayram... Ancaq icazə verin, dostumuzu rəndələnməmiş adam adlandıraq. Başınızla ona təşəkkür edin, ən əsası – mənimlə içməkdə davam edin, mənimçün bunun böyük əhəmiyyəti var.

Görürəm ki, belə bir bəyanat sizi təəccübləndirir. Ömrünüzdə bir dəfə də olsa, belə bir ürəyiyananlığa, ünsiyyətə və dostluğa möhtac olduğunuz anlar olmayıb? Şübhəsiz ki, olub. Ancaq mən şəfqətlə kifayətlənməyə öyrəncəliyəm. Onu tapmaq çətin deyil, axı bu hiss sizin çiyinlərinizə əlavə yük qoymur. "İnanın, sizə doğrudan ürəyim yanır", – həmsöhbətim deyir, ancaq düşünür ki, bax indi isə başqa işlərlə məşğul ol. "Dərin şəfqət hissini baş nazir də dilinə gətirir, qəzaya düşmüş adama bu sözləri deməyə nə var ki. Dostluq sadə bir hiss deyildir. Bəzən bu, vəzifəyə çevrilir, buna nail olmaq çətindir, ancaq səninlə kiminsə arasında belə bir bağ varsa, cəhd et görüm, ondan necə qurtulursan. İstəsən də bacarmazsan, dözmək lazımdır. Əsası budur ki, dostlarınızın hər gecə sizə telefon açıb bu gün özünüzə qəsd edəcəyinizi, yaxud hansısa məclisdə iştirak edəcəyinizi və ya harasa getmək niyyətində olduğunuzu öyrənmək üçün nəsə soruşacağına ümid bəs-

ləməyin. Yox, sakit olun, həm də tənha olmadığınız gecə və tale üzünüzə güləndə zəng eləsələr... Darıxmayın, onlar özləri sizi intihara sürükləyəcəklər, hesab eləyərək ki, bu, sizin qarşınızda borclarıdır. Şəxsiniz haqqında dostlarınızın belə yüksək fikirlərindən Allah özü sizi qorusun. Bizi sevəsi insanlara gəlincə – mən doğmaları və silahdaşları (ifadəyə bir bax!) nəzərdə tuturam – bu, tamam başqa mahnıdır. Onlar, əlbəttə, sizə nə deyəcəklərini bilirlər: məhz insanı ürəyindən yaralayan sözləri: elə bir görkəmdə telefon nömrələrini yığırlar ki, elə bil, uzaqdan tüfənglə qaşlarınızın ortasını nişan alırlar. Dəqiq də atırlar. Ah, bu snayperlər!

Nə? Həmin gecə haqqında danışmaq?! Bu məsələyə də toxunacağam, bir az səbriniz olsun. Bəli, yeri gəlmişkən, artıq dostlar və silahdaşlardan bəhs edərkən həmin mövzuya çatmışam. Təsəvvür edin ki, mənə deyəndə ki zindanda, ağzıbirdə yatan dostuna ürəyi yanan bir şəxs hər gecə döşək üzərində yox, birbaşa döşəmədə yatırmış, beləliklə, dostunun məhrum olduğu komfortdan könüllü imtina etmişdi. Əziz dostum, bəs bizim yerimizə döşəmədə kimsə yatacaqmı? Mənim özüm bu şəkildə rahatlıqdan imtina edərdimmi? Şübhəsiz ki, nəzəri baxımdan hər şeyin belə olmasını və məhz bu hərəkəti mən də etmək istərdim. İnanmaq istərdim ki, günlərin bir günü biz bunların öhdəsindən gələcəyik və bu, bizim xilasımız olacaq. Ancaq çətini bu məqama yüksəlməkdir, çünki dostluq qeyri-müəyyən bir ifadədir, yaxud ən azından, əl atdıqda tutulası bir şey deyildir. İstəyirsən, amma edə bilmirsən. Ola bilər ki, bütün qəlbimizlə istəmirik; yaxud həyatı o qədər də dərindən sevmirik. Gördünüzmü, ancaq ölüm kif basmış hisslərimizi oyada bilir. Ölümün əlimizdən qopardığı dostları necə böyük məhəbbətlə sevirik! Düzdürmü? Artıq bizimlə kəlmə kəsə bilməyən müəllimlərimizi necə vəcdlə anırıq, çünki ağızlarına

torpaq dolub. Hörmət-izzət öz-özünə doğur, ancaq ola bilər ki, ölənə qədər hər gün bizdən bir tərifli söz eşitmək həsrətində olublar. Dünyadan köçən adamlara münasibətə, bilirsinizmi, niyə belə hörmət və ədalətlə yanaşırıq? Səbəb çox sadədir. Onlara münasibətdə real, gerçək şərait iştirak etmir. İndi azadlıqdakı yerimizi dar eləmirlər, vaxta qənaət eləmədən kokteyl içdiyimiz zaman, yaxud gözəl bir məşuqə ilə görüş zamanı vəcdimizi istədiyimiz şəkildə havaya səpə bilərik. Onların bizi məcbur elədikləri bir şey varsa, o da yaddaşdır, onlar haqqında xatirələrdir, ancaq bu andıra qalmış yaddaş tez-tez ölüb-dirilir, qısaqapanmalar baş verir. Yox, biz ancaq dostlarımızın ölümü ilə bağlı təzə xatirələri sevirik, təzə dərdi, qüssəni – yəni həm də özümüzü!

Bir dostum vardı, həmişə ondan qaçardım: darıxdırıcı birisi olduğuna görə. Xəstələnib ölüm yatağına düşəndə – bəs nə bilmisiniz, o an başının üstünü aldım. Bir gün də yalqız qoymadım onu. Əlimi sıxdı, bu dünyadan məndən razı getdi. Tez-tez, özü də inadla məni öz evinə çağıran zəhlətökən məşuqələrim arasında eləsi var idi ki, gənc yaşında ölməyə mərifəti çatdı. Ölən kimi, bilsəniz, ürəyimdə hansı yeri tutdu! Təsəvvür edin ki, söhbət adi ölümdən yox, intihardan gedir. Aman Allah! Necə əl-ayağa düşdüm. Telefon zəngləri, ürəklər dolub-boşalır, düz ürəyin başından vuran kədərli cümlələr və hətta öz ünvanına ittihamlar.

İnsan belədir, əziz dostum, iki sifəti var onun: özünü sevməsə, heç kəsi sevə bilmir. Qonşularınıza baxın, diqqətlə baxın, birdən kimsə həyatdan gedər. Hər şey öz axarı ilə gedirdi və birdən, məsələn, qapıçı yıxılıb ölür. Bircə dəqiqənin içində hamı oyanır, ətraf çaxnaşır, xəbər aləmi gəzib-dolaşır, hamı qüssəyə batır. Rəhmətlik "öz yerini tutur", nəhayət, tamaşa başlanır. İnsanlar faciə acıdırlar, bu, onların anadangəlmə

şövqüdür, onlar üçün, bir növ, aperitivdir. Yeri gəlmişkən, qapıçının adını təsadüfi çəkmədim. Bizim binada çalışan qapıçı eybəcərin biri idi. Həm də şeytan kimi kinli idi, üst-başından fəlakət yağırdı, ən mülayim xarakterli insanı da təbdən çıxarardı. Nə qədər ki sağ idi, onunla kəlmə kəsməzdim. Təkcə varlığı ilə həyatımı alt-üst edirdi. Ölən kimi dəfninə getdim. İndi soruşun: niyə?

Dəfn mərasimindən qabaq iki gün ərzində çox maraqlı hadisələr baş verdi. Rəhmətliyin arvadı xəstə idi, yataqdan qalxa bilmirdi, qapıçı üçün ayrılan yeganə otaqda yatırdı, tabutu onunla yanaşı uzatdılar. Sakinlər qapıçının poçtunu bu gündən belə özləri götürməyə başladılar. Qapını açır və deyirdilər: “Salam, xanım”, – ərinin ünvanına rəhmət oxuyur, sonra qəzet və məktubları götürüb gedirdilər. Bunda yaxşı nə var ki? Və bir gün sakinlər təntənə ilə içəri keçdilər, hər tərəf fenol qoxuyurdu. Heç kəs öz yerinə xidmətçisini göndərmədi, məhz özləri tamaşadan feyz almaq qərarına gəldilər. Sonra xidmətçiləri də gəldi, ancaq əlavə, bir növ, yer dolduran nəfər kimi. Dəfn günü məlum oldu ki, tabut qapıdan keçməyəcək. “Ah, əzizim, – yataqdakı dul qadın kədərlə zarıldayırdı, – sən necə böyükmüşsən”. “Narahat olmayın, xanım, – dəfn təşkilatçısı cavab verdi, – biz onu yana əyib çıxararıq”. Tabutu bu qayda ilə apardılar, sonra katafalka qoydular. Yalnız mən (bildiyimə görə, rəhmətliklə hər gecə perno gillədən kabare dostu ilə birlikdə) mərhumu qəbiristanlığa qədər müşayiət etdim, bərbəzəyi ilə gözlərimi qamaşdıran tabutun üstünə gül dəstəsi qoydum. Sonra dul qadına baş çəkdim, onun kədərqarışıq təşəkkürnaməsini eşitməli oldum. Siz deyin, bütün bunların səbəbi nədir? Heç nə – yalnız aperetiv...

Köhnədən tanıdığım vəkil dostumu da dəfn etmişəm. Rastlaşanda həmişə əlini sıxdığım adi bir məmur

idi. Yeri gəlmişkən, iş yerində hamının əlini sıxırdım, hətta elə olurdu ki, gündə iki dəfə. Necə deyərlər, belə ucuz vasitə ilə hamının xətir-hörmətini qazanmışdım – bu, sadəcə, ürəyimin rahatlığına bəs edirdi. Qocanın dəfnində vəkillər bürosunun sədrini narahat eləmədik. Bura gəlməyi özümə borc bildim, ancaq ertəsi gün səfərə çıxdım və bunu sonradan nəzərimə çatdırdılar. Bilirdim ki, iştirakım nəzərə çarpacaq və sonradan şərhlər olacaq. Başqa cür necə ola bilərdi. Başqalarını yolundan edən fasiləsiz qar eynimə gəlmədi.

Necə? Siz heç narahat olmayın, mövzudan yayınmaram. Ancaq əvvəlcə icazə verin qeyd edim ki, necə deyim, gümüş dəstəkli, palıd ağacından hazırlanan tabutun üstündə özünü çarmıxa çəkən və beləliklə, başına gələn müsibətin, dərdin çəkilməzliyini ifadə edən qapıçımızın dul qadını, demək olar ki, bir aydan sonra gözəl səsi olan modabazın birinə qoşuldu. Kişi onu döyürdü, dalandarın otağından inilti səsləri gəlirdi, ancaq bədən cəzası qurtarar-qurtarmaz pəncərini açar və sevimli romansını var səsi ilə bağırardı: “Qadınlar, siz necə də gözəlsiniz!” Ancaq necə olmasa da, qonşular qüssələnirdilər. “Bu, nə deməkdir, niyə ah çəkirsiniz?” – soruşsaydınız, görəsən, nə cavab verərdilər? Bir sözlə, ətraf mühit bu baritonun əleyhinə idi. Elədirmi? Elə dul qadının da. Kim sübut eləyə bilərdi ki, onlar bir-birini sevmirdilər? Və kim sübut eləyə bilərdi ki, bu qadın rəhmətlik ərini sevməmişdi? Yeri gəlmişkən, modabaz səsi və yorğun əlləri ilə birlikdə buxarlandıqdan sonra qadın, həm də sədaqətli qadın rəhmətliyi tərifləməyə başladı. Sözün kəsəsi, bir çox təsadüfləri bilirəm ki, ətraf mühit təsəlli tapmayan dul kişi və qadınların xeyrinə işləyir, əslində isə onlar bu dalandarın dul qadınından daha səmimi və sədaqətli deyildilər. Bir adam tanıyırdım ki, ömrünün, az qala, iyirmi ilini bir yüngülxasiyyət qadına vermişdi, demək

olar, hər şeyini onun yolunda qurban vermişdi: dostlarını, karyerasını, ləyaqətini – və günlərin gözəl bir günündə anladı ki, heç zaman onu sevməyib. Birdən yalquzaq kimi darıxdı. Bu gündən sonra özünə bütün mürəkkəb həyəcanlardan və canüzücü dramlardan arınmış süni bir həyat qurdu. Haçansa nə isə baş verməlidir – bax insan konfliktlərinin əksəriyyətinin izahı belədir. Günlərin bir günü lazımdır ki, qeyri-adi nəsə baş versin, qoy lap köləlik olsun, sevgili dalınca sürünən kölə həyatı, yaxud müharibə, yaxud ölüm. Yaşasın dəfnlər!

Bəli, mənim də əlimdə belə bir bəhanə yox idi. Darıxmaq nədir, allahlıq edirdim. Heç zaman olmadığı kimi bir balaca darıxdığım həmin gecə "qeyri-adi nəyinsə baş verəcəyinin" həsrətində deyildim, əsla! Ancaq... Əzizim, təsəvvür edin, bəli, Sena çayının üzərinə yaylıq kimi sərin payız gecəsinin necə düşdüyünü gözünüzün önünə gətirin: bir az isti olsa da, artıq soyumuş, nəm, rütubətli... Qaş qaralır, qərbdə səma hələ ki qızılı rəngə çalır, ancaq bir azdan qaralacaq, fənərlər tutqun işıq saçacaq. Sahilboyu sol tərəflə Sənət körpüsünə doğru gedirdim. Bağlı bukinist dükanlarının arasından çayın işıltısı gözə dəyirdi. Sahildə adam az idi. Parislilər artıq şam yeməyinə əyləşmişdilər. Hələ də yayı xatırladan sarı və tozlu yarpaqların arasıyla addımlayırdım. Səmada tək-tük ulduzlar parlayırdı, bir az o tərəfə keçən kimi onları açıq-aydın seyr edə bilərdin. Səssizliyin içində üzürdüm, sərin axşam və insanların olmaması mənə ləzzət verirdi. Artıq keçməkdə olan günüm pis olmamışdı: kor bir kişiyə yolu keçməkdə kömək etdim, müdafiə etdiyim şəxsin hökmünün yüngülləşdirilməsinə ürəyində bir ümid işığı yandı, hərarətlə əlimi sıxdı; xırım-xırda işlərdə səxavət kisəsinin ağzını geninə-boluna açdım, nahardan sonra dostlarımın məclisində bədahətən elə bir nitq irad

elədim ki, bununla hakim sinif və elitanın ikiüzlülüyünə son qoydum.

Günün bu saatında bomboş olan Sənət körpüsündən qəsdən keçirdim; ayaq saxladım, məhəccərə söykəndim: getdikcə qalınlaşan toranlıqda çaya tamaşa etməkdən doymurdum. Qoca arvadbazın (IV Henrixin ayamalarından biri) heykəli ilə üzbəüz dayandım, ada ayaqlarımın altında idi. Bir anlığa özümü çox güclü hiss etdim və necə deyərlər, dünyanın bütün gücü, sanki, ürəyimə dolurdu. Qəddimi düzəltdim, məmnunluq məqamlarında olduğu kimi, siqaret çəkmək keçdi könlümdən, birdən kürəyimin arxasında kimsə möhkəm güldü. Təəccüblə geri çevrildim – kimsəni görmədim. Gəmi yan alan hissəyə yaxınlaşdım, burada nə barj, nə də qayıq gözə dəyirdi. Əvvəlki yerimə – adaya qayıtdım, bir daha kürəyimin arxasından gülüş səsləri ucaldı, ancaq əvvəlkindən bir az geridə, elə bil, bir balaca aşağı, çaya tərəf enmişdi. Yerimdə donub-qaldım. Gülüş səsləri azalsa da, onu hələ də arxamda hiss edirdim. Haradan gəlmişdi? Heç yerdən. Sudan başqa haradan gələ bilərdi. Ürəyimin partlayacağını hiss edirdim. Bu gülüş səsində sirli-sehrli heç nə yox idi, o qədər aydın və təbii idi ki, elə bil, hər şeyi yerbəyer eləyən bir dost qınağı idi. Yeri gəlmişkən, bir azdan kəsdi, bir daha eşitmədim. Sahilboyu addımladım, Dofina küçəsinə buruldum, lazım olmadığı halda siqaret aldım. Axşam dostuma zəng elədim, evdə yox idi. Harasa getmək istəyirdim, birdən pəncərənin altından gülüş səsləri qalxdı. Pəncərəni açdım. Doğrudan da, səkidə kimsə gülürdü: tanımadığım gənclər şaqqanaq çəkirdilər, əl verib ayrılır və bərkdən gülürdülər. Çiyinlərimi çəkib pəncərəni bağladım, içində materiallar olan qovluq məni gözləyirdi, bir az işləməliydim. Vannaya girdim, bir stəkan su içdim. Güzgüdə üzümə baxdım: gülür, ancaq nədənsə, mənə saxta gülüş təsiri bağışladı.

Necə? Üzr istəyirəm, başqa şeylər haqqında fikirləşirdim. Şübhəsiz ki, sabah görüşəcəyik. Ən yaxşısı odur ki, sabah. Yox, yox, bu gün qala bilmərəm. Həm də bu gün əyripəncə ayı məni məsləhətə çağırır. Demək olar ki, abırlı adamdır, ancaq polis adət etdiyi mənfur vərdişlərdən dolayı onunla öcəşməyi xoşlayır. Fizionomiyası ilə qatilə oxşayırmı? Bədəni peşəsinə uyğundur. Doğrudan da, qarətçidir və desəm ki rəssamlıqdan əməlli-başlı başı çıxır və rəsm əsərlərinin satışı ilə məşğuldur, onda gərək təəccüblənməyəsiniz. Hollandiyada bütün insanların rəssamlıqdan və zanbaqdan başı çıxır. Ciddi görkəminə baxmayaraq, bu adam ən dəhşətli qarətlərin birinə imza atıb. Rəsm əsərini oğurlayıb. Hansını? İndi deyəcəyəm. Bunu da bildiyimə təəccüb etməyin. Hakim olmağıma baxmayın, mənim də maraq dairəm var: bu cəsur adamlara hüquqi xidmətlər göstərirəm. Uzun illər ölkənin qanunlarını öyrəndim və bu məhəllədə öz müştərilərim var – onlarla rastlaşanda diplomu gözə soxmaq lazım deyil. Əvvəllər işim bir elə asan deyildi, axı insanlara inam aşılamaq çətindir. Güləndə elə təmiz və ürəkdən gülürəm ki, adamların əllərini elə hərarətlə sıxıram ki: bilsəniz bunlar nə böyük üstünlük deməkdir! Bundan başqa, onlara bir sıra dolaşıq işlərdə yardım etdim, bunları təkcə qazanc məqsədi ilə yox, həm də peşə sevgisinə görə elədim. Baştutanlar və oğrular hər yerdə və hər zaman ciddi cəzalara məruz qalarlarsa, onda, necə deyərlər, yerdə qalan təmiz insanlar özlərini, əzizim, günahsız hiss edərlər. Bir az səbrinizi basın, məsələnin mahiyyətinə az qalır, ancaq çatdığımız yerdəcə qaçmaq lazımdır. Əks halda hər şey nə qədər gülünc görünərdi.

Doğrudan da, əziz həmyerlim, göstərdiyiniz maraqdan dolayı sizə çox minnətdaram. Ancaq mənim həyat tarixçəmdə bir elə qeyri-adi xronika yoxdur. Ancaq sizi

maraqlandırırsa, yadda saxlayın ki, bu gülüşü çox qısa müddət ərzində beynimdə dolandırsam da, sonra unutdum.

Arabir gülüş səsinin haradansa sızdığını hiss edirdim. Ancaq necə olurdusa, diqqətim başqa şeylərin üzərində cəmləşirdi.

Lakin bunu etiraf etməliyəm ki, dəniz kənarına bir daha ayaq basmadım. Təsadüfən oradan taksi, yaxud avtobusla keçəndə gözümdə bir anlığa hər şey donurdu. Ancaq körpüdən sakitcə keçirdik, heç nə baş vermirdi, buna görə rahat nəfəs alırdım. Söz vaxtına çəkər, o vədə səhhətimdə problemlər vardı. Ciddi bir şey yox idi, yəqin ki, sadəcə, içimdə əzginlik hiss edirdim, güclə, nə qədər səy göstərsəm də, əhvalım yerinə gəlmirdi. Həkimlərə üz tutdum, baxıb-baxıb bəzi möhkəmləndirici dərmanlar yazdılar. Bir az düzəlirsən, sonra yenə də yorulursan. Həyat tamını itirmişdi: haçansa hansı xəstəlik bədəninə yol tapsa, ürək qüssədən üzülür. Artıq heç zaman bacarmadığım bir şeyi öyrənə bildim – yaşamağın çəmini tapmışdım. Hər şey elə bundan başlandı.

Bilirsinizmi, bu gün axşam formada deyildim. Nəsə demək istəyəndə dilimi tərpətməyə can çəkirdim. Yəqin ki, günahkar hava idi. Nəfəs almaq olmurdu, hava o qədər ağır idi ki, sinəm sıxıldıqca sıxılırdı. Əziz həmyerlim, gəlsənə gəzintiyə çıxaq, şəhəri bir balaca gəzib-dolaşaq? Etiraz etmirsən ki? Sağ ol!

Əvvəllər kanallar necə gözəl görünürdü, yadındadırmı? Külək bu sakit suların üstü ilə şütüyəndə, bilsən, ürəyim necə açılardı! Arabir kanala düşən yarpaqlar və gül-çiçəklə bəzədilmiş kiçik motorlu qayıqlar hərəkət etdikcə dəfn qoxusu ətrafa yayılardı. Yox, başqa cür anlamayın, mənim bu qoxulara qarşı sevgimdə xəstə bir şey axtarmayın. Sadəcə, şüurlu şəkildə buna özümü öyrəşdirməyə çalışıram. Doğrusunu desək, özümü

Amsterdam kanallarından həzz almağa alışdırmaq zorundayam. Ancaq bu dünyada hər şeydən çox Siciliya adalarını sevirəm: Etnanın zirvəsindən baxanda, bilsəniz, necə gözəl görünür, tam işığa bələnib; bütün adanı və dənizi göz dolusu görə bilirsən. Hava da yaxşıdır, ancaq passat küləkləri əsəndə. Bəli, gəncliyimdə oralarda olmuşam. Ümumən adaları sevirəm. Orada hər şey gözəldir.

Baxın, necə gözəl evdir. Bax, orada gördüyünüz iki abidə zənci qulların başıdır. Lövhə. Ev qul alverçisinindir. Bilirsinizmi, o zamanlar oyunlar açıq oynanılardı. İşbazlar cəsur idilər. Utanıb-eləmədən deyirdiniz: "Bu, mənim evimdir, varlıyam, qul alverçisiyəm, qara bədən satıram". Bilmirəm təsəvvür edə bilərsinizmi ki, bu gün kimsə hamının qarşısında desin ki, bu işlə məşğuldur?! Aləm dağılardı! Parisdə həmkarlarımın nə edə biləcəklərini, az da olsa, təsəvvür edə bilirəm. Bu məsələlərdə onları susdurmaq mümkünsüzdür, dərhal iki-üç manifest imzalayıb aləmi başlarına toplamışdılar. Bir az düşündükdən sonra elə özüm də onu imzalayardım. Quldarlıq? Köləlik? Yox, yenə də yox! Əleyhinəyik! Bu kimi işlərlə də qürrələnmək olar? Əsl biabırçılıqdır!

Başa düşürəm ki, ağa və qul zümrəsi olmadan da keçinmək mümkün deyil. Kölə hər bir insana hava və su kimi lazımdır. Çünki nəfəs almaq qədər elə əmr vermək də əhəmiyyətlidir. Mənimlə razısınızmı? İş elə gətirir ki, məzlumun birinə də qışqırmalı olursan. Sosial iyerarxiyanın axırıncı pilləsində qərar tutan insanın əlində ailə və ya valideynlik hakimiyyəti olur. Subaydırsa, ən azı, itinə əmrlər verə bilər. Ümumiyyətlə, əsas odur ki, qəzəblənirsən, bunun müqabilində heç kəs sənə cavab verə bilmir. "Atanın üzünə qayıtma". Bu tələbdən xəbəriniz varmı? Hər halda, qəribə tələbdir. Sevdiklərimiz istisna olmaqla bu dünyada kimə cavab qaytara bilərik? Ancaq məlum kontekstdə bu, doğru qaydadır.

Bütün hallarda son sözü kimsə deməlidir. Kimə bir söz deyirsən, ikisini qaytarır, mübahisə bitmir ki, bitmir. Hakimiyyət elə şeydir ki, istənilən öcəşməni kökündən kəsir. Bu kimi şeyləri, bir az vaxt aparsa da, nəhayət, anlaya bildik; məsələn, özünüz də əmin oldunuz – bu qoca Avropa da lazım olan şəkildə fikir yürütməyi öyrəndi. Hələ əvvəlki sadəlövh zamanları demirik: "Bax mən belə düşünürəm, elə yox, məhz belə. Etirazınız varmı?" Bir az, deyəsən, ayılmışıq. Dialoqu ünsiyyətlə əvəz etmişik: "Həqiqət budur. Onunla razılaşmaya da bilərsiniz, bu, məni heç maraqlandırmır. Ancaq bir neçə ildən sonra işə polis müdaxilə edəcək və mənim haqlı olduğumu görəcəksiniz".

Ah, əziz planetim! Burada indi hər şey gün işığı kimi aydındır. Biz bir-birimizi tanıyırıq, hər kəsin nəyə qadir olduğunu anlamışıq. İstəyirsən, özümü misal gətirim (yalnız mövzunu dəyişməməklə). Həmişə ürəyimdən keçib ki, üzümə gülümsəsinlər. Ev qulluqçusunun görünüşündə bir balaca kədər olubsa, mənim də ovqatım təlx olub. Şübhəsiz ki, o da insandır, kədərlənmək halal haqqıdır, ancaq məncə, bu qadın ağlaya-ağlaya deyil, gülümsəyərək xidmət göstərməlidir. Halbuki bunun mahiyyətcə onun özünə deyil, mənə faydası toxunardı. Ancaq lovğalığı kənara qoyub deməliyəm ki, bu yöndə düşüncələrim səfehlik deyildi. Daha bir misal – həmişə Çin restoranlarında nahar eləməkdən imtina etmişəm. Niyə? Ağ asiyalıların hüzurunda – bilirsənmi, onlar susduqda çox şübhəli görkəm alırlar. Bəlkə də, stol arxasında bizə qulluq etdikləri zaman da həmin şübhəli görkəmlərini saxlayırlar. Özünüz deyin, belə bir yerdə cücə yeməkmi olar, ən əsası isə yemək yeyə-yeyə sarıdərililərdən yüksək olduğun haqqında düşünəsən?

Bir sözlə, öz aramızda qalsın, köləlik, özü də gülümsəyən köləlik zəruri bir şeydir. Ancaq biz onu gizlətməliyik. Qullarsız keçinə bilmiriksə, onları azad insan

adlandırmaq daha yaxşı olmazdımı? Əvvəla, prinsip etibarilə, ikincisi, onları acıqlandırmamaq üçün. Axı necə, hansı yollasa onları kompensasiya etməliyik, elə deyilmi? Belə olarsa, həmişə üzümüzə güləcəklər, ürəyimiz rahat olacaq. Əks halda işimiz ağır olacaq: içimiz-içimizi yeyəcək, ağır fikirlər başımızı xarab edəcək. Bildiriş-filana ehtiyac yoxdur. Üstündə zənci başının təsviri olan həyasız lövhə, sadəcə, biabırçılıqdır. Ümumiyyətlə, yeri gəlmişkən, hər kəs açıq danışmaq qərarına gələrsə, əsl peşəsini və şəxsiyyətini açıqca bildirərsə, xəcalətdən aləm batar. Təsəvvür eləyin üzərində aşağıdakı sözlərin yazıldığı vizit kartını: “Düpon, filosof və qorxaq”, yaxud “tamahkar və xristian” və ya “humanist və zinakar”. Seçim çoxdur. Ancaq belədə əsl cəhənnəmi görərdik. Bəli, cəhənnəmdə elə belə də olmalıdır: küçələrdə lövhələr asılıb, burada heç bir izaha ehtiyac yoxdur. Sinəndəki yarlıq əbədilik asılıb. Sizsə, əziz həmyerlim, düşünün ki, sizin yarlığınız necə olsun. Susursunuz? Eybi yoxdur, sonra cavab verərsiniz. Ancaq nə gizlədim, öz yarlığımı bilirəm: “İkiüzlü. Riyakar”. Yuxarıdan belə bir şüar gedir: “Ona inanmayın”. Vizit kartında isə bu sözlər yazılacaq: “Jan-Batist Klamans, hoqqabaz”. Bayaq haqqında danışdığım o gecədən sonra mənim davranışımda nəsə yeni şeylər peyda oldu. Səkinin kənarında kor adamdan ayrıldıqdan sonra – ona yolu keçməkdə kömək etmişdim – şlyapamı çıxarıb kora təzim etdim. Şübhəsiz ki, təzim kor üçün edilməmişdi, axı o, məni görə bilməzdi. Bəs kimin üçün? Camaat üçün. Rol oynanılır, aktyor təzim edir. Pis deyil, eləmi? Qəza zamanı yardım göstərdiyimə görə mənə təşəkkür edən avtomobilin sahibinə dedim ki, kimsə mənim qədər əziyyət çəkə bilməzdi. Cümlənin mənası bu idi ki, kimsə mən eləyəni eləməzdi. Belə bir kəsif cümlə ürəyimi sıxdı. Axı ümumi qənaətə görə, mən çoxlarından fərqlənirdim.

Əsl həqiqətdə isə, etiraf edim ki, əziz həmyerlim, şöhrətpərəstlik ürəyimi dağıdırdı. “Mən, mən, yenə də mən!” – həyatımın leytmotivi bundan ibarət idi. Lovğalıq etmədən keçinə bilmirdim, ancaq üzümə ciddilik ifadəsi verib nə qədər desən lovğalana bilərdim, çünki sənətimin adı bu idi. Düzdür, həmişə firavan yaşamışam, həmişə də gücümü hiss etmişəm. Ancaq birdənbirə digər insanlar qarşısında özümü azad, öhdəlik daşımayan kimi hiss etməyə başladım; səbəb çox sadə idi, özümü elə əvvəlcədən hamıdan ağıllı sayır, həm də hesab edirdim ki, hissiyyatım digər insanlarla müqayisədə daha güclüdür; məsələn, əla atıcı idim, avtomobili qüsursuz idarə edirdim, mükəmməl məşuq idim. Hətta digər şəxslərdən açıq-aşkar geri qaldığım müəyyən sahələrdə, məsələn, tennis kortunda bir an olsun belə fikrimdən çıxara bilmirdim ki, məşqə bir az vaxt ayırsam, bu sahədə hazırkı çempionu məğlub edə bilərəm. Özümdə yalnız mükəmməl keyfiyyətləri görürdümsə, demək, özündənrazılığı və mükəmməl qəlb sakitliyimi məhz bununla izah edə bilərdim. Yaxınlarıma diqqət ayırmalı olduğum halda da bu yalnız iltifat xətrinə edilirdi, hər hansı məcburiyyətdən söz gedə bilməzdi və buna görə də daha çox tərifə haqq qazanırdım və özümə məhəbbətdə daha yüksək zirvələr fəth edə bilərdim.

Bütün bu həqiqətlər və digərləri az və ya çox dərəcədə artıq sizə danışdığım həmin unudulmaz axşamdan sonra özünü göstərməyə başladı. Heç də birdənbirə yox və əvvəlcə heç də qabarıq şəkildə olmadı. Əvvəlcə lazım idi yaddaşım özümə qayıtsın. Əvvəllər təəccüblü dərəcədə hər şeyi unuda bilməyim həyatımı sakit axara qoşa bilirdi. Hər şeyi, lap irəlicədən öz qərarlarımı yaddan çıxarırdım. Müharibələr, intiharlar, məhəbbət faciələri, insanların səfalət içində çapalamağı – bütün bunlar o dəqiqə yaddaşımdan çıxırdı. Şüb-

həsiz, hərdən kimsə bunları yadıma salmaq istəyəndə iltifat xətrinə üzdən gedəsi olurdum. Gündəlik həyatıma yad olan, onunla heç bir ilgisi olmayan şeyləri hərdən ürəyimə salırdım. Ancaq günlərin bir günü mahiyyətcə ona laqeydləşirdim, amma azadlığımın küncə sıxışdırıldığı müəyyən halları istisna etməklə. Buna nə ad verəsən? Hər şey sürüşüb gedirdi. Bəli, hər şey ürəyimin üstüylə sürüşüb gedirdi.

Ədalətli olaq: elə olurdu ki, unutqanlığım tərifə layiq görülürdü. Bilirsinizmi, elə insanlar var ki, aid olduqları dinin tələblərinə görə hər kəsin günahından keçməlidirlər və doğrudan da, incikliyin üstündən keçirlər, ancaq bunu bilmərrə unutmurlar. Mən isə heç də kimisə bağışlamağa meyilli deyildim, ancaq hər şeyi tez unudurdum. Haçansa məni təhqir eləyən şəxs, bəlkə, özlüyündə düşünür ki, rastlaşanda onu görməzliyə vururam, ancaq günlərin bir günü təəccübdən boğula bilər; belə ki, qarşısına çıxıb əlini sıxar və onu bağrıma basa bilərəm. Belə olduqda, xarakterindən asılı olaraq, sinəmdə nə boyda ürək daşıdığımı düşünüb sevinər, yaxud ən pis halda qorxaqlığıma nifrət edər, yadına da düşməz ki, bunun çox sadə bir səbəbi var: adını belə unutmuşam onun. Ürək genişliyim belə bir anadangəlmə qüsurla izah edilə bilərdi ki, bu, məni insanlara münasibətdə nankor və laqeyd eləmişdi.

Beləliklə, günlər keçir, bu lənətə gəlmiş "mən" heç cür ağlımdan çıxmırdı. Ovladığım qadınların sırası sıxlaşırdı, günlər keçirdi, qazancım bu olurdu: xeyirxah çıxışlar və əxlaq pozğunluğu, bir sözlə, it kimi yaşayırdım. Ancaq hər gün özümə münasibətdə məhəbbətim bir az da şiddətlənirdi və necə deyərlər, ayaqlarım üstündə möhkəm dayanırdım. Həyat beləcə keçirdi, necə deyim, üzdən heç nə gerçək deyildi, hər şey sözdə idi. Nə qədər kitab olsa da, bircəciyini də vərəqləməmişdim, nə qədər dostlarım olsa da, ürəyimin bircə

zərrəciyini də onlara qıymamışdım, nə qədər qadın olsa da, ani və ötəri idi hamısı. Darıxdığımdan nə qədər əyləncələr düşünüb tapırdım. Qadınlar, canlı insanlar ardımca gəlirdilər, birtəhər məndən yapışmaq istəyirdilər, ancaq heç nə edə bilmirdilər. Onları tez unudurdum. Yadımda qalan yalnız özüm idim.

Yavaş-yavaş yaddaşım özümə qayıdırdı. Yox, mən özüm ona sarı döndüm, çoxdan yolumu gözləyən xatirələr dirildi. Ancaq bu barədə danışmazdan qabaq, icazə ver, əziz həmyerlim, bir neçə misal gətirim (inanıram ki, sizin üçün faydalı olacaq) – axtarışlarım zamanı rastlaşdığım hadisələrdir bunların hamısı.

Günlərin bir günü maşın sürürdüm və ani olaraq starteri bir az gec basdım, yaşıl işıq yananda bizim tələskən həmvətənlərimiz gurultu saldılar, qara-qışqırıq qopardılar və bu dəmdə elə bu cür şəraitdə başıma gələn hadisə yadıma düşdü. Eynəkdə və qolf şalvarında arıq və cılız bir oğlanın idarə etdiyi motosiklet məni ötüb-keçirdi. Keçməyi bir tərəfə, sonra qarşıma keçdi, qırmızı işıqda sürüb getdi. Motosikletçi mühərriki söndürdü, yandırmaq istədikdə alınmadı, var gücü ilə onu yenidən işə salmaq istədi. Yaşıl işıq yandı. Özümə xas nəzakət və incəliklə motosikletçidən xahiş edirdim: “Maşınınızı bir az yana çəkin, zəhmət olmasa, qoyun keçim”. Bu balacaboylu adam isə hirsləndi, nəfəsini içinə çəkən mühərriki təpikləməyə başladı. Və Parisdə oturuşmuş bütün nəzakət qaydalarına uyğun şəkildə cavabımı verib, buradan itilib getməyimi tələb edirdi. Mən yenə də nəzakətlə israr etdim, ancaq bu dəfə səsimdə narazılıq çalarlarını da görməmək olmazdı. Cavabında nə eşitsəm yaxşıdır: “Səni yaxşıca kötəkləmək lazımdır”. Arxamdan isə səbirsiz uğultu gəlirdi. Belə olduqda motosikletçidən özünü yaxşı aparmağı tələb etdim və küçə hərəkətinə mane olduğunu nəzərinə çatdırdım. Hirslənib özünü itirmiş adam mühərri-

kin qımıldanmamasından kükrəyərək dedi ki, şillə-şapalaq istəsəm, o, bunu məmnuniyyətlə edə bilər. Belə bir sinizm məni qəzəbləndirdi, avtomobildən düşdüm: bu kobud adamın qulağını dartacaqdım. Özümü qorxaq-filan hesab eləmirdim, rəqibimdən bir baş hündür idim, dəmir kimi əzələlərim həmişə sözümə baxmışdı. İndi də düşünürəm ki, bu axmaq gədə yox, məhz mən hövsələsizliyə yol verdim. Küçənin döşənmiş hissəsinə çıxanda ətrafımı insanlar bürümüşdü, aralarından hansısa tip çıxıb bağırdı ki, mən sonuncu əclafam və motosikletindən düşə bilməyən və buna görə də dalaşmaq üçün namünasib vəziyyətdə olan adamı vurmağa qəti yol verməz. Bu muşketyora sarı çevrildim, ancaq doğrusunu deməli olsam, nə qədər çalışsam da, üzünü görə bilmədim. Başımı azca döndərmişdim ki, motosiklet bütün gücü ilə şaqqıldadı, motosikletçi bütün gücünü toplayıb qulağımın dibinə bir yumruq ilişdirdi. Nə baş verdiyini anlamağa çalışırdım, o isə çoxdan çapıb getmişdi. Özümü itirmiş halda qeyri-iradi həmin o d'Artanyana sarı çevrildim. Burada bir konsert başladı ki, gəl görəsən – arxamca avtomobil qatarı düzülmüşdü. Yenə yaşıl işıq yandı, bayaq üstümə şeşələnən həmin səfehin qulaqlarını çəkmək əvəzinə pərt şəkildə avtomobilimə mindim və çıxıb getdim, bu an o adam dilini dinc saxlamadı: “Nə oldu, yedin?” – üstündən illər keçsə də, bu təhqiri yadımdan çıxara bilmirəm.

Deyə bilərsiniz ki, bu, mənasız bir işdir. Bəlkə də, belədir. Əhəmiyyətli olan budur ki, unuda bilmirəm. Doğrudur, bu hadisə ilə bağlı nəzərimdə yüngülləşdirici hallar da vardı. Məni, sözün açığı, döymüşdülər, mənsə borclu qalmışdım, ancaq kimsə məni qorxaqlıqda təqsirləndirə bilməz. Birdən yaxalanmışdım, dörd tərəfdən üstümə cummuşdular, başımda hər şey bir-birinə qarışmışdı, siqnallar düşünməyə aman vermirdi.

Özümü elə bədbəxt hiss eləyirdim ki, elə bil, haçansa şərəfsiz hərəkətə yol vermişdim. Hər şey yadımda idi – heç bir təhqirə cavab vermədən avtomobilə minməyim, alçaldılmağımdan ilhama gələn ətrafdakı hərcayi insanların təkəbbürlü baxışları altından keçirəm, özü də açıq-boz kostyum, deyəsən, heç məni tutmurdu. Hər şeyi eşidirdim: "Yedin, hə?" – nə deyim, vəziyyətlə bağlı çox düzgün mövqe idi bu. Gülünc vəziyyətə düşdüm, qorxudan geri çəkildim. Sözün açığı, şərait belə idi. İndi handan-hana o dəmdə nə etmək lazım olması ətrafında min cür variant qururdum. Xəyalımda qısa boksçu zərbəsi ilə d'Artanyanı vurub əzişdirirəm, avtomobilə sarı cumuram, qulağımın dibinə zərbə vuran o küçüyün dalınca qaçıram, yaxasından yapışır, motosikletini səkiyə tullayıram, bu həyasız adamı kənara çəkirəm və layiq olduğu payı verirəm. Bu qısametrajlı filmi dəfələrlə xəyalımda çevirirəm. Ancaq qatar keçib-getdi, artıq gecdir. Bir neçə gün qanım it qanına dönmüşdü.

Yenə yağış yağır. Küçə qapısının altında dayanaq. Əla. Harada qalmışdıq? Hə, ləyaqətin müdafiəsində. Bəli, başıma gələn hadisəni xatırlayarkən onun əsl mahiyyətini anladım. Arzularım isə gerçəkliyin qarşısında davam gətirmədi, dağılıb getdi. İndiyə qədər hesab eləyirdim ki, əməlli-başlı adamam, yeri gələndə publikanı həm insan, həm də peşəkar kimi özümə hörmətə məcbur edə bilərəm. Serdan və Qoll kimi. Qısası, harada olsam, baş olmaq keçərdi könlümdən. Buna görə də var gücümlə özümü bəyəndirməyə çalışır, daha çox fiziki zirəklik nümayiş etdirirdim. Ancaq hamının gözü qarşısında qulağımın dibini qızardanda və mən onlara cavab verə bilməyəndən sonra özüm haqqında əvvəlki fikirləri yaddan çıxarırdım. Əgər, doğrudan da, həqiqət və ağlın xidmətində olsaydım, bu mənasız hadisə heysiyyətimə toxuna bilərdimi?!

Belə xırım-xırda məsələdən ötrü pərt olmuşdum, qəzəb atını minib köndələn çapırdım və səbirsizliyimin nəticələri ilə haqq-hesabı çürüdə bilmirdim. Əvəzində isə təhqir edən adamdan qisas almağa, onunla döyüşüb ayağımın altına salmağa meyillənirdim. Aydındır ki, mən yer üzündə ən ağıllı və ən xeyirxah varlıq olmaq iddiasında deyildim, yalnız bircə bunu istəyirdim: bu yolda ən primitiv üsulların quyruğundan yapışası olsam da, bu dünyada ən güclü olmaq istəyirdim. Axı həqiqətdə də, hər bir intelligent qanqster olmağı arzulayır (bunu siz yaxşı bilirsiniz), həm də daha irəli gedərək cəmiyyət üzərində hökm-fərma olmağı diləyir – onun üçün bu yolda mümkün vasitə zordur. Ancaq bu, təsəvvür edildiyindən dəfələrlə çətindir, bəzi romanlarda bizim dediyimiz xəyalpərəstlər siyasətə atılır və çalışırlar ki, ən mübariz partiyanın sıralarında olsunlar. Bu üsulla dünyanı çənginə keçirə bilsən də, mənəvi düşkünlüyün qeydinə qalmağın heç yeri deyil. Beləliklə, ürəyimdə bir müstəbidə yol açmağa başladım.

Özüm üçün qəti şəkildə yəqinləşdirdim ki, heç kim yox – elə müstəbidəm, cinayətkarların, müttəhimlərin tərəfindəyəm, çünki onların törətdiyi cinayətlərin mənə isti-soyuğu yox idi. Onların təqsiri sinəmdəki bütün qanadlı sözlərə ruh verdi, ona görə ki, onların qurbanı deyildim. Əgər günlərin bir günü mənim üçün təhlükə törətsəydilər, təkcə onların hakimi olmaqla kifayətlənməz, eyni zamanda ən qəddar başkəsən olardım, nəyin bahasına olsa da, onları qanundankənar elan edərdim, nələr eləməzdim: cəza verər, incidər, bütün həyatlarını darmadağın edərdim, bir sözlə, diz üstə çökdürərdim. Əzizim, belə bir şəraitdə ədalət yolunda xidmət edəcəyin üçün içdiyin anda əməl eləmək heç də asan iş deyil.

Getdikcə yağış güclənir, demək, kifayət qədər vaxtımız var, yaddaşımda eşələnərkən bu düşüncələrdən

sonra etdiyim yeni kəşf haqqında sizə danışmaq üçün, bilsəniz, necə tələsirəm. İcazə verirsinizmi talvarın altındakı skamyada oturaq? Artıq neçə yüz ildir hollandlar trubka çəkərək eyni mənzərəyə baxırlar: yağışın necə kanala süzüldüyünə tamaşa edirlər. Sizə bir az mürəkkəb hadisəni nəql etmək istərdim. Bu dəfə söhbət bir qadından gedəcək. Əvvəla, bilməlisiniz ki, qadın məsələsində həmişə qalib olmuşam, hətta elə hallar olub ki, özüm elə böyük səy göstərməmişəm. Demirəm ki, onları xoşbəxt eləmişəm, yaxud əksinə, qadınlar başıma tac qoyublar. Sadəcə, bu sahədə uğur qazanmışam. Haçan qadın arzulamışam, heç bir çətinliksiz istəyimə nail olmuşam. Təsəvvür edin, qadınlar məndən ötrü can verirdilər, məni cazibədar sayırdılar. Cazibənin nə demək olduğunu bilirsinizmi? Bu, elə bir duyğudur ki, heç nə soruşmadığın halda sənə deyiləcək "hə"ni qabaqcadan bilirsən. O zaman vəziyyət elə belə idi. Yəqin ki, bu, sizi təəccübləndirir. Doğrudanmı? İnkar etməyin. Sir-sifətimin indiki vəziyyətində təəccübünüz tam yerinə düşür. Bəli, yaş ötdükcə hər bir insan məhz layiq olduğu görünüşü alır. Mənim sirsifətim... fərqi yoxdur, fakt faktlığında qalır: vaxtında mən cazibəli idim və buna görə uğur qazanırdım.

Mən heç bir strateji plan qurmurdum, ürəyimdən necə keçirdisə, elə hərəkət edirdim. Qadınlara münasibətim tam təbii və səmimi idi; necə deyim, qeyri-iradi. Heç bir biclik işlətmirdim. Ümumi qəbul edilən ifadə ilə söyləməli olsam, onları sevirdim, açıqlaması budur ki, heç birini sevmirdim. İndiyə qədər tanıdığım bütün qadınları vulqar və səfeh hesab edirdim. Sözdə isə onları özümdən yüksəklərə qaldırırdım, ancaq nədənsə, həmişə onların xidmətindən istifadə edirdim, əl-qolumu heç nəyə bulaşdırmadan.

Şübhəsiz ki, həqiqi məhəbbət istisnadır, yüz ildə iki-üç dəfə olur. Əksər hallarda isə məhəbbət elə şöh-

rət düşkünlüyünün və ya ürək sıxıntısının bir təzahür formasıdır. Mənə gəlincə, istənilən halda "Portuqal rahibəsi"nin qəhrəmanı deyiləm. Ürəyim daşdan da deyil, əksinə, o qədər incədir ki, istənilən zaman ağlaya bilərəm. Ancaq mənim ürək çırpıntılarım və mütəəssirliyim elə özümə qarşı istiqamətlənir. Ancaq demək də olmaz ki, heç zaman sevməmişəm. Yox, ömrümdə cəmi bircə dəfə dəhşətli sevgiyə düçar oldum – özüm-özümü sevdim, özü də dəlicəsinə. Əgər bu nöqtədən yanaşsaq, cavan yaşlarında təbii və qaçılmaz olan çətinliklərdən sonra məsələnin mahiyyətini dərhal anladım: mənim sevgi həyatımda hər şeyi hissiyyat, ancaq hissiyyat həll edirmiş. Axtardığım ancaq həzz idi. Yeri gəlmişkən, içimdəki komplekslər də bu işdə yardımçım olurdu. Bununla o qədər qürrələnmişdim ki, indi artıq hansına görə – həzzə, yaxud etibara görə sevinmişdim? Siz, yəqin ki, bu vəziyyətdə deyərdiniz ki, yenə lovğalığım tutdu. Adı qoy lovğalıq olsun, qürrələnməyə heç nə yoxdur, çünki hər şey həqiqətin özüdür.

İstənilən halda hissiyyatım o qədər güclü idi ki, on dəqiqəlik kefə görə ata-anamın sözünə baxmazdım, sonra isə acı-acı ağlaya bilərdim. Gör bir nələr danışıram! Əsas olan bu on dəqiqəlik eyş-işrətdir, sonrası nə ola-ola. Şübhəsiz ki, mənim də əxlaqi prinsiplərim vardı, məsələn, bu qəbildən: dostun arvadı namusdur. Sadəcə, mən tam səmimi və sadəlövh şəkildə həlledici hadisə baş verməzdən bir neçə gün qabaq aldadılmış ərlə dostluğu pozmalı oldum. Hissiyyat. Bəlkə, onu səhv adlandırırıq. Öz-özlüyündə bu sözdə iyrənc heç nə yoxdur. Bir az mərhəmətli olaq, məhəbbətdə məlum aktdan qeyri bir şey görməməyi, sadəcə, eybəcərlik adlandıraq. Malik olduğum qabiliyyətlə birləşdikdə bu, azadlığıma qol-qanad verirdi. Bundan başqa, adamayovuşmazlıq və mübahisəli müstəqillik kimi

ifadələri xatırlatmaqla bu, mənə yeni qələbə şansı yaradırdı. Romantikliyimlə fərqlənməsəm də, bir çox romanların qəhrəmanı idim, düzdür, bizim aşiqlərdə Bonapartla hansısa ümumi cəhətlər var: onlar həmişə hamının uduzduğu məqamlarda qələbə çalmağı düşünürlər.

Qadınlarla münasibətlərə, burası da var ki, mən təkcə hisslərimin təminat yeri kimi baxmırdım, mənim üçün bu, adi bir oyun idi. Qadınlara özünəməxsus oyunun tərəfi kimi baxırdım. Elə bir oyun ki, burada, sanki, ismətlərini qorumalı idilər. Görürsünüzmü, tənhalıqdan zəndeyi-zəhləm gedir, həyatda isə yalnız əyləncəni dəyərləndirirəm. Ən maraqlı toplum da tez bir zamanda gözümdən düşür, məni təngə gətirir, ancaq xoşum gələn qadınlarla heç zaman darıxmıram. Deməyi, dilə gətirilməyi bir az ayıb olsa da, gözəl statistlə ilk görüşümü Eynşteynlə on söhbətə dəyişməzdim. Düzdür, onuncu söhbətdə, olsun ki, Eynşteynin qüssəsini çəkməyə başlayar, yaxud gözəl bir kitabı oxumaq istərdim. Ümumiyyətlə, vacib problemlər belə məni məhəbbət macəraları arasındakı nəfəs dərmələrimdə maraqlandıra bilərdi. Neçə dəfə olub ki, səkidə dostlarımla dayandıqda birdən müzakirənin qızğın yerində söhbətin mabədini unutmuşam, təkcə ona görə ki, bu dəm yoldan ağlımı başdan aparan bir dilbər keçib.

Beləliklə, oyun oynayırdım. Başa düşürdüm ki, məqsədə sürətlə irəlilədikdə qadınlar bunu xoşlamır. Əvvəlcə hər şey sözdə olmalı idi, onların özlərinin təsbitlədiyi kimi, incəlik bu söz oyununda bütün gözəlliyi ilə ifadə olunmalı idi. Mənə gəlincə, vəkil olduğumdan söhbətləşmədə problem ola bilməzdi, sirayətedici baxışlara gəlincə, bu sahədə də təcrübəm yox deyildi, hərbi xidmətdə dram dərnəyinin tədbirlərində iştirak etmişdim. Rollarımı tez-tez dəyişirdim, pyes isə dəyişmirdi. Mənə şah nömrəsi düşmüşdü: ağlasığmaz

əyləncələr, nəsə dumanlı şeylər, səbəbsiz, qarşısıalınmaz, halbuki sonsuza qədər məhəbbətdən bezmişdim və sair və ilaxır – bütün bunlar repertuarımda qədimdən qədim rol idi, ancaq nədənsə, həmişə yeni təəssüratlar doğururdu. Başqa bir nömrə də vardı: indiyə qədər heç bir qadından ala bilmədiyim sirli həzz mənbəyi; ola bilər ki, xoşbəxtlik anı çox qısa çəksin (özünü də qorumalısan), ancaq həm də müqayisəyəgəlməz bir şey idi. Ən əsası isə qeydsiz-şərtsiz böyük məmnunluqla dinlənilən lakonik bir şeir parçası hazırlamışdım. Sizə desəm, sizin də xoşunuza gələcək. Bu üççə misranın mahiyyəti boş və mənasız bir adam olmağım haqqında acı etirafdan ibarət idi, o şəkildə ki, heç bir qadın mərhəmətinə layiq deyiləm, ömrüm boyu bircə dəfə də olsun sadə, hiyləsiz xoşbəxtliyə rast gəlməmişəm, ola bilər ki, rast gəlsəydim, dünyada onu heç nəyə dəyişməzdim, ancaq indi gecdir, qatar ötüb-keçdi. Özünü sirr içində gizlətməyin yolunu bilərəkdən artıq yoluna qoyulması mümkünsüz olan bu gecikmənin səbəbləri haqqında susurdum. Hansı mənadasa deyilənlər də başa gəlmişdi – rola öyrəşmişdim. Təəccüblü deyil ki, tərəf-müqabillərim də səhnəyə çıxmağa tələsirdilər. Rəfiqələrimdən ən həssas olanları "məni anlamağa" can atırdılar, buna görə qarışıq hissiyyatın təsiri ilə haldan-hala düşürdülər. Digərləri isə oyun qaydalarına əməl etməyimdən, ən əsası – zərbəyə qədər nəzakətlə tərəf-müqabil olmaq bacarığımdan məmnun olaraq hərdən özləri də hücuma keçirdilər. Mənim üçün bu, ikiqat uduş demək idi: bu təsadüfdə təkcə şəhvət hissimi doyuzdurmurdum, həm də hər dəfə hakimiyyətimin gücündən məmnun olaraq ürəyimdə yenilməz olduğumu bir daha təsdiqləyirdim.

Belə də olurdu ki, tərəf-müqabillərimdən bəziləri mənə yalnız müəyyən dərəcədə, müəyyən təsadüflərdən asılı olaraq həzz verirdilər, onlarla bu məqam

yetişəndə görüş təyin edirdim – birdən, elə bil, ürəyimin dərinliyindən həsrət dolu arzu göyərir, yadıma düşən nəsə ayrılıq göynərtisini elə dərinləşdirir ki, buna dərhal cavab vermək məcburiyyətində qalıram; inanmaq istəyirəm ki, onunla münasibətim sona çatmayıb, buna qəti nöqtə qoyulmayıb: arzulamaq kifayətdir ki, əlaqələr təzələnsin. Hərdən belə də olurdu ki, yatdığım qadınların dilindən əhd-peyman alırdım ki, məndən özgə bir kimsə ilə yatmasınlar – özümü beləcə sakitləşdirirdim. Ancaq bu oyunda nə ürəyim, nə də təxəyyülüm iştirak edirdi. Ürəyimdə dərindən kök salan özündənrazılıq reallığa baxmayaraq, indi yalnız mənə məxsus olan, qollarımın arasında yatan qadının başqa birisinə aid olmasına yol vermirdi. Bununla belə, qadınlardan tələb etdiyim and yalnız onları əl-qolunu bağlayırdı, mənə isə azadlıq bəxş edirdi. Yolda, necə deyərlər, qolumdan saldığım qadın daha heç kəsə məxsus deyil, demək, körpüləri yandırmağın məqamıdır; qəribədir, bir az əvvəl bu barədə istəsəydim də, düşünə bilməzdim. Qadınlara gəlincə, atüstü yoxlamaqla onların üzərimdəki hakimiyyətinin möhkəmliyini və uzunömürlülüyünü təsdiq edə bilərdin. Maraqlıdır, deyilmi? Əziz həmyerlim, indicə dediyim adi həqiqətdir. Bəzisi qışqırır: "sev məni!", başqa birisi: "sevmə məni!" Ancaq elə yaramaz insan növü də var ki, "məni sevmə, ancaq mənə sadiq ol" tələbini irəli sürür.

Ancaq burada bir məsələ var: yoxlama heç zaman son söz olmur, vaxtı yetişəndə hər bir yeni məşuqə ilə onu təzələmək lazım gəlir. Təkrar etdikcə vərdiş yaranır. Tez bir zamanda düşünmədən nəyisə dilinə gətirirsən, altdan-altdan refleks öz işini görür, öz-özünə qurulur, günlərin gözəl bir günündə sakit ürəklə ona sahiblənirsən. İnanın ki, bəzi insanlar üçün arzu eləmədikləri bir şeyə görə bundan imtina dünyada ən zor işlərdən biridir.

Günlərin bir günündə başıma belə bir axmaq hadisə gəldi; demək artıqdır ki, qadın məni bir elə həyəcanlandırmırdı, ancaq zahiri görünüşü xoşuma gəlirdi, sifətində nəsə qəribə bir dinclik və susmuş ehtiras oxunurdu. Açığını desək, həzz gözlənildiyi kimi, birbaşa deyildi. Ancaq ömrümdə bircə dəfə də olsa, heç bir kompleksdən əziyyət çəkmirdim və bu xanımı da tezliklə unutdum, qərara gəldik ki, bir daha görüşməyək. Düşündüm ki, qadın heç nəyi sezmədi, ağlıma da gəlmədi ki, bu məsələ ilə bağlı onun da öz hesabı ola bilər: axı elə ciddi idi, digər qadınlara zərrə qədər də oxşamırdı. Ancaq bir az keçəndən sonra eşitdim ki, kimlərəsə cəsarət sarıdan korluq çəkdiyimdən danışıb. Bu haqsızlıq ürəyimə neştər kimi batdı, elə bil, hansısa yalanın qurbanı olmuşdum: bildiyim kimi, o bir elə passiv deyildi və bu kimi məsələlərdən başı çıxırdı. Ancaq çiyinlərimi çəkdim və riyakarcasına gülümsədim. Yalan dedim, gülüş ürəkdən gəlirdi, səmimi idim, bu hadisənin bir elə əhəmiyyəti yox idi. Ciddiliyin qayda hesab ediləcəyi mühit varsa, bu məhz bütün gözlənilməzlikləri ilə bir yerdə cinsi həyatdır ki var. Deyilmi? Yox, yox, dünyada hər kəs, hətta fikirləri ilə baş-başa qaldıqda belə özünü yox, başqa birisini tənbeh edir. Ancaq çiyinlərimi çəkməyimə baxmayaraq, bilirsinizmi özümü necə apardım? Bir az keçəndən sonra bu qadınla üz-üzə gəldim, onu özümə bənd etmək üçün əlimdən gələni etdim. Bu çox da çətin deyildi: qadınlar da məyusluğu sevmirlər. Və o vaxtdan bəri istənilən vasitə ilə onu incitməyə fürsət gəzirdim. Atdım onu, sonra bir daha özümə bənd elədim, heç də münasib olmayan məqamlarda mənimlə yatmağa məcbur etdim, bütün təsadüflərdə onunla elə kobud rəftar edirdim ki, dustaqxana gözətçisinin məhbusa bağlandığı kimi özüm ona bənd oldum. Beləcə, əlaqələrimiz o vaxta qədər sürdü ki, günlərin bir günü içindən gələn

hayqırtı ilə onu qul halına salan insanın şəninə eşidilməmiş mədhlər söylədi. Həmin gün ondan ayrıldım. Sonra bir daha xatırlamadım.

Nəzakətlə susmağınıza baxmayaraq, sizinlə razıyam ki, bu məhəbbət macərasında mənim rolum bir elə parlaq olmayıb. Əziz həmyerlim, təvəqqem budur ki, şəxsi həyatınızdan muğayat olasınız. Bir az yaddaşınızı qurdalayın, ola bilsin, onların içində buna bənzər hadisələr rastınıza çıxsın, belə olduqda yadda saxlayın ki, sonra mənə danışasınız. Mənə gəlincə, bu hadisə yadıma düşəndə həmişə gülürdüm. Ancaq bir az başqa şəkildə, dəqiqini desəm, Sənət körpüsündə qəfildən qulağıma çatan gülüşlə. Məhkəmədə boşboğazlığıma və irad etdiyim nitqlərə də gülürdüm. Qadınlarla naqqallığımdan çox, məhkəmədəki çıxışlarıma. Onları mən nadir hallarda aldatmışdım. Bütün bunlardan o nəticə hasil olur ki, instinktlə hərəkət edirdim; məsələn, qadınla yatmaq artıq etirafdır. Burada həm açıq eqoizm, həm şöhrət düşkünlüyü, başqa bir təsadüfdə isə comərdlik var. Digər romanlarımla müqayisədə bu acınacaqlı tarixçədə yuxarıda sadalananların payı bir az artıqdır. Ona münasibətdə səmimi idim, yəni açıqca göstərirdim ki, buyam mən. Hətta özümü bayaq nəql etdiyim kimi göstərdikdə, bəli, məhz bu şəkildə göstərdikdə – beləyəm, belə də yaşayıram. Yəni şəxsi həyatımda təqsirsizlik və ədalət məhkəməsi haqqında irad etdiyim yüksək ədalı məhkəmə çıxışlarımdan daha çox dəyər var idi. Ən azı, qadınlarla özümü necə aparmağımı yada salmaqla, əslində, kim olduğumu da unutmurdum. İnsan bu kimi işlərində – məmnunluq və həzz məqamlarında ikiüzlü olmur – bu fikri haradasa oxumuşam, yaxud beynimdə hazır olanda elə bilmişəm ki, kimsə deyib bunu. Düzmü deyilib, əziz həmyerlim?

Hansı cəhənnəm əzabı sayəsində qadınlarla məni, eyni zamanda bir neçə şəxslə bağlayan əlaqələri bir-

dəfəlik kəsməyim yadıma düşəndə qəribə hisslər keçirirəm – yeri gəlmişkən, bu faktı heç də ürəyimin incəliyinin ayağına yazmıram. Məni idarə eləyən heç də bu deyildi, ehtiraslarımızın Austerlisini gözləməkdən beli qırılan məşuqələrimdən biri dözmür, aradan çıxırdı. Bu anda dərhal onu ağuşuma alır, qucaqlayır, əlimdən gələn güzəştləri edirdim, şəninə bütün tərifləri yağdırırdım. Elə edirdim ki, cismindəki incəlik adına nə vardısa, riqqətlə üzə çıxsın, özüm bu hissi yalnız üzdən keçirirdim, qadın istiqanlılığının birdən partlamasından və yox olub getməsindən dəli kimi qorxurdum. Doğrudur, bəzən əzab çəkdiyimin də fərqindəydim. Hamını istisnasız olaraq dərhal unuda bildiyim üçün bu qiyamçı qadının məndən aralanmasına ehtiyac yox idi və peşman olub geri qayıdanda əvvəlki hadisələrdən bircəciyini də xatırlamırdım. Yox, məni qaranəfəs qovan nə məhəbbət, nə də ürək genişliyi idi, hərdən adi insan kimi bütün hüceyrələrimlə atılmaq, təkliyə qısılmaq təhdidi ilə üzbəüz qalırdım, məni bu yolda yanbızıma qamçı vurub qovan, əslində, sevilmək arzum və almalı olduğum həzzi damarlarıma hopdurmaq istəyi idi.

Yeri gəlmişkən, yadda saxlayın ki, bir daha fəth edilən məhəbbət məni üzürdü. Ovqatımın təlx vaxtlarında özümə dedim ki, məni qadınlara çəkən şeydən biryolluq qurtulmağın yolu, olsa-olsa ölüm ola bilər. Əvvəla, aramızdakı ipləri ölüm bir nöqtədə möhkəmcə düyə bilərdi, ikincisi isə, onu hər hansı məcburiyyətdən xilas edərdi. Ancaq hamıya ölüm arzulamaq və nəticə etibarilə başqa cür ağlasığmaz qeyri-məhdud azadlıqdan kamını ala bilmək üçün planetimizin bütün fərdlərini qətlə yetirmək olmaz. Həssaslığım və insanlara məhəbbətim bu metodun qarşısına sipər çəkirdi.

Bütün bu məhəbbət macəralarında məruz qaldığım yeganə dərin hiss şükranlıq idi, şübhəsiz ki, əgər işlər yaxşı gedirdisə, məni sakit buraxsaydılar və əgər mənə

tam hərəkət azadlığı verilsəydi. Görsəniz, qadınlarla necə iltifatlı davranırdım, onlardan hər hansı ilə yatası olsaydım, bu şükranlıq hissimdən hamıya pay düşərdi. Hisslərim nə qədər qarmaqarışıq olsa da, onların mahiyyəti dəyişilməz qalırdı: bütün məşuqə və rəfiqələrimi ehtiyatda saxlayırdım ki, günlərin bir günü ürəyim çəkəndə onlarla ola bilim. Özüm etiraf etmişdim ki, ancaq o şərtlər daxilində xoşbəxt yaşaya bilərəm ki, bütün yer üzündəki insanların, ən azı isə kifayət qədər çox insanın gözü üstümdə olsun, başqa bir şəxslə bağlılığa malik olmasınlar, heç müstəqil də olmasınlar, istədiyim an tükümü yandırdımmı – yanıma qaçsınlar, ta əldən-ayaqdan düşənə qədər, elə bir vəziyyətə gəlsinlər ki, onları öz işığımın şəfəqləri ilə əzizləyim. Ümumiyyətlə, xoşbəxt yaşamaq üçün seçdiklərimin, əlimi üstünə qoyduğum şəxslərin yaşamaması lazım gəlirdi. Və vaxtı yetişəndə, özü də mənim mərhəmətimdən asılı olaraq həyatın miskin payına sahib dura bilsinlər.

Ah, inanın, bütün bunları sizə danışanda heç bir məmnunluq hissi keçirmirəm. İndi ömrümün o dəmlərini – elə bir zaman çərəyini ki, hər şey tələb elədiyimə rəğmən, özüm bir qara qəpik də ödəyəsi olmurdum – yadıma salanda, yəni bacardıqca çox insanı özümə xidmətə məcbur edəndə, həm də, elə bil ki, onları da gözümdən uzaq qoymurdum, az qala, soyuducuda saxlayırdım ki, ürəyim istəyəndə saçlarını tumarlaya bilim, yəni, əlimin altında olsunlar, indi sizə danışdığım bu hissi özüm də bilmirəm necə adlandırım. Bəlkə, onun adı həyadır? Sən, əziz həmyerlim, sən de, həya olsaydı, ürəyim, heç olmasa, bir balaca sıxılardı. Elə deyilmi? Demək, elə belədir, ya həyadır, ya da vicdanla əlaqəli olan cəfəng hisslərdən biridir. İstənilən halda, fikrimcə, bu hiss başıma gələn, o gündən bəri yaddaşıma mismarlanan hadisənin baş verdiyi gündən

ürəyimi tərk etməyib. Artıq onun haqqında danışmalıyam, mətləbi bir damcı belə uzatmaq istəmirəm, daha heç bir haşiyə çıxmaq keçmir ürəyimdən, illər boyu o hadisəni təxəyyülümdə o qədər əzizləmiş, ona elə incə çalarlar əlavə etmişəm ki, fikrimcə, əməyimi, azca da olsa, qiymətləndirərsiniz.

Bax, yağış da kəsdi. Evə qədər məni ötürsəydin, nə yaxşı olardı. Yorulmuşam. Qəribə işdir, ona görə yorulmamışdım ki, həddən artıq zəvzəklik eləmişdim, daha çox ona görə ki, əhvalatın danışılmayan hissəsi gözümə dururdu. Hə, başladıq. Bir neçə sözlə kəşfimizin əsas qayəsini ifadə etməyə çalışaq. Kəsə danışacağam. Bu barədə niyə çox danışaq ki? Bəli, çatdıq. Günlərin bir günündə, soyuq noyabr gecələrinin birində, kürəyimin arxasında kiminsə durub mənə rişxəndlə güldüyü gözümə göründüyü vaxtdan iki-üç il sonra, Senanın sol sahili ilə evə qayıdırdım. Yolu Kral körpüsü tərəfə kəsdim. Gecə saat bir olardı. Çiskinləyirdi. Narın yağış yağırdı. Küçədən adda-budda keçənləri perik salmışdı. Məşuqəmgildən qayıdırdım, indi, yəqin ki, o da yatmışdı. Kefim yerindəydi, yüngülcə yorğunluq hiss edirdim, damarlarımla səssiz-küysüz axan qan bax bu payız yağışı kimi bədənimi isidirdi. Körpüdə kimsə dayanmışdı, məhəccərdən sallana qalmışdı, elə bil, çayın tamaşasına durmuşdu. Bir az yaxına gəlib gördüm ki, bu, gənc, arıq bir qadındır, başdan-ayağa qara paltar geyinib. Qara saçları ilə paltosunun yaxalığı arasında yağış damcılarının nəmləndirdiyi ağappaq boynu görünürdü. Bir balaca həyəcanlandım. Bir anlığa ayaq saxladım. Qadın bunu hiss edib irəli addımladı. Körpüdən dəniz kənarına enərək hazırda yaşadığım Sen-Mişel bulvarı tərəfə addımladım. Əlli addım getmişdim ki, arxadan səs-küy eşitdim, gecənin sakitliyində qulaqbatırıcı bir səs – şappıltı ilə suya düşüb səs çıxaran insan bədəni. Yerimdə donub-qaldım, ancaq o

tərəfə çevrilmədim. Dəhşətli qışqırıq eşidildi. Özü də bir neçə dəfə, elə bil, suyun axarı boyu aşağıya yayılır, ancaq birdən kəsilib qeyb olurdu. Teli də titrəməyən zil qaranlıqda həmin səsdən sonra yaranan sükut əbədi təsir bağışlayır. Elə bil, heç nə olmamışdı. Soyuqdan və həyəcandan titrəyirdim. Öz-özümə deyirdim: "Tez, tez nəsə eləmək lazımdır", – və hiss edirdim ki, bütün vücudumu saran zəiflik əl-qolumu buxovlayırdı. Onda nə düşündüyümü indi xatırlamaq çətindir: "Çox gecdir, çox gecdir", – yaxud buna bənzər fikirlər keçirdi ağlımdan. Yerimdə donub-qalmışdım, qulaqlarım şəkdə idi. Sonra yavaşca irəli addımladım və heç kəsə heç nə demədim.

Gəlib çatdım, bu da evim, sığınacağım. Sabah? Yaxşı, necə istəyirsiniz. Sizi məmnuniyyətlə Marken adalarına apararam. Zayderzə tamaşa edərsiniz. Səhər saat on birdə "*Mexiko-siti*"də görüşək. Necə? Həmin qadın? Vicdan haqqı bilmirəm. Ertəsi gün və ümumiyyətlə, bir neçə gün ərzində qəzet oxumadım.

Gəlinciklər indi – elə deyilmi – necə də gözəldir? Ancaq sizi buraya təkcə onun gözəlliyinə görə gətirməmişəm. Sizə bu nadir ləçəkləri, kənd başmaqlarını və balıqçıların bardaş qurub əla tütün çəkdiyi min bir naxışlı evi hər kəs göstərə bilərdi. Yox, mən o nadir adamlardan biriyəm ki, sizə məhz, doğrudan da, baxmağa dəyəcək bir şeyi göstərə bilərəm.

Sizinlə mən bəndə yaxınlaşırıq. Getmək, bu yaraşıqlı evləri arxada buraxıb kifayət qədər uzaqlara addımlamaq lazımdır. İndi bir az nəfəsimizi dərək. Hə, fikriniz nədir, necədir? Kədərli mənzərələrdən ən kədərlisi. Baxın: sol əldə buralarda təpə adlandırılan kül topaları gözə dəyir, sağ tərəfdə bozumtul bənd, ayağımızın altında ağımtıl qumlu sahil, önümüzdə dəniz, bir balaca lilin bulandığı təknədəki su rəngində dəniz və bu solğun suların üstündə geniş səma. Necə də süst bir

aləm, cəhənnəmə oxşayır. Xətlərin hamısı üfüqidir, bircə dənə də açıq-aydın izə rast gəlməzsən, rəngsiz məkan, ölü həyat. İndiyə qədər nə vardısa pozulub, öz içində boğulub, bir sözlə, gözün önündə əsl cəhənnəm. Ən əsası isə – burada ins-cins yoxdur. Sizdən və məndən başqa bir bəni-adəm yoxdur – qarşımızda sonsuza qədər uzanan dünya. Səma, görəsən, hələ sağdırmı? Hə, əziz dostum, haqlısan sən. Birdən buludlar sıx-sıx topalaşır, sonra birdən, elə bil, dərin yarğanlar meydana gəlir, buludların qapısı qəfildən açılır, səma nərdivanının pillələri görünür. Bax, orada göyərçin balaları uçur. Bəlkə, sezməmisiniz, Hollandiyada səma milyon göyərçinlə birdən dolur, gözə görünməyən göyərçinlərlə; necə hündürdən uçurlar; qanadlarını çırpır, hamısı bir yerdə və eyni zamanda səmaya millənib aşağı enir, səma məkanını gümüşü lələklərlə doldurur, küləksə onları bir yerdən başqa yerə süpürür. Göyərçinlər bütün ilboyu orada – səmada yaşayırlar. Yerin üstündə dövrə vururlar, yerə baxır, bəlkə, aşağı enmək istəyirlər. Amma yerdə heç nə yoxdur – gözə dəyən dəniz və kanallardır, damlar, onların üzərindəki lövhələr, başqa heç nə yoxdur.

Bilmədiniz nə demək istədiyimi? Etiraf edim ki, yoruldum. İpin ucunu itirirəm, sözləri çaşbaş salıram, dostlarımın saatlarla təriflədikləri keyfiyyətimi – fikir və ifadə aydınlığını itirmişəm. Yeri gəlmişkən, "dostlarım" sözünü elə-belə, prinsip etibarilə işlədirəm. Dostlarım yoxdur, sadəcə, yoldaşlarım var. Üstəlik, onların sayı da artıb – bütün bəşəriyyət, siz onların arasında birincisiniz. Orada olan hər kəs elə birincidir. Haradan bildim ki, dostlarım yoxdur? Çox sadə: bu sadə həqiqəti günlərin bir günü, yəni onlarla oyun oynamaq, həm də onları cəzalandırmaq qəsdi ilə beynimdə oyun qurduğum zaman. Ancaq kimi cəzalandırasan? Ola bilsin ki, kimsə heyrətlənərdi, başqa heç nə, heç kəs özünü

cəzalanmış adam yerinə qoymazdı. Onda anladım ki, dostum yox imiş. Ax, kaş ki olaydı və əgər mənim də dostlarım olsaydı... hə, nə olsun ki? Əgər özümü öldürə bilsəydim, həm də bundan sonra sifətlərinin ifadəsini görə bilsəydim, bax onda bu, mənim üçün dünyalara dəyərdi. Ancaq yer üzü qaranlıqdır, tabut taxtaları qalındır, kəfəni yırtmaq olmaz. Ancaq heç olmasa, ürəyin gözü ilə ani baxıb tamaşa eləmək mümkün olsaydı!.. Ancaq ruh dedikləri mövcuddurmu, onun, üstəlik, gözləri də varmı? Yox, buna qəti inanmaq mümkün deyil, olmayıb, olmayacaq da. Əks halda vəziyyətdən birtəhər çıxış yolu tapardım, onda insanları sənə ciddi yanaşmağa məcbur edə bilərdim. Axı onları doğruluğuna, səmimiyyətinə, əzab dolu həyəcanlarına inandırmaq ancaq ölümlə mümkün olardı. Nə qədər ki sağsan, demək, şübhəli epizod hesab edilməlisən, yalnız özünə şübhəli münasibətə haqqın çatar. Ax, əgər özcə ölümünün tamaşasına durub ləzzət aparacağına qəti inam olsaydı, bu adamlara bilmərrə inanmadıqları şeyləri sübut edə bilərdin və onları yerindən oynadıb təəccübləndirərdin. Yaxşı, sonra? Özünə qəsd edib öldürürsən, belə olduqda kiminsə sənə inanıb-inanmamasının nə əhəmiyyəti olacaq ki? Artıq mövcud deyilsən sən, kimin heyrətləndiyini, kimin kədərləndiyini (əlbəttə, qısa müddət ərzində) görmürsən, bir sözlə, hər kəsin xəyal etdiyi tərzdə dəfnində iştirak etmirsən. Şübhə yeri qoymamaq üçün, sadəcə, düşüb ölmək lazımdır.

Ola bilər ki, bəlkə, dediyim şeyləri və bu tamaşanı görməməyin özü daha yaxşıdır? Onların laqeydliyi ürəyimizi dağlamazdımı? "Buna görə cavab verəcəksən", – ona hansısa yelbeyin oğlana ərə getməyə imkan verməyən atasına qız beləcə demişdi. Demiş və intihar etmişdi. Ancaq atası bunun zərrə qədər də əzabını çəkmədi. Spinninqlə balıq ovunun ölüsü idi. Üç həftədən

sonra artıq ova çıxırdı: özü dediyi kimi, "qəm-kədəri unutmaq üçün". Ata hər şeyi dəqiq hesablamışdı – rəhmətlik qızını unutdu. Doğrusunu deməli olsaq, əks hadisələr baş versəydi, təəccüblənməyin yeri vardı. Bax budur, insan arvadını cəzalandırmaq üçün özünü öldürür, əslində, ona olmazın azadlıq şansı verir. Yəni bütün bunları görməmək daha yaxşı olardı. Hələ bir intiharı hansı sözlərlə izah edəcəklərini eşitmək riskinə də qatlaşmaq istəyirsən? Mənə gəlincə, hər şeyi əvvəlcədən bilirəm: "Bir belə dərdi çəkə bilmədiyi üçün özünü öldürdü..." Ah, əzizim, insanlar necə də fəhmsizdirlər, təsəvvür və təxəyyülləri necə də kasıbdır? Həmişə düşünürlər ki, insan özünü yalnız bircə səbəb üstündə öldürə bilər... ancaq axı intihar kimi hadisə üçün, ən azı, iki səbəb də ola bilər. Yox, nə danışırsan, bu, onların ağlına belə gəlməz. Demək, həyatla haqq-hesabı çürütmək üçün özünü könüllü qurban verirsən və bununla öz haqqında müəyyən rəy formalaşdırırsan. Öləcəksən, onlarsa fürsətdən istifadə edib sənin ölümünlə bağlı səfeh və ağlasığmaz səbəblər axtarıb tapacaqlar. Əziz dost, əzabkeşlər unudulmaqla, ölümlərinin ironiya hədəfinə çevrilməklə, yaxud bundan Allah bilir hansı məqsədlə istifadə arasında seçim etməlidirlər. Olsun ki, bir gün onları kimsə anladı. Heç zaman, heç vaxt!

Gəlin birbaşa hədəfə doğru gedək. Həyatı sevirəm – mənim zəif yerim budur. Həyatı elə sevirəm ki, ondan kənarda olan şeyləri təsəvvür belə etmirəm. Həyata belə dərindən, ləçərcəsinə bağlanmaqda bir az plebeylik də var, deyilmi? Zadəganlıq üzünü sənə və həyatına doğru çevirib. Lazım gələrsə, əsilzadə ölə bilər, əyilməkdənsə qırılar. Mənsə əyilirəm, çünki hər şeydən çox özümü sevirəm. Bax indicə eşitdiklərinizdən sonra, necə bilirsiniz, necə olmalıydım? Özümdən iyrənməliydimmi? Zərrə qədər də! Başqa adamlara

nifrət edə bilərdim, hətta onlardan iyrənə də bilərdim. Düzdür, öz günahlarımı bilirəm və zəif cəhətlərimə təəssüf edirəm, ancaq hər halda, tərifəlayiq inadkarlıqla onları tez unuda bilirəm. Başqa insanlar üzərində qurduğum məhkəmə ürəyimdə hər gün, hər saat davam edirdi. Bütün bunlar sizi mütəəssir edirmi? Bəlkə, düşünürsünüz ki, bütün bunlar məntiqi deyil? Ancaq məsələ heç də məntiqdə deyildir. Məsələ ondadır ki, nəyin bahasına olursa olsun, sivişib aradan çıxmaq lazımdır, ən əsası isə – məhkəmədən qaçmaq! Mən demirəm ki, cəzadan boyun qaçıraq. Cəzanı məhkəməsiz də vermək olar. Bizim təqsirsizliyimizə zəmanət verən adı var onun – bədbəxtlik. Yox, məsələ ondadır ki, məhkəmədən, min cür bəhanə axtaran məhkəmə istintaqından qaçmaq lazımdır, onu elə yerindən kəsib baltalamaq lazımdır ki, hökm bilmərrə oxunmasın!

Ancaq məhkəmədən yaxa qurtarmaq elə də asan deyildir. Bu gün biz həm mühakimə, həm də əxlaqsızlıq etməyə hazırıq. Bir yeganə fərqlə ki, birinci halda uğursuzluqdan qorxmaq kimi halımız olmur. Şübhəniz varsa, əziyyət çəkən həmvətənlərimizin tənhalıqdan müalicə olunmaq məqsədi ilə ayaq açdıqları istirahət yerlərində avqust ayının qorabişirən vaxtında stol arxasında deyilənləri fürsət düşəndə yaxşıca dinləyin. Bu halda da hansısa qəti nəticə çıxara bilməsəniz, bizim məşhur qələm sahiblərinin əsərlərini oxuyun, yaxud gözlərinizi bir az geniş açıb ətrafınızda nələrin baş verdiyini müşahidə eləyin. Uduzmazsınız, əvəzində xeyli təcrübə toplamış olarsınız. Dostum, bizi mühakimə etmələrinə cüzi də olsa hər hansı bəhanə vermək lazım deyildir. Əllərinə keçsək, dərimizə saman təpərlər, bizi gəmirib tikə-parça edərlər. Bizə vəhşi heyvanların təlimçiləri kimi ehtiyatlı olmaq lazımdır. Bir gün, yırtıcı heyvanın qəfəsinə girməzdən öncə, bədbəxtlikdən, yaxud təsadüfdən ülgüclə özünü kəssə,

onlar üçün dadlı tikədən başqa bir şey olmaz. O qədər də valehedici varlıq olmadığıma ürəyimdə şübhə cücərən gün dərhal bu təhlükəni hiss etdim. O andan etibarən özümə etibarımı itirməyə başladım. Hövsələsizlikdənmi, nədənsə, bircə damla qanım yerə sıçrasa, bilirsinizmi nə olar – adamı dirigözlü yeyərlər.

Müasirlərlə münasibətlərim zahirən əvvəlki kimi qalmışdı, ancaq bir balaca rəng-ruyu dəyişmişdi. Dostlarım da dəyişməmişdi. Yeri düşdükcə onlar mənim yanımda olduqları zaman hiss etdikləri könül rahatlığı və sakitliyin şəninə yenə təriflər yağdırırdılar. Ancaq təkcə özüm ürəyimdə nələrin baş verdiyinin fərqindəydim, bir az dissonans var idi, bir az qarmaqarışıq halət yaranmışdı, özümü bir az sınmış, elə bil, ictimai rəyə təhvil verilmiş adam kimi hiss edirdim. Artıq insanlara baxanda onlara dinləyicilərin nüfuzlu auditoriyası gözü ilə baxa bilmirdim. Mərkəzində özüm dayandığım dairə pozulmuşdu və onlar artıq hakimlərlə məhkəmə iclası kimi ard-arda düzülmüşdü. O dəqiqədən sonra ürəyimdə belə bir şübhə baş qaldırdı ki, bəzi şeylərə görə, deyəsən, məni də mühakimə edə bilərlər, bax bu anda onların necə olur-olsun, kimisə mühakimə etmək niyyətlərinin qarşısıalınmaz olduğunu dərk etdim. Bax indi qarşımdadırlar, əvvəllər olduğu kimi, ancaq bu dəfə gülürlər. Doğrusu, özüm uydururam ki, qarşıma çıxan hər kəs mənə rişxəndlə baxır. O ana qədər hətta düşünürdüm ki, hərdən mənə badalaq gəlmək də ağıllarına gələ bilər. Hətta elə hallar olurdu ki, hansısa ictimai məkana girdikdə heç bir səbəb olmadan sözün hərfi mənasında səndələyirdim, dilim topuq çalırdı. Bir dəfə kandarın üstünə sərələndim. Bir kartezian kimi o saat özümü ələ aldım və bu epizodu qəzavü-qədərin ayağına yazdım, yəni təsadüf idi, bitdi-qurtardı.

Hadisələri daha diqqətlə izlədikdə kəşf etdim ki, aha, deyəsən, düşmənlərim də var imiş. Əvvəla, məhkəmə

dairələrində, ikincisi isə həyatda. Bircə şey qanımı qaraldırdı ki, onlar, məhz onlar mənə müəyyən dərəcədə borclu idilər, buna görə də daim qulluğumda durmalı idilər. Bəziləri hesab edirdi ki, onlara xidmət etmək borcumdur. Bütün bunlar, necə deyərlər, olası şeylər idi və bu kimi yeni faktlar qanımı qaralda bilmirdi. Ən çətini və kədərlisi o idi ki, guya, güclə tanıdığım insanlar, ya da heç tanımadığım kəslər arasında da düşmənlərim varmış. Əlbəttə, indiyə qədər hiss edə bildiyiniz sadədilliyimə görə tanış olmayan insanlar da bir balaca yaxınlaşan kimi məni hökmən sevəcəkdilər. Ancaq təsəvvür eləyin ki, bu, belə olmadı. Özümə qarşı ən dəhşətli düşmənçiliyi daha çox o adamlardan gördüm ki, onlarla yalnız uzaqdan-uzağa salamlaşmışdım. Onlar, yəqin, şübhələnirdilər ki, öz kefimin quluyam, istədiyim şeyləri bir göz qırpımında əldə edə bilirəm və bunu mənə bağışlamırdılar. Xoşbəxt, bəxti gətirən insanın sifətində bütün bu cizgilərlə bərabər, özündənrazılıq ifadəsi də peyda olarsa, şübhəsiz ki, bu, hər kəsi, elə Allahın eşşəyini də cinləndirib özündən çıxara bilərdi. Bundan başqa, həyatım, yaşam tərzim elə idi ki, bir çox insanların mənə yanaşmasının qarşısını almağa vaxtım haradaydı! Elə bu səbəbdən bu barədə həmin anda yadıma heç nə düşmürdü. Ancaq öz həyatlarını tam olaraq yaşaya bilməyən insanlar dəqiqəbaşı mənə yaxınlaşmağa çalışırdılar: bilə-bilə ki, dərhal rədd edəcəyəm.

Beləliklə (bircə nümunə bəsdir), hər halda, qadınlar yanımda çox dəyərli varlıqlar idi. Onlara sərf etdiyim zamanı kişilərə xərcləyə bilməzdim, onlar bunu mənə hər deyəndə bağışlamırdılar. Əldə etdiyin xoşbəxtliyi və uğurları sənə o zaman bağışlayırlar ki, onları ürəkaçıqlığı ilə başqaları ilə bölüşməyə hazır olasan. Ancaq sözün əsl mənasında xoşbəxt olmaq istəyirsənsə, başqalarının qayğısına bir elə qala bilməzsən. Məsələ buradaca bitir, məsələ bu qədər sadə və primitivdir.

Mənə münasibətdə insanlar çox ədalətsiz idilər: məni keçmişdə xoşbəxt olmağımdan dolayı mühakimə edirdilər. Uzun müddət arxayınçılıq illüziyasında yaşadım, belə ki, dörd tərəfdən hər şeydən xəbərsiz halda ətrafa gic-gic gülümsəyən insanın üstündə onu, əslində, sevməyən kəslərin bütün istehza oxları birdən uçmağa başladı. Həyəcan siqnalını eşitdiyim gün gözlərim açıldı, ürəyimə sancılan oxların və vurulan yaraların dərinliyini birdən hiss etdim və gücdən düşdüm. Bütün dünya mənə gülürdü.

Bu ağırlıqda rişxəndi heç kəs çəkə bilməzdi (müdriklərdən, yəni hələ yaşamayan insanlardan başqa). Yeganə seçim qərəz və hirs ola bilərdi. Bir gün insanlar səni mühakimə etməyə tökülüşəndə həm də özlərinin mühakimə edilməməsi naminə birləşirlər. Bu məqamlarda insanın ürəyinin hansısa guşəsindən axıb gələn ən təbii və ən sadədil ideya o ola bilər ki, sən heç də günahkar deyilsən. Bu baxımdan, bizim hamımız Buhenvaldda onun da adını məhbusların siyahısına daxil edən mirzədən kərratla şikayət etmək istəyən fransız oğlanın günündəyik. Şikayətmi? Mirzə və onun dostları uğunub getmişdilər: “Faydası yoxdur, oğlan. Burada şikayətə baxan kimdir?” “Görərsiniz, cənab, – fransız oğlan cavab vermişdi, – söhbət adi haldan getmir. Mənim heç bir günahım yoxdur!”

Bizim hamımızın başına gələn adi hadisələr deyil. Hər birimiz hansısa səbəblə əlaqədar şikayət vermək istərdik. Hər bir kəs nəyin bahasına olursa olsun, təqsirkar olmadığının bəyanını tələb edir, hətta bunun üçün bütün bəşəriyyəti təqsirli hesab etmək lazım gəlsə belə. Siz hər hansı insana onun ağıllı və xeyirxah olmasını təsdiqləyən hərəkətlərinə görə kompliment söyləyəndə simiclik edirsiniz. Ancaq üzü bu təriflərdən elə gülür, qırışları elə açılır ki, elə bil, bura onun təbii ürək genişliyinə səcdə etməyə təşrif gətiribsiniz. Əksinə,

caniyə desəniz ki, törətdiyi cinayətin xarakteri ilə bir elə bağlılığı yoxdur, bu, sadəcə, mənfur cəmiyyətdəki müəyyən vəziyyətdən törəyib, bilsəniz necə minnətdar olardı sizə? Bizim müdafiə çıxışımızda siz məhz bu məqamlardan bəhs etdikdə, elə bil, onu gözləyirmiş kimi, müttəhim hökmən ağlamalıdır. Axı anadangəlmə, yəni fitri doğruluqda, yaxud ağıllı olmaqda bir aşırı məziyyət-filan yoxdur. Cinayət, tutaq ki, şərait, vəziyyət və bu kimi faktorlardan deyil, daha çox, onu törədən insanın mənfur təbiətindən güc alaraq baş veribsə, ona görə məsuliyyət, şübhəsiz ki, artıb-azalmır. Ancaq bu fırıldaqçılar əfv, yəni məsuliyyətdən azad olunma tələb edirlər və bu həyasız niyyətin gerçəkləşməsindən yana gah öz təbiətlərinə, gah da yüngülləşdirici halların olmasına istinad edirlər. Əsas odur ki, bu adamları günahsız elan etsinlər, anadangəlmə xeyirxahlıqlarının üstünə kölgə düşməsin, əllərindən çıxan dəhşətli xətanı isə qəzavü-qədərin, nə bilim, təsadüfi bədbəxt hadisələrin ayağına yazsınlar, təki məhkəmə zalından çıxıb azadlığa qovuşsunlar. Mahiyyət etibarilə özünü insanlara sevdirmək və təbiətində elədiyin əmələ görə dayaq nöqtəsini tapmaq bildiyiniz qədər də asan deyildir. Niyə? Heç bu barədə düşündünüzmü? Var-dövlət hakimiyyət deməkdir, doğrudurmu? Ancaq burada məsələnin başqa bir yönü maraq doğurur: var-dövlət sizi məhkəmə zalından çölə çıxarır, metro qatarlarını gözləyən qara camaatdan ayırır, nikeli par-par yanan avtomobil bağışlayır, sizi çox geniş, diqqətlə qorunan parklarda, yataqlı vaqonlarda və paroxodların lüks kayutlarında hamıdan təcrid edir. Var-dövlət, əziz dost, hələ caninin bəraəti deyildir, ancaq şərti cəza kəsmə, yaxud iclasın təxirə salınması imkanları da var və bu heç də pis deyil.

Ən əsası odur ki, sizdən: “Gəlin tam açıq danışaq”, – deyə xahiş eləyən, and içib-aman diləyən dostlarınıza inanmayın. Onlar, sadəcə, ona arxayındırlar ki, nə

eləsəniz də, heç nə gizlədə bilməzsiniz. Məgər təkcə səmimiyyətmi dostluğun meyarıdır? Nəyin bahasına olursa olsun, həqiqəti bərpa etmək cəhdi heç nəyi bağışlamayan və heç nəyin qarşısında duruş gətirə bilmədiyi ehtirasdır. Buna hətta qüsur da demək olar, çox nadir hallarda bu dərəcədə ifrat həqiqətsevərlik meydana gəlir, bəlkə də, daha çox, eqoizmdir. Demək, belə, dediyim vəziyyətə düşsəniz, o qədər də fikirləşməyin: doğru danışacağınıza and için və utanmadan, vicdan əzabı çəkmədən yalan danışın. Belədə dostlarınızın arzusunu yerinə yetirmiş və bir daha onlara sədaqətinizi sübut etmiş olarsınız.

Bu, mübahisəsiz bir həqiqətdir ki, adətən, bizdən yaxşı olan insanlara inanmırıq. Daha doğrusu, onların gəzib-dolaşdıqları dairədən qaçırıq. Daha çox o adamların ətəyində namaz qılmağa qaçırıq ki, tam bizə oxşayırlar və daha çox zəif cəhətləri ilə. Nə olur-olsun, islah edilmirik, özümüzlə bağlı heç zaman tənqidi qeydlərə açıq olmuruq: bunun üçün bir nəfər lazımdır ki, irəli çıxıb bütün qüsurlarımızı üzümüzə çırpsın. İstəyimiz odur ki, hər kəs bizə mərhəmətlə yanaşsın və beləliklə, bizə ruh versin. Ümumiyyətlə, eyni zamanda həm müqəssir olmaq istəmirik, həm də qüsurlardan arınmağa cəhd göstərmirik. Açın baxın ürəyimizə. Görün nə qədər sinizm zoğları göyərib qalxır. Ancaq orada nə xeyirin, nə də şərin gücü var. Danteni oxumusunuzmu? Eləmi? Aman Allah, özün saxla! Demək, bu məsələlərin Dantedə necə qoyulduğundan xəbəriniz var. Onun mülahizələrinə görə, mələklər Allahla Şeytan arasındakı ədavətdə neytral mövqe tutublar. Buna görə də onların yerini öz cəhənnəminin qapı kandarında, yəni vestibüldə salır. Dostum, səninlə mən elə oradayıq – vestibüldə.

Dözümmü? Əlbəttə, düz deyirsiniz. Təmkinli olub dözmək və məhşər gününü gözləmək lazımdır. Ancaq

bədbəxtlikdən, vaxtımız yoxdur, tələsirik. Elə tələsirik ki, günlərin bir günü tövbə hakimi oldum. Ancaq hər şeydən öncə mən üstünü açdığım faktları ardıcıl şəkildə şərh etməli və müasirlərimin rişxəndi ilə bağlı məsələni yoluna qoymalı idim. Ancaq həmin axşam, o zaman ki məni cavab verməyə çağırdılar, doğrudan da, cavab verməli idim, ən azı, onu axtarıb tapmağa cəhd etməliydim. Bu heç də asan olmadı. Uzun müddət düşünmədən nələrsə elədim. Ancaq bu kəsilməyən kişnərti – insanların istehzalı gülüş səsləri məni məcbur elədi ki, içimi sandıq kimi çölə töküm və əmin olum ki, heç sən deyən sadə adam deyilmişəm. Siz gülmürsünüz, dodağınız qaçmır, demək, həqiqət bizim bildiyimiz primitiv şeylər deyil. O həqiqətləri elementar, yəni primitiv sayırlar ki, insan onları ən sonuncu görür və kəşf edir.

Ancaq hər halda, öz-özümü uzun müddət arayıb-öyrəndikdən sonra insan təbiətindəki çox dərinlərə işləyən ikiüzlülüyün şahidi oldum. Yaddaşımın bir qatına külüng vurmaqla anladım ki, ciddilik mənə seçilməkdə, sadəlik qələbə çalmaqda, xeyirxahlıqsa insanları əsarətdə saxlamaqda yardım edib; məsələn, heç zaman ad günü münasibətilə məni təbrik etmədiklərindən şikayətçi olmamışam, böyük dərddir, kimsə bu böyük və zırıltı tarixi unudub. Tanış-biliş bu ciddiliyimdən təəccüblənmiş və heyran qalmışlar. Ancaq onun əsl səbəbi elə onun öz içində gizlədilibmiş: istərdim ki, hər ikisinin yadından çıxım. İstərdim ki, özümü incidilmiş adam yerinə qoyum. Əlbəttə, yaxşı xatırladığım o məşhur, yaxud bədnam tarixə bir neçə gün qalmış artıq ehtiyatımı tutmuşdum, elə edirdim, daha doğrusu, etmirdim ki, kənar adamlar bu tarixlə bağlı nədənsə şübhələnsin, ancaq inanırdım ki, o, kimsənin yadına düşməyəcək. Bununla özümə tənhalığımı sübut edir və özümü acılı-şirinli qüssənin dalğaları arasına atırdım.

Bir sözlə, altından xətt çəkilən məziyyətlərim, sözün açığı, o qədər də cəlbedici deyildi. Doğrusu, məlum kontekstdə mənim qüsurlarım bəzən elə məziyyətlərimə çevrilirdi. Bəzən həyatımın qaranlıq tərəflərini gizlədirdim, ancaq bu gizlilik mənə sakit görünüş bəxş edirdi; kənar adamların gözündə bu, xeyirxah bir insanın qüruru kimi görünürdü, laqeydliyim sayəsində ürəyimdə özüm üçün məhəbbət tonqalı yandırırdım və hamının "xeyirxah" adlandırdığı hərəkətlərimdə, daha çox, eqoizmim rol oynayırdı. Elə bunun üzərində dayanıram – həddən artıq böyük simmetriya inandırıcılığa xələl gətirir. İslahedilməz şəhvətpərəstə çevrilmişdim və buna görə də artıq nə bircə stəkan şərabdan, nə də ağlımı başımdan alan qadınlardan imtina edə bilirdim. Yaradıcı və enerjili bir adam kimi tanınsam da, əsas məziyyətim yalan idi – eşq yalanları. Var səsimlə ədalətli olmağımı aləmə car çəkirdim, ancaq fakt budur ki, kimi sevirdimsə, sonu xəyanətlə bitirdi. Şübhəsiz ki, eşq aləmindəki yalan-palan, ən əsası isə əlimdən çıxan xəyanətlər peşə həyatıma, peşə borcumu yerinə yetirməyə mane olmurdu. Əhlikef olsam da, gecə-gündüz çalışırdım: heç zaman yaxınlarımdan yardım əlimi çəkmirdim, çünki bunda təsəlli tapırdım. Ancaq bu açıq-aydın həqiqətləri özüm üçün nə qədər təkrar etsəm də, bunlar mənə qismən, özü də yalançı təsəlli verirdi. Haçansa səhərlər güzgünün qabağına keçir, özümü vicdanın tələbkar və ciddi mühakiməsinə təslim edirdim və belə bir qənaətə gəlirdim ki, günahımın yekəsi insanlara nifrətimdədir. Daha çox yad adamlara əl uzadan insanlara nifrət edirdim. Nəzakət və incəliklə, ürəyimin yandığını həyəcanlı davranış və əsəbiləşməklə ifadə edərək mahiyyətcə hər gün təsadüfən rastlaşdığım şəxslərin üzünə tüpürürdüm.

Bəs görəsən, bunun elə bir bəraəti varmı? Açığını desək, var, ancaq o qədər mənasızdır ki, istinad etmək

ar gəlir mənə. Ancaq nə olursa olsun, fakt kimi mövcuddur. Heç zaman sonadək inanmamışam ki, insan həyatını dolduran iş-güc nəsə ciddi bir şey olsun. Bu "ciddi" deyilən şeyin, əslində, nə olduğunu bilmirdim, ancaq böyür-başımda cərəyan edən hadisələrə də, olsa-olsa, oyun kimi baxırdım – bəzən maraqlı, bəzən cansıxıcı, bəzən də elə-belə... mənasız. Düzdür, bəzi cəhd və baxışları indiyə qədər anlaya bilməmişəm; məsələn, pul-paraya görə həyatına qəsd edən qəribə insanlara həmişə təəccüb, hətta şübhə ilə baxmışam; fikir verin, əvvəlki vəziyyətdən əsər-əlamət qalmadığına görə gözləri hədəqədən çıxmış, yaxud ailələrinin rifahı naminə çox ciddi görkəm alaraq özlərini fəda etmişlər. Mənim üçün bir balaca anlaşıqlı olan isə bir dəfə siqareti tərgitmək qərarına gələn və bunun üçün də ürəyində təpəri olan dostumun niyyəti idi. Bir dəfə səhərçağı qəzetlərdən birini çevirdi, hidrogen bombasının ilk dəfə partladılmasından bəhs edən yazını qaçaraq oxudu, bu partlayışın hansı nəticələr doğuracağını öyrənib ayağını qaçaraq tutdu, siqaret köşkünə qaçdı.

Əlbəttə, bəzən özümü elə göstərirdim ki, guya, həyata ciddi yanaşıram. Ancaq tezliklə özüm üçün aydınlaşdırdım ki, bu ciddilikdə bir elə məna yoxdur. Beləliklə, öz rolumu oynamaqda davam etdim, gücüm çatdıqca özümü yaradıcı, vətəndaşlıq borcuna ciddi yanaşan, zəhmətkeş, bir sözlə, nümunəvi şəxs kimi göstərməyə çalışdım... Burada dayanıram. Artıq, yəqin, başa düşdünüz ki, hollandlara bənzəyirdim: mənimlə yanaşı dursalar da, elə bil, heç yoxdurlar, yaxud yox kimidirlər, elə mənim kimi – məhz həyatda kifayət qədər böyük yer tutduğum məqamlarda yoxa çıxmağım vardı. Yalnız idmanla məşğul olanda və hərbi xidmət illərində – yalnız öz kefimizin xətrinə alayda hansısa pyesi səhnəyə qoyduğumuz zaman tam səmimi ola bilirdim. Bu və digər hallarda oyun vardısa, qayda-

ları da vardı, bu qaydalar ciddi olmasa da, elə əyləncə xətrinə onları məcburi hesab edirdik. İndinin özündə də bazar günü matçı keçirilən ağzına qədər dolmuş, adamdan partlayan meydança və ürəkdən sevdiyim teatr dünyada yeganə yerlərdir ki, orada özümü qəti günahkar hiss eləmirəm.

Ancaq söhbət məhəbbətdən, ölümdən, kasıb insanların məvacibindən gedəndə belə bir mövqeyi kim qanuni hesab edə bilər ki? Bəs mən nə eləməli idim? İzoldanın məhəbbətini əvvəllər yalnız romanlarda, yaxud səhnədə təsəvvür edə bilərdim. Bu yolda ölüb-gedənlərə rola girmiş aktyor kimi baxırdım. Kasıb müştərilərimin replikaları, elə bil ki, eyni ssenaridən qaynaqlanırdı. Budur, insanlar arasında yaşayaraq onların maraqlarını bölüşmədən boynuma düşən öhdəliklərin ciddiliyinə özümü inandıra bilmirdim. Nəzakət xətrinə peşəmdən irəli gələn, qohumluq və vətəndaşlıq borcumla bağlı tələblərə əməl etməyə çalışırdım, ancaq bunu elə dağınıq və sistemsiz edirdim ki, sonda hər şey məhv oldu. İkiüzlülük işarəsi altında yaşayırdım və mənim ən əhəmiyyətli hərəkətlərim çox vaxt düşünülməmiş addımlar idi. Bəlkə, elə buna görə bir daha bütün səfehliklərimi özümə bağışlaya bilmirdim, halbuki bütün amansızlığımla hər bir hüceyrəmlə hiss etdiyim və hər an məni çıxış yolu tapmağa itələyən vicdanımın və ətrafımın məhkəməsinə qarşıydım.

Müəyyən zaman ərzində ömrüm elə əvvəlki ritmiylə, heç nə baş verməmiş kimi axırdı; elə eyni relslər üzərində sürüşməyində idi. Elə bil, qəsdən ətrafımda səslənən mədhiyyələrin küyü getdikcə artırdı. Bədbəxtlik də elə buradan gəlirdi. Yadınızdadırmı? “Hər kəs sizi tərifləyəndə bilin ki, başınız dərddədir”. Qızıl kimi sözlərdir, deyilmi? Başıma dərd gəldi. Mühərrik birdən şıltaqlıq elədi, hansı səbəbdənsə avtomobil dayandı, “öldür, getmərəm” dedi, sanki.

Elə bu dəm adi, su kimi axıb gedən həyatıma ölüm duyğusu təşrif gətirdi. Sonuma nə qədər qaldığını hesablayırdım. Mən yaşda dünyasını dəyişən insanları xatırlamağa çalışdım. Boynuma düşən öhdəliyi yerinə yetirə bilməyəcəyim haqqında fikir məni incitməyə başladı. Hansı vəzifəni? Özüm də bilmirdim. Açığını desəm, indiyə qədər yerinə yetirdiklərimi davam etdirməyə dəyərdimi? Ancaq məsələ heç bunda da deyildi. Həqiqətdə qəribə bir qorxu yaxamdan yapışıb əl çəkmirdi: bəs onda bütün yalan və cəfəng hərəkətlərimi etiraf etməmiş ölsəm, necə? Yox, günü-günə satmamış etiraf etmək lazımdır, şübhəsiz ki, Allaha və onun xidmətçilərinin birinə deyil. Bilirsiniz ki, insan kimi bu fikirlərdən yüksəkdə dayanırdım. Yox, sadəcə, insanlara, məsələn, dostlarımın birinə, yaxud sevdiyim qadına etirafda bulunmaq gərək idi. Azından yalanlardan birini gizlətmiş olsam, insanın ölümüylə o, əbədi gizlində qalacaqdı. Heç kəs heç zaman həqiqəti bilməyəcəkdi, çünki onu bilən tək bir insan artıq ölüb, əbədi yuxuya gedib, sirrini də özüylə aparıb. Həqiqətin bu şəkildə, yəni geriyə dönüşsüz məhv olması fikrimi qarışdırardı. Əvvəllər həqiqətin bu şəkildə ölməsi, bəlkə də, ürəyimi açar, mənə ləzzət verərdi. Bütün dünyanın baş sındırıb öyrənmək istədiyi şeyi bircə mənim bilməyim bilsəniz məni necə sevindirir, çünki üç ölkənin polisinin gecəbəgündüz axtardığı şey içimdə gizlənib. Ancaq o zamanlar ürək rahatlığının reseptini bilmirdim və sözün düzü, əzab çəkirdim.

Şübhəsiz ki, bu dəmlərdə özümü hər şeydən qoruyurdum. Başıma xeyir – bir insanın dediyi yalan və bir çox insan nəslinin tarixi və əsrlərin okeanında damla kimi itmiş hansısa yalanın üzərinə həqiqət işığı salmaq! Öz-özümə deyirdim ki, bütün yön və tərəflərdən düşünməli olsaq, şahidinin yalnız mən olduğum fiziki ölüm artıq bütün günahların bağışlanmasını təmin edən kifa-

yət qədər ağır cəzadır ki var! İnsan ölümqabağı hiss etdiyi əzabların bahasına xilas olur (yəni qəti yox olmaq haqqını qazanır). Ancaq ağır, getdikcə mürəkkəbləşən və təlx olan əhvalım düzəlmirdi, ölüm fikri məni addımbaaddım izləyirdi: onunla yuxuya gedir, onunla oyanırdım və ətrafdakı insanların mədhiyyəsi mənim üçün getdikcə daha dözülməz olurdu. Mənə elə gəlirdi ki, onlarla bərabər haçansa dediyim yalan da böyüyür, əndazəsiz hala gəlir və artıq onunla bacara bilmirəm.

Elə bir gün gəldi ki, buna daha dözmək mümkün olmadı. İlk reaksiyam qatma-qarışıq idi. Yalançıyamsa, bunu açıb hamının gözü qarşısında göstərməliyəm, ikiüzlülük maskasını cırıb bütün səfehlərin sifətinə çırpmalıyam. Onlar bunu sezməmiş maska sifətlərində oynamalıdır. Demək, belə, həqiqət məni təkbətək döyüşə çağırırsa, döyüşə hazır olmalıyam. Rişxəndlərin sırasını biçib-doğramaq üçün ümumi maskarad içində özüm-özümü biabır etməliyəm. Bir sözlə, məhkəməni kəsmək lazımdır. Rişxənd eləyənləri öz tərəfimə çəkməli,  yaxud nə qədər gec deyil, özüm onların cərgəsinə qoşulmalıydım; məsələn, belə bir plan tökürdüm ki, bütün korları itələyib küçələrə salasan, düşünürdüm ki, bu an hiss etdiyim boğuq və tam gözlənilməz sevinc, əslində, onlara hansı dərəcədə nifrət etdiyimdən yana idi; ağlımdan keçirdi ki, o kiçik və yaraşıqlı avtomobilin təkərini deşəsən, yaxud bənna və suvaqçıların çalışdığı yerdə durub var səsinlə çığırasan: "Siz, ey lütlər!", sonra metro vaqonlarında balaca uşaqların qulaqlarının dibini qızardasan. Bütün bu kimi sarsaq işlər barədə düşünsəm də, əslində, onların heç birini etmirdim, nəsə buna bənzər hərəkət edirdimsə də, tezcə unudurdum. İstənilən halda "ədalət məhkəməsi" sözünün özü məni qeyzləndirir, özümdən çıxarırdı. Bu sözü əvvəllər olduğu kimi, müdafiə çıxışlarımda sövqtəbii işlədirdim. Ancaq özümə cəza olaraq hamının

gözü qarşısında humanizmi yamanlayırdım; bəyan edirdim ki, yaxınlarda manifestim çıxacaq, burada əzilən sinfin maskasını yırtıb atacaq və sübut edəcəyəm ki, məhz onlar abırlı adamlara zülm edirlər. Ancaq bir gün restoranın terrasında lanqust yediyim zaman bir dilənçi məni özümdən çıxardı, sahibi çağırdım, dedim ki, bu yaramazı qovun və böyük məmnuniyyətlə bu işgəncə icraçısının nitqini dinlədim. "Əclaflar, hamının yerini dar edirsiniz, imkan vermirsiniz yaşayaq, bir anlığa özünüzü abırlı insanların yerinə qoyun", – rəzil dilənçinin üstünə güllə kimi yağan hədyan belə tamamlandı. Bundan sonra rastıma çıxan hər kəsə deyirdim ki, təəssüf, öz xarakteri ilə məni heyran edən heç bir rus mülkədarına qarşı artıq bu davranışı göstərmək mümkün deyil: fikir verin, faytonçuya əmr edir ki, ayağına yıxılıb yalvaran bütün təhkimlilərini qamçılasın və hamını ədəbsizliklərinə görə cəzalandırsın.

Yeri gəlmişkən, bundan da dəhşətli əxlaqsızlıqları xatırlayırdım: əvvəlcə "Polisə mədhiyyə"ni və "Gilyotin pofeozu"nu yazmağa başladım. Ən əsası isə özümü bizim məşhur humanistlərin yığışdığı kafeyə getməyə məcbur edirdim. Şöhrətimin hesabına onlar, şübhəsiz ki, məni gülərüzlə qarşılayırdılar. Və bir gün bu adamların içində, bir növ, qadağan edilmiş sözü tələffüz etdim: "Allaha şükür", – dedim, yaxud sadəcə, qışqırdım. Bir bilsəniz bizim restoran ateistləri nə hala düşdülər, necə qızarıb-pörtdülər. Belə dəhşətli və namünasib sözü eşitcək bir anlığa silkələndilər, sakitcə bir-birini süzdülər, sonra səs-küylü, iztirablı həyəcan yaşandı: kimsə başını götürüb restorandan qaçdı, kimsə hiddətlə ağzını açıb başını tutdu; bu məclisdə yerində qıvrılmayan yox idi, elə bil, üzlərinə soyuq su çiləmişdilər.

Bu çıxışımı tərbiyəsiz uşaq hərəkətimi hesab eləyirsiniz? Ancaq bir düşünün, bu zarafatda çox ciddi bir

çalar da vardı. Məqsədim onların oyunlarını pozmaq idi, bundan da mühümü artıq məni cana doyduran şan-şöhrətli, bəh-bəhli imicimi beş qəpiklik etmək idi. “Sizin kimi bir zat...” – mənə elə beləcə deyirdilər, mənsə qəzəbdən sapsarı olmuşdum. Dəysin təpələrinə, onların hörməti də lazım deyildi mənə, çünki bu hörmət hissində həqiqi heç nə yox idi və necə ola bilərdi ki, mən özüm ona inanmır, bel bağlamırdım. Demək, hər şeyin – insan mühakiməsinin və “abırlı cəmiyyətin” iltifat etdiyi hörmətin üstünü cəfənglik və gülüşlə örtmək lazım idi. Məni dördəlli boğan bir hissin dışarı çıxmasına yol qoymalıydım. Bütün çıxışlarımda libas kimi əyin-başımda olan o gözəl manekeni tikə-tikə doğrayıb içindəki rəzaləti ətrafdakılara nümayiş etdirmək istəyirdim; məsələn, vəkil olmaq istəyən, təcrübə keçməyə gələn gənc şəxslərlə söhbəti xatırlayıram. Məni auditoriyaya təqdim edən “vəkillər zümrəsinin” başçısının ağlasığmaz təriflərindən özümü itirmiş halda birdən partladım. Məndən gözlənilən və heç bir çətinliksiz sifarişlə üyüdüb-tökdüyüm sözləri hamıya sirayət edən bir həyəcanla tələffüz etməyə başladım. Sonra mən bu günün əyyaşının müdafiə üsulu qismində nəyisə tövsiyə etdim. Şübhəsiz ki, bu gün bizim inkvizisiya divanxanamızda tətbiq edilən təkmilləşdirmə metodu ilə deyil; bu məqamda bilirsiniz də nə edirlər: müttəhimlər kürsüsünə oğruyla ləyaqətli adamı eyni sırada otuzdururlar ki, birincinin cinayətini ikincinin boynuna atsınlar. Yox, söhbət ondan gedirdi ki, burada oğrunu ləyaqətli adamın, konkret nümunədə vəkilin cinayətinin qiyməti bahasına müdafiə edirlər. Fikrimi tam aydın ifadə etmişdim.

“Təsəvvür edək ki, mən qısqanclıq zəminində qətl törədən çox həssas bir insanı müdafiə etməliyəm. Hörmətli vəkillər, özünüz fikirləşin, bu adamın üstünə qışqırmaq, əsəbiləşmək günahdır, özünüz görürsünüz ki,

xislətindəki xeyirxahlıq cinsi ehtiras müqabilində nəyə çevrildi. Burada mühüm olan budur ki, bu saat mən müttəhimlər kürsüsündə deyil, mənim üçün ayrılan yerdə oturmuşam, halbuki mən ömrümdə hiyləgər xəyanətin qurbanı olmaqla nə xeyirxahlıqda, nə də başqa cəhətlərdən ondan daha ləyaqətli olmamışam. Azadlıqdayam, sizin çox ciddi və qınayıcı baxışlarınız altında əriyib-gedən mən deyiləm. Axı mən kiməm? Qüruru günəş kimi yanan bir vətəndaş, həm də eyni zamanda şəhvət əsiri bir yaramaz, hirsi dağları yıxan firon, birincidərəcəli avara. Heç kəsi öldürməmişəm? Şübhəsiz ki, yox, indiyə kimi yox! Ancaq olsun ki, çox ləyaqətli qadınlar mənim ucbatımdan məhv olub çürüdülər. Çox böyük ehtimalla. Bu işlərdən əl çəkməmişəm ki? Bilmərrə! Ancaq bir ona baxın – müttəhimlər kürsüsündə oturan müqəssir törətdiyi əməli bir daha təkrarlamayacaq. İndinin özündə də xatırlamır ki, niyə belə etdi, necə qıydı..." Bu nitq mənim gənc həmkarlarımı bir balaca həyəcanlandırdı. Ancaq bir az sonra özlərinə gəlib qəhqəhə ilə gülməyə başladılar. Sonra hamı sakitləşdi, nitqimin nəticə hissəsinə yetişəndə hamını bəlağətlə insan ləyaqətini və onun ana südü kimi halal hüquqlarını qorumağa çağırdım. Vərdiş məndən güclü çıxdı.

Bütün bu ədəbsiz çıxışlarımla ancaq ona nail ola bildim ki, haqqımda formalaşan fikrində bir neçə adam tərəddüd etməyə başladı. Pərəstişkarları tərk-silah etmək, ən əsası isə özümün silahı yerə qoymağım... alınmadı. Adətən, mənə qulaq kəsilən şəxslərin gözündə gördüyüm təəccüb, onların sükut içindən boy atan, indi – bax etiraz-filan istəmirəm – sizin canınızdan titrətmə keçən şeyə bənzəyən pərtliyi mənə zərrə qədər də olsa, sevinc gətirmədi. Görürsünüzmü, təqsirsiz olmaq üçün təkcə özünü dara çəkmək hələ kifayət etmir, əks halda xalis quzu olardım. Özünü, bilirsiniz-

mi, xüsusi tərzdə günahlandırmaq lazımdır, bu qaydanı işləyib-hazırlamağa mənə çoxlu vaxt lazım oldu, ona yalnız onda yiyələndim ki, artıq hamı məndən ikrah edirdi. Ancaq bu vaxta qədər ətrafımda hamının üzündə qəribə gülüşlər görünüb-itirdi və mənim bütün xaotik cəhdlərim onu xeyirxah, demək olar, şəfqətli nüansdan məhrum edə bilmədi – baxanda ürəyim sıxılır.

Dənizin suyuna baxın. İndicə paroxod gələcək. Gün bitir. Göyərçinlərə baxın, ən hündürdə uçurlar. Bir-birinə elə sıx qısılıblar ki, yerindən azca tərpənə bilməzsən. Gəlin susaq, belə bir qürub, kifayət qədər qəmgin məqamda özümüzə dalaq. Yox? Sizi daha çox başıma gələnlərmi maraqlandırır? Çox lütfkarsınız. Yeri gəlmişkən, sizi, sözün əsl mənasında, maraqlandıra bilərəm. Tövbə hakiminin nə demək olduğunu aydınlaşdırmaq üçün sizə mən pozğunluq və daş dolu kisələrdən bəhs edərəm.

Əzizim, siz səhv edirsiniz, paroxod sürətlə gedir. Ancaq Zayderzeyə gəlincə – demək olar, ölüdür, ölü dənizdir. Sahil tərəf dayazdır, dumana qərq olub, dənizin harada başlayıb, harada sona çatdığını bilə bilməzsən. Bircə nişan ağacı da yoxdur ki, hərəkətin sürətini hiss edə biləsən. Paroxod üzür, üzdükcə də böyürbaşında heç nə gözə dəymir. Bu, bəlkə, bir yuxudur?

Yunan arxipelaqında olanda tam əks duyğular keçirmişdim. Üfüq xəttində yeni-yeni adalar peyda olurdu. Bu çılpaq və daşlı adalar ətrafdakı sıra dağlarla səmanın sərhədini cızır, qayalı sahillər dənizin fonunda apaydın görünürdü. Belə yerdə azmazsan: ilahi, işıq nə qədər bol olarmış, hamısı da nişan ağacı misalı. Məndə elə bir təəssürat oyandı ki, sanki, gecə-gündüz bilmədən soyuq dalğaların birindən digərinin ağuşuna atılıram, beləcə, bir adadan digərinə keçirəm, üstəlik, paroxodumuz zəif irəliləsə də, hiss edirdim ki, hansısa qüvvə onu arxadan itələyir və bu dəm dalğaların

köpüyü və gülüş səsləri göyərtəyə tökülürdü. O zamandan bəri Yunanıstanın özü də içimdə üzür, yaddaşımın bütün künc-bucağı oyandıqca-oyanır. Budur bax, mən də tutuldum lirizmin dalğalarına. Bəlkə, əlimdən tutub məni dayandırasan, dostum?!

Yeri gəlmişkən, Yunanıstanı tanıyırsınızmı? Tanımırsınız? Lap yaxşı! Yunanıstanda nə itimiz azıb. Ora təmizürəkli insanlar lazımdır. Təsəvvür edin, orada dostlar əl-ələ tutub gəzirlər. Bəli, qadınlar evdə oturub, kişilərsə – yetkin yaşda, görkəmli, bığlı-saqqallı insanlar – səkilər boyu əl-qol ölçürlər, barmaqlarını dostunun barmaqlarına keçirərək. Görəsən, Şərqdə də belədir? Ola bilər. Ancaq bir deyin görüm, Parisin küçələrində əl-ələ tutardıqmı? Yaxşı, zarafat edirəm. Biz axı özümüzü toparlaya bilirik, biz çirkin şübhələrdən ömür-billah qorxuruq. Yunan adalarına yan almazdan qabaq uzun müddət yuyunmalı olduq. Orada hava elə təmizdir, orada dəniz və insan sevinci elə işıqlıdır ki... Bizsə...

Gəl bu şezlonqların üstündə oturaq. Dumana bax, dumana! Yanılmıramsa, sizə daş dolu kisələrdən danışacaqdım? Bəli, səbrinizi basın, indicə bunların nə demək olduğunu sizə pıçıldayacağam. Uzun müddət başımı-gözümü şillə-yumruqdan qorudum, əbəs yerə üzümə məğrur insan görünüşü, məsumluq ifadəsi verdim, ancaq güc qurtaranda, bütün cəhdlərimin əbəs olduğuna inandıqdan sonra insan cəmiyyətindən qurtulmaq qərarına gəldim. Yox, heç bir insan yaşamayan ada axtarışına çıxmadım: beləsini indi axtarsan da, tapa bilməzsən. Sadəcə, qadınlara sığındım. Demək artıqdır, bilirsiniz ki, onlar içimizdəki zəif cəhətləri mühakimə etmirlər, sadəcə, gücümüzü azaltmağa cəhd göstərirlər, bizi tərk-silah etmək istəyirlər. Qadın fatehin deyil, caninin mükafatıdır. Onun üçün qadın körpüdür, sakit limandır; cani yataqda yaxalanır qadınlar tərəfindən. Qadın! Yer üzünün cənnətindən payımıza bundan

başqa heç nə düşmür, deyilmi? Özümü tam itirmiş halda bu körpüyə yetişdim. Ancaq indi dilim lal, başım aşağı, kəlmə kəsmirəm. Düzdür, bir balaca rol oynadım, neyləyim, adətkərdəyəm, ancaq əvvəlki sənətkarlığım qalmayıb. Etiraf etməkdən çəkinsəm də (belədə, Allah saxlasın, natiqliyin tutacaq!), səhv eləmirəmsə, məhz həmin məqamda əsl məhəbbət acısı çəkdim. Həyasızlıqdır, deyilmi? İstənilən halda qüssə məni yıxacaq; ürəyimdən qəribə hisslər keçir, özümdən asılı olmayaraq kövrəlirəm, bilmirəm, bəlkə, heç özümdən asılı olmadan üzərimə öhdəliklər götürürəm. Sevmək, sevilmək ehtiyacı yarandı, buna görə də təxəyyülümdə canlandırdım ki, guya, artıq kimsə məni dəlicəsinə sevir. Başqa sözlə, səfeh olub getmişdim.

Nə qədər təcrübəli olsam da, indiyə qədər də həmişə qaçdığım sual veriləndə çox nadir hallarda özümü itirmirdim: "Sevirsənmi məni?" Şübhəsiz, bilirsiniz ki, bu kimi vəziyyətlərdə insan hansı cavabı verə bilər. "Bəs sən?" Desəm ki "sevirəm", demək, əsl hisslərimi aldatmış oluram. Yox, əgər cəsarət edib "yox" desəm, aqibətin necə olacağından Allah saxlasın, üzümə nifrətlə baxıb çıxıb gedər, mənsə dərddən üzülərəm. Ürəyimi sakitləşdirmək istədiyim duyğu nə qədər çox təhlükə ilə təhdid edilirdisə, tərəf-müqabilimdən bu hissi hamının acığına daha çox alıb qopartmaq istəyirdim. Getdikcə tam aydın, ikili yozuma yer qalmayan məqama yetişir və ürəyimdən daha dərin hissləri sərgiləməyi tələb edirdim. Belə olduqda üzdən dəhşətli dərəcədə cazibədar sarsaq bir qızın eşqində yalançı ehtirasla alışıb-yanmağa başladım. Bu qız erotik nəşrləri vərəqləyir, özünə bab məsləhətlərin dalınca cumur, sinifsiz cəmiyyətin zirvəsində qərar tutan intellektualın məhəbbətindən qəti inamla danışırdı. Siz uşaq deyilsiniz, bu cür inamın haradan cücərdiyini bilməmiş olmazsınız. Mən də məhəbbət haqqında danışmağa cəhd

etdim və nəhayət, ilk olaraq özümü inandıra bildim ki, guya, kimisə dəlicəsinə sevirəm. Sözün açığı, belə bir inamla o vaxta qədər yaşadım ki, bax o səfeh qız gəlib çıxdı qarşıma. Yəqinləşdirdim ki, qəlb məsələlərində ixtisaslaşan müəlliflər ona sevgidən söz açmaq qabiliyyətini aşılayıblar, ancaq təcrübə... demək olar ki, yoxdur. Bax belə bir təqlidçi ilə sevişməli oldum, yatanda... ilanla bir yastığa baş qoymalı oldum. Belədə kitablarda haqqında bolluca danışılan, həyatım boyu bircə dəfə də rastlaşmadığım sevgini başqa qadınlarda axtarmalı oldum.

Ancaq xüsusi ehtirassız-filansız axtarırdım. Axı otuz ildən çox idi özümdən başqa heç kəsi sevməmişdim. Artıq dərinlərə kök salan bir hissdən ayrılmaq asandır? Mən də köhnə bir kişi kimi ondan ayrılmadım, bəzi təsadüfi hallarda ehtiraslı məhəbbəti hiss etmək cəhdində də bulundum. Verdiyim vədlərin sırasını sıxlaşdırdım, eyni zamanda bir neçəsinə vuruldum, arı kimi çiçəkdən-çiçəyə qondum; olurdu ki, eyni zamanda bir neçəsi ilə vədələşirdim. Bu təsadüfdə, qayğısız, laqeyd olduğum vaxtlarla müqayisədə nə qədər dərd-sərim vardı, qadınların üstünə yükləyirdim. Bir təsəvvür edin, mənim səfeh tutuquşum ümidsiz vəziyyətində aclıqla həyatına son qoymaq fikrinə düşdü. Xoşbəxtlikdən, bu cəfakeş qıza özümü vaxtında yetirə bildim və o vaxta qədər ona ürək-dirək verdim ki, sevib-əzizlədiyi həftəlik jurnaldan sorağını aldığı mühəndis Bali adalarını gəzib-dolaşdıqdan sonra geri qayıtdı. İstənilən halda, necə deyərlər, sevincdən göyün yeddinci qatına qalxmadım, heç günahlarım da bağışlanmadı, əksinə, günah yükü daha da ağırlaşdı. Bundan sonra məhəbbət deyilən şeyə qarşı ürəyimdə elə dərin nifrət baş qaldırdı ki, uzun müddət dişlərimi qıcırtmadan "Qızılgüllər arasında keçən ömür", yaxud "Məhəbbət və İzoldanın ölümü"nü dinləyə bilmirdim. Gücüm çatdıqca

qadınlardan qaçmağa başladım. Qərara gəldim ki, təmiz həyat yaşayım. Onlarla dostluğum mənə ömrün sonuna qədər çəkməyə dərd vermişdi, bəsdir daha, yoruldum. Oyunlardan da əl çəkməli oldum. Ancaq ürəkdəki min cür meylin və şövqün də daşını atanda gördüm ki, həyatım cəhənnəmə çevrilir, darıxmaqdan çərləyirəm; bəli, yəqin ki, onlar da mənimlə olanda darıxırmışlar. Nə böyük oyunlar oldu, nə də teatr – üzdə olan çılpaq həqiqətdən başqa heç nə gözə dəymədi. Kim deyibsə, doğru deyib, bu – ölümdən betər tənhalıqdır.

Məhəbbət və mənəvi təmizlikdən cana doyaraq, nəhayət, qərara aldım ki, ehtiyatda əxlaqsızlıq durur – bu, əslində, mükəmməl şəkildə məhəbbəti əvəz edir; başladınmı, insanların ironiyalı gülüşünə son qoyulur, hər yerə sükut hakim kəsilir, ən əsası isə ölümsüzlük bəxş edir. Bir az sərxoş oldunmu, yəni dumanlı olsa da, ağlın başındadırsa, gecələr iki fahişənin arasında uzanıbsan, ürəyindəki həsrət və möhnətin tam axırına çıxıbsan və ən dəhşətlisi budur ki, bu qəhətlik də səni incitmir, bilirsinizmi, artıq bu gündən bəri, elə bəlkə, sabah da bütün həyatın sopsoyuq mühakimələr içində keçəcək və bununla da bütün əzab-əziyyətin keçmişdə daşlaşacaq. Məlum mənada o zaman eşşək kimi pozğunluq içində batmış, ancaq bircə gün də olsa, ölümsüzlükdən əl çəkməmişdim. Bütün bunlar mənim xislətimdə idi və həm də özümə böyük məhəbbətimdən irəli gəlirdi, bu barədə artıq sizə bəhs etmişəm. Bəli, gün kimi bilirdim ki, ölümsüzlük həsrəti məni yandırıb-yaxır. Özümün dəlisinə çevrilmişdim və görünür, bu divanəliyin ləl-cavahiri olan məhəbbətin əbədi yaşamasını istəyirdim. Ancaq bir balaca ayıq vəziyyətdə özünü iynənin ucu boyda tanıdığından ölümsüzlüyün hansısa çirkin və şəhvət ölüsü bir meymuna verilməsinə zərrə qədər də əsas görmürsən və buna uyğun olaraq

sən artıq ölümsüzlüyün surroqatını axtarıb tapmalısan. Buna görə də mən əbədi həyatın həsrətini çəkirdim, fahişələrlə yatırdım və gecələr içdikcə içirdim. Səhərlər ağzımda acı bir dad olardı, bütün öləri varlıqlarda belə olur. Ancaq uzun müddət göylərdə süzdüm. Artıq nəyi etiraf edəcəyimi də bilmirdim, hələ də bəzi gecələri riqqətlə xatırlayıram: hansısa şübhəli meyxanaya ayaq açdıqda, orada dodağındakı təbəssümdən mənə pay verən rəqqasəni gözləyəndə, xatirimdədir, bir dəfə onun üstündə hansısa lovğa küçüyün biri ilə də dalaşmışdım. Hər gecə barın piştaxtası önündə, qızılı-qırmızı işıqlarla bəzədilmiş üstü kül dolu bu zərbaftalı yerdə boşboğazlıq edirdim, yarmarkadakı diş həkimi kimi gopa basırdım, içdikcə içirdim. Günün doğmasını gözləyərək şahzadəmin yatağına uzanırdım, o, dərhal öpüşlərdən bihuş olur və anidən yatırdı. Beləcə, şöhrətin şəfəqlərindən yapışıb göylərə uçurdum.

Alkoqol və qadınlar, etiraf edirəm ki, necə deyərlər, adıma layiq təskinlik gətirirdi. Əziz dostum, bu sirri sənə açıram, ancaq ondan istifadə etmək istəyəndə qorxma. Onda özün inanacaqsan ki, əsl pozğunluq xalis xilaskardır, çünki sənin üzərinə heç bir öhdəlik qoymur. Elə bir vəziyyət yaranır ki, öz haqqında çox şeyi öyrənirsən, elə buna görə də yalnız özünə alovlu eşqlə aşiq olanlar daha çox pozğunluq edirlər. Pozğunluq gələcəyi və keçmişi olmayan cəngəllikdir, ən ümdəsi isə vədsiz və cəzasızlıq məkanı. Onun üçün təyin edilən yer dünyadan görünməz bir xətlə ayrılıb. Bura daxil olanda qorxunu və ümidi bir yana at getsin. Orada danışmaq bir elə önəm kəsb etmir, nəyə görə gəldiyini isə söz demədən də ala bilərsən, bəzən isə lap pulsuz da. Ah, icazə verin, adsız və unudulmuş qadınların şərəfinə bir-iki kəlmə deyim. İndi yaddaşımı qurdalayanda o qadınların adına ürəyimdə dərin hörmət cücərir.

Hər halda, qüssədən qurtulmağın bu kimi vasitələrindən dayanmadan, durmadan istifadə edirdim. Məni hətta bir gün xüsusi, necə deyərlər, zinakarlar üçün nəzərdə tutulan mehmanxanada görən olmuşdu, burada mən bir az yaşlı fahişə və adlı-sanlı cəmiyyətdən çıxan gənc qızla yaşayırdım. Birinci ilə sadiq cəngavər rolunu oynayırdım, ikincisinə isə real gerçəkliyin bəzi sirlərini etibar edirdim. Bədbəxtlikdən, fahişə xisləti etibarilə ifrat lütfkar idi: daha sonra o, səhifələrində müasir cəmiyyətin problemlərini qaldıran hansısa kilsə jurnalı üçün xatirələrini yazmağı boyun oldu. Gənc qız isə yüyənsiz ehtiraslarını ram etmək və qüsursuz məziyyətlərinin açılması üçün özünə yer tapmaq arzusu ilə ərə getdi. Sinəmə döyüb özümü tərifləyə bilərəm, bu zaman üstünə tez-tez iftira atılan hansısa kişi korporasiyası məni bərabərhüquqlu üzv kimi qəbul etdi. Bu barədə faktı elə-belə, yeri düşmüşkən nəzərinizə çatdırmaq istədim. Sizin də bildiyiniz kimi, hətta ən ağıllı insanlar da qonşusundan bir şüşə artıq araq içməyi ilə qürrələnirlər. Görünür, belə bir münasib və xoş məclislərdə könül rahatlığı tapa bilmiş, ən əsası isə əzablardan biryolluq qurtulmuşdum. Buna kim əngəl ola bilərdi ki, əlbəttə, özümdən başqa. Qəfildən qaraciyərimdən ağrı qopdu, üstəlik, yorğunluq üstümə çökdü, qəfil yıxılan bina kimi; indinin özündə də canımdan çıxmır ki çıxmır. Bax bir, "ölümsüzlük oyununu" oynayırsan və bir neçə həftədən sonra güclə ayaq üstə dayana bilirsən və sabaha qədər yaşayıb-yaşamayacağını heç kəsdirə bilmirsən.

Gecə şücaətlərimdən imtina etdikdə həyat nisbətən az əzabverici oldu və bu təcrübənin yeganə faydası elə bunda idi. Cismimi ölə-ölə ardınca sürüyən yorğunluq ürəyimi neştər kimi dəlib keçən bir çox iynənin ucunu korşaltdı. İfrat olan hər şey həyat eşqini azaldır, yəni öz növbəsində, çəkdiyin əzabın yükünü də azaldır.

Açıq-aydın biabırçılığı bir tərəfə qoysaq, pozğunluqda, əslində, azğın bir şey yoxdur. Bu, sadəcə, uzun bir yuxudur. Bəlkə də, bilirsiniz, qısqanclıqdan əziyyət çəkən insanlar üçün, artıq bir dəfə xəyanət etmiş qadınlarla yatmaqdır. Görünür, onlar bir dəfə də həminləlin məhz onlara aid olduğuna əmin olmaq istəyirlər. Əslində, həsrət çəkdikləri sahiblik duyğusudur ki, bir dəfə yatıb-durduqdan sonra o da zəifləyir. Cisim və bədənlə bağlı qısqanclıq, sadəcə, təxəyyülün və insanın özü haqqında gəldiyi nəticənin məhsuludur. Rəqibin ayağına məhz elə murdar düşüncələri yazırlar ki, oxşar vəziyyətdə özləri belə düşünərdilər. Xoşbəxtlikdən, ləzzətin artıqlığından təxəyyül də elə onun özü barədə rəyi qədər tənəzzülə uğrayır. Qısqanclıq əzabları cəsarətlə birlikdə sönür və elə onun qədər uzun müddət yuxuya gedir. Elə eyni səbəblərə görə gənclər ilk eşq məşqlərindən sonra metafizik həyəcanlardan qurtulsalar da, xüsusi olaraq qanuni çərçivəyə salınmış nikah da cəsarət və ixtiraçılıq istedadının məzarına dönür. Bəli, əziz dost, burjua nikahı bizim ölkəyə çəkələklərlə gəldi və tezliklə onu ölüm divarına dirəyəcəkdir.

Məsələni şişirtmirəm ki? Əksinə, məsələdən uzaqlaşıram, deyəsən. Sadəcə, bir neçə aylıq pozğunluq oyunlarından necə faydalandığımı dilə gətirmək istəyirdim. Sanki, duman içində yaşayırdım, burada ardımca çaparaq gələn gülüş elə küt səslənirdi ki, axırda heç səsi gəlmədi, xırp kəsildi. Qəlbimdə bir elə yer tutan laqeydliyin qarşısında artıq heç bir maneə yox idi, sklerozsa getdikcə dərinləşirdi. Həyəcanlara son! Əhvalım normal, qaydasında idi, daha doğrusu, onun özündən əsər-əlamət yox idi. Vaxtilə vərəmə tutulan ağciyərlərim hərdən quruyurdu və yavaş-yavaş onların xoşbəxt sahibi təngnəfəslikdən ölürdü. Beləliklə, tapdığım şəfadan sakitcə ölürdüm. Hələ də vəkilliklə dolanırdım, halbuki müxtəlif təsadüflərdə etdiyim söhbətlərdə

meydana çıxan ədəbsiz çıxışlarımla imicimi ayaqlar altına atmışdım, ancaq dağınıq həyat tərzi müntəzəm hakimlik təcrübəsi ilə məşğul olmağıma maneçilik törədirdi. Yeri gəlmişkən, maraqlıdır ki, gecə sərgüzəştlərindən çox, məni bu adda-budda çıxışlarıma görə təqsirləndirirdilər. Məhkəmə çıxışlarımdakı Allah-taalanın adına edilən xalis natiq istinadları müştərilərimdə mənə qarşı etimadsızlıq yaradırdı. Görünür, göylərin onların maraqlarını cinayət və mülki məcəlləni beş barmağı kimi bilən mahir vəkil qədər mükəmməl müdafiə edəcəyinə inanmırdılar. Deməк, ürəklərində tam əmin idilər ki, Allaha müraciət yalnız cahilliyimdən irəli gəlir. Buna görə də onların sayı getdikcə azalırdı. Hələ də təsadüfdən-təsadüfə məhkəmələrdə çıxışlar edirdim. Artıq öz dediklərimə özümün də inanmadığımı unudaraq bir dəfə necə oldusa, yaxşı nitq elədim. Səsimdəki cazibə məni dalınca dartıb aparırdı; halbuki əvvəllər olduğu kimi, hələ ilham pərisi göylərdə qanad çalmırdı, ancaq deyəsən, ayaqlarım yerdən üzülmüşdü, necə deyərlər, alçaqdan uçurdum. İşlə bağlı tanışlarımdan başqa, demək olar, heç bir kimsəylə görüşmürdüm, nəfəsim iki-üç nəfərlə əlaqə yaratmağa güclə kifayət edirdi. Hətta elə olurdu ki, axşamlar vaxtımı heç bir şeytani arzunun bulaşmadığı xalis dost məclisində keçirirdim; başımı aşağı salıb tərəf-müqabili dinləyir, bir kəlmə də kəsmirdim; ancaq dinləyirdim. Bir balaca kökəlmişdim də və artıq inanmağa başladım ki, böhran keçib-getdi. Buradan yol birbaşa qocalığa gedirdi.

Ancaq bir dəfə, rəfiqəmi də dəvət etdiyim dəniz səyahətində – düzdür, ona sağalmağımı qeyd etmək niyyətimdən heç nə deməmişdim – okean paroxodunun bortunda, yuxarı göyərtədə dayanmışdım; biz açıq dənizdə üzürdük, birdən uzaqda, göyümtül-boz dalğaların fonunda qara bir nöqtəni sezdim. Dərhal

gözlərimi qapadım, ürəyim sürətlə döyünməyə başladı. O tərəfə bir də baxmaq istədikdə qara nöqtə harasa qeyb olmuşdu. Ancaq onu bir də gördüm, az qaldı qışqırıb insanları köməyə çağırım. Lakin sən demə bu, paroxodların dənizə tulladığı yeşik qırıntıları imiş. Ancaq hər halda, onları görməkdə səbirsizlənir, hələ də zənn edirdim ki, bu, suda boğulmuş adam da ola bilər. Dəhşətli bir xəbərdən sonra yaranan sakitlikdə bunun həqiqət olduğuna zərrə qədər də həyəcanlanmadan anladım ki, bir neçə il öncə Sena çayından gələn, sonralar kürəyimin arxasında dayanıb məni addımbaaddım təqib eləyən qışqırıq kəsilməyibmiş; çay onu La-Manşın sularına dartıb-aparmış, indi artıq okeanın sahilsiz və dibsiz ənginliyində bütün dünyanı gəzib-dolaşır; bu günə qədər səbir edib məni gözləmişdi. Onu da anladım ki, bundan sonra da dünyanın bütün dəniz və çaylarında, bir sözlə, xaç suyuna çəkildiyim acı suların olduğu hər yerdə məni gözləyəcək. Burada da elə suyun içindəyik, deyilmi? Nəhəng dalğaları torpağı öpməkdən yorulmayan hamar və sahilsiz bir məkanda. Ancaq adamın inanmağı gəlmir ki, tezliklə Amsterdamda olacağıq. Yox, bu kupenin içindən ömür-billah çıxa bilməyəcəyik. Qulaq asın. Məgər qağayıların qışqırtısını eşitmirsiniz? Bizi çağırırlar. Nəyə, niyə çağırırlar, görəsən?

Sən demə, bunlar hələ ki sağalmadığımı, əvvəllər olduğu kimi, çıxmaza dirənib nədənsə əzab çəkdiyimi və nəsə eləməli olduğumu aydın şəkildə anladığım həmin gün Atlantik okeanında məni çağıran qağayılarmış. Parlaq karyeraya son qoyuldu, bununla içimdəki hiddətə və coşqun ehtiraslara da düyün vuruldu. Tabe olmaq və günahlarını etiraf etmək məqamı çatdı. Ağır oturub batman gəlməlisən, kisənin içindən bayıra çıxmamalısan. Ancaq "kisə" sözünü haradan bilərsiniz?! Orta əsrlərdə yerin altındakı qazamatı belə adlan-

dırırdılar. Həbs edilən şəxsi bir ömür boyu ora atırdılar. Bu qazamat digər kameralardan dəqiq şəkildə, ən əsası isə məxsusi ölçüləri ilə fərqlənirdi. O qədər hündür deyildi ki, belini şax tuta biləsən, o qədər uzun da deyildi ki, uzana biləsən. Əlacın təkcə ona qalırdı ki, diaqonal boyu əyilib uzanasan, yuxu ayağından dartıb aparır, oyandıqda isə məcbursan çömbəlmə oturasan. Dostum, görürsənmi necə dahiyanə kəşf imiş bu. Sadə olduğu qədər də dahiyanə! Fasiləsiz və məcburi hərəkətsizlik, bunun nəticəsində bədən tamamilə keyləşir, gec-tez günahkar olduğunla razılaşırsan, təqsirsizliksə sənə eninə-boyuna gəzişmək imkanı və hüququ verir. Daim hündürlükdə yaşamağa adət etmiş insanı belə bir darısqal kisənin içində təsəvvür edirsinizmi? Nə? Məgər belə qazamatda yaşayıb da günahsız olmaq mümkündürmü? İnanmıram, qəti inanmıram. Əks halda gərək məntiqə inanmayasan. Günahsız adamın nəyin bahasına olursa olsun, orada yaşayıb qozbelə dönməsinə birtəhər inansaq da, yox, belə bir gümanı bir dəqiqəliyə də yaxına buraxmaram. Yeri gəlmişkən, heç kəsi təqsirsiz elan etməyə dəyməz, yeri də deyil heç bunun, ancaq hamının günahkar olduğunu təsdiqləməyə dəyər və lazımdır. Hər bir insan digər insanların törətdiyi cinayətin şahididir – mənim əqidəm və inamım bundan ibarətdir.

İnanın, mənəviyyat ehkamlarını işləyib-hazırlayanda, bizlərə əxlaq dərsi keçib gur-gur guruldayanda... dinlər dərindən-dərinə yanılır. Kiminsə boynuna ağır günah şələsi qoyub, onu cəzalandırmaq üçün Allaha ehtiyac yoxdur. Bunun üçün kifayət sayda həmcinslərimiz var, onlara elə özümüz əl tuturuq. Bax siz qiyamət günündən danışdınız. İcazə verin, çox böyük ehtiramla buna gülüm. Mən onu bir ömür susaraq gözləyirəm: təcrübəmdə dəhşətli şeyləri az görməmişəm: insanlar arasındakı qiyamət, sizcə, az dəhşətlidirmi?

Belə bir yerdə heç bir yüngülləşdirici hal yoxdur, hətta ən xeyirxah niyyət belə cinayət sayılır, onu günah dəryasına itələyir. Siz heç tüpürcək təcridxanası haqqında nəsə eşidibsinizmi? Hansısa xalq bu yaxınlarda yer üzündə ən böyük və ən qədim xalq olduğunu sübut etmək üçün bunu kəşf edib. Məhbusun boyaboy dayandığı bu daş qutunun içində hərəkət eləmək mümkünsüzdür. Onu sement içinə pərçimləyən zindan qapı çənəsinə dirənir. Demək, görünən yalnız məhbusun üzüdür, hər bir gözətçi oradan keçəndə lombasıyla onun üzünə tüpürür; qutuya pərçim edilmiş məhbus üzünü silə bilmir, ancaq gözünü yuma bilər. Bax budur insan ağlının kəşf elədiyi nəsnə. Belə bir kiçik şedevr üçün onun, yəqin ki, Allahın köməyinə ehtiyacı olmayıb.

Nə demək istəyirəm? Allahdan gələn yeganə xeyir o ola bilərdi ki, o, günahsızlığa zəmanət verəydi və mən dinə yekə bir paltaryuyan qazan kimi baxardım – əslində, haçansa, ancaq çox qısa müddətdə, səhv eləmirəmsə, cəmi üç il elə belə də olub – və o zaman adına din deyilmirdi. O vaxtdan sabun kifayət etmir, üz-gözümüz hisin içindədir və əlac kimi bir-birimizin burnunun üstündəki ləkəni silməklə məşğuluq. Bütün dilənçilərin, bütün cəzalandırılmış şəxslərin üzünə tüpürüb daş qutuya quylayaq! Görək kim daha çox tüpürəcək, görək birinci kimin üzünə tüpürəcəyik, vəssalam. İndi, əziz dost, sənə çox böyük bir sirr açacağam. Qiyamət gününü gözləməyin. Hər gün baş verir o.

Yox, narahat olmayın, bir az üşüdüm, əsməyim ondandır. Rütubət nəfəs kəsir. Az qala, üzürük. Ancaq tez çıxıb getməyin, bir az yanımda qalın. Fikrimi deyib qurtarmamışam. Davam etmək lazımdır. Ən çətini də elə davam eləməkdir. Dayanın, bilirsinizmi, onu – indicə, bəlkə də, fikrinizdə olan şəxsi – nəyin üstündə çarmıxa çəkdilər? Yaxşı, deyək ki, bunun üçün çoxlu səbəb

varmış. İnsanı öldürmək üçün səbəb istənilən zaman tapılar və əksinə, əfvi əsaslandırmaq heç də həmişə mümkün olmur. Elə buna görə də cinayət həmişə vəkilləri tapır, günahsızlıq isə tək-tənha qalır. İki min il ərzində başımıza döyə-döyə bizə təlqin edilən səbəblərdən başqa, belə bir dəhşətli qətlin çox mühüm bir səbəbi də vardı, ancaq bilmirəm nəyə görə onu belə cidd-cəhdlə gizlədirlər. Həqiqi səbəb ondaydı ki, onun özü də tam günahsız olmadığından xəbərdar idi. Çiyinlərində üstünə atılan ittihamların ağır yükü olmasaydı, hətta yuxusunda belə görmədiyi başqa günahlar işlədərdi. Onlardan xəbərsiz idimi? İstənilən halda o, hadisələrin mərkəzində dururdu; günahsız insanların qətlə yetirilməsi haqqında, şübhəsiz ki, eşitmişdi. İudanın körpələrini qırıb-çatanda valideynləri onu xata-bəladan uzaq bir yerə aparmışdılar. Ona görə deyildisə, uşaqları nə üçün qətlə yetirirdilər? Yəqin ki, bunu arzulamazdı. Üst-başı qana bulaşmış əsgərlər, ortadan iki bölünmüş körpələr... bütün bunlar qorxu, dəhşət yaradırdı. Və bütün bu əməllərdə sezilən qəm- qüssə gecə düşəndə bilaixtiyar qulaqlarını dələn sağalmaz nalə deyildimi; bu gecələrdə o, körpə uşaqları üstündə nalə çəkən və özünü bütünlüklə dərdin ayaqları altına atan Raşelin səsini eşidirdi. Dəhşətli iniltilər gecə qaranlığını yarıb keçir, Raşel məhz ona görə qətlə yetirilən uşaqlarını səsləyirdi, o isə sağ idi!

O, bütün gizli şeylərdən, insan qəlbinə üz verə biləcək hər şeydən xəbərdar idi – ancaq... Ah! Kim inana bilərdi ki, cinayət, sən demə, bu qədər insanı qətlə yetirmək yox, bunlara şahid olub ölməməkdir... – hər gecə özünün məsum cinayəti ilə üz-üzə gələndə ayaq üstə durmaq onun üçün nə qədər çətin idi. Demək, belə, gecə-gündüz bilmədən özünün məsum cinayəti haqqında düşünürdü və belə olduğuna görə ayaqlarını möhkəmcə yerə basıb yaşamaq onun üçün zülm idi.

Ən yaxşısı hər şeyə tüpürüb özünü buraxmaq, müdafiə olunmamaq, təkcə özünün salamat qaldığını görməmək, buradan rədd olub, bəlkə də, hansısa mülahizələrə görə müdafiə olunacağı başqa yerə köç etməmək naminə ölmək daha yaxşı olardı. Onu heç kəs müdafiə etmədi, buna etirazını bildirdi və belə olduqda ona cərimə kəsdilər. Bəli, məncə, yevangelist Luka onun şikayətli harayını mətndən çıxarmışdı: "Məni niyə tək qoydun?" – amma baxın, bu, elə-belə yox, üsyançı çağırışdır, elə deyilmi? Cəld ol, qayçını bəri ver! Ancaq Luka heç nəyi pozub-qaralamasaydı, çarmıxa çəkilmiş adamın şikayətini, bəlkə də, kimsə sezərdi; istənilən halda bu, bir elə önəmli yer tuta bilməzdi. Ancaq senzorun qadağası həmin çağırışı, bəlkə də, qışqırtıya çevirərdi. Dünyada hər şey çox qəribə bir düzümə tabedir.

Ancaq nə olursa olsun, senzuraya tuş gələn kəs daha davam eləyə bilməz. Əzizim, mən nə dediyimi bilirəm. Elə dəmlər olurdu ki, hər an elə bu dəqiqə öləcəyimi zənn edirdim. Bəli, bu dünyada müharibələr aparmaq, ədabazlıq etmək, məhəbbət oyunu çıxararaq ən yaxın adamını incitmək, özünü qəzet səhifələrinə sərib nümayiş etdirmək, yaxud sadəcə, corab toxuyan yerdəcə qonşunun dalınca qeybət etmək... hər şey mümkündür. Ancaq müəyyən vəziyyətlər var ki, yer üzərindəki varlığını davam etdirmək, sadəcə, davam etdirmək üçün superinsan olmalısan. O isə, inanın ki, heç də superinsan deyildi. O, çəkdiyi əzablardan şikayətlənirdi, elə bil, ağır yük altında canı çıxırdı. Bilirsənmi, dost, mən bütün dünyanın dərdi altında qalıb xıncım-xıncım olmuş bu adamı sevirəm.

Faciə odur ki, gedişiylə dünya boşaldı, bizi tək qoydu və hətta daş kisəyə salındıqda onun keçirdiklərini təcrübə etmək naminə bu sarsaq dünyada yaşamağı davam etdirsək də, onun elədiklərini eləyə, heç onun

kimi ölə də bilmədik. Şübhəsiz ki, onun ölümündən də faydalanmağa çalışdıq. Bizə demək ki: "Siz əzabkeş deyilsiniz. Bu bir faktdır. Ancaq gəlin detallara varmayaq. Ancaq çarmıxa çəkilən kimi bütün günahlarınız bağışlanılar", – dahiyanə epizoddur. İndi müsibətə tuş gəlmiş nə qədər insan çarmıxa dırmaşır – bilirsiniz niyə? Uzaqdan onları görsünlər, hətta artıq çoxdan çarmıxa çəkilmiş başqa bir adamı ayağı altında əzmək bahasına olsa belə. Xislətcə comərd olmayan nə qədər insan mərhəmətli olmaq arzusundadır. Ah, bilsən onunla necə ədalətsiz davrandılar! Ürəyim sinəmdə yırtılmasa yaxşıdır.

Ancaq baxın – bir az da irəli gedək, şikayətlərim hələ qurtarmayıb. Bağışlayın, bunu deməyə əlimdə əsas var, indi müdafiə nitqini hazırlayıram. Ümid edirəm nəyə görə bu tonda danışdığımı anlayarsınız; bilirsinizmi, bura yaxın bir yerdə "Tanrı bizi bizdən qoruyur" adlı muzey var. Keçmişdə hollandlar öz katakombalarını çardaqdaca rahlamışdılar. Nə edəsən, yer altındakı mağaraları həmişə su basırdı. Ancaq bu gün əmin olun ki, Tanrını nə çardaqda, nə də qazmalarda tapmaq olar. Onlar Tanrını artıq məhkəmə divarına, ürəklərinin sirrinə qədər gətirib çıxarmışlar, hər addımı onun adından atır, ən əsası isə onun adından mühakimə edir, asıb-kəsirlər. Onun adından! O isə azğın adama, sadəcə, bu sözləri demişdi: "Mən də səni mühakimə etmirəm". Ancaq onlar üçün bunun bir qara qəpiklik dəyəri yoxdur; belə ki, mühakimə edir, insanları asıbkəsir və heç kəsin günahını bağışlamırlar. "Allahın adıyla al gəldi, şillə qulağının dibinə!" Allahın adıylamı? Allah belə bir qeyrəti heç kəsdən gözləmir və bu işi heç kəsə həvalə etmir. Yalnız bunu istəyirdi ki, onu sevsinlər. Başqa heç nə! Şübhəsiz ki, hətta xristianlar içində də onu sevənlər var. Ancaq sayları nə qədərdir, bilirsinizmi? Barmaqların sayı qədər. Ancaq o, bunu

öncədən bilirdi, sanki, ürəyinə dammışdı, həm də yumor hissi var idi. Məlum olduğu kimi, apostol Pyer qorxub çəkildi və ondan üz döndərdi: “Bu insanı mən tanımıram... Sənin nə demək istədiyini anlamıram və sair və ilaxır...” Dəhşətli dərəcədə qorxmuşdu. Müəllimsə ona incə şəkildə irad tutmuşdu: “Kilsəmi bax bu daşın üstündə tikəcəyəm”. İroniyaya bax! Bundan o yanası yoxdur. Sizcə, elə deyil? Ancaq nə olsun, onlar yenə axırıncı gülən oldular: “Gördünüz ki, özü belə söylədi”. O, işi hərtərəfli bildiyi üçün elə belə demişdi. Sonra onlara insanları kəsib-doğramaq, mühakimə etmək fürsəti verməklə əbədilik getmişdi. Dildə bağışlama, ürəkdəsə dəhşətli hökm.

İndi, əziz dost, deyə bilərikmi ki, guya, dünyada, tanrıların olduqları yerdə artıq əzab-əziyyət qalmayıb? Bu barədə danışanda dil-boğaza qoymuruq... sadəcə, indi artıq heç kəsə bəraət verilmir. Günahsızlıq ölübgetdi, hakimlərsə hələ də qarışqa kimi qaynaşırlar; istədiyin hakimə rast gələ bilərsən – həm Məsihin, həm də Dəccalın əsgərləri olan hakimlər; yeri gəlmişkən, bu, elə bir qəbilədir ki, daş yeşiyi kəşf edəndə gizlincə bir-biriylə əl verib barışmışdılar. Hər şeyi xristianların üstünə yükləmək olmaz. Digərləri də durub tamaşa eləmir. Bilirsinizmi vaxtilə Dekartın yaşadığı evi bu şəhərdə nəyə çeviriblər? Dəlixanaya! Bəli, elədir ki, hər yerdə dəlilik və təqib izləridir. Görünür, biz də istədikistəmədik, bu oyunda iştirak edirik. Artıq görə bildiniz ki, heç nəyi gizlətmirəm. Fikrimcə, belə dünya düzənini siz də elə mənim qədər məzəmmət edirsiniz. Ancaq madam ki hamımız vəkilik, demək, hamımız bir-birimizin qarşısında günahkarıq, hamımız – hərə öz günahladında bir İsadır, hamımızı ard-arda çarmıxa çəkirlər, ancaq cəlladların özləri bunu görmürlər. Əgər yaranmış vəziyyətdən çıxış yolu tapmasaydım, başqa sözlə, həqiqətin yolunu tanımasaydım, mənimlə də eyni şey

baş verərdi, yəni bəndəniz Klamansın da başına bunlar artıq gəlmişdi...

Yox, əziz dost, siz qorxmayın, heç qorxmayın. Harada qalmışdıq? İndicə sağollaşıb ayrılacağıq. Bu da mənim evim. Tənha qaldınmı, yorğun-arğın vəziyyətdə, az qala, özünü peyğəmbər hesab eləyəsən – başqa çarənmi var? Ancaq əvvəl-axır mən də səhralıqda gizlənmiş, daşdan, duman və axmaz sudan yaranmış bir peyğəmbərə çevrildim, ancaq dinim – boşboğazlığımdır, çünki zəmanəmiz alçaqlığın hakim olduğu zamandır və məni Məsihin göndərmədiyi, bax bu yapışqan qapıya söykənərək barmağını bu alçaq göylərə tuşlayıb bütün bu qanunsuzluqlara lənət oxuyan, qızdırma və cindən başını itirmiş İlyas adlandıra bilərsiniz. Bəli, əziz dost, onlar heç bir mühakiməyə davam gətirmək cürətinə malik deyillər, buna dözə bilmirlər – məsələnin kökü də buradadır. Qanuna əməl edənlər qanundan qorxmaz, ən azı ona görə ki, bu, qanunun öz xarakterindən irəli gəlir. Ancaq insan üçün dözülməz əzab qanunu təpik altına salanların qurduğu məhkəməyə çağırılmaqdır. Bəzən onlara da dözməli oluruq. Zatən anadangəlmə əyləcsiz doğulan bu qanun yaradıcıları – qəzəbli, hikkəli hakimlər hər gün yeni-yeni qurbanları divana çəkirlər. Bu vəziyyətdə biz nə etməliyik? Bizi gözümçıxdıya salanları müəyyənləşdirməliyik. Hərc-mərclik də elə bu anda yaranır. Peyğəmbərlərin və şəfavericilərin sayı durmadan artır, onlar, hələ ki Yer kürəsində bəni-adəm yaşayır, vurhay gözəl qanunların və qüsursuz ictimai quruluşun dalınca yüyürürlər. Sizə təşrif gətirdiyimə görə mənə minnətdar olmalısınız. Çünki mən – eyni zamanda həm başlanğıc, həm də sonam, qanunu da mən müəyyənləşdirirəm. Bir sözlə, mən hakiməm.

Bə-li. Sabah olsun, sizə bu gözəl öhdəliklərinizin mahiyyətinin nə olduğunu izah edəcəyəm. Sabah yox,

birigün siz çıxıb getməlisiniz, bir az tələsmək lazımdır. Qapımı döyməyi unutmayın, xahiş edirəm. Zəngi, unutmayın, üç dəfə çalmalısınız. Parisəmi qayıdırsınız? Paris uzaqdır, Paris gözəldir, onu hələ də unutmamışam. Bax bu payız havasında onun Paris toranlığını yada salıram. Gecə tüstüdən göyümtraq rəngə çalan damların üstünə çökür, quruca canı qalmış şəhər sakitcə fit verir, çaysa, elə bil, əks istiqamətdə axır. O vaxt işim-gücüm küçələri veyl-veyl gəzmək idi. Mənim kimilər indi də orada küçələrdə avaralanırlar. Bilirəm. Avara-avara gəzib özlərini elə göstərirlər ki, guya, yorğun-arğın arvadlarını görməyə gedirlər... Əziz dostum, tənha bir adamın böyük bir şəhərin küçələrində gəzməyinin nə demək olduğunu anlayırsınızmı?

Yorğan-döşəkdə uzanmış halda sizi qəbul etmək özümə də ləzzət eləmir. Yox, ciddi bir şey yoxdur, bir az qızdırıram: özümü cinə tutmuşam ki, bəlkə, sağaldım. Bu tutmalar adi şeylərdir. Malyariya. Ehtimal ki, Roma papası olanda tutulmuşdum. Ancaq bu dediklərimin müəyyən hissəsi zarafat ola bilər. Ağlınızdan nə keçdiyini də bilirəm: “Onun hekayətlərində həqiqətlə uydurmanı ayırmaq mümkün deyildir”. Etiraf edirəm ki, çətindir. Elə özümə də... Görürsünüzmü, tanışlarımdan biri insanları üç hissəyə bölürdü: yalan danışmamaq naminə heç nəyi gizlətməməyə önəm verənlər, işi-gücü yalan danışmaq olsa da, heç zaman nəyisə gizləməkdən də imtina etməyənlər, üçüncülərsə həm yalan danışmağı, həm də gizli saxlamağı sevənlər. Seçimi öhdənizə buraxıram, məni bu üç cəbhənin hansına aid edərdiniz?

Axı bütün bunlara nə hacət? Deyilmiş yalanın yolu əvvəl-axır həqiqətə dirənir. Görəsən, mənim həqiqi, yaxud uydurma hekayətlərimin məqsədi və mənası eyni deyilmi? Hər ikisinin – kim olduğumu və indi nəyə çevrildiyimi təfsilatı ilə göstərən hər iki halda bu heka-

yətlərin həqiqi və ya yalan olmasının indi nə əhəmiyyəti var ki? Başqa bir təsadüf olsaydı, həqiqəti deyənlə müqayisədə yalan danışan adamı daha tez və cəld tanıya bilərdin. Həqiqət gur işıq kimi adamın gözünü çıxarır. Yalansa, əksinə, hər bir əşyanın konturlarını aydın göstərən toranlıqdır. Ancaq nə düşünürsünüz-düşünün, həbs düşərgəsində məni papa təyin etmişdilər...

Zəhmət olmasa, oturun. Xahiş edirəm. Otağım sizə maraqlı görünür, deyilmi? Divarlar çılpaqdır, ancaq yerdə qalan hər şey səliqəlidir. Vermerin rəsmlərinin oxşarları asılıb, ancaq heç bir şkaf və qazan gözə dəymir. Kitablar da ilim-ilim itib, elə bil, kitab oxumağın daşını çoxdan atmışam. Haçansa evimdəki kitab şkafında yarıya qədər oxunduğu yerdən qatlanan xeyli kitab vardı. Bir az qazın qaraciyərindən hazırlanmış paştetdən qoparıb yerdə qalanını hara gəldi tolazlayan vasvası adamların şıltağı qədər bu da nifrət doğuran bir xasiyyətdir. Yeri gəlmişkən, indi mən ancaq açıq etirafları sevirəm, ancaq bu etirafların müəllifləri əsas etibarilə heç nədə etirafda bulunmamaq və onlara məlum olan şeylər haqqında bir kəlmə də olsa, kəsməmək məqsədi ilə yazırlar. Nə vaxt ki, guya, etiraf etmək istəyirlər, bax o zaman onlara qəti inanmayın: indi onlar ölmüş adamın cəsədini bəzəməyə başlayacaqlar. İnanın ki, bu kosmetikadan mənim də başım çıxır. Mən məsələni qəti qoydum və baltanı kökündən vurdum. Rədd olsun kitablar, bütün artıq şeylərə əlvida – evdə yalnız lazımi şeylər qalmalıdır, hər yer təmiz və tabut kimi parıltılı olsun. Bir cəhəti də qeyd edək ki, bu holland yataqları daş kimi bərkdir, bu ləkəsiz ağlar isə qoxusu ilə yüzdə-yüz kəfənə bənzəyir.

Məni papa kürsüsünə gətirən macəralarımla tanış olmaq sizə maraqlı gəlir, elə deyilmi? Bilirsinizmi, bunlar ən gülməli hadisələr sayıla bilər. Ancaq bilmirəm

onları sizə nağıl etməyə gücüm çatacaqmı? Hə, qızdırma da yavaş-yavaş çıxıb gedir iş-gücünün dalınca. Hadisələr, o dediyim hadisələr çox qabaqlar baş vermişdi. Onlar Afrikada baş verib, o yerdə ki, cənab Rommelin sayəsində müharibə alovu tutuşmuşdu. Yox, narahat olmayın, mən bu müharibəyə qatılmadım. Heç Avropada gedən müharibəylə də işim olmadı. Əlbəttə, məni səfərbər elədilər, ancaq özümü dərhal müharibə ocağının yandırıldığı yerdə görmədim və olsun ki, buna təəssüflənmək olardı. Bəlkə, həyatımda çox şeyi dəyişdirə bilərdi. Fransız ordusu cəbhə xəttində mənə ehtiyac duymadı. Yalnız ordu geri çəkiləndə lazım olurdum. Nə başınızı ağrıdım, Parisi və almanları bir daha görməli oldum. Müqavimət hərəkatı haqqında fikir məni rahat buraxmırdı – bu barədə məhz özümdə vətənpərvərlik hissini kəşf etdiyim zaman danışmağa başladılar. Gülürsünüzmü? Əbəs yerə. Bu kəşfi "Şatle" stansiyasında metro dəhlizlərində etmişdim. Bir it keçidlərin labirintində azıb qalmışdı. Tükü qaba, bir qulağı dik duran, o biri sallaq, gözləri parıldayan kök bir it idi. Küçük relslərin üstü ilə hoppanırdı, ötüb-keçən insanların budlarını iyləyirdi. İtləri sevirəm, onlara sədaqətimdə kəm-kəsir olmayıb heç zaman. Onu səslədim, ayaqları bir-birinə dolaşdı, ancaq olsun ki, mənə güvəndiyi üçün; quyruğunu ehtiyatla bulayaraq məndən bir neçə metr qabaqda qaçdı. Birdən iti addımlarla gedən alman əsgəri məni ötüb-keçdi. İtə çatdıqda əyilib başını sığalladı. İtsə heç nə olmamış kimi onunla yanaşı addımlamağa başladı, sevinclə quyruğunu bulayaraq bu almanla gözdən itdi. Bu dəqiqə təkcə ovqatım təlx olmadı, bu alman əsgərinə qarşı ürəyimdə kükrədim də; elə o zaman anladım ki, vətənpərvərlik öz işini görüb. Əgər bu it hansısa fransıza qoşulub getsəydi, onda hansı hissləri keçirərdim, onu bax deyə bilmərəm. Ancaq fikirləşəndə ki bu yaraşıqlı

it alman alayının sevimlisinə çevriləcək, az qalırdım hirsimdən partlayım. Sınaq inandırıcı idi.

Müqavimət hərəkatı haqqında səhih məlumatlar əldə etmək niyyəti ilə gizlincə cənub cəbhəsinə nüfuz etdim. Ancaq bura çatıb məlumat aldıqdan sonra tərəddüd etməyə başladım. Hərəkat mənə bir az, necə deyərlər, romantik və bayağı təsir bağışladı. Ən əsası isə mənə elə gəlirdi ki, gizli fəaliyyət mənim temperamentimə və yüksəklik eşqimə uyğun gəlmirdi. Mənə elə gəlirdi ki, məndən haradasa, xalça toxumaq tələb edilirdi, həm də onu gecəbəgündüz toxumalıydım və bir gün küt və yaramazın biri gəlib məni burada görəndə əvvəlcə bütün əl işlərimi doğram-doğram edəcək, sonra ayaqlarımdan sürüyüb başqa bir zirzəmiyə salacaq və burada məni öldürəcək. Belə bir yeraltı ölümə tuş gələn insanlara pərəstiş eləsəm də, onların yolunu getmək mənlik deyildi.

Belə olduqda Şimali Afrikaya gəlib çıxdım və burada Londona köçməklə bağlı qarmaqarışıq xəyallara daldım. Ancaq Afrikada vəziyyət qeyri-müəyyən idi, hər iki düşmən qrupu, mənə elə gəlirdi ki, haqlıdır. Mən bitərəf qaldım. Üzünüzdən oxuyuram ki, bu əhəmiyyətsiz təfərrüatları şərh eləməyimə elə-belə, səthi yanaşırsınız. Ancaq neyləmək olar. Əgər sizi düzgün qiymətləndirmişəmsə, məhz mənim tələskənliyim sizi onlara diqqət verməyə məcbur edər. Nəhayət, Tunisə gəlib çıxdım. Burada çox gözəl bir qadın qulluğumda dayanmışdı. O, çox mədəni qadın idi və kinoda çalışırdı. Onun dalınca Tunisə təşrif gətirdim və yalnız müttəfiqlərin Əlcəzairə çıxmasından sonra – almanların bu qadını həbs etdikləri gün əsl peşəsinin nədən ibarət olduğunu öyrəndim. Hər halda, onunla bərabər məni də götürdülər. Sonra başına nə gəldi, deyə bilmərəm. Mənə güldən ağır söz demədilər və dəhşətli həyəcan səsindən sonra anladım ki, məni, sadəcə, təh-

lükəsizlik məqsədi ilə həbs ediblər. Məni Tripoli altında yerləşən bir konslagerə göndərdilər; burada məhbuslar müstəbid davranışdan çox, susuzluq və paltar yoxluğundan əziyyət çəkirdilər. Konslagerdə keçirdiyimiz həyatı təsvir etməyəcəyəm. Biz – iyirminci əsrin ortalarının uşaqları gözlərimizin önündə belə bir yeri canlandıra bilmək üçün heç bir rəsmə ehtiyac duymuruq. Yüz əlli il qabaq insanlar göl və meşələrə baxıb riqqətə gəlirdilər. İndi isə yalnız məhbus zindanları canımızda lirik həyəcan oyadır. Beləliklə, sizin təxəyyülünüzə inanıram, ancaq bir neçə ştrixi əlavə etməliyəm: bürkü, günəşin şaquli şüaları, susuzluq.

Mənimlə bir kamerada dinə inanan gənc bir fransız yatırdı. Bəli, lap nağıllarda olduğu kimi. Xarakteri etibarilə xalis cəngavər Duqekslen idi. Almanlarla döyüşmək üçün Fransadan İspaniyaya yollanmışdı. Katolik general onu tərk-silah etmişdi və Franko lagerlərində məhbuslar üçün mərcimək şorbasının alındığını görəndə, necə deyim, Roma papasının xeyir-duası ilə dərin ümidsizliyə qapıldı. Nə Afrikanın bürkülü gecələri, nə də konslagerdə üzləşdiyi məcburi asudə vaxt onu dartıb bu ümidsizlikdən çıxara bildi. Əksinə, daim fikir-xəyal içində olması və dözülməz istidən xarakterində anormal hallar özünü büruzə verməyə başladı. Bir dəfə, elə bil, əridilmiş qurğuşun süzülən günlüyün altında oturmuşduq, təqribən iyirmi nəfər olardıq, iy verib iylənirdik, əl-qolumuz daim hərəkətdə idi, yəni milçəkləri qovmağa çalışırdıq. Duqekslen həmişə olduğu kimi, romalı adlandırdığı Roma papasını ifşa etməyə başladı. Bir neçə gün ülgüc dəyməyən saqqalını tərpədərək çaşqın nəzərlərlə bizi süzürdü, çılpaq və arıq gövdəsini tər basmışdı, sümükləri çıxmış barmaqları qabırğaları üzərində, sanki, təbil çalırdı. Bizə dedi ki, bədbəxt adamlar içində böyümüş başqa bir papa seçmək lazımdır, onun taxtda oturub dua etməsinə ehtiyacımız yox-

dur. Dəliyə dönmüş gözlərini üzümüzə zilləyərək başını bulayıb təkrar etdi: "Nə qədər tez olsa, o qədər yaxşı olar", – və birdən sakitləşərək kədərli səslə əlavə etdi ki, çox uzağa getməyə lüzum yoxdur, bizlərdən birini də seçmək olar, elə bir adamı ki, məziyyətləri ilə yanaşı, qüsurlardan da xali olmasın və bircə yeganə şərt qoymaqla ona and içdirmək lazımdır: qoy o, özündə və digər insanlarda bizim əzablarda üzə çıxan ümumi cəhətimizi müdafiə etsin. "Bizim hansımızda daha çox zəiflik var", – soruşdu. Zarafat xətrinə əlimi qaldırdım – başqa heç kəs buna reaksiya vermədi. "Yaxşı, Jan-Batist yarayar". Yox, bu sözü o, elə-belə deməmişdi – çünki o zaman başqa adla tanınırdım. İstənilən halda elan etdi ki, öz namizədliyimi irəli sürməklə mən qeyri-adi cəsarət nümayiş etdirmişəm və məni seçməyi təklif etdi. Yerdə qalanlar bu komediyanı ləzzətlə davam etdirərək razılaşdılar. Doğrusunu deməli olsam, Duqekslen bizdə dərin təəssürat oyatdı. Hətta mən belə gülmədim. Əvvəla, hesab edirdim ki, gənc peyğəmbərim haqlıdır, üstəlik, qızmar günəşin yandırıcı şüaları, su üstündə aparılan mübarizə – bir sözlə, biz bir az özümüzdə deyildik. Hər halda, bir neçə həftə ərzində Roma papasının öhdəliyini qəbul etdim və həm də bütün məsuliyyəti ilə.

Bəs bu öhdəliklər nədən ibarət idi? Doğrusu, mən haradasa, qrup başçısı, yaxud hansısa özək təşkilatın katibi kimi idim. Yerdə qalanlar, hətta Allaha inanmayanlar belə mənə itaət edirdilər. Duqekslen əzab çəkirdi, mənsə onun əzablarını yüngülləşdirirdim. O zaman sezdim ki, papa olmaq elə də asan deyilmiş və bütün bunları dünən hakimlərin ünvanına yönləndirdiyim ifşaedici çıxışımdan sonra yadıma saldım. Lagerdə ən mühüm məsələ suyun bölüşdürülməsi idi. Bizdən başqa digər qruplar da yaradılmışdı, insanlar siyasi baxışları, yaxud əqidə əsasında birləşmişdilər; bəli, hər bir

qrup öz-özünü himayə edirdi. Bir neçə dəfə elə oldu ki, mən də qrup üzvlərinə himayədar çıxmalı, yəni azca vicdan əleyhinə getməli oldum. Ancaq hətta öz qrupumda belə tam bərabərlik yarada bilmədim. Yoldaşlarımın sağlamlıq durumlarından, yaxud onların icra etdikləri işin ağırlığından asılı olaraq, bəzən birinə, bəzən də digərinə üstünlük verməli olurdum. Bu kimi fərqləndirmələr isə, inanın ki, heç də yaxşı şeylərlə bitmir. Yox, həqiqətən də, yorulmuşam, o dövrün hadisələrini indi, doğrudan da, anmaq istəməzdim. Ancaq bunu deyə bilərəm ki, artıq hüdudu keçmək üzrəydim – bir dəfə ölmüş yoldaşımın su payını içdim. Yox, yox, Duqekslenin yox, bu hadisəyə qədər o artıq dünyasını dəyişmişdi – başqalarının xətrinə olmazın əzablar çəkmişdi. Əgər o zaman sağ olsaydı, mənə elə gəlir, məhz ona olan məhəbbətimə görə uzun müddət susuzluqla mübarizə aparmalı olacaqdım – axı onu qəlbən sevirdim, hətta ifrat dərəcədə çox sevirdim. Ancaq bu dəfə suyu içdim, içə-içə özümü inandırmağa çalışırdım ki, bax əl-qolunu sallayıb canını tapşıran adamdan çox, yoldaşlarıma mən lazımam və onların xətrinə həyatımı qorumalıyam. Budur, əzizim, ölüm günəşinin altında imperiyalar və kilsələr ucalır. Və dünən irad etdiyim fikirlərimin ora-burasını redaktə etmək üçün sizə beynimdə bütün bu hadisələri nəql edərkən qəfildən yaranan çox dahiyanə bir ideyanı açmaq istərdim (indi dəqiqləşdirə bilmirəm, o hadisələri doğrudanmı yaşamışam, yoxsa yuxuda görmüşəm). Dahiyanə fikrimsə bundan ibarət idi: papanı bağışlamaq lazımdır. Əvvəla, o, başqalarından fərqli olaraq daha çox bağışlanmaya möhtacdır. İkincisi, bu, ondan yuxarıda dayanmağın yeganə düzgün yoludur...

Bağışlayın, qapını yaxşıca örtdünüzmü? Elə? Bir də yoxlayın, zəhmət olmasa. Xahiş edirəm, məni bağışlayasınız – məndə bu, bir növ, kompleksdir. Axşam

yorğan-döşəyimə uzanıram, artıq yuxulamağıma az qalır ki, birdən beynim oyanır: qapını bağlamışammı? Yadımda deyil! Hər gecə beləcə qalxıb yoxlamalı oluram. Heç nəyə qəti əmin ola bilmirəm – artıq bunu sizə bir dəfə demişəm. Ancaq elə düşünməyin ki, bu, qorxudan-filandan irəli gəlir, yox, sadəcə, qorxmuş bir insanın qapı sürgüsü haqqında düşüncələridir.

Əvvəllər nə evimi, nə də avtomobilimi açarla bağlayardım. Pulumu seyfdə saxlamazdım, mənə məxsus olan şeyləri necə gəldi atardım. Əslində, bəzən elə olurdu ki, gündəlik söhbətlərimdə, yaxud çıxışlarımda qətiyyətlə çığırırdım: “Cənablar, əmlak sizin düşməniniz və qatilinizdir”. Malik olduğum var-dövləti buna daha çox haqqı çatan hansısa kasıbın və bədbəxtin biri ilə bölüşməyə cəsarətim çatmayaraq, dünyadakı ədalətsizliyi təsadüflər hesabına yoluna qoymağa ümid bəsləyib, onları potensial oğruların yolunun üstünə səpirdim. Bu gün əlimdə heç nə yoxdur. Öz təhlükəsizliyimdən qayğılanmıram, əsas qayğım özüm və yer üzündəki mövcudluğumdur. Şah, papa və hakim olduğum kiçik dünyanın qapısını da bərk-bərk bağlayıram.

Lütfən, bu divar şkafının qapısını açmaq istərdinizmi? Bax bu tabloya diqqətlə baxın. Onu tanımırsınızmı? Adı “Namuslu hakimlər”dir. Mat-məəttəl qalmışdınızmı? Demək, savadınızda axsayan yerlər var. Əgər bu gün qəzet-jurnal oxuyursunuzsa, 1934-cü ildə Hentdə, Sankt-Bavo kilsəsində Van Eykin “Mistik quzu” adlı tablosunun oğurlanmasını xatırlaya bilərsiniz. Onu “Namuslu hakimlər” adlandırırdılar. Rəsm at tərkində müqəddəs heyvana səcdə edən hakimləri əks etdirirdi. Onu çıxarıb yerinə çox mükəmməl bir surətini asmışdılar, çünki orijinal tapılmırdı. Və bu da o. Yox, bura xüsusi niyyətlə gəlməmişəm. Sadəcə, “Mexiko-siti”-nin həmişəki seyrçisiyəm, məni siz keçən gecə gördünüz, sərxoş olduğum gecələrin birində onu bir

şüşəyə dəyişdim. Deməķ, dostumuzla onu görkəmli bir yerdən asmaq barədə məsləhətləşdim: onu orada o qədər saxlamaq lazımdır ki, bütün dünyanı ələk-vələk eləsinlər; bizim mömin hakimlər "Mexiko-siti"də sərxoş və baştutanların başı üstündən asılı qaldılar. Sonra həmin o qorilla, mənim xahişimlə onu buradakı anbarda gizlətdi. Əvvəlcə buna bir elə məhəl qoymadı, sonra hadisəni danışdıqda qorxdu. O vaxtdan bəri bu hörmətli hakimlər mənim yeganə qulaq yoldaşlarımdır. Burada, piştaxtanın üstündə, gördünüz də, hamıya altdan-yuxarı necə baxırlar.

Tablonu hansı səbəbdən kilsəyə qaytarmadım? Ah! Ah! Sizin lap polis kimi iybilmə qabiliyyətiniz varmış. Əhsən! Yaxşı, bunu sizə istintaq hakiminə izah edirmiş kimi açacağam, bir şərtlə ki, kimsə bu tablonun mənim otağımdan asılmasından şübhələnməsin. Əvvəla, ona görə ki, bu tablo mənim deyil, "Mexiko-siti" sahibinindir və bu adamın həmin tabloya Qan yepiskopundan daha çox haqqı çatır. İkincisi, ona görə ki, "Mistik quzu"nun önündə növbəyə düzülənlər arasında heç kəs surəti orijinalından ayıra bilmir və bununla heç kəsə heç bir ziyan dəymir. Üçüncüsü, ona görə ki, bu qayda ilə mən cahillərin yanında üstün mövqe qazanıram. Ümumi tamaşa və heyranlıq məqsədi ilə əsərin saxta variantı nümayiş etdirilir, orijinal isə mənim evimdə gizlədilib... Dördüncüsü, ona görə ki, beləcə həbsxanaya düşmək şansı var – bu fikir hansı dərəcədəsə şirnikləndiricidir. Beşincisi, ona görə ki, bu hakimlər quzuya sitayişə gedirlər, halbuki artıq nə quzu var, nə də təmizlik və nəticə etibarilə tablonu çırpışdıran fərasətli oğru qabağında etiraz edə bilmədiyin çox müəmmalı ədalət məhkəməsinin əlində adicə alət olub. Nəhayət, ona görə ki, qaydanı biz məhz bu yolla yaradırdıq və bir halda ki ədalət məhkəməsi təqsirsizlikdən qəti şəkildə ayrılıb, deməķ, sonuncusu xaçın üstündə

çarmıxa çəkilib, birincisi isə divar şkafında gizlədilib – əl-qolum açılıb və mən əqidəmə uyğun sərbəst hərəkət edə bilərəm. Bu qədər xoşagəlməzliklərdən və ziddiyyətlərdən sonra özüm üçün müəyyənləşdirdiyim ən çətin peşə olan tövbə hakimliyini vicdanla icra edirəm və artıq vaxtdır, çünki artıq gedirsiniz, mən də sizə nə vardı danışdım.

İcazə verin, əvvəlcə dərindən nəfəs ala bilmək üçün qalxım, boğanaq əhədimi kəsəcək. Bilsən, necə yorulmuşam. Mənim bu namuslu hakimlərimi otağa salıb arxadan qapını qıfıllayın. Sağ olun. Budur, bu da tövbə hakimi – elə mənim ixtisasımdır. Bir qayda olaraq "Mexiko-siti"də çalışıram. Ancaq insanın həvəs göstərdiyi iş... iş yeri ilə məhdudlaşmır ki. Xəstə yatağımda olduqda belə qızdırma içində olsam da, çalışıram. Ancaq bu, təkcə peşə deyildir, həm də sənətdir, onunla ilham alıram, nəfəsim onunla gedib-gəlir, elə fikirləşməyin ki, beş gün ərzində yalnız şəxsi məmnunluğum üçün bir belə uzun çıxışlar etmişəm. Yox, öz zamanında vaxtımı boş laqqırtılarda çox keçirmişəm. İndi çıxışlarımın arxasında konkret məqsəd durur. Mənə elə gəlir ki, arxamdan səslənən ironiyalı gülüşlər artıq kəsilib, öz arzumla qaçıb bura gəlmişəm, halbuki bunun üçün bir elə imkan-filan da yaranmamışdı. Bizə ən çox divanxanadan qaçmaq mane olur, bununla birinci özümüz özümüzə hökm kəsirik. Bilirsinizmi, bəlkə, ondan başlamaq lazımdır ki, məhkəməni heç bir fərq qoymadan hamıya şamil etmək lazımdır və həm də onu bir balaca sadələşdirməyə də ehtiyac duyulur.

Bu məsələ ilə bağlı aşağıdakı prinsipə əsaslanıram: heç kəsdən heç zaman üzr diləməmək. Bütün xeyirxah niyyətləri, üzrlü səbəbləri, yalançı addımları və şübhəsiz ki, yüngülləşdirici şəraiti rədd edirəm. Kiminsə üzünə gülsən, çıxıb təpəndə oturacaq. Sadəcə, hesablamaq lazımdır – toplama və nəticə: "Cəmi bu

qədər. Siz pozğunsunuz, əxlaqsızsınız, uşaqbazsınız, fırıldaqçısınız... nəsiniz, nəsiniz...” Bax belə. Quru bir hesab əməli. Fəlsəfədə, siyasətdə olduğu kimi, praktikada cani kimi davranıldığına görə insanı günahsız saymağı rədd edən istənilən nəzəriyyənin tərəfdarıyam. Əziz dost, mən köləliyin möhkəm tərəfdarıyam.

Doğrusunu deməli olsaq, köləlik olmazsa, çətin vəziyyətlərdən çıxış yolu da olmaz. Bunu çox tez başa düşdüm. Əvvəllər “Azadlıq” deyəndə dilim-ağzım quruyurdu. Səhərlər onu yağ-çörəyin üstünə yaxır, bütün günü ağzımda saqqız kimi çeynəyirdim, elə nəfəsim də azadlığın qəribə tamıyla dolmuşdu. Bu ilahi sözlə mənə qarşı duran istənilən şəxsin belini qırardım. Bu sözü indicə yuxuya gedəcək sevgilimin qulaqlarına pıçıldadım; məhz bu söz mənə onu atmaqda olmazın kömək elədi. Onu şeir kimi pıçıldayırdım. Daha bəsdir, əks təqdirdə həyəcanlanır və ölçü hissini itirirəm. Bununla belə, azadlıqdan təmənnasız istifadə edirdim və hətta təsəvvür edin, o qədər sadəlövh idim ki, gündə iki-üç dəfə onun müdafiəsinə qalxıb çıxışlar edirdim; düzdür, azadlıq naminə ölmədim, ancaq hər halda, bəzi çətinliklərlə üzləşməli oldum. Bu sadəlövhlüyü mənə bağışlamaq olar, nə etdiyimi özüm də bilmirdim. Anlamırdım ki, azadlığı mükafata və ya fərqlənmə nişanına bərabər tutmaq olmaz, onun şərəfinə şampan qaldırmaq olmaz. Bu, çox dadlı bir hədiyyədir, lap bir qutu konfet kimi. Yox, yenə də yox! Tam əksinədir, haradasa, bu mükəlləfiyyətdir, gücün çatdıqca üzücü qaçış, özü də təkbaşına. Nə şampan şərabı, nə də səni nəzakətlə süzüb qədəh qaldıran dostlar var. Yarıqaranlıq zalda təksən, hakimlərin qarşısında tək oturmusan – müttəhimlər kürsüsündə və özün öz suallarına nə olur-olsun, cavab verməlisən. Bütün azadlıqların sonunda bizi cəza gözləyir; ona görə də azadlıq çox ağır yükdür, hələ onu daşıyan insan qızdırma

içində yanıb-qovrulur, yaxud ürəyi ağrıdan od tutub yanır və heç kəsi sevmir.

Ah, əziz dost, kim ki tənhadır, onun nə Allahı, nə də başının ağası olar, günlər gələr, amma çətin keçər. Ona görə özünə bir ağa tapmalısan, indi Allah dəbdə deyil. Həm də bu söz mənasını itirdiyinə görə onu heç işlətməyə dəyməz, həm də əbəs yerə insanları qıcıqlandırmağın adı yoxdur. Bizim əxlaq mütəxəssislərinə baxmayın – bunlar o qədər ciddi zatdırlar ki, doğmalarını elə böyük şövqlə sevirlər ki! Siz deyin, onların xristianlardan nə fərqi var? Ancaq onunla fərqlənirlər ki, kilsələrdə moizə oxumurlar. Sizcə, Allaha üz tutmaqda onlara nə mane olur? Axır ki, tapdınız: utancaqlıq, həya-abır, özü də yalançı abır, insan məhkəməsindən qorxaraq. Onlar aranı qatmaq istəmirlər və hisslərini necə var elə, heç kəsə açmadan hifz etmək niyyətindədirlər. Mən bir ateist yazıçı tanıyırdım, hər gecə Allaha dua edib yalvarırdı. Ancaq bu, ona öz kitablarında Allahla cəng-cidaya çıxmaqda mane olmurdu. Kimsə demişdi, ancaq indi xatırlamıram kim demişdi, guya, Allaha düzəlişlər edirmiş. Hansısa ictimai xadim, bu yazıçı haqqında danışdığım azadfikirli insanlardan biri əlini yellədi (özü də acıqsız-filansız). "Bəli, mənimçün bu, təzə xəbər deyil, – həmin apostol dərindən nəfəs aldı, – onların topası belə düşünür!" Onun sözlərinə görə, yazıçılarımızın səksən faizi bir şərtlə öz kitablarında Tanrının adını məmnuniyyətlə şərəfləndirərdi ki, onları heç imzalamasın. Ancaq onlar bu kitablara imzalarını qoyurlar, tanışım belə düşünür ki, özlərini möhkəmcə sevdiklərinə görə heç kəsə bu şərəfdən pay vermək istəmirlər, çünki insanları görən gözləri yoxdur. Ancaq nə olsa da, onlar yazı adamları haqqında düşüncələrdən imtina etmirlər, əxlaq məsələləri üstündə, az qala, baş sındırırlar. Ümumiyyətlə, onlar comərdliyi şeytani şəkildə sevirlər. Çox qəribə zamandır! Təəccüblü

deyil ki, ağıllar qarışır, mənim əqidəcə ateist olan dostlarımdan biri xristian olana qədər həyat yoldaşına son dərəcə sadiq idi, ancaq sonda günaha batdı. Özü də necə!

Ah, bu kiçik sirr verməyən insanlar! Hoqqabazlar, ikiüzlülər – onlar, yeri gəlmişkən, çox həssasdırlar. İnanın, ifrat dərəcədə həssasdırlar, hətta göy üzünü odalova bürüdükdə belə. Ateist, yaxud dindar, Moskva, yaxud Boston sakini olmalarından asılı olmayaraq, onların hamısı xristiandır, hər şey onlarda atadan oğula keçir. Ancaq ata hakimiyyətdə deyildirsə, demək, qayda-qanun da yoxdur! İnsanlar azaddır, ancaq üzlərini hara tutsalar da, məhz azadlıqdan və buna görə onları gözləyən cəzadan qorxurlar, yalvarıb-yaxarırlar ki, barmaqlarını döyəcləsinlər, birdən çox dəhşətli təlimat və qaydalar icad edirlər, tələm-tələsik tonqallar çatırlar ki, kilsələri yandırsınlar. Xalis Savonatoldur. Ancaq onlar yalnız günaha inanırlar və heç zaman həyat nemətlərinə pənah gətirmirlər. Amma bunun haqqında, şübhəsiz ki, düşünürlər. Onlar mərhəmət, hamının bir ağızdan dediyi "hə", rifah haqqında düşünür, toy-düyün məclislərini xəyallarına gətirirlər (gəlin – çox cavan, ər – boy-buxunlu yaraşıqlı oğlan, nişan məclisində musiqi çalınır). Mənsə, bildiyiniz kimi, sentimental deyiləm, bilirsinizmi nə haqqında xəyal edirdim? Gecə-gündüz bütün cismin və ruhunla sevəsən, sevgilini qucaqlayıb bir daha ağuşundan ayırmayasan, həmişə ləzzət içində – ekstaz vəziyyətində olasan – beş il qoy belə keçsin, sonra ölüm gəlsə də, gəlməsə də, nə fərqi.

Ancaq madam ki təmiz əxlaq və düzünəqulu məhəbbət qəhətə çıxıb, nikah qoy bütün kobudluğu ilə nümayiş edilsin. Əsas odur ki, hər şey sadələşsin, elə bil, uşaqlar üçün nəzərdə tutulub, qoy hər bir hərəkət qeydə alınsın, xeyir və şər könüllü şəkildə müəyyən-

ləşdirilsin, ancaq hamının gözü qarşısında. Mən buna beşəlli razıyam, bütün tərəddüdlərimə rəğmən, çaşıb məni xristian silkinə aid edərsiniz, əsla. Ancaq Paris körpüsünün üstündə başa düşdüm ki, mən də azadlıqdan qorxurmuşam. Kimliyindən asılı olmayaraq, hökmdara eşq olsun, göylərin qanunları nə olur-olsun, ondan qeyri heç kəs əvəz eləməsin. "Müvəqqəti yer üzündə gəzən atamız... Siz, ey bizim başçılarımız, heyranedici səviyyədə zabitəli ağalarımız, zalım başçılarımız..." Bir sözlə, gördüyünüz kimi, əsas odur ki, azad olmayasan və tövbə edəndə elə adamın qarşısında əyiləsən ki, səndən tədbirli olsun. Bir də əgər hamımız günahkarıqsa – demək, demokratiya elə budur. Həm də, əziz dost, yadda saxla ki, bir gün tənha öləcəyimizin intiqamını almaq lazımdır. Bəli, tək-tənha ölürük, ancaq başqaları bizimlə eyni zamanda qul vəziyyətinə salınır – mühüm olan budur. Axırda hamı birləşəcək, diz üstə çökərək və başlarını aşağı dikərək.

Belə çıxır ki, özgə həyatında rahat şəkildə cəmiyyətlə eyniləşmək mümkündür, ancaq ola bilməzdi ki, bunun üçün cəmiyyət bir az mənə uyğunlaşaydı, yaxud oxşayaydı. Təhdidlər, biabırçılıq, polis – bax bu oxşarlığın və ya eyniyyətin müqəddəs əsasları bundan ibarətdir. Madam ki məndən şübhələnirlər, təqib edirlər, nəyəsə qısır, yaxud məcbur edirlərsə, demək, mən də daxilimdə nə var açıb-tökmək, içimi nümayiş etdirmək haqqına malikəm. Bax, əziz dost, elə buna görə də azadlığı belə təntənə ilə mədh eləməklə gizlincə qərara gəldim ki, onu təcili surətdə kiməsə təhvil vermək lazımdır. Bunun öhdəsindən gəldiyim anda "Mexiko-siti"də kilsəyə gedib vəz oxuyacağam, xeyirxah insanları itaət etməyə və əlbəttə, adına xalis azadlıq deməklə münasib köləliyə nail olmağa çağıracağam.

Ancaq hələ ki ağlımı itirməmişəm və yaxşı anlayıram ki, bu, köləlik deməklə günü sabah qurulacaq bir

iş deyil. Bu, insanlara iltifatla əl tutmaqla olası bir işdir, nəhayətdə, yəqin ki, bizə xoşbəxtlik üz verər. Ancaq hələ ki hazırkı duruma öyrəşməli və ən azından, müvəqqəti çıxış yolu aramalıyam. Və günlərin bir günü, mənim özümün çiyinlərimə düşən yükü bir azca yüngülləşdirmək naminə bu ittihamı mümkün qədər çox insana şamil etmək lazımdır. Üsulunu tapdım. Zəhmət olmasa, pəncərəni açın, içəridə cansıxıcı bir bürkü var. Niyyətim çox sadə və maraqlıdır. Nə etmək lazımdır ki, hamı birdən özünü suya atsın, sənsə bu dəm günəşin altında yanmaq hüququndan ləzzətlə istifadə edəsən? Bir çox məşhur müasirlərim kimi vəz oxuyanın kürsüsünə çıxmaq, buradan bütün bəşəriyyətin üzünə tüpürmək lazımdırmı? Yox, xatalı zarafatdır. Günlərin gözəl bir günündə, yaxud gecəsində qəfildən qəhqəhə səsləri ucalır. Başqalarına oxuduğumuz hökm əvvəl-axır yolunu "azır", gəldiyi yerə qayıdır, birbaşa üzümüzə çırpılır və orada silinməz iz qoyur. "Nə olsun indi?" – deyə sual verə bilərsiniz. Bax bu da sizə dahiyanə variant. Başa düşdüm ki, hələ ki hakimlər gəlib çıxmayıb və çubuq cəzası kəsməyiblər, Kopernik kimi biz də qələbə çalmaq naminə tərsinə mühakimə yürütməliyik. Özünü Məhşər ayağına çəkmədən başqalarını mühakimə etməmək üçün əvvəlcə özünü ittiham etməlisən ki, başqalarını mühakimə etmək haqqı qazana biləsən. Madam ki hər bir hakimin başı, nəhayət, tövbəyə əyilir, deməк, indidən mühakiməyə nöqtə qoymaq lazımdır. Mənim fikirlərim sizə aydındırmı? Daha aydın başa düşmək üçün indi necə çalışmağımın sirrini sizə açacağam.

Hər şeydən əvvəl vəkillik kontorumu bağladım, Parisi tərk etdim, başqa yerlərə meylimi saldım, səfərə çıxdım, başqa bir şəhərdə tam başqa adla yaşamaq istədim. Dünyada bu cür şəhərlər az deyil, ancaq vəziyyət, işin düz gətirməyi, ironiya və vicdan əzabı

çəkmək ehtiyacı məni məcbur etdi ki, müxtəlif kanallarla “doğranmış”, böyür-başında evlər tikilmiş, dünyanın hər tərəfindən insanların axışdığı bu suların və dumanın düz ortasını seçim. Kontorumu matroslar yaşayan bir rayonun barında yaratdım. Limanlarda müştərilər son dərəcə qarmaqarışıq və çoxçeşidlidir. Kasıblar bərli-bəzəkli restoranlara gözlərinin ucuyla da baxmırlar, zənginlərin isə, bildiyiniz kimi, həyatlarında, heç olmasa, bir dəfə bizə işləri düşür. İşimin adı nədir, durduğum yerdən gəlib-gedəni pusuram, azdığını bilən kimi qarşısına çıxır, bütün bəlağətimi işə salıram. Bir virtuoz kimi onun canından ən incə melodiyaları çıxarıram.

Bəli, özümün çox lazımlı sənətimi bir müddətdir “Mexiko-siti”də icra edirəm. İşimin mahiyyəti hər şeydən öncə ondan ibarətdir ki, kütləvi tövbə ilə məmnunluqla məşğul oluram – sizi buna inandırmağa ehtiyac yoxdur, özünüz bilirsiniz. Özümü ağına-bozuna baxmadan ittiham edirəm. Bunu etmək sən deyən çətin deyil, adını tutan kimi xatirələr oyandı. Ancaq yadda saxlayın ki, heç bir kobud üsula əl atmaq olmaz: peşman oluram, tövbə edirəm, amma yumruqla sinəmi döyəcləmirəm. Mən, unutmayın ki, güclü manevr qabiliyyətinə malikəm, həm də dinləyiciyə asanca uyğunlaşa bilirəm və belə olduqda onun özü bürkünü qovur. Mənə gəlincə, başqalarına aid olan məsələyə cəld yanaşa bilirəm. Bir çoxları üçün ortaq olan cəhətləri, hamının üzləşdiyi həyat təcrübəsini, digər şəxslərlə bölüşdüyüm zəiflikləri, ədəbli danışıq tonunu, mənə və digər insanlara diktə edilən müasir yaşam tələblərini ustalıqla seçib-ayırıram. Bütün bunlara əsaslanıb ümumiləşdirilmiş və simasız bir portret yaradıram. Necə deyim, karnaval maskasına, daha doğrusu, addabudda təsvirlərə bənzəyən üzlüyü hər kəs görsə deyərdi: “Dayan, bu tipi haradasa görmüşəm axı...” Portret

başa çatdıqda, bax bu gün axşam onu hamıya göstərir və acı-acı hayqırıram: “Bax, buyam mən!” İttiham hökmünün sonu. Ancaq müasirlərimə göstərdiyim portret dərhal güzgüyə çevrilir.

Başıma kül tökür, tüklərimi sakitcə dartıb çıxarıram və dırnaqlarımla üzümü cıraraq, ancaq baxışlarımın kəskinliyini saxlayaraq bütün bəşər əhli qarşısında dayanıram, bütün biabırçı əməllərimi bitdə-bitdə sadalayıram, bu dəm onların üzərində buraxdığım təsiri bir an da olsun nəzərdən qaçırmır və deyirəm: “Mən axırıncı əclaf olmuşam!” Sonra nitqimdə qəfildən “mən”dən “biz”ə adlayıram. Nə desəm yaxşıdır: “Görün ki necəsiniz!” – iş bitib, artıq onların gözləri qarşısında həqiqəti açıqlaya bilərəm. Şübhəsiz ki, mən də onların tayıyam, hamımız eyni qazandayıq. Ancaq mənim bircə üstünlüyüm var, bu da mənə danışmaq haqqı verir. O üstünlüyü, əminəm ki, görürsünüz. Nə qədər özümü ittiham edirəmsə, bir o qədər də sizi ittiham etmək haqqı qazanıram. Ən yaxşısı isə sizi mən mühakimə etməyə həvəsləndirirəm, bilsəniz bundan nə qədər rahat oluram! Ah, əziz dost. Biz necə də qəribə və miskin məxluqlarıq! Bircə dəfə yaşadığımız ömrə baxmaq kifayətdir ki, özümüzə təəccüblənmək və əməllərimizə görə utanıb yerə girmək üçün kifayət qədər səbəb taparıq. Ürəyinizi buz kimi saxlayın, etiraflarınızı ürəkdən gələn rəğbətlə dinləyirəm.

Rişxənd etməyin! Bəli, siz çətin müştərisiniz, bunu dərhal anladım. Ancaq bir gün tövbə edəcəksiniz. Qaçılmazdır. Başqaları ağıllı olmaqdan çox, hissiyyatlıdır, onları çaşdırmağa nə var ki! Ağıllı insanlarla söhbətdə təmkinli olmaq lazımdır. Onlara öz metodunu açıqlamalısan. Bunu unutmaz və uzun-uzadı düşünərlər. Gec, ya tez, ya zarafat xətrinə, bəlkə də, ürəkləri iztirab içində qovrulanda hər şeyi dillərinə gətirərlər. Siz təkcə ağıllı deyilsiniz, göründüyü kimi, həm də

təcrübəlisiniz. Boynunuza alın ki, bu gün beş gün əvvəl olduğu kimi özünüzdən o qədər də razı deyilsiniz. Bundan sonra məktubunuzu, yaxud gəlib çıxmağınızı gözləyəcəyəm. Əminəm ki, gələcəksiniz. Görəcəksiniz ki, zərrə qədər də dəyişməmişəm. Niyə dəyişim ki, xoşbəxtlik demirdin, xoşbəxtəm. Dəli olub çöllərə düşməkdənsə, gerçəkliklə tam barışdım. Özümə yol açıb düz ağuşuna girdim və hesab edirəm ki, bu, bütün həyatım boyu axtardığım ən münasib şəraitdir ki var. Mahiyyətcə, yəqin, bir dəfə sizə demişəm ki, ən vacibi ittihamdan qaçmaqdır. Yox, ən vacibi özünə hər şeyin icazəsini verməkdir, bircə şeyi unutmamaqla: vaxtaşırı olaraq elədiyin əclaflıqları hayqırmalısan. İndi də ağlıma nə gəldi eləyirəm, ancaq kürəyimdə heç bir qəhqəhə eşitmirəm. Həyat tərzimi dəyişməmişəm, özümü sevməklə və başqalarından istifadə etməklə məşğulam. Ancaq günahlarımı etiraf edirəm və bunun sayəsində hər şeyi təzədən başlamaq və ikiqat ləzzət aparmaq sərf eləyir – əvvəla, öz xarakterimdən, ikincisi, tövbənin gözəlliyindən.

O vaxtdan bəri özüm üçün çıxış yolu tapdım, üstümdən bütün ağır şeyləri tulladım getdi: qadınları, qüruru, dərdi, qüssəni, kin-küdurəti və hətta qızdırmanı, hansı ki bu dəqiqələrdə sevinc hissi ilə bütün varlığımla hiss edirəm ki, getdikcə şiddətlənir. Mənim də şahlığım yetişdi – bu dəfə əbədilik. Hə, elə bir zirvə tapmışam ki, ora ancaq özüm qalxa və hamını o ucalıqdan ittiham edə bilərəm. Bəzən, uzaqdan-uzağa olsa da, gecə, doğrudan da, gözəl olanda arxamdan gülüş səsi eşidir, yenə şübhəyə düşürəm. Tez özümə gəlir bütün canlılara və bütün dünyaya üzümü tutub içimdəki çirkinlikləri onların üzünə çırpıram və bir daha cavanlaşıram.

Beləliklə, sizinlə "Mexiko-siti"də maraqlı görüşümüzü səbirsizliklə gözləyirəm. İndi isə üstümdəki

yorğanı çəkin, boğuluram. Doğrudan, gələcəksiniz? Sizə münasibətimin səmimiliyini göstərmək naminə texnikamın bəzi təfərrüatlarını açıqlayıram. Gördüyünüz kimi, bütün gecəni həmsöhbətlərimə əclaf olduqlarını sübut etməyə çalışdım. Yeri gəlmişkən, bu axşam yarımçıq işimi davam etdirəcəyəm. Bunsuz keçinə bilmirəm, onlardan birinin alkoqolun yardımı ilə tövbənin ağırlığı altında çöküb yumruğu ilə sinəsinə döyəclədiyi anları buraxmaq istəməzdim. Bax o zaman, əzizim, yuxarılara yüksəlir, sərbəst nəfəs alıram, dağa çıxır, ayaqlarım altında uzanan düzəngaha baxıram. Özünü Allah kimi zirvədə görmək və səfeh ömründən və əxlaq pozğunluğundan aldığın ləzzəti ətrafla bölüşmək necə də sakitləşdiricidir. Hollandiya səmasında zirvədə gəbərmiş mələklərin arasında hökmranlıq edir, suyun və dumanın içindən sıyrılaraq Məhşər gününə təşrif gətirən legionun mənə necə yaxınlaşdığını seyr edirəm. Onlar yavaşca qalxırlar; budur, birincisi yaxınlaşır. Sifəti tutulub, yarısını əli ilə örtüb və orada, onun üzündən çox qüssəli ifadələri oxuyuram. Mən isə – təəssüf edirəm, ancaq günahından keçmirəm, anlasam da, bağışlamıram, ən əsası isə, ah... hiss edirəm ki, qarşımda səcdə edirlər.

Əlbəttə, şübhəsiz ki, həyəcanlanıram, necə rahat uzana bilərəm ki? Sizdən yuxarı qalxmalıyam, fikirlərim çəkib aparır məni. O gecələrdə, daha dəqiqi, aydın gecələrdə yavaşca dan yeri sökülür; mən küçəyə atılır və cəld addımlarla kanal boyu gedirəm. Gecənin solğun səmasında lələklər lay-lay toplanır, göyərçinlər bir az da yuxarı qalxır, damların üstündə çəhrayı işıq yanıbsönür, yeni gün başlanır. Damrakda rütubətli havada ilk tramvayın Avropanın qurtaracağında həyatı oyadan zəngi cingildəyir, elə bu zaman mənim təbəələrim olan milyonlarla insan ağızlarında acılıq hiss edərək çətinliklə oyanır ki, cansıxıcı iş yerinə yollansın. Bu zaman

mənsə hökmüm altında olan bütün qitənin taleyini düşünürəm, yeni doğulan günün absent kimi bulanıq işığını su kimi başıma çəkirəm, ikibaşlı, tənəli sözlərimdən sərxoş oluram: xoşbəxtəm, mən xoşbəxtəm – öz-özümə deyirəm, ey, sizə də mənim xoşbəxt olmağıma inanmamağı qadağan edirəm, ölümünə xoşbəxtəm.

Bağışlayın, yenə yalan danışdım. Ay səni, yenə həyəcanlanıb özümdən çıxmışam. Ancaq yaxşı ki, ağlamıram. Bəzən olur ki, özümü tam itirirəm, bax. İndi burada olduğuma dərindən şübhə edirəm və gördüyünüz kimi xoşbəxt olmağın sirrini açıram. Mənim tapdığım çıxış yolunu, şübhəsiz ki, ideal saymaq olmaz. Ancaq öz həyatından günlərin bir günü iyrənəndə onda bilərsən ki, başqa cür yaşamaq lazım imiş, ancaq seçim yoxdur. Necə eləyəsən ki, başqa cür olasan? Mümkünü yoxdur. Öz "mən"indən qopub aralanmalı, heç olmasa, bir dəfə kiminsə xətrinə özünü unutmalısan. Necədir, sınayaqmı? Məni, çox xahiş edirəm, bir elə sıxışdırmayın. Cındırından cin ürkən bir dilənçiyəm, bax, hələ də əllərimi buraxmayıb, kafenin terrasında özünü yetirib məndən sədəqə alıb. "Əsəbiləşməyin, – deyir bir ucdan, – bu vəziyyətə ona görə düşməmisən ki, pis adamsan, gözündəki günəş sönür". Bəli, gözlərimizdəki işıq sozalıb, dünyada yeganə məsumluq mücəssəməsi olan səhər şəfəqləri öldü artıq.

Baxın, qar yağır. Gəzsəm, yaxşı olardı. Amsterdam bəyaz gecələrin qoynunda mışıl-mışıl yatır, qara bələnmiş körpülərin altında kanalların insanı eyməndirən qaralığı, boş küçələr, sakit addımlarım... Bütün bu ani təmizlik çox yaxşıdır – axı sabah hər yer çirkə bələnəcək. Görürsünüzmü, pəncərələrin arxası qar topaları ilə örtülüb. Bunlar, şübhəsiz ki, göyərçinlərdir. Bu zərif varlıqlar, nəhayət, enməyi qərara aldılar. Suyun da, elə damların da üstü zərif lələklərlə örtülüb, onlardan bir

neçəsi pəncərələrə ilişib qalıb. Ümid edək ki, onlar bizə xoş xəbərlər gətirəcəklər. Təkcə seçilmişlər yox, hamı, bəli, hamı xilas olacaq, əmək yükü və onun bəhrəsi hamı arasında bölünəcək və bu gündən etibarən hər gecə mənim xətrimə döşəmənin üstündə yatacaqsınız. Tam harmoniya! Etiraf edin ki, buradan məni götürüb aparmaq üçün göydən araba ensə, yaxud qar durduğu yerdə birdən alışıb-yansa, təəccüblənəcəksiniz. Möcüzəyə inanmırsınızmı? Mən də. Ancaq nə olursa olsun, çıxıb getməliyəm.

Yaxşı, yaxşı, sakitcə uzanacağam, narahat olmayın. Siz ki mənim həyəcanlarıma, mərhəmətimə və sayıqlamaya bənzəyən çıxışlarıma bir elə etibar etmirsiniz. Onlar məqsədlidir. Səbrinizi basın, indi mənə özünüz haqqında danışın, onda biləcəyəm ki, heç olmasa, məqsədlərimdən bircəciyinə çatmışam, yoxsa yox... Hələ də ümid edirəm ki, haçansa tərəf-müqabilim polis nəfəri olacaq və məni "Namuslu hakimlər" əsərini oğurladığıma görə həbs edəcək. Başqa heç nəyə görə məni həbs etmək mümkün deyildir, yox? Ancaq bu oğurluq qanun maddəsi ilə cəzalandırılır və çox çalışdım ki, məni cinayət ortağı hesab eləsinlər: evimdə çox qiymətli rəsm əsərini gizlədir və onu ilk qarşıma çıxan adama göstərirəm. Bəli, bax buna görə həbs edilə bilərəm və bu da yaxşı bir başlanğıc ola bilər. Kim bilir, bəlkə, sonra başqa əməllərimlə maraqlana bilərlər, bəlkə, bunlara görə bir gün başımı bədənimdən ayırarlar, beləcə, mən də ölüm qorxusundan qurtular, xilas olaram. Hələ qanı daman başımı – tanısınlar deyə – toplaşan insanların üstündə gəzdirərsiniz və bir daha əsl cani kimi hamıdan yuxarıya dırmaşmalı olaram. Şübhəsiz ki, bütün bunların hamısı olacaq, mən də səhrada qışqıran və oradan qəti ayrılmaq istəməyən yalançı peyğəmbər kimi çıxdığım yolun sonuna çatacağam.

Ancaq səhv eləmirəmsə, siz polis deyilsiniz – belə

olsaydı, nə vardı ki? Nə danışırsınız! Vəkilsiniz? Bilirsinizmi, belə də düşünürdüm, ürəyimə dammışdı. Sizə qarşı hiss etdiyim rəğbətin, demə, əsası varmış. Parisdə gözəl iş yeriniz var. Elə də bilirdim, sizinlə eyni məzhəbə qulluq edirik. Axı həm də hamımız bir-birimizə bənzəyirik, mahiyyətcə heç kimə fikir verməsək də, həmişə eyni suallarla üzləşirik, halbuki onların cavablarını da qabaqcadan bilirik. Xahiş edirəm, gecələrin birində Sena çayının sahilində gəzişdiyiniz zaman başınıza gələni mənə danışın və necə oldu ki, həyatınızı riskə atmadınız. Xahiş edirəm, artıq necə illərdir qulaqlarımda səslənən və indi, nəhayət, sizin ağzınızla tələffüz edəcəyim sözləri deyin. “Ah, yazıq qızcığaz! Nə olar, bir dəfə də özünü suya at, elə elə ki, səni də, özümü də xalis etmək şansım olsun!” İkinci dəfəmi? Belə də başısoyuqluq olar? Əziz dost, birdən kimsə bizi dilimizdən tutdu? Onda necə? Vədinizi yerinə yetirin! Ah, su necə də soyuqdur! Yox, narahat olmağa dəyməz. Artıq gecdir, həmişə də gec olacaq. Xoşbəxtlikdən!

# YABANÇI

(roman)

# YABANÇI

## I HİSSƏ

### I

Bu gün anam ölüb. Bəlkə, dünən olub bu, xəbərim yoxdur? Qocalar evindən teleqram gəlmişdi: "Anan vəfat etdi. Dəfn sabahdır. Dərin hüznlə başsağlığı veririk". Bilmək olmaz, bəlkə, deyirəm, dünən ölüb? Qocalar evi Əlcəzairdən səksən kilometr aralıda, Marenqoda yerləşir. Saat ikidə yola düşən avtobusa minsəm, hələ hava qaralmamış orada ola bilərəm. Gecəni tabutun başında keçirib, səhəri gün axşam qayıda bilərəm. Şefdən ikigünlük məzuniyyət istədim, o, sadəcə, etiraz edə bilmədi, çünki səbəbi ölümdür. Ancaq aydın idi ki, icazəni candərdi verirdi. Bu sözləri də əlavə etməyi unutmadım: "Günah məndə deyil ki..." Heç nə demədi. Düşündüm ki, belə deməyəydim gərək. Ümumiyyətlə, nəyə görə üzr istəməliydim ki?! Əksinə, o, üzrxahlıq etməliydi. Ancaq sonra, qayıdanbaş məni yas içində görəndə, yəqin ki, başsağlığı verəcəkdi. Ancaq indi kim deyə bilər ki, anam ölüb? Yalnız dəfndən sonra hər şey aydınlaşacaq, necə deyərlər, yəqinlik libası geyinəcək.

Saat ikidə yola düşən avtobusa əyləşdim. Çox isti idi. Səhər yeməyini, həmişə olduğu kimi, Selestin restoranında yedim. Burada bütün tanışlarım xəbəri eşidəndə qüssələndilər, Selest isə dedi: "Analar təkdir, bircə dənədir". Ayağa qalxanda qapıya qədər ötürdülər. Birdən yadıma düşdü ki, Emmanuelgilə qalxmaq, ondan qara qalstuk və qara qol sarğısını götürmək lazımdır. Üç ay olar ki, əmisini dəfn edib.

Az qalmışdı avtobusa gecikim, sonda yüyürməli oldum. Tövşüyə-tövşüyə gəlib çatdım, oturan kimi avtobus ləngər vurdu, burnuma benzin qoxusu gəldi, səma və yol gözlərimi yordu, yuxuya təslim oldum. Bəlkə, Marenqoya qədər yatdım. Oyanan kimi başımı bir əsgərin çiynində gördüm, gülümsədi və haradan gəldiyimi soruşdu. “Bəli”, – dedim, danışmaq istəmədiyimi bildirdim. Kənddən qocalar evinə qədər iki kilometrdir. Ayaqla getdim. Çatan kimi anamı görmək istədim. Ancaq qapıçı dedi ki, əvvəlcə direktorla görüşmək lazımdır. O isə məşğul idi, bir az gözləməli oldum. Bu müddətdə qapıçı sualı sual dalınca yağdırdı. Nəhayət, direktorla görüşə bildim: məni kabinetində qəbul etdi. Bu, “Fəxri legion” ordenli bir qoca idi. Düz gözlərimin içinə baxdı. Sonra əlimi sıxdı və buraxmadı, bilmədim əlimi əlindən necə çəkim. Gözucu hansısa qovluğa baxdı və dedi:

– Xanım Merso üç il bizdə yaşadı. Siz onun yeganə ümid yeri idiniz.

Mənə elə gəldi ki, nəyə görəsə məni qınayır, istədim izah edəm ki... Ancaq sözümü kəsdi:

– Özünü heç yorma, dostum. Ananızın sənədlərini diqqətlə nəzərdən keçirmişəm. Siz onu saxlaya bilməzdiniz. Onun qayğıya, xəstə baxıcısına ehtiyacı vardı. Qazancınız bir elə çox deyil. Hər şeyi nəzərə alsaq, deyə bilərəm ki, burada günü xoş keçdi.

Dedim:

– Düzdür, cənab direktor.

Əlavə etdi:

– Başa düşürsünüzmü, burada böyür-başında dostları, yaşıdları idi. Ümumi maraqları vardı onunla, indiki nəsil bu şeylərdən heç nə anlamaz, sadəcə, qulaqardına vurar. Siz cavansınız, o, şübhəsiz ki, sizinlə darıxardı.

Doğru deyirdi. Mənimlə yaşayanda həmişə susardı, ancaq gözlərini bir an olsun məndən çəkməzdi.

Qocalar evində ilk günləri göz yaşlarına qərq olub. Ancaq bu, olsa-olsa, təzə yerə öyrəşməklə bağlı olub. Bir neçə aydan sonra buradan başqa yerə aparsaydılar, doğrudan, ağlayardı. Hər şey vərdişə bağlıdır. Qismən bu səbəbdən axırıncı il bura, demək olar, baş çəkməmişdim. Həm də ona görə ki, istirahət günüm əldən çıxacaqdı, mən hələ dayanacağa qədər gəlməyi, bilet alıb iki saat avtobusda getməyin əzabını demirəm.

Direktor yenə nəsə dedi. Mən heç nə eşitmirdim. Nəhayət, dedi:

– Şübhəsiz ki, ananızı görmək istərdiniz.

Heç nə demədən qalxdım, məni qapıya qədər ötürdü. Pilləkənlərdə izah etməyə başladı:

– Özümüzün ölüxanamız var, rəhmətlik oradadır. Başqalarını narahat etməməkçün. Hər dəfə qocalar evində kimsə rəhmətə gedəndə yerdə qalanlar üç-dörd gün ərzində özlərini itirirlər. Belə olanda onlara baxmaq məşəqqətə çevrilir.

Yanlarından keçəndə xırp kəsdilər. Bir az keçən kimi kəlmələrin ləçək kimi havada uçuşduğunun şahidi oldum. Gəlib çatanda direktor xudahafizləşdi.

– Cənab Merso, mən gedirəm. Həmişə qulluğunuzdayam, bir işiniz olsa, kabinetimdəyəm. Dəfn səhər ona təyin edilib. Hesab edirdik ki, gecəni rəhmətliyin yanında keçirərsiniz. Bir məsələ də var: deyilənə görə, söhbətlərində həmişə deyərmiş ki, onu dini qayda ilə yola salsınlar. Lazımi göstərişləri vermişəm, sizə də çatdırmağı lazım bildim.

Təşəkkür etdim. Anam dinsiz olmasa da, dinlə heç zaman maraqlanmazdı.

Qapını açıb girdim. İçəri işıqlı idi, divara əhəng çəkilmişdi, tavan şüşəli idi. Orada stullardan başqa, uzun taxta skamya da qoyulmuşdu. Üstü qapaqlı tabut ortada, skamyanın üstündə idi. Tabut qəhvəyi rəngdəydi. Qapağın üstündə axıra kimi burulmamış vintlər gözə

dəyirdi. Tabutun önündə ağ örtüklü, əlvan yaylıqlı zənci xidmətçi oturmuşdu.

Bu anda qulağımın düz dibində dalandarın səsini eşitdim. Sinəsi körüklənirdi:

– Tabut bağlıdır. İndi qapağı qaldıracağam ki, mərhumu görəsiniz.

O, tabuta tərəf addımladı, mən onu saxlamalı oldum.

– İstəmirsiniz? – soruşdu.

– Yox, – dedim.

Geri çəkildi, bir azca peşman oldum: boyun qaçırdığıma görə. Sonra gözlərini üzümdən ayırmadan dedi:

– Niyə?

Bu sualda tənə yox, dərin bir maraq vardı.

– Bilmirəm, – dedim.

Çallaşmış bığlarını sığalladı, bu dəfə üzümə baxmadan:

– Aydındır, – dedi.

Qəşəng, mavi gözləri vardı, sifəti günəşdən yanmışdı, altıma stul çəkdi, bir az arxada oturdu. Xidmətçi qalxıb qapıya doğru addımladı. Dalandar pıçıltıya keçdi:

– Şankara tutulub.

Heç nə anlamadım, xidmətçinin sarğılı üzünə baxdım. Burnunun üstündə sarğı yastılanmışdı. O, çölə çıxanda dalandar dedi:

– Sizi tək buraxıram.

Ancaq bilmədim nə düşündüsə, çıxıb getmədi; bəlkə, üzümdən nəsə oxudu, ya bəlkə, hansısa ani hərəkətimi sezdi, amma çıxıb getmədi, arxamda dayandı, bu da mənim ürəyimi sıxdı. Otaq qürub günəşinin işığına bələnmişdi. Pəncərə şüşəsində iki eşşəkarısı çırpınırdı. Yuxu əhədimi kəsirdi. Geri çevrilmədən dalandardan soruşdum.

– Çoxdan burada işləyirsiniz?

O, elə bil, sualıma bənd imiş, əlbəəl:

– Beş il olar, – dedi. Sonra ağız deyəni qulaq eşitmədi. Guya, ağlına gəlməzmiş ki, ömrünün sonunu Marenqoda ahıllar evində keçirəcək. Onun artıq 64 yaşı vardı, əslən parisliymiş.

Bu məqamda onun sözünü kəsdim:

– Deməli, başqa yerdənsiniz?

Sonra xatırladım ki, məni direktorun yanına ötürməzdən öncə anam haqqında danışırdı. Deyirdi ki, mərhuməni tez dəfn etmək gərəkdir, yaddan çıxarmayın ki, bura Əlcəzairdir, düzən yerdir, isti ilə zarafat etmək olmaz. Elə o məqamda demişdi ki, əvvəllər Parisdə yaşayırmış. İndi oranı bir ləhzə unuda bilmir. Parisdə üç gün üç gecə mərhumu tək buraxmırdılar. Burada belə bir imkan yox idi; inanın, bu dünyadan getməsinə heç alışmamış araba dalınca cummalısan. Bu yerdə arvadı onun sözünü ağzında qoydu. “Bəsdir, bunları eşitmək cavan oğlanı bezdirər”. Qoca qızardı və üzr istədi.

Onda mən söhbətə qarışıb: “Eyib etməz”, – dedim. Belə düşünürdüm ki, dedikləri bitdə-bitdə doğru və maraqlı idi. Sonra meyitxanada mənə izah elədi ki, bura, ahıllar evinə yoxsulluq üzündən düşüb, baxmayaraq ki canı hələ də suludur; bax elə buna görə dalandar işləməyə razı olub. Soruşdum ki, belə çıxır, o da qocalar evinin üzvüdür, yox, qəti etiraz elədi son fikrimə – üzvü yox, işçisidir, – nöqtəni qoydu. Hələ bir an öncə yoldaşlarından söz açanda “onlar”, “qocalar” deməsi məni təəccübləndirmişdi. İndi anladım ki, o, qocalar evinin bir nəfəri olmağı özünə yaraşdırmır, axı necə olsa, qapıçı işləyir, yəni, bir növ, rəis.

Bu zaman xidmətçi təşrif gətirdi. Qəfildən axşam düşdü. Şüşə tavanın üstünə toranlıq çökdü. Dalandar işığı yandırdı. Gur işıq gözlərimə düşüb qamaşdırdı. Mənə şam eləməyi təklif etdi. Yemək istəmirdim. Mənə

südlü qəhvə gətirə biləcəyini dedi. Razılaşdım, çünki bilməyənlər də bilsin, südlü qəhvədən ötrü sinov gedirəm. Bir dəqiqədən sonra dalandar əlində məcməyi qayıtdı. Qəhvəni içdim. Papiros çəkmək istədim. Əvvəl tərəddüd eləyirdim. Bilmirdim, mərhumənin yanında çəkmək olar, ya yox. Sonda ağlıma gəldi ki, bunun mərhumə üçün artıq bir əhəmiyyəti yoxdur. Dalandara da təklif etdim, birlikdə sümürməyə başladıq. Bir az keçdi, o dedi:

– Bilirsiniz, ananızın dostları da onunla vidalaşmağa gələcəklər. Qayda belədir. Gedim bir neçə stul və qara qəhvə gətirim.

Lampaların, heç olmasa, birini söndürməyi xahiş etdim: Qardaşım, işıq adamın gözünü deşir. Dalandar qəribə bir şey dedi: "İşıq sistemi elə qurulub ki, ya hamısı yanmalıdır, ya da heç biri". Bundan sonra ona məhəl qoymadım. Çıxdı, bir az sonra qayıtdı. Stulları yerbəyer elədi, birinin üstünə qəhvədan qoydu, fincanları da onun böyrünə qalaqladı. Gəlib tabutun yanında, mənimlə üzbəüz oturdu. Xidmətçi bayaqdan tabutun başında səssizcə əyləşmişdi. Arxası bizə tərəf idi. Nə elədiyini görmək imkansız idi. Yalnız dirsəklərinin ani hərəkətindən anlaya bilərdin ki, deyəsən, nəsə toxuyur. Sakitlik idi, qəhvəni içib bir balaca qızındım, açıq qapıdan gecənin və çiçəklərin ətri gəlirdi. Yuxu aparmışdı məni. Birdən hənirtidən ayılmış kimi oldum. Gur işıq və divarların ağlığı gözlərimi apardı. Heç bir kölgə yox idi, əşyalar, otağın bütün künc-bucaqları elə aydın seçilirdi ki, az qalırdı adamın gözünə girsin. Anamın dostları otağa daxil olmağa başladılar. On-on iki nəfər olardı. Gözqamaşdıran işıq selini yarıb keçdilər. Əyləşdilər. Bircə stul da cırıldamadı. Hələ heç vaxt heç kəsi üzünün ən kiçik qırışlarına, libaslarının ən kiçik büküşlərinə qədər belə aydın görməmişdim. Ancaq onlardan səs-səmir çıxmırdı, inanmaq olmurdu ki, canlıdırlar.

Qadınların hamısı önlük taxmış, bellərini qaytanlamışdı, buna görə də qarınları qabarıq nəzərə çarpırdı. Əvvəllər qadınların qarınlarının belə böyük olduğuna diqqət yetirməmişdim. Kişilərin, demək olar, hamısı arıq idi. Əlağacılara söykəli durmuşdular. Məni daha çox heyrətə salan o idi ki, çalışsam da, onların gözlərini seçə bilmirdim. Tor kimi qırışlar içində nəyinsə işıldadığını sezə bilərdin, buna göz demək olardımı, bilmirəm. Oturduqdan sonra bir nəfər kimi mənə baxdılar, yöndəmsiz hərəkətlə başlarını buladılar. Hamısının dişi tökülmüş, ağzı büzüşmüşdü. Seçə bilmədim – mənimlə salamlaşırlar, ya qocalıqdan başları əsir. Yəqin ki, mənimlə salamlaşırdılar, başsağlığı verirlər. Ancaq qocalığın diktə elədiyi hərəkətlərin ritmi eləydi ki, sanki, bura məni mühakimə etməyə yığışmışdılar.

Bir az sonra qadınların biri ağladı. O, ikinci sıradakı qadınların arasında oturmuşdu. Özünü yox, səsini görürdüm. Monoton şəkildə ağlayır, hərdən səsi qısılır və qəfildən hıçqırırdı. Adama elə gəlirdi ki, bu səs, bu ağlartı bir daha kəsməyəcək. O birilər, elə bil, sağır olmuşdular. Büzüşüb oturmuşdular. Hərəsi qırış içində olan gözünü bir yerə – kimisi tabuta, kimisi əlağacına zilləyib fikrə getmişdi. Həmin arvadsa ağlayırdı, kəsmək bilmirdi. Məni lap bezdirmişdi, istəyirdim deyəm ki, səsini kəssin, ancaq cəsarətim çatmırdı. Dalandar əyilib qulağına nəsə pıçıldadı, o isə başını buladı, dərdi yadına düşübmüş kimi hıçqırmağa başladı. Dalandar yerindən qalxdı, gəlib yanımda bardaş qurdu. Bir müddət danışmadı, sonra öz-özünə alçaq səslə dedi:

– O, sizin ananızın ən yaxın rəfiqəsi idi. Yeganə həmdəmi ananız idi, indi tək qaldı.

Uzun müddət beləcə oturduq. Ağlayan arvad indi ah çəkir, hərdənbir hıçqırırdı. Səsini birdən kəsdi. Elə bil, gücü tükənmişdi. Yuxum gəlməsə də, yorulub əldən düşmüşdüm. İndi onların cınqır çıxarmamaları

əsəblərimə toxunurdu. Hərdənbir qəribə səslər eşidilirdi. Çalışsam da, səsin haradan gəldiyini ayırd edə bilmirdim. Sonra anladım ki, qocalar ovurdlarını somuranda dişsiz ağızlarından qəribə bir marçıltı qopur. Yəqin ki, özləri bunu hiss etmirdilər. Xəyala dalmışdılar, zaman nöqtədə onlar üçün donmuşdu. Qocalıq, bəlkə, elə zamanın donmasıdır. Hərdən mənə elə gəlirdi ki, bura anamı yad etmək üçün yox, nəsə başqa bir iş üçün toplaşıblar.

Dalandar fincanlara qəhvə süzdü. İçməyə başladıq. Sonra nə oldu, yadımda qalmayıb. Gecənin bir əyyamında oyanıb gördüm ki, qocaların hamısı yumaq kimi büzüşüb yatıb, ancaq onların biri hələ də oyaqdır. Çənəsini çəliyinə söykəyib mənə baxır. Elə bil, oyanmağımı gözləyirmiş. Sonra yenə mürgülədim. Belimdən qopan dəhşətli ağrı məni ayıltdı. Şüşəli tavan səhərlə gülümsəyirdi. Az sonra qocaların biri oyandı və uzun-uzadı öskürdü. O öskürür, bir əlində tutduğu dəsmalına tüpürürdü, hər dəfə də, elə bil, içindən nəsə ayrılırdı. Daha doğrusu, zülmlə ayrılırdı. Öskürdü, o birilərinin də yuxusuna haram qatdı. Dalandar dedi ki, getmək vaxtıdır. Hamı qalxdı. Üzücü gecə hamını əldən salmışdı. Bunu onların sifətindən oxumaq olardı. Qəribədir, gedərkən hamı əlimi sıxdı. Gecəni bir kəlmə də kəsmədik, ancaq sən demə, kəlməsiz də dost olmaq olarmış.

Yorulmuşdum. Dalandar məni başqa bir otağa apardı, orada üst-başımı səliqəyə saldım. Bir stəkan südlü qəhvə içdim. Dadlıydı, çox dadlı. Çölə çıxanda artıq işıqlaşmışdı. Marenqonu dənizdən ayıran yamacların üstündə səma qızarmışdı, oradan, bu yamacların arxasından əsən küləklər şor dadırdı. Hava açılacaqdı. Çoxdan idi şəhərdən kənara addım atmamışdım. Anamın vaqiəsi olmasaydı, ayaq açıb nə gəzərdim.

Həyətdə, çinarın altında durub gözləyirdim. Torpağın ətrini ciyərlərimə çəkir, çəkdikcə də ayılırdım.

İş yoldaşlarımı xatırladım. Bu saatda onlar yataqdan qalxıb işə getmək barədə düşünürlər. Mənim üçün ən çətini elə bu idi. Uzun-uzadı bu barədə düşündüm, kilsə zəngi düşüncələrimə son qoydu. İçəridən addım səsləri gəlməyə başladı. Sonra yenə sükut. Dalandar gəldi, direktor məni gözləyirmiş.

Getdim.

Bir neçə sənədi imzaladım. Qara uzun pencək və mil-mil şalvar geyinmişdi. Dəstəyi qaldırdı, gözlərini mənə zillədi:

– Dəfn bürosundan adamlar gəlib, indicə tabutun qapağını bağlayacaqlar. Son dəfə ananıza baxmaq istərdinizmi?

– Yox, – dedim. Səsini qısdı, telefonda göstərişlər verdi.

Sonra dedi ki, özü də dəfndə iştirak edəcək, təşəkkürümü bildirdim... Yazı stolunun arxasına keçib gödək ayaqlarını bir-birinin üstünə aşırdı.

– İkimizdən başqa kimsə olmayacaq, ancaq bizimlə orada xidmətçi də olacaq. Qocalar evinin sakinlərinə dəfndə iştirak etməyə icazə verilmir. Onlar yalnız gecəni mərhumun yanında keçirə bilərlər.

Ancaq bu dəfə o, şəxsi mülahizələrə görə, qocalardan birinə dəfnə qatılmaq icazəsi verib.

– Toma Perez ananızın köhnə dostudur. – Direktor gülümsədi. – Bəlkə, bu, yüngüllükdür, ancaq deməliyəm ki, ananızla çox yaxın idi. Sakinlər onlara şirin-şirin sataşır, Perezə hərdən "adaxlı" deyirdilər. – O güldü. – Bu, hər ikisinin xoşuna gəlirdi, bilin və agah olun, xanım Mersonun ölümü ona çox ağır zərbədir. Gecəni ananızın yanında keçirməyi qadağan eləsəm də, dəfnə qatılmağı qadağan eləyə bilmədim, ürəyim gəlmədi. Həkim dedi ki, bu kişiyə bir belə qüssələnmək olmaz.

Hər ikimiz susduq, xeyli müddət danışmadıq. Direktor ayağa qalxdı, pəncərədən boylandı.

– Aha, budur, budur, keşiş də gəldi... – Sonra bir daha xatırlatdı ki, kilsə Marenqo kəndindədir, buradan ora birsaatlıq yoldur. Kabinetdən çıxdıq. Evin qənşərində keşiş və iki uşaq dayanmışdı. Uşaqlardan birinin əlində buxardan vardı, keşiş isə əyildikcə gümüşü zənciri dartırdı. Biz yaxınlaşanda o dikəldi. Keşiş mənə dilağız elədi. Sonra meyitxanaya tərəf addımladı, mən də onun dalınca.

İçəri girən kimi vintlərin axıra kimi buruldduğunu, bir də qara geyimli dörd adamı gördüm. Direktor katafalkın hazır olduğunu dedi. Elə həmin dəqiqə keşiş duasına başladı. İşlər öz axarı ilə gedirdi. Qara geyimli adamlar əllərində örtüklə tabuta yaxınlaşırdılar. Keşiş, uşaqlar, direktor və mən ölüxanadan çıxdıq. Qapının ağzında tanımadığım qoca bir qadın dayanmışdı.

– Cənab Merso, – direktor məni ona təqdim elədi.

Qadının adını eşitmədim, ancaq anladım ki, burada çalışır. Təbəssümsüz-filansız baş əydi, arıq və uzunsifət bir qadın idi. Hamımız kənara çəkildik, xərəkdaşıyanlara yol açdıq. Tabutu qaldırıb yola düzəldilər. Onların dalınca darvazadan çıxdıq. Darvazanın o tayında üstü laklanmış katafalk vardı. Bir az aralıda alçaqboylu, nimdaş geyimli bir qoca dayanmışdı, sıxılmağı açıq-aşkar hiss edilirdi. Perez bu imiş, sən demə. Başına yumşaq mahud şlyapa qoymuşdu. Tabutu gətirəndə şlyapasını çıxarmışdı. Köynəyinin ağ, enli yaxalığına çox kiçik qara bir bant vurulmuşdu. Burnu sızanaqlı idi, dodaqları əsirdi. Seyrək saçlarının altında çox əcaib, biçimsiz qulaqları tünd-qırmızı rəngə çalırdı. Qulaqlarının rəngi məni təəccübləndirmişdi, çünki onun sifəti kimi, qulaqları da sapsarıydı. Xəlfə bizə hər şeyi, bütün qaydaları izah elədi. Lap öndə keşiş, onun arxasınca katafalk yola düşdü. Katafalkın dövrəsində dörd qara geyimli adam vardı. Arxada direktorla mən, bizdən sonra isə dayə ilə Perez. Anamın adaxlısı.

Səma qızmar işıqla dolduqca dolurdu. Gün artıq başımıza döyürdü. Bürkü getdikcə dözülməz olurdu. Bilmədim, nədənsə, uzun müddət yerimizdən tərpənə bilmədik. Mahud kostyumda istidən bişirdim. Qoca Perez şlyapasını başına qoydu, ancaq nə düşündüsə, yenə çıxardı. Ətrafa nəzər saldım. Durna qatarı misalı sərvlər üfüqdə yamaclara doğru uzanır, onların arasından gah yaşıl, gah da boz torpaq görünür, tək-tük evlər aydınca sezilirdi və həmin anda mən anamı çox yaxşı anlayırdım. Bu yerlərin, xüsusən, axşamı, yəqin ki, qənirsiz və çox gözəldir. Ancaq bu dəmdə, qızmar günəşin hər yeri lərzəyə gətirdiyi məqamda mənə cansıxıcı və dözülməz təsir bağışlayırdı.

Yola düzəldik, qəfil Perezin ağladığını gördüm. Çarxlar getdikcə daha sürətlə fırlanır, qoca bizdən aralı düşürdü. Həmin dörd nəfərdən biri arabanı irəli buraxıb mənimlə yanaşı addımlamağa başladı. Üzümdən tər damla-damla süzülürdü. Şlyapa qoymadığımdan cib yaylığımla üzümü sərinlətməyə cəhd edirdim. Bu, dəfn bürosunun işçisi idi, nəsə dedi mənə, ancaq eşidə bilmədim.

– Nə dediniz?

Səmanı göstərib bir də təkrarladı:

– Cızdağımız çıxdı ki!

– Yandırır, – dedim, – zalım yaman yandırır!

Bir azdan yenə soruşdu:

– Mərhumun oğlusunuz?

– Elədir.

– Qocaydımı?

– Bəli, qocaydı. Ancaq neçə yaşı olduğunu dəqiq bilmirdim.

Daha heç nə soruşmadı. Geri qanrılanda gördüm ki, qoca Perez bizdən, az qala, əlli metr arxadadır. Bir əlində şlyapası, o biri əlini yellədə-yellədə gücü çatan qədər bizə çatmağa çalışır. Direktora baxdım. Bircə

artıq hərəkətə də yol vermədən təmkinlə addımlayırdı. Alnında tər puçurlayırdı, ancaq tərini belə silmirdi.

Adamlar yavaşca addımlarını becid atmağa başlamışdılar. Dörd bir yan bürküdən qovrulur, uzandıqca uzanan yeknəsəq düzənlik günəşin istisində boğulurdu, göyə baxmaq olmurdu, gözün deşilirdi. Bir müddət yolun təzəcə təmir olunmuş hissəsi ilə addımladıq. Günəşin gücünə bax, yeridikcə dabanlarımızı çətinliklə qaldırırdıq, asfalt ərimiş kimiydi, dabanlarımızın qalxan yerində, elə bil, yara açılırdı. Katafalkı idarə edən sürücünün müşəmbəli silindri də, sanki, bu qara qatrandan yoğrulmuşdu.

Günəş, dəri və katafalkdan gələn peyin iyi, lakın və buxurun kəskin qoxusu, yuxusuz gecənin yorğunluğu... gözlərim qaralır, fikirlərim də addımlarım kimi bir-birinə dolaşırdı. Yenə geri qanrıldım – Perez uzaqda, qızmar bürkü selində güclə sezilirdi, sonra tamam gözdən itdi. Elə bil, uzun illər kiminsə dərdindən ölmüsən, onun bu dünyada qərar tutduğu nöqtəyə çatanda öldüyünü eşitmisən. Bir də geri döndükdə onun yoldan çıxıb çölə tərəf addımladığını gördüm. Anladım ki, bu yerlərə bələd olan Perez yolu kəsə getməyi qərara alıb. Sevdiyinin dəfninə ancaq yetişən adam yolu beləcə kəsə bilməzdimi? Döngədə bizə qoşuldu. Sonra yenə gözdən itdi. Tutqun havanın qaranlığı kimi idi. Çölə keçib yolu kəsə getməsi bir neçə dəfə təkrar edildi.

Sonra hadisələr öz-özünə o qədər sürətlə və sahmanla başa çatdı ki, yadımda heç nə qalmadı. Günəşin istisi, az qala, yaddaşımı pozurdu. Yazı yazıldıqca pozulurdu... Bircə onu xatırlayıram ki, kəndə daxil olanda xidmətçi qadın yaxınlaşdı, mənə nəsə dedi. Qeyri-adi səsi varmış, sən demə. Titrək, gözəl, azca qüssəli, sifətinə baxsaydın, səsin başqa yerdən gəldiyinə inanardın.

– Asta yerimək olmaz, gün vura bilər. Tələssən, qan-tərə batıb kilsədə soyuqlaya bilərsən.

Həmin günün başqa bir maraqlı detalı – Perezin canfəşanlıqla etdiyi manevrlərdən sonra, nəhayət, sonda bizə çatdığı andakı sifəti – gözlərimdən çəkilmir. Yorğunluq və əzabdan yanaqları boyu göz yaşları süzülürdü, üzündəki dərin qırışlar bu damlaların aşağı axmasına maneçilik edirdi. Göz yaşı yolda gölməçədə duran su kimiydi. Yadımda bir də kilsə, səkilər və qəbiristandakı kənd sakinləri, məzar başlarındakı ətirşahlar, huşunu itirib yerə sərilmiş Perez, bir də anamın qəbrinə tökülən – dibindən biçilmiş bitkilərin ağ zoğuna qarışmış torpaq, qan kimi qırmızı torpaq qalıb. Adamlar, qəribə səslər, kənd, kafenin önündə dayanacaqdakı qüssə və intizar, mühərrikin aramsız uğultusu, avtobusun Əlcəzairin işıqlı küçələrindən keçdiyi an qəfil sevincli duyğu: axır ki, qurtardı, rahat yatmaq olar indi...

## II

Oyananda anladım ki, ikigünlük məzuniyyət xahiş edəndə şef nədən belə narazı imiş. Bu gün şənbə günüdür. Bunu, az qala, unutmuşdum, yalnız yerimdən qalxanda xatırladım. Yəqin, şef fikirləşib ki, istirahət günləri ilə birlikdə mən dörd gün işdə olmayacağam. Bu da onu açmayıb. İndi günahkaram ki, anamı bu gün yox, dünən dəfn eləyiblər. O ki qaldı şənbə və bazara, bu günlər, onsuz da, heç kəs işləmir.

Yerimdən gec qalxdım. Yorğunluq hələ də canımdan tam çıxmamışdı. Üzümü qırxa-qırxa vaxtımı necə keçirəcəyimi götür-qoy edirdim. Çimsəm, yaxşı olar. Tramvaya oturub düz limanın yanındakı hovuza gəldim. Suya baş vurdum. Çoxu gənclər idi. Hovuzda Mari Kardonla rastlaşdım. Bir zamanlar o, bizim kontorda makinaçı işləmişdi. O zaman xoşuma gəlmişdi və deyəsən, o da mənə biganə deyildi. Ancaq sevdamız baş tutmadı. Çünki Mari başqa yerdə işə düzəldi.

Uzun ayrılıqdan sonra ilk dəfəydi üz-üzə gəlirdik. Üfürülmüş döşəyin üstünə çıxmasına kömək etdim, birdən döşlərinə toxundum. Mən hələ suda idim, o isə döşəyin üstündə uzanmışdı. Mənə baxdı. Saçları üzünə tökülmüşdü, üzü gülürdü. Qalxıb onunla yanaşı uzandım. Kefim kök idi. Zarafat edirmiş kimi başımı astaca qarnına dayadım. Qımıldanmadı və bir neçə dəqiqə beləcə qaldıq. Sonsuz mavi və qızılı səmaya baxır, harada olduğumu, az qala, unudurdum. Mari nəfəs alarkən qarnının necə qalxıb-endiyini hiss edirdim. Günəş şıltaqlığını artıranda Mari suya atıldı, mən də fürsəti əldən verməyib suya baş vurdum. Çatıb belini qucaqladım. Birgə üzməyə başladıq. Hey gülürdü. Körpüdə qurulananda dedi:

– Özünüzə də baxın, mənə də, kim çox qaralıb?

Axşam kinoya getmək istəyib-istəmədiyini soruşdum. Mari güldü və dedi ki, Fernandelin oynadığı film olsa, gedərdi.

Geyindik. Məni qara qalstukda görəndə təəccübləndi. "Anam ölüb", – dedim. Nədənsə, bir addım geri çəkildi, susdu. Sifətinin ifadəsi tamam dəyişdi. İstədim deyəm ki, günahım nədir, demədim, çünki bu sözləri neçə dəfə neçə nəfərə demişdim. Ancaq nə fərqi var, nə eləsən də, günahkarsan ki, günahkar...

Axşam Mari hər şeyi unutdu. Filmə baxdıq. Əyləncəli olsa da, səfeh bir film idi. Ayağını ayağıma sıxmışdı, astaca döşlərini sığallayırdım... Filmin sonu yaxınlaşanda onu öpdüm. Sonra bizə getdik.

Oyananda Marini görmədim. Getmişdi. Əvvəlcədən xalasına baş çəkəcəyini demişdi. Bazar günüydü, yadıma düşdükcə kefim korlandı. Bazar günü mənlik deyil, ondan zəndeyi-zəhləm gedir. Təzədən yatmağa çalışdım, balıncdan Marinin saçlarının ətri gəlirdi. Düz saat ona kimi yatdım. Oyansam da, yerimdən qalxmağa tələsmədim. Yerimdəcə siqaret çəkdim. Acsam da,

adətimə xilaf çıxaraq Selestin restoranına getmək istəmirdim. Getsəydim, sorğu-sual başlanacaqdı, xoşum gəlməyən də elə budur. Qayğanaq bişirdim, elə tavadanca həzmi-rabedən keçirdim. Evdə çörək qurtarmışdı, gedib almağa tənbəllik edirdim.

Otağımın pəncərəsi şəhər ətrafının ən gedişli, gəlişli küçəsinə açılır. Hava xoş olsa da, gedib-gələn az idi, nədənsə, hamı tələsirdi. Bəziləri gəzintiyə ailəlikcə çıxmışdı. Lap qabaqda dənizçi köynəyi və qısa şalvar geyinmiş iki oğlan uşağı və iri, çəhrayı bantlı qız addımlayırdı. Dallarınca qəhvəyi ipək don geyinmiş gonbul qadın və balacaboy sısqa bir kişi gedirdi.

Sonra küçə yavaş-yavaş boşaldı, güman ki, hamı filmə tələsirmiş, indi seanslar başlamış olmalı idi. Küçədə ancaq dükan sahibləri, bir də pişiklər qaldı. Evlərin ətrafında ucalan fikus ağaclarının üzərindən səma aydın görünürdü. Yolun o biri tərəfindəki siqaret dükanının sahibi stulunu qapının ağzında, səkiyə qoydu, stulu at kimi minib söykənəcəyə dirsəkləndi. Bir az əvvəl ağzına qədər dolu tramvaylar, demək olar, boş gedirdi. Siqaret dükanının yanındakı "Pyero" kafesi də bomboş idi.

Dükançı kimi mən də stulumu fırladıb tərsinə oturdum. Necə rahatmış belə oturmaq. İki siqaret çəkdim, sonra otağıma qayıtdım. Bir az şokolad qırdım. Pəncərə ağzında çeynəməyə başladım. Hava tutuldu. İndicə yay tufanı başlayacaqdı. Ancaq bulud ilxısı keçdikdən sonra da küçə qaranlıq idi. Yağış indi yağar, bir azdan yağar.

Saat 5-də tramvayların səsi aləmi başına götürdü. Bu dəfə camaat stadiondan gəlirdi, adamlar salxım-salxım tramvayların böyür-başından sallana qalmışdı. Növbəti vaqonlar oyunçuları gətirirdi, onları kiçik çamadanlarından tanıdım. Bağırdıqca bağırır, məğlubedilməz komandalarının şəninə mahnılar oxuyurdular. Bir neçəsi hətta mənə əl də elədi. Kimsə qışqırdı da:

– Atalarını yandırdıq.

Cavab olaraq başımı tərpətdim.

Hava bir az da qaraldı. Evlərin üstündə səma qızarmağa başladı və axşamın düşməsi ilə küçələr canlandı.

III

Bu gün ofisdə xeyli iş yığılıb qalmışdı. Şef məni olduqca mülayim qarşıladı... "Çoxmu yorulmusan?", – sözarası soruşmağı unutmadı, sonra anamın yaşı ilə maraqlandı. Səhv eləməmək üçün dedim ki, yetmişin içindəydi. Rahat nəfəs aldı sanki. Yəqin ki, söhbəti artıq bitmiş hesab edirdi.

Stolun üstünə qalaqlanmış sənədləri qaydaya salmaq lazım idi. Səhər yeməyinə getməzdən qabaq əllərimi yudum. Səhərlər yaxşıdır, dərd axşamın dərdidir: əlüzyuyanın yanından asılmış dəsmalla ofisin bütün işçiləri əlini silir, gün ərzində elə islanır ki, əlini sürtməyə iyrənirsən. Günlərin bir günü bunu şefin diqqətinə çatdırsam da, cavabı nə olsa yaxşıdır, razıyam səninlə, ancaq bu çox xırda məsələdir. Nahara həmişəkindən bir az gec, birin yarısında Emmanuellə birlikdə getdik. O, göndərişlərlə məşğul olan kontorda çalışır. Kontorumuz dənizə açılır, bir balaca gecikəsi olduq – günəşə qərq olmuş körfəzin ticarət gəmilərinə baxa-baxa gedirdik. Bu dəmdə bir yük gəmisi göründü. Uzaqdan tüstü verə-verə gəlirdi. Emmanuel dedi:

– Getdik.

Bu sözə bənd idim sanki, yerimdən götürüldüm. Maşın artıq bizdən aralanmışdı, faktik olaraq onun ardınca qaçırdıq. Gurultu beynimin içinə dolmuşdu, hər yanı toz-duman bürümüşdü. Nə görür, nə də hiss edirdim. Qurğu və maşınların qarasınca necə gəldi qaçırdıq. Körpünün yanındakı xırda gəmilərin dor ağacları yırğalanıb cırıldayırdı. Birinci mən çatdım, bortdan

tutub kuzova qalxdım. Sonra Emmanuelə kömək elədim. Güclə nəfəs alırdıq. Yük maşını kələ-kötür sahil küçəsi ilə günəş və tozun içində atıla-atıla gedirdi. Emmanuel uğunub getmişdi.

Beləcə, qan-tər içində özümüzü Selestin restoranına saldıq. Qoyub getdiyimiz kimiydi – yekəqarın, çalbığlı, ağ önlükdə.

– Necəsən, salamatsanmı? – məndən soruşdu. "Hə", – dedim, bir də əlavə etdim ki, yemək istəyirəm. Gətirdiklərini bir göz qırpımında yedim, üstündən qəhvə içdim. Evə gəldim, bir az yatdım, çünki səhər ifrata varmışdım, həmişəkindən artıq spirtli içki qəbul etmişdim. Oyananda papiros çəkmək istədim. Ancaq işə gecikməkdən qorxub tramvay dayanacağına qaçdım. Axşamacan işlədim. Kontorda it yiyəsini tanımırdı, boğanaq idi, hamı qarışmışdı bir-birinə. Axşam ləzzətlə, tələsmədən sahil küçəsiylə piyada evə qayıtdım. Səma yaşıl rəngə çalırdı, halım yaxşı, kefim yerindəydi. Necə oldusa, birbaşa evə getdim, könlümə kartof qızartması düşmüşdü.

Alaqaranlıq pilləkənlərlə qalxarkən qoca Salamano ilə üz-üzə gəldim. O, mənim qapıbir qonşum sayılırdı. İtini gəzintiyə aparırdı. Düz səkkiz il idi ikisi, canbir qəlbdə davasız-filan yaşayırdılar. Bu qəhvəyi rəngli it, zənnimcə, qotura tutulub, tükü getdikcə tökülür, özü də it günündədir: bədəninin xora basmayan yeri qalmayıb. Qoca Salamano iti ilə darısqal bir otaqda gün keçirirdi, vərdişdəndir, nədəndir, uzun müddət bir yerdə yaşadıqlarından bir-birinə oxşayırdılar. Üzünü yumazdı, yumadığı üçün qartmaq bağlamışdı, saçları tökülüb, dərisi görünür. Bu işıldayan dəridə bircə qotur çatışmır. İt sahibinə baxır – tez-tez belini bükür, boynunu itaətlə qabağa uzadır, başını aşağı salır. Bir canda iki ürək getdikcə bir-birinə nifrət etməyə başladı. Gündə iki dəfə – səhər 11-də və axşam 6-da iti gəzin-

tiyə çıxarır. Bu səkkiz ilin içində çaşıb marşrutdan kənara çıxdığı vaxt olmayıb. Budur e, Lion küçəsi ilə gəlirlər, it xaltasını dartır, qoca Salamano isə özünü büdrəyib yıxılmaqdan qoruyur. Gərgin vəziyyətdə olduğundan iti söyür, lap küçə söyüşləri ilə. İt bu nifrəti canında hiss edirmiş kimi tısır, qısılıb yumağa dönür. Ayaqlarını yerə dirəyir – bəli, bu məqamda əyləc basılır. İt deyir, öldürsən də, getmərəm. Qoca qart qəzəbi ilə iti dalınca sürüyür. Hər şeyin bir sonu var – it bezikib ayaqlarını yerdən aralayır, itaətlə yeriyir. Qocanın hirsi soyumur, düz qapıya qədər onu söyür, söyüşün biri beş qəpiyə. Qəribə bir durum yaranır, – elə bil, bu dünyada hamı çəkilib, yalnız ikisi qalıb – birdən bir-birinə baxırlar, biri qorxur, o biri söyür. Hər gün eyni səhnə təkrarlanır, it ayağını qaldırdımı, qoca əhədini kəsir, xaltasından dartır, arxaya baxan olsa, məsələni əlbəəl anlayar: dalğavari xətt üzrə xırdaca damlalar... Selestin fikrincə, Salamano dünyanın son əclafıdır. Kimin necə olduğunu bir olan Allah bilir, Salamono da eləcə.

Biz pilləkənlərdə rastlaşdıqda iti yamanlayırdı, ona "əclaf" deyirdi.

İt zingildəyirdi.

Dedim:

– Axşamın xeyir.

Kimə deyirsən, qoca rol əzbərləyirmiş kimi söyməkdəydi.

– İt sizə belə neyləyib ki, – dözməyib soruşdum.

Qoca susdu... Bircə söz dilindən düşmürdü:

– Alçaq! Yaramaz!

Qaranlıqda, güclə də olsa, sezdim ki, itin üstünə əyilib. Xaltasını əlləşdirirdi. Soruşduğumu bir də ucadan soruşdum. Geriyə baxmadan qəzəblə dedi:

– Ölsəydi, canım dincələrdi, yoxsa mən öləcəyəm.

Bunu deyər-deməz iti ardınca dartmağa başladı. İt zingildəyir, pəncələrini yerə daha möhkəm dirəyirdi.

Bu anda başqa bir qonşum çıxdı. Məhəllədə onu baştutan kimi tanıyırdılar. Ancaq nə işlə məşğul olduğunu soruşanda deyir ki, anbardardır. Olur ki, hərdən rastlaşanda bir-iki kəlmə kəsməli oluruq, bəzən qapımı döyür, astaca, güclə eşidilən şəkildə. Bilir ki, nə desə, can-başla dinləyəcəyəm. Fikrimcə, nəqletmə tərzi pis deyil. Onunla haqq-salam kəsməməyə heç bir səbəbim yoxdur. Adı Raymon Sintesdir. Balacaboylu, enlikürək, burnu boksçu burnu kimi. Mənimlə Salamanonun qeybətini elədi:

– Gör nə əclafdır!

Soruşdu ki, doğrudanmı, bütün bunlardan iyrənmirəm? "Yox" dedim.

Pilləkənləri qalxmağa başladıq, qapını açıb içəri keçmək istəyirdim ki, dedi:

– Evdə şərab və qan kolbasası var. Gəlsənə bizə.

Düşündüm ki, bir də evə get, özünə şam yeməyi hazırla, dərhal razılaşdım. Salamanonun evində olduğu kimi, Raymonun da otağında bircə çarpayı vardı. Bir də qaranlıq xəfə mətbəx. Çarpayının yuxarısında ağ-narıncı rəngdə mələk qoyulub, gipsdən hazırlanıb, dərhal bilinir. Sonra çempionların fotoları, iki, ya üç şəkil olardı, jurnallardan kəsilmişdi. Bir də çılpaq qadın şəkilləri. Otaq yaman gündəydi, çarpayı yığışdırılmamışdı. Otağa girən kimi Raymon kerosin lampanı yandırdı, sonra cibindən bint çıxardı, sağ qolunu sarımağa başladı, deyəsən, bint də kirin içindəydi. Qoluna nə olduğunu soruşdum. İzah eləməyə başladı: "Bir tiplə sözləşdik, sonra dalaşmalı olduq".

– Bilirsinizmi, cənab Merso, mən bədxah deyiləm, ancaq dediyimin üstündə durmağı bacarıram. Həmin tip, bilsən, nə deyirdi mənə: "Kişisənsə, tramvaydan düş, danışaq". Dedim: "Yaxşı, əl çək məndən..." O, mənə: "Elə bilirdim, kişisən, nə gündəsən..." Nəhayət, vaqondan çıxdıq. Dedim: "əl çək məndən, yoxsa..." O

isə: "Qorxdum səndən, yaman qorxdum. Xoxan gəlib məni yeyəcək. Bu an bıçağı çıxarıb qoluna çəkdim. Yerə yıxıldı. Qaldırmaq istədim. Uzandığı yerdə məni təpikləməyə başladı. Dizimlə qarnına və üzünə ilişdirdim. Qana bələndi. Soruşdum: "Bəsindir?" Dedi: "Kifayətdir".

Danışa-danışa qolunu sarıyırdı. Sintesin çarpayısına oturdum. Danışırdı:

– Başa düşürsən, mənim heç kəslə işim yoxdur. Heç kəsə bənd olmuram. Birinci o, məni təhqir elədi.

Nəql etdiyi hadisədən göründüyü kimi, bu, belə idi ki var. Deyəsən, məqamıydı, dedi ki, bax elə bu kimi incə məsələlərlə bağlı fikrimi soruşmaq istəyirmiş. Mənə gənəşməsinin məqsədi ancaq bu idi, bir də dedi ki, məni ürək dostu kimi görür. Susdum. Bir də soruşdu ki, onunla dost olarammı? Dedim ki, fərqi yoxdur, bunu eşidəndə keyfi xeyli kökəldi. Kolbasanı çıxartdı, doğrayıb tavada qızartdı, stolun üstünə nimçə və qədəhləri düzdü, haradansa bıçaq və çəngəl-qaşıq tapıb gətirdi və iki şüşə çaxır. Hər şey sükuta dalmışdı. Sonra stolun arxasına keçdik. Stol arxasında mənə işlərindən danışdı. Əvvəl bir az tərəddüd elədi:

– Bir qadınla tanış oldum.

Məlum oldu ki, dalaşdığı kişi məşuqəsinin qardaşıymış. Raymon qadını saxladığını iddia edirdi. Susdum, reaksiya vermədim, ancaq dərhal əlavə etdi ki, məhəllədə haqqında hansı şayiələrin gəzdiyindən xəbəri var. Ancaq vicdanı təmizdir, adi anbardar vəzifəsində çalışır.

– Günlərin bir günü ayılıb gördüm ki, yerin altına girmişəm. Məni heç kəs sayıb-eləmir.

Məşuqəsinin yolunda canını qoydu, nə lazımsa təmin elədi. Onun üçün ayrıca ev tutdu, gündə yeməkiçməyinə iyirmicə frank verirdi.

– Evə görə otuz frank, altmış frank yeməkpulu, bəzən corabdan-filandan alır və beləcə min frank əriyib

gedirdi. Xanım işləmirdi. Ancaq nəfəs alıb-verdikcə deməkdən usanmırdı ki, verdiyim pullar ona çatmır. Ona deyəndə ki, heç olmasa, günün yarısını bir yerdə işlə, xırda-xuruş xərclərdən canımı qurtar. Bu ay sənə kostyum almışam, gündə iyirmi frankı sayıb ovcuna qoyuram, yaşadığın evin parasını ödəyirəm, sənsə günün günortaçağı rəfiqələrinlə kafedə əyyaşlıq edirsən. Onları şəkərli qəhvəyə qonaq edirsən. Mənim hesabıma. Mən sənə yaxşılıq edirəm, sən gör nə edirsən. Yaxşılığa yamanlıq? Ancaq o işləmirdi, əlindən-başından gələn buydu ki, desin: verdiyin pullar heç dərdimə çatmır, onda anladım ki, məni hərifləyirlər.

Raymon danışdı ki, məşuqəsinin çantasında lotereya bileti tapıbmış, qız bunu hansı pula aldığını heç cür uzah eləyə bilmədi. Bir az keçəndən sonra qəribə bir qəbz peyda oldu, sən demə, iki qolbağını lombarda qoyubmuş. Qolbağı olduğundan heç şübhələnmirdi də.

– Bax bu məqamda onu dişimə vurub sınadım. Ayrılmağa qərar verdim. Heç nəyi gizlətmədən haqqında düşündüyümü dilimə gətirdim. “Sən, – dedim, – yatağında kiminlə gəldi oynaqlaşa bilərsən”. Cənab Merso, başa düşürsünüzmü, ona elə belə də dedim, dedim ki, səni layiq olmadığın xoşbəxtliyə qovuşdurdum, hamı sənə həsədlə baxırdı, sənsə kor oldun, hər şeyi qulaqardına vurdun. Başa düşəndə gec olacaq.

Qanına qəltan eləmişdi onu. Əvvəllər ona əl qaldırmağı ağlından belə keçirməzdi.

– Əzib suyunu çıxartdım, ancaq sevə-sevə, oxşaya-oxşaya. Ağlamsınsa da, üzümü yana çevirirəm. İş bu dəfə ciddiləşdi, ona elə bir dərs verdim ki, unuda bilməsin.

Durub-durub deyirdi ki, mənim məsləhətimə çox ehtiyacı var. Birdən ara verdi, əlimi uzadıb lampanın fitilini düzəltdim, lampa his verirdi. Susurdum. Ən yax-

şısı dinləmək idi. Az qala, bir litr çaxır içdim, başımda gurultu vardı, ara vermirdi. Əl atıb Raymonun siqaretlərindən çəkdim, qutum boşalmışdı. Axırıncı tramvaylar ötüb-keçirdi, gündüzün artıq kiriyən səs-küyünü də özüylə aparırdı. Raymon danışırdı. Kədərli olan budur ki, o, hələ də bu fahişəni qəlbindən çıxarıb ata bilməyib. Nə edirdisə, ürəyi soyumurdu. Ancaq əlbət, bir gün dərsini əməllicə verəcək. Arada istədi ki, onu mehmanxanaya aparsın, dərhal da polisə zəng eləsin. Hay-küy qalxsın və ona sarı bilet versinlər. Sonra dostlarına üz tutdu – bu aləmdə yoldaşları istədiyin qədərdir. Düzgün bir şey məsləhət edə bilmədilər. İndi mənə üz tutub: bütün bu olub-keçənlər barədə fikrim nədir? Dedim ki, heç nə fikirləşmirəm, ancaq maraqlıdır. Bəs mənim fikrimcə, qız ona kələk gəlibmi? Elədir, olub bu iş. Ancaq beləydisə, onun dərsini vermək nəyə yarayacaqdır? Mən necə edərdim? Demək çətindir, ancaq etiraf edim ki, onu da anlayıram, ürəyi yanır, belə olduqda insan ən kəskin hərəkətlərə əl atır.

Sonra yenə şərabdan içdim. Raymon siqaret yandırdı və öz planını dürüstcə anlatdı mənə: məktub yazıb könlünü alacaq. Qız yanına gəldikdə onunla yatağa uzanacaq və məsələnin “qəliz yerində” üzünə tüpürüb evindən qovacaq. Razılaşdım. Belədə qızı, doğrudan da, cəzalandırmış olacaq. Ancaq Raymon dedi ki, bu məktubu yaza bilməz, ağlından keçir ki, mənə gənəşsin, bəlkə, onun əvəzində bu işi mən görüm? Cavab vermədim. Üzümə baxa-baxa əlavə etdi ki, bəlkə, bu işə indi başlayaq, necə deyərlər, yolçu yolda gərək. Etiraz eləmədim. Bir stəkan şərab içib ayağa qalxdı. Qab-qacağı əliylə bir kənara itələdi. Stolun müşəmbə örtüyünü sildi. Siyirmədən bir vərəq dama-dama kağız, sarı rəngli konvert, qırmızı taxta qələm və dördkünc bənövşəyi mürəkkəbqabını çıxardı. Qadının adını çəkəndə bildim ki, ərəb mənşəlidir. Başımı vərəqin

üstündən qaldırıb yazdığımı ucadan oxudum. Papirosa güc verir, diqqətlə məni dinləyirdi. Bir də oxumağımı xahiş elədi. "Bilirdim ki, bunun öhdəsindən gəlsən, sən gələrsən", – axırda belə dedi.

Mənə "sən" deyə müraciət etməsini dərhal tutmadım. "İndi bildim ki, mənim əsl dostumsan" deyəndə məni təəccüb bürüdü. Bu sözünü bir də təkrar elədi. Dedim ki, mənimçün fərq eləməz, dost deyirsən, dost olduq. Məktubu qatlayıb zərfin içinə qoydu. Çaxırı son damlasına qədər içdik. Sonra heç nə demədən siqaret sümürdük. Küçə tam boşaldı, ins-cins kəsildi, sonuncu avtomobil də beləcə keçdi, küləyin qovduğu yarpaq misalı.

– Gecdir, – dedim.

Raymon da başıyla təsdiqlədi. Vaxt necə də sürətlə axıb keçir. Məni yuxu basırdı, nə illah eləsəm də, yerimdən qalxa bilmirdim. Raymonun baxışlarını duman içindən görürmüş kimi sezirdim, sonra mənə üzrxahlıq elədi, ürəyini sıxma, dedi. Niyə? İzah elədi ki, anamı itirdiyimdən xəbəri var. Gec-tez hamımız öləcəyik. Biri ölür, beşi doğulursa, bu, düz deyil, hamı ölmür, hərə öz növbəsini gözləyir. Ancaq razılaşdım. "Hə, elədir, – dedim, – hamı ölür".

Qalxdım, nəhayət. Raymon əlimi bərk-bərk sıxıb dedi ki, əsl kişilər bir-birini ilk baxışdan anlayarlar... Çıxdım, qapını örtdüm və bir müddət qaranlıq meydançada durdum. Bina yuxu içində üzən gəmiyə bənzəyirdi. Hərəkətsiz dayanmışdım, heç nə eşitmirdim, qulaqlarım səsə düşmüş kimi bir ucdan uğuldayırdı. Qoca Salamanonun otağından itin boğuq zingiltisi eşidilirdi. Dünya düzəlmir ki, düzəlmir.

## IV

Bütün həftəni var gücümlə çalışdım. Günlərin bir günü Raymon gəlib məktubu göndərdiyini söylədi. İki dəfə Emmanuel ilə kinoya getdim. Çox zaman ekranda nə baş verdiyini anlamır, məni yanınca aparırdı ki, onu ekrandakı hadisələrdən agah edim. Dünən, şənbə günü, vədələşdiyimiz kimi, Mari gəldi. Ağ və qırmızı zolaqlı gözəl don və dəri səndəl geymişdi, bərk döşləri donun altında dik durmuşdu, günəşdən yanmış əsmər üzü çiçək kimi açmışdı. Biz avtobusa əyləşib Əlcəzairin bir neçə kilometrliyində – qayalıqla sahil qamışlığının ortasındakı kiçik çimərliyə getdik. Saat dörddə günəş əlinin arxasını yerə qoysa da, isti o saat çəkilib getmir. Dəniz mürgü içində çalxalanırdı. Marinin öyrətdiyi kimi, dalğaların üzündəki ağ köpüyü sorub göyə üfürürdük. Damcılar narın-narın havaya səpələnir, ya da isti yağışa dönüb geriyə – üzümüzə səpələnirdi. Ancaq tezliklə şor-acı su ağzımı göynətməyə başladı. Mari suyun altında mənə qısıldı. Dodağını dodağıma yapışdırıb, dilini dodaqlarıma sürtdü. Ağzımın göynərtisi dayandı və biz bir qədər dalğalarda yelləndik.

Sonra qumluğa çıxıb geyindik. Marinin gözlərinin içindəki alov üzümə vurdu, dözməyib onu sinəmə sıxdım. Sonra yeyin-yeyin evə sarı addımladıq, birbaşa bizə gəlib yatağa cumduq. Pəncərəni taybatay açmışdım. Yay gecəsinin həlimliyi məlhəm kimi bədənimizə sarılmışdı, gecənin pıçıltısı canımıza hopduqca hopurdu...

Səhər Mari mənimlə qaldı.

Küçəyə çıxdım ki, yeməyə nəsə alım. Qayıdanbaş Raymonun otağından qadın səsi eşitdim. Bir az sonra qoca Salamanonun itlə müharibəsi başlandı, nə başladı. Taxta pilləkənlərdə ayaqqabıların tappıltısı, cırmaq səsləri və tanış sözlər eşidildi:

– Əclaf! Alçaq!

Onlar küçəyə çıxdılar. Mən Mariyə qoca barədə məlumat verdim. Gülürdü. Əynində mənim pijamam vardı, qollarını azca qatlamışdı. Mari elə gülürdü ki, onu təzədən istəyirdim. Bir qədər sonra soruşdu:

– Sevirsənmi məni?

Cavab verdim ki, bu, boş, cəfəng sözləri haradan tapır. Sevirəm, əlbəttə, sevirəm. Üzünü qüssə örtdü. Yemək hazırlayanda yenə heç nədən elə güldü ki, özümü saxlaya bilmədim, belindən tutub qucaqladım. Elə bu anda Raymonun otağında hay-küy qopdu. Əvvəlcə qadın qışqırığı, sonra Raymonun səsi eşidildi.

– Sən mənə xəyanət etmisən, məni bir qara qəpiyə satmısan, bəli, aldatmısan, bunu sənə çay qaşığında son damlasına qədər içirdəcəyəm, yaddan çıxarma.

Küt zərbə səsləri eşidildi, qadın anidən elə bağırdı ki, qonşular buna bənd imişlər kimi çölə tökülüşdülər. Biz də Mari ilə çıxdıq. Qadın var səsiylə çığırırdı. Raymon isə zərbələri endirirdi. Mari dedi: «Bu, dəhşətdir». Susdum. O xahiş etdi ki, polis çağırım. Dedim, polisdən xoşum gəlmir. Ancaq tezliklə polis gəldi. Qapını döydü. Səs xırp kəsildi. Polis qapını daha bərk döydü. Bu zaman qadın ağladı və Raymon qapını açdı. Sifətində saxta bir təbəssüm vardı, dişləri arasında siqaret tutmuşdu. Qadın qapıya tərəf atıldı və qışqırıb polisə dedi ki, Raymon onu döyüb.

– Soyadın? – polis soruşdu.

Raymon cavab verdi.

Polis dedi:

– Siqareti ağzından çıxar və ədəbli ol.

Raymon duruxdu, dönüb mənə baxdı, ancaq siqareti çıxarmadı. Polis qolunu hərləyib ona yağlı bir şapalaq tutuzdurdu. Siqaret ağzından çıxıb bir neçə metr kənara düşdü. Raymonun rəngi bozardı, ancaq heç nə demədi, az sonra özünə gəlibmiş kimi, fağır-fağır

soruşdu ki, siqaretin kötüyünü götürmək olarmı? Polis icazə verdi və əlavə elədi:

– Gələn dəfə polislə danışanda tərbiyəli ol, ağzının qatığını dağıdaram.

Bütün bu müddətdə qadın ağlaya-ağlaya təkrar edirdi:

– O, məni əzişdirdi. O, erkək pişikdir!

Raymon dedi:

– Cənab polis, qanun adamı pişik adlandırmağa icazə verirmi?

Ancaq polis ona tərs-tərs baxdı, yəni mumla. Onda Raymon dönüb qadına dedi:

– Heç eybi yoxdur, görüşərik, əlbət.

Polis dedi ki, qoy qadın getsin, o isə evdən çölə çıxmasın, bir azdan onu polis məntəqəsinə çağıracaqlar. Sonra əlavə elədi ki, Raymonun vicdanı olsa, öz əməlinə görə xəcalət çəkər, gör nə qədər içib ki, bütün bədəni əsir.

Raymon:

– Mən sərxoş deyiləm, cənab polis, – dedi. – Sizdən qorxduğum üçün məni əsməcə tutub.

O, otağa keçib qapını örtdü, hamı dağılışdı. Biz Mari ilə yenidən yemək hazırlamağa başladıq. Ancaq onun iştahası küsmüşdü, yeməyin, demək olar, hamısını özüm yedim. Bir saatdan sonra Mari çıxıb getdi, mən isə bir qədər yatdım.

Saat 3-də qapı döyüldü. Gələn Raymon idi. Mən hələ uzanmışdım. O, çarpayının kənarında əyləşdi. Oturub susurdu. Soruşdum məsələ necə olmuşdu? Danışdı ki, hər şeyi dediyi kimi eləyib, ancaq qadın ona bir şillə vurub. O da məşuqəsini o ki var əzişdirib, sonrasını da öz gözlərimlə görmüşəm. Dedim:

– Daha onun dərsini vermisən, rahat ola bilərsən.

Raymon da eyni fikirdə idi, dedi ki, indi polis nə istəyir eləsin, dəxli yoxdur. Qadın öz payını alıb, artıq

heç kəs bunun üstündən qələm çəkə bilməz. Əlavə elədi ki, polis işçilərini o, yaxşı tanıyır, onların dilini yaxşı bilir. Sonra soruşdu ki, yəqin, gözləyirmişəm ki, o, polis nəfərini vuracaq, hə? Dedim, doğrusu, heç nə gözləmirdim və ümumiyyətlə, polis işçilərini xoşlamıram. Raymon, görünür, razı qalmışdı. Soruşdu, bəlkə, gəzməyə çıxaq? Mən qalxıb saçlarımı düzəltdim. Bu yerdə o dedi ki, məni özünə şahid aparmaq istəyir. Mənim üçün fərqi yox idi, ancaq orada nə deyəcəyimi bilmirdim. Raymon mənə başa saldı ki, fahişənin onu aldatdığını təsdiq eləsəm, kifayətdir. Razı oldum.

Biz evdən çıxanda Raymon adama bir qədəh konyak içmək təklif etdi. Bundan sonra onun könlünə bilyard oynamaq düşdü, orada uduzdum. Sonra bordelə dəvət elədi. Ancaq getmədim, dedim, yox, belə şeylərdən xoşum gəlmir. Onda tələsmədən geri qayıtdıq.

Hələ uzaqdan evimizin qabağında qoca Salamanonu gördüm. O, həyəcanlı görünürdü. Biz yaxınlaşanda gördük ki, it yanında yoxdur. O, dörd tərəfə baxır, fırfıra kimi fırlanır, qaranlıq dəhlizə nəzər salıb nəsə donquldanırdı. Raymon soruşdu ki, ona nə olub, qoca cavab vermədi. O, hələ də vurnuxur, hərdənbir dodaqları altında donquldanırdı:

– Əclaf! Alçaq!

Soruşdum ki, it hanı?

– Qaçdı, – qoca deyinməyini kəsib adam kimi danışmağa başladı. – Həmişəki kimi, meydana getmişdik. Orada yarmarka açılıb, oyunbazların yanında çoxlu adam var idi. Avara-krala baxmaq üçün ayaq saxladım. Sonra yoluma davam eləmək istəyəndə gördüm, itin heç izi-tozu da qalmayıb, günah məndədir, gərək xaltasını çoxdan daraldaydım, ancaq heç ağlıma gəlmirdi ki, bu əclaf bax beləcə əkilə bilər.

Raymon onu sakitləşdirmək üçün dedi ki, yəqin, it, sadəcə, azıb, bir azdan özü qayıdıb gələcək. O, bu

barədə çoxlu misal gətirdi: olur ki, it on kilometrlərlə uzağa gedir, ancaq axırda, görürsən, yenə sahibinin yanına qayıdır. Ancaq qoca heç cür sakit ola bilmirdi.

– Başa düşün ki, onu öldürə bilərlər. Barı biri ona yiyə duraydı. Yox əşi, qoturdur, onu kim götürər, hamı ondan iyrənir, yəqin ki, dərisoyanların əlinə keçib.

Salamanoya məsləhət gördüm ki, dəri soyulan yerə getsin, cərimə versin, onda iti qaytararlar. Soruşdu ki, cərimə böyükdürmü? Bunu bilmirdim. Bu vaxt o qızışdı:

– Belə leş üçün hələ pul da verməliyəm?! Qoy gəbərsin köpəyoğlu.

Yenə də söyüş yağdırmağa başladı. Raymon gülüb içəri keçdi. Mən də onun dalınca getdim. Meydançada ayrıldıq. Az keçmiş qocanın addım səsləri eşidildi. Sonra qapı döyüldü. Açdım, məni görən kimi dedi:

– Bağışlayın... Üzr istəyirəm.

Mən onu otağa dəvət elədim, ancaq o girmədi. Başını aşağı dikib dayanmışdı. Qartmaqlı əlləri əsirdi. Nəzərlərini yerdən ayırmadan soruşdu:

– Deyin, cənab Merso, onu məndən almazlar ki? Qaytararlarmı onu mənə?

Dedim, sallaqxanada iti, ən azı, üç gün saxlayırlar ki, sahibi istəsə, gəlib apara bilsin, yalnız bundan sonra onunla lazımi rəftar eləyirlər. O dinib-danışmadan bir xeyli üzümə baxdı. Sonra dedi:

– Gecəniz xeyrə qalsın.

Və çəkilib öz otağına getdi, mən onun otaqda necə var-gəl elədiyini eşidirdim. Sonra çarpayı cırıldamağa başladı. Divarın o tayından qəribə, boğuq səslər gəlirdi və mən anladım ki, qoca ağlayır. Özüm də bilmirəm, nəyəsə görə, anam yadıma düşdü.

## V

Raymon ofisə zəng elədi. Mənə dedi ki, dostlarından biri (ona mənim barəmdə danışıbmış) bazar gününü çimərliyin yaxınlığında yerləşən evində birgə keçirməyə dəvət edib. Bu istirahət evi Əlcəzairin yaxınlığında yerləşir. Cavab verdim ki, çox istərdim günümü onlarla birgə keçirim, ancaq bu gün üçün başqa bir dostumla artıq vədələşmişəm. Raymon o dəqiqə bəyan etdi ki, dostumu da dəvət edə bilərəm. Dostunun arvadı bir sürü kişinin arasında tək olmayacağına görə hədsiz sevinəcək.

Telefonun dəstəyini o saat asmaq istədim, çünki şefimiz şəhərdən bura zəng ediləndə birtəhər olur. Ancaq Raymon bir az gözləməyi xahiş etdi və mənə dedi ki, bu təklifi mənə axşamüstü də çatdıra bilərdi, ancaq niyyəti başqa bir şeyi xatırlamaqdır. Bütün gün ərzində bir qrup ərəb onu daban-dabana təqib edib və onların arasında keçmiş məşuqəsinin qardaşını da görüb. "Evə dönərkən bu axşam onu evin yaxınlığında görsən, mənə deyərsən". "Baş üstə", – dedim.

Bir neçə dəqiqə keçdikdən sonra şef məni çağırtdırdı, xəbəri eşidən kimi dilxor oldum, çünki fikirləşdim ki, yenə artıq min kərə dediyi sözləri üzümə çırpacaq: az danışın, çox işləyin. Ancaq belə olmadı, qətiyyən belə olmadı. İçəri girən kimi bir az qəribə intonasiya ilə bəyan etdi ki, indi mənə hələ konturlarını tam cıza bilmədiyi bir layihədən bəhs edəcək. Sadəcə, bu üsulla bağlı fikrimi öyrənmək istəyir. Beyninə batmışdı ki, Parisdə ofisimizin elə bir filialını yaratsın ki, işlərimizi orada yerindəcə həyata keçirə bilsin və dərhal soruşdu ki, ora getmək istərdimmi? Bu, mənə Parisdə yaşamaq şansı verəcəkdi. "Gəncsiniz və məncə, orada keçirəcəyiniz həyat tam ürəyinizcə olacaq". Dedim ki, düz

deyirsiniz, ancaq ürəyimin dərinliyində bunun mənim üçün bir elə isti-soyuğu yox idi. Axırda təbəssümlə soruşdu ki, həyatımda dəyişiklik etmək ürəyimcə deyil?! Cavab verdim ki, həyat, onsuz da, heç zaman dəyişmir, istənilən halda hər şeyin konkret dəyəri var və buradakı həyatımdan da narazı deyiləm. Üzünü turşutdu, narazı görkəm aldı, dedi ki, həmişə solaxay cavablar verirəm, heç bir ambisiyam yoxdur və bu, biznesdə heç də yararlı bir şey deyildir. Sözünü bitirər-bitirməz çevrilib otağıma qapandım. Çox istərdim ki, məndən bədgüman olmasın, ancaq həyatımın axarını dəyişdirməyə də əsaslı bir səbəb görmürdüm. Bu barədə düşünmək, etiraf edim ki, mənə bir azca qol-qanad verdi. Tələbə olduğum illərdə çox ambisiyalı idim, elə bilirdim, dünyanı alt-üst edərəm. Ancaq təhsilimi başa vurduqdan çox az sonra anladım ki, bütün bunlar, əslində, cəfəng və mənasız şeylərdir.

Axşamüstü Mari yanıma gəldi və onunla evlənmək istəyib-istəmədiyimi soruşdu. Dedim ki, bu, mənim üçün xüsusi bir problem deyil, əgər o istəyirsə, problem yoxdur. Sonra onu sevib-sevmədiyimi soruşdu. Artıq bir dəfə dediyim cavabı verdim, yəni mənim üçün bu, xüsusi əhəmiyyət daşımır, ancaq düzünə qalsa, sevmirəm. “Elədirsə, mənimlə niyə evlənmək istəyirsən?” – soruşdu. İzah etdim ki, evlənmək nə böyük problemdir ki... Hər şey onun istəyindən asılıdır, istəyirsə, evlənə bilərik. Bir də axı bu sualı o verirdi və mən də ona “razıyam, sən dediyin kimi olsun” cavabını verirdim. Burada nə var ki?! Dedi ki, nikah zarafat deyil, ciddi məsələdir. “Yox, – dedim, – mən belə düşünmürəm”. Susdu və diqqətlə məni süzdü. Sonra danışmağa başladı. Sadəcə, bilmək istəyirdi, bu təklif başqa bir adamdan, yəni kənardan gəlsəydi, o qadına da eyni cavabı verərdimmi? “Şübhəsiz”. Dedi ki, məni sevir və mən bunu anlaya bilmərəm. Yenə sükut çökdü, öz-

özünə pıçıldadı ki, nə qəribə adamsan, bəlkə, elə bu qəribəliyinə görə səni sevirəm, ancaq kim deyə bilər ki, günlərin bir günü elə bu qəribəlik məni təngə gətirməyəcək? Susurdum, dediklərinə reaksiya vermirdim, birdən gülümsəyərək əlimdən tutdu və mənim qadınım olmaq istədiyini bəyan etdi. Cavab verdim ki, istədiyin anda bunu həyata keçirə bilərik. Sonra ona şefin təklifini xırdaladım, Mari Parisdə yaşamaq istədiyini söylədi. İzah etdim ki, vaxtilə orada yaşamışam, məndən necəliyini soruşdu. Dedim: "Murdar bir yerdir, dörd yanı göyərçinlə doludur, həyətlər zirzibillikdir. İnsanların dərisi isə ağdır".

Sonra biz evdən çıxıb geniş küçələr boyu obaşbubaşa addımlamağa başladıq. Qadınlar həddən ziyadə gözəl idilər. Maridən bunu sezib-sezmədiyini soruşdum. "Bəli", – dedi, əlavə elədi ki, məni yaxşı anlayır. Bir müddət susub qaldıq. Ancaq çox istərdim ki, bu gün mənimlə qalsın, dedim ki, Selestin yanında çörək yeyə bilərik. Cavab verdi ki, böyük məmnuniyyətlə. Ancaq bir az işləri var. Düz evimin yanına gəlib çatmışdıq, onunla sağollaşdım. Mənə baxdı: "Bilmək istəmirsən, nə işim var?" Əlbəttə, bilmək istərdim, ancaq bu barədə düşünməmişdim, baxışlarında qınayıcı tənələr vardı. Çaşqınlığımı görüb güldü və birdən bütün bədəni ilə mənə sığınaraq dodaqlarımdan öpdü.

Selestin restoranında yemək yedim. Təzəcə yeməyə başlamışdım ki, balacaboylu, qəribə görkəmli bir qadın yaxınlaşdı, "Sizinlə bir stolda otura bilərəmmi" – soruşdu. "Əlbəttə, oturun". Hərəkətləri qəribə idi, elə bil, bura hoppana-hoppana gəlib çıxmışdı, gözləri parpar yanır, yanaqları almaya bənzəyirdi. Cəld jaketini soyundu, oturdu və diqqətlə menyunu nəzərdən keçirməyə başladı. Selesti səslədi və sözləri ağzında şil-küt edə-edə bütün yeməkləri birnəfəsə sifariş verdi. Qəlyanaltını gözləyə-gözləyə çantasını açdı, karandaş və bir

dama-dama dəftər vərəqi çıxartdı, yeməyin xərcini hesablamağa başladı. Sonra pul kisəsini çıxartdı, çay-pulunu da, dəqiq haqqını stolun üstünə qoydu. Bu zaman ona qəlyanaltı gətirdilər, onu necə gəldi, hərisliklə həzmi-rabedən keçirdi. Növbəti yeməyi gözləyərkən çantasından göy karandaş və həftəlik radio verilişlərinin proqramı olan jurnal çıxartdı. Cidd-cəhdlə, demək olar, bütün verilişlərin qarşısına işarə qoydu. Jurnal, təxminən, on səhifədən ibarət idi, nahar elədiyi bütün müddət ərzində bu işdən əl çəkmədi. Mən yeyib qurtarmışdım, ancaq o, hələ də verilişlərin qarşısına işarələr qoyurdu. Sonra ayağa qalxdı, eyni jestlə jaketini çiyininə atdı, bir göz qırpımında əyninə geyindi və çıxıb getdi. Ağlasığmaz qətiyyət və sürətlə, heç yerə boylanmadan yolu çapıb gedirdi, arxaya baxmadan. Nəhayət, gözdən itdi. Çox qəribə qadındır, ancaq bir neçə dəqiqədən sonra mən onu artıq unutmuşdum.

Qoca Salamano qapımın kandarında durmuşdu, qapını açıb onu içəri buraxdım, dedi ki, itini tapa bilmir, hələ üstəlik, sallaqxanaya da baş çəkib, oradan da ümidsiz qayıdıb. İşçilər belə bir gümanı da dilə gətiriblər ki, bəlkə, hansısa avtomobilin altında qalıb. Polisdən də heç nə öyrənə bilməyib. Ona deyiblər ki, hər gün yüzlərcə belə hadisə baş verir və onların statistikası aparılmır. Qoca Salamanoya dedim ki, başqa bir it alsın, ancaq o da haqlı idi, üz-gözü bu itə öyrəşmişdi. Çarpayımın üstündə bardaş qurub oturmuşdum, Salamono mənim qarşımda, stolun arxasında əyləşmişdi, üz-gözü məyusluğa bələnmişdi. Dizləri üstünə qoyduğu əlləri aşkar titrəyirdi. Nimdaş şlyapasını başından çıxarmamışdı. Saralmış bığları altında nəsə deyirdi, ancaq qırıq-qırıq cümlələrdən heç nə anlamaq olmurdu. Bir balaca bezsəm də, başqa əlac yox idi. Bir yandan da yuxum tökülürdü. Nəsə deməliydim, candərdi iti ilə bağlı bir neçə mənasız sual verdim. Dediyinə

görə, arvadı vəfat etdikdən sonra bu itə isinişibmiş. Ailə quranda artıq xeyli yaşlaşmışdı. Cavanlıqda aktyor olmaq, teatrda çalışmaq arzusuyla alışıb-yanırmış, hətta əsgərlikdə belə hərbi vodevillərdə oynayırdı. Ancaq bu yanğı axırda onunla nəticələnib ki, günlərin bir günü gözünü açıb özünü dəmiryol stansiyasında görüb, ancaq nə olsun, həyatdır da, heç buna da təəssüf etmir, çünki necə olsa cüzi təqaüd alır. Arvadı ilə onunku gətirməmişdi, ancaq ümumən götürdükdə, bir yerdə yaşayıb nəfəs almağa öyrəşmişdi. Arvadı öləndə özünü dəhşətli dərəcədə tənha hiss etdi. Emalatxana yoldaşlarından birinə üz tutdu, sağ olsun, xahişini yerə salmadı. Lap kiçik olduğundan kişi iti əmziklə yedizdirməli oldu. Ancaq it ömrü insan ömründən gödək olduğundan, demək olar, eyni gündə qocaldılar. “Xasiyyəti it xasiyyəti idi, – Salamano mənə dedi. – Bəzən, bəlkə də, tez-tez aramızda inciklik yaranırdı, ancaq bəd deyildi, yaşayırdıq, küsüşsək də, sonra barışırdıq”. “Nəhayət, – əlavə etdi, – siz onu xəstələnməmişdən öncə görəydiniz. Tükü ipək kimi idi, baxırdın – ürəyin açılırdı”. Xəstəlik də bu gözəl, ürək ovlayan yerdən yapışdı, ağır dəri xəstəliyinə düçar oldu; o gündən başlayaraq hər gün, hər gecə qoca onun dərisinə məlhəm sürtərdi. Ancaq Salamononun fikrincə, xəstəliyin bircə adı vardı: qocalıq! Bu dünyada ondan kim qurtulub ki. Bu, xəstəlik olsaydı, gec-tez sağalardı.

Söhbətin bu məqamında əsnədim, qoca buna bənd imiş kimi çıxıb getmək istədi. Dedim ki, bir az da otura bilər, itinin başına belə bir işin gəlməyi, həqiqətən, məni mütəəssir etmişdi. Mənə təşəkkür elədi. Dedi ki, mənim anam da bu iti yaman sevirmiş. Anamdan danışanda onun adını “yazıq qadın” deyə çəkirdi. Sonra əlavə elədi ki, yəqin, ananız vəfat edəndən sonra özünüzü çox bədbəxt və tənha hiss edirsiniz, heç nə demədim. Dedi ki, məhəllədə anamı qocalar evinə

qoyduğuma görə mənə münasibət o qədər də xoşagələn deyil, ancaq Allaha şükür, o, məni yaxşı tanıyır və bilir ki, anamı çox sevirəm. Dedim ki, – ancaq niyə belə dediyimin səbəbini indi də bilmirəm, – məhəllədə mənə bu cür münasibətin olduğundan, həqiqətən, xəbərsizəm, ancaq qocalar evinə nə olub ki, onu ürəyim istədiyi kimi saxlamaq üçün cibimdə pulum yox idi. Sonra əlavə elədim ki, anamla mənim aramda danışılası bir mövzu da yox idi və buna görə hər ikimiz darıxırdıq. “Elədir, – o cavab verdi, – qocalar evində insan, ən azı, özünə yar-yoldaş tapır”. Sonra üzrxahlıq etdi. Yatmaq istədiyini dedi. Anidən həyatı dəyişib və bundan sonra başına nələrin gələ biləcəyindən xəbərsizdir. Onu tanıdığımdan ilk dəfə idi sirli təbəssümlə əlimi sıxdı, dərisindəki xalları hiss etdim. Bir az gülümsədi, çıxıb getməzdən qabaq dedi: “Ümid edirəm ki, bu axşam itlərin səsi gəlməyəcək. Burada bircə ulayan vardı, o da mənim itim idi”.

## VI

Bazar günü, həmişə olduğu kimi, yuxudan oyana bilmirdim, Mari imdadıma yetişdi, çiynimdən tutub silkələdi. Heç nə yemədik, çünki əvvəlcə səhər tezdən çimmək istəyirdik. Özümü çox əzgin hiss edirdim, bir az da başım ağrıyırdı. Damağımda siqaret acı dad verirdi. Mari üzümə baxıb rişxəndlə güldü, dedi ki, elə bil, kimisə bu saat dəfn edib gəlmişəm. Mari ağ kətan paltar geyinmişdi, gur saçlarını açıb çiyninə tökmüşdü. “Gözəlsən”, – dedim, o isə uğunub getdi, bu söz ürəyinə yağ kimi yayılmışdı.

Pillələri enərkən Raymonun qapısını taqqıldatdıq. Qışqırdı ki, indicə düşəcək. Küçədə, yorğun və hələ də mürgülü olduğuma görə, üstəlik, pəncərə pərdələrini açıq qoymadığımız üçün günəşin istisi üzümə şillə kimi

dəymişdi, yeri hələ də ağrıyırdı. Mari sevincindən atılıb-düşürdü və təkrar edirdi ki, nə yaxşı hava belə gözəldir. Özümü artıq yaxşı hiss edirdim və bir az da ac idim. Bunu Mariyə dedim, cavabında brezent çantasını mənə göstərdi, tərlik və dəsmallarımız onun içində idi. Yavaş-yavaş səbrim tükənirdi və Raymonun qapını necə bağladığını eşitdik. Göy şalvar və ağ qolsuz köynək geyinmişdi. Başına həsir şlyapa qoymuşdu. Bunu görən kimi Marini gülmək tutdu, Raymonun qara-qıvırcıq tüklərlə örtülü qolu dirsəyinə qədər ağappaq idi. Açığı, bu, məni iyrəndirirdi. Düşə-düşə fit çalırdı, kefi kök idi. Çatan kimi mənə dedi: “Salam, dostum”. Mariyə baxıb: “Necəsən, madmazel?” – dedi.

Yaxınlarda onunla güzarımız polis idarəsinə düşmüşdü və mən ifadəmdə göstərmişdim ki, adı keçən qız Raymonu, doğrudan da, “aldadıb”. Ona xəbərdarlıq edib sərbəst buraxdılar. Heç mənim ifadəmi yoxlamadılar da. Küçə qapısının ağzında bu barədə Raymonla danışdıq, sonra qərara gəldik ki, avtobusa minək. Çimərlik o qədər də uzaq deyildi, ancaq avtobusla ora daha tez yetişmək olardı. Raymon düşünürdü ki, ora nə qədər tez çatsaq, bir o qədər yaxşı olardı, çünki buna hər şeydən öncə dostu sevinərdi. Biz bir azca aralanmışdıq, Raymon birdən mənə göz-qaşla işarə etdi ki, qarşı tərəfə baxım. Nə görsəm yaxşıdır: bir qrup ərəb tənbəki dükanının vitrininə söykənmişdi. Bir nəfər kimi bizə baxırdılar, ancaq elə bil, küçəyə atılan daş parçasına, yaxud qurumuş ağac kötüyünə baxırdılar. Raymon sakitcə izah etdi ki, soldan ikincisi həmin o dediyi tipdir, bu adamın içi daxildən qaynayıb-daşırdı. Əlavə elədi ki, bütün bunlara baxmayaraq, məsələ artıq bitib. Mari heç nə başa düşmürdü və bizdən məsələnin məğzini soruşdu, izah elədim ki, bax, o gördüyün ərəb qardaşlar Raymondan yanıqlıdırlar. Bunu eşidən kimi o, addımlarını sürətləndirdi. Raymon

qəddini düzəlti, şax görünməyə çalışdı, gülərək əlavə etdi ki, Mari haqlıdır, buradan nə qədər tez uzaqlaşsaq, bir o qədər yaxşı olar.

Bir az aralıda yerləşən avtobus dayanacağına doğru getdik və Raymon qətiyyətlə dedi ki, artıq ərəblər onları təqib etmirlər. Geri boylandım. Onlar durduqları yerdəcə donmuşdular və bayaq bizim durduğumuz, onların nişan aldıqları yerə eyni laqeydliklə baxırdılar. Abtobusa mindik. Birdən-birə ağır yükün altından çıxıb yüngülləşən Raymon, nədənsə, Marini güldürməyə cəhd edirdi, lətifəni lətifə dalınca üyüdüb-tökürdü. Anladım ki, əslində, Mari onun xoşuna gəlir. Ancaq qız ona cavab vermirdi. Sadəcə, hərdənbir başını qaldırıb gülümsəyirdi.

Artıq şəhərdən uzaqlaşırdıq. Çimərlik avtobus dayanacağından çox da uzaqda yerləşmir. Ancaq dənizin üstüylə uzanan və çimərliyin ayaqlarına döşənən kiçik bir yaylanı aşmaq lazım gəlir. Ayağımızın altında sarı daşlar xırçıldayır, mavi səmanın çətiri altında zanbaqlar ağarırdı. Mari brezent çantasını zanbaqlara toxundurduqca onların ləçəkləri bir ucdan yerə tökülürdü və bu, Marini çox əyləndirirdi. Ağ, yaşıl hasarlara alınmış şəhərətrafı bağların arası ilə gedirdik. Evlərin bəziləri şüşəbəndləri ilə birlikdə yulğun kollarının arasında itib-batmış, bəziləri isə qayaların arasında tamam çılpaq dayanmışdı. Hələ yaylanın qurtaracağına çatmamış dəniz göründü. Aydın havada motorların zəif uğultusu eşidilirdi. Lap uzaqlarda kiçik balıqçı gəmisini gördük; o, parlaq dənizin üstüylə hiss edilmədən şütüyürdü. Sahilin müxtəlif yerlərində çəmənlər görünürdü.

Raymonun dostu çimərliyin lap qurtaracağında kiçik bir komada yaşayırdı. Adına ev deyilən bu daxma, sözün əsl mənasında, qayalara söykənmişdi, ön hissədən onu taxta dirəklər saxlayırdı, ətrafında cıvıl-cıvıl

ləpələr oynaşırdı. Raymon bizi ona təqdim etdi. Dostunun adı Mason idi. Uzunboylu, dolubədənli və enlikürək, arvadı isə alçaqboylu, tosqun və gülərüz bir qadın idi. Paris ləhcəsində danışırdı. Dedi ki, heç narahat olmayın, elə bilin, öz evinizdəsiniz, səbrinizi basın, bu saat sizi səhər tezdən tutduğum balığa qonaq edəcəyəm. Evinin nə qədər gözəl olduğunu heyranlıqla təriflədim. Dedi ki, şənbə, bazar və digər bayram günlərini burada keçirməyə artıq vərdiş eləyib. "Arvadla bir-birimizi yaxşı başa düşürük", – sözünü bitirdi. Arvadı isə Mari ilə nə barədəsə danışıb-gülürdülər. Həyatımda, bəlkə, birinci dəfə idi fikirləşdim ki, evlənməliyəm.

Mason çimmək istəsə də, arvadı və Raymon getmək istəmirdilər. Üçümüz evdən çıxdıq, çimərliyə çatan kimi Mari suya baş vurdu. Masonla mən bir az gözlədik. Mason aramla danışırdı və sezdim ki, bütün cümlələrin başına "demək istəyirəm ki" kəlməsini qoşurdu, ancaq əslinə qalanda, bu ifadə onun aram nitqinə heç bir məna əlavə etmirdi. Söz Marinin üstünə gəldikdə nə desə yaxşıdır: "Zərif, mən deyərdim gözəl qadındır". Bir az keçdi, indi daha onun nitqindəki qəribəlik dozası azalmışdı, təkcə onun fərqindəydim ki, günəş mənə körpə uşaq kimi layla çalır. Ayaqlarımızın altında qum qızmağa başlayırdı. Dəniz məni yavaş-yavaş özünə çəkirdi, birdən üzümü Masona tutdum: "Getdik". Suya atıldım. O isə çox böyük ehtiyatla suya girirdi, o qədər getdi ki, ayaqları yerdən üzüldü. Brass üsulu ilə, özü də çox pis üzürdü, nə isə, ildırım sürəti ilə yanından keçib özümü Mariyə çatdırdım. Su kifayət qədər soyuq idi və üzməkdən ləzzət alırdım. Mariylə ikimiz sürətlə uzaqlaşdıq. Soyuq suyun içində xoşbəxtliyi daha da yaxınlaşdırmaq üçün qol-boyun olmuşduq.

Uzağa getdikcə arxası üstə çevrildik; günəş üzümdə doğmuşdu, sanki, üzümdəki və dodaqlarımdakı damlalar bir anda qeybə çəkildi. Qumluğa tərəf baxdım,

Mason sudan çıxıb qızmar qumluqda uzanmışdı. Uzaqdan nəhəng görünürdü. Mari mənimlə birgə üzmək istədi. Arxadan belini qucaqladım. O, var gücü ilə əl-qol atır, mən isə ayaqlarımla suyu itələyir və beləliklə, ona kömək edirdim. Su şappıltısı qulaqlarıma o qədər doldu ki, birdən bərk yorulduğumu hiss etdim. Maridən ayrıldım və yavaş-yavaş, rahat nəfəs alıb verərək sahilə tərəf üzdüm. Qumluqda üzü üstə Masonun yanında özümü qumun üstünə yıxdım. "Çox yaxşı oldu", – ona dedim, başını tərpətdi ki, o da bu fikirdədir. Bir az sonra Mari də bizə tərəf üzməyə başladı. Dönüb onun necə sahilə çıxmağına tamaşa elədim. Bədənindən aşağı süzülən şor damlalar gün altında parıldayırdı. Saçlarını arxaya atmışdı. Mənimlə böyür-böyürə uzandı. Bədəninin istisi və qızmar günəş ruhuma sığal çəkirmiş kimi haçan mürgülədiyimi bilmədim.

Mari çiynimdən astaca dümsükləyib dedi ki, Mason evlərinə getdi və artıq yemək vaxtıdır. Dərhal qalxdım, çünki səhərdən dilimə heç nə dəyməmişdi, ancaq birdən Mari nə desə yaxşıdır: bu səhər onu qucaqlamamışam. Doğru deyirdi, üstəlik, içimdəki ehtiras getdikcə güclənirdi. Qaçıb kiçik dalğaların qoynuna atıldıq. Bir az əl-qol atandan sonra boynumu qucaqladı. Qıçları qıçlarıma dolaşdı, bir damla su kimi onu içimə hopdurmaq istədim.

Evə yaxınlaşanda gördük ki, Mason qapıda dayanıb bizi səsləmək istəyir. Çörək dadlı idi, bir göz qırpımında öz balıq payımı yedim. Sonra ətlə qarışıq kartof qızartması gəldi. Dinib-danışmadan yeyirdik. Mason şərabı qurtum-qurtum içir, mənə isə qədəh-qədəh süzürdü. Ortaya qəhvə gələndə başım artıq ağırlaşmışdı.

Birdən Mason dedi:

– Heç bilirsinizmi saat neçədir? On ikinin yarısı.

Hamımız təəccübləndik. Amma Mason dedi ki, bu cür erkən yeməyin heç bir qorxusu yoxdur, nə vaxt

acdın, onda da gərək yeyəsən. Bilmirəm niyə, ancaq bu söz Marini güldürdü. Yəqin ki, bir az çox içmişdi. Mason çimərliyə gəzməyə getməyi təklif etdi.

– Arvadım yeməkdən sonra həmişə istirahət eləyir. Mən yox, qəti xoşlamaram. Mənə ləzzət eləyən gəzintidir. Nə qədər demək olar ki, yeməkdən sonra gəzinti cana faydalıdır. Ancaq öz kefinin ağasıdr, necə istəyir, elə də eləsin.

Mari getmək istəmədiyini bildirdi, qalıb qab-qacağı yumaqda xanım Masona kömək edəcək.

Günəşin yandırıcı şüaları altında, sanki dənizin ortasında tonqal qalanmışdı. Çimərlik bomboş idi. Ayağımızı qızmış daşlara toxunduranda az qalırdı nəfəsimiz kəsilsin. Raymonla Masonun başı qızğın söhbətə qarışmışdı, onlar elə şeylərdən danışırdılar ki, bir az aralı dayanmağı üstün tutdum. Bu, o deməkdir ki, bir-birini çoxdan tanıyırlar, deyilənə görə, vaxtilə bir otaqda yaşayıblar. Biz qumluğun lap qırağı ilə – ləpədöyənlə addımlayırdıq. Hərdənbir ləpə bərk gələndə parusin tuflilərimizi isladırdı. Mən heç nə barədə düşünmürdüm, günəş təpəmə vurduqca hayıl-mayıl olurdum, məni yuxu basırdı.

Bu dəm Raymon Masona nəsə pıçıldadı, ancaq təbii ki, eşitmədim, işə bax, elə həmin an bir az qabaqda – çimərliyin lap qurtaracaq yerində mavi paltarlı iki ərəbi gördüm, onlar bizə tərəf gəlirdilər. Mən Raymona baxdım, Raymon dedi: "Bu, həmin ərəblərdir". Addımlarımızı yavaşıtmadıq, eyni templə yolumuza davam etdik. Mason soruşdu ki, bura qədər bizi necə təqib edə biliblər. Düşündüm ki, avtobusa minəndə qoltuğumuzda çimərlik çantası olub, ondan biliblər, ancaq düşündüyümü dilimə gətirmədim.

Ərəblər yaxınlaşırdılar. Artıq bir azdan üz-üzə gələsiydik. Yerişimizin tempini dəyişmədik. Raymon dedi: "Dalaşma-filan olsa, Mason, sən ikincisinin üstünə

gedərsən. Mən öz adamımın üstünə gedəcəyəm. Merso, sən isə üçüncüsü peyda olsa, diqqətli ol". "Oldu", – dedim. Mason əllərini cibinə saldı. Qum gözümdə qırmızıya çalırdı. Demək olar, eyni sürətlə ərəblərə yaxınlaşırdıq. Aramızdakı məsafə getdikcə azalırdı. Bir neçə addımlıq məsafə qaldıqda ərəblər dayandılar. Masonla mən addımlarımızı yeyinlətdik. Raymon birbaşa öz adamının üstünə getdi. Ona nə dediyini, demək olar ki, eşitmədim, ancaq o tip istədi Raymona kəllə atsın. Raymon zərbədən yayınıb ona bir yumruq ilişdirdi və Masonu səslədi. Mason o biri ərəbin üstünə getdi, yumruğunu düyüb ona iki dəfə dalbadal zərbə endirdi. Ərəb suya çırpıldı, bir neçə dəqiqə beləcə üzüqoylu suda qaldı, başının ətrafından sudan qabarcıqlar çıxmağa başladı. Bu dəm Raymon da sakit dayanmırdı, ərəbi yumruqlayırdı, bir azdan ərəbin sifəti qana bələndi. Raymon mənə tərəf gəldi və dedi: "İndi görəcəksən, sifətini necə bəzəyəcəyəm". Qışqırdım: "Diqqətli ol, əlində bıçaq var". Ancaq artıq ərəb bıçaqla onun dirsəyini və dodaqlarının kənarını çapa bilmişdi. Mason irəli atıldı. Bu dəm ikinci ərəb də bıçağını çıxarıb dostunun arxasında dayanmışdı. Yerimizə mıxlandıq. Tərpənməyə cəsarət etmədik. Onlar yavaşca arxaya səndələdilər, ancaq bir an olsa da, gözlərini bizdən ayırmadılar. Əllərində bıçağı necə tutmuşdularsa, elə o vəziyyətdə dalı-dalı getdilər. Kifayət qədər meydan qazandıqlarını gördükdə cəld qaçmağa üz qoydular, biz isə yandırıcı günün altında donub-qalmışdıq. Raymon dirsəyinin yarasını əli ilə tutmuşdu, barmaqları arasından qan sızırdı.

Mason dərhal dedi ki, istirahət gününü burada keçirən bir həkim var, gedək ona göstərək. Raymon onunla razılaşdı. Ancaq hər dəfə danışmaq istədikdə yarasının qanı ağzından şoralanırdı. Onun qoluna girdik, nəhayət, evə gəlib çatdıq. Burada Raymon dedi ki,

yarası bir elə dərin deyil, özü həkimə gedə bilər. O, Masonla çıxıb getdi, mən isə arvadlara nə baş verdiyini anlatmaq məqsədi ilə qaldım. Xanım Mason ağlayırdı, Marinin isə rəngi qaçmış, dodaqları titrəyirdi. Bütün bunları onlara çərənləmək mənə ağır gəlirdi, canım çıxdı. Sonra susdum və pəncərənin qarşına gəlib bir siqaret yandırdım.

Saat yarımdan sonra Raymon Masonla qayıtdı. Dirsəyi sarınmışdı, dodağının kənarlarına leykoplastır yapışdırılmışdı. Həkim demişdi ki, qorxmasın, adi bir yaradır. Ancaq Raymonun rəngi çox qaralmışdı. Mason hey əlləşirdi ki, dostunu güldürsün. O isə danışmırdı. Deyəndə ki, çimərliyə düşəcək, ondan hara, hansı səmtə gedəcəyini soruşdum. Masonla mən dedik ki, səni müşayiət edək. O əsəbiləşdi və bizi yüngülvari söydü. Mən əl çəkmədim, onun dalınca cumdum.

Çimərlikdə xeyli gəzib-dolaşdıq, günəş yandırıb-yaxırdı, şüaların bişirə-bişirə, yandıra-yandıra gətirdiyi kütlə yerə çataçatda hissələrə ayrılır, qumun və suyun üstünə köz kimi basılırdı. Adamın cızdağı çıxırdı. Ancaq hiss edirdim ki, Raymon hara getdiyini dəqiq bilir. Çimərliyin lap qurtaracağında, nəhayət, kiçik bir bulağın üstünə çıxdıq, bax o qayaların altıyla axaraq qumların arasından əsl möcüzə kimi dikəlmişdi. Ərəblər qumda uzanmışdılar. Çox sakit görünüşləri vardı. Bizim gəlişimizə gözlərini belə qırpmadılar. Raymonu bıçaqlayan oğlan bizə baxırdı. O birisi qamış tütək çalırdı və bizə baxa-baxa eyni üç notu usanmadan təkrar edirdi.

Bütün bu anlarda günəşdən və sükutdan başqa heç nə yox idi, bir də, şübhəsiz ki, bulağın zümzüməsi və həmin üç not. Birdən Raymon əlini şalvarının arxa cibinə apardı, ancaq rəqibi eyninə də almadı bunu, laqeydliklə baxmağında idi. Birdən gördüm tütək çalanın ayaq barmaqları çox uzundur. Gözünü rəqibindən ayırmadan Raymon dedi: "Bitirim işini?" Düşündüm ki,

əgər "Yox" desəm, ürəyində nə tutubsa, dərhal yerinə yetirəcək. Ancaq bu şəkildə kimisə vurmaq axmaqlıq olardı. Sükutun və qızmar istinin qəlbindəki zümzümə və tütək səsi bir az da eşidildi. Raymon dedi: "İndi onu təhqir edəcəyəm, cavab versə, atacağam".

Dedim ki, özün bilərsən. Ancaq bıçağını çıxarmasa, atma. Raymon hirsləndi. İkincisi zümzüməni davam etdirirdi və hər ikisi Raymonu diqqətlə süzürdü. "Yox, – Raymona dedim, – onunla təkbətək çıx, tapançanı isə ver mənə. İkincisi qarışsa, üstünə bıçaq çəksə, özüm ona ataram".

Raymon tapançasını uzadıb mənə verəndə metal günəş şüası altında bərq vurdu. Ancaq yerimizdən bir addım da irəli getməmişdik, elə bil, hər şey hərlənib-fırlanıb Yer kürəsinin məhz bu nöqtəsində donmuş, əl-ayağımız bağlanmışdı. Dayanıb bir-birimizin düz gözlərimizin içinə baxırdıq, dəniz, günəş, bulağın şırıltısı və tütək səsi – hər şey tapançanın metalında bərq vuran parıltıdan asılı qalmışdı. Fikirləşirdim ki, bu məqamda atmaq da olar, atmamaq da. Ancaq birdən ərəblər yerlərindən götürülüb qayalığın arxasına çəkildilər. Belə olduqda geri döndük. Raymonun köpü yatana oxşayırdı. Dedi: "Avtobusla qayıtsaq, yaxşıdır".

Onu Masonun daxmasına qədər müşayiət etdim, taxta pilləkənlərlə yuxarı çıxdı, mən isə birinci pillədə heysiz qalmışdım, yuxarı çıxmağa gücüm qalmamışdı. İsti başıma elə döyəcləmişdi ki, ürəyim bulanır, başım guruldayırdı. Ancaq isti eləydi ki, burada da qala bilməzdim, çünki günəşin adamı kor edən şüalarına dözmək də mümkün deyildi. Bu insafsız isti selin qucağında ölmək olardı. Günəş əlinə keçəni yandırıb-yaxırdı. Üz tutdum çimərliyə sarı.

Qırmızı sel burada məni ağuşuna aldı. Qumun üstünə qaça-qaça gələn dalğalar birdən təngnəfəs olur və öz içində boğulub qalırdı. Gözümün qabağında

dəniz boğulub can verirdi. Ağır-ağır qayalığa doğru addımladım, birdən mənə elə gəldi ki, günəşin təsiri altında, deyəsən, başım şişib. İsti özünü üstümə yıxırdı, aralanmaq istədikdə divar kimi qarşımı kəsirdi. Hər dəfə sifətimdə onun ağır fınxırtısını hiss edirdim, dişlərimi bir-birinə sıxırdım, şalvarımın ciblərində yumruqlarımı sıxır, bədənim ixtiyarsız elə gərilirdi ki, sanki, son döyüşümdür, indicə günəşin üstünə şığıyacağam; ancaq başım elə gicəllənirdi ki, özümü yıxılmaqdan zorla saxlayırdım. Günəşin yandırıcı şüaları altında qum dənələri, balıqqulağılar və şüşə qırıntıları elə bərq vururdu ki, sanki, minlərlə nizə bir yerdən uçub mənə doğru gəlirdi. Beləcə bir xeyli addımlamalı oldum.

Uzaqdan göz deşən işıq halələri və şahə qalxan dalğaların göyə uçurduğu köpüklərin altında tutqun qayalıqlar gözə dəyirdi. Bu dəm fikrimi yalnız bircə şey – qayaların arxasında axan buz kimi sərin bulaq məşğul edirdi. Suyun şırıldadığı yeri tapmaq, günəşdən, qadınların ah-naləsi və göz yaşlarından gizlənmək, kölgə və nəhayət, rahatlıq arzusunda idim. Bulağın lap yaxınlığına çatmışdım ki, Raymonun düşməni olan həmin ərəbin qayıtdığını gördüm.

Tək idi. Əllərini başının arxasında daraqlayıb arxası üstə arın-arxayın uzanmışdı. Üzü qayaların kölgəsində, bədəni isə qumun altında idi. Kombinezon formalı göy rəngli paltarı istidə qızıb buxarlanırdı. Bir az təəccübləndim. Bu məsələni artıq olub-bitmiş hesab edirdim, ancaq birdən-birə düz onun üstünə gəlib çıxası oldum. İlandan qaça-qaça quyruğunu tapdalamalı oldum.

Məni görən kimi qəddini dikəltdi və əlini tez cibinə soxdu. Mən isə, təbii ki, əlimi pencəyimin cibində Raymonun tapançasının üstünə sıxdım. Bu zaman ərəb özünə toxtaqlıq verirmiş kimi arxası üstə uzandı, ancaq əlini cibindən çıxarmadı. Mənimlə onun arasında, təqribən, onmetrlik məsafə vardı. Yarıaçıq göz qapaqları

arasından hərdən hansı hisslər keçirdiyini duymuş kimi olurdum. Ancaq hərdən də sifəti gözlərim qarşısında od tutub alışmaqda olan havanın içində oynayırdı. Günortaya nisbətən ləpələr sahilə indi daha süst, daha tənbəl çırpılırdı. Yenə həmin günəş, uzandıqca uzanan həmin qumlar üstünə düşən eyni şəfəqlər. Artıq iki saat idi gün yerində sayırdı, düz iki saat idi bu əriyib qaynayan metal okeanı içində lövbər atmışdı. Gözüm üfüqdə kiçik bir paroxodun keçdiyini aldı, bunu gözlərimin ucunda çox tutqun bir nöqtədən anladım, çünki bütün bu zaman içində onları ərəbdən bir an olsun belə çəkməmişdim.

Fikirləşdim ki, yarımca addım geri atıb dönüb getsəm, hər şey bitib gedər. Ancaq gözlərim önündə günəşin təsiri ilə fırfıra kimi fırlanan çimərlik məni arxadan irəli itələyirdi. Bir neçə addım bulağa sarı atdım. Ərəb qımıldanmadı. Hər şeyə rəğmən, o, məndən hələ də kifayət qədər uzaq idi. Bəlkə, üzünə düşən kölgənin təsiriydi, nəydi, mənə elə gəldi, üzümə rişxəndlə baxır. Gözlədim. Gün yanaqlarımı yandırırdı və tər damcılarının qaşlarımın üstüylə axdığını hiss etdim. Bu, anamın dəfn edildiyi gün yandırıb-yaxan günəş idi, bu gün də ogünkü kimi gicgahlarım sancırdı, çatlayırdı, alnımın bütün damarları dərimin altında çırpınırdı. Bütün bunlar o həddə gəlib dirəndi ki, daha dözə bilmədim, bir addım irəli atdım. Bilirdim ki, bu, axmaqlıqdır, bir addım irəli-geri getməklə bu zalım günəşdən qurtula bilməyəcəyəm. Ancaq bir addım da irəli getdim, cəmi bircə addım. Bu dəfə ərəb qəddini dikəltmədən bıçağını çıxardı, günəş şüalarının altında hərlədib, az qala, gözümə soxdu. Polad bıçaq bərq vurdu, iti şüaları uzun nizəyə dönüb alnıma batacaqdı. Bu an qaşlarımın üstünə yığılmış tər damcıları göz qapaqlarımdan süzülüb kirpiklərimin üstünə qalın yaş pərdə çəkdi. Bu göz yaşından biçilən qalın pərdənin arxasından

heç nə görmürdüm, elə bil, gözlərim kor olmuşdu, yalnız günəş qaval kimi alnımı döyəcləyir, polad tiyəli odlu qılınc qarşımda hərlənirdi. Bu qızmış tiyə kirpiklərimi yaralayıb yorğun gözlərimin içinə sancılırdı. Hər şey bundan başladı – dünya gözlərim önündə kəlləmayallaq oldu. Dənizin sinəsi üzərində qaynar, ağır hava kütləsi dalğalanırdı. Mənə elə gəldi ki, içindəki odlu yağışı yerə əndərmək üçün göy üzü yarıldı, açıldı. Bütün bədənim gərildi, barmaqlarım tapançanı sıxdı. Tətik sıxıldı, tapançanın dəstəyini ehmalca sığalladım və hər şey bu quru, ancaq qulaqbatırıcı gurultuyla başladı. Təri və günəşi bu ani hərəkətlə üstümdən atdım. Anladım ki, günün ahəngini, bir qədər əvvəl xoşbəxt dəqiqələrimi yaşadığım qumlu çimərliyin sakitliyini dağıtdım. Tərpənməz yerə sərilmiş bədənə daha dörd güllə sıxdım, güllələr iz buraxmadan ərəbin bədəninə işlədi və mən, sanki, bu dörd qısa atəşlə fəlakətin qapısını döymüşdüm.

## II HİSSƏ

### I

Həbs edilən gün məni dalbadal bir neçə dəfə dindirdilər. Ancaq bu daha çox kimliyimi təsbit etmək məqsədi ilə aparılan sorğu-sual xarakterli idi və tez başa çatırdı. Polis məntəqəsinə gətirildiyim ilk gün sanki, bu iş heç kəsi maraqlandırmırdı. Üstündən düz səkkiz gün keçəndən sonra məhkəmə müstəntiqi mənimlə maraqlanmağa başladı. Ancaq başlanğıc üçün o, məndən soyadımı, ünvanımı, hansı peşənin sahibi olduğumu, doğum tariximi və yerini soruşurdu. Sonra vəkil tutub-tutmamağımla maraqlandı. "Yox" dedim və bunun nə dərəcədə vacib olması barədə ona sual verdim. "Necə yəni?" – məndən heyrətlə soruşdu. Cavab verdim ki, mənim işim bir elə qəliz deyil. Gülə-gülə dedi ki, bu, öz yerində. Ancaq qanun da var. Vəkil seçməsəniz, sizin yerinizə biz vəkil seçməli olacağıq. Düşündüm ki, nə yaxşı, ədalət mühakiməsində hər xırda detal da nəzərə alınır. O, mənimlə razı olduğunu bildirdi və əlavə etdi ki, qanunlar, doğrudan da, yaxşı işlənib.

Əvvəl-əvvəl onu ciddiyə almırdım. O, məni pərdələri salınmış kabinetində qəbul etdi, yazı stolunun üstündə işığı kürsünün üstünə düşən bircə lampa vardı, mənə oturmağı əmr etdi, özü otağın qaranlıq hissəsində ayaq üstə qaldı. Mənə elə gəldi ki, haçansa oxuduğum kitablardakı əhvalatların içinə düşmüşəm və hər şey mənə oyun təsiri bağışlayırdı. Söhbətə başlayan kimi üzünə nəzər yetirdim, gördüm ki, üzündəki cizgilər incədir, tünd-göy gözləri, uca boyu, uzun çal bığları və ağarmağa başlayan uzun saçları vardır. Çox

ağıllı və ümumiyyətlə, yaxşı adam təsiri bağışlayırdı. Ayrılanda, az qala, əlimi ona uzadacaqdım, vaxtında yadıma düşdü ki, qatiləm və ona əl verməyə heç bir haqqım yoxdur.

Ertəsi gün həbsxanaya vəkillə gəldi. Vəkil nisbətən gənc, ortaboy və yupyumru idi, saçları səylə arxaya daranmışdı. İstiyə baxmayaraq, tünd kostyum, kraxmallanmış yaxalıq geymiş, ağ və qara zolaqlı çox qəribə, enli bir qalstuk bağlamışdı. Portfelini çarpayımdan asıb, özünü mənə təqdim edib bildirdi ki, işi çox diqqətlə öyrənib. Əhvalat çox dolaşıqdır, ancaq ona kömək etsəm, işin uğurlu qurtaracağına şübhə eləmir. Nəfəsini dərib dayandı, ona təşəkkür elədim.

– İndi mətləbə keçək, – dedi.

Çarpayıda oturub izah elədi ki, artıq həyatımla bağlı lazım olan əsas detalları öyrənib. Öyrənib ki, anam yaxınlarda qocalar evində allahın rəhmətinə qovuşub. Yeri gəlmişkən, bəzi epizodları öyrənmək məqsədi ilə Marenqoya gedib. Müfəttişlər deyib ki, anamın dəfn günü özümü qəddar və hissiz bir adam kimi aparıbmışam. "Başa düşürsünüzmü, – vəkilim dedi, – bu barədə sizə sula vermək mənə ağır gəlir. Ancaq necə olsa da, bu, vacibdir. Tutarlı bir dəlil tapmasam, ittihamçılar bu faktlardan sizin əleyhinizə istifadə edəcəklər". Həmin gün, yəni anamı dəfn edəndə ürəyim ağrıdımı, qüssə məni üzüb qurtardımı? Bu sual məni çox təəccübləndirdi, onun yerinə mən olsaydım, kiməsə belə bir sual verməyə ürəyim gəlməzdi. Artıq çoxdan idi, öz-özümlə həsb-halı yadırğamışam və ona bu barədə nəsə deməkdə çətinlik çəkirəm. Şübhəsiz ki, anamı sevirdim, ancaq bu hələ heç nə demək deyil. Bütün Allah bəndələri haçansa sevdikləri insanlara ölüm arzulayıblar. Bu məqamda vəkil sözümü kəsdi, nədənsə, xeyli həyəcanlanmışdı. İstədi söz verim ki, bu sözləri məhkəmədə, xüsusən də məhkəmə müstəntiqinin

yanında dilimə gətirməyim. Bununla belə, ona izah etdim ki, təbiətim etibarilə fiziki ehtiyaclarım hisslərimlə tərs mütənasibdir. Anam dəfn edilən gün çox yorğun idim, ayaq üstə mürgüləyirdim. O gün nə baş verməsi beynimə batmırdı. Bir şeyi qəti deyə bilərəm: ən çox istədiyim o idi ki, anam ölməsin. Ancaq vəkilim, deyəsən, razı qalmadı. "Bu kifayət etmir".

Bir az düşündü. Sonra soruşdu ki, məhkəmədə həmin gün özümü ələ alıb təbii hisslərimi boğduğumu deyə bilərəmmi? Ona dedim ki, yox, çünki bu düz deyil. Mənə qəribə tərzdə baxdı, elə bil, iyrənirdi. Az qala, acıqla söylədi ki, istənilən halda qocalar evinin direktoru və işçiləri şahid qismində dindiriləcəklər və "bu, mənim üçün çox pis nəticələnə bilər". Onun nəzərinə çatdırdım ki, bu əhvalatın mənim işimlə bir elə əlaqəsi yoxdur, ancaq o, mənə yalnız bunu dedi ki, bu tipli işlərdən xəbərsiz olduğum üçün belə danışıram.

Narazı və acıqlı halda getdi. Onu saxlamaq, izah eləmək istədim ki, mənimlə xoş rəftar etsəydi, sevinərdim, təkcə ona görə yox ki işimi müdafiə etsin, yox, sadəcə, bizi bu cinayət vaxtında rast gətirib. Görürdüm ki, mənə görə dəhşət xəcalət hissi keçirir. Məni anlaya bilmirdi və məndən səmimi olmağımı tələb edirdi. Ona demək istəyirdim ki, mən də hamı kimiyəm, mənim onlardan əsaslı bir fərqim yoxdur, yox! Ancaq bütün bunların zərrə qədər də faydası yox idi. Demədim, tənbəlliyim üstün gəldi.

Bir az keçəndən sonra yenə məhkəmə müstəntiqinin yanına aparıldım. Günorta saat iki idi, bu dəfə kabineti tül pərdələrin arasından sızan işığa qərq olmuşdu. Çox isti idi. Mənə yer göstərdi və çox böyük nəzakətlə üzünü mənə tutub bəyan etdi ki, vəkilim "gecikdiyinə görə gələ bilməyib". Ancaq onun suallarına cavab verməmək və öz vəkilimi gözləmək hüququm vardır.

Dedim ki, təkbaşına cavab verə bilərəm. Barmağını stolun üstündəki düyməyə basdı. Cavan bir məhkəmə katibi gəldi, düz arxamda əyləşdi.

Mən və müstəntiq üzbəüz kreslolarda yerlərimizi rahatladıq. İstintaq başlandı. Əvvəlcə məndən soruşdu ki, ümumi rəyə görə, azdanışan və qapalı adamam, bəs özüm bu barədə nə deyə bilərəm. Cavab verdim ki, bu, ondan irəli gəlir ki, deməyə çox zaman sözüm olmur və susmağa üstünlük verirəm. İlk dəfə gülümsəyib dedi ki, bundan məntiqli cavab ola bilməzdi və əlavə etdi: "Ancaq bunun bir elə əhəmiyyəti yoxdur". Susdu, mənə baxdı, nə düşündüsə, tez ayağa qalxdı: "Məni, əslində, sizdən başqa heç nə maraqlandırmır". Bununla nə demək istədiyini, düzü, anlamadım və susdum. "Elə şeylər var ki, – əlavə etdi, – hamının gözündən yayına bilər. Əminəm ki, onları başa düşməkdə mənə yardımçı ola bilərsiniz". Cavab verdim ki, hər şey sadədir. Hər bir kəlməsi ilə məni o məşum günü ətraflı təsvir etməyə sövq edirdi. Artıq neçə dəfə danışdığım əhvalatı bir də danışdım. Raymon, çimərlik, çimməyimiz, mübahisələr, yenə çimərlik, balaca çeşmə və tapançadan beş atəş. Hər cümləbaşı deyirdi: "Yaxşı, çox yaxşı, bax belə". Yerə sərilmiş cəsədin üzərinə gəldikdə yuxarıdakı sözü xüsusi vurğu ilə tələffüz elədi. Eyni əhvalatı danışmaqdan bezmişdim, ömrümdə bu qədər çərənçi olmamışdım, bu qədər danışmamışdım.

Araya ani sükut çökdü, bir neçə saniyədən sonra ayağa qalxdı və mənə dedi ki, əslində, yardımçım olmaq istəyir, mən onda maraq doğururam və Allahın köməyi ilə mənim üçün nəsə edəcək. Ancaq əvvəlcə mənə bir neçə sual vermək istəyir. Müqəddiməsiz-filansız soruşdu: "Ananızı sevirdinizmi?" Dedim ki, şübhəsiz, elə bütün oğullar, bütün insanlar kimi, bu cümləyə qədər makinada aramsız döyəcləyən katib

isə, deyəsən, klavişi səhv saldı, çünki qəfil sualdan o da özünü itirmişdi, buna görə geri qayıdıb səhvini düzəltməyə məcbur oldu. Yenə də açıq-aşkar məntiqsiz sual verdi: doğrudanmı, beş atəşi ona dayanmadan sıxmışam? Fikirləşdim və dəqiqləşdirdim ki, əvvəlcə bir güllə sıxdım, bir neçə saniyədən sonra dalbadal dörd dəfə. "Nə üçün birinci atəşlə ikinci arasında gözlədiniz?" Bir daha həmin günü günəşin yandırıb-yaxdığı qırmızı çimərliyi xəyalımda dolandırdım və o saat alnımda günəşin ağrı dolu nəfəsini hiss etdim. Ancaq bu dəfə susdum, heç nə cavab vermədim. Sükutun hökm sürdüyü bu qısa, ancaq ağır fasilədə məhkəmə müstəntiqinin həyəcanlandığı aşkar görünürdü. Oturdu, saçlarını qarışdırdı, dirsəklərini stolun üstünə qoydu, bir balaca mənə tərəf əyildi və qəribə tərzdə soruşdu: "Ölmüş adama bir daha niyə atəş açdınız?" Bu suala cavab verə bilmədim. Əlini alnına apardı, ovuşdurdu, səsinin tonunu dəyişərək sualını bir daha təkrar etdi: "Nə üçün? Bunu mənə izah etməmiş heç yerə gedə bilməzsiniz. Niyə?" Susmaqdan başqa çarəm yox idi.

Qəfildən qalxdı, ağır addımlarla kabinetin bu başından o başına getdi, kartotekanın yeşiyini açdı. Oradan gümüş bir xaç çıxarıb əlində yelləyə-yelləyə özünü mənə çatdırdı. Səsi büsbütün dəyişmişdi, bir azca titrəyidi. Qışqırdı: "Bunu necə, tanıyırsınızmı?" "Əlbəttə, tanıyıram", – dedim. Sonra sinəsindəki bulağın çeşməsi açıldı, yüksək pafosla dedi ki, Tanrıya inanır, onun sadiq qullarındandır, bu dünyada elə bir günahkar, elə bir günah tapılmaz ki, qadir Allah onu bağışlamasın, ancaq buna qədər günahkar dərin peşmançılıq çəkməli, o həddə gəlməlidir ki, uşaq kimi sadədil, təmiz və saf olsun. Bunları deyərkən bədəni mənə tərəf maksimum əyilmişdi, xaçı başımın üstündə dayanmadan hərləyirdi. Doğrusunu desəm, nə demək istədiyini, bir sözlə, məntiqini anlamırdım, hər şeydən öncə ona

görə ki, hava çox isti idi və kabinetində yekə-yekə milçəklər uçuşurdu, onlar diqqətimi yayındırır, mənə aman vermirdilər, ən əsası isə müstəntiq təhər-töhürü ilə məni qorxudurdu. Ancaq sonra məni gülmək tuturdu, niyə bu fikrə gəldiyimi kəsdirə bilmirdim, axı qatil o yox, mənəm. Ancaq aman vermirdi, danışırdı. Bircə şeyi güclə anlayırdım ki, deyəsən, mənim əməlimdə onun üçün bircə qaranlıq məqam qalmışdı: ikinci atəş. Yerdə qalanları çox yaxşı başa düşürdü, ancaq bu məqamı anlamırdı ki, anlamırdı. Demək istəyirdim ki, inad eləməsin, bu sonuncu məqamın bir elə əhəmiyyəti yoxdur. Ancaq kimə deyirsən, sözümü kəsdi və əyildiyi yerdən dikələrək, elə bil, var gücünü toplayaraq soruşdu: "Allaha inanırsınızmı?" Dedim ki, yox, inanmıram. Qeyzləndi və oturdu. Dedi ki, necə yəni, ömründə ola bilməz, dünyada bütün bəni-insan Allaha inanır, haçansa üzünü ondan çevirən nankor bəndələr belə. Bu, onun dərin etiqadıdır və heç zaman buna şübhə yaranmayıb. Bunsuz həyatın bir mənası ola bilməz. "Nə danışırsınız, – birdən qıyya çəkdi, – insan həyatı, insan ömrü mənasız ola bilərmi?" Artıq bu, mənlik bir məsələ deyil və fikrimi ona açıq dedim. Ancaq o, qəfil hərəkətlə stolun üstündəki xaçı əlinə aldı, elə bil, – gözlərimin içinə soxacaqdı, – dəliyə dönmüşdü. "Mən bir xristianam. Sənin günahlarına görə Ondan əfv diləyirəm. Sənə görə əzab çəkdiyi halda Ona necə inanmaya bilərsən?" Sezdim ki, artıq mənə "sən" deyə müraciət edir. İsti getdikcə dözülməz olurdu. Adəti üzrə, kimdənsə yaxamı qurtarmağa çalışdığım hallarda olduğu kimi, indi də özümü elə apardım ki, guya, onun dedikləri ilə tam razıyam. Bunu sezən kimi sifəti açıldı, sevindi. "Görürsənmi, – deyirdi, sevincdən qışqırırdı. – İnanırsan, Onun rəhminə sığınacaqsan, eləmi?" Şübhəsiz ki, yenə "yox" dedim. Peşman-peşman kreslosuna çökdü.

Rəngi avazımış, yorulmuşdu. Səsini kəsib dayandı, amma bu müddətdə makina hələ də bizim dialoqu döyəcləməkdə idi. Yəqin ki, son cümlələri yazırdı. Sonra diqqətlə üzümə baxdı, çöhrəsindən qüssə yağırdı. Demək olar ki, pıçıltı ilə söylədi: "Bu yaşa çatmışam, amma sizin qədər daşürəkli insan görməmişəm. Bax bu otaqda nə qədər cinayətkarı dindirmişəm, onların hamısı bu əzabkeş surətin önündə diz çöküb quzu kimi mələyiblər". Demək istəyirdim ki, bu, təbiidir, axı söhbət cinayətkardan gedir. Ancaq yadıma düşdü ki, mən də onlardan biriyəm. Nə edim ki, bu fikrə özümü heç cür alışdıra bilmirdim. Müstəntiq, nəhayət, qalxdı, bu, o demək idi ki, istintaq bitdi. Sonda bir az mərhəmət qarışıq alçaq tonla əməlimə görə peşmançılıq çəkdiyimi soruşdu. Bir az düşündüm və dedim ki, peşmançılıq bir yana, bu hadisə bütün həyatımı alt-üst etdi. Baxdım, elə bil, nə dediyimi anlamırdı. Ancaq həmin gün onunla söhbətimiz qurtardı.

Sonralar bu müstəntiqi tez-tez görməli olurdum. Hər dəfə çağıranda vəkilimlə gedirdim. Yalnız əvvəlki ifadələrimdəki müəyyən epizodları dəqiqləşdirməklə kifayətlənirdi. Yaxud müstəntiq vəkilimlə tutulacaq xərcin məbləğini müzakirə edirdi. Həqiqətdə onlar artıq mənimlə məşğul olmurdular. Ancaq günlərin bir günü istintaqın gedişatı tam şəkildə dəyişdi. Belə çıxırdı ki, vəkilim artıq mənimlə maraqlanmırdı, iş müəyyən dərəcədə həll edilmişdi. Daha əvvəlki kimi mənə Allahdan bəhs etmirdi və ilk günün həyəcan və gərginliyinin bir daha şahidi olmadım. Nəticə belə oldu ki, söhbətlərimiz bir az şəxsi müstəviyə keçdi, aramızda köhnə tanışlıq məhrəmliyi meydana gəldi. Olurdu ki, hərdən bir neçə sual verir, sonra vəkilimlə söhbətə girişirdi, sorğu-sual birdəfəlik bitmişdi. İş öz qaydasınca gedirdi, hətta vəkilim də bu fikirdə idi. Bir neçə dəfə, söhbətin ümumi axarla getdiyi bir məqamda,

mənimlə dostcasına davranırdı. Sözün həqiqi mənasında, nəfəs almağa başladım. Hər şey o qədər təbii, o qədər nizamlı qurulmuşdu və elə ölçülü-biçili aparılırdı ki, hərdən bu ailənin bir üzvü olduğumu düşünürdüm və bu, məndə gülüş oyadırdı. İstintaqın davam etdiyi on bir ay ərzində deyə bilərəm ki, bu nadir məqamları yaşamaqdan həzz almaq dərəcəsinə gəlib çatmışdım, hər dəfə müstəntiq məni qapıya qədər ötürür, əliylə çiynimə vurur və deyirdi: "Bu günlük bəsdir, cənab antixrist!"

## II

Dünyada elə şeylər var ki, onlar barəsində danışmağı sevmirəm. Həbsxanaya düşdüyüm zaman bir neçə gündən sonra anladım ki, həyatımın bu dövrü haqqında danışmağı xoşlamayacağam.

Vaxt keçdi, başa düşdüm ki, belə bir nifrətin də mənası yoxdur. Həqiqətdə ilk günlər dustaq sayılmazdım: qeyri-müəyyən tərzdə nələrinsə baş verəcəyini gözləyirdim. Hər şey Marinin mənimlə yeganə və sonuncu görüşündən sonra başlandı. Məktubunu aldığım gün (deyirdi ki, hələ arvadım olmadığı üçün ona görüş icazəsi vermirdilər) hiss etdim ki, bundan sonra yaşayacağım yer bu kamera olacaq və ömrüm burada başa çatacaq. Həbs edildiyim gün məni bir neçə dustağın saxlandığı kameraya apardılar, çoxu da ərəb idi. Məni görən kimi güldülər. Sonra bura hansı işə görə düşdüyümü soruşdular. Dedim ki, bir ərəbi qətlə yetirmişəm, elə bil, qurbağa gölünə daş atdılar. Axşam düşdü. Yerimi rahatlamağı, həsirdən necə istifadə edəcəyimi öyrətdilər. Həsirin bir ucundan tutub lülələməklə balış düzəltmək olarmış. Bütün gecəni taxtabitilər üstümdən yol saldılar. Bir neçə gündən sonra məni bir hücrəyə qapadılar, burada ağacdan qatlanan yata-

ğın üstündə yatırdım. Taxta vedrə və əl-üz yumaq üçün tənəkə-ləyəndən başqa bir şey gözə dəymirdi. Həbsxana şəhərin ən uca yerində tikilmişdi, dar bir pəncərə vardı ki, Allaha şükür, dənizi görə bilirdim. Günlərin bir günü barmaqlıqlardan yapışıb işığa doğru dırmaşmaq və dənizi görmək istədiyim anda qapı açıldı, nəzarətçi ziyarətçim olduğunu dedi. Ağlıma birinci gələn Mari oldu. Doğrudan da, o idi gələn.

Görüş otağına uzun bir dəhlizlə getdik, sonra pilləkənlərlə qalxdıq, buradan başqa bir uzun dəhlizlə addımladıq. Geniş bir otağa daxil oldum. Otaq iki böyük şəbəkəli arakəsmə ilə üç hissəyə ayrılmışdı. Barmaqlıqlar arasındakı səkkiz-onmetrlik yer ziyarətçiləri məhbuslardan ayırırdı. Marini qarşımda gördüm, zolaqlı don geyinmişdi, üzü günəşdən yanmışdı. Mən durduğum yerdə ona yaxın məhbus dayanmışdı, əksəri ərəb idi. Marini çıxmaqla, deyəsən, digər ziyarətçilər də ərəb qadınlar idilər. Mari iki ziyarətçinin arasında dayanmışdı: sağda qara geyimli, balacaboylu, nazik dodaqlı, solda isə əl-qol ataraq danışan şişman bir qadın. Məhbuslarla ziyarətçilər arasında qəfəs olduğu üçün onlar çox ucadan danışmalı olurdular. Mən daxil olanda otağın çılpaq divarlarına dəyib əks-səda verən səslərdən, səmadan pəncərə şüşələrinə düşüb oradan içəri adlayan işıqdan qulaqlarım, az qala, tutulacaqdı. Saxlandığım kamera çox sakit və xəfə idi. Bir neçə dəqiqəyə öyrəşdim. Üstəlik, hər bir sifəti, oradakı hər bir ayrıca cizgini açıqlıqla gördüm. Gördüm ki, nəzarətçilərdən biri iki qəfəs arasında dəhlizin sonunda oturub. Ərəb məhbusların çoxu, eləcə də onların ailələri üz-üzə dayanmışdılar. Onlar qışqırmırdılar. Bu qədər səs-küyün içində çox sakit danışmaqla bir-birini eşidib anlaya bilirdilər. Onların batıq pıçıltıları başları üzərində arı kimi vızıldayan qara-qışqırığın yanında ayrıca məmləkətə bənzəyirdi. Mariyə sarı gedərkən

bütün bunları eşidə bilirdim. Artıq barmaqlığa söykənmiş vəziyyətdə bütün çöhrəsi gülürdü. Nə qədər gözəl olduğunu indi sezdim, ancaq özünə deyə bilmədim.

– Hə, necəsən, – uca səslə soruşdu.

Gəlib çatdıq.

– Yaxşısanmı, ürəyin bir şey istəyirmi?

– Yaxşıyam, heç nə lazım deyil.

Susduq. Mari elə hey gülümsəyirdi. Şişman qadın qonşumun üstünə qışqırırdı, şübhəsiz, əri idi, kütbaxışlı, yekəpər, ucaboylu. Söhbətə mən gəlməmişdən qabaq başlamışdılar.

"Janna onu götürmək istəmədi", – qadın var gücü ilə qışqırdı. "Yaxşı, olsun", – kişi dedi.

– Ona dedim ki, buradan qurtulan kimi onu geri alacaqsan, ancaq etiraz etdi, sözümə məhəl qoymadı.

Mari də, öz növbəsində, qışqırdı ki, Raymon salam göndərib, "sağ olsun" dedim. Ancaq səsim qonşumun səsi ilə işğal edildi, bayaq haqqında söhbət gedən adamı soruşurdu: "Yaxşıdırmı?" Arvadı bu dəfə gülə-gülə qışqırırdı: "Heç zaman indiki kimi yaxşı olmayıb". Soldakı qonşum – balacaboylu, arıq qolları olan gənc kişi danışmırdı. Gördüm ki, ziyarətçisi balacaboylu yaşlı qadındır, susaraq bir-birinə baxırlar. Onları uzun müddət müşahidə edə bilmədim, çünki arada Mari qışqırdı: "Darıxma, hər şey yaxşı olacaq, hər qaranlıq gecənin bir işıqlı gündüzü var". "Şübhəsiz", – dedim. Eyni zamanda ona baxır və çiyinlərindən tutub bağrıma basmaq istəyirdim. Bu zərif bədən ürəyimi odlayırdı və ondan başqa bu dünyada daha nə arzulamaq olardı ki?! Yəqin ki, Mari də eyni şeyləri arzulayırdı, çünki bayaqdan bəri ancaq gülümsəyirdi. Gözümə incə dişlərinin parıltısından və gözlərinin altındakı zərif büküşlərdən başqa heç nə görünmürdü.

Yenə qışqırdı: "Buradan çıxacaqsan və biz evlənəcəyik". Dedim: "İnanırsanmı?" Yəqin, nəsə demək

lazım idi, mən də onun sözlərinin müqabilində belə dedim. Sonra o, bacardığı qədər ucadan və sürətlə dedi ki, sən, əlbəttə, buradan çıxacaqsan və biz bir yerdə olacağıq. Ancaq yanındakı qadın qulağının dibində səsini başına atmışdı, deyirdi ki, səbəti məhkəmə nəzarətçisinə verib; və səbətin içindəkiləri çığıra-çığıra sadalayırdı. Hər şeyi dəqiqləşdirmək lazım idi, çünki bu şeylərə bir aləm pul xərcləmişdi. Mənim o biri qonşum və onun anası isə bir-birlərinə baxırdılar. Ərəblərin pıçıltıları kəsilmirdi. Küçənin parlaq işığı, sanki, daşdanıb içəriyə soxulacaqdı, işıq seli partlamış meyvə şirəsi kimi adamların üzüaşağı axırdı.

Birdən özümü pis hiss etdim. Çıxmaq istədim. Səs-küy mənə pis təsir edirdi. Ancaq digər tərəfdən Maridən ayrılmaq istəmirdim. Nə qədər vaxtın keçdiyini bilmədim. Mari indi də öz işindən danışır və elə hey gülümsəyirdi. Bu otaqda pıçıltılar, qışqırıq və danışıqlar bir-birinə qarışmışdı. Bircə cavan oğlanla qoca qarı danışmır, gözlərini bir-birinə dikib durmuşdular. Ərəbləri növbə ilə apardılar. Birincisi çıxan kimi, demək olar, hamı susdu. Balacaboy arıq qadın barmaqlığa yaxınlaşan kimi nəzarətçi cavan oğlana “vaxtdır” işarəsini verdi. O dedi: “Hələlik, ana”. Qadın isə əlini iki barmaqlığın arasından keçirdi və uzun-uzadı onun arxasınca yellədi.

O çıxan kimi bir cavan oğlan şlyapası əlində gəlib bu yeri tutdu. Məhbusu gətirdilər, onlar həyəcanla, ancaq qışqırmadan danışmağa başladılar, çünki otaqda artıq hamı alçaq tonla söhbət edirdi. Sağ tərəfimdəki qonşumun arxasınca gəldilər, onun arvadı bura yığılanları eyninə almadan qışqırdı: “Özündən muğayat ol”. Sonra növbə mənə çatdı. Mari əli ilə öpüş göndərdi. Qapıya çatanda hər ikimiz geri dönüb baxışdıq. Yerində donub-qalmışdı, üzünü məhəccərə söykəmişdi, üzündəki təbəssüm sayrışırdı.

Bundan bir müddət sonra mənə yazdı və məhz bu andan etibarən elə şeylər oldu ki, indi onlardan bəhs etməyi xoşlamıram. Hər halda, düşünürəm ki, heç nəyi şişirtmək lazım deyil, başqalarına baxanda mənim üçün yaxşı keçirdi. Həbsxanaya düşdüyüm ilk günlər ən çətin vaxtlarım idi, ancaq bu zaman da azad insan kimi düşünürdüm; məsələn, xəyal məni çimərliyə aparırdı və birdən soyunub dənizdə çimmək istəyirdim. Ayaqlarımın altında ilk dalğaların mehrini, bədənimin suya girdiyi anı təsəvvür etdikcə bir anlıq xoşbəxt olurdum, ancaq elə o dəqiqə həbsxana divarları üstümə gəlirdi. Bu olay bir neçə ay davam elədi. Sonra adi məhbus düşüncəsi hər şeyi qovub didərgin saldı. Həbsxana həyətində hərgünkü gəzişməni, bir də vəkilimin ziyarətini gözləyirdim. Yerdə qalan vaxtımı da pis keçirmirdim. Həbsxana həyatı insana hər şeyi öyrədir; düşünürdüm ki, günlərin bir günü məni hətta bir ağac oyuğunda yaşamağa məcbur etsəydilər, ona da öyrəşərdim. Hər gecə həsrətlə gözləyirdim ki, səhər nə vaxt açılacaq. Səhər olan kimi başımın üstü ilə dəstə-dəstə uçan quşlara, bir-birinə qoşulub gedən bulud karvanına tamaşa edir və düşünürdüm ki, şübhəsiz, həmin o ağac oyuğunda darıxmazdım; işə bax ki, saatın bu vaxtında vəkilimi gözləyir, onun bu gün hansı əcaib qalstuk bağlayacağı barədə variantlar quraşdırıram və bütün bu mənasız fikirlər mənə təskinlik verir. Nəzərə alsaq ki, həmin o ağac oyuğunda yox, adamların arasında yaşayıram, deməli, hələ dünyanın sonu deyil, həyatımdan şikayətlənməyə heç bir əsas ola bilməz. Bu dünyada məndən qat-qat bədbəxt insanlar var. Bir vaxtlar anam deyərdi ki, insan övladı nəyə desən, öyrəşə və alışa bilər. İnsan nəyə desən, tab gətirə bilər.

Hamı necə, mən də elə. İlk aylar, doğrudan, cəhənnəm əzabı idi. Ancaq məhz ürəyimin təpəri bütün bu

əzablı anların keçməsinə təkan verdi; məsələn, bir kişi kimi qadınla olmaq istəyim məni üzürdü. Cavan olduğum üçün bu, təbii idi. Xüsusi olaraq Marini nəzərdə tutmurdum. Ümumiyyətlə, qadın, indiyə qədər tanıyıb görüşdüyüm qadınlar, onlarla sevişdiyim şərait haqqında düşünürdüm və saxlandığım kamera bu qadınların çöhrəsindən aşıb-daşırdı. İstəklərim məhbəsi topa tutub dağıdacaqdı. Hansısa mənada bu, mənim müvazinətimi pozurdu. Ancaq digər tərəfdən vaxtı öldürməyin bundan gözəl vasitəsini tapa bilməzdim. Axırda baş nəzarətçi günümə ağlamalı oldu. Necə oldusa, onun rəğbətini qazana bildim. Hər dəfə bir cavan oğlan, yəni qarson mənə yemək gətirəndə baş nəzarətçi onunla birgə gələrdi. Günlərin birində mənimlə qadınlardan danışdı və qayğıkeşliklə əlavə etdi ki, məhbuslar bu cəhətdən yaman əzab çəkirlər. Mən də onunla eyni fikirdə olduğumu dedim, özü də necə: “Cənab, məhbuslara qarşı bu əsl ədalətsizlikdir”. “Ancaq, – o dedi, – sizi elə buna görə azadlıqdan məhrum edirlər. Bəli, bəli, azadlıq elə budur da, əlinizdən, ilk növbədə, bunu alırlar ki, düşünəsiniz”. Doğrusu, bu barədə heç zaman düşünməmişdim. Dedim ki, işə bax, yoxsa bu nə həbsxana olardı ki? “Elədir, siz hər şeyi düzgün qiymətləndirirsiniz. Başqaları isə yox. Axırda onların özlərinə təskinlik verməkdən başqa əlacları qalmır”. Nəzarətçi çıxıb getdi.

İkinci çətinlik siqaretlə bağlı idi. Kameraya salındığım gün kəmərimi, ayaqqabılarımın bağlarını, qalstukumu və cibimdəki digər xırım-xırda əşyaları, ilk növbədə isə siqaretimi götürdülər. Bir dəfə tələb etdim ki, onları mənə qaytarsınlar. Cavab gəldi ki, qadağandır. İlk günlər, doğrudan, ağır keçdi. Məni ən çox incidən elə bu idi. Taxta çarpayımdan qopardığım parçaları sorurdum. Dayanmadan ürəyim bulanırdı. Başqalarına dəxli olmayan, onların işinə əngəl törətməyən şeylərin

məndən nəyə görə götürüldüyünü başa düşmürdüm. Sonra anladım ki, bunlar da cəzanın bir hissəsidir. Ancaq bu zaman artıq siqareti tərgitmişdim və onunla bağlı əzab da artıq yox idi.

Bütün bu dilxorluqları nəzərə almasaq, deməliyəm ki, həbsxanada günüm pis keçmirdi. Bir daha təkrar edirəm: əsas problem vaxtı öldürməklə bağlı idi. İşlər elə gətirdi ki, bu məsələ də öz-özünə düzəldi, əlbəttə, olub-keçənləri xatırladıqca. Bəzən otağım barədə düşünürdüm, onu təsəvvürümdə canlandırırdım, kameranın bir küncünə çəkilir, beynimdə otağımın bax bu küncündə nələrin yerləşdiyini bərpa edirdim. Başlanğıcda bunun öhdəsindən asanlıqla gəlirdim. Ancaq sonralar iş düyünə düşdü, başlayan kimi çaşırdım. Bu da mənə vaxtı uzatmağa, daha çox düşünüb, daha çox vaxt öldürməyə yardımçı oldu. Deyək ki, masanın harada yerləşdiyini, hər yeşikdə nələr olduğunu, hər cüzi şeyi bütün cizgiləri, onların kələ-kötürlüyü, çat verib-verməməsi, rəngi, ələ necə gəlməsi ilə xatırlayırdım. Eyni zamanda otağımdakı hər şeyi təsəvvürümdə növbə ilə gətirib, heç nəyi unutmamağa çalışırdım. Bir neçə həftədən sonra gördüm ki, təkcə ev əşyalarının siyahısının tutulmasına saatlarla vaxt gedir. Nə qədər çox yada salırdım, bir o qədər xatirimdə fərqli, ilk baxışda diqqətə layiq olmayan xırda şeylər canlanırdı. Bax elə o zaman başa düşdüm ki, əgər insan lap bircə gün yaşayıbsa, sonralar o, yüz il həbsxanada rahatca oturub kefi istəyən qədər xatırlaya bilər və bu bir günün saysız-hesabsız xatirələri onu darıxmağa qoymaz.

Yuxu məsələsini də unutmaq olmaz. Başlanğıcda gecələr pis yatırdım, yuxum ərşə çəkilirdi, gündüzlər isə mürgülü vəziyyətdə olsam da, yata bilmirdim. Yavaş-yavaş gecə və gündüz istədiyim qədər yatmağa öyrəşdim. Deyə bilərəm ki, son aylar gündə on altı-on səkkiz saat yatırdım. Cəmi altı saatım qalırdı, bunu da

səhər və şam yeməklərinə, digər təbii ehtiyaclarıma, olub-keçənləri xatırlamağa və Çexoslovakiya əhvalatına sərf edirdim.

Bir gün çarpayının dəmir toru ilə döşək arasında köhnə qəzet parçası əlimə keçdi. Saralıb ovxalanırdı. Burada ən müxtəlif şeylərdən bəhs edilsə də, açıqca görünürdü ki, əvvəli cırılıb, ancaq anlamaq olurdu ki, Çexoslovakiyada baş verən hansısa əhvalatla bağlıdır. Çexoslovakiya kəndlərinin birində bir cavan oğlan var-dövlət qazanmağa gedir. İyirmi beş ildən sonra geri dönür: varlanıb, yanında arvadı və uşağı var. Anası və bacısı doğma kəndlərində hotel idarə edirdilər. Onları təəccübləndirmək üçün arvadını və uşağını başqa bir məkanda yerləşdirir, kəndi tərk etdiyindən bəri görmədiyi anasının ziyarətinə gedir. Zarafat üçün orada bir otaq kirələmək fikrinə düşür. Pulunu göstərir. Gecə düşəndə anası ilə bacısı qarət məqsədi ilə çəkiclə onu öldürür, cəsədini çaya atırlar. Səhəri arvadı gəlir, hər şey açılır. Ana özünü asır. Qız özünü quyuya atır. Bu əhvalatı, azı, min dəfə oxumuşdum. İlk baxışda adamın inanmağı gəlmirdi. Digər tərəfdən isə, təbii, hər kəsin başına gələsi hadisə idi. Ancaq istənilən halda oğul buna bir az layiq idi və elə şeylər var ki, onlarla oynamaq olmaz.

Bu minvalla saatlarla yatır, dönə-dönə xatirələrə dalırdım; hücrəm gah işıqlanır, gah qaranlıqlaşır – vaxt isə ötürdü. Çevrilib başqa bir adam olmuşdum. Günlər yeknəsəq, adsız-ünvansız olmuşdu. Yalnız dünən və sabah sözləri hələ öz mənasını itirməmişdi. Bir dəfə nəzarətçi dedi ki, mən artıq beş aydır həbsxanadayam – inandım, ancaq dərk edə bilmədim. Mənimçün kamerada eyni bir gün nəhayətsiz dərəcədə uzanır, heç cür qurtarmaq bilmirdi. Sonra yavaş-yavaş axşam düşürdü. Həbsxananın bütün mərtəbələrindən qalxan səs-küy dalğa-dalğa ətrafa yayılır, öz içindəcə boğulur

və az keçmiş ağır-ağır yatır, dörd bir tərəfə dözülməz sükut çökürdü. Günlərin birində bu lal sükutun içində öz səsimi eşitdim. Demə, nə vaxtdan bəri qulaqlarımda uğuldayan, beynimə işləyən səs bu imiş, yalnız indi anladım ki, bu qədər zaman içində təkadamlıq kamerada oturub öz-özümlə haqq-hesab çəkirmişəm. Anamın dəfnində xidmətçinin dediklərini xatırladım. Hə, elədir ki var, heç bir əlac yoxdur və heç kim təsəvvür edə bilməz ki, həbsxana axşamları nə deməkdir.

## III

Əslinə qalsa, bu yayın necə keçdiyinin, o birinin necə gəldiyinin fərqində olmadım. Hiss etmişdim ki, istilərin düşməsi ilə həyatımda yeni şeylər baş verəcək. İşimə andlılar məhkəməsinin son sessiyasında baxacaqdılar, yəni iyun ayında. İşə baxış başlananda günəş yandırıb-yaxırdı. Vəkilim məni əmin edirdi ki, iki-üç gündən çox çəkməz. "Fikrimcə, – əlavə etmişdi, – məhkəmə sizin işi çox tez həll etməyə çalışacaq, çünki bu sessiyada o ən vacib iş deyil, bundan dərhal sonra bir ata qatili var, onun işinə baxılacaq".

Səhər saat səkkizin yarısında mənim dalımca gəldilər, həbsxana maşını ilə məhkəmə binasına apardılar. İki jandarm məni kiçik bir otağa saldı. Arxasından müxtəlif səslərin, müraciət, stol-stul taqqıltısının gəldiyi qapının böyründə oturmuşdum, adamda elə təəssürat yaranırdı, elə bil, hansısa konsertdən sonra zalı boşaldırdılar ki, ortada rəqs eləmək mümkün olsun. Jandarmlar dedilər ki, bir az gözləmək tələb olunur, onlardan biri mənə siqaret təklif elədi, ancaq istəmədim. Sonra qorxub-qorxmadığımı soruşdular. Cavab verdim ki, qorxmuram. Hətta açığını desəm, məhkəmə prosesini görmək məndə maraq oyatmışdı. Həyatımda indiyə kimi belə bir təsadüf olmamışdı. "Elədir,

– ikinci jandarm təsdiqlədi, – ancaq axırı yorulmaqdır".

Bir az keçəndən sonra zalda zəng çalındı. Qandallarımı açdılar. Qapı açıldı və məni müttəhimlər kürsüsündə əyləşdirdilər. İynə atsan, yerə düşməzdi. Pərdələrin salınmasına baxmayaraq, günəş şüaları yol tapıb içəri keçirdi və bürküdən nəfəs almaq olmurdu. Hər yer bağlı idi. Oturdum, jandarmlar böyür-başımda dayandılar. Bu zaman bir cərgədə insanların sifəti gözlərim önünə gəldi. Hamı mənə baxırdı. Başa düşdüm ki, bunlar andlılardır. Ancaq onları nəyin bir-birindən fərqləndirdiyini deyə bilmərəm. Mənə elə gəldi ki, indicə hansısa tramvaya minmişəm, qarşıdakı oturacaqda tanımadığım sərnişinlər gözlərini mənə elə zilləyiblər ki, üzümdə bir eyib tapıb şaqqanaq çəksinlər. Anladım ki, beynimə gələn fikir cəfəngiyatdır, çünki onlar mənim üzümdə, şübhəsiz, komik bir əlamət axtarmırdılar. Onlar caniyə baxırdılar. Ancaq məncə, fərq o qədər də böyük olmazdı.

Bu başdan-ayağa qapalı otaqda bir belə adam görəndə karıxdım, qulaqlarım tutuldu. Məhkəmə zalına baxdım, ancaq heç kəsin sifətini seçə bilmədim. İnanıram ki, əvvəlcə hamının məni görmək istəməsini nəzərə almamışdım. Əvvəllər insanlar mənə bir elə maraq göstərməzdilər. Ağlıma gəldi ki, heç kəsin diqqət yetirmədiyi o şəxs gör nə boyda çaxnaşma yaradıb. Jandarma dedim: "Nə çox adam var!" Cavab verdi ki, bu, qəzetçilərin işidir, əlinin işarəsi ilə bir qrup insanı göstərdi, onlar andlıların stolu ətrafında dayanmışdılar. "Bax, onlardır". Soruşdim: "Kimi deyirsiniz?" Təkrar etdi: "Qəzetçiləri". Onlardan biri, deyəsən, jandarmın tanışı idi, onu gördü və bizə tərəf addımlamağa başladı. Bu artıq yaşlaşmış, xoş görünüşlü, sifəti azca qırışlaşmış bir kişi idi. O, ehtiramla jandarmın əlini sıxdı. Bu zaman sezdim ki, kluba hansısa tədbirə yığışıbmış kimi hamı bir-biri ilə danışır, mübahisə edir;

eyni dünyanın adamlarının bir yerə yığışması, belə isti söhbətlərə girişməsi nə böyük xoşbəxtlikdir. Burada özümü, açığını deyim, bir az narahat hiss edirdim, burada yad adam bircə mən idim. Ancaq birdən jurnalist üzünü mənə tərəf çevirdi və gülümsədi. Dedi ki, darıxmayım, hər şey mənim xeyrimə qurtaracaq. Ona təşəkkür elədim; əlavə etdi ki: "Bilirsinizmi, sizin işiniz ətrafında bir az hay-küy qaldırdıq. Yay jurnalistlər üçün ölü bir mövsümdür, sizin işiniz göydəndüşmə oldu, biri də var, ata qatili, bu, sizin işinizdən də maraqlı olacaq". Sonra bir az susduqdan sonra əli ilə jurnalistlərin arasında dayanmış, azca sünbülqırana oxşayan kişini göstərdi, dedi ki, Paris qəzetlərindən birinin xüsusi müxbiridir. Qara şüşəli yekə eynək taxmışdı. "Bura xüsusi olaraq sizə görə gəlməyib, ona ata qatili haqqında yazmağı tapşırıblar, ancaq kimsə ondan xahiş edib ki, sizdən də yazsın". Təşəkkür eləmək istədim, ancaq dərhal fikrimdən daşındım, çünki bu bir az gülməli çıxardı. Əli ilə mənə "sağ ol" dedi və ayrılıb getdi. Bir neçə dəqiqə də gözlədik.

Vəkilim gəldi. Bir neçə həmkarı ilə birlikdə, hamısı rəsmi geyimdə. Cəld jurnalistlərə tərəf addımladı, bir-bir əllərini sıxdı. Zarafatlaşdılar, güldülər, hər şey qaydasınca gedirdi, özlərini, necə deyərlər, evdəki kimi hiss edirdilər, ancaq birdən zəng çalındı. Hamı öz yerini tutdu. Vəkilim mənə yaxınlaşdı, əlimi sıxıb saxladı, veriləcək suallara qısa cavb verməyimi, cuşa gəlib çıxış etməməyi tövsiyə etdi. Dedi ki, ona arxayın olum, hər şey yaxşı olacaq.

Sol tərəfimdə stulu kobud hərəkətlə itələdilər, qırmızı mantiyalı, mantiyanın ətəklərini səliqə ilə tutub özünə tərəf çəkən ucaboylu, arıq bir kişi onun arxasına keçdi. Bu, prokuror idi. Məhkəmə icraçısı hakimin gəldiyini elan etdi. Bu vaxt iki böyük ventilyator fırlanmağa başladı. İkisi qara, üçüncüsü qırmızı mantiyada üç

hakim əllərində dosyelər zalın başındakı tribunada yerlərini tutdu. Qırmızı mantiyalı hakim ortadakı kürsüdə əyləşdi, dəsmalını çıxarıb dazını ehmal-ehmal sildi və iclası açıq elan etdi.

Jurnalistlər əllərində qələm və dəftər hazır durmuşdular. Sifətlərində laqeyd, bir az da istehzalı ifadə vardı. Yalnız boz flanel kostyumlu, mavi qalstuklu cavan jurnalist qarşısındakı stoldan avtomat qələmini götürməyib hələ də üzümə baxırdı. Üzündəki qeyri-mütənasiblik məndə qəribə təəssürat oyatdı. Mən onun yalnız gözlərini görürdüm, bu gözlərdəki ifadəni oxuya bilmirdim ki, bilmirdim. Ən qəribəsi budur ki, bir ara mənə elə gəldi özüm özümə baxıram. Təsadüfə bax! Şübhəsiz, məhkəmə qaydalarını o qədər də bilmirdim və bəzi işlərdən bixəbər olduğuma görə nələr baş verdiyini anlamaqda çətinlik çəkirdim. Püşk atıldı, növbəti andlılığa namizədlər seçildi, sədr vəkildən, prokuror və andlıdan nə isə soruşdu. Nəhayət, ittihamnamə oxundu. Tanıdığım adamların və yerlərin adları gəldi qulağıma. Vəkilim ayağa qalxıb suallara cavab verirdi.

Sədrin göstərişi ilə şahidlər çağırıldı. Məhkəmə icraçısı onların adlarını ucadan oxudu. Adlar tanış idi. Bəzilərini tanımırdım. Bu vaxta qədər dəfn mərasiminə yığışıb gəlmiş insan topası içində qocalar evinin direktorunu, dalandarı, qoca Perezi, Raymonu, Masonu və Salamanonu gördüm. Bu da Mari. Bir-bir qapının ağzında dayandılar. Mari həyəcanlı idi, başı ilə salamlaşdı. Təəccübləndim ki, niyə onları məhz indi gördüm. Selest ayağa qalxdı. Onun yanında bir qadın vardı, Selestin restoranında tanış olmuşdum bir vaxtlar, qəribə istəkləri vardı. Dik üzümə baxırdı. Nə deyim, vallah, bura məni dəfn etməyə gəliblər? Heç nə ağlıma batmadı, sədr bir ucdan danışırdı. "Məhkəmə işə başlayır, camaat, sakit olun". Sədrin dediyindən anlaşılan

bu idi ki, o, yəni sədr işə qərəzsiz və ədalətlə baxmağı təmin etməlidir, andlı iclasçılar ədalətli hökm çıxarmalıdırlar, kim şuluq salsa, dərhal məhkəmə salonundan bayıra atılacaq, mitili ilə bərabər!

İsti dözülməz olurdu. Sədr başı ilə icraçıya işarə etdi. İcraçı üç həsir yelpik gətirdi, hakimlər o dəqiqə "işə başladılar". İşə start verildi. Sədr təmkinini pozmadan aram-aram suallar verirdi: bir daha adımı, soyadımı, yaşımı və bir para digər məsələləri soruşdular. Sorğu-sualdan bir qədər bezsəm də, bunun qaçılmaz rəsmiyyət olduğunu yadıma saldım və sakitləşdim, rəsmiyyət belədir – burada məhz onlara lazım olan adam mühakimə edilməlidir, başqası yox! Sonda sədr dediklərini bir də qısa şəkildə sadaladı və hər dəfə məndən soruşurdu: "Elədirmi?" Mən də hər suala vəkilimin tövsiyə etdiyi qaydada cavab verirdim: "Elədir, cənab sədr".

Fabula çox uzun çəkdi, belə ki, sədr olayların hamısını bitdə-bitdə sadaladı. Jurnalistlərin qələmləri qırıcı təyyarələrə bənzəyirdi. Yazdıqca üzümə baxmağı da unutmurdular, xüsusən də o avtomat qadın. "Tramvaydakı" bütün sərnişinlər sədrə baxırdı. Sədr öskürdü və qarşısındakı vərəqləri eşələdi. Həsir yelpiyi götürdü, sağa-sola hərəkət etdirdi və gözlərini üzümə dikdi. İndi bu işlə birbaşa əlaqəsi olmasa da, əslində, mahiyyətcə mühüm əhəmiyyət kəsb edən incə bir məqama toxunacaq. Gəlib çatdıq. Ürəyim yerindən qopdu, indicə anam barədə danışacaq. Soruşdu: "Anamı qocalar evinə göndərmək qərarını vermək səninçün çətin idimi?" Cavabımda dedim ki, anam da, mən də artıq təklikdə yaşamağa öyrəşmişdik və biz ayrı yaşamaq tərzini seçdik. Sədr mənim cavabımdan sonra məsələni nöqtələdi, elə belə də dedi: "Bu məsələnin dərinliyinə baş vurmağa ehtiyac duymuram, – sonra üzünü prokurora tudu, – Sizin sualınız varmı?"

Prokurur mənə yox, sədrə baxaraq soruşdu: "Qayalığın arxasındakı bulağa ərəbi qətlə yetirmək üçünmü getmişdin?" "Yox", – dedim. "Belə olan halda siz niyə silahlı idiniz və ora nə üçün bir də qayıtdınız?" Cavabım belə oldu ki, bu, sırf təsadüfdür. Prokuror nəsə özözünə pıçıldadı və dedi: "Hələlik kifayətdir".

Səs-küy, elə bil, bir balaca çoxalmışdı. Ya bəlkə, qulağım guruldayırdı. Az sonra sədr fasilə elan etdi. Dediyinə görə, şahidlər axşam iclasında dindiriləcəklər.

Üzülürdüm. Zaldan çıxarıb məni məhbus maşınına mindirdilər. Həbsxanaya gətirdilər. Nahar elədim. Yorulmuşdum, başım hərlənirdi. Dalımca gəldilər, eyni maşına mindirib məhkəməyə apardılar. Hər şey yenidən başlandı. Eyni üzlər, eyni gözlər. Artıq bezmişdim. Bürkü ürəyimi sıxırdı. Həsir yelpiklərin də sayı artmışdı, bura hansısa ovsunçu girib nələrsə eləmişdi.

Gənc jurnalist və balaca qadın əvvəlki yerlərində oturmuşdular, gözlərini məndən ayırmırdılar.

Alnımın tərini sildim, harada olduğumu, başıma nə gəldiyini dumanlı şəkildə dərk edirdim. Birdən eşitdim ki, qocalar evinin direktoru şahidliyə çağırılır. Ondan soruşuldu: "Anası məhbusdan şikayətliydimi?" "Bəli, – dedi, – ancaq bu, adi bir işdir, qocalar evinə düşən hər kəs, bir qayda olaraq, qohumlarından şikayətlənir". Sədr ondan məsələni dəqiqləşdirməyi xahiş etdi, yəni konkret olaraq anası məhbusdan çoxmu narazı idi? "Əlbəttə", – dedi. Dedi və susdu. Sonra başqa bir sualı cavablandırarkən dedi ki, dəfn günü məhbusun soyuqqanlılığı hamını təəccübləndirib. Ondan soruşuldu: "Soyuqqanlılıq deyəndə nə nəzərdə tutulur?" Direktor mütəəssir oldu, başını aşağı dikdi: "Bilirsinizmi, anasının cənazəsinə baxmadı, bir damcı göz yaşı axıtmadı, dəfndən sonra hamıya qoşulub geri qayıtdı və dərhal avtobusa minib evinə döndü". Ən maraqlısı bu idi ki,

dəfn bürosunun işçisi məhbusdan anasının yaşını soruşanda məhbus bilmədiyini deyib. Hamı susdu, sanki, qurbağa gölünə daş atdılar. Sədr direktordan soruşdu: "Bu dedikləriniz məhbusamı aiddir?" Direktor sualı anlamadı. Sədr sualına aydınlıq gətirdi: "Bunu soruşmağı qanun tələb edir". Sonra prokurordan şahidə sualı olub-olmadığını soruşdu. Prokuror ucadan dedi:

– Yox, kifayətdir. Hər şey aydındır.

O, bunu elə hərarətlə, elə coşqunluqla dedi, mənə elə təntənə ilə baxdı ki, birdən-birə bütün zaldakıların mənə necə nifrətlə baxdığını hiss etdim. Gözüm son dəfə nə zaman nəmlənib, heç bilirəmmi? Uzun illərdən bəri ilk dəfə bu gün heç kəsdən utanmadan zar-zar ağlamaq istədim.

Dalandarı çağırdılar. Dedi ki, anasının cənazəsinə baxmaq istəmədi, tabutun yanında ədəbsizlik elədi, siqareti siqaretə caladı, yatdı, südlü qəhvə içdi. ("Bir sözlə, min oyundan çıxdı"). Bu zaman gördüm ki, salonda həyəcan artır, günahkar olduğumu dərindən-dərinə hiss etdim və ölmək istədim. Dalandar südlü qəhvə və siqaret əhvalatını bir də nağılladı, bir də, bir də... Prokuror istehza ilə məni süzürdü, elə bil, düşmən balasına baxırdı. Bu vəziyyətdə vəkil dalandardan soruşdu ki, o da mənimlə siqaret çəkirdimi? Prokuror dözə bilmədi, var səsi ilə bağırdı:

– Burada müttəhim kimdir, bu nə müdafiə üsuludur? Müdafiəçi ittihamçının şahidlərinə qara yaxır, müttəhim üçün ucuz xilas yolu arayır.

Buna baxmayaraq, sədr dalandarın səslənən suala cavab verməsini istədi. Qoca susdu, bilmədi nə desin.

– Düz buyurursunuz, mən də siqaret çəkdim, ancaq sizi inandırıram ki, məni müttəhim təhrik etdi buna. Necə olmasa da, etiraz etmək yaxşı çıxmazdı.

Axırda mənim də növbəm gəldi: "Bir şey əlavə etmək istərdimmi?"

– Yox, – dedim – şahid düz deyir... Doğrudan da, siqareti mən ona təklif etmişdim.

Dalandar əvəz-əvəz olsun deyə dedi ki, qəhvəni o özü mənə təklif elədi. Vəkilin üzü güldü və söylədi ki, andlı iclasçılar bunu nəzərə almalıdırlar. Ancaq bu yerdə prokuror qəzəblə səsləndi:

– Bəli, möhtərəm andlılar bunu nəzərə almalıdırlar, ancaq məsələ ondadır ki, yad bir adam sənə qəhvə təklif edirsə, səni dünyaya gətirib gözünün nuru ilə böyüdən ananın cənazəsi önündə sən ondan imtina etməliydin.

Dalandar öz yerinə qayıtdı.

Növbə qoca Perezə çatdı. Bu zaman icraçı onun qolundan tutub kürsünün yanına qədər gətirdi. Perez anamdan danışdı, dedi ki, qocalar evində daha çox anamla ünsiyyət saxlayırmış, məni cəmi bircə dəfə görüb, dəfn günündə. Soruşdular: "Həmin gün məhbus neyləyirdi?" Dedi ki, bilirsiniz, mən öz dərdimə yanırdım, ölü kimiydim. Gözümə heç nə görünmürdü. Onun bu dünyadan köçməsi sinəmi dağladı. Çalın-çarpaz. Mənim bayıldığımı görənlər də olub. Bu vəziyyətdə cənab Mersonu görə bilməzdim. Prokuror soruşdu ki, hər halda, yəqin, mənim ağladığımı görüb. Perez cavab verdi ki, görməyib. Bunu təsdiq edə bilməz. Prokuror, öz növbəsində, dedi:

– Möhtərəm andlı iclasçılar bunu nəzərə almalıdırlar.

Amma bu yerdə vəkilim özündən çıxdı və zənnimcə, həddindən artıq qeyzlə Perezdən soruşdu ki, o, mənim ağlamadığımı görübmü? Perez dedi:

– Görmədim.

Zalda gülüşmə qopdu. Vəkil mantiyasının qolunu kənara ataraq ucadan dedi:

– Belə də proses olar, hə şey astar üzünə çevrilib, bu, nə məsələdir?

Prokuror ciddi nəzərlərlə zala baxdı və əlindəki qələmlə stolu döyəclədi.

Beşdəqiqəlik fasilə elan olundu. Vəkilim macal tapıb mənə bildirdi ki, hər şey öz axarıyla gedir. Bundan sonra isə vəkil dəvət elədiyi şahidləri çağırdılar. Selest təşrif gətirdi. O, bazar günləri cıdır yarışlarına getdiyimiz zaman geyindiyi kostyumunda idi. Selestdən soruşdular: “Mən onun yanında nahar edirdimmi. O dedi: “Bəli, ancaq bundan əlavə, o, mənim dostumdur. Soruşdular: “O, mənim barəmdə nə fikirdədir. Cavab verdi ki, mən insanam. Bəs bunu necə başa düşməli? Selest dedi: “Hamı bilir ki, bu, nə deməkdir”. Bəs o sezibmi ki, mən qaradinməz və adamayovuşmazam? Selest cavabında yalnız bunu dedi ki, mən sarsaq və boşboğaz deyiləm. Prokuror: “Yemək pulunu vaxtında ödəyirdimi?” – soruşdu.

Selest güldü:

– Boş şeydir, bizim aramızda belə problemlər yaşanmazdı, onunla dil tapırdıq.

Selestdən soruşdular: “Bu cinayət əməli barədə nə düşünür?” O, hər iki əliylə arakəsməyə söykəndi, hiss olunurdu ki, bu sualın cavabını əvvəlcədən hazırlayıbmış.

O dedi:

– Düşünürəm ki, bu bir bədbəxt hadisədir. Hamıya məlumdur ki, bədbəxtlik gələndə soruşmur “hazırsınızmı?”. Taleyin elə oyunları var ki, insan heç nə edə bilməz. Bəli, mənim fikrimcə, bu, sırf bədbəxt hadisədir. – O davam eləmək istədi, lakin sədr dedi: “Çox yaxşı, gedə bilərsiniz”. Selest bir az karıxdı, nə edəcəyini bilmədi. Ancaq nə düşündüsə, bildirdi ki, deməyə sözü var. Ondan qısa danışmağı xahiş elədilər. Bir daha təkrar elədi ki, mənə bədbəxtlik üz verib. Sədr dedi: “Aydındır. Bura elə ona görə yığışmışıq ki, bu növ bədbəxt hadisələri mühakimə eləyək, təşəkkür edirəm”.

Selest, sanki, daha nə demək lazım olduğunu və daha necə kömək edəcəyini bilmədiyi üçün dönüb mənə tərəf baxdı. Mənə elə gəldi ki, onun gözləri nəmləndi, dodaqları əsdi. Az qalırdı məndən soruşsun ki, daha nə etmək olar. Mən, şübhəsiz ki, heç nə demədim, ona göz-qaş eləmədim, işarə vermədim və həyatımda ilk dəfə olaraq kişi xeylağını qucaqlamaq istədim. Sədr ona aşağı düşməyi təklif etdi, Selest gedib yerində oturdu. Düz iclasın axırına kimi qabağa əyilib dirsəkləri dizində, panaması əlində diqqətlə qulaq asdı.

Bu da Mari. Şlyapa qoymuşdu. Gözəl idi. Ancaq saçlarını yığmışdı, mən onu bu halda – saçları çiyninə tökülü daha çox xoşlayıram. Buradan, oturduğum yerdən kiçik, yumru döşlərinin titrədiyini hiss edirdim. Həyəcanlandımı, alt dodağı bir az şişmiş görsənərdi. Deyəsən, Mari həyəcanlıydı. Dərhal məni nə vaxtdan tanıması ilə bağlı soruşdular: "Məni çoxdanmı tanıyır?" Dedi ki, onların ofisində çalışdığı vaxtlardan. Sədr aramızdakı münasibətlər barədə sual verdi. "Yaxınıq" – dedi. Başqa bir suala cavab verərkən təsdiqlədi ki, evlənməyə hazırlaşırdıq. Hansısa işi vərəqləyən prokuror birdən başını qaldırdı, bizim münasibətlərin tarixi barədə sual verdi. O, tarixi açıqladı. Prokuror laqeydliklə dedi ki, bu, məhbusun anasının Allahın rəhmətinə qovuşduğu günün səhərisi imiş. Sonra ironiya ilə əlavə elədi ki, Marinin indi xəcalət çəkməsinin səbəbini anlayır, ancaq (bu məqamda səsi sərtləşdi) onun borcu bu cür bayağı şeylərdən yüksəkdə durmaqdır. Tələb etdi ki, Mari rastlaşdığımız günü təsvir etsin. Mari əvvəlcə susdu, hiss edilirdi ki, danışmaq istəmir, amma prokurorun sərt təkidindən, bəlkə də, təpkisindən sonra necə çimdiyimizi, kinoya, sonra isə bizə getməyimizi yerli-yataqlı təsvir elədi. Prokuror qeyd etdi ki, Mari istintaqa ifadə verdikdən sonra o, həmin gün

proqramda olan filmlərlə maraqlanıb. Əlavə elədi ki, bunu Marinin özündən eşitmək daha yaxşı olardı. Mari, az qala, pıçıltı ilə Fernandelin filminə baxdığımızı söylədi. Məhkəmə zalına sükut çökdü, ölüm sükutu. Bu məqamda prokuror qalxdı, üzü çox ciddi idi, səsində həqiqi bir həyəcan duyulurdu – barmağıyla məni göstərib ağır-ağır dedi:

– Möhtərəm iclasçılar, anası öldüyü günün səhəri bu adam dənizə çimməyə gedir və sonra məşuqəsiylə kinokomediyaya baxaraq əylənir. Bundan artıq sizə deyiləsi sözüm yoxdur.

O əyləşdi, salona əvvəlki kimi sükut çökmüşdü və birdən Mari bərkdən hıçqırdı və danışmağa başladı ki, bütün bunlar yalandır, əhvalat tamam başqa cür olub və onu ayrı şeylər söyləməyə məcbur ediblər. O, məni yaxşı tanıyır və mən heç bir nalayiq iş görməmişəm. Lakin sədr icraçıya işarə elədi: Marini apardılar, iclas davam elədi.

Bundan sonra Mason deyəndə ki mən namuslu və üstəlik, ləyaqətli adamam, əslində, artıq heç kim ona qulaq asmırdı.

Qoca Salamano danışmağa başlayanda ki, – bəs mən onun iti ilə necə mehriban idim, heç kim ona fikir vermədi. O, anamla münasibətimiz necəydi sualına cavab verib deyəndə ki, artıq anamla danışılası heç bir söhbətimiz yox idi və buna görə də mən onu ahıllar evinə vermişdim – yenə onun sözünə məhəl qoyan olmadı.

– Onu da başa düşmək lazımdır, – Salamano təkrar elədi, – başa düşmək lazımdır.

Lakin görünür, heç kəs məni başa düşmək istəmirdi. Onu apardılar.

Sonra sonuncu şahid – Raymonun növbəsi gəldi. O, başıyla mənə işarə edib həmin saat bildirdi ki, mən günahsızam. Lakin sədr dedi: "Şahiddən hökm yox,

faktlar tələb olunur, onun işi suallara cavab verməkdir. O, öldürülmüş ərəblə hansı münasibətdə idi?” Raymon sualdan istifadə edib dedi ki, öldürülənin düşməni məhz odur – çünki bacısını əzişdirmişdi. “Buna görə qardaşının ona nifrət eləməyə əsası vardımı?” Raymon dedi ki, mən çimərliyə təsadüfən düşmüşəm, bu, xalis təsadüfdür. Onda prokuror soruşdu: “Bəs necə olub ki, bütün faciəyə səbəb olan məktubu mən yazmışam”. Raymon dedi: “Bu da təsadüfdür”. Prokuror etiraz elədi: “Nədənsə, bu əhvalatda təsadüfi əsas günahkar çıxır. Çox maraqlıdır, Raymon öz məşuqəsini əzişdirəndə mən işə qarışmamışam – bu da təsadüfdür?” Polis idarəsinə gəlib şahidlik eləmişəm, bu da təsadüfdür? Ən axırda soruşdu ki, Raymon hansı vəsaitlə yaşayır? O cavab verdi: “Anbardaram”, onda prokuror andlılara bildirdi ki, bu şahidin yalnız bir məşğuliyyəti var ki, o da ara düzəltməkdir. Mən isə onunla əlbir və dostam – beləliklə, biz ən alçaq üsullarla oynanılmış faciəli bir farsın şahidi oluruq və məhkəmə qarşısında adi cinayətkar deyil, vicdansız və həyasız bir rəzil durur. Raymon özünə haqq qazandırmaq istədi, vəkilim də etiraz elədi, lakin onlara prokuror danışıb qurtarana kimi susmaq təklif edildi. Prokuror dedi:

– Mən, demək olar ki, danışıb qurtardım, – sonra Raymondan soruşdu: – Müttəhim sizin dostunuz idimi?

– Bəli, – Raymon dedi. – O, mənim dostumdur.

Prokuror eyni sualı mənə də verdi. Mən Raymona baxdım, gözlərini yayındırmadı. Dedim:

– Bəli.

Belə olduqda prokuror andlı iclasçılara tərəf dönüb elan etdi:

– Budur, baxın! Siz qarşınızda doğma anasının ölümünün səhərisi iyrənc bir əxlaqsızlığa qurşanmış və öz pozğunluğunu ört-basdır etmək məqsədilə qətl törətmiş bir adamı görürsünüz.

Prokuror bunu deyib oturdu. Lakin vəkilimin səbir kasası daşdı, əllərini çılğınlıqla göyə qaldırdı. Mantiyanın geniş qolu aşağı sürüşdüyündən kraxmallı köynəyinin tikişləri göründü. O qışqırdı:

– Başa düşmürəm, onu nədə ittiham edirlər: adam öldürdüyünə görə, ya anasını basdırdığına görə?

Zalda gülüşmə qopdu. Ancaq prokuror yenə dikəldi, mantiyasına bürünüb dedi:

– Hörmətli müdafiəçi nə qədər sadəlövh olmalıdır ki, bu iki ayrı-ayrı fakt arasındakı dərin, sarsıdıcı, qırılmaz əlaqəni görməsin. Bəli, – o, çılğıncasına qışqırdı. – Mən bu adamı onda ittiham edirəm ki, o, anasının dəfnində ikən artıq mənən cani imiş!

Onun sözləri, görünür, adamlara böyük təsir bağışladı. Vəkil çiyinlərini çəkib alnının tərini sildi. Görünür, o özü də çaşıb-qalmışdı və başa düşürdü ki, iş mənimçün çox pis şəkil alır.

Bundan sonra hər şey çox tez yoluna düşdü. İclas bağlandı. Məni zaldan çıxarıb həbsxana maşınına oturdanda bir dəqiqəliyə axşam havasıyla köksdolusu nəfəs aldım, onun ətrini və boyalarını hiss etdim. Sonra təkərli qaranlıq kamera yola düşdü. Mən yorğunluq içində şəhər həyatının həmişə xoşladığım tanış səs-küyünü eşidirdim. Gündüzün səs-küyü yavaş-yavaş yatırdı, qəzetsatanların qışqırığı, bağlarda yuxulu quşların getdikcə zəifləyən cingiltisi, alverçilərin hay-harayı, sərt döngələrdə tramvayların həzin iniltisi və körfəzə axşam çökməmişdən, sanki, göydən yağan mübhəm uğultu – bütün bunlar azadlıqda olduğum vaxt dəfələrlə keçib-getdiyim yolu gözübağlı tanımağa imkan verirdi.

Bəli, həmin bu saatlarda mən həmişə kefikök və rahat olardım. Onda əmin idim ki, irəlidə məni həyəcansız və röyasız yuxular gözləyir. Lakin indi nə isə dəyişmədi – irəlidə məni təkcə sabahkı günün ləzzəti

deyil, eyni zamanda təkadamlıq kamera gözləyirdi. Başa düşmüşdüm ki, yay səmasına cızılmış tanış yol təkcə dinc yuxulara deyil, həbsxana barmaqlıqları arxasına da apara bilərmiş.

## IV

Hətta müttəhimlər kürsüsündə oturduqda da insan özü haqqında danışılanları maraqla qarşılayır. Həm ittihamçı prokuror, həm də vəkilim mənim haqqımda müxtəlif və fərqli fikirlər söyləyirdilər, indi deyə bilirəm ki, o zalda törədilən cinayət əməlindən və məndən danışdılar. Vəkil əllərini göyə qaldırıb həyəcanlı səsi ilə deyirdi ki, mən mərhəmətə layiqəm. İttihamçı prokuror da əllərini eyni tərzdə Tanrıya tərəf tutub qeyzlə qışqırırdı ki, mən ağır cinayət törətmişəm və mərhəmətə layiq deyiləm. Ancaq bir şey məni incidirdi və çaşdığıma görə anlaya bilmirdim. Ürəyimdə bu deyilənləri boş və mənasız hesab edirdim, bu qətiyyətlə ayağa qalxıb nəsə demək istəyirdim, ancaq vəkil məni sakitləşdirir və əli ilə oturmağımı xahiş edirdi. “Sussanız, daha yaxşı olar”. Elə bir vəziyyət yaranmışdı ki, bu işi, deyəsən, mənsiz həll etməkdə qərarlı idilər. Bir qapalı dairə yaratmışdılar, məni ora buraxmırdılar. Taleyim mənsiz həll edilirdi. Vaxtaşırı olaraq hamının sözünü ağzında qoyub demək istəyirdim: “Onda deyin görüm, kimdir müqəssir? Müqəssirin müəyyənləşdirilməsi əsas məsələdir. Mənim də sözüm var, icazə verin, deyim”. Bunu ancaq fikirləşirdim, heç nə deyə bilmirdim. Bir şey var ki, adamların sənin şəxsiyyətinlə maraqlanması nə qədər cəzbedici olsa da, bir o qədər bezikdiricidir; məsələn, ittihamçını dinləmək ölməkdən betər idi. Onu, demək olar ki, anlamırdım. Nitqindəki bəzi sözləri güclə başa düşürdüm. Bəzən hansısa çılğın ifadəsi, oynaq jesti məni heyrətləndirir, yaxud diqqətimi

cəlb edirdi. Fikrimcə, onun məntiqi belə idi ki, guya mən əvvəlcədən düşünüb-daşınıb bu qətli törətmişəm. Bütün cidd-cəhdləri bu ideyanı oturanların beyninə yeritmək idi. "Möhtərəm andlı iclasçılar, bu fikrimi iki üsulla sübuta yetirə bilərəm: birincisi odur ki, ortada təkzibedilməz faktlar var – zülməti korlar da görür (işıqdakı zülmət). İkincisi, qaranlığın işığı, yəni bu cinayətkar ruhun psixologiyası". Sonra o, mövcud faktları anamın rəhmətə getməsindən sonra ardıcıllıqla şərh etməyə başladı. Bir xeyli nankorluğum, nadanlığım haqqında danışdı, sonra səhəri günü çimərliyə getməyimi, sonra bir qadınla komediyaya tamaşa etməyimizi diqqətə çatdırdı. Fernandel. Sonra Mari ilə evdə keçirdiyimiz şən saatlar. Kef-damaq. Nəhayət, nəyisə anladım, tez-tez "məşuqəsi" sözünü təkrarlayırdı, yəqin ki, Marini nəzərdə tuturdu.

Burada mən onu o saat başa düşmədim, çünki o elə hey məşuqə deyirdi, məndən ötrü isə o, Mari idi. Sonra prokuror Raymonla bağlı əhvalata keçdi. Onun bütün dedikləri həqiqətəuyğun səslənirdi. Mən onun məşuqəsini aldadıb tələyə salmaq və bu əxlaqsız subyektin çənginə vermək üçün Raymonla əlbir məktub yazmışam. Raymonu yaralayıblar. Mən tapançanı ondan almışam və silahı işə salmaq üçün geri qayıtmışam. İlk atəşdən sonra gözləmişəm. Sonra isə işi vicdanla başa vurduğuma əmin olmaq üçün tələsmədən, inamla, qabaqcadan düşünülmüş plan əsasında ona daha dörd güllə atmışam.

– Məsələ məhz bu cür olub, cənablar, – prokuror sözünə davam elədi, – mən bu adamı, düşünülmüş, soyuqqanlı qətlə gətirib çıxaran hadisələrin inkişafını bərpa edib sizə təsvir etdim. Təkidlə təkrar edirəm: bu cinayət qərəzlə edilib və affekt, hiddət nəticəsində törədilən adi qətllərə qətiyyən bənzəmir ki, müttəhimə güzəşt olunsun. Sizin qarşınızda, cənablar, tama-

milə şüurlu bir adam durur. Siz onu artıq dinləmisiniz, elə deyilmi? Gördüyünüz kimi, onun ağlı başındadır, suallara cavab verməyi bacarır, hər bir sözünün dəyər-qiymətini bilir və heç cür demək olmaz ki, o nə elədiyini bilmədən hərəkət etmişdir.

Beləliklə, məni şüurlu adam sayırdılar. Lakin mən başa düşə bilmirdim ki, nə üçün adi adamlarda təqdir olunan bir şey müttəhimə qarşı amansız bir dəlilə çevrilməlidir. Bu, məni heyrətə saldığından xeyli müddət prokurora qulas asa bilmədim. Handan-hana onun bu sözləri qulağıma dəydi:

– Heç olmasa, o, peşmançılıq çəkirmi? Zərrəcə də yox. Bütün istintaq müddətində bu adam rəzil cinayətinə görə məyus olduğunu bircə dəfə də deməyib.

O dönüb barmağıyla məni göstərdi və yenidən ittiham etməyə başladı. Əlbəttə, o, müəyyən dərəcədə haqlı idi, çünki mən öz hərəkətim üçün çox da peşman deyildim. Ancaq onun bu cür qəzəb və nifrətlə məni ittiham etməyi çox qəribə idi. Əgər mənə imkan verilsəydi, həvəslə, xeyirxahcasına, dostcasına ona izah etməyə çalışardım ki, mən heç zaman bir şey barədə təəssüf eləməyi bacarmamışam. Məni həmişə irəlidə olan şeylər – bu günün və sabahın işləri məşğul edir. Lakin aydındır ki, səni müttəhimlər kürsüsündə oturdanda artıq heç kimlə bu tərzdə danışa bilməzsən. Mənim daha adamlarla dost kimi danışmağa, öz arzumu bildirməyə ixtiyarım yox idi. Yenə diqqətlə qulaq asmağa çalışdım, çünki prokuror mənim qəlbim barədə mühakimə yürüdürdü.

O deyirdi qəlbimə dərindən, diqqətlə nəzər salıb və qətiyyən bir şey tapa bilməyib, mənim, ümumiyyətlə, qəlbim yoxdur, insanlığa xas olan, insan qəlbini günahlara sipər edən mənəvi prinsiplər mənə tamam yaddır.

– Şübhəsiz ki, – prokuror əlavə elədi, – bunu günah kimi onun ayağına yazmaq olmaz. Onu, sadəcə olaraq,

qazana bilmədiyi keyfiyyətlərin yoxluğuna görə danlamaq da olmaz. Lakin burada, məhkəmədə xeyirxahlıq və mərhəmət daha çətin, daha ali bir insani keyfiyyətlə, məhz ədalət hissi ilə əvəz olunmalıdır. Çünki bu adamın qəlbindəki quru səhranın, uçuruma çevrilib cəmiyyətimizin üzərində yüksəldiyi bütün şeyləri udmaq təhlükəsi var.

Bu yerdə o, anama münasibətim barədə danışmağa başladı. O, əvvəl dediklərini təkrar elədi. Lakin indi mənim cinayətim barədə danışdığından da çox uzunçuluq edirdi. O qədər danışdı ki, axırda mən daha istidən savayı heç nə hiss etmədim. Hər halda, prokuror dayanıb danışığına azca ara verdiyi dəqiqəyə qədər belə oldu, sonra o çox astadan və ürəkdən dedi:

– Cənablar, sabah bu məhkəmədə çox iyrənc bir cinayətə – doğma atasını qətlə yetirən bir caninin işinə baxılacaq. Bu cür cinayəti təsəvvür etmək belə çətindir. O, ümid bəsləməyə cəsarət edir ki, ali insanlıq məhkəməsi cinayətkarı çox sərt cəzalandıracaq. Lakin çəkinmədən deyir ki, hətta həmin dəhşətli cinayət belə məni bunun qəddarlığından daha çox vahiməyə salmır. Çünki onun fikrincə, daşürəkliliyi ilə doğma anasını öldürən adam valideyninə əl qaldıran şəxs kimi özünü insanlıqdan həmişəlik təcrid etmiş olur. Mən əminəm ki, cənablar, – prokuror səsini ucaltdı, – indi müttəhimlər kürsüsündə oturan bu adamın sabah mühakimə edəcəyiniz qətldə də günahı vardır desəm, sözlərimi mübaliğə hesab etməyəcəksiniz – o, bu günahına uyğun cəza almalıdır!

Prokuror tərdən parıldayan üzünü sildi, dedi ki, onun işi əziyyətlidir, lakin bu vəzifəni mətanətlə yerinə yetirəcəkdir. O bilirdi ki, ən mühüm tələblərini qəbul etmədiyim bir cəmiyyətdə mənə yer yoxdur, bir halda ki, insan qəlbinin ən adi hissləri mənə yaddır, o zaman mərhəmət gözləməyə də haqqım yoxdur.

– Mən sizdən cinayətkarın başını tələb edirəm, – dedi, – özü də təmiz vicdanla tələb edirəm. Mən uzun illərdir bu sahədə çalışıram və ölüm hökmü tələb etdiyim birinci dəfə deyil. Lakin hələ heç vaxt borcumun ağırlığından xilas olduğumu indiki qədər aydın hiss etməmişəm. Bu ağırlıq üzünün cizgilərində heç bir insani ləyaqət tapa bilmədiyim bir əcaibi görərkən keçirdiyim dəhşət hissinin və müqəddəs bir zərurətin çox aydın dərk edilməsi ilə yüngülləşib...

Prokuror yerində oturandan sonra ortaya uzun bir sükut çökdü. Mənə gəldikdə isə istidən və heyrətdən başım gicəllənirdi. Sədr öskürüb çox sakitcə soruşdu ki, bir şey əlavə eləmək istəmirəm. Mən qalxdım – danışmaq istəyirdim, bir az rabitəsiz olsa da, dedim ki, əsla ərəbi öldürmək fikrim yox idi. Sədr cavab verdi ki, bu, dəlilsiz sözlərdir, indiyə qədər o, vəkilimin nəyə əsaslandığını çox da aydın başa düşməyib, vəkilimi dinləməzdən əvvəl mənim hansı niyyətlə hərəkət elədiyimi öz dilimdən eşitsəydi, çox şad olardı. Mənasız səsləndiyini bilsəm də, mən tələm-tələsik, həm də çox dolaşıq izah eləməyə başladım ki, hər şey günəşin ucbatından baş vermişdir. Zalda gülüşmə qopdu, vəkilim çiyinlərini çəkdi və həmin saat sözü ona verdilər. Lakin o bildirdi ki, artıq gecdir, onun çıxışı üçün isə bir saat azlıq edir, xahiş etdi ki, nitqi axşam iclasına keçirilsin. Məhkəmə razılıq verdi.

Fasilədən sonra nəhəng ventilyatorlar eləcə əvvəlki kimi məhkəmə zalındakı boğuq havanı qarışdırır, andlı iclasçıların kiçik, rəngbərəng yelpikləri yenə əvvəlki kimi aramla yellənirdi. Mənə elə gəldi ki, vəkilin nitqinin sonu olmayacaq. Buna baxmayaraq, arada bir neçə anlığa ona qulaq asmalı oldum, vəkilim deyirdi:

– Bəli, doğrudur, mən öldürmüşəm.

Söhbət məndən gedirdi, o isə hər dəfə, nədənsə, «mən» deyirdi. Bu, məni çox heyrətləndirirdi. Jandarma

tərəf əyilib soruşdum ki, vəkil niyə belə edir. O, mənə susmağı buyurdu və bir dəqiqə sonra əlavə elədi:

– Vəkillər həmişə belə deyir.

Fikirləşdim ki, bununla mənim özümü məsələdən uzaqlaşdırıb heçə döndərir, müəyyən mənada məni əvəz edirlər. Lakin mən artıq zalda baş verən hadisələrdən çox-çox uzaq idim. Vəkil də mənə çox gülməli gəlirdi. O deyirdi ki, məni tovlayıb bu işi görməyə məcbur etmişlər; sonra da mənim şəxsiyyətim, insanlığım barədə mühakimə yürütməyə başladı. Ancaq zənnimcə, prokuror daha yaxşı danışırdı.

Vəkil dedi:

– Mən də bu adamın ürəyinə nəzər salmışam, lakin möhtərəm prokurorluq nümayəndəsindən fərqli olaraq, orada bəzi şeylər tapmışam və deyə bilərəm ki, bu ürəyi açıq kitab kimi oxuya bilmişəm.

Demə, o, qəlbimi oxuyub görüb ki, mən namuslu, xidmət etdiyim firmanın mənafeyinə sadiq, çalışqan, dost-tanışlarımın sevimlisi, xeyirxah bir adamam. Mən son imkana qədər anamın dayağı olmuşam, ahıllar evinə isə ona görə qoymuşam ki, öz cüzi gəlirimlə yarada bilmədiyim dinclik və rahatlığı orada tapsın.

Vəkil yalnız dəfn barədə bir söz demədi və mən hiss etdim ki, nitqinin bu yerini bilə-bilə boş buraxıb. Ancaq bu uzun ibarələrdən, qəlbimin mahiyyəti haqqında bitib-tükənməyən mühakimələrdən başım hərlənirdi.

Yalnız o yadımdadır ki, vəkilin nitqinin lap axırında qəfildən qulağıma şeypur səsi dəydi – bu, küçə ilə arabasını sürüb gedən dondurmasatan idi.

Bir zamanlar, az da olsa, mənə həqiqi sevinc bəxş edən yayın ətri, xoşladığım küçələr, axşam səmasının rəngləri, Marinin gülüşü, onun geyimi... Çöldən dalğa-dalğa axıb gələn bu xatirələr artıq mənə nəsib olmayacaq bir həyatın nişanələri idi.

Burada, zalda boş, mənasız oturmaqdan ürəyim sıxıldı, bircə şey istəyirdim: tezliklə bütün bunlara son qoyulsun, kameraya qayıdıb yatım. Vəkilimin nitqinin axırında ucadan dediyi «yəqin ki, andlı iclasçılar ani əqli çaşqınlıq ucbatından bədbəxt olmuş namuslu bir zəhmətkeşi ölümə göndərmək istəməzlər» sözlərini güclü eşitdim.

– Qoy andlılar, – o, sözünə davam etdi, – bütün yüngülləşdirici amilləri nəzərə alsınlar, axı mənimçün ən böyük cəza əbədi vicdan əzabı olacaq!

Məhkəmə müşavirəyə çəkildi, vəkil isə heysiz halda stula düşdü. Ancaq bu yerdə həmkarları onu dövrəyə alıb əlini sıxmağa başladılar.

– Əla, əzizim, – deyirdilər ona. Birisi hətta məni şahidliyə çağırdı. – Necə danışdı? – soruşdu.

Təsdiq elədim ki, nitq əla idi, ancaq bunu o qədər də səmimi demədim, çünki bərk yorulmuşdum.

Bayırda yavaş-yavaş qaş qaralırdı, zaldakı bürkü də azalmışdı. Küçədən gələn bəzi səslərdən hiss etdim ki, ora xoş, sərin axşam düşür. Hamımız oturub gözləyirdik. Lakin hamımızın birlikdə gözlədiyimiz şey təkcə mənə aid idi. Yenidən zala baxdım. Hamı birinci gün necəydisə, həmin vəziyyətdə idi – heç nə dəyişməmişdi. Mən bozpencəkli reportyorun və avtomat-qadının baxışlarıyla qarşılaşdım. Birdən ağlıma gəldi ki, bütün proses ərzində bircə dəfə də Mari tərəfə baxmamışam. Onu unutmamışam, yox, sadəcə olaraq, başım bərk qarışıq idi. Baxıb gördüm ki, Mari Raymonla Selestin arasında oturub. O, başıyla mənə işarə elədi, elə bil, deyirdi – axır ki... və gülümsədi, hərçənd ki həyəcan keçirdiyi hiss olunurdu. Lakin daxilimdə hər şey daşa dönmüşdü, hətta cavab olaraq gülümsəyə də bilmədim.

Hakimlər qayıtdılar. Andlı iclasçılara bir sıra suallar oxundu. Hərdən qulağıma “qətldə müqəssirdir”, “təhrik

etmək", "yüngülləşdirici cəhətlər" kimi sözlər dəyirdi. Sonra məni kiçik bir otağa apardılar. Vəkil də ora gəldi. O, ara vermədən çərənləyir, mənimlə olduqca səmimi və mehriban danışırdı. Deyirdi ki, hər şey yaxşı qurtaracaq, mənə bir neçə il həbs və ya katorqa kəsiləcək. Soruşdum ki, məsələ başqa cür olsa, yenidən baxılmasına ümid varmı? Dedi: "Yox". Sonra izah elədi ki, bu cür işin hökmünə bir əsas olmadan yenidən baxıla bilməz. Vəkilin sözləri mənə çox inandırıcı göründü. Əgər dərindən düşünsək, görərik ki, təzədən bu qədər gərəksiz yazı-pozuya baş qoşmağın mənası yoxdur.

Biz xeyli vaxt, yəqin ki, 45 dəqiqəyə qədər gözlədik. Sonra zəng çalındı. Vəkil qapıya tərəf yönəldi. Gedərkən mənə dedi:

– İndi andlı iclasçılar sədri sualların cavabını oxuyacaq, sizi yalnız hökm oxunanda gətirəcəklər.

Haradasa pilləkənlə qaçdılar. Sonra zalda boğuq bir səs eşidildi, nə isə oxunurdu. Yenidən zəng çalındı, məni müttəhimlər kürsüsünə apardılar. Salonda məni qəribə, görünməmiş bir sükut qarşıladı, bu, bir yana, gənc reportyor gözlərini məndən yayındırmağa çalışırdı. Mari tərəfə baxmadım. İmkan tapmadım, çünki sədr təmtəraqlı ibarələrlə dedi ki, fransız xalqının adından meydanda, adamların gözünün qabağında mənim boynum vurulacaq. Mənə elə gəldi ki, hamının üzündən bir ifadə oxunur. Hə, elədir ki var, indi hamı mənə ehtiramla baxırdı. Jandarmlar çox mehriban olmuşdular. Vəkil əlimdən tutdu. Mən daha heç nə barədə düşünmürdüm. Məhkəmənin sədri soruşdu ki, mən daha bir şey əlavə eləmək istəmirəm?

Bir az fikirləşdim və dedim:

– Yox.

Belə olduqda məni salondan apardılar.

## V

Artıq üçüncü dəfəydi həbsxana keşişini qəbul etməkdən imtina edirdim. Ona nə deyəcəkdim ki, bir də ki onunla danışmağa halımmı vardı? Əvvəl-axır onunla üz-üzə gələcəyəm. İndi isə mənim fikrimi ancaq bircə şey məşğul edirdi: bu maşının çəngindən qurtarmaq olmazmı, qaçılmazlığın üstündən atlanmaq olmazmı? Məni başqa bir kameraya köçürdülər. Burada, uzandınmı səma görünür – intəhasız səmadan başqa heç nə. Bütün günü uzanıb baxıram, gözlərimi ayırmadan baxıram, budur, axşam oldu, rənglər qarışdı, gecə gəldi. Uzanıb əllərimi başımın altına daraqlayıram və gözləyirəm. Bilmirəm neçənci dəfə özümdən soruşuram ki, heç olubmu ölüm cəzasına məhkum edilən şəxs insafsız qurğunun altından qaçsın, edama qədər aradan çıxa bilsin, mühafizə zəncirlərini qırsın. Əbəs yerə əvvəllər edam haqqında əhvalatlara diqqət yetirməmişəm. Bu kimi şeylərlə maraqlanmaq lazımdır. Axı nə bilirsən, başına nə vaxt nə gəldiyini. Hamı kimi qəzetləri oxuyurdum. Ancaq görünür, elə xüsusi əsərlər də var ki, heç zaman onlara, gözucu olsa da, nəzər yetirməyi ağlımdan keçirməmişəm. Ola bilsin ki, orada edamdan qaçış haqqında nələrsə var. Ola bilsin, edam təkərinin, heç olmasa, bircə dəfə durub dayandığını öyrənə bilərdim, heç olmasa, bircə dəfə hadisələr cızılan xətt üzrə getməsin. Heç olmasa, bircə dəfə! Düşünürəm ki, hansısa mənada bu, mənə kifayət edərdi. Ürək yerdə qalanını özü düzüb-qoşardı. Qəzetlərdə tez-tez yazırlar: cəmiyyət canidən hesab tələb edir və bu haqq-hesabı ödəmək lazımdır. Ancaq bu hələ heç nə demək deyildir. Vacib olan başqa cəhətdir – amansız taleyin əlindən sivişib çıxmaq, sənin üçün sonsuz ümidlər açan məntiqsiz qaçış. Əslində, təkcə ona ümid eləmək qalırdı ki, səni yolayrıcında yaxalayacaqlar, ya

ölümünə döyəcək, ya da qaçdığın yolda gülləylə vurub yerə sərəcəklər. Ancaq ayıq başla düşünməli olsaq, deyə bilərəm ki, məndə o bəxt haradaydı, hər şey əleyhimə işləyir, bu rəhmsiz maşından qaça bilməyəcəyəm.

Ancaq nə olur-olsun, belə bir həyasız həqiqətlə razılaşa bilmirdim. Ona görə ki, bu həqiqətə güc verən, onu şərtləndirən hökmlə, hökmün elan edildiyi andan sürətlə sənə doğru yaxınlaşan ölüm arasında mənasız bir uçurum vardı. Hökmü axşam səkkizdə oxuyacaqlar, ancaq beşdə də oxuya bilərlər, bəlkə, onun üçün yox, başqa birisi üçün. Gəlib onu kameradan apardılar, bu adamlar adi Allah bəndələri idi, elə hökmü çıxaranlar da. Hökmü qeyri-müəyyən, yəni mücərrəd olaraq fransız xalqının adından oxudular (niyə bəs Çin, yaxud alman xalqının adından yox?) – bütün bunlar həmin hökmü, yaxud qərarı mənaca tam cəfəng bir şeyə çevirir. Ancaq etiraf etməliyəm ki, qərar qəbul edildiyi andan indi bütün bədənimlə sığındığım bu divar kimi onun qüvvəsi getdikcə daha yaxından hiss edilirdi və şəksiz bir şeyə çevrilirdi.

Bu anlar bir zamanlar anamın atam haqqında söylədiyi bir əhvalatı xatırladım. Atamı görməmişdim. Onun haqqında bildiyim yeganə şey anamın danışdığı əhvalat idi: günlərin bir günü qatillərin necə edam edilməsinə baxmağa gedib. Hətta ora getmək haqqında düşünmək ona ağır gəlirdi. Ancaq əsəblərini sıxıb gedib, evə qayıdandan sonra isə səhərə qədər öyüyüb. İndi onu anlayıram, nə qədər təbii bir hiss. Necə olub ki, əvvəllər bilməmişəm – bu dünyada edamdan daha əhəmiyyətli bir şey yoxmuş, yəni müəyyən mənada yalnız bu hadisə diqqət ediləsidir. Haçansa türmədən çıxa bilsəm, həmişə gəlib baxacağam ki, insanları necə edam edirlər. Ancaq bu barədə hədər düşündüm. Düşündümsə, burada ancaq bir niyyət ola bilərdi – təsəvvür edin ki, səhər tezdən oyanırsan, özünü müha-

fizə zəncirinin o tayında görürsən, sən, sadəcə, tamaşaçısan, yəni gəlir, baxır, sonra onu tərs üzünə belə çevirə bilərsən. Bunu düşünər-düşünməz ürəyim sevinclə doldu. Yox, canım, sənin ağlın başında deyil. Özümə gələr-gəlməz məni soyuq tər bürüdü, büzüşüb yorğanın altına girdim. Dişlərimi qıcayır, heç cür özümə gələ bilmirdim.

Aydındır, həmişə, hər an, hər dəqiqə ağıllı olmaq mümkün deyil. Hərdənbir yeni qanunlar düşünüb tapırdım. Yeni cəza sistemini fikirləşirdim. Fikrimcə, məhkum edilmiş şəxslərə, heç olmasa, bircə ümid yeri saxlamaq lazımdır. Qoy mindən biri gətirsin – bəlkə, kifayət edəcək ona? Bəlkə, elə bir dərman kəşf eləmək olar ki, pasiyenti dərhal öldürsün (özümü elə hansısa pasiyentin yerinə qoyurdum). Bircə şərtlə: qoy pasiyent də bunu bilsin. Ona görə ki, ağıllı başla düşündükdə, hər şeyi soyuq məntiqlə çək-çevir etdikdə anladım ki, bunlar gilyotindən yaxşıdır. O heç bir ümid yeri qoymur, hər şeyi anidən kəsib doğrayır. Pasiyentin ölümü ilk dəqiqədən qəti olaraq həll edilib. Geri qayıdışdan söz gedə bilməz. Üstəlik, tam cəfəngiyat! Üzünə hökm oxunan insan özü maşının dayanmadan işləməsini arzulayır, başqa heç nə edə bilmir. Dedim ki, bu, qüsurdur. Bu, hansı anlamdasa, doğrudan da, belədir. Ancaq başqa tərəfdən etiraf etməmək olmaz ki, mükəmməl düzülüb-qoşulan işin bütün sirri elə buradadır. Məhkum edilmiş şəxs sövq-təbii onu edam edəcək insanlarla həmrəy olur. Hər şeyin tez və ildırım sürəti ilə baş verməsi onu qane edir.

Üstəlik, bunu da etiraf etməliyəm ki, əvvəllər bütün bu məsələlər haqqında təsəvvürüm necə də yanlış olub. Bildiyimə görə, gilyotin eşafot üzərində yerləşir və ora pilləkənlə qalxmalısan. Görünür, bunun himi 1789-cu il inqilabı ilə qoyulub, – orta məktəbdə mənə belə öyrətmişdilər, şəkillərdə də eynən beləcə təsvir

edilmişdi. Amma günlərin bir günü edam haqqında qəzetlərin birində dərc edilən yazı yadıma düşdü. Gilyotin dayaqlar üzərində deyil, yerdəcə qurulmuşdu. Şəkildəki mexanizm öz mükəmməlliyi ilə adamı heyrətə salır, tüklərin biz-biz olur. Adətdir, insan bilmədiyi şeyi şişirdər, indisə gözlərimlə görürəm ki, hər şey nə qədər sadə imiş: qurğu ona doğru addımlayan insanla bir boyda qurulur. Ona küçədə rastlaşdığın tanışın kimi yaxınlaşırsan. Əlbəttə, haradasa bu bayağılıq səni dilxor etməyə bilməz, çünki eşafota qalxıb tamaşaçıları ayağının altında görmək hara, bu hara? Bu halda isə sırf mexanika səni ölümcülcəsinə ruhdan salır, səni xıncım-xıncım əzir, ancaq necə, utana-utana, bir az vasvasılıqla, bir az ifrata çalan səliqə ilə. Birdən boynun büküşünə dəyər.

Çarpayıda uzanıb gözümü göyə zilləmişdim, fikrimi cəmləşdirməyə çalışırdım. Artıq axşam düşür, şər qarışırdı. Çalışırdım tamam ayrı məsələlər haqqında fikirləşim. Yaxşı fürsət idi – ürəyimin döyüntüsünü dinləyirdim. Aman Allah, həmişə hiss etdiyim, indi isə saniyəbəsaniyə dinlədiyim bu döyüntü bir gün xırp kəsiləcək. Həmin an bu döyüntü son dəfə gicgahlarımda çarpacaq. Nə qədər çalışsam da, ölüm fikrini özümdən uzaqlaşdıra bilmədim. Qərara gəldim ki, əl-qolumu yana salıb bu düşüncələrə təslim olum.

Onlar sübh tezdən gələcəklər, bunu bilirdim, öz adım kimi. Gecələri səbirsizliklə gözləyirdim, kirpik qırpmırdım. Xoşlamıram ki, məni qəfil yaxalasınlar. Baş verəcək hadisələrə özümü hazırlamaq istəyirdim. Ona görə gündüzlər yatır, gecələr isə səmanın qızılı rəngə boyanmasını gözləyirdim. Ən çətini də bu idi – onların işə başladıqları mübhəm anı hər şeydən dəqiq bilirdim. Heç ağlıma gəlməzdi ki, sakitlikdə bu qədər müxtəlif səslər olarmış. Qulaqlarım ən eşidilməz səsin xışıltısını belə duyurdu, bəxtim gətirmişdi, gün ərzində məni

dəhşətə gətirəcək addım səslərini eşitmədim. Anam həmişə deyərdi ki, insan tam bədbəxt olmur. Kamerada uzandığım vəziyyətdə görəndə ki səma qırmızıya boyanır və üstümə sübh şəfəqləri çilənməyə başlayır, anamın haqlı olduğunu anlayırdım. Həmin dəqiqələrdə bircə addım səsi ürəyimi partlada bilərdi. Adi xışıltı eşidəndə belə özümü qapıya sarı atır, üzümü qapının taxtasına söykəyib don vurmuş adam kimi gözləyirdim. Axırda, bəlkə, ürəyimin dərinliklərindən gələn səsə – boğulan köpəyin xırıltılı nəfəsi kimi öz səsimə oyanırdım və Allaha şükür edirdim ki, daha 24 saat qazandım.

Bütün günü əfv ərizəsi haqqında düşünürdüm. Bu məsələdə mənim xeyrimə nə vardısa, götür-qoy eləmişdim. Adi, ilk baxışdan əhəmiyyətsiz görünən şeyləri də nəzərdən qaçırmamışdım, hər şeyi düşünmüşdüm. Əvvəl-əvvəl ən bəd, ən amansız ehtimallardan başlayırdım. Deyək ki, ərizə yazdın, amma rədd etdilər. Deməli, ölüm labüddür. Şübhəsiz ki, başqa insanlardan bir qədər tez. Nə yazıq ki, otuz yaşında ölməklə yetmiş yaşında getmək arasında əsaslı bir fərq yoxdur. Nə qədər, necə yaşayırsan yaşa, səndən sonra da kişilər və qadınlar yaşayacaq və onlara həsəd aparmaq mənasızlıqdır. Hər şey nə qədər sadə və dəhşətlidir. İndi, yaxud iyirmi ildən sonra – ölmək ölməkdir. Ancaq bir şey vardı ki, məni yaman xoflandırırdı: elə ki düşünürdüm ki, daha iyirmi il ömür sürmək olar, qəlbimi hədsiz həyəcan bürüyürdü. Əlac bu hissi boğmağa idi. Özümü inandırmalıyam ki, onsuz da, iyirmi ildən sonra bu məşəqqəti yaşamalı olacağam. Gün kimi aydındır ki, ölümə çarə yoxdur, ona görə də nə zaman və harada ölməyin fərqi yoxdur. Yəni, qardaş, əfv xahişinin rədd edilməsi ilə bəri başdan barışmalısan.

Ancaq burada, məhz bu məqamda, necə deyim, hansı dərəcədəsə xəyalımda başqa bir versiyaya yol,

cığır açıldı: məni əfv edəcəklər! Ancaq adama ağır gəlir ki, canında və qanında şiddətlə dövr edən qəzəbin, adamın ağlını başından alan sevincin qarşısını aldın. Bu daxili kükrəyişin ağzını, necə deyərlər, soyuq ağlınla qapamalı idin. Belə bir imkan, yaxud versiyaya da, bir növ, alışmalısan, onu özün üçün həqiqətə çevirməlisən. O dərəcədə ki onun qarşısında boynun asanca bükülsün. İnsan taleyinə boyun əyməli. Bunu özümə aşılaya bildikdə, nəhayət, canım sakitləşdi.

Məhz elə bu məqamda həbsxana keşişini qəbul etməkdən bir daha imtina etdim. Çarpayıda uzanıb göy üzünün necə qaraldığını müşahidə edirdim. Elə indicə əfv ərizəmdən vaz keçdim və damarlarımda qanın necə sakit axdığını bütün varlığımla hiss etdim. Keşişi niyə görməli idim ki? İlk dəfə, bəli, üstündən bu qədər vaxt keçdikdən sonra ilk dəfə idi ki, Mari haqqında düşündüm. Artıq çoxdan idi mənə yazmırdı. Həmin axşam, düşündüm ki, bəlkə, ölüm hökmü kəsilmiş bir adamın sevgilisi olmaqdan bezmişdi. Başqa vaqiələr də baş verə bilərdi – xəstələnib və ölüb. Ola bilər. Nə baş verdiyini haradan bilə bilərdim, indi sevgili deyilik, ayrılmışıq, artıq bizi heç nə bir-birimizə bağlamır. Amma Mari ölmüş olsaydı, xatirəsini sakitcə anırdım indi. Ölsəydi, qəti yadıma düşməzdi. Bu, son dərəcə təbiidir, çünki vaxt gələcək, ölən günü məni də unudacaqlar. Heç kəsin yadına düşməyəcəyəm. Dünyada elə bir fikir yoxdur ki, insan əvvəl-axır ona öyrəşməsin.

Elə bu vaxt keşiş içəri girdi. Onu gördüyüm anda bədənimdən ani gizilti keçdi. O, bunu sezdi və mənə dedi ki, qorxub-eləməyim. Dedim ki, adətən, indilərdə yox, günün başqa saatında gəlməli idi. Cavabında dedi ki, bu, dostcasına gəlişdir, mənim əfv ərizəmlə qəti əlaqəsi yoxdur. Çarpayımın üstündə bir az oturdu və məni yanına çağırdı. İmtina etdim. Ancaq sifətində xeyirxahlıqdan özgə bir nişanə yox idi.

Bir müddət oturduğu yerdə, əllərini dizlərinə söykəmiş halda qaldı. Başını aşağı salıb əllərinə baxırdı. Onlar arıq və əzələli idi, mənə iki quduz heyvanı xatırladırdı. Əllərini sakitcə bir-birinə sürtürdü. Bir müddət dinməz-söyləməz, başıaşağı vəziyyətdə qaldı, ani sükut o qədər uzandı ki, onun buradakı varlığını belə unutdum.

Ancaq qəfildən başını dimdik qaldırdı və düz üzümə baxdı: "Mənimlə görüşdən niyə imtina edirdiniz?" – soruşdu. Dedim ki, Allaha inanmıram. Buna nə qədər əmin olduğumu soruşdu, dedim ki, özümdən bunu heç zaman soruşmamışam, mənim üçün bu, əhəmiyyətsiz sualdır. Birdən arxaya çevrildi, divara söykəndi. Öz-özünə söyləndi ki, bəzən insanlara elə gəlir nəyəsə əmindirlər, ancaq həqiqətdə məsələ başqa cürdür. Susdum. Üzümə baxıb soruşdu:

– Siz nə düşünürsünüz?

Dedim, hər şey ola bilər. Ola bilər ki, indi nəyin dərdini çəkdiyimi heç özüm də bilmirəm. Ancaq nəyin məni heç maraqlandırmadığını, əlbəttə, dəqiq bilirəm. Bax nə deyir desin, məni zərrə qədər də maraqlandırmır.

Gözlərini üzümdən çəkdi, duruşunu dəyişmədən soruşdu ki, görünür, dərd güc gəldiyindəndir belə danışıram. İzah etdim ki, eynimə də deyil. Qorxmağına qorxuram, bu isə tam təbiidir.

– Tanrı yardımçınız olsun, – dedi. – Sizin vəziyyətinizdə rastıma çıxan bütün insanlar Tanrıya pənah aparıb.

Dedim ki, nə olar, bu, onların halal haqqıdır. Bundan başqa, bunun üçün bolluca vaxtları olub. Ancaq mən istəmirəm ki, kimsə əlimdən tutub mənə yardım etsin, maraqsız şeylərə vaxtımı itirmək istəməzdim.

Bu anda əlləri azca əsən kimi oldu, ancaq tez özünü ələ aldı və cübbəsinin qatlarını düzəltməyə başladı. Sonra dili yenə açıldı, mənə "dostum" deyə səslənməyə başladı. O, dediyinə görə, mənimlə bu tərzdə

ölüm hökmünə məhkum edilməyimə görə davranmırdı – axı mahiyyətcə biz hamımız ölümə məhkumuq. Sözünü ağzında qoydum: "Siz bunları bir-birinə qarışdırırsınız, elə deyil, sizin dediyiniz adamı sakitləşdirməyə kifayət etmir! O mənada ki, bu qupquru sözlər yalnız insanı sakitləşdirmək məqsədi güdür, başqa heç nəyə yaramır!" "Əlbəttə", – o razılaşdı. Bu gün ölməsəniz, gec öləcəksiniz. Vaxtı gələndə həmin əlahəzrət sual yenə qarşınızda duracaq. Bu dəhşətli imtahana necə baxırsınız?" Cavab verdim ki, indi necə baxıramsa, onda da elə baxacağam.

Bu sözü eşidən kimi qalxdı, düz gözlərimin içinə baxdı. Bu, mənim yaxşı bələd olduğum bir oyun idi. Bəzən Emmanuel, yaxud Selestlə məzələnir və bir qayda olaraq, gözlərini məndən yayındırırdılar. Keşiş də bu oyunun ustası idi, bunu o saat anladım. Baxışları titrəmirdi. Bu sözləri mənə deyəndə də səsi zərrə qədər titrəmədi: "Deməк, heç bir ümidiniz yoxdur və öldükdən sonra itib-batacağınıza əminsiniz?"

– Bəli, – dedim.

Başını aşağı saldı və oturdu. "Təəssüf" – dedi, hesab edirdi ki, mənim kimi bir insana dözmək çətin məsələdir.

Mən isə hiss edirdim ki, darıxıram, bu adam məni bezdirir. Mən də arxamı ona çevirdim və pəncərəyə sarı addımladım. Çiynimi divara söykədim. Arxam ona sarı olsa da, hiss edirdim ki, məni sorğu-suala başlayır. Becid və narahat tərzdə danışırdı. Həyəcanlandığını hiss etdim. İndi hər kəlməsini aydın eşidirdim.

Deyirdi: "Ürəyimə damıb ki, sizin əfv ərizənizi qəbul edəcəklər, ancaq çiynimdə elə bu dəqiqə xilas olmalı olduğum ağır yük var – günah". Onun fikrincə, insanların ədaləti heç nə, Tanrının ədaləti hər şeydir. Məni mühakimə edən birinci adam olduğunu anladım. Sualımı üzümdən oxudu, cavab verdi ki, yox, əksinə, səni günahlardan təmizləyirəm. Ona dedim ki, axı güna-

hın nə demək olduğunu belə bilmirəm. Mənə, sadəcə, öyrədiblər ki, bütün hallarda günahkaram. Günahkar olduğum üçün cəzamı çəkirəm, məndən kiminsə nəsə soruşmağa haqqı yoxdur. Bu anda yenidən ayağa qalxdı, düşündüm ki, bu hücrə o qədər dardır, hirslənib var-gəl edə bilməzsən. Ancaq oturub-dura bilərsən.

Gözlərimi yerə dikdim. Mənə doğru bir addım atdı və dayandı, elə bil, irəli getməyə cürət eləmirdi. Barmaqlıqların arasından görünən göy üzünə baxırdı. "Səhv edirsiniz, övladım, – dedi, – sizdən soruşmalı çox şey var, olsun ki, bunu sizdən soruşsunlar".

– Nəyi soruşacaqlar?

– Baxıb görməyi.

– Kimi?

Keşiş yan-yörəsinə diqqətlə baxdı və çox yorğun bir səslə mənim sualıma cavab verdi: "Bütün bu daşlar dərddən yoğrulub, bunu dəqiq bilirəm. Heç olmayıb ki, onlara baxdıqda ürəyimi qüssə sıxmasın. Ancaq ürəyimin dərinliyindən gələn səs deyir ki, sizin aranızda ən bədbəxt insan günlərin bir günü bu dərdli divarın qəlbindən ilahi simanın və nurun boylandığını görüb. Sizə bu çöhrəni görəcəyinizi söylədim".

Bir az canlandım. Dedim ki, gözlərimi bu daşlara dikdiyim vaxtdan gör neçə ay keçib. Bu daşları, bu divarı elə öyrəndim ki, dünyada heç nəyi, heç kəsi belə yaxından tanımaq şansım olmadı. Ola bilər ki, lap uzun zamanlardan bəri orada bir nurlu çöhrə axtarmışdım. Ancaq bu çöhrədə günəşin rəngi və ehtirasların alovu vardı: Marinin çöhrəsi. Onu nahaq zəhmət çəkib axtarmışdım və istənilən halda bu daşlardan süzülən qanlı xatirələrin içində heç nə görə bilmədim.

Keşiş qüssəli baxışları ilə məni süzdü. Belimi divara söykəmişdim və günəş alnımdan süzülürdü. Nəsə dedi, ancaq eşidə bilmədim və tələsik soruşdu ki, məni qucaqlaya bilərmi? "Yox", – dedim. Döndü, divara sarı

addımladı, əli ilə divarı yoxladı. “Bu dünyanı yəni bu qədər çox sevirsiniz?” Heç nə demədim.

Uzun müddət arxası mənə sarı dayandı. Varlığı məni əzirdi. Çıxıb getməyini, məni dərdimlə baş-başa buraxmağını xahiş edəcəkdim ki, cəld döndü, var səsi ilə qışqırdı: “Sizə inanmıram. Əminəm ki, ürəyinizdən başqa bir həyat xülyası keçməmiş deyildir”. Cavab verdim ki, bu, təbiidir, ancaq bu daha zəngin olmaq, daha sürətlə üzmək və incə ağıza malik olmağı arzulamaqdan daha vacib deyil. Eyni şeydir. Ancaq danışmağa imkan vermədi, cəld soruşdu ki, həmin o başqa həyatı necə təsəvvür edirəm? İndi mən qışqırdım: “Burada olanları xatırlaya biləcəyim bir dünya – və tez əlavə etdim – Bu həyatdan bezmişəm”. Mənə yenə Tanrıdan danışmaq istədi, cəld irəli şığıdım, izah eləməyə çalışdım ki, əl çək, vaxtım az qalıb. Bunu Tanrıya sərf eləmək istəməzdim. Söhbətin mövzusunu dəyişməyə cəhd göstərərək soruşdu ki, nə üçün ona “ata” deyil, “cənab” deyə müraciət edirəm. Bu söz məni əsəbiləşdirdi və çünki “atam deyilsiniz” dedim.

“Yox, övladım, – əlini çiynimə qoyaraq dedi. – Mən sizinləyəm. Ancaq siz bunu bilə bilməzsiniz, çünki ürəyiniz kordur. Sizin üçün dua edəcəyəm”.

Bilmirəm nə baş verirdi, ancaq içimdən nəyinsə yavaş-yavaş qaynadığını hiss edirdim. Var səsimlə bağırmağa başladım, onu söydüm və mənim üçün dua etməyi qadağan etdim. Cübbəsinin yaxasından yapışdım. Ürəyimdə qəzəblə sevinc bir-birinə elə qarışmışdı ki, nə dediyimi belə bilmirdim, ürəyimin dərinliyinə açılan yoldan gələn hər nə vardısa onun üstünə daşdanırdı. Bax gör, necə də təmkinlidir. Ancaq onun bu təmkini bircə qadın telinə dəyməzdi. Hətta həyatda olduğunu, yaşadığını belə hiss edə bilməzdi, çünki bu ömrü canlı meyit kimi yaşayırdı. Əllərimin bomboş olduğunu hiss edirdim. Ancaq özümə inanırdım, onu

görürdüm, hər bir cizgisini aydınca hiss edirdim, yaşadığım həyatı bilirdim və ən əsası – mənə doğru addımlayan ölümün ayaq səslərini eşidirdim. Mənə təkcə bu qalmışdı, hər şey əlimdən qəfil sürüşüb çıxmışdı. Ancaq mənim əlimdə güvənəcəyim bircə bu qalmışdı. Mən haqlı idim, həmişə olduğu kimi. Dünyaya gəldim, bu ömrü belə yaşadım, istəsəydim, başqa cür yaşayardım. Bunu götürdüm, onu qoydum, bunu etdim, onu etmədim, bəs sonra, nə olsun? Demək, əslində, həmişə elə bu anı gözləmişəm.

Dünyada heç nəyin əhəmiyyəti yoxdur və mən bilirəm nə üçün. O da bilir. Bir azdan ölüm təşrif gətirəcək və mənim həqiqətim sona yetəcək. Özgələrinin ölümündən, ana məhəbbətindən, onun Tanrısından mənə nə? Bax burada – mənim alnımda bircə tale yazılıb və indi ondan, onun kimi özlərini mənim qardaşım adlandıran milyardlarla insandan mənə nə? Bütün bunları bilirmi, görəsən?

Əslində, Yer kürəsində yaşayan bütün insanlar seçilmişlərdir. Başqaları mövcud deyillər. Gec-tez bu kəndir hamının boynuna salınacaq. Onun özünün də. Dünən qətldə ittiham edilən adam bu gün anasının dəfnində göz yaşı tökmədiyi üçün edam olunur. Məgər bunun elə bir fərqi varmı? Qoca Salamanonun köpəyinin dəyəri arvadından nə az, nə çoxdur. Bambalaca robot qadının günahı Mersonun almaq istədiyi Marinin təqsirinə təndir. Ay Allah, fərqi varmı ki, təksə Selest yox, ondan qat-qat murdar olan Raymon da dostum idi. Mari bu gün qönçə dodaqlarını başqa bir Mersoya uzatmış olsa, bunun, siz deyin, bir elə fərqi olacaqmı? O məhkum anlayırmı ki, gələcəyimin dərinliklərindən... Mən bütün bunları qışqıraraq dedim, nifrət və sevincin qarışıq dalğaları mənə artıq boy vermirdi. Nəzarətçilər keşişi zorla əlimdən aldılar. Sonra məni hədələdilər. Keşiş yenə də təmkinini pozmadan onları sakitləşdirirdi.

Bircə dəqiqə lal-dinməz mənə baxdı. Gözlərindən yaş süzüldü. Sonra çevrilib cəld getdi.

Qapıdan çıxan kimi sakitləşdim, elə bil, heç nə olmamışdı. Ancaq birdən üzüldüyümü hiss etdim və tirtap çarpayının üstünə sərildim. Görünür, dərin yuxuya getmişdim, çünki oyandıqda üzümdə ulduzların həlim işığını hiss etdim. Çöldən gələn səsləri aydınca eşidirdim. Sərin gecənin, torpağın və dənizin mehi gicgahlarımı oxşayırdı. Mürgülü yayın möcüzəli sakitliyi axın kimi içimə dolurdu. Birdən gecənin zülmətində, zülmətlə aydınlığın hər gün görüşdüyü yerdə fit səsləri eşidildi. Bu səslər indi mənim gözümdə mənasını tamamilə itirmiş bir dünyaya yola düşməyin simvolu idi. Uzun illər boyunca ilk dəfə anamı xatırladım. İndi anladım ki, nə üçün yaşadığı ömrün lap qurtaracağında özünə bir nişanlı tapmışdı, niyə ömrə təzədən başlamaq oyununu oynayırmış. Orada – bəli dibinə qədər yanmış şam kimi sönən ömürlərin keçdiyi qocalar evində gecənin düşməsi nəfəs alıb-verməyə, haradasa, bəlkə də, fasiləyə, möhlətə bənzəyirdi. Əgər ölümün düz qonşuluğunda anam özünü azad hiss edirdisə və yenidən yaşamaq istəyirdisə, demək... Demək, heç kəsin onun üstündə ağlamaq haqqı yoxdur. İndi mən də hər şeyi təzədən başlamaq istədim. Elə bil ki, qarşısıalınmaz qəzəb canımı ağrı-acıdan xilas etdi, ümidlərim su kimi axıb getdi, göy üzünün bir belə sehrli əlamət və ulduzlardan aşıb-daşdığı bu gecədə yaxamı dünyanın laqeydliyinə açdım. Necə də mənə oxşayırdı, elə bil, qardaşım idi və belə olduğu üçün hiss edirdim ki, xoşbəxt olmuşam, elə indi də xoşbəxtəm. Hər şeyin başa çatması üçün, tənhalıqdan zərrə qədər də əzab çəkməmək naminə ancaq bunu arzulamaq qalır: qoy edam ediləcəyim gün tamaşaçı çox olsun, iynə atsan, yerə düşməsin və qoy hamı məni dişlərini qıcırdaraq sonsuz qəzəblə qarşılasın.

# QONAQ

## (*hekayə*)

Müəllim bayaqdan məktəbə sarı gələn iki nəfəri izləyirdi. Biri atlı, o birisi piyada idi. Onlar hələ dik, sıldırım yola çatmamışdılar. Bu yol təpənin böyründə ucalan məktəbə sarı uzanırdı. Onlar ucu-bucağı görünməyən kimsəsiz yaylanın daşlı yolunda qara bata-bata, min bir əziyyətə qatlaşıb üzü məktəbə gəlməkdəydilər. Atın hərdənbir səndələməsi də açıq-aydın sezilirdi. Buradan baxanda onun burnundan qalxan buğ açıqca görünürdü. Atlının bu yolların cikinə-bikinə bələd olmasına heç bir şübhə yeri qalmırdı. Bəzən günlərlə yağan qarın altında qalan cığırı tapır və irəliləyirdilər. Müəllimin hesabına görə, saatyarımlıq yol qət etmişdilər. Hava çox soyuq idi. O, sinfə keçib toxunma köynəyini geyinməyə tələsdi.

Sinif otağı boş və çox soyuq idi. Üç gün əvvəl rəngli tabaşirlərlə yazı taxtasına çəkilmiş RONA, QARON, LUARA və SENA çayları mənsəblərinə doğru axırdı. Qar qəfildən, oktyabrın ortalarında yağmışdı. Səkkiz ay çəkən quraqlıqdan sonra... Onsuz da, əvvəlki güclü yağışlar bənd-bərəni bağlamış, yamaca səpələnmiş kəndlərdəki iyirmiyə yaxın uşağın məktəb yolunu birdəfəlik kəsmişdi. Əlac havanın açılmağına qalırdı... Darü yalnız dərs otağına bitişik, qapısı gündoğana açılan otaqda ocaq qalayırdı. Bu otağın da pəncərəsi cənuba baxırdı. Dünyanın gözəl vaxtı – havalar xoş keçəndə buradan görünən dağların sinəsini başdan-başa bürüyən bənövşə topaları göz oxşayırdı.

Bir az qızındıqdan sonra pəncərəyə boylandı. Həmin iki nəfər görünmürdü, deməк, yolun sıldırım hissəsini artıq haqlamış olardılar. Göyün üzü azca, iynə ucu boyda açılmışdı. Qar elə gecədən kəsən idi. Günorta saat ikidə adama elə gəlirdi ki, səhər indicə açılıb. Amma hər halda, bu, üç gün ara vermədən yağan qardan daha yaxşı idi və bir yandan da zəhrimara qalmış külək. Dəliliyi tutubmuş kimi hərdən elə əsirdi ki, sinfin qapıları taybatay açılırdı. Biçarə Darü isə saatlarla otağına qapanıb qalır, canını dişinə tutub birtəhər dözürdü. Arabir toyuqların və kömür ehtiyatlarının saxlandığı çardağa baş çəkirdi.

Nə yaxşı ki, yaxın kənddə yaşayan Tabjid bu müsibətdən ikicə gün əvvəl bir araba azuqə gətirmişdi. O arabanın bir də bu yerlərə dönməyi iki gün, iki gecə sonranın söhbəti idi.

Amma (buna heç bir şübhə ola bilməzdi) təbiətin bu amansız şıltaqlığına tab gətirə biləcəkdilər. Sinif otağına üst-üstə qalanmış taxıl kisələri ailələri quraqlığın qurbanı olmuş uşaqların yeganə ümid payı idi. Əslinə qalsa, hamı bir kökdə idi: ac-yalavac və bədbəxt. Darü üst-başlarından yoxsulluq yağan bu uşaqlara hər gün taxıl paylayırdı. Bu miskin pay ümidsiz günlərin yeganə ümidi idi. Nə bilmək olar, bəlkə, elə bu axşam kiminsə atası, ya da böyük qardaşı qara, tufana baxmayıb gələcək. Axı hamının gözü keçən ilin məhsuluna dikilib: pis-yaxşı hamını təmin etmək lazımdır. Amma hər halda, ən dəhşətli günlər arxada qalmışdı. İndi, heç olmasa, hərdən Fransadan gələn taxıl gəmiləri bura yan alırdı. Yox, heç ola bilməz ki, keçənilki səfalət yaddan çıxa. İl üstünə il gələcək, təpədən-dırnağa cır-cındır içərisində olanların keçirdiyi ümidsiz günlər – torpağın cadar-cadar olub, sonra da büsbütün qovrularaq külə çevrilməsi dönə-dönə xatırlanacaqdı. Ayaqlar altında qalmağıyla əzilib toza dönən daşlar da,

minlərlə qoyunun bir günün güdazına getməsi də unudulmayacaqdı.

Gözdən-qulaqdan uzaq məktəbdə o, bir növ, rahib kimi yaşayır, gündəlik su və çörək payına qane olur, özünü divarları suvaqlı otağın ağası hesab eləyirdi. Və... Yağışlar kəsməmiş qəfil yağan qar... Neyləmək olardı, buralarda amansız həyat qanunları hökm sürürdü. Amma Darü burada doğulmuş, burada da ölməliydi. Özgə yerdə özünü sürgündəki kimi hiss edər, bir gün də duruş gətirə bilməzdi.

Otağından çıxıb məktəbin qabağındakı kiçik meydançaya düşdü. İndi bayaqkı o iki nəfər yamacı enməkdə idi. Atlını tanıdı: köhnə jandarm işçisi Baldüksi idi. Baldüksinin əlindəki kəndirin o biri ucuna bağlanmış adam başını salıb atın arxasınca irəliləyirdi.

Jandarm başıyla müəllimə salam verdi. Darününsə fikri-zikri səndəlli ayağına kobud iplikdən toxunmuş corab geymiş, başına ensiz və qısa şərfdən çalma bağlamış ərəbdə idi. Onlar yaxınlaşırdılar.

Bir az da qabağa gəlib Baldüksi qışqırdı: "Əl-Əmirə buradan birsaatlıq yol qalır". Darününsə, elə bil, heç eyninə deyildi. Ünvanına deyilən sözlərə məhəl qoymayıb sakitcə onlara baxmağında idi. Ərəb gözlərini necə yerə dikmişdisə, eləcə də durmuşdu. Birdən Darünün, elə bil, dili açıldı:

– Salam, gəlin bir az qızının, – dedi.

Kəndiri əlindən buraxmayan Baldüksi çətinliklə yerə düşdü. Biz-biz duran bığlarının altından Darüyə baxıb gülümsədi. Gündən yanmış alnının altındakı çuxura düşmüş gözləri və qırışlarla dövrələnmiş ağzı ona hər şeyə diqqət yetirən ayıq-sayıq adam görkəmi verirdi. Darü atın cilovundan yapışıb çardağın altına apardı və tez də geri döndü. Onları öz otağınadək müşayiət edib dedi: «Sinfi də qızdırsam, pis olmaz. Orada rahatlana bilərsiniz». Otağa qayıdanda Baldüksini

divana yayxanan gördü. Kəndiri öz əlindən açmışdı. Ərəbsə əlləri bağlı halda sobanın qabağında çömbəlmə oturmuşdu. Pəncərədən uzaqlara baxırdı. Çalması azca arxaya sürüşmüşdü. Darü onu başdan-ayağadək süzdü; qalın, həbəşi dodaqları necə də ətli idi. Odlu gözlərinin altı qapqara idi. Çalması arxaya sürüşdüyündən yanıb-qaralmış, bir az şaxtanın solğunlaşdırdığı qabarıq alnı nəzərə çarpırdı. Ərəb başını qaldırıb Darünün düz gözlərinin içinə baxanda üzündəki qəzəb müəllimə qəribə gəldi. Müəllim ona:

– Bir az aralı dur, – dedi, – nanəli çay qoyacağam.

– Çox sağ ol, – Baldüksi sözə başladı. – Günümü görürsən də... Yaxşı ki, təqaüdə çıxmağıma lap az qalır.

Sonra üzünü ərəbə çevirdi: “Bir az yaxın otur” – dedi. Darü çayla bərabər stul da gətirmişdi. Baldüksi artıq qabaq partada yerini tutmuşdu. Ərəb yenə də yazı stoluyla pəncərə arasında, sobanın qabağında çömbəlmə oturmuşdu. Dustağa çay dolu stəkanı uzadanda bağlı əllərini görüb karıxdı.

– Bəlkə, açaq?

– Olar, indi açmaq olar, – Baldüksi mızıldandı. – Bu ancaq yol üçün idi.

O, özünü elə göstərdi ki, guya, qalxmaq istəyir. Darü isə stəkanı yerə qoyub ərəbin qənşərində dizini qatladı. Ərəb ağzına su alıb durur, qızarmış gözlərini ondan ayırmaq istəmirdi. Sonra əllərinin açıq olması, elə bil, birdən yadına düşübmüş kimi soyuqdan qızarmış biləklərini ovuşdurmağa başladı. Stəkanı ehmalca ovucları arasına aldı, qaynar çayı hortuldada-hortuldada içməyə başladı.

– Yaxşı, bəs demədiniz, haradan gəlib, hara gedirsiniz?

Baldüksi bığlarını çaydan ayırdı.

– Mən əl-Əmirə qayıtmalıyam. Sənsə bu cənabı Tinqitə çatdırmalısan. Orada sizi gözləyəcəklər.

Baldüksi qımışa-qımışa Darüyə baxırdı.

– Nə danışırsan, deyəsən, məni axmaq yerinə qoyursan, hə?

– Yox, əşi, məsələ ayrı cürdür. Bu, əmrdir!

– Oturmuşuq görək, nə əmr-filan?

Darü ani tərəddüd keçirdi. Qoca korsikalını pərt eləməyin yeri deyildi. Necə də olsa, yaşlıydı axı.

– Yox, bunun mənə heç dəxli yoxdur.

– Bəs onda kimin işidir? Müharibə gedəndə hər işi bacarmaq gərəkdir.

– Sözündən belə çıxır ki, oturub gözləyim, haçan müharibə elan ediləcək, eləmi?

Baldüksi onun sözlərini başının hərəkətiylə təsdiqlədi.

– Çox şükür, axır ki, başa düşdün. Camaat bu saat təşviş içindədir. Söhbət, bilirsən də, keçəndəfəki qiyamdan gedir. Bir də nə tez unutdun, ikimiz də axı bir məqsədin quluyuq.

Darü isə inadından dönmürdü ki, dönmürdü.

– Oğul, qulaq as, – Baldüksi dedi, – bilirsən də, səni necə sevirəm. Məsələ belədir, əl-Əmirdəki dəstəmizin on iki üzvüylə birlikdə kiçik bir ərazini nəzarətdə saxlayırıq. İndi mən vaxtı itirmədən geri qayıtmalıyam. Razılaşmışıq ki, bu tipi sənə tapşırandan sonra cəld ora dönüm. Həyəcana gələn kənd arı pətəyi kimi qaynaşır. Özümlə aparsam, orada ələ keçə bilər. Elə günü sabah sən onu dediyim yerə çatdırmalısan. Paho, iyirmi kilometr gözünə çox görünür? Sənin elə yalançı pəhləvanlığın varmış.

Divarın o biri üzündən at fınxırtısı və təpik səsləri eşidilməyə başladı. Bu an Darü fikirli-fikirli pəncərədən ağappaq çöllərə baxırdı. “Hə, demək, bu şaxtanın da şaxı sınarmış...” – fikirləşdi.

Qızılı şüalar bəmbəyaz qarın üzərinə düşüb bərq vururdu. “Gün gələr, günəş gülümsər çöhrəsiylə bizim

göylərin yeganə hakimi olar, daşlı-çınqıllı torpağı bir də yandırıb-yaxar... Və onda o günəş öz işığını daşı, torpağı, otu, ağacıyla ancaq tənhalıqdan xəbər verən yayladan da əsirgəməz".

Darü üzünü Baldüksiyə tutub onun nə etdiyini soruşdu.

Baldüksi cavab verməyə macal tapmamışdı ki, o, bir də soruşdu:

– Bəs demədin axı, nə günahın sahibidir, neyləyib? Fransızca danışa bilirmi?

– Heç bir söz də bilmir. Bir ay axtarışdan sonra əlimizə keçib. Gizlətmişdilər onu. Öz yaxın qohumunu – əmisi oğlunu öldürüb.

– Bəlkə, bizim də əleyhimizədir?

– Məncə, yox. Bir də... Nə bilmək olar? Bəlkə də...

– Ölənin günahı bəs nəymiş?

– Zənnimcə, ailə məsələsi üstündə olub. Deyilənə görə, biri o birinə toxum borcluymuş. Ancaq aydın deyil kim kimə? Sözün qısası, əmisi oğlunu dəhrəylə qətlə yetirib. Təsəvvür elə ki, qoyun başına zərbə endirirsən və... vəssalam!

Baldüksi sözlə dediklərini göstərmək üçün barmaqlarını ülgüc kimi boğazına yapışdırdı. Ərəbsə kürkünə birə düşübmüş kimi yerində qərar tuta bilmirdi. Darünü fikir götürdü. Bu saat onun ürəyində dəvə təki kinli insanlara, onları cinayətə sürükləyən iyrənc, qeri-insani hərəkətlərə qarşı sonsuz qəzəb qövr edirdi.

Qəhvədanın zümzüməsi eşidilməyə başladı. Əvvəlcə Baldüksinin stəkanını doldurdu, sonra karıxıbmış kimi əl saxladı, ərəbin də stəkanına çay süzdü. O, çayı bayaqkı hərisliklə başına çəkdi. Stəkanı dodaqlarına sarı aparanda arıq sinəsi göründü.

– Çaya görə çox sağ ol, – Baldüksi dedi, – indisə izin ver, mürəxxəs olum.

Qalxıb ərəbə yaxınlaşdı və cibindəki qaytanı çıxartdı.

– Nə etmək istəyirsən? – Darü soruşdu.

Baldüksi əlində tutduğu qaytanı ona göstərdi.

– Məncə, bunsuz da keçinərik.

– Özün bilən yaxşıdır. Yeri gəlmişkən, üstündə silah varmı?

– Olanım bircə ov tüfəngidir.

– Hanı?

– Çamadanda.

– Sən onu həmişə çarpayının yanında saxlamalısan.

– Niyə ki? Heç nədən qorxum yoxdur!

– Bəs ağlın yerindədirmi? Əgər qiyam başlasa, hamımız batdıq.

– Onların gəldiyini görüb müdafiə olunaram.

Baldüksi qəhqəhə çəkib güləndə yaşının bu vaxtında da salamat qalan dişləri ağarırdı.

– Birdən macal tapmadın, onda necə, hə? Mənim demək istədiyim də elə budur. Səni elə dəliqanlılığına görə sevirəm. Mənim oğlum da sənə oxşayırdı.

Bu sözləri deyə-deyə cibindəki tapançanı çıxarıb stolun üstünə qoydu.

– Götür, lazımın olar. İki silah gəzdirməkdən canım qurtarsın.

Jandarm ona bir az da yaxınlaşanda üst-başına hopmuş at iyi onu vurdu.

– Qulaq as, Baldüksi, – Darü bu dəfə güllə kimi açıldı, – artıq cana doymuşam. Hər şeydən bezmişəm. Elə gətirdiyin bu cənabdan da! Amma mən onu heç yana buraxası deyiləm. Lazım gəlsə, döyüşərəm də. Götür, götür silahını, özünə lazım olar.

Bu sözlərdən sonra qoca jandarm tərs-tərs Darünün üzünə baxdı.

– Axmaqlıq eləyirsən. Məlumun olsun ki, mənim belə hərəkətlərdən zəhləm gedir.

– Onu heç yana buraxası deyiləm, – Darü bir də təkrar etdi.

– Başa düş, oğul, axı bu, əmrdir.

– Bəs belə! Dediklərimi yaxşı-yaxşı saxla yadında, çatdırarsan onlara. O, buradan heç yana gedəsi deyil!

Açıq-aşkar görünürdü ki, Baldüksinin əsəbləri tarıma çəkilib, fikrində nəyisə götür-qoy edə-edə gah Darüyə, gah da ərəbə baxırdı. Nəhayət, axır sözünü dedi:

– Yox! Bu sözləri saxla özünçün. Mən onlara heç nə deməyəcəyəm. Əgər bizdən ayrılmaq istəyirsənsə, öz işindir. Mən səni satan deyiləm. Mənimki onu buracan gətirməkdir. İstəyirsən yazım, imza at.

– Lazım deyil, mən ki bunu danmıram.

– Bəsdir çənə-boğaz olduq. Bilirəm ki, dilinə yalan gəlməz. Yaxşı tanıyıram səni. Amma hər halda, qayda belədir, imza atmalısan.

Darü şkafdan qələm-dəftəri və mürəkkəbqabını çıxartdı. Dərhal Baldüksinin yazdığını imzaladı. Jandarm kağızı iki qatlayıb portfelinə qoydu, ağır addımlarla qapıya yönəldi.

– Qoy ötürüm səni, – Darü dedi.

– Zəhmət çəkmə, lazım deyil. Xəcalət verdiyin yetər, get otur yerində.

Sonra dönüb ərəbə baxdı. Dustaq əvvəlki yerində oturmuşdu, qəmli üzünün ifadəsi dəyişməmişdi.

– Salamat qal, – Baldüksi ona dedi və qapını arxasınca çırpıb getdi.

Pəncərədən Baldüksinin kürəyinin görünməsiylə yoxa çıxması bir oldu.

Qalın qarda addım səsləri eşidilməz oldu. Arakəsmənin o biri üzündə bağlanmış at, sahibini görcək hərəkətə gəldi; toyuqlar ürkdülər. Bir dəqiqə keçməmiş jandarm əliylə atın cilovundan tutmuş halda pəncərə önündən keçdi. O, arxaya baxmadan yolu tutub gedirdi. Əvvəl Baldüksi, sonra at görünməz oldu. Darü ərəbə sarı çevrildi. O, öz yerində oturmuşdu, gözlərini bir an belə Darüdən ayırmırdı.

– Bir az gözlə, – müəllim ərəbcə sözə başladı və otağına sarı getdi. Kandardan keçən kimi cəld əlini yazı stolunun siyirməsinə apardı, tapançanı götürüb cibinə soxdu. Sonra divana yayxandı, gözünü yavaş-yavaş qaralmaqda olan səmaya dikib uzun müddət beləcə hərəkətsiz qaldı. Sükutla baş-başa keçirdiyi günlər çox olmuşdu həyatında.

Cəbhədən qayıtdığı ilk günlər yeganə həmdəmi olan tənhalıq sıxmışdı onu. Xahiş eləmişdi ki, onu yayla ilə dağ silsiləsinin arasına sığınan o kiçicik şəhərdə işlə təmin etsinlər. Onu şimal tərəfə göndərdilər. Bu daşlı və barsız torpaqda açdığı ilk səhərlər sükutdan az qalmışdı dəli ola... Bəzən dərin şırımları görəndə ağlına gətirirdi ki, torpağı əkməyə başlayacaqlar. Amma yox, torpağı qazmaqda məqsəd tikinti üçün misilsiz əhəmiyyəti olan daşları üzə çıxarmaq idi. Sözün qısası, bu yerlərdə daşın əl-ayağa ilişmədiyi yer yox idi.

Daşların, az qala, gözə soxulduğu bu diyarda şəhərlər tikilir, tanınıb məşhurlaşır, sonra quyunun dibinə atılan daş kimi yer üzündən silinirdi. Dünyaya insanlar gəlir, sevib-sevilir, nifrət edir, ya boğazından asılır, ya da elə-beləcə, səssiz-səmirsiz dünyadan köçürdülər. Bu çöl-biyabanda nə o, nə də onun qonağı heç nə idilər. Bir qara qəpiklik qiymətləri də yox idi. Ancaq bir şey də var ki, ayaqlarını bircə addım buradan kənara qoysaydılar, yaşamaq gözlərindən düşər, xiffətdən ölüb-gedərdilər. Darü bunu çox gözəl bilirdi.

Divandan qalxanda sinif otağından səs-səmir gəlmirdi. Bu qəribə qonağın gəlişi yorucu, çözələndikcə çözələnən fikir-xəyallara son qoymuşdu. Dustaq sobayla yazı stolunun arasına lal-dinməz uzanıb gözlərini tavana zilləmişdi. Adama elə gəlirdi ki, illərcə bax elə bu vəziyyətdə, qımıldanmadan uzanıbmış. Qalın həbəşi dodaqlarındakı ifadəyə bir bax! Elə bil, dəryada gəmiləri batıb.

– Dur bəri gəl, – Darü dedi.

Ərəb qalxıb onun arxasınca getdi. Müəllim onu pəncərəyə yaxın yerdə, sobanın yanında oturtdu. Ərəb qəm-qüssəylə dolu gözlərini Darüyə dikdi.

– Aclığın varmı?

– Hə...

Darü ikiadamlıq süfrə açdı. Un və azca yağ götürüb nimçədə yoğurdu, sonra kiçik qaz pilətəsini odladı. Çardağa gedib xurma, pendir, yumurta və süd gətirdi. Qalet bişəndən sonra nimçəni pəncərə ağzına qoydu ki, soyusun. Südə su qatıb qızdırdı, ən xırda yumurtaları çaldı. Arada imkan tapıb sağ cibini şişirdən tapançanı çıxartdı, gülləəri boşaltdı. Sinif otağına keçib, tapançanı yazı stolunun üstünə tolazladı. Otağına qayıdanda hava tutulmuşdu. İşığı yandırdı.

– Başla, – ərəbə dedi.

Ərəb qaletdən bir dişdəm götürüb hərisliklə, ağzı sulana-sulana yeməyə başladı.

– Bəs sən? – soruşdu.

– Sən işində ol, mən sonra yeyəcəyəm.

Ərəbin qalın dodaqları azca aralandı. Ani fikirdən sonra təzədən yeməyə girişdi. Yeyib qurtarandan sonra yenə gözlərini müəllimə dikdi.

– Hakim sənsənmi? – yazıq-yazıq soruşdu.

– Yox. Mən səni sabahacan saxlayacağam.

– Bəs niyə mənimlə bir süfrədə oturdun?

– Çünki ac idim.

Darü susub dayandı. Sonra otağı tərk elədi. Çardaqdan açılıb-yığılan çarpayını gətirib sobanın yanına qoydu. Küncdəki yekə çamadandan iki adyal çıxartdı. Birdən süstlük hiss edib çarpayının üstünə çökdü. Gözlərini ərəbin üzündə gəzdirə-gəzdirə onun törətdiklərini təfərrüatı ilə xəyalında canlandırmaq istədisə də, bir şey alınmadı. Həmin adam odlu qara gözləriylə, budur, qarşısında durmuşdu. Birdən: “Niyə onu öldürdün?” – qışqırdı. Ərəbi, elə bil, ildırım vurdu. Özünə gələndə dedi:

– O qaçdı, mən də arxasınca... – və gözlərini təzədən Darüyə zillədi. Bu qəmli gözlərdən sual sual dalınca yağırdı. Bədbəxt, hüquqsuz bir adamın cavabsız sualları...

– İndi mənə neyləyəcəklər?

– Qorxursan?

Ərəb gözlərini yerə dikdi, yerində bürüşə-bürüşə balacalaşdı.

– Heç etdiyinə peşmansan?

Ərəb ağzını açıb müəllimə lal-dinməz baxırdı. Açıq-aşkar, beyninə heç nə batmırdı. Darünü isə qəzəb çulğamışdı.

Sonra səbirsiz halda:

– Uzan yat, bu yeri səninçün açmışam, – dedi.

Ərəb yerindən tərpənməyib Darüyə baxdı:

– Mənə cavab ver, sonra.

Müəllim gəlib onunla üz-üzə dayandı.

– Jandarm sabahmı gələcək?

– Bilmirəm.

– Sən də bizimləmi gedəcəksən?

– Mən? Niyə ki?

Məhbus qalxdı, ayaqlarını pəncərəyə sarı uzadıb çarpayıya sərələndi. İşıq düz onun gözlərinə düşürdü. Bayaqdan çarpayının yanında dayanan Darü eyni sualı verib durmuşdu. Ərəb gözlərini deşən işığa məhəl qoymayıb kirpiklərini qırpmadan Darüyə baxdı:

– Sən də bizimlə get, – dedi.

Gecə keçir, lakin Darü yata bilmirdi. Fikrini dağıdıb onu bir çimir yuxuya həsrət qoyan nə idi? Çarpayıya soyunub uzanmışdı. Çılpaq yatmaq adəti idi. Amma bu dəfə nəsə sıxılırdı. Durub geyinmək fikrinə düşdü. Çiyinlərini çəkib: “Axı nə olsun ki, birinci dəfə deyil ki?” – fikirləşdi. Lazım gəlsə, rəqibini dişləriylə parça-parça edər. Buradan o, güclü işığa davamlı gözlərini qapamış, arxası üstə uzanmış qonağını yaxşıca görürdü.

Durub işığı keçirdi, otaq dərhal zülmətə qovuşdu. Yavaş-yavaş gözləri qaranlığa öyrəşirdi. Pəncərəyə sarı çevrildi. Ulduzsuz səmanın bir parçası görünürdü. Sonra yavaş-yavaş qarşısındakı çarpayıda uzanmış adamın bədəni də seçildi. Ərəb elə gözüaçıq yatmışdı. Hiss olunurdu ki, çöldə əsən külək məktəbi dörd dolanır. Hə, səhərəyaxın buludlar da dağılar, gün çıxar...

Gecədən xeyli keçmiş külək gücləndi. Toyuqların səsi eşidildi.

İllər boyu bu otaqda tək yatmışdı. Yalqızlığa, bir növ, adət etmişdi, qorxusu yox idi ondan. İndi otaqda ikinci bir adamın varlığı onu əzirdi və bir də ona görə narahat idi ki, gecənin bu vədəsində başından qəribə fikirlər keçirdi. Axı necə olsa, ikisi də insan idi. Başqa bir vaxt bu fikri həndəvərinə də buraxmazdı. Yaxşı bilirdi ki, bir otağın havasını udanlar – istər məhbus, ya da əsgər olsun – görünməz tellərlə birləşirlər. Gecə düşən kimi paltarları ilə birgə yaraq-yasaqlarını da bir kənara tullayıb yuxunun və yorğunluğun qədim, çox qədim aləmində bir-birini tapır, insan olduqları yadlarına düşürdü. Darü bu yorucu fikirlərdən qaçıb qurtarmaq, yatmaq istəyirdi və özünü qəsdən inandırırdı ki, bütün bunlar ona yaddır, yatsa, yuxusuna da girməz. Bir az sonra ərəb qeyri-iradi olaraq qurcalandı, yarıyuxulu halda qollarını dayaq verib dikəlməyə başladı. Sonra çarpayının üstündə oturub Darüyə tərəf çevrilmədən ayağa qalxdı. Nəfəsini qısdığından səsi gəlmirdi. Darü buna məhəl qoymadı. Yadına düşdü ki, tapançanı o biri otaqda qoyub. Dərhal hərəkət etmək, hər halda, daha yaxşı olardı. Sonra qulaqlarını şəkləyib gözlədi. Ərəb ayaqlarını yavaşca yerə basıb dikəldi. Darü nəsə soruşmaq istədisə də, susdu. Ərəb üsulluca, barmaqlarının ucunda yeriməyə başladı. O, çardağa açılan qapıya yaxınlaşdı. Ehtiyatla qapının sürgüsünü çəkib arxasınca örtmədən çölə çıxdı. Darü fikirləşirdi: «Yəqin, qaçmaq

istəyir. Bircə elə bu çatmırdı». Durub yerində oturdu. Ərəb orta məktəbin qabağındakı meydançada dayanmışdı. Sonra zəif su şırıltısı eşidildi. Amma başa düşmədi, niyə ərəb o saat qayıdıb qapını bərk-bərk bağladı, səs salmadan yerinə girdi. Darü arxasını ərəbə çevirib yuxuya getdi. Yuxuda görürdü ki, məktəbin ətrafında kimlərsə dolaşır, addım səsləri gəlir.

Oyananda göyün üzü açılmışdı. Pəncərənin çərçivəsinə yaxşı oturmamış şüşəsindən otağa saf və soyuq hava dolurdu. Ərəb adyala bərk-bərk bürünüb ağzıaçıq yatmışdı. Bu an o, dünyadan xəbərsiz idi. Amma Darü onu silkələyəndə dəhşətə gələn adamlar kimi yerindən dik atıldı, qan basmış gözlərini müəllimə dikdi. Gözlərindən qorxu və dəhşət yağırdı. Darü bir addım geri çəkilməli oldu.

– Qorxma, mənəm, dur, səhər yeməyinin vaxtıdır.

Ərəb başı ilə «hə» dedi. Üzünün bayaqkı qorxulu ifadəsi çəkilib getmiş, yerini həmişəki qüssəyə vermişdi. Qəhvəni bişirib stəkanlara süzdü. Hərə qaletdən bir dişdək götürüb yeməyə başladı. Sonra Darü ərəbi çardağın altına aparıb su kranını göstərdi ki, yuyunsun. Otağa qayıdıb adyalları və ərəbin çarpayısını yığışdırdı. Otağa da bir az əl gəzdirdi. Çölə çıxıb meydançada dayandı.

Günəş çıxmışdı. Bomboş səhraya şəfəq seli yağırdı. Sıldırım yoldakı qar əridikcə iri daşlar torpaqdan baş qaldırırdı. Müəllim üryan çöllərə baxırdı. İndi onun fikrini məşğul edən ancaq Baldüksi idi. «Gedəndə xətrinə dəydim onun» Qulaqlarına Baldüksinin incik tonla dediyi «salamat qal» sözləri gəldi və özü də bilmədi niyə bədəni sustalmağa başladı. Əsir öskürürdü. Bilaixtiyar qulaqlarını şəklədi, sonra qəzəblənib yerdən götürdüyü daşı havaya tolazladı. Guya o daş bir də yerə qayıtmayacaqdı. Yadına ərəbin etdiyi axmaq cinayət düşdü, dilxor oldu. «Dəhşət var, dəhşət də var...» Ürəyində həm ərəbə, həm də onu bura gətirənlərə

lənət oxudu. «Niyə axı qaçıb canını qurtarmadı...» Darü geri dönüb məktəbə sarı üz tutdu.

Ərəb sementlənmiş yerdə durub barmağıyla dişlərini yuyurdu. Ona baxıb «gəl» dedi. Özü isə birbaşa otağa döndü. Ov gödəkcəsini toxunma köynəyinin üstünə atdı, yol ayaqqabılarını geyindi. Ərəb də çalmasını düzəldirdi. Hər ikisi geyinib-kecinəndən sonra müəllim ona çıxışı göstərdi.

– İndi get, – dedi.

Ərəb, elə bil, yerə mıxlanmışdı.

– Mən də gəlirəm, get. – Darü səbirsizliklə dilləndi. Ərəb çıxdı. Darü otağa qayıdıb suxarı, xurma və qənd olan bağlamanı götürdü. Yazı stoluna yaxınlaşıb siyirməyə baxdı, ani tərəddüddən sonra kandarı adlayıb qapını çırpdı. Ərəblə yanaşı yeriyirdilər. Məktəbdən azca aralanmışdılar ki, qulaqlarına səs gəldi. Gəldiyi yolla geri dönüb ətrafa göz gəzdirdi; heç kəs yox idi. Ərəbsə hələ də bir şey anlamırdı.

– Hə, getdik, – Darü dilləndi.

Bir saatdan sonra sivri, yekə bir daşın yanında nəfəs dərmək üçün ayaq saxladılar.

Nəfəslərini dərib yola düzəldilər. Təkcə donu açılmaqda olan qarın xırtıltısı eşidilirdi. Bir saat gedəndən sonra gündoğana sarı üz tutdular. Nəhayət, gəlib çatdılar. Bu da yastı təpə. Buradan baxanda düzənlikdəki üç-dörd çılpaq ağac gözə dəyirdi. Şimaldakı bomboz qayalar təbiətə qüssəli görünüş verirdi. Darü hər iki tərəfi diqqətlə dinlədi. İns-cins gözə dəymirdi. Bayaqdan bir şey anlamayan ərəbə sarı çevrildi. Bağlamanı ona uzadıb: "Götür, – dedi. – İçində çörək, qənd və bir az da xurma var. İki günə bəs edər. Di götür, bu da min frank puldur". Ərəb bağlamanı və pulu alıb dolu əllərini azca yuxarı qaldırdı. Axı bunlar onun nəyinə gərəkmiş?!

– İndi mənə diqqətlə qulaq as. Tingitə gedən yol bax budur. Polis idarəsi də orada yerləşir.

Darü onun əllərindən yapışıb bir az qabağa itələdi. Müəllimin göstərdiyi yol təpənin bu hündür yerindən güclə seçilirdi.

– Düz bir gün yol gedəcəksən. Orada səni qanun tələb edən kimi mühakimə edəcəklər.

Ərəb üzünü müəllimə çevirdi, danışmaq istəyirdi, ürəyi sözlə dolu idi.

– Yox, lazım deyil, sus, – müəllim dedi. – İndisə səni tərk edirəm.

Arxasını ərəbə çevirib irəli iki addım atdı və dayandı. Çevrilib narazılıqla ərəbə baxdı və yenə də yoluna davam etdi. Artıq o ancaq öz addım səslərini eşidirdi.

Arxaya baxmadan gedirdi. Amma yox, belə olmaz. Dönüb geri baxdı. Ərəb bayaq dayandıqları yerdə idi. Müəllim əsəbiliklə əllərini yellədi, sürətlə məktəbə sarı üz qoydu. Bir də ayaq saxlayanda bayaqkı yerdə heç kəs gözə dəymirdi. Ani tərəddüddən sonra gəldiyi yolla yüyürərək geri qayıtdı. Bütün bədənini tər basmışdı. Yastı təpəyə çatdı. Təpənin hündür yerinə qalxıb təngnəfəs halda dayandı. Gözlərini qıyıb cənuba, açıq səmanın fonunda nəzərə çarpan üryan qayalara baxdı. Qərb tərəfdə qarı ərimiş torpaqdan buğ qalxırdı. Seyrək duman içərisindən həbsxanaya gedən ərəb güclə seçilirdi. Darünün ürəyi sıxılmağa başladı.

Bir az sonra o, sinfin yeganə pəncərəsi önündə dayanıb fikrə getmişdi. Xəbəri yox idi ki, qızmar günəş yaylanın qarını tamam əridib. Arxada, qara lövhənin üzərinə əyri-üyrü fransızca, sanki, titrək uşaq əlinin yazdığı sözlər nəzərə çarpırdı: “Sən bizim qardaşımızı düşmən əlinə verib satdın. Buna görə cavab verəcəksən...” Və təbii ki, Darünün bundan xəbəri yox idi. Dinməz-söyləməz səmaya, oradan da o yana – düz dənizə qədər uzanan çöllərə baxırdı.

Neyləsin ki, canından çox istədiyi bu geniş diyarda, ucsuz-bucaqsız bu ölkədə tək-tənha idi.

# SİZİF HAQQINDA MİF

(*esse*)

Allahlar Sizifə iri bir daşı dağın zirvəsinə qaldırmaq cəzasını kəsdilər; daşsa ora çatar-çatmaz təzədən üzüaşağı yuvarlanırdı. Onların fikrincə, faydasız və mənasız əməkdən ağır və dəhşətli cəza yoxdur.

Homerə inansaq, Sizif fani varlıqların ən müdriki və tədbirlisi idi. Doğrudur, başqa bir mənbədə deyilənlərə görə, Sizif həm də adi bir qarətçiymiş. Ancaq burada mən heç bir ziddiyyət görmürəm. Onun necə cəhənnəm fəhləsinə çevrilməsi ilə bağlı çoxlu fərziyyə var. Onu hər şeydən öncə allahlara yüngülməzac münasibətdə məzəmmət edirdilər. Bir də: onların sirlərini açıbağardırmış. Yupiter Asonun qızı Egipanı oğurlamışdı. Atası təəccüblənir və dərdini Sizifə danışır. Sizif bu faktı bilə-bilə Asona bir şərtlə kömək əlini uzatmağa razılaşır ki, əvəzində Korinf qalasına su çəksin.

Sizif göylərin qəzəbli ildırımlarındansa, Yer üzündəki suların xeyir-duasını üstün tutdu. Cəzası cəhənnəm əzabı oldu. Homer bunu da söyləyir ki, Sizif Ölümün əl-qolunu qandallayır. Pluton cəhənnəm sükutu çökən səltənətinə baxanda ürəyi parçalanıb tikə-tikə olurmuş. Belədə müharibə allahını göndərir ki, Ölümü onun çəngindən xilas eləsin.

Nəql edirlər ki, ölənə yaxın Sizif arvadının sədaqətini sınağa çəkmək fikrinə düşür və ona əmr edir ki, öləndə cəsədini dəfn etməsin, birbaşa meydanın ortasına tullasınlar. Sizifin cəhənnəmə güzarı beləcə düşübmüş. İnsana yad olan bir belə itaət və nankorluqdan qəzəblənmiş Sizif arvadını cəzalandırmaq üçün Pluton-

dan icazə alır ki, bir də Yer üzünə qayıtsın. Ancaq Yer üzünə qayıdıb sularından içdikcə, günəşin, dənizin, dağın, daşın nəfəsini hiss etdikcə kölgələr dünyasına qayıtmaq fikrindən daşınır. Allahlar nə qədər xəbərdarlıq edirlərsə, nə qədər hədə-qorxu gəlirlərsə, ona təsiri olmur. Uzun illər ərzində dənizin kükrədiyi, torpağın üzə güldüyü körfəzin sahilində yaşayır. İşə allahlar qarışmalı olur. Merkuri gəlib Sizifin peysərindən yapışır, darta-darta onu cəhənnəmə salır – onun qismətinə düşən daş buradaca onu gözləyirdi.

Deyilənlər sübut eləyir ki, Sizif, əslində, absurd qəhrəmandır. Ehtiras və cəhdlərində, əzab və iztirablarında da elə belədir. Allahlara etinasızlığı, ölümə nifrəti və yaşamaq eşqi ona olmazın işgəncələrə başa gəldi, məcbur oldu ki, canındakı bütün gücünü boş yerə sərf etsin. Fani ehtirasların əvəzi bu imiş. Sizifin cəhənnəmdə çəkdiyi əzabları yerli-yataqlı bilmirik. Miflər bizim başımızı qatmaq üçündür. Biz yalnız zorba bir daşa güc verib onu yamaca qaldırmaq istəyən, sonra onunla birgə enişə yumbalanan gərilmiş bədəni xatırlayırıq; yanağını daşın soyuq üzünə dirəmiş insanın ağrıdan qıc olmuş çöhrəsini, üstü gillə örtülü daşa dayaq verdiyi çiynini, büdrəyən ayağını və hər dəfə daşı yenidən, bir daha yerindən tərpətməyə cəhd edən, ovucları torpağa girmiş əlləri xəyalımızda canlandıra bilirik. Uzun və ölçülü-biçili cəhdlərin sonucunda səmasız bir məkanda əvvəli və sonu olmayan zaman içində məqsədə çatılır. Sizif baxıb görür ki, bir neçə an içində daş dağın ətəyində yumbalanıb dayanır, buradan bir daha güc verib onu dağın kəlləsinə qaldırmaq lazımdır. Yenə diyirlənir. Sizif məni daha çox məhz bu ani fasilələrlə maraqlandırır. Üzgün sifəti daşdan heç seçilmir. Mən ağır-ağır, ancaq ölçülü-biçili ahəngdarlıqla əzaba doğru daim irəliləyən bu insanı görürəm! Nəfəs alıb-verincə bədbəxtliyi kimi labüd olan ağlı başına gəlir və hər dəfə dağın kəlləsindən

allahların məskəninə endikdə taleyindən yüksəyə qalxır. Qaldırmaq istədiyi daşdan daha möhkəmdir.

Bu mif faciə misalıdır, çünki onun qəhrəmanı ağıl sahibidir və əgər hər addımında qəlbindəki ümid onu uğura səsləyirdisə, bu halda hansı cəzadan söhbət gedə bilərdi? Bu günün insanı da bu həyatı yaşayır, onun taleyi də elə bu qədər faciələrlə doludur. Ancaq o məhz o zaman faciə qəhrəmanına çevrilir ki, ağlı başına gəlir. Allahların qara fəhləsi olan gücsüz və üsyankar Sizif qismətinə düşən dərdin sonsuzluğundan xəbərdardır; bu barədə o, düzəngaha endikcə düşünür. Çəkdiyi əzab qədərində bəsirəti qələbəsinə çevrilir. Nifrətin ram eləmədiyi tale yoxdur.

Eniş bəzən iztirab gətirir, ancaq bəzən bu, sevinc də doğura bilər. Bu söz necə də yerinə düşür. Bir az əvvəl dağın ətəyindəki daşına sarı addımlayan Sizifi yadıma salıram. Əvvəlcə əzab olub. Yaddaş büsbütün yerüstü obrazlarla ləbələb dolub, xoşbəxt olmaq istəyi insana bu qədər əlçatmaz göründükdə kədər insan qəlbində şırımlar açır: bu artıq daşın qələbəsidir, bu artıq daşın özüdür: ürəyimdən daş asılıb! Bu qədər dərd yükünü çəkmək olmur. Hefisman bağındakı gecələrimiz də belə keçir. Ancaq bizi əsir-yesir eləyən həqiqət, dərk edilən anda qeybə çəkilir. Belə ki, Edip də öz taleyindən bixəbər halda qismətinə düşən payla barışmışdı. Faciə dərk anından başlanır. Ancaq eyni zamanda Edip çaşqın halda dərk eləyir ki, dünya ilə yeganə bağı zərif qız əlləri imiş. Bundan agah olduqda deyir: "Bütün uğursuzluqlara baxmayaraq, ahıllığım və qəlbimin böyüklüyü deyir ki, hər şey yaxşı olacaq". Dostoyevskinin Kirillovu necədirsə, Sofoklun Edipi də elədir: hər ikisi bizə absurd qələbə düsturunu verir. Antik müdriklik müasir qəhrəmanlıqla qaynayıb-qovuşur.

İnsan faniliyi kəşf eləməzdən qabaq istər ki, xoşbəxtlik dərsliyi kimi bir kitab bağlasın. "Bəlkə, bu son

dərəcə dar yolu tutub gedəsən?" Ancaq dünya bir dənədir, xoşbəxtlik və absurd elə bu yeganə dünyanın şəkildəyişmələridir. Bir almanın iki üzü kimi. Onlar canbir qəlbdədirlər. Xoşbəxtliyin guya daim absurdun kəşfindən sonra yarandığını düşünmək səhv olardı. Elə də ola bilər ki, absurd duyğusu xoşbəxtlikdən doğsun. "Məncə, hər şey yaxşıdır", – Edip deyirdi. Bunlar müqəddəs sözlərdir. Onlar zalım və sonsuz dünyada insanın qulağının dibində səslənir. Onlar demək istəyir ki, hələ heç nə başa çatmayıb, hər şey hələ qabaqdadır. Bu sözlər bu dünyaya bitib-tükənməyən iztirablar gətirən allahları qovmaq niyyətindədir. Onlar taleyi insanın öz əllərinə tapşırır, onları taleyin sahibi edir.

Sizifin üzdən oxunmayan gizli sevincinin sirri məhz buradadır. Taleyi öz əlindədir. Daş qismətidir. Absurd insan çəkdiyi əzablara baxıb bütləri sındırmağa başlayır. Qəfildən sükuta bələnən dünyada yerin altından qalxan minlərcə valehedici səs eşidilir. Bu, fani dünyadakı bütün obrazların şüursuz və gizli çağırışıdır – hadisələrin özəyi və qələbənin dəyəri elə budur. Günəş kölgəsiz olmaz, gecəni də nəzərə almaq gərək. Absurd insan "hə" deyir və bundan sonra sonsuza qədər cəhd göstərə bilər. Əgər şəxsi tale varsa da, bu heç də göylərdə yazılan bir şey deyildir, uzaqbaşı bu, insanın öz qisməti haqqında əvvəlcədən düşünüb gəldiyi bir qənaətdir: bu, alın yazısıdır və nifrətəlayiqdir. Yerdə qalan şeylərdə o, özünü ötüb-keçən günlərin ağası hesab eləyir. Bir anlığa yaşanmış ömür-gününə boylananda artıq yamacdakı daşına çatan Sizif onun ömrünə çevrilən əməllərin ahəngsiz düzümünü seyr edir. Öz taleyini özü, öz əlləri ilə yaradıb, yaddaşa çevrilib və ölümlə möhürlənib. Bütün bəşərin mayasında bəniinsanı görən, zülmət gecələrin bitib-tükənməyəcəyini bilən kor yenə də yoluna davam eləyir və daş bir daha yumbalanır.

Sizifi dağın ətəyində qoyub gedirəm! Çəkməyə dərd də, yük də həmişə tapılar. Ancaq Sizif allahları inkar edən və daşı yerindən oynadan daha ali inam aşılayır. Hər bir daş zərrəsi, gecəyarısı hər bir filiz parçası onun üçün bütöv bir dünyadır. Zirvə eşqinə bircə qələbə bəs edir ki, ürəyi sevinclə dolsun. Sizifi bəxtiyar saymamaq üçün əlimizdə heç bir əsas yoxdur.

# A.KAMÜNÜN NOBEL NİTQİ

Sizin azad akademiyanın məni layiq gördüyü mükafatı qəbul edərkən qəlbimi bürüyən minnətdarlıq hissi elə dərin idi ki, bir anlığa bu təltifin şəxsi məziyyətlərimdən çox-çox yüksəkdə dayandığını düşündüm. Hər bir insan, xüsusən də hər bir sənətkar, şübhəsiz ki, tanınmaq, məşhurlaşmaq istəyir. Mən də istisna deyiləm. Ancaq  onu mənim real məziyyətlərimlə tutuşdurub müqayisə etmədən bu qərarı dərk edib anlamağım çətin oldu. Necə ola bilər ki, gənc, yeganə var-dövləti başındakı şübhələr olan, yazacaqlarını gün işığına çıxarmamış, iş-güc və dostlar arasındakı tənhalığına üzü-gözü öyrəşmiş bir adam birdən-birə belə qərarı eşitsin və hövllənməsin; illər boyu öz içinə qısılmış bu adam birdən-birə gur işıq haləsinə düşəndə nə edər, sizcə? Avropada ən böyük sənətkarların susdurulduğu bir məqamda, hətta ayaq basdığı doğma torpağı  ardı-arası kəsilməyən fəlakətlərə düçar olduğu bir zamanda hansı namərd bu mükafatı əlini ürəyinin üstünə qoyub sakitcə qəbul edə bilər?

Məni həyəcan və təlaş bürüdü. Özümə gəlmək üçün bu bədxərc dərəcədə səxavətli tale ilə, bir növ, haqq-hesab çürütməli idim. Özümü ona yalnız şəxsi məziyyətlərimə görə layiq hesab etmədiyimə görə həyatım boyu tuş gəldiyim müxtəlif vəziyyətlərdə bunun bəraəti kimi mənə arxa durası başqa şeylər axtardım, bircə şeydə əlim boşa çıxmadı: bu, mənim sənət və yazıçının rolu haqqında təsəvvürüm oldu. İcazə verin, minnətdarlıq və razılıq hissi ilə sizə elə bu haqda danışım.

Sənətimdən ayrı necə yaşayacağımı təsəvvürümə gətirə bilmirəm. Ancaq bir şeyi qabaqcadan bəyan

edim: bu sənəti heç zaman hər şeyin fövqündə tutmamışam.

Əksinə, bu sənət mənə məhz ona görə lazımdır ki, insanlardan ayrılmayım və özüm kimi olum. Ətrafdakı adamlar kimi adi bir ömür yaşayım. Mənim təsəvvürümdə yaradıcılıq tənha sənətkarın sıxılıb qaldığı bir künc deyildir. Bu, mümkün dərəcədə insanların duyğularını oyandırmaq, onlara gündəlik kədər və sevincin fərdi və şübhəsiz yüksək obrazını təqdim etmək üçündür. Elə buna görə o, sənətkarın öhdəsinə yaxasını kənara çəkməmək yükünü qoyur və onu ən səfeh və adi həqiqətlərlə sınağa çəkir. Elə olur ki, insan sənətkar qismətini seçir və bunu ona görə edir ki, guya, "seçilmişlərdəndir", ancaq çox tezliklə özü də əmin olur ki, bu seçimin yeganə və ən böyük qaynağı elə ərtaf mühitlə eynilikdədir. Sənətkar bütün həyatı boyu özü ilə mühit arasında var-gəllərdə, canı bildiyi gözəlliklə qopub ayrıla bilmədiyi insan cəmiyyətinin arasında yetişir. Bax elə buna görə də həqiqi sənətkara lovğa notasiyalar yaddır: onun vəzifəsi anlamaqdır, mühakimə etmək deyildir. Bu dünyada kiminsə tərəfini tutmaq lazım gələrsə, o yalnız cəmiyyətin yanında olmalıdır; elə bir yerdə ki, böyük Nitsşenin kəlamına görə, orada hakimin yox, zəhmətkeş, yaxud ziyalı olmasına rəğmən sənətkarın sözü keçir. Bu səbəbdən yazıçının rolu insanın ağır öhdəliklərindən ayrı deyildir. O, məlum mülahizəyə görə, bu gün tarix yaradanların köləsi ola bilməz, əksinə, bu gün o, bütün bunlara dözüb duruş gətirənlərin xidmətindədir. Əks halda qisməti tənhalıq və incəsənətdən uzaq-laşmaq olacaqdır. Və onda dünyanın bütün huri-mələkləri, istibdadın milyonlarca döyüşçüsü də yığılıb gəlsə, onu bu tənhalığın girdabından çəkib çıxara bilməz, hətta onun özü bu qüvvələrin ayağına getsə belə. Ancaq dünyanın başqa bir küncündə alçaldılıb təhqir edilmiş və işgəncə verilmiş hansısa bir

məhbusun sükutu yazı-çını yalquzaq təkliyin əlindən qurtara bilər və ən azı, hər dəfə özünü azadlığın bəxş etdiyi imtiyazlar arasında hiss etdikdə bu sükutu xatırlaya və onu öz sənətinin bir vasitəsinə çevirə bilər.

Bizim heç birimiz belə bir istedada malik deyilik. Ancaq həyatın istənilən vəziyyətində naməlum, yaxud keçici şöhrətə malik olan, tiranlığın qandalları arasında əzab çəkən, yaxud hələ ki azca söz azadlığını dadmış yazıçı onun mövcudluğuna haqq qazandıran insanlarla canlı həmrəylik hissinə yiyələnə bilər, ancaq belə bir yeganə və məcburi şərtlə ki, gücü çatdığı dərəcədə üstünə onun ağır sənətinin bütün ruhunu əks etdirən iki yük götürsün: həqiqətə və azadlığa xidmət etmək. Sənətkarın rolu mümkün qədər çox sayda insanı birləşdirmək olduğundan o, yalan və köləlik üzərində bərqərar ola bilməz. Harada ki bu ikisi gəzib-dolanır, oralar tənhalıqdan aşıb-daşır. Yazıçının zəifliyi nə olursa olsun, bizim peşənin nəcibliyi əbədi olaraq iki çox çətin, dəhşətli dərəcədə çətin vəzifəyə əsaslanır – bildiyin şey haqqında yalan deməkdən imtina etmək və istibdada müqavimət göstərmək.

Sərsəm tarixin iyirmi-iyirmi beş ili ərzində, ümidsiz halda zamanın quduz girdabına atılmış bütün müasirlərim kimi mən də özümə yalnız belə bir mübhəm şeylə ürək-dirək verirdim ki, bu gün yazıçılıq peşəsi şərəflidir, çünki bu sənət təkcə yazı-pozudan ibarət deyildir. Yeri gəlmişkən, bu sənət məni bu lənətə gəlmiş qəziyyəni (tarixi) yaşamağa məhkum edilmiş digər insanlarla çiyin-çiyinə gücüm və qabiliyyətim müqabilində öz aramızda bölüşdüyümüz hər şeyin simgəsi sayılan talesizliyin əzabını və ümidin məşəlini daşımağa təhrik etdi. Birinci Dünya müharibəsinin sonunda dünyaya gəlmiş, iyirmi yaşlarını məhz Hitlerin hakimiyyətə gəldiyi dönəmdə və eyni zamanda ilk inqilabi proseslər dövründə qeyd edən, İspaniya və İkinci

"Dünya müharibəsinin dəhşətləri içində, adına "Konsentrasiya düşərgələri" deyilən cəhənnəmdə bərkiyən, Avropa məhbəslərində işgəncələrə sinə gərən insanlar bu gün başının üstünü nüvə fəlakəti kəsdirmiş bir dünyada övladlarını tərbiyə etməli və yeni, daha fərqli dəyər yaratmalıdırlar. Buna görə də, fikrimcə, heç kəs onlardan optimist olmağı tələb edə bilməz. Belə bir fikri mən də dəstəkləyirəm ki, ümidsizliyin ağrısına davam gətirməyib şərəfsizliyin əlinə su tökən, "bir ömürdə şərəfsizlik də etmək olar" kimi düşünənlər, bununla da müasir nihilizmin künc-bucağında əriyib yox olan insanlar səhvə yol verdilər, nəhayət, bunu anlamalı və onunla mübarizədən əl çəkməməliyik. Ancaq fakt faktlığında qalır: bizim çoxumuz, mənim vətənimdə olduğu kimi Avropada da bu nihilizmi rədd etdik və həyatın yeni mənalarının axtarışına qoşulduq. Onlar ümumdünya fəlakətinin nəticəsi kimi zamanda mövcudluq sənətini mənimsəməli idilər ki, yenidən canlanmaqla bizim zəmanənin başının üstünü kəsdirmiş ölüm instinktinə[1] qarşı güzəştsiz mübarizəyə başlaya bilsinlər. Hər bir nəsil əmindir ki, dünyanı məhz o düzəldəcəkdir. Mənim nəslimsə bunu dəqiq bilir: onun çiyinlərində belə bir yük yoxdur! Ancaq olsun ki, onun vəzifəsi bundan daha böyükdür. Biz qollarımız üstündə can verən dünyanı ölməkdən xilas etməliyik. Başgicəlləndirici inqilabların, ən müasir texnika, ölmüş allahların və can verən ideologiyaların qatışığından ibarət eybəcər hala salınmış tarixə sahib çıxmış, ağlın zülmə, istibdada xidmət etdiyi bir ortamda heç bir inandırma gücü olmayan hökmdarların zəmanəsində hər şeyin bir anda

---

[1] *Ölüm instinkti* – Z.Freydin anlayışıdır, insanların bütün aqressiv və dağıdıcı əməlləri ilə şərtlənən destruktivliyə meyli ifadə edir. 50-ci illərin sonunda Kamünün yaradıcılığında "Ölüm instinkti" anlayışına cinayətlərin, motivsiz qətllərin səbəbi kimi istinad edilirdi (məsələn, onun "Gilyotin haqqında düşüncələr" əsərində).

dağıla biləcəyini gözləri ilə görən bu nəsil, yalnız özünə güvənərək özündə və ətrafındakı insanların qəlbində cüzi də olsa elə bir ümid işığı yandırmalıdır ki, insanlar yaşamaq və ölmək ləyaqətini anlaya bilsinlər. Dağılıb yox olmaq təhlükəsi üzünə vuran, bizim böyük inkvizitorların əbədi ölüm səltənətinə çevirə biləcəkləri bu dünya ilə üz-üzə dayanan bu nəsil saat əqrəblərinin əksinə dəli kimi yürüyərək millətlər arasında sülhü bərqərar etmək vəzifəsini öhdələrinə götürür. Onlar bu işi kölə asılılığı əsasında deyil, əməklə mədəniyyəti qovuşdurub bütün bəşər əhlinin həmrəylik içində yaşamasına inanaraq həyata keçirirlər. Onun bu nəhəng vəzifəni sona qədər həll edəcəyinə inanmasam da, ümidvaram ki, artıq bütün dünyada iki şeyə – həqiqət və azadlığa önəm verir və günlərin bir günü, ağlına heç nə gətirmədən bütün həyatını bunların yolunda fəda edə bilər. Bu nəsil istənilən yerdə, xüsusən həyatını qurban verdiyi yerlərdə hər cür tərifə və mükafata layiqdir. Və istənilən halda bu nəsil bu gün sizin hüzurunuzda məhz mənim bu sözləri deməyimi istədi. Yazıçı sənətini layiq olduğu dərəcədə səciyyələndirdikdən sonra bir neçə kəlmə də onun müasir cəmiyyətdəki yeri haqda demək istərdim, çünki onun mübarizə yoldaşları ilə bölüşdürdüklərindən başqa heç bir dəyəri yoxdur: bu insanlar köməksiz olsalar da, möhkəmdirlər, ədalətsiz olsalar da, ədalətə sevgi ilə yanaşırlar, yazdıqlarını ortaya utanmadan, həm də lovğalanmadan qoyurlar, bütün insanların gözü qarşısında əzabla gözəlliyin yolayrıcında dolaşır, sanki, iki yerə ayrılmış qəlbin dərinliklərindən çıxardıqları bu obrazlar tarixin qasırğası önündə yarpaq kimi əsir...

Bundan sonra kim ondan hazır qərarlar və ideal əxlaq tələb edə bilər? Həqiqət sirlidir, o, həmişə tutulan anda əldən sürüşüb çıxır, hər dəfə ona yiyələnmək lazım gəlir. Azadlıq təhlükəlidir, ona sahiblənmək çətin

olduğu qədər də şirnikləndiricidir. Biz, çətin olsa da, qətiyyətlə irəli cumaraq və bu dolanbac yollarda bizi hansı əzabların gözlədiyini qabaqcadan bilərək bu iki məqsədə doğru getməliyik. Bütün bunları soyuq ağılla dərk edən hansı yazıçı ətraf insanların önünə alicənablıq təbliğçisi kimi çıxmağa cürət edər? Mənə gəldikdə, bir daha təkrar etməliyəm ki, mən heç də belə deyiləm. Ömrümdə bircə dəfə doğulduğum dünyanın işığından, yaşayışın sevincindən imtina etməmişəm. Ancaq bu nostalgiya mənim bir çox səhvlərimi izah eləsə də, o, mənə, şübhəsiz ki, peşəmin mahiyyətini düzgün anlamaqda kömək edib. O, mənə hələ də yalnız qısa və epizodik xoşbəxt günlərini xatırlatmaqla bu dünyada onlar üçün hazırlanan həyata dözən bütün  lal insanları dəstəkləməkdə yardım edib.

Beləliklə, əslində kim olduğumu, haradan başlayıb harada qurtardığımı, borcumu, etiqadımı müəyyənləşdirməklə indi, nəticə hissəsində  sizin mənə verdiyiniz mükafatın, fərqli nişanın mənim üçün nə qədər qiymət kəsb etdiyini ifadə etmək istərdim; indi mənim üçün demək asandır ki, bu mükafatı ümumi mübarizənin ağırlığını mənimlə bölüşən, nəinki hər hansı üstünlüyə layiq görülməyən, əksinə, zülm çəkən, təqib edilən bütün insanların araya-ərsəyə gətirdikləri dəyər kimi qəbul etmək istərdim. Mənə təkcə bu qalır ki, sizə bütün qəlbimlə təşəkkür edim və sizin qarşınızda and içim... necə ki hər bir vicdanlı sənətkar gündəlik işə başlamazdan qabaq ürəyində sözbəsöz təkrarlayır.

# MÜNDƏRİCAT

*Alber Kamü – atılmış insanın pənahı* . . . . . . 5

## ROMANLAR

Taun . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 22
Çöküş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 268
Yabançı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 376

## HEKAYƏ VƏ ESSE

Qonaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 469
Sizif haqqında mif . . . . . . . . . . . . . . . . . . . 484

*A.Kamünün Nobel nitqi* . . . . . . . . . . . . . . .489

# ALBER KAMÜ

SEÇİLMİŞ ƏSƏRLƏRİ

Şərq Qərb 1986-cı ildən East West since 1986 BAKI 2013

"Şərq-Qərb" Nəşriyyat Evinin məhsuludur.

**www.eastwest.az**
**www.fb.com/eastwest.az**

| | |
|---|---|
| Buraxılışa məsul | Sevil İsmayılova |
| Dizaynerlər | Nərgiz Əliyeva |
| | Elşən Qurbanov |
| Texniki redaktor | Gültəkin Cəfərova |
| Texniki direktor | Allahverdi Kərimov |
| Nəşriyyat direktoru | Rasim Müzəffərli |

Çapa imzalanmışdır: __.11.2013. Format 54x84 1/16. Ofset çapı.
Fiziki çap vərəqi 31. Sifariş 13337. Tiraj 7000

"**Şərq-Qərb**" Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49

Nəşriyyat Evinin bütün kitablarının toplusu:
**http://www.eastwest.az/az/books/** ünvanda